

# HEYDƏR ƏLİYEV KURSU YENİ KEYFİYYƏT HALINDA: "İQTİSADİYYAT, SİYASƏT, DİNAMİZM, PROBLEMLƏR, PERSPEKTİVLƏR"

Ф3(2А)
S 42

SƏTTAR SƏFƏROV

2374486

# HEYDƏR ƏLİYEV KURSU YENİ KEYFİYYƏT HALINDA:

# «İQTİSADİYYAT, SİYASƏT, DİNAMİZM, PROBLEMLƏR, PERSPEKTİVLƏR»

Bakı 2005

BBK 6.1
S-35

S-35 S. Səfərov. **Heydər Əliyev kursu yeni keyfiyyət halında: «İqtisadiyyat, siyasət, dinamizm, problemlər, perspektivlər»,** Bakı, Azərnəşr. 2005. 504 səh.

Kitab ümummilli liderimiz Heydər Əliyevin elmi-nəzəri və təcrübi irsinin öyrənilməsinə həsr edilir. Yeni iqtisadi düşüncəyə, müasir iqtisadi təfəkkürə malik İlham Əliyevin ümummilli liderimizin strateji kursuna yiyələnərək onu yeni keyfiyyət halına yüksəltməsi, sosial-iqtisadi inkişafa dinamizm gətirən, xalqın rifahının yüksəlməsinə təsir edən praktiki fəaliyyəti konkret faktiki materiallar əsasında tədqiq edilir.

Kitab maliyyə sisteminin, dövlət büdcəsi, vergi, qiymət, tarif, pul-kredit, faiz siyasətinin, bank sektorunun real iqtisadiyyat komponentlərinə sistemli və koordinasiya olunmuş təsirini təmin etməyin iqtisadi inkişafa dinamizm gətirməsi yolları və üsullarının tədqiqinə həsr olunur. Kitabda istifadə olunan materialların əksəriyyəti ilk mənbələrə, ən əvvəl mərkəzi icra hakimiyyəti orqanlarının faktiki materiallarına, qanunvericilik sənədlərinə əsaslanır və elmi dövriyyəyə daxil edilir.

Kitab iqtisadçı alimlər, ali və orta ixtisas məktəblərinin müəllimləri, aspirantlar, magistrlər, tələbələr, iqtisad elmi ilə maraqlananlar üçündür.

Kitabda irəli sürülmüş diskussiyalı məsələlərə dair konstruktiv qeydləri və təklifləri olan hörmətli həmkarlarıma onu diqqətlə oxuduqlarına, vaxt və əmək sərf etdiklərinə görə dərin ehtiramımı və təşəkkürümü bildirir, sonrakı fəaliyyətimdə onları nəzərə alacağıma söz verirəm.

$\frac{0601000000}{M\text{-}651(07)\ 2005}$ qrifli nəşr

© S. Səfərov 2005

# ÖN SÖZ

**İqtisadi sistemin transformasiyası çoxşaxəli, rəngarəng və ziddiyətli məqamlarla doludur. Bu keçmişin inkarına əsaslandıqda daha çox dağıdıcı xarakter daşıya, sosial-iqtisadi inkişafı on illərlə geri salan daha ağır nəticələr verir.**

**Yenidənqurma adı altında illərlə fəaliyyət göstərmiş təsərrüfatçılıq sistemi dağıdılır. Adət edilmiş stereotiplər, təsərrüfatçılıq mexanizmləri sıradan çıxarılır. İqtisadi idarəetmənin üsulları, metodları, prinsipləri və qaydaları dəyişdirilir.**

**İnqilabçılıq əhval-ruhiyyəsinin, əgər belə demək mümkünsə, cuşa gəldiyi, əlinə erkən fürsət düşən başqanların qızğınlığı o həddə çatır ki, yeni təsərrüfatçılıq alətlərini yaratmadan, köhnə, adət edilmiş təsərrüfatçılıq mexanizmlərini söküb dağıdırlar. Bu inqilabçı başqanların qızışdıqları dövrdə sistemə çevrilir. Əlbəttə, köhnəlmiş «ömrünü» başa vurmuş iqtisadi sistem və onun komponentlərinin dəyişilməsi labüddür. Lakin necə deyərlər, hər şeyin öz vaxtı vardır. Bu tələsgənlik yeni ayaqqabı almadan ayağındakıları çıxarıb tullamağa bənzəyir.**

**Boğazdan yuxarı inqilabçıların belə çılğınlıqları ölkənin sosial-iqtisadi inkişafını fəlakətə sürükləyir, sosial-iqtisadi vəziyyəti on illərlə geri salırdı.**

**Biz bu eksperimentləri də, onları xalqın başına gətirdikləri müsibətləri də öz təcrübəmizdə görmüşük. İqtisadiyyatdan, idarəetmədən bixəbər, zatıpələnglərin naşılığı ucbatından 1992-ci ildə və 1993-cü ilin əvvəllərində Azərbaycan yaxınlaşan fəlakət astanasında idi. Azərbaycanın varlığı təhlükə altına düşmüşdü.**

**AXC-Müsavat cütlüyünün məşhuricahan strateqləri öz əməlləri ilə Azərbaycanı da, özlərini də çıxışı görünməyən tunelə salmışdılar. Ümummilli böhran içərisində olan Azərbaycan uçuruma yuvarlanır, daxili və xarici qüvvələrin təsiri**

altında parçalanmaq, məhv olmaq həddinə çatmışdı. Bir suveren dövlət kimi Azərbaycanın varlığı təhlükə altına düşmüşdü.

**Olduqca ziddiyyətli, sabahı görünməyən qeyri-müəyyən dövr idi. Dövlət idarəçiliyində lider yox idi. «Liderciklər»sə çox idi. Yuxudan hamıdan qabaq duran, özünü lider hesab edirdi.**

**Çoxhakimiyyətlilik «demokratiyası» idi. Əslində isə 6-7 «liderin» prezidentlik dövrü idi. İsa Qəmbər, Əli Kərimov, Rəhim Qazıyev, Pənah Hüseynov, Əbülfəz Elçibəy və s. prezidentlər idilər, hər birinin öz şəxsi ambisiyaları var idi. Elçibəy (idarəçilik təcrübəsi olmasa da onların içərisində bir sıra mütərəqqi görüşləri olan yeganə adam o idi) nominal prezident idi. Prezident səlahiyyətlərini icra edənlərsə başqaları idi.**

**AXC-Müsavat cütlüyünün başqanlarını Gəncədən Bakıya yürüş edən polkovnik bərk axtarırdı. Onların boğazını kəndirə keçirib, dar ağacından asmaq üçün.**

**Vəziyyət o yerə çatmışdı ki, AXC-Müsavat «liderləri» də öz ümidini Heydər Əliyevə bağlamışdılar. Onlar Heydər Əliyevi xilaskar hesab edirdilər.**

**AXC-Müsavat cütlüyü ikili təbiətə malik idi. Vəzifəyə hərisliyi qorxunu üstələdikdə onlar Heydər Əliyevin hakimiyyətə gəlməsinə badalaq qurur, qorxu vəzifə eşqinə üstün gəldikdə isə onlar Heydər Əliyevi Bakıya dəvət edirdilər.**

**Nə yaxınlaşan fəlakət qarşısında duruş gətirə bilməyən nə də vəzifədən doymayan AXC-Müsavat «liderləri» xalq kütləsinin təzyiqi altında nəhayət ki, Heydər Əliyevə yalvarmağa başladılar. Heydər Əliyevi Bakıya gətirmək üçün onlar Naxçıvana iki dəfə təyyarə göndərdilər. Sonra hamıya məlum olan hadisələr baş verdi.**

Hər bir qaranlıq gecənin işıqlı sabahı da olur. Respublikamızda da belə oldu. **Ulu öndərimiz Heydər Əliyev Azərbaycanın siyasi və iqtisadi xilaskarı oldu. O, müstəqil Azərbaycan dövlətçiliyinin əsaslarını, onun qorunması üçün ayrı-ayrı imkanlı adamların mühafizə dəstəsinə bənzər, vahid komandanlığa tabe olmayan, pərakəndə halda, sistemsiz fəaliyyət göstərən silahlı dəstələr əvəzinə nizami ordu yaratdı.**

**Qanuna əsaslanan, qanunla işləyən dövlətçiliyin formalaşması və möhkəmlənməsi üçün sistemli transformasiyanı təmin edən islahatların aparılması, ona hüquqi bazanın yaradılması üçün gərgin iş aparıldı.**

**Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikasının Konstitusiyası hazırlandı və qəbul olundu. Ölkə ümummilli və iqtisadi böhrandan çıxa bildi. Azərbaycan siyasi-mənəvi və iqtisadi izolə vəziyyətindən çıxdı, dünya birliyinə doğru inamlı addımlar atdı.**

Dünya prezidentlərinin patriarxı Heydər Əliyev, onun iradəsi və siyasi gedişləri Azərbaycanda siyasi, makromaliyyə və makroiqtisadi stabilliyi təmin etdi. Azərbaycanın imicinin yüksəlməsi beynəlxalq təşkilatların, dünyanın məşhur konsorsiumlarının respublikamızla əməkdaşlığına, iri müstəqil investisiya qoyuluşlarına şərait yarandı. Bütün bunlar iqtisadi inkişafa və xalqın rifahının yüksəlməsinə xidmət etdi.

**Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanı məhv olmaqdan xilas etdi. O, Azərbaycanın inkişaf konturlarını, onu zəngin və qüdrətli dövlətə çevirməyin strateji xəttini müəyyən etdi.**

**Heydər Əliyev bu strateji xətti özünün çoxillik siyasi təcrübəsinə, dünya ölkələrinin qabaqcıl təcrübəsinə əsaslanaraq müəyyənləşdirmişdi. Bu, dünya sivil dövlətlərinin çoxillik təcrübəsində sınaqdan çıxmış, müsbət nəticələri sübut olunmuş iqtisadi inkişaf yoludur.**

**Heydər Əliyevin müdrikliyi həm də onda oldu ki, o, dünya ölkələrinin təcrübəsini Azərbaycanda sadəcə olaraq təkrarlamadı, köçürmədi. O, respublikamızın təsərrüfatçılıq ənənələrini, milli xüsusiyyətlərini, sosial-iqtisadi gerçəkliyini ehtiva edən iqtisadi inkişafın Azərbaycan modelini yaratdı. Bu model**

dünya ölkələrinin əksəriyyətinin keçdiyi bazar iqtisadiyyatı yoludur, çoxformalı (plüralist) mülkiyyətçilik və təsərrüfatçılıq, azad sahibkarlıq, sərbəst rəqabətə meydan açan, liberal inkişaf modelidir. Fikrimizcə, Heydər Əliyevin formalaşdırdığı bu strateji xətt kifayət qədər əsaslandırıcı arqumentlərə malikdir.

Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi siyasətin başlıca konturları İlham Əliyev cənablarına gərək oldu. İlham Əliyev ümummilli liderimizin formalaşdırdığı strateji xəttə əsaslandı.

Həyat yerində qalmır, daim təkmilləşir, yeniləşmə prosesi keçirir. Ona görə də İlham Əliyev bu strateji xətti zamanın tələblərinə uyğun olaraq yeni keyfiyyət halına yüksəltməli, onun reallaşmasını sürətləndirən, sosial-iqtisadi inkişafa dinamizm gətirən yolları, üsulları və mexanizmləri müəyyən etməli oldu.

Ölkə Prezidenti regionların sosial-iqtisadi inkişafını sürətləndirməyi, Bakı zonası ilə respublikanın digər regionlarının inkişafındakı fərqləri aradan qaldırmağı dövlətin prioritet vəzifələrindən biri hesab etdi.

Məlum olduğu kimi, istehsal ilkin, büdcə isə törəmədir. Dövlət büdcəsi gəlirlərinin hansı regionlardan formalaşması həmin regionun sosial-iqtisadi inkişaf səviyyəsindən asılıdır. Dövlət ölkənin bütün regionlarının tarazlı və sürətli inkişafını təmin etməklə digər problemlərin həllinə nail ola bilər. Ona görə də regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi dövlətin prioritet xarakterli vəzifəsinə çevrildi.

Bu vəzifə sistemli şəkildə yerinə yetirilir. Xüsusilə yeni sosial və istehsal infrastruktur sahələrinin yaradılması istiqamətində fəal iş görülür. İqtisadiyyatın ən ümumiləşmiş göstəricisi ÜDM istehsalının orta illik artım tempi son on ildə 9-11 faiz olmuşdur. Kənd təsərrüfatı və sənaye məhsulları istehsalı sürətlə artmış, ölkənin idxal-ixrac balansında əhəmiyyətli dəyişikliklər baş vermişdir.



Ölkənin qazandığı uğurların əsasında 1995-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən başlanmış iqtisadi islahatlar siyasəti durmuşdur. Bu islahatlar sənaye, kənd təsərrüfatı, maliyyə, bank sistemini, iqtisadiyyatın bütün sahələrini əhatə etmiş, onlarda əsaslı dəyişikliklər yaratmışdır. Lakin görüləsi işlərin hamısını yerinə yetirmək mümkün olmamışdır.

Məlum olduğu kimi həyat yerində durmur, daim yeniləşmə prosesi keçirir. Yeni vəzifələr meydana çıxır, onları həll etmək zərurəti meydana gəlir. Beləliklə cəmiyyətin sadədən mürəkkəbə doğru inkişafı baş verir.

Qeyd etməliyik ki, bir çox regionlarda yaradılması nəzərdə tutulmuş kiçik və orta müəssisələrin bəzisinin layihə-smeta sənədləri hələ tam hazırlanmamış, onların maliyyələşmə mənbələri hələ dəqiqləşdirilməmişdir. Vaxt isə gözləmir.

Regionlara xarici investorlar cəlb etmək üçün görülən işləri qənaətbəxş hesab etmək olmaz. Xüsusilə qış aylarında qaranlığa qərq olmuş evlər, küçələr, yolların, xüsusilə rayondaxili yolların bərbad vəziyyəti xarici investorları cəlb etməyə şərait yaratmır. Bütün bunlar iqtisadi fəallığın artmasına, regionların dinamik inkişafına maneələr yaradır.

Regionların inkişafına aid vəzifələrin tələb olunan səviyyədə və müəyyən edilmiş müddətdə yerinə yetirilməsi müvafiq icra hakimiyyəti orqanlarının gərgin işləməsini tələb edir. Yolların abadlaşdırılması, alternativ enerji mənbələrinin (günəş, külək enerjisindən istifadə olunması) iqtisadi dövriyyəyə cəlb olunması vacib vəzifə kimi irəli sürülmüşdür.

Maliyyə problemlərini həll etmədən regionların sosial-iqtisadi inkişafını sürətləndirmək mümkün deyil. Bu problem dövlət büdcəsi, xarici investisiya qoyuluşları, xaricilərlə birgə müəssisələr yaradılması, yerli iş adamlarının vəsaitləri və bank kreditləri hesabına həll edilə bilər.

Maliyyə resurslarının regionlar arasında səpələnməsinə yol verməmək üçün həm də hər bir regionun sosial-iqtisadi

**inkişafının məqsədli proqramları hazırlanmalı və bütün maliyyə vəsaitləri onların ardıcıllıqla reallaşdırılmasına yönəldilməlidir.**

**Regionlarda biznes layihələrinin kreditləşdirilməsi sahəsində mövcud problemlər aradan qaldırılmalıdır. Girov problemi həll olunmalı, kreditlər üçün faizin optimal səviyyəsi təmin edilməlidir.**

Kiçik və orta sahibkarlığın inkişafı üzrə dövlət proqramlarının həyata keçirilməsi istiqamətində banklar öz fəaliyyətləri çərçivəsində göstərilən xidmətlərin əhatəsini genişləndirmişlər. Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərini sahibkarlara vermək məqsədilə 19 bank və 5 qeyri-bank kredit təşkilatı fəaliyyət göstərməkdədir. Bu banklar və kredit təşkilatları tərəfindən Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 2004-cü ildə 1338 layihəyə 92,5 milyard manat kredit verilmişdir. Banklar tərəfindən verilən kreditin 47,5 faizi, yəni 44 milyard manatı sənaye məhsulları və kənd təsərrüfatı məhsullarının emalına, 41,1 faizi isə, yəni 37,9 milyard manatı kənd təsərrüfatında istehsal sahələrinə verilmişdir. Qalan 11,4 faizi turizmə, xidmət sahələrinə və kütləvi informasiya vasitələrinin inkişafına yönəldilmişdir. Göründüyü kimi, banklar təqdim olunan layihələrin baxılmasında əsas yeri kənd təsərrüfatı məhsulları istehsalına, yerli xammal əsasında işləyən emal müəssisələri yaradılmasına vermişlər. Banklar və kredit təşkilatlarının verdikləri kreditlərdən 1,3 milyard manatı 279 layihəyə mikrokredit, 16,4 milyard manatı 769 layihəyə kiçik, 5,8 milyard manatı 81 layihəyə orta, 69 milyard manatı 209 layihəyə böyük kreditlərin verilməsinə yönəldilmişdir.

Eyni zamanda, Azərbaycan bankları tərəfindən Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Almaniya-Azərbaycan Fondu, Qara Dəniz Ticarət İnkişaf Bankı, İslam İnkişaf Bankı kimi nüfuzlu beynəlxalq maliyyə təsisatlarından bütövlükdə 28 milyon 700 min ABŞ dolları və 18 milyon 300 min avro kredit vasitələri müstəqil surətdə, yəni dövlət təminatı olmadan cəlb edilmiş və imzalanmış müqavilələr üzrə iqtisadiyyatın maliyyələşdirilməsinə yönəldilmişdir.



Azərbaycanın bank sisteminin inkişafı, onların sosial-iqtisadi inkişafda rolunun artırılması istiqamətində qarşıda duran işlər çoxdur. Makroiqtisadi sabitliyin qorunması, milli valyutanın möhkəmliyinin təmin olunması, bank xidmətlərinin kəmiyyət və keyfiyyət parametrlərinin daha da yüksəldilməsi, milli bank sisteminin əhəmiyyətinin artırılması, bank islahatlarının dərinləşdirilməsi və ümumilikdə, bank xidmətlərinin təkmilləşdirilməsi qarşıda duran vacib vəzifələrdəndir. Fikrimizcə, bu məqsədlərə nail olmaq, maliyyə-bank sisteminin 2004-cü ildə olduğu kimi, 2005-ci ildə də dinamik inkişafını təmin etmək üçün bir sıra tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı.

İlk növbədə, qanunverici bazanın təkmilləşdirilməsi istiqamətində işlər davam etməlidir. «Banklar haqqında», «Milli Bank haqqında» qanunlar 2004-cü ildə, «İpoteka haqqında» Azərbaycan Respublikasının Qanunu 2005-ci ilin aprelində qəbul olunmuşdur. Lakin ipoteka bankları yaradılmamış, ipoteka kreditlərinin verilməsi üçün zəruri olan 10-16 normativ-hüquqi aktın qəbul olunması başa çatdırılmamış, «Bank əmanətləri və depozitlərinin sığortalanması haqqında» Azərbaycan Respublikasının Qanunu hələ qəbul olunmamışdır.

Maliyyə-bank sisteminin inkişafını təmin etmək, ölkədə iqtisadi fəallığın yüksəldilməsində onların təsirini artırmaq üçün «Lizinq haqqında» Azərbaycan Respublikasının Qanununun qəbul olunması, «Girov haqqında» və «Məhkəmə qərarlarının icrası haqqında» qanunlarının təkmilləşdirilməsi sürətləndirilməlidir.

Görülən işləri daha da sürətləndirmək, onun sistemliliyini təmin etmək üçün ölkə Prezidentinin sərəncamı ilə 2005-2007-ci illər ərzində milli ödəniş sisteminin inkişafına dair proqram xarakterli sənəd qəbul olunmuşdur.

Qeyd etdiyimiz kimi, banklarda cəmlənmiş depozitlərin və əmanətlərin həcmi artdıqca onların əlavə təminat sisteminin yaradılmasına zərurət də artır. Belə bir təminat kimi «Əhalinin əmanətlərinin sığorta sistemi»nin yaradılmasına çox ciddi hazırlıq

işləri davam edir. Banklar tərəfindən iqtisadiyyata kredit qoyuluşları artır. İqtisadiyyata kredit qoyuluşu məbləğinin mütləq ifadədə ölkə büdcəsinin həcminə yaxınlaşması, verilmiş kreditlər üzrə müqavilə öhdəliklərinin vaxtında və tam həcmdə yerinə yetirilməsini zəruri edir. Lakin təəssüflə qeyd etmək lazımdır ki, bu öhdəliklər vaxtında yerinə yetirilmədikdə bankların iqtisadiyyata əlavə vəsait yönəltmək imkanları məhdudlaşır, onların iqtisadi göstəriciləri pisləşir, kreditlərin faiz dərəcələri mənfəət normasını üstələyir.

Mübahisəli məsələlərin həllində banklar məhkəmə orqanlarına müraciət edir və bir çox hallarda problemlərlə üzləşirlər. Belə ki, müqavilə öhdəliklərini yerinə yetirməyən müştərilərə qarşı bankların iddiaları çox vaxt əsassız olaraq təmin edilmir, çoxpilləli məhkəmə sistemində bu iddialara illərlə baxılır və heç bir nəticə hasil olunmur.

Fikrimizcə, aparılan islahatlar çərçivəsində verilmiş kreditlər üzrə müqavilə öhdəliklərinin yerinə yetirilmədiyi təqdirdə, məhkəmələrdə işlərə baxılmanın yeni mexanizmləri müəyyənləşdirilməlidir.

Azərbaycanın bank sisteminin dünya bank sisteminə inteqrasiya etdiyi hazırkı mərhələdə bizim üçün ən aktual məsələlərdən biri yeni kadrların hazırlanması, bank menecerlərinin ixtisas səviyyəsinin artırılmasıdır. Azərbaycan Banklar Assosiasiyası bu vəzifənin həyata keçirilməsi üçün beynəlxalq maliyyə təsisatlarının dəstəyi ilə 1999-cu ildə Bank Tədris Mərkəzi yaratmışdır. Bu tədris mərkəzinin fəaliyyəti hazırda əhəmiyyətli dərəcədə güclənmişdir.

Bank sistemində Dövlət Proqramının reallaşmasında, nəğdsiz hesablamaların aparılmasında, bütövlükdə pul dövriyyəsinin genişlənməsində faydalı işlər görülmüş və yüksək nəticələr əldə edilmişdir. Bununla yanaşı, bank sisteminin təkmilləşməsi, kredit qoyuluşlarının artması və onlardan istifadəninin səmərəliliyinin yüksəldilməsi üçün gərgin fəaliyyət göstərilməlidir.

**Bankların iqtisadiyyata kredit qoyuluşunun ÜDM-ə nisbəti**



**onların iqtisadi inkişafda roluna meyar hesab oluna bilər. Dünya ölkələrində iqtisadiyyata qoyulmuş kredit məbləğinin ÜDM-ə nisbəti 80-100 faiz və daha yüksək olduğu halda, respublikamızda o 10-13 faiz təşkil edir.**

**Regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün, fikrimizcə, ən başlıcası hakimiyyətin müxtəlif qollarının, icra strukturlarının, habelə iqtisadi alətlər və mexanizmlər sisteminin koordinasiya olunmuş təsiri təmin olunmalıdır. Təəssüflər olsun ki, bu gün ən çox çatışmayan icra strukturlarında təkmil sistemli fəaliyyətin təmin olunmaması, pərakəndəlik, sahə maraqları orbitindən kənara çıxa bilməməkdir.**

**İcrasını təmin edə bilmədikləri dərəcədə özlərinə çoxlu səlahiyyət toplamaq, lakin işin nəticəsi barədə hesabat verməkdən yaxasını kənara çəkmək bir sıra icra hakimiyyəti orqanlarında sistemə çevrilmişdir. Onların bəzisinin ümumdövlət maraqları ilə uzlaşmayan öz orbitində sahə maraqları prinsipləri ilə fəaliyyət göstərmələri regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə maneələr yaradır. Unudulmamalıdır ki, koordinasiya olunmuş fəaliyyəti təmin etmədən iqtisadi fəaliyyətin səmərəlilik əmsalını yüksəltmək və dinamik inkişafa nail olmaq qeyri-mümkündür.**

**Acı həqiqət olsa da qeyd etməliyik ki, icra strukturlarında çalışanların bir qismi «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2004-2008)» irəli sürülmüş vəzifələrin nə ruhunu, nə də onun icrasında öz yerini görə və məsuliyyətini olduğu kimi dərk edə bilirlər.**

**Ölkə Prezidenti «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008)» yüksək sürətli inkişaf tempi nəzərdə tutur. İcra strukturlarına rəhbərlik edənlərin xeyli hissəsi ölkə Prezidentinin müəyyənləşdirdiyi regionların yüksək templi inkişafının nə məzmununu kifayət qədər anlayır, nə də bu templə ayaqlaşmağa qadir olduqlarını təsdiq edə bilirlər.**

**İcra strukturlarının ən yüksək mərtəbələrində iqtisadi düşüncə potensialı əvvəldən olmayan və 10 ildən çox rəhbərlik etdiyi sahənin inkişafına nail olmaq üçün potensialı çoxdan tükənənlər, oturduqları kreslolarda qocalanlar istənilən qədərdir. Beləleri Nazirlər Kabinetində və lap Prezident Aparatının özündə də az deyildir.**

**Kreslosunu qorumaq üçün yaltaqlıq rüşvətini sağa, sola səpələyənlərlə, hökumət telefonlarını, möhürünü, kabinetləri-ni, qərar, sərəncam vermək səlahiyyətlərini şəxsi biznesini qorumağa, öz inhisarçı mənfəətini artırmağa yönəldənlərlə belə gərgin proqramın vaxtında və tələb olunan səviyyədə icrasını təmin etmək çətinliklərlə qarşılaşa bilər.**

**Dövlət qulluqçusu, həqiqətən, dövlət qulluqçusu olmalı, bu qulluğun əhatə dairəsində xalqına, dövlətə xidmət etməlidir. Rəhbərlik etdiyi nazirliyin dövriyyəsindən çox inhisarçı kommersiya strukturları olanın eyni zamanda yüksək dövlət vəzifəsini (Nazir, Dövlət Komitəsinin sədri, Dövlət Konserninin, Şirkətin prezidenti) tələb olunan səviyyədə icra etməsi, fikrimizcə, mümkün deyildir. Fikrimizcə, bu dilemma birmənalı həll olunmalıdır - ya dövlət qulluğu, ya da şəxsi biznes fəaliyyəti, ikisindən biri qalmalıdır.**

**Dövlət Proqramının reallaşmasına şəxsi biznes maraqları prizmasından baxmaqla, şəxsi varidatını artırmaq vasitəsinə çevirməklə, dövləti və xalqı aldatmaqla xalqa və dövlətə xidmət etmək, büdcə vəsaitlərini artırmağa nail olmaq, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasını təmin etmək çətinliklərlə qarşılaşa bilər.**

Hər bir məmurun dövlət tapşırığının icrasına məsuliyyət hissi həvalə edilmiş işin icrasının lazımi keyfiyyətlə və müəyyən edilmiş vaxtda yerinə yetirməsi ilə müəyyən edilməlidir. Prezidentin tapşırıqlarının vaxtında və lazımi səviyyədə yerinə yetirilməsini təmin etməyən və ya edə bilməyən məmur öz xidməti yerini müəyyən etməlidir. Məsələ orasındadır ki, hər bir işçinin səlahiyyəti ilə məsuliyyəti arasında balans olmalıdır.



Hər bir icra strukturunun, işçinin dövlət idarəçiliyi ansamblında koordinasiya olunmuş fəaliyyəti təmin edilmədən müvəffəqiyyətə nail olmağın qeyri-mümkünlüyü nəzərə alınmalıdır. Ona görə də fərmanda göstərilən müddəaların vaxtında və müəyyən olunmuş səviyyədə yerinə yetirilməsini təmin etməyənlər haqqında adekvat tədbirlər görülməlidir. Onsuz Azərbaycanın son on ildə yaradılmış möhkəm təməl üzərində dinamik inkişafına, respublikamızı zəngin və qüdrətli dövlətə çevrilməsinə nail olmaq çətinliklərlə qarşılaşa bilər.

Dünya prezidentlərinin patriarxı Heydər Əliyev siyasətinə əsaslanan və onu yeni keyfiyyət halında yüksəldən İlham Əliyev cənabları Azərbaycanda siyasi, makromaliyyə və makroiqtisadi stabilliyin daha da möhkəmlənməsi, sosial-iqtisadi inkişafın daha da sürətlənməsini təmin edir. Bütün bunlar iqtisadi inkişafa və xalqın rifahının yüksəlməsinə xidmət edir. Elə oxucuların müzakirəsinə təqdim olunan kitabda da bütün bunlardan bəhs olunur.

Müəllif Azərbaycan Respublikasının müstəqilliyinin bərpa olunduğu son on ildə iqtisadi və sosial inkişafını faktiki materiallar əsasında ümumiləşdirməyə, qazandığımız uğurları və uğursuzluqları təhlil etməyə, elmi-praktiki nəticələr çıxarmağa, mövcud problemlərin həlli yollarını araşdırmağa cəhd göstərmişdir.

Müəllif kitabın hər bir oxucusunun konstruktiv təklifləri və iradlarına diqqətlə yanaşacağına, sonrakı elmi işlərində onları nəzərə alacağına zəmanət verir. Müəllif kitabın hər bir oxucusuna, onların hər bir tənqidi qeydinə, konstruktiv təklifinə görə əvvəlcədən ən səmimi minnətdarlığını və təşəkkürünü bildirir.

# I FƏSİL
# HEYDƏR ƏLİYEV, İQTİSADİ STRATEGİYANIN ƏSASLARI

## 1.1. Heydər Əliyev strategiyası, Azərbaycanın siyasi və iqtisadi xilası

Dəfələrlə sübut olunmuşdur ki, əvəzsiz, milli sərvət olan müstəqilliyi qorumaq onu əldə etməkdən qat-qat çətindir. Yeni tarixi inkişaf mərhələsində müstəqil Azərbaycan Respublikasının qarşısında olduqca vacib vəzifələr dururdu - **dövlət müstəqilliyini möhkəmlətmək, demokratik, hüquqi, dünyəvi dövlət qurmaq, ölkənin ərazi bütövlüyünü təmin etmək, Dağlıq Qarabağ probleminin beynəlxalq hüququn prinsipləri ilə həllinə nail olmaq, ölkənin və əhalinin təhlükəsizliyini təmin etmək, dünya iqtisadi inteqrasiyasına qoşulmaq, milli istehsalın inkişafı bazasında xalqın rifahını yüksəltmək və sair.** Yığcam desək, müstəqil dövlətin mövcudluğu, fəaliyyət göstərməsi və inkişafı üçün zəruri olan taleyüklü, mühüm tarixi vəzifələr yerinə yetirilməli idi. Bütün bunlar ardıcıl, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasət kursunun hazırlanıb həyata keçirilməsini, ölkənin təbii, maddi-texniki, iqtisadi və intellektual potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi.

Azərbaycanın müstəqilliyinin ilk illərində ölkənin iqtisadi, siyasi maraqları, təhlükəsizliyi, ərazi bütövlüyünün təmin olunması ilə bir araya sığmayan daxili və xarici siyasət yeridilmişdir. Bu müstəqil dövlətçiliyə, onun ərazi bütövlüyünə və sonrakı taleyinə ağır zərbələr vurmuşdur. Əslində bu proses 80-ci illərin axırlarında başlanmışdı. Lakin 90-cı illərin əvvəllərində o daha da sürətləndi. Moskvanın respublika rəhbərliyinə gətirdiyi Azərbaycan mentalitetinə və problemlərinə yad olan Vəzirovun hakimiyyəti dövründə dövlətçiliyin zəifləməsi prosesi daha da sürətləndi.



Azərbaycanla Ermənistan arasındakı münasibətlərin müxtəlif dövrlərinin müqayisəli təhlili göstərir ki, hər dəfə Azərbaycanda dövlətçiliyin zəiflədiyi məqamlarda Ermənistanın Azərbaycana ərazi iddiaları güclənmişdir. Uzunmüddətli inkişaf tariximiz buna sübutdur.

Moskvadan Vəzirovun Azərbaycan rəhbərliyinə gətirilməsi məqsədsiz olmamışdır. Respublikaya rəhbərlik etdiyi illərdə o, Azərbaycan xalqının taleyi ilə bağlı bir ciddi tədbir belə hazırlayıb həyata keçirməmişdir. SSRİ-nin dağılması prosesinin başlandığı dövrdə baş verən proseslər Vəzirovun Azərbaycan xalqının ümdə mənafeyinə zidd siyasəti və əməlləri ilə üst-üstə düşürdü.

Vəzirov yalnız bir işi mükəmməl bacarırdı - Moskvaya qul itaətkarlığı göstərmək və xalqımızın sevimlisi Heydər Əliyevə əsassız böhtanlar yağdırmaq. O, bu işi həqiqətən bacarır və öz əməlləri ilə erməni qardaşlarına xidmət edirdi. Azərbaycan vətəndaşlarının xeyli hissəsinin onu «Vəziryan» adlandırmaları əbəs deyildi.

Ermənistandan qovulmuşların Dağlıq Qarabağda yaşamaq cəhdlərini süngü ilə qarşılayan Vəzirov qarabağlılara, bütövlükdə Azərbaycan xalqına xəyanət etdi. O, Ermənistandan qovulmuş azərbaycanlı qaçqınların Dağlıq Qarabağın Xocalı, Malıbəyli, Şuşa və s. digər şəhər, qəsəbə və kənd sakinləri ilə bir yerdə yaşamalarına imkan vermədi. Onları əl-ələ verib özlərini, torpaqlarımızı birgə müdafiə etmək imkanından məhrum etdi. Xalq arasında heç bir nüfuzu olmayan Vəzirov respublikada vəziyyət kəskinləşən kimi özünü Moskvanın ağuşuna atdı.

Mütəllibov da öz «bacarığı» və dövlət idarəçiliyi «məharətində» Vəzirovdan geri qalan deyildi. Mütəllibov hakimiyyəti Vəzirov siyasətinin davamçısı oldu. Onun da hakimiyyətinin dayaq sütunları Moskvada idi. Ona görə də Azərbaycanda vəziyyət kəskinləşən kimi Mütəllibov da Moskvaya qaçdı. AXC-Müsavat cütlüyünün səriştəsizliyi ümummilli böhranın daha da dərinləşməsi, Azərbaycanın bu günə kimi həllinə nail ola bilmədiyi ən ağrılı problemlərinin meydana gəlməsi ilə nəticələndi. **«Bir dəli**

**quyuya daş atdı, on ağıllı yığışıb onu quyudan çıxara bilmədi»** misalında olduğu kimi.

AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu dövrdə 1970-80-ci illərdə xalqımızın gərgin əməyi ilə yaradılmış qüdrətli iqtisadi potensial amansızcasına dağıdılırdı, milli sərvətlər talan edilirdi. İctimai-siyasi həyatda, iqtisadiyyatda hərcmərclik, «dövlət reketçiliyi» hökm sürürdü. Belə düşünülməmiş və səriştəsiz siyasət milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə, hakimiyyətin beynəlxalq aləmdə və eləcə də ölkə daxilində öz nüfuzunu itirməsinə gətirib çıxarırdı.

Acı həqiqət olsa da qeyd etməliyik ki, müstəqilliyin ilk illərində iqtisadi inkişaf strategiyasını hazırlamaq istiqamətində bir əməli iş belə görülməmişdir. O heç görülə də bilməzdi. Ən azı ona görə ki, həmin vaxt iqtidarda olanlar arasında ölkənin iqtisadi siyasət strategiyasını hazırlamağa qadir adamlar yox idi.

Əsasını «meydan oratorları» təşkil edən, dövlət idarəçiliyi təcrübələrinin olmaması bir yana, heç bir idarə, müəssisə rəhbəri olmamış, səriştəsizlər toplusundan ibarət olanlardan mükəmməl iqtisadi siyasət strategiyası hazırlamağı gözləmək olmazdı.

Müstəqilliyimizin ilk illərində dövlət idarəçiliyinin vahid bir konsepsiyası olmamışdır desək, az olardı. Həmin vaxt dövlətin ümumiyyətlə heç bir planı, proqnozu, konsepsiyası olmamışdır. Dövlət idarəçiliyi üçün plansız, proqnozsuz, pərakəndə, qeyri-ardıcıl «fəaliyyət» səciyyəvi olmuşdur.

Həmin vaxt dövlətin iqtisadi siyasəti ayrı-ayrı strukturlara başçılıq edən məsul vəzifə sahiblərinin, dövlət məmurlarının korporativ maraqlarına tabe edilmişdi.

Dövlət siyasəti, yüksək hakimiyyət kreslolarında əyləşənlərin ekstremist və məsuliyyətsiz çağırışları, bir-birini təkzibləyən, sistemsiz, pərakəndə bəyanatları və qərarları üzərində qurulmuşdu.

Təəssüflə qeyd etməliyik ki, bu cür formalaşan «dövlət siyasəti», əgər onu siyasət hesab etmək olardısa, Azərbaycana nəinki heç nə vermədi, əksinə onun ölkə daxilində və beynəlxalq aləmdə nüfuzuna ağır zərbələr vurdu.



Hakimiyyətdə olan siyasi qüvvələr tərəfindən Rusiyaya, İrana və digər dövlətlərə qarşı tez-tez səsləndirilən ekstremist və məsuliyyətsiz bəyanatlar müstəqil Azərbaycan dövlətinin ali məqsədləri, vəzifələri, prinsipləri və onların reallaşma üsulları haqqında beynəlxalq aləmdə yanlış rəylər yaradır, onun sivil dünya dövlətlərindən təcrid olunmasına xidmət edirdi.

AXC-Müsavat cütlüyünün avanturaçı siyasəti ölkəmizin regionda və dünyada təklənməsi, antiazərbaycan koalisiyasının formalaşması ilə nəticələndi.

Sivil dövlətçilik prinsiplərinə daban-dabana zidd olan, ayrı-ayrı məsul vəzifəlilərə, imkanlı adamlara məxsus pərakəndə silahlı dəstələrdən ibarət «ordu» yaradılır və onlar Vətənimizin, torpaqlarımızın müdafiəsindən çox, ayrı-ayrı qrupların hakimiyyət uğrunda mübarizəsi alətinə çevrilirdi. İş o yerə çatmışdı ki, hakimiyyətdə olan qüvvələrin, yüksək dövlət vəzifəsində olanların da bəzisi özünə şəxsi «ordu» yaradır (biz qanunla müəyyən olunan mühafizə dəstəsini nəzərdə tutmuruq) və ondan özünün şəxsi intriqalarında, «razborkalarında», hakimiyyət kreslosunun möhkəmləndirilməsində, eləcə də hakimiyyət nərdivanında yüksəlişə nail olmaq, öz şərtlərini ali hakimiyyət orqanlarında, böyük kürsülərdə oturanlara diktə etmək üçün bir alət, vasitə kimi istifadə edirdilər.

237486

Ölkədə gedən siyasi, iqtisadi və sosial proseslər qanunlarla deyil, ayrı-ayrı adamların şəxsi iradəsi, şifahi tapşırıqları, göstərişləri ilə «idarə olunurdu». Onlara məxsus silahlı dəstələr isə bu tapşırıqları reallaşdırmaq vasitəsinə çevrilirdi. Bir sözlə, ölkənin idarə olunmasında qanunlar deyil, subyektiv göstərişlər həlledici rol oynayırdı.

Dövlət quruculuğunda baş alıb gedən korrupsiya, ayrı-ayrı dövlətlər tərəfindən maliyyələşdirilən və idarə olunan siyasi qüvvələrin hakimiyyət uğrunda silahlı mübarizəsi ictimai-siyasi hərcmərcliyin baş alıb getməsi, iqtisadiyyatın dağıdılması, milli sərvətlərimizin talan edilməsi ilə nəticələnirdi.

Həmin vaxt iqtidarda olan iqtisadçı ideoloqların səyi ilə dövləti iqtisadiyyatdan qovan, onu bazar kortəbiliyinin əsirinə çevirən



M.F. Axundov ...

islahatlar aparıldı. Bu «islahatlar» ləngimədən öz nəticələrini verdi. 1991-1993-cü illərdə orta illik geriləmə: sənayedə 20-24 faizə, kənd təsərrüfatında 15-20 faizə, kapital qoyuluşunda 40 faizə çatdı.

ÜDM istehsalında orta illik tənəzzül 22-24 faiz, büdcə kəsirinin ÜDM-ə nisbəti 12-13 faiz təşkil etdi. Ərzaq və sənaye malları qiymətlərinin orta illik artımı 1800 faizə çatdı.

Ölkədə yeridilən büdcə-vergi, pul-kredit, qiymət-tarif siyasəti sosial-iqtisadi destabilləşdirmənin güclü amilinə çevrilmişdi.

AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə ölkədə çoxhakimiyyətlik hökm sürürdü. Hakimiyyətdə olanlar bütün dünyada qəbul olunmuş hakimiyyət bölgüsü prinsiplərinə deyil, öz qabiliyyətlərindən qat-qat üstün olan şəxsi ambisiyalara əsaslanırdılar.

Azərbaycanda dövlət başçısı səlahiyyətlərini xalqın seçdiyi prezidentdən çox faktiki olaraq hakimiyyət nərdivanının yuxarı pillələrində oturanların ən azı 5 nəfəri - İsa Qəmbər, Pənah Hüseynov, Rəhim Qazıyev, Arif Hacıyev (indi Arif Hacılı olub) və başqaları icra edirdi. Onların da arasında açıq və gizli ziddiyyətlər, şəxsi maraq və ambisiyalardan irəli gələn, daha çox səlahiyyət və daha yüksək hakimiyyət kürsüsü uğrunda mübarizələr gedirdi.

Hakimiyyət uğrunda silahlı mübarizələr, hakimiyyətlərin birbirini əvəzləmələri müstəqil dövlətçiliyə və onun sonrakı taleyinə çox ağır zərbələr vururdu. Bütün bunlar Ermənistan silahlı qüvvələrinin ərazilərimizin 20 faizini işğal etməsi, bir milyondan çox qaçqın və köçkünlərin meydana gəlməsi ilə nəticələndi.

Respublikanın naşı və səriştəsiz başçılarının yaratdığı içtimaisiyasi xaos, anarxiya, «dövlət reketçiliyi», çılğın zorakılıqlar, bir sözlə o vaxtkı iqtidarın atdığı bütün addımlar Azərbaycanı sonu görünməyən uçuruma sürükləyirdi. Təbii ki, bu şəraitdə ölkənin sosial-iqtisadi inkişafının strateji xəttini hazırlamaq dövlətə başçılıq edənlərin heç yadına da düşmürdü.

Azərbaycana başçılıq edənlər özlərinin yaratdıqları ümummilli ictimai-siyasi böhrandan çıxış yolunu qaçmaqda görürdülər.



Əbdürrəhman Vəzirov və Ayaz Mütəllibov Moskvaya, Əbülfəz Əliyev isə Kələkiyə qaçdı. Nəticədə 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhvolma təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə çatdı.

Müstəqil dövlətimiz həmin vaxt iqtidarda olanların səriştəsizliyindən istifadə edən, Azərbaycanın müstəqilliyinə zidd xarici qüvvələrin və onların muzdlu nökəri olan daxildəki separatçıların, hakimiyyət hərislərinin pozuculuq, dağıdıcılıq fəaliyyətləri nəticəsində süquta uğramaq təhlükəsi ilə üz-üzə qaldı.

Bir sözlə, müstəqillik tariximizdə 1991-1993-cü illər nəinki itirilmiş illər, hətta müstəqilliymizin, xalqımızın varlığı üçün təhlükə yaranan bir dövr kimi səciyyələndirilə bilər.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ölkədə hakimiyyət dəyişikliyi baş verdi. Bu dəyişiklik hakimiyyətdə olmuş bir qrupun sadəcə olaraq başqası ilə əvəzlənməsi deyildi. Bu xalqın Heydər Əliyevi hakimiyyətə gətirməsi idi, uçuruma sürüklənən ölkəni məhv olmaqdan, onu siyasi və iqtisadi cəhətdən xilas etməkdən ibarət idi. Heydər Əliyev qısa müddət ərzində hakimiyyət vakuumunu aradan qaldırdı, baş qaldırmış separatçı qüvvələr, ölkəmizin ərazi bütövlüyünə qəsdlər törədən cinayətkar ünsürlər zərərsizləşdirildi, dövlətlə xalqın birliyi, yekdilliyi təmin edildi.

Hər bir müstəqil dövlətin taleyüklü vəzifəsi ölkənin milli maraqlarından irəli gələn daxili və xarici siyasətinin elmi əsaslara malik strateji xəttini hazırlamaq, iqtisadi inkişaf konsepsiyasını müəyyən etmək, ölkənin bütün qüvvə və bacarığını onların reallaşmasına yönəltməkdir.

Dövlət idarəçiliyində məqsəd aydınlığı başlıca şərtdir. Məqsəd aydınlığı olmadan məqsədə çatmağın yollarını, üsullarını, mexanizmlərini, alətlərini dürüst müəyyənləşdirmədən ona nail olmaq mümkün deyil. Başlıca vəzifələrdən biri iqtisadi siyasətin strateji xəttini, onu reallaşdırmağın başlıca istiqamətlərini müəyyənləşdirmək idi.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkənin iqtisadi inkişaf strategiyasını hazırlamaq həqiqətən taleyüklü

vəzifə idi. O ölkənin bir iqtisadi sistemdən digərinə ən az məsrəflə transformasiyasını təmin edən strategiya olmalı idi. Bu cür taleyüklü strateji xəttin hazırlanmasının məsuliyyət yükünü yalnız hərtərəfli elmi biliklərə, geniş dünyagörüşə, qətiyyət və cəsarətə malik müdrik şəxsiyyət öz üzərinə götürə bilərdi.

Heydər Əliyev bu tarixi missiyanı öz üzərinə götürdü. Onun 30 ildən çox Azərbaycan Respublikasına rəhbərlik təcrübəsi və eləcədə 80-ci illərdə dünyanın super dövlətlərindən biri olan SSRİ-nin rəhbərlərindən biri olduğu dövrdə topladığı zəngin dövlət idarəçiliyi təcrübəsi iqtisadi sistemin transformasiyasının mükəmməl strateji xəttini hazırlamağa şərait yaratdı.

Heydər Əliyevin şəxsi keyfiyyətləri, hərtərəfli biliklərə malik olması, siyasətdə müdrikliyi, həyatda praqmatikliyi, dövlət başçısına məxsus qətiyyətliliyi, uzaqgörənliyi, çoxsəpkili, mürəkkəb problemlər sistemində prioritetləri hamıdan qabaq görmə qabiliyyəti, müqəddaratını ona etibar etmiş xalqın taleyüklü problemlərinin həllində cəsarətli qərarlar qəbul etmək və onların reallaşmasını təmin etməyin məsuliyyət yükünü öz üzərinə götürmək bacarığı və s. bütün bunlar ölkə həyatının ən ağır və ziddiyyətli dövrünün iqtisadi inkişaf konsepsiyasını hazırlamağa təminat yaratdı.

**«Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması və bazar iqtisadiyyatı, sahibkarlıq yoludur»**, Heydər Əliyev qısa, lakin dərin mənalı, lakonik kəlamı ilə müstəqil Azərbaycan dövlətinin iqtisadi sahədə quruculuq, yaradıcılıq işlərinin strateji xəttinin başlıca istiqamətlərini müəyyən etmişdir.

**Stabilləşdirmə, islahatlaşdırma, dünya iqtisadi inteqrasiyasına qoşulma, sosial-iqtisadi inkişaf və xalqın rifahının yüksəldilməsi** - Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi siyasət strategiyasının başlıca konturlarını təşkil edir.

Heydər Əliyevin geniş xalq kütləsinin təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdışından sonra milli maraqlarımızdan irəli gələn fəal ictimai-siyasi, sosial-iqtisadi siyasət yeridilməyə başlandı.

Heydər Əliyev ölkənin iqtisadi siyasət strategiyasının başlıca



konturlarını müəyyənləşdirərkən dünya sivil dövlətlərinin tarixi inkişaf təcrübəsində sınaqdan çıxmış, müsbət nəticələri sübut olunmuş iqtisadi inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini müəyyən etdi.

Bu azad sahibkarlığa, müxtəlif mülkiyyət və təsərrüfatçılıq formalarının inkişafına bərabər şərait yaradan, iqtisadi inkişafın lokomotivi - rəqabət mübarizəsinə meydan açan sosial istiqamətli bazar iqtisadiyyatı modelidir.

**Heydər Əliyevin iqtisadi quruculuq, yaradıcılıq işlərinə ilk günlərdən başlaması mümkün olmadı. Başlıca səbəb dünyanın ən iri dövlətləri tərəfindən müdafiə və idarə olunan Ermənistanın Azərbaycan ərazilərini işğal etmək üçün müharibə aparması, habelə xaricdən idarə olunan daxildəki qüvvələrin sui-qəsdçilik və dövlət çevrilişləri cəhdləri, siyasi stabilliyin olmaması idi.**

**Dövlət başçısı birinci növbədə vətəndaş müharibəsi həddinə çatmış, insan tələfatı ilə nəticələnmiş tayfa, əyalət separatçılığı cəhdlərinin qarşısını alan, bütövlükdə ölkədə sosial-siyasi stabilliyi təmin edən tədbirlər görmək zərurəti qarşısında qaldı.**

**Heydər Əliyevin olduqca gərgin səyi nəticəsində 1994-1995-ci illərdə ölkədə ictimai-siyasi stabillik təmin edildi. Atəşkəs haqqında saziş imzalandı. Azərbaycanla Ermənistan arasında danışıqlar vasitəsilə Böyük Sülh Sazişi bağlamaq üçün şərait yarandı. Çox təəssüf ki, bu günə kimi davam edən müxtəlif səviyyəli danışıqlar, görüşlər, müzakirələr problemin həlli ilə nəticələnməmişdir.**

**Ölkədə vəziyyət normal məcraya salındıqdan, siyasi stabillik təmin edildikdən sonra çoxsaylı sosial-iqtisadi problemlərin həlli istiqamətində ardıcıl iş aparmaq mümkün oldu.**

Dövlət idarəçiliyi üçün səciyyəvi cəhət taleyüklü qərarların ayrı-ayrı siyasi partiya «liderləri» və qruplarının ambisiyalarına və ya super dövlətlərin qərəzli məqsədlərə yönəlmiş tələblərinə deyil, Azərbaycan xalqının hazırki və perspektiv maraqlarına əsaslanmaq

oldu. Ölkədə iqtisadi sistemin transformasiyasını təmin edən sistemli islahatlar aparılmağa başlandı. O, bu gün də davam edir. Əlbəttə, yeni keyfiyyət halında.

**Ümummilli liderimiz Heydər Əliyevin formalaşdırdığı dövlətçilik ənənələrinə əsaslanaraq, ölkə Prezidenti İlham Əliyev Azərbaycanı zəngin və qüdrətli dövlətə çevirməyi qarşıya məqsəd qoymuşdur. İndi bu istiqamətdə sistemli iş aparılır.**

Azərbaycan zəngin təbii sərvətləri, maddi-texniki və intellektual potensialı, əlverişli geosiyasi və strateji mövqeyi olan, beynəlxalq kommunikasiya xətləri, Qərb-Şərq, Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişdiyi, dünya dövlətlərinin marağının cəmləşdiyi ölkələrdən biridir.

Heydər Əliyev bu təbii, maddi-texniki potensialı olan ölkədəki çoxspektrli və ziddiyyətli amilləri nəzərə almaqla sosial-iqtisadi inkişafın strategiyasını formalaşdırdı. Heydər Əliyevin müəyyən etdiyi və həyata keçirdiyi strategiya Azərbaycan iqtisadiyyatına son 10 ildə böyük uğurlar gətirmişdir. Ən əvvəl ölkədə sosial-siyasi stabillik təmin olunmuş və əlverişli investisiya mühiti yaradılmış, Azərbaycana xarici ölkələrdən investisiya axını sürətlənmişdir.

1994-2004-cü illərdə ölkə iqtisadiyyatına 20 milyard dollardan çox investisiya qoyulmuşdur. Onun 75-80 faizi xarici investisiyalardan ibarətdir. Bu Heydər Əliyevə dünya dövlətlərində nə qədər yüksək inam olmasının ifadəsi idi. Əgər Azərbaycan dövlətinə və Prezidentinə belə böyük inam olmasaydı bu qədər vəsaiti Azərbaycan iqtisadiyyatına qoyan olmazdı.

İlham Əliyev cənabları Azərbaycan dövlətinin nüfuzunu daha da yüksəltdiyi və eləcə də şəxsən özü dünyada yüksək imic qazandığı üçün Azərbaycan iqtisadiyyatına qoyulan xarici investisiyaların ümumi məbləğinin daha da artmasına şərait yaratdı. Təkcə 2004-cü ildə Azərbaycan iqtisadiyyatına 4,6 milyard dollardan çox investisiya qoyulmuşdur. Qarşıdakı illərdə iqtisadiyyata investisiya qoyuluşunun artım dinamikası daha da yüksələcəkdir. 2005-ci ildən 2007-ci ilə kimi iqtisadiyyatımıza 15 milyard dollardan çox xarici investisiya qoyuluşu gözlənilir.



1994-2004-cü illərdə iqtisadiyyatın əksər sahələrində sürətli artım baş vermişdir. Bu dövrdə sənaye və kənd təsərrüfatı məhsulları istehsalı, tikinti, nəqliyyat, ticarət və rabitə sahələrində, eləcə də ÜDM istehsalında 2-7 dəfə və daha çox artım baş vermişdir.

1994-cü ildən sonra həyata keçirilən islahatlar, aparılan özəlləşdirmə, iqtisadiyyatda struktur dəyişikliklərinin baş verməsi ilə nəticələndi. Ölkədə aparılan islahatlar qeyri-dövlət sektorunun daha sürətli inkişafına şərait yaratmış, ÜDM istehsalında onun xüsusi çəkisi 90-cı illərin axırlarındakı 25-30 faizdən 2004-cü ildə 74-75 faizə çatmışdır.

Qeyri-dövlət sektoruna aid iqtisadi subyektlərin 3 mindən çoxunu xarici investisiyalar əsasında yaradılanlar və müştərək müəssisələr təşkil edirlər. İndi əhalinin məşğulluğunun 70 faizi qeyri-dövlət sektoru hesabına təmin olunur. Qeyd olunanlar özəl bölmənin ölkə iqtisadiyyatında müəyyənedici sahəsinə çevrildiyini göstərir.

1994-2004-cü illərdə Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası dərinləşmiş, xarici investisiyalar cəlb edilməsində ölkəmiz öncül yerə qalxmış, elmin, texnikanın, rabitə və texnoloji sistemlərin təkmilləşdirilməsində ciddi irəliləyişlərə nail olunmuşdur.

Azərbaycanda 90-cı illərin ortalarında büdcə gəlirlərinin 55-60 faizi neft sektorundan, 40-45 faizi qeyri-neft bölməsində formalaşdığı halda 2004-cü ildə bu nisbətdə ciddi dəyişiklik baş vermişdir. Hazırda ÜDM-də 32-33 faizi neft sektoru, 67-68 faizi isə qeyri-neft sektorundan formalaşır. Həm də bu dəyişiklik neft sektorunun dinamik inkişaf etdiyi şəraitdə baş vermişdir. Bu büdcə gəlirlərinin neft amilindən asılılığının azalmasına, ölkənin iqtisadi müstəqilliyi və təhlükəsizliyinin daha da möhkəmlənməsinə xidmət etmişdir.

Dövlət büdcəsinin gəlirləri 1994-cü ildə 504,8 milyard manat olduğu halda, 2003-cü ildə 6 trilyon manatdan çox və 2005-ci ildə isə 9,4 trilyon manatdan artıq olacağı nəzərdə tutulmuşdur. 1994-2003-cü illərdə dövlət büdcəsinin gəlirləri 12 dəfədən çox artmış,

2005-ci ilin göstəriciləri nəzərə alınarsa bu nisbət 18,6 dəfəyə çatacaqdır.

Azərbaycanda ÜDM-də və büdcə gəlirlərinin artım tempi, həqiqətən, yüksəkdir. Qeyd olunanlar son on ildə respublikamızda sürətli iqtisadi artım baş verdiyinə əyani sübutdur.

**Siyasi və iqtisadi müstəqilliyimizin təməlini yaratmaq, həqiqi mənada müstəqil, suveren dövlət quruculuğunu təmin etmək üçün biz iqtisadiyyatımızın dinamik inkişafını təmin etməli idik. İqtisadiyyatın bütün sahələrinin birdən inkişafını təmin etmək mümkün deyildi. Ona görə də biz iqtisadiyyatda həlledici rol oynayan, onun digər sahələrinin tərəqqisinə təsir edə bilən neft sektorunun inkişafından başladıq və qarşıya qoyduğumuz məqsədin reallaşmasına nail olduq.**

**Biz dünyanın ən iri enerji layihələrindən birinin reallaşmasına başlamışıq. Bu gün Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum boru kəmərləri Azərbaycan üçün öz müstəqilliyini maksimum səmərəli reallaşdırmaq vasitələrindən birinə çevrilir.**

**1994-cü ildə Azərbaycan dövlətinin strateji valyuta ehtiyatları olmamışdır. 2005-ci ilin yanvarında ölkəmizin strateji valyuta ehtiyatları 2 milyard dolları ötüb keçmişdir.**

**Son 5-6 ildə əhalinin orta illik pul gəlirləri xərclərindən 10-15 faiz üstün olmuşdur. 2004-cü ildə əhalinin pul gəlirləri (24207,9 mlrd manat), xərclərini (23859,8 mlrd manat) 348 milyard manat üstələmişdir.**

**Banklara qoyulan əmanətlər və depozitlərin artım tempi də sürətlənmişdir. 2005-ci ilin əvvəlinə olan məlumatlara görə əmanət və depozitlərin ümumi məbləği 2 trilyon manatı ötüb keçmişdir. Belə faktları istənilən qədər gətirmək olar. Bütün bunlar ümummilli liderimiz Heydər Əliyev cənablarının müəyyənləşdirdiyi iqtisadi siyasətin sistemli reallaşması nəticəsində mümkün olmuşdur.**

İlham Əliyev cənabları iqtisadi siyasətin yeni strateji xəttini yaratmaq zərurəti qarşısında qalmadı. Çünki ümummilli liderimiz



Heydər Əliyev tərəfindən iqtisadi siyasətin strateji xətti 90-cı illərin ortalarında hazırlanmışdı.

Heydər Əliyev respublikamızın təsərrüfatçılıq ənənələrini, milli xüsusiyyətlərini, sosial-iqtisadi gerçəkliklərini ehtiva edən iqtisadi inkişafın Azərbaycan modelini formalaşdırdı.

Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi siyasətin başlıca konturları İlham Əliyev cənablarına gərək oldu. İlham Əliyev mövcud strateji xətti yeni keyfiyyət halına yüksəltməli, iqtisadi siyasətin reallaşmasına dinamizm gətirməli, sosial-iqtisadi inkişafı sürətləndirmək yolları və üsullarını müəyyən etməli oldu.

İlham Əliyev Prezident seçkisi dövründə verdiyi vədləri ardıcıl və sistemli yerinə yetirir. O, Heydər Əliyevin yaratdıqlarını qorumaq, daha da artırmaq və yeni keyfiyyət halına yüksəltmək siyasəti yeridir.

Ölkə Prezidenti 2003-cü il 24 noyabr tarixli fərmanı ilə ölkənin müvafiq icra hakimiyyəti strukturlarına sosial-iqtisadi inkişafı sürətləndirmək haqqında geniş miqyaslı, dərin mənalı, proqram xarakterli konkret tapşırıqlar verdi. Ölkə Prezidenti öz tapşırıqlarının yerinə yetirilmə müddətini, görülmüş işlərin nəticəsi barədə hesabatların verilmə tarixini də müəyyən etdi.

Ölkə Prezidenti son illər qəbul olunmuş proqramların (işsizliyin və yoxsulluğun azaldılması proqramı, turizmin inkişafı proqramı, habelə **«Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)», «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008)»** və s.) icra vəziyyətini yeni imkanlar və tələblər baxımından nəzərdən keçirib təhlil edərək, qarşıya qoyulan vəzifələrin tam həcmdə və vaxtında yerinə yetirilməsinə nail olmaq üçün tədbirlər müəyyənləşdirdi. Hazırda tapşırıqların icrası ilə bağlı ciddi iş aparılır.

Alternativ enerji mənbələrindən (günəş, külək və s. Enerjisindən istifadə etmək, regionlarda kiçik həcmli su elektrik stansiyaları inşa etmək və s.) istifadə etməklə enerji istehsalı və təchizatını əhəmiyyətli dərəcədə artırmaq üçün tədbirlər müəyyən edildi.

İnvestisiya qoyuluşu üçün daha əlverişli şərait yaratmaq, onun başlıca istiqamətlərini regionların, qeyri-neft sektorunun inkişafına yönəltmək, iqtisadi fəallığı gücləndirmək, daxili və xarici sərmayəçilərin investisiya qoyuluşlarını artırmağa stimullaşdıran ən səmərəli üsullardan və metodlardan istifadə etmək üçün tədbirlər müəyyənləşdirildi.

Aqrar islahatları daha da dərinləşdirmək, kəndli fermer təsərrüfatlarının bazar iqtisadiyyatı prinsiplərinə cavab verən, keyfiyyətcə yeni formalar, prinsiplər və qaydalara əsaslanan, müasir tipli kollektiv əmək tətbiqi sahələrini yaratmaq tövsiyə olunur.

Texniki servis mərkəzləri yaratmaq, fermerlərin aqrotexniki xidmətlərdən istifadə etməsinə, onların maliyyə problemlərinin büdcə vəsaitləri və güzəştli kreditlərlə həllinə kömək etmək, bir sözlə iqtisadi inkişafda, ÜDM istehsalında aqrar sektorun payının artımına nail olmaq üçün tədbirlər müəyyən olundu.

İdarəetmə sisteminin təkmilləşdirilməsi, sahə idarəçiliyindən funksional idarəçiliyə keçidin sürətləndirilməsi, paralelçiliyin aradan qaldırılması, inzibati idarəçilik xərclərinin azaldılması sahəsində səyləri gücləndirmək vacib vəzifələrdən biri kimi irəli sürülür.

Fikrimizcə, strateji valyuta ehtiyatlarının idarə olunmasında ciddi dəyişikliklər edilməlidir. Hesab edirik ki, özümüz 2-2,5 faizlə dünya ölkələrindən kredit aldığımız halda, strateji valyuta ehtiyatlarının dünyanın etibarlı banklarına ili 1,6-1,7 faizlə qoymağımız düzgün hesab edilməməlidir. Bu vəsaitlərin bir hissəsini regionlarda, qısa müddətdə gəlir gətirən istehsal və sosial infrastruktur sahələri yaradılmasına yönəltmək məqsədəuyğun olardı. Qeyd olunanlar bu vəsaitlərin öz iqtisadiyyatımıza xidmət etməsinə, daxili investisiya qoyuluşunun artmasına, yeni iş yerlərinin yaradılmasına, xalqın rifahının yüksəlməsinə təsir edərdi.

Sahibkarlığın inkişafı, inhisarçılığın, haqsız rəqabətin, qəsdən iflas meyillərinin qarşısını almaq, sağlam rəqabətə meydan açmaq, sosial-iqtisadi tərəqqini sürətləndirmək məqsədilə qanunvericilik çərçivəsində zəruri tədbirlərin həyata keçirilməsi, antiinhisar siyasəti ilə məşğul olan qurumun, İqtisadi İnkişaf Nazirliyinin struktur



bölməsindən, bir başa ölkə Prezidentinə tabe olan müstəqil idarəyə çevirilməsi məqsədəuyğun olardı. Belə bir təkmil qurum yaratmadan nə istehsalda, nə də ondan daha çox neqativ nəticələr verən idxalda inhisarçılığın qarşısını almaq mümkün olmayacaqdır.

Ölkədə, dövlət müəssisələri və təşkilatlarında maliyyə intizamını möhkəmlətmək, gəlirləri artırmaq, xərclərin ünvanlılığını, şəffaflığını təmin etmək və səmərəliliyini yüksəltmək üçün iqtisadi cəhətdən əsaslandırılmış sistemli tədbirlər görülməlidir.

**Ölkə Prezidentinin 2000-ci ildə, 2001-ci ildə, 2002-ci ildə, 2003-cü ildə, 2004-cü ildə dövlət büdcəsi haqqında qanunlarının tətbiqi ilə əlaqədar fərmanlar vermişdir. Bu fərmanlardakı tapşırıqların bir çoxu vaxtında yerinə yetirilməmişdir. Yerinə yetirilənlərin bəzilərində isə işlərin təşkili və icra olunmasında nöqsanlara yol verilmişdir.**

**Ölkə Prezidentinin tapşırıqları hər birimiz üçün qanundur. Onun müəyyən olunmuş vaxtda və lazımi səviyyədə icrasını təmin etmək hər birimizin borcudur. Çox təəssüflər olsun ki, yüksək səviyyədə verilmiş tapşırıqları vaxtında icra etməyənlər də vardır. Bütün bunlara baxmayaraq beləlləri, arxiv materialı kimi hakimiyyət kürsüsünün yuxarı pillələrində qalmaqdadırlar. Onların arasında ümummilli liderimiz Heydər Əliyevə «sadiq və dönük» əqidəsizlər də, əl altından «Müsavat» başqanını maliyyələşdirənlər də, 2003-cü ilin 15-16 oktyabr hadisələrində təxribatçılıqla məşğul olanları dəstəkləyənlər də vardır, desək, yəqin ki, sirr açmarıq. Bütün bunlar acı da olsa, reallıqdır.**

Bu gün başlıca məsələlərdən biri ölkədə sosial-siyasi stabilliyin daha da möhkəmlənməsinə və iqtisadi artımın sürətlənməsinə nail olmaqdır. Maliyyə və real sektorun koordinasiyasını təmin etmədən iqtisadiyyata dinamizm gətirməyin qeyri-mümkün olduğunu hamımız dərk etməliyik. Təcrübə göstərir ki, regionların sosial-iqtisadi inkişafına vergi dərəcələrinin, gömrük tariflərinin təsirinin gücləndirilməsi, pul-kredit siyasəti ilə kifayət qədər dəstəklənmədikdə iqtisadi artıma dinamizm gətirmək qeyri-mümkündür. Həm-

çinin pul-kredit siyasəti iqtisadiyyatda aparılan struktur dəyişikliklərindən dəstək aldığı halda iqtisadi artıma səmərəli təsir edə bilər.

**Ölkə Prezidenti İlham Əliyev cənabları yerli resursların bazasında regionların sosial-iqtisadi inkişafına dinamizm gətirmək haqqında tapşırıq vermişdir.** Respublikanın hər bir regionunun öz xüsusiyyətləri, təsərrüfatçılıq, təbii-coğrafi, əmək ehtiyatları və s. sahələrində spesifik cəhətləri vardır. Burada təkcə mərkəzi icra hakimiyyəti orqanların strukturları deyil, həmçinin yerli orqanlar, o cümlədən bələdiyyələr fəal rol oynamalıdırlar.

**AXC-Müsavat cütlüyünün hakimiyyəti illərində iqtisadi islahatların «pionerləri» dövləti iqtisadiyyatdan qovub çıxarmağa, onu tamamilə bazarın, kortəbii fəaliyyət göstərən qüvvələrin öhdəsinə buraxmağa çalışırdılar. Onlar qayda-qanun yaratmaq, hüquqi dövlət qurmaq aləti olan dövləti zəiflədib kriminal qüvvələrə təhvil verməyə cəhd göstərirdilər. Əslində isə dövlət iqtisadiyyatın «oyun qaydalarını», fəaliyyət prinsiplərini, normalarını müəyyən etməklə, ölkənin sosial-iqtisadi inkişafını, müəssisə və təşkilatların fəaliyyətini məqsədyönlü səmtə yönəltməli idi.**

Bazar münasibətləri şəraitində dövlət Azərbaycan iqtisadiyyatının prioritet sahələrini müəyyən etməli, mövcud və gələcəkdə yaradılacaq müəssisələrin profilini ölkənin maraqlarına, iqtisadi və milli təhlükəsizliyinin daha da möhkəmlənməsini təmin etməyə istiqamətləndirməlidir. Fikrimizcə, bu Azərbaycan iqtisadiyyatına dinamizm gətirməyin mühüm istiqamətlərindən birini təşkil etməlidir.

Bazar iqtisadiyyatı şəraitində dövlətin tənzimləyici rolu ən əvvəl makroiqtisadi səviyyəni əhatə edir. Dövlət iqtisadi siyasətin strategiyasını, onun reallaşma mexanizmlərini və üsullarını müəyyən edir. Lakin bu siyasət avtomat reallaşma xassəsinə malik deyil. Dövlətin sistemli və koordinasiya olunmuş fəaliyyəti iqtisadi inkişafın sürətlənməsinə təsir edə bilər.

Təcrid olunmuş halda yeridilən iqtisadi siyasətlə inkişafa təsir etməyin qeyri-mümkün olduğunu dərk etməliyik. Manatın stabilliyini qorumaq üçün Milli Bankın yeritdiyi siyasət kimi. Milli Bank valyuta bazarına dollarla müdaxilə etməklə inflyasiyanı sıfıra endirə bilər. Bu yolla iqtisadi inkişafa dinamizm gətirməyin mümkün olmadığını hamımız bilməliyik.



Qiymətlərin stabilliyi iqtisadiyyatın inkişafı və xalqın rifahı üçün olduqca vacibdir. Lakin o məqsədə çevrilməməlidir. Məqsəd iqtisadiyyatın inkişafı və xalqın rifahının yüksəldilməsidir.

**Fikrimizcə, iqtisadiyyatın inkişafını qiymətlərin stabil saxlanmasına qurban vermək olmaz. Çünki, qiymətlərin stabilliyi ilə yanaşı, xalqa yeni iş yerləri, vaxtında və müntəzəm ödənilən əmək haqqı da lazımdır. Başqa sözlə stabil qiymətlər həyat səviyyəsinin yüksəlməsinin maddi əsasını təşkil edən iqtisadi inkişafla, məşğulluğun artması, daha yüksək əmək haqqı verilən yeni iş yerlərinin yaradılması ilə müşayiət olunmalıdır.**

İşsizliyin səviyyəsinin yüksək olması iqtisadiyyatın düzgün fəaliyyət göstərmədiyinə, əmək qabiliyyətli əhalinin xeyli hissəsinin yeni iqtisadi sistemə inteqrasiyasının təmin olunmadığına sübutdur. İşsizlərin sayının azaldılması iqtisadi idarəetmə orqanlarının başlıca vəzifəsidir. Bu vəzifə pul-kredit, büdcə-vergi, qiymət, tarif siyasətinin koordinasiyasının təmin olunduğu şəraitdə yerinə yetirilə bilər.

Manatın real məzənnəsinin müəyyən olunmasında lazımi dərəcədə çevik siyasətin yeridilməməsi ixracatın səmərəliliyini aşağı salır, ölkənin külli miqdarda valyuta ehtiyatlarını manatın məzənnəsinin süni sürətdə yüksək səviyyədə saxlanılmasına sərf edilir. Nəyin bahasına olursa-olsun manatın kursunun stabil saxlanmasına göstərilən cəhd, pul kütləsinin həcminə və dinamikasına təsir edir, pula tələbatla pul təklifi arasında nisbətlərin iqtisadi reallıqdan və məqsədəuyğunluqdan kənarlaşmasına səbəb olur.

Fikrimizcə, manatın kursunu müəyyənləşdirən bütün faktorlar nəzərə alınmalıdır. Öncə rəqabət qabiliyyətli milli istehsalın inkişafı, iqtisadi metodlarla daxili bazarın, yerli istehsalçıların müdafiəsi təmin edilməli, eyni zamanda rəqabətə meydan açılmalı,

tədiyyə balansının vəziyyəti, rəsmi valyuta ehtiyatlarının pul kütləsinə nisbətinin tənzimlənməsi və s. vacib məsələlərin həllinə diqqət artırılmalıdır.

İnflyasiya tempini valyuta müdaxiləsinin artırmaqla azaltmaq müəyyən həddən sonra neqativ nəticələr verə bilər. Valyuta müdaxiləsi hesabına inflyasiya tempini aşağı salmaq cəhdi qarşılıqlı borcların, ödəməmələrin və s. yaranmasına səbəb ola bilər. Fikrimizcə, bu yolla qarşıya qoyulmuş vəzifələrin reallaşmasını təmin etmək çətinliklərlə qarşılaşa bilər.

**Biz iqtisadiyyatı necə idarə edirik? Dünya standartlarına uyğun idarəetmə sistemi ilə yanaşı, təcrübə və səhv metodu, iqtisadi eksperimentlər, inzibati amiranə və bazar iqtisadiyyatı metodlarının eklektikası, bütün bunlar, bu günki iqtisadi idarəetmənin reallıqlarıdır.**

Yeni idarəçilik sistemi sterilizə olunmuş halda meydana gəlmir. Onun şaquli və üfüqi istiqamətlərdə təkmilləşdirilməsi zərurətə çevrilir.

İqtisadi idarəetmənin yuxarı pillələrində, Nazirlər Kabinetində sahə idarəçiliyindən funksional idarəçiliyə keçidin təmin olunmaması, idarəetmənin aşağı səviyyələrində, idarə, müəssisə və təşkilatlarda islahatların aparılmasına maneələr yaradır.

**İqtisadi idarəçilikdə siyasəti müəyyən edən və icraedici orqan bir əldə cəmləşməməlidir. Onların belə ixtisaslaşma aparmadan sosial-iqtisadi səmərəliliyin yüksəlməsinə siyasi metodların təsirini təmin etmək mümkün deyil. Rusiya Federasiyasının təcrübəsi buna sübutdur.** Rusiyada bu yaxınlarda aparılan islahatlar nəticəsində 30-dan çox nazirlikdən cəmi 14 nazirlik saxlanıldı. Onların hər biri öz sahəsində dövlət siyasətinin formalaşmasına təkliflər verən və dövlət siyasətinin reallaşmasına məsul olan icraedici orqana çevirdilər. İxtisara düşən nazirliklər isə müəyyən olunmuş siyasətin icrası ilə məşğul olmağa başladılar. Beləliklə şaquli və üfüqi istiqamətlərdə əmək bölgüsü aparıldı.

Qalan icraedici qurumlar departament səlahiyyətlərində müəyyən olunmuş siyasətin icrası ilə məşğul olmağa başladılar. Beləliklə şaquli və üfüqi istiqamətlərdə aparılan islahatlarla iqtisadi idarəetmə orqanlarında əmək bölgüsü yaradılır, idarəetmədə ixtisaslaşma dərinləşdirilir.



Azərbaycanda da bu istiqamətdə işlər aparılır. İqtisadi İnkişaf, Nəqliyyat, Sənaye və Energetika Nazirlikləri yaradılmışdır. Kənd Təsərrüfatı Nazirliyində də struktur dəyişikliklər aparılmış, bir neçə komitə və birliklərin idarəçiliyi yeniləşdirilmişdir. Yəqin ki, yaxın vaxtlarda idarəetmə və struktur islahatları digər nazirlikləri, Dövlət Komitələrini, Konsernləri və Şirkətləri də əhatə edəcəkdir.

İdarəetmə sistemində aparılan islahatlar mərkəzi icra hakimiyyəti strukturlarında siyasi funksiyalarla məşğul olmasına, icra funksiyalarının ayrılmasına, digər qurumlar tərəfindən yerinə yetirilməsinə və beləliklə ixtisaslaşmanın dərinləşməsinə xidmət edəcəkdir.

Bir şey aydındır ki, iqtisadi siyasətin bütün komponentlərinin koordinasiya olunmuş fəaliyyətini təmin etmədən, onların sosial-iqtisadi inkişafa fəal təsirini gücləndirmək və müvəffəqiyyətə nail olmaq mümkün deyil. Bu hamımıza aydın olmalıdır.

Dinamik inkişaf edən Azərbaycan iqtisadiyyatı problemlərdən azad deyil. Ən aktual vəzifələrdən biri artmaqda davam edən inflyasiyanın qarşısını almaq, onun normal həddi aşmasına yol verməməkdir. 2005-ci ilin əvvəlində 7,9 faiz olan inflyasiya tempi, ilin ikinci rübündə 13 faizə çatmışdır. Biz 2005-ci ilin dövlət büdcəsini 3-4 faizlik inflyasiya tempi ilə müəyyən etmişdik.

İnflyasiyanın sürətlənməsinin səbəbləri çoxdur. Hər inflyasiyanın xarici, daxili, ilkin, törəmə, tələb, xərc və s. özünə məxsus səbəbləri vardır. Onların mahiyyətinə uyğun antiinflyasiya siyasəti yeridilməlidir.

İnflyasiyanın qarşısını almaq üçün görülən pərakəndə tədbirlərlə kifayətlənmək olmaz. İnflyasiyanın qarşısı vaxtında alınmasa, onun özünütəkrarı baş verər, inflyasiya burulğanı yarana bilər. Bu barədə çoxlu misallar çəkmək olar. Təkcə bir misal çəkməklə kifayətlənəcəyik.

Bankların əmanət və depozitlərlə verdiyi illik faiz (divident)

10 faizə bərabərdir. İnflyasiyanın səviyyəsi isə 13 faizə qalxmışdır. Bu hüquqi və fiziki şəxsləri (inflyasiya səviyyəsinin bankın əmanətlərə və depozitlərə verdiyi faizi üstələdiyi üçün) əmanət və depozitləri bankdan götürməyə, inflyasiyadan qorunmağa və yaxud, banklara əmanət və depozitlərə verdiyi faizi 20-30 faizə yüksəltməyə vadar edə bilər. Bu, bankları kreditlərə faizi inflyasiya tempinə mütənasib olaraq yüksəltmələrinə təsir edə bilər.

Baha kredit məhsulun və ya xidmətin maya dəyərində oturduğundan qiymətlər bahalaşır və beləliklə, inflyasiya prosesi özü-özünü geniş təkrar istehsalını yaradır. Bu prosesin başlanmasına yol verilməməlidir. Əgər o başlansa inflyasiya zəncirvari prosesə çevrilə bilər və qarşısını almaq çətinləşər.

Sistemli və koordinasiya olunmuş fəal iş aparılmalıdır. Burada İqtisadi İnkişaf Nazirliyinin, Maliyyə Nazirliyinin, Vergilər Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Qiymətli Kağızlar Komitəsinin, Milli Bankın öz funksiyaları vardır. İnflyasiyanın qarşısını almaq üçün onların hər biri öz səlahiyyətləri çərçivəsində koordinasiya olunmuş fəaliyyət göstərməlidirlər.

Müvafiq icra hakimiyyəti orqanları ola bilsin ki, hər biri öz fəaliyyətləri çərçivəsində çox vacib antiinflyasiya tədbirləri görürlər. Lakin onların hər birinin gördükləri tədbirlər bir-birini tamamlamalıdır. Əks təqdirdə arzu olunan nəticəni əldə etmək olmaz.

Milli Bank manatın sabitliyini qorumaq üçün öz arsenalında olan vasitələrdən son zamanlar daha fəal istifadə etməyə başlamışdır. Dövriyyədə olan pulu azaltmaq və Səhmdər Kommersiya banklarının Milli Bankda saxladığı məcburi ehtiyatlarını artırmaq, dollarla manatın məzənnəsini tənzimləmək və s. digər tədbirlər görülür. Lakin inflyasiyanın artımının qarşısını almaq və dayanıqlı makromaliyyə stabilliyi təmin etmək üçün əlavə tədbirlərdən, həm də daha təsirli və uzunmüddətli səmərə verən vasitələrdən istifadə edilməlidir. Bunun üçün iqtisadiyyatın cari vəziyyəti və operativ idarə olunmasına məsul olan qurumların arsenalında olan resurslardan iqtisadi dinamizmi yüksəldən və inflyasiyanın qarşısını alan vasitələrdən sistemli istifadə etmələri təmin olunmalıdır.



Vergilər Nazirliyi vergidən yayınmaların, rəsmi dövriyyədən kənar dövriyyənin qarşısını almaq üçün daha radikal tədbirlər görməlidir.

Tikinti təşkilatlarında, şadlıq evlərində rəsmi dövriyyədən, vergidən yayınmaların bəzi hallarda 50-60 faizə çatdığı heç kimə sirr deyildir.

Rəsmi statistik məlumatlara görə kölgə iqtisadiyyatının ÜDM-ə nisbəti 20 faizə bərabərdir. Dünya təcrübəsinin göstərdiyi kimi bu hüquqi və fiziki şəxslərin vergilərdən yayınmalarının minimum həddinin göstəricisidir. Unutmamalıyıq ki, vergidən yayınmaların dairəsi daha genişdir.

Kölgə iqtisadiyyatı olmayan ölkə yoxdur. AFR, Fransa, İtaliya kimi yüksək inkişaf etmiş avropa ölkələrində də kölgə iqtisadiyyatı mövcuddur. Bu ölkələr arasında fərq yalnız kölgə iqtisadiyyatının ÜDM-ə nisbətindədir.

Kölgə iqtisadiyyatının ÜDM-ə nisbətinin 30 faizə çatması, iqtisadiyyatı idarəolunmaz vəziyyətə sala bilər. Buna qətiyyən yol verilməməlidir.

Gömrük orqanları idxal və ixrac nisbətlərini dəyişdirməklə ölkədə tələb-təklif nisbətlərinə təsir edə bilər. Bu rəqabət mühitinin genişlənməsinə də təsir edə bilər. Bu digər tərəfdən daxili bazarı həddindən çox qorumaqla inhisarçılıq mühitinin formalaşmasına səbəb ola bilər.

İqtisadi İnkişaf Nazirliyi inflyasiyanın qarşısını almaq üçün öz imkanlarından istifadə etməlidir. Yerli istehsalı stimullaşdırmaq, azad rəqabətə meydan açmaq, istehsal inhisarçılığını aradan qaldırmaq üçün radikal tədbirlər görməlidir. O, istehsalın sahələr və regionlar üzrə quruluşunu, tələbatın kəmiyyəti və keyfiyyətini, ölkə iqtisadiyyatının bu günki və perspektiv inkişafının istiqamətlərini proqnozlaşdırmalıdır. İqtisadi İnkişaf Nazirliyi tələbatın strukturu və onun ödənilmə mənbələri arasında optimal nisbətlərin yaranmasını təmin edən əməli işlər görməlidir. O həmçinin investisiya qoyuluşlarının istehsal sahələri və iqtisadi rayonlar üzrə məqsədyönlü stimullaşdırılmasını təmin etməli, yüksək təşviq rejimləri

müəyyən etməlidir.

Bu nazirlik yeni istehsal sahələri yaradılması üçün radikal tədbirlər görməklə inhisarçılığı aradan qaldırmağa təsir edə bilər. Misal üçün, Qaradağ sement zavodu, respublikanın sementə olan tələbatının yarısını ödəyir. Ya müasir ekoloji standartlara cavab verən yeni sement zavodları inşa edilməli, yaxud tələbatın ödənilməmiş qalan hissəsi həcmində xaricdən sement gətirilməsinə şərait yaradılmalıdır.

Bir tərəfdən yerli istehsala himayədarlıq siyasəti yeridilməli, digər tərəfdən rəqabətə meydan açılmalıdır. Bu istiqamətlərin heç birinə birtərəfli qaydada üstünlük verilməməlidir. Ən yaxşısı texniki iqtisadi hesablamalar və müqayisəli təhlillər aparılmalı, onların iqtisadi səmərəlilik əmsalı müəyyən edilməlidir və ona uyğun qərarlar qəbul olunmalıdır.

Maliyyə Nazirliyi büdcə siyasəti ilə iqtisadiyyatda pul artıqlığı yaranmasının qarşısını almağa çalışmalıdır. Bir tərəfdən qısa müddətli xəzinə öhdəliklərindən istifadə etməklə tədavüldən pul götürməli, digər tərəfdən Dövlət Neft Fondundan dövlət büdcəsinə transferlərin inflyasiya yaratmayan sahələrə yönəldilməsini təmin etməli, habelə zəruri xərclər istisna olmaqla digər xərclərin inflyasiya yaratmayan sahələrin maliyyələşdirilməsinə yönəltməlidir. Əlbəttə bütün bu proseslər Nazirlər Kabinetinın bilavasitə və fəal iştirakı ilə icra olunmalıdır.

Nazirlər Kabineti sosial-iqtisadi inkişaf və antiinflyasiya proseslərinin təkcə müşahidəçisi olmamalıdır. O, iqtisadiyyatda baş verən proseslərin dirijorü olmalıdır. Dirijor demişkən, fikri bir qədər dərinləşdirək.

İqtisadi bloka aid müvafiq icra hakimiyyəti orqanlarının hər biri öz orbitində, onlara həvalə edilmiş tapşırıqları idarə maraqları prizmasından həll etməyə çalışırlar. Vergi orqanları dövlət büdcəsi qarşısında öhdəliklərini vaxtında və müəyyən edilmiş səviyyədə yerinə yetirməyə çalışır. İqtisadi İnkişaf Nazirliyi iqtisadi artıma dinamizm gətirmək üçün səy göstərir. Milli Bank manatın stabilliyini təmin etmək üçün arsenalında olan alətləri işə salır və s.



Əsas məsələ ondan ibarətdir ki, bu orqanların hər birinin öz orbitində, sahə maraqları prinsipi ilə fəaliyyət göstərmələri vahid istiqamətlərə, dinamik inkişafın prioritet vəzifələrinin yerinə yetirilməsinə yönəldilməlidir. Onsuz lazımi nəticələri əldə etmək çətinliklərlə qarşılaşa bilər.

**Əgər obrazla deyilsə, müxtəlif alətlərin çalğıçıları hərəsi özü bildiyi musiqini çalsa, onda musiqi deyil, qarmaqarışıq, qışqır-bağır, hay-küy yaranar. Bu musiqiçilər dirijorun müşayiəti ilə bir musiqini çalsalar onda simfoniya alınar.**

İqtisadiyyatda da belədir. İqtisadi vəziyyətə məsul olan nazirlik, komitə, şirkət və s. hamısı eyni məqsədin müxtəlif cəhətlərini yerinə yetirməklə iqtisadi inkişafı təmin etməlidirlər.

2005-ci ilin dövlət büdcəsində profisit vardır. 2005-ci ilin birinci rübündə Vergilər Nazirliyindən büdcə daxilolmaları təsdiq olunandan 104 milyard manat artıq, Dövlət Gömrük Komitəsindən və sair daxilolmalardan büdcə daxilolmaları isə 25 milyard manatdan bir qədər artıq olmuşdur. Beləliklə 2005-ci ilin birinci rübündə dövlət büdcəsində 130 milyard manata yaxın profisit yaranmışdır.

Büdcədə profisitin olması faktdır. Lakin bu birinci rübün nəticələridir. İlin qalan dövründə büdcə gəlirlərinin dinamikasının necə olacağı bizə məlum deyildir. Ola bilər ki, sonrakı aylarda profisit bir qədər də artsın və yaxud əksinə.

Fikrimizcə, 2005-ci il may ayının axırlarına yaxın profisitin büdcə xərclərinə qatılması haqqında tədbir görülməsi məqsədəuyğun olar və onda da ölkənin makromaliyyə vəziyyəti hökmən nəzərə alınmalı, xərclərin inflyasiya doğurmayan istiqamətlərə yönəldilməsi təmin edilməlidir.

Dövlət dinamik iqtisadi artım şəraitində inflyasiyanın normal səviyyədə qalmasını təmin edə bilər. Bunun üçün iqtisadiyyatın idarə olunması ilə məşğul olan qurumların pərakəndə halda deyil, birlikdə, «dirijorun» müşayiəti ilə antiinflyasiya tədbirləri həyata keçirmələri vacibdir. Onların bir-birinə aşkar və ya pərdə arxası badalaq qurmaqla deyil, əl-ələ verərək, eyni işin müxtəlif cəhət-

lərini birgə yerinə yetirmələri ilə müvəffəqiyyətə nail olmaq mümkündür.

Bir sözlə, koordinasiya olunmuş siyasətlə, heç bir kataklizmlər olmadan ölkədə dinamik sosial-iqtisadi inkişaf və makromaliyyə stabilliyi, habelə inflyasiyanın normal həddə qalması təmin edilə bilər.

## 1.2. Heydər Əliyev strategiyası - zəngin və qüdrətli dövlət yaratmağın hüquqi və iqtisadi əsasları

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan Respublikasının yeni inkişaf mərhələsinə keçidi təmin edilmiş, ölkəmizin demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatı yolu ilə irəliləməsinə geniş meydan açılmışdır. Artıq əminliklə söyləmək olar ki, Azərbaycanda aparılan uğurlu iqtisadi islahatlar nəticəsində ölkə iqtisadiyyatının dinamik inkişafı təmin edilmiş və bu inkişaf özünü ölkəyə cəlb olunan investisiyaların həcmində, ümumi daxili məhsulun artım tempində, büdcə gəlirlərinin miqyasında göstərir.

Dahi şəxsiyyət, müdrik siyasətçi Heydər Əliyevin layiqli davamçısı cənab Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət ilk növbədə, ölkədə sosial-iqtisadi inkişafın və regional siyasətin gücləndirilməsi, sahibkarlığa dövlət yardımı, iş adamları üçün əlverişli şəraitin yaradılması, yeni iş yerlərinin açılması kimi mühüm həlqələri əhatə etməklə, qlobal məqsədlərə xidmət edən iqtisadi strategiyanın reallaşdırılmasına zəmin yaratmışdır.

İqtisadi islahatlara və özəlləşdirməyə Heydər Əliyev böyük əhəmiyyət verirdi. O, islahatlar sistemində mülkiyyət münasibətləri sahəsində aparılan islahatların prioritet xarakter daşıdığını əsaslandırırdı. Onun fikrincə, **«İslahatların əsasını mülkiyyət formasının dəyişdirilməsi təşkil edir» («Müstəqilliyimiz əbədidir», C.2, s.492).** Çünki iqtisadi münasibətlər sistemində ilkin və



törəmə münasibətlər fərqləndirilməlidir. Hamı tərəfindən qəbul olunmuşdur ki, ilkin mülkiyyət münasibətləridir. Qalan iqtisadi münasibətlər, bölgü, mübadilə, istehlak və s. törəmədir. Mülkiyyət münasibətlərinin dəyişilməsi qalan bütün iqtisadi münasibətlər sisteminin dəyişilməsini müəyyən edir.

Hələ 1994-cü ildə Heydər Əliyev deyirdi ki, özəlləşdirmədə risk etmək lazımdır. Dayanıb gözləməyin faydası olmaz. Belə naməlum vəziyyətdə yaşaya bilmərik. Bununla belə ölkə başçısı hər şeyin birdən-birə özəlləşdirilməsini yox, bu prosesin mərhələ-mərhələ aparılmasını tövsiyə edirdi. Ölkə başçısının özəlləşdirmə probleminə sistemli baxışının real töhfəsi olmaqla öz təmkinliyi və sosial yönümü ilə digər MDB ölkələrində həyata keçirilən özəlləşdirmədən daha səmərəli və məntiqi təsir bağışlayır.

**Heydər Əliyev göstərirdi ki, «Gərək kənd təsərrüfatı ilə məşğul olan adam torpağın sahibi olsun».** O, kənd təsərrüfatı məhsulları istehsalında struktur dəyişiklikləri aparılmasını, Azərbaycanı xammal ixrac edən ölkədən, hazır məhsullar istehsal və ixrac edən ölkəyə çevrilməsi üçün səyləri gücləndirməyə çağırırdı.

Kənd təsərrüfatında iqtisadi islahatlara olan müxtəlif, çox vaxt da bir-birilə ziddiyyət təşkil edən fikirlərə Heydər Əliyev qəti cavab verir: **«İqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfatında da nicat yolumuz, perspektivimiz, gələcəyimiz iqtisadi islahatların aparılmasındadır. Kənd təsərrüfatı sahəsində iqtisadi islahatlar aparılması strateji yolumuzdur və bu yolla da getməliyik» («Müstəqilliyimiz əbədidir» C. 2.s. 33).**

Heydər Əliyev iqtisadi baxışının ana xəttini islahatların, o cümlədən kənd təsərrüfatında, sosial yönümünün gücləndirilməsi təşkil edir. Ölkə başçısının fikrincə, birinin varlanması digərinin kasıblaşmasına gətirib çıxarmamalıdır. Yəni islahatlar xalqımızın ümumi rifahının yüksəldilməsi üçün həyata keçirilməlidir. **O qeyd edirdi ki, islahatlar aparılması prosesində heç kimə neqativ hərəkətlər üçün imkan yaranmamalıdır. Heydər Əliyev deyirdi: «Heç kimə imkan verilməməlidir ki, o, rüşvətxorluq, əliəyrilik, fırıldaq, dövlətin, xalqın malını oğurlamaq, mənimsəmək yolu**

**ilə özünə sərvət toplasın».**

İqtisadi inkişafın cəmiyyətdə mövcud olan nizam-intizamın səviyyəsi ilə birbaşa əlaqəsinin mövcud olduğunu dəfələrlə qeyd etmiş ölkə başçısı bu sahədə yol verilən nöqsanları tam açıqlığı ilə göstərmiş və bu işə məsul olanları düzgün yola dəvət etmişdir.

O göstərirdi ki, həm iqtisadiyyatda imkanlardan səmərəli istifadə etməklə cəmiyyətdə dirçəlişə nail olmaq, həm də islahatları lazımi səviyyədə həyata keçirmək üçün hər yerdə və hər səviyyədə möhkəm nizam-intizam olmalıdır. Əks təqdirdə iqtisadiyyatın dağılması davam edə bilər və əhali arasında narazılıq və etinasızlıq genişlənə bilər.

Bir çox yerlərdə nizam-intizamın pozulması, adamların bir qisminin əxlaqının korlanması, bəzi rəhbər vəzifəli şəxslərin qanunları pozması halları ölkə başçısı tərəfindən dəfələrlə kəskin qeyd edilmişdir.

Demokratik hüquqi dövlət quruculuğunu strateji siyasi xətt hesab etmək heç də baş verən mənfi hallara, nizam-intizamı, qayda-qanunu pozanlara göz yummaq deyildir.

Əksinə, dövlət quruculuğunu həyata keçirərkən və iqtisadi islahatlara rəvac verərək biz bütün sahələrdə qayda-qanunun möhkəmlənməsinə nail olmalıyıq. Bu fikirlərin müəllifi olan ümummilli rəhbərimiz onu da əlavə edirdi ki, demokratik hüquqi dövlət, eyni zamanda ciddi nizam-intizam, dövlətin qanunlarına lazımınca əməl olunmasını tələb edir.

Heydər Əliyev 1994-cü il mayın 20-dəki çıxışında demişdir: **«Bazar iqtisadiyyatının, sərbəst iqtisadiyyatın ən böyük üstünlüyü ondan ibarətdir ki, burada... nizam-intizam, qanunlar var: Qanunsuz onlara heç kəs heç nə edə bilmir. Əgər kimsə qanundan kənar bir iş görürsə, dərhal onun biləyindən tuturlar. Buna görədə mən nizam-intizamın möhkəmləndirilməsini əsas şərt hesab edirəm».**

Dövlət malından, dövlət vəsaitindən istifadə edərək özlərinə şəxsi strukturlar yaradanları, öz vəzifələrindən pərdə kimi istifadə edərək, onun vasitəsilə cürbəcür çirkin yollara gedib, dövlət qarşısında, xalq qarşısında məsuliyyətini unudanları, öz cibini doldurmaqla məşğul olanları Heydər Əliyev cənabları öz çıxışlarında dəfələrlə tənqid etmiş və bildirmişdir ki, **«Hamı qanun çərçivəsində işləməlidir. Qanunu pozan adamlar vəzifəsindən, keçmiş xidmətindən asılı olmayaraq cavab verməlidirlər». («Müstəqilliyimiz əbədidir» C. 2. s.35)**

Çəkilən zəhmət öz bəhrəsini verdi: son vaxtlar heç kəs dana bilməz ki, cəmiyyətimizdə nizam-intizam xeyli möhkəmlənmiş, mənəvi saflıq bərqərar olmağa başlamış, iqtisadi qurumları əldən salmış müxtəlif səpkili reketlik halları nəzərə çarpacaq dərəcədə azalmışdır.

Heydər Əliyev hələ Azərbaycana birinci dəfə rəhbər seçildiyi vaxtdan rüşvətxorluqla mübarizəni öz fəaliyyətinin əsası kimi qəbul etmişdi.

İndi də bazar iqtisadiyyatına keçid şəraitində yaranmış iqtisadi potensialın bir sıra oğru və əliəyri adamların əlinə keçməsi, xalqın əməyi ilə yaradılmış sərvətlərimizin həmin şəxslər tərəfindən mənimsənilməsi, rüşvətin və korrupsiyanın aradan tam qaldırılması cəmiyyəti bərk narahat edən sosial-iqtisadi və siyasi problem kimi həll olunmamış qalmaqdadır.

Heydər Əliyev bu yarıtmaz hala qarşı müntəzəm və sistemli mübarizə aparılmasını tövsiyə edirdi. Rüşvətxorluğu yeni yaranan Azərbaycan dövləti üçün çox böyük bəla sayan H.Əliyev dəfələrlə öz çıxışlarında ayrı-ayrı rəhbər işçilərin öz şəxsi mənafeylərini xalqın, dövlətin mənafeyindən üstün tutaraq cürbəcür qeyri-qanuni yollara getmələri, bir sıra müəmmalı assosiasiya və şirkətləri «qəyyumluğa» götürmələrini kəskin tənqid etmiş, belələrini düzgün yola çağırmışdır.

Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk vaxtlar dövlətin iqtisadi və siyasi əsaslarının təhlükəsizliyi mülkiyyət hüquqları əleyhinə yönəldilən, maliyyə-kredit fırıldaqlarının və iqtisadi xarakterli sair cinayətlərin təhlükəli həddə çatmasına yol verməmək üçün radikal addımlar atılmasını tövsiyə edirdi. Elə bunu nəzərə alan Heydər Əliyev təsirli tədbirlər gördü. 1994-cü il avqustun 9-

da verilən **«Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğu və hüquq qaydalarının möhkəmlənlirilməsi tədbirləri haqqında»** Fərman xüsusi əhəmiyyət kəsb edirdi.

Bu fərmanın sosial-iqtisadi faydasını gözləmək üçün uzun müddət tələb olunmadı. Ölkəmizdə aparılan islahatlar qanunsuz kredit vermək, kreditlərdən təyinatı üzrə istifadə etməmək, valyuta vəsaitlərini xaricdən gətirməmək, vergi ödənilməsindən boyun qaçırmaq və ya yayınmaq kimi halların nəzərə çarpacaq dərəcədə azalması göz qabağındadır.

Cəmiyyət üçün belə təhlükəli əməlləri tam aradan qaldırmaq, korrupsiyaya, yalançı sahibkarlığa və qəsdən iflasa qarşı həmişə kəskin və sistemli mübarizə aparmaq Heydər Əliyevin kredosu idi. **O qeyd edirdi: «İndiki mürəkkəb dövrdə bəzi adamlar, qruplar fürsətdən itifadə edərək dövlətin də, xaqlın da malını oğurlamış, cürbəcür qanunsuz hərəkətlərlə sərvət toplamışlar və indi özlərini xalqın, cəmiyyətin yeni bir təbəqəsi sayırlar» («Müstəqilliyimiz əbədidir» C. 1, s. 493).**

Heydər Əliyev müxtəlif nəzarət orqanlarının işinə onların apardıqları yoxlamaların sayına görə deyil, bu yoxlamaların iqtsadiyyatımıza nə kimi xeyir verməsi baxımından qiymət verməyi, bazar iqtisadiyyatına uyğun nəzarət sistemi yaratmağı dövlət quruculuğu sahəsində yeridilən siyasətinin öncül istiqmətlərindən hesab edirdi.

Yoxlamalar zamanı rüşvət alınması, lüzumsuz nəzarət qurumlarının olması vergidən yayınma hallarının geniş yayılması, banklarda baş alıb gedən rüşvətxorluq, maliyyə pozuntuları, korrupsiya halları vəzifəyə qayıtdığı ilk vaxtlardan Heydər Əliyevin tənqid obyekti olmuş və o bir sıra kəsərli tədbirlər aparmağa məcbur olmuşdur.

Xarici ölkələrə milyardlarla manat məbləğində mal göndərib, haqq ödənilməməsi, ayrı-ayrı adamların belə vəziyyətdən istifadə edərək dövlətin, xalqın vəsaitini mənimsəməsi, «məşhur» kliring əməliyyatlarındakı «unutqanlıq», idxal əməliyyatlarında respublikaya gəlməli olan vəsaitlərin başqa ölkələrin banklarında «ilişib»



qalması, bu məbləğin inflyasiya nəticəsində öz dəyərini itirməsi Heydər Əliyevin kəskin etirazını doğururdu. O, bununla əlaqədar demişdir: **«Mən belə vəziyyəti, bununla əlaqədar heç bir izahatı qəbul edə bilmərəm»** («Müstəqilliyimiz əbədidir» C.1, s. 259).

Maliyyə işlərində belə yarıtmaz vəziyyətin düzəldilməsi yollarını da Heydər Əliyev çox konkret və sistemli göstərmişdir: **«Banklar öz işlərini yenidən qurmalıdılar. Banklarımız gərək elə işləsinlər ki, respublikanın maliyyə-kredit məsələlərinin səmərəli şəkildə aparılmasına şərait yaratsınlar...**

**Maliyyə Nazirliyi nəzarətçi kimi yox, bu proseslərin mərkəzində duran dövlət strukturu kimi fəaliyyət göstərməlidir... Barter əməliyyatları məhdudlaşdırılmalı, yalnız konkret hallar üçün aparılmalıdır» («Müstəqilliyimiz əbədidir» C.1, s.259-260).**

Nəğd pul çatışmamazlığının aradan qaldırılmasına dair Heydər Əliyevin çıxışlarında iqtisadi-təşkilati xarakterli tədbirlər kompleksi göstərilmiş və onların həyata keçirilməsi az bir vaxtda MDB ölkələri içərisində birincilər sırasında həl edilmişdir. O görülən işləri təhlil edərək, 1994-cü il avqustun 26 demişdir: **«Dövlət də qorunur, hər bir vətəndaşın hüquqları da qorunur, Azərbaycanın müstəqilliyi də».**

Sosial-iqtisadi çətinliklərdən istifadə edərək Azərbaycanda ictimai-siyasi vəziyyətə və iqtisadi tənəzzülün dərinləşməsinə hər vasitə ilə cəhd göstərən, Azərbaycanın dövlət istiqlaliyyətini öz şəxsi hikkələrinə və çirkin niyyətlərinə qurban verməyə çalışan daxili qüvvələrə qarşı mübarizə və bu mübarizədə dəfələrlə qalib gəlmək, Azərbaycan dövlətinin parçalanmasının və bir daha əsarət altına düşməsinin qarşısını almaq Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin ən yüksək və tarixi nailiyyətlərindən biri olmuşdur.

H.Əliyevin uzaqgörənliyi ondadır ki, o, bu çirkin niyyətli qrupları xəbərdar edərkən digər qanuni yollarla bərabər belə hərəkətlərin qarşısını xalqın, əhalinin özünün alacağını da onlara əvvəlcədən çatdırmışdı.

1994-cü il 17 sentyabr tarixli çıxışında H.Əliyev demişdir: **«Azərbaycanın daxili ictimai-siyasi sabitliyini pozanlara, Azərbaycan dövlətçiliyinə xəyanət edənlərə qarşı biz amansız olacağıq».**

Təəssüf doğuran odur ki, bu cinayətkar xəttin aparılmasında çox yüksək vəzifə və rütbə sahibi olan dövlət adamları da var idi. Və bu heç də H.Əliyev üçün bir sirr deyildi: **«Bizim sıralarımızda bəzi adamlar var ki, iki stul üzərində oturmaq istəyir - həm o tərəfdə, həm də bu tərəfdə. Bunlarla da qurtarmaq lazımdır... kimsə bu gün bu siyasətə, sabah döngəni o tərəfə dönəndə başqa bir siyasətə əl qaldırırsa, bizim sıralarımızda belə adamlar olmamalıdır. Onlar qulaqlarını açıb eşitsinlər: belələrini görürəm. Ancaq mən imkan verirəm ki, bu adamlar özləri haqqında lazımi tədbirlər görsünlər, düz yola gəlsinlər.» Bax budur, geniş ürək, dərin zəka, polad məntiq və dövlətçilik təcrübəsi təcəssümü.**

**Azərbaycanda zəngin və qüdrətli dövlət yaratmağın strateji əsasları Heydər Əliyev tərəfindən müəyyən olunmuşdur. Bu sözləri İlham Əliyev cənabları ölkə Prezidenti seçildiyi ilk günlər demişdir. «Biz Azərbaycanı son on ildə yaradılmış möhkəm təməl üzərində zəngin və qüdrətli dövlətə çevirəcəyik», deyən İlham Əliyevin qarşısına qoyduğu strateji məqsədin, onun iqtisadi konsepsiyasının lakonik ifadəsidir.**

**Ölkə Prezidentinin 2003-cü il 24 noyabr tarixli Fərmanı bu məqsədin praktiki reallaşma yollarını müəyyənləşdirir. Genişmiqyaslı proqram xarakterli bu sənəd, əldə olunmuş nailliyyətlərə, ölkədə yaranmış müsbət meyillərə əsaslanaraq uzun müddətli, çox səpkili vəzifələrin sistemli yerinə yetirilməsinə, sosial-iqtisadi inkişafın daha da sürətlənməsini təmin etməyə yönəlmişdir.**

**Fərman əhatə dairəsinə (sosial-iqtisadi həyatın bütün sahələrinə aid olması), üzərinə götürdüyü vəzifələrin mürəkkəbliyinə (dövlət proqramları, qanunlar hazırlanması), icra tempinin sürətinə (icranın 1-2 aya təmin olunması) görə fərqlənən,**



**çox gərgin quruculuq və yaradıcılıq işlərinin yerinə yetirilməsinə yönəlmişdir.**

**Fərmanın başlıca müddəalarının müəyyən olunduğu səviyyədə və müddətdə yerinə yetirilməsi, onların hər bir regionda, müəssisə və təşkilatlarda praktiki icrasının təmin olunması sosial-iqtisadi inkişafa dinamizm, əhaliyə yeni iş yerləri və xalqımıza daha yüksək sosial rifah səviyyəsi təmin edəcəkdir.**

Azərbaycan iqtisadiyyatı son 10 ildə sürətli inkişaf yolu keçmişdir. Sənaye və kənd təsərrüfatı məhsulları istehsalında, tikinti, nəqliyyat, ticarət və rabitə sahələrində, ÜDM istehsalı, dövlət büdcəsinin gəlirlərində 3-9 dəfə və daha çox artım baş vermişdir. İqtisadiyyatda baş verən struktur dəyişiklikləri qeyri-dövlət sektorunun rolunu artırmış, ÜDM istehsalında onun xüsusi çəkisi xeyli yüksəlmiş, özəl bölmə ölkədə iqtisadi artımın müəyyənedici amilinə çevrilmişdir.

Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası dərinləşmiş, xarici investisiyalar cəlb edilməsində ölkəmiz MDB dövlətləri arasında öncül yerə qalxmış, respublikamızda elmin, texnikanın, müasir rabitə və texnoloji sistemlərin təkmilləşdirilməsində ciddi irəliləyişlərlə səciyyələnən dinamik inkişaf baş vermişdir.

**Dövlət büdcəsi gəlirlərinin formalaşmasında neft və qeyri-neft sektorları arasında nisbətlər dəyişilmişdir. Qeyri-neft sektoru büdcə daxilolmalarının aparıcı amilinə çevrilmişdir. Həm də bu dəyişiklik neft sektorunun dinamik inkişaf etdiyi şəraitdə baş vermişdir.**

**Baş verən dəyişikliklər büdcə gəlirlərinin neft faktorundan asılılığının azalmasına, ölkənin iqtisadi müstəqilliyinin və milli təhlükəsizliyinin daha da möhkəmlənməsinə xidmət etmişdir.**

**Dövlət büdcəsinin gəlirləri 1993-cü ildə 53,6 milyard manat, 1994-cü ildə 504,8 milyard manat olduğu halda, 2003-cü ildə 6 trilyon manatdan, 2004-cü ildə isə 7 trilyon manatdan artıq olmuş, 2005-ci ildə isə 9,5 trilyon manat olacağı gözlənilir. Son on ildə iqtisadi artımın nə dərəcədə sürətlə baş verdiyi göz qabağındadır.**

**1994-cü ildə dövlətin strateji valyuta ehtiyatları olmamışdır. 2005-ci il aprel ayında bu ehtiyatlar 2 milyard dolları ötüb keçmişdir.**

Son 3-4 ildə ölkənin xarici ticarət dövriyyəsində balans dəyişilmiş, trilyonlarla manat müsbət saldo yaranmışdır. Təkcə 2003-cü ilin yanvar-oktyabr aylarında ölkənin xarici ticarət dövriyyəsinin ümumi həcmi 20 trilyon manat təşkil etmiş, ölkə üzrə 124 milyard manat müsbət saldo yaranmışdır.

Axırıncı 5-6 ildə əhalinin orta illik pul gəlirləri xərclərini 10-10,5 faiz üstələmiş, banklara qoyulan əmanət və depozitlərin artım tempi sürətlənmişdir.

Belə faktlar istənilən qədərdir. Bütün bunlar ümummilli liderimiz Heydər Əliyev cənablarının müəyyənləşdirdiyi iqtisadi siyasətin sistemli reallaşması nəticəsində mümkün olmuşdur.

Heydər Əliyev ömrünün son günlərində də xalqla birlikdə oldu. O, xalqın rifahını yüksəltmək üçün nə mümkünsə etdi. Yeritdiyi siyasətin bəhrələrindən istifadə edərək büdcə təşkilatlarında çalışanların aylıq əmək haqqını 50 faiz artırdı. Minimum əmək haqqını 27.500 manatdan, sentyabrın 1-nə 45 min manata, 2004-cü il yanvarın 1-dən isə 60 min manata çatdırmaq haqqında Fərman verdi.

Heydər Əliyev həmişə elm, incəsənət işçilərinə böyük qayğı göstərmişdir. Ömrünün son günlərində də özünə sadiq oldu. O, elmlər namizədi və elmlər doktoru elmi dərəcələrinə görə əmək haqqına verilən üstəliyi 5 dəfə qaldırdı. Pensiyaların, müavinatların, təqaüdlərin artımı sahəsində də ciddi tədbirlər gördü. Bunların hamısı faktdır.

İlham Əliyevin praktiki fəaliyyəti Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı olduğuna sübutdur. O, Heydər Əliyevin müəyyən etdiyi strateji xəttin ardıcıl yerinə yetirilməsi nəticəsində əldə edilmiş nailiyyətlərin hamısını qorumaq və daha da artırmaq siyasəti yeridir.

**İlham Əliyev cənabları iqtisadi siyasətin yeni strateji xəttini yaratmaq zərurəti qarşısında qalmadı. Çünki, bu strateji**



**xətt ümummilli liderimiz Heydər Əliyev tərəfindən 90-cı illərin ortalarında yaradılmışdı.**

**Heydər Əliyevin yaratdığı bu strateji xətt dünya sivil dövlətlərinin çoxillik təcrübəsində sınaqdan çıxmış, müsbət nəticələri sübut olunmuş iqtisadi inkişafa əsaslanırdı.**

**Heydər Əliyev respublikamızın təsərrüfatçılıq ənənələrini, milli xüsusiyyətlərini, sosial-iqtisadi gerçəkliyini ehtiva edən iqtisadi inkişafın Azərbaycan modelini yaratdı. Bu model havadan götürülməmişdi. O, dünya ölkələrinin əksəriyyətinin getdiyi bazar iqtisadiyyatı yoludur. O, çox formalı (plüralist) mülkiyyətçilik və təsərrüfatçılıq, azad sahibkarlıq, sərbəst rəqabətə meydan açan, liberal inkişaf modelidir. Fikrimizcə, Heydər Əliyevin formalaşdırdığı bu strateji xəttə alternativ yoxdur.**

**Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi siyasətin başlıca konturları İlham Əliyev cənablarına gərək oldu. İlham Əliyev mövcud strateji xətti yeni keyfiyyət halına yüksəltməli, onun reallaşmasına dinamizm gətirməli, sosial-iqtisadi inkişafı sürətləndirmək yolları və üsullarını müəyyən etməli oldu.**

**İlham Əliyev ölkənin sosial-iqtisadi inkişafını sürətləndirməyin proqramını müəyyən etdi.** Ölkə Prezidenti 2003-cü il 24 noyabr tarixli Fərmanında Nazirlər Kabinetinə, İqtisadi İnkişaf Nazirliyinə, Maliyyə Nazirliyinə, Vergilər Nazirliyinə, Təhsil Nazirliyinə, Səhiyyə Nazirliyinə, Mədəniyyət Nazirliyinə, Milli Banka və digər müvafiq icra hakimiyyəti orqanlarına bu proqramı reallaşdırmaq məqsədilə konkret tapşırıqlar verdi. Onların icraçılarını, yerinə yetirilmə müddətlərini, görülmüş işlərin nəticəsi barədə hesabatların verilmə vaxtlarını müəyyən etdi. Bu vəzifələrə aşağıdakılar aiddir:

- son illər qəbul olunmuş proqramların (kiçik və orta sahibkarlığın inkişafı proqramı, işsizliyin və yoxsulluğun azaldılması proqramı, turizmin inkişafı proqramı və s.) icrası vəziyyətini, yeni imkanlar və tələblər baxımından nəzərdən keçirib təhlil etmək,

qarşıya qoyulan vəzifələrin tam həcmdə və vaxtında yerinə yetirilməsinə nail olmaq;

- sosial infrastruktur sahələrinin, sənaye və kənd təsərrüfatı məhsulları istehsalının dinamik inkişafının enerjiyə tələbatını ödəmək üçün bütün imkanlardan istifadə edərək elektrik enerjisi istehsalını artırmaq;

- alternativ enerji mənbələrinin işə salınması və təsərrüfatçılıq dövriyyəsinə cəlb edilməsini təmin etməklə (günəş və külək enerjisindən istifadə etmək, kiçik həcmli su elektrik stansiyaları inşa etmək və s.) enerji istehsalı və təchizatını əhəmiyyətli dərəcədə artırmaq, müasir texnoloji sistemlərə əsaslanan, rəqabətqabiliyyətli istehsal və xidmət müəssisələri yaratmaq, iqtisadi inkişafa dinamizm gətirməklə yanaşı, dövlət büdcəsindən ölkənin enerji və qaz təchizatına hər il 300 milyon dollardan artıq vəsait sərfinə qənaət etməyə imkan verən tədbirlər görmək;

- iqtisadi, texniki, texnoloji və idarəçilik tədbirlərinin, vergi, gömrük, sığorta, bank və s. iqtisadi siyasət komponentlərinin koordinasiya olunmuş təsiri ilə ayrı-ayrı bölgələrdə yerli istehsalın stimullaşdırılmasını, məhsul bolluğu yaradılmasını təmin etmək;

- investisiya qoyuluşu üçün daha əlverişli şərait yaratmaq, onun qorunmasına təminatı artırmaq, investisiyaların təşviqində fəallığı gücləndirməklə daxili və xarici investorların iqtisadiyyata sərmayə qoyuluşunun artımına nail olmaq;

- ölkədə son illər uğurla aparılan aqrar islahatları daha da dərinləşdirmək, onun ikinci mərhələsinə keçidi təmin etmək, kəndli fermer təsərrüfatlarının bazar iqtisadiyyatı prinsiplərinə cavab verən, keyfiyyətcə yeni forma və qaydalara əsaslanan, müasir tipli kooperasiyalar (kollektiv əmək tətbiqi sahələri) təşkil etmək;

Fərman iqtisadiyyatın idarə edilmə sisteminin təkmilləşdirilməsi sahəsində sistemli tədbirlər həyata keçirmək, struktur və idarəetmə sistemində islahatları daha da dərinləşdirmək, idarəetmədə paralelçiliyi aradan qaldırmağa yönəlmişdir. Sahə idarəçiliyindən funksional idarəçiliyə keçidin təmin olunmasına Nazirlər



Kabinetindən başlamaq və tədricən idarəetmənin digər pillələrinin və strukturlarının bu prinsiplə fəaliyyəti təmin olunmalıdır.

Bəzi nazirliklərdə idarəetmənin həddindən ziyadə mərkəzləşməsinin iqtisadi inkişafın tormozuna çevrildiyi nəzərə alınmalı, digər nazirlik, dövlət komitələri və konsernlərin isə müasir tələblərə uyğun olaraq yenidən qurulması, ixtisarı, idarəetmə aparatı xərclərinin aşağı salınması təmin olunmalıdır.

Kifayət qədər əsaslandırılmadan aparılan idarəetmə və struktur islahatları bir sıra hallarda icra hakimiyyəti orqanlarının səlahiyyət və məsuliyyət balansında uyğunsuzluq yaranmasına səbəb olmuşdur. Misal üçün, Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsinin İqtisadi İnkişaf Nazirliyinin struktur bölməsinə çevrilməsi, onun antiinhisar siyasəti yeritmək imkanlarını heçə endirən dərəcədə zəiflətmişdir. Ölkənin sosial-iqtisadi sistemində antiinhisar siyasəti yeritməli olan qurumun idarəetmə konstruksiyasında kifayət qədər əsaslandırmadan aparılan dəyişikliklər onun fəaliyyətini öz funksiyalarını yerinə yetirməkdən tamam kənarlaşdırmışdır.

**Antiinhisar siyasəti ilə məşğul olan dövlət orqanını birbaşa ölkə Prezidentinə tabe olan müstəqil quruma çevirmədən, iqtisadiyyatın bütün sahələrində meydana gələn və hörümçək toru kimi onu boğan inhisarçılığın qarşısını almaq, sosial-iqtisadi inkişafa dinamizm gətirmək çətinliklərlə qarşılaşa bilər.**

**İnhisarçılığın, haqsız rəqabətin, qəsdən iflas olma meyillərinin qarşısını almaq, sağlam rəqabətə meydan açmaq, sosial-iqtisadi tərəqqini sürətləndirmək məqsədilə qanunvericilik çərçivəsində zəruri tədbirlərin həyata keçirilməsi təmin edilməlidir.**

Fərmanın tələblərinə görə:

- neft və qaz sənayesində gəlirlərin daha da artırılması və dövlət gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strateji xətt müəyyənləşdirilməli, o cümlədən ölkənin sosial-iqtisadi inkişaf problemlərinin həlli üçün Dövlət Neft Fondundan ayrılan vəsaitlərin büdcə xərcləri çərçivəsində ünvanlı istifadəsini həyata keçi-

rilməli, onların şəffaflığını təmin etmək məqsədilə əlavə tədbirlər görülməlidir. Fikrimizcə, Dövlət Neft Fondunun vəsaitlərini illik 2-3 faizlə dünyanın etibarlı banklarına qoymaqdansa, onun bir hissəsi, regionlarda qısa müddətdə gəlir gətirən istehsal və sosial infrastruktur sahələri yaradılmasına yönəlməlidir.

Sahibkarlığın inkişafı ilə bağlı əvvəllər qəbul edilmiş qərarların icrasını təmin etmək, özəlləşdirməyə açıq elan olunmuş müəssisələrin aşkarlıq və sosial ədalət prinsipləri ilə özəlləşdirilməsi, onların müəyyən hissəsinin idarəetməyə və icarəyə verilməsi sürətləndirilməlidir. Bu məqsədlə:

**- ölkədə və o cümlədən dövlət müəssisələrində maliyyə intizamını möhkəmlətmək və dövlət gəlirlərini artırmaq, xərclərin şəffaflığını, ünvanlılığını təmin etmək və səmərəliliyini yüksəltmək üçün iqtisadi cəhətdən əsaslandırılmış sistemli tədbirlər görülməlidir;**

**- dövlət büdcəsinin tərtibi üçün elmi cəhətdən əsaslandırılmış normativlərin, büdcə təsnifatı haqqında Qanunun hazırlanmasını sürətləndirmək və bütövlükdə büdcə sisteminin müasir tələblərə uyğun təkmilləşdirilməsini təmin etmək günün vacib məsələlərindən biridir;**

**- dövlət büdcəsi xərclərinin strukturunu təkmilləşdirmək, dövlət investisiya xərclərinin səpələnməsinə yol verməmək, büdcə vəsaitlərinin təyinatı üzrə və səmərəli istifadə olunmasını təmin etmək üçün radikal tədbirlər görülməlidir;**

**- dövlət satınalmaları sahəsində radikal dəyişikliklər aparmaq, dövlət vəsaiti hesabına satınalma prosedurlarının hazırlanması və təşkili qaydalarını təkmilləşdirmək, onların həyata keçirilməsinə maliyyə nəzarətini gücləndirmək, neqativ halların yaranmasını istisna edən mexanizmlər müəyyən etmək, dövlət vəsaitinin hər manatından istifadənin səmərəliliyini yüksəltmək üçün təxirəsalınmaz tədbirlər görülməlidir;**

**- sahibkarlıq subyektlərinin, fermer təsərrüfatlarının maliyyə resurslarına ehtiyacını ödəmək məqsədilə kreditlərin verilmə qaydalarını təkmilləşdirmək, kredit faizlərinin aşağı**








AZƏRBAYCAN
RESPUBLİKASI


COUNCIL
OF
EUROPE
CONSEIL
DE




YENİ AZƏRBAYCAN PARTİYASININ
II QURULTAYI















**düşməsinə təsir etmək, kreditlərin təyinatı üzrə istifadəsinə bank nəzarətini gücləndirmək, kreditlərdən istifadənin səmərəliliyini yüksəltmək üçün digər radikal tədbirlər həyata keçirilməlidir;**

**- dövlət mülkiyyətində olan müəssisə və təşkilatlarda maliyyə intizamını gücləndirmək, ödəməmələr problemini həll etmək, qarşılıqlı borcların yenidən əmələ gəlməsini istisna edən mexanizmlər yaradılması sürətləndirilməlidir;**

**- bank sistemində islahatları dərinləşdirmək və bank sektoru ilə real iqtisadiyyat arasında qarşılıqlı əlaqəni gücləndirmək, bankların iqtisadi inkişafa təsirini fəallaşdırmaq, bank xidmətlərinin kökündən yaxşılaşdırılmasına dair kompleks tədbirlərin müəyyən edilməsi və həyata keçirilməsi təmin olunmalıdır;**

**- əhalinin həyat səviyyəsinin ardıcıl yüksəldilməsini davam etdirmək məqsədilə əmək haqqı və pensiya sistemini təkmilləşdirmək və 2004-cü ilin birinci yarısında ölkənin iqtisadi inkişafının nəticələrini təhlil etmək və ilkin iqtisadi şərtlər yarandıqca əmək haqqı, pensiya və təqaüdlərin artırılması barədə təkliflər hazırlamaq, ölkə Prezidentinə təqdim etmək və onların reallaşmasını təmin etmək;**

- müvafiq icra hakimiyyəti strukturları ölkədə komunal islahatlar aparılmasını sürətləndirməli, bazar iqtisadiyyatı prinsiplərinə adekvat komunal təsərrüfatı sisteminin formalaşmasını təmin etməlidirlər;

**- ölkə Prezidentinin işsizliyin azaldılması və əhalinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunu təmin etmək üçün 600 min yeni iş yerləri yaradılması haqqında tövsiyələrin reallaşması dövlət və qeyri-dövlət sektorunda gündəlik iş proqramına çevrilməlidir;**

**- yeni iş yerlərinin yaradılması sahəsində görülən işlərin qarşıya qoyulmuş vəzifələrə cavab verməsi üçün respublikanın regionlarında orta hesabla hər il 120-130 min yeni iş yerləri yaradılması təmin edilməlidir;**

**- ölkə Prezidentinin qarşıdakı beşillikdə 600 min yeni iş yerləri yaratmaq haqqında tapşırıqlarının reallaşması üçün hər bir regionun, hər bir qəsəbənin müvafiq icra strukturları iş proqramı müəyyənləşdirməli, onların yerinə yetirilmə müddətlərini müəyyən etməli və icrasına gündəlik nəzarəti təmin etmək üçün tədbirlər görməlidirlər;**

- çadır şəhərciklərində məskunlaşmış qaçqınlar və məcburi köçkünlər üçün yeni müvəqqəti qəsəbələrin və evlərin tikilməsi, onların yaşayış şəraitini yaxşılaşdırmaq və işlə təmin olunmalarına kömək etmək məqsədilə xüsusi dövlət proqramları hazırlamaq barədə ölkə Prezidentinin verdiyi tapşırığın müvafiq icra hakimiyyəti orqanları tərəfindən vaxtında icra olunması təmin edilməlidir və s.

**- əhalinin pensiya təminatını yaxşılaşdırmaq məqsədilə sosial sığorta sistemində islahatların sürətləndirilməsinə və vətəndaşların pensiya təminatının müasir tələblər səviyyəsinə yüksəldilməsinə hüquqi baza yaratmaq üçün müvafiq icra hakimiyyəti orqanların müvafiq qanun layihəsini hazırlamaq haqqında tapşırıq verilmişdir.**

Möhtərəm Prezidentimizin fərmanında müəyyən edilmiş tapşırıqların hər biri çox böyük məna yükünə malik, geniş spektrli və səfərbəredici vəzifələrdir. Hamımızın mənafeyinə xidmət edən bu vəzifələrin reallaşması üçün çevik təşkilatçılıq, operativ idarəçilik tədbirləri müəyyən edilməli və onların sistemli həyata keçirilməsi təmin olunmalıdır.

Ölkə Prezidenti dövlət idarəetmə strukturunun xalqa daha da yaxınlaşmasını təmin etməyi mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinə bir vəzifə olaraq tapşırmışdır. O, dövlət idarəetmə strukturlarında vətəndaşların müraciətlərinə, ərizə və şikayətlərinə qanunla müəyyən edilmiş müddətdə baxmaq və onların qanuni tələblərinin vaxtında həll olunmasını təmin etmək, icra aparatında nizam-intizamı gücləndirmək üçün zəruri tədbirlər görmək barədə hər bir dövlət məmuruna ciddi tapşırıqlar vermişdir.

Ölkə Prezidentinin fərmanı respublikamızın iqtisadiyyatına dinamizm gətirən, xalqın rifahının yüksəlməsinə xidmət edən, dövlətin uzunmüddətli təsir gücünə malik sosial-iqtisadi inkişafı sürətləndirmək proqramıdır. Onun müəyyən olunmuş vaxtda və keyfiyyətdə icrasını təmin etmək üçün ölkə Prezidenti müxtəlif icra hakimiyyəti strukturlarına icra müddəti göstərilməklə tapşırıqlar vermişdir. Bu tapşırıqların əksəriyyətinin icrası üçün fərmanda müəyyən edilmiş vaxt artıq başa çatmışdır. Tapşırığın yerinə yetirilmə vəziyyəti, icra intizamı nəzərdən keçirilməli və görülmüş işlərin keyfiyyəti araşdırılmalı, analitik təhlil aparılmalı, hər bir icra strukturunun öz vəzifəsinə nə dərəcədə məsuliyyətlə yanaşması müəyyən edilməlidir. Müvafiq icra hakimiyyəti strukturlarının bir çoxu fərmanda irəli sürülən vəzifələri yerinə yetirmişlər. Lakin bu onların bir qisminə aiddir.

**Keçmiş illərin təcrübəsi göstərir ki, müvafiq icra hakimiyyəti strukturları rəhbərlərinin bəzisi ölkə Prezidentinin fərmanlarından irəli gələn vəzifələrin nə ruhunu tuta bilir, nə də bu fərmanlarda müəyyən olunmuş icra tempi ilə ayaqlaşa bilirlər. Təəsüflər olsun ki, sosial-iqtisadi inkişafın tormozuna çevrilmiş belələri indi də vardır.**

Bu gün başı öz şəxsi biznesinə qarışan dövlət məmurunun ona fərmanla tapşırılan işi müəyyən olunmuş müddətdə və keyfiyyətdə yerinə yetirməməsi, onların öz vəzifə səlahiyyətlərinə laqeydliyi, məsuliyyət hissinin itirmələri heç də təsadüfi hal deyil.

Biznesmen dövlət qulluqçusunun öz vəzifə səlahiyyətlərini şəxsi biznesinin inkişafına yönəltməsi heç kimə sirr deyildir. Sirr, belələrinin eyni vəzifədə 10-17-il oturmalarıdır. Belələri, tutaq ki, səfir işləyirsə, iqtisadi maraqları yaşadığı ölkə ilə o dərəcədə qovuşur (onların bəzisi səfir olduqları ölkədə özlərinə şəxsi mülk, villa, mini zavod, fabrik, emalatxana yaradıb) ki, çatışmayan təkcə işlədiyi ölkənin vətəndaşlığını qəbul etməkdən ibarət olur. Belələri səlahiyyət müddəti tamam olandan sonra elə həmin ölkədə qalmağı üstün tutacaqdır. Buna şübhə edilməməlidir. Belələrindən ölkəmizi təmsil edən səfir ola bilərmi? Eləcə də respublikada şəxsi biznesinin miqyası və dövriyyəsi, idarə etdiyi nazirliyin və ya

digər dövlət strukturunu üstələyən dövlət məmuru vaxtının 90 faizini öz şəxsi biznesinin inkişafına xidmət etməyə yönəltməyəcəkmi?

İcra intizamı, idarəçilik və işgüzarlıq qabiliyyətinə görə müasir tələblərə cavab verməyənlər mərkəzi icra orqanlarında da vardır. Onların dövlət büdcəsi haqqında qanunun tətbiqi ilə əlaqədar ölkə Prezidentinin 2000-ci, 2001-ci, 2002-ci, 2003-cü illərdə imzaladığı fərmanlardakı tapşırıqların bəzisinin vaxtında və tələb olunan səviyyədə icra etməmələri haqqında çoxsaylı misallar gətirə bilərik. Buna dövlət investisiyasının bölgüsü və təsdiqi haqqında tapşırığın bir ay əvəzinə 5-6 aya icra olunması, «Lizinq haqqında», «Səhmdar cəmiyyəti haqqında,» «Mühasibat uçotu haqqında», «Qiymətli kağızlar haqqında», «Banklar haqqında» və s. Qanunların hazırlanmasının bir il və daha çox gecikdirilməsi, elm, təhsil, səhiyyə və mədəniyyətin inkişafı haqqında məqsədli proqramların hazırlanması barədə tapşırıqların lazımi səviyyədə yerinə yetirilməməsi barədə çoxlu misallar çəkmək olar.

Ölkə Prezidenti 2003-cü il noyabrın 17-də Nazirlər Kabinetinin iclasında Heydər Əliyev kursuna, onun kadr siyasətinə sadiq olduğunu bir daha bəyan etmişdir. O qeyd etmişdir ki, Heydər Əliyev tərəfindən Azərbaycanda yaradılmış iqtisadi iqlim yeni, daha yüksək nəticələr əldə etmək üçün çox əlverişli şərait yaradır. Əlbəttə, hamıdan tələb edirəm ki, öz işinə məsuliyyətlə yanaşsın və öz vəzifə borcunu vicdanla yerinə yetirsin.

İlham Əliyev cənablarının orada irəli sürdüyü: **«hər birimizin gələcək fəaliyyəti nəticələrdən asılı olacaqdır»,** tezisi onun yeridəcəyi kadr siyasətinin strateji xəttinin ifadəsi idi. Fikrimizcə, əldə edilmiş nəticə hər bir məmurun dövlət tapşırığını müəyyən edilmiş vaxtda və lazımi keyfiyyətlə yerinə yetirməsinə meyar hesab olunmalıdır.

Ölkə Prezidenti İlham Əliyev cənablarının 2003-cü il noyabr tarixli Fərmanındakı tapşırıqların vaxtında və lazımi səviyyədə yerinə yetirilməsini təmin etməyən və ya edə bilməyən məmur öz xidməti mövqeyini müəyyən etməlidir. **Məsələ orasındadır ki,**



**hər bir işçinin səlahiyyəti ilə məsuliyyəti arasında balans olmalıdır. Hər bir icra strukturunun, işçinin dövlət idarəçiliyi ansamblında koordinasiya olunmuş fəaliyyəti təmin edilmədən müvəffəqiyyətə nail olmağın qeyri-mümkünlüyü nəzərə alınmalıdır. Ona görə də fərmanda göstərilən müddəaların vaxtında və müəyyən olunmuş səviyyədə yerinə yetirilməsini təmin etməyənlər haqqında adekvat tədbirlər görülməlidir. Onsuz Azərbaycanı son on ildə yaradılmış möhkəm təməl üzərində zəngin və qüdrətli dövlətə çevirmək çətinliklərlə qarşılaşa bilər.**

## 1.3. Heydər Əliyevin strategiyasına - stabillikdən Davamlı və dinamik inkişafa keçid

**Azərbaycan dünyanın böyük olmayan ölkələrindən biridir. Lakin Prezidentimizdə bəxtimiz gətirib. Ümummilli liderimiz Heydər Əliyev hazırki dünyanın ən təcrübəli və müdrik dövlət başçılarından olmuşdur. O, 30 ildən çox Azərbaycan Respublikasına rəhbərlik etmişdir.**

**Heydər Əliyev uzun müddət dünyanın super dövlətlərindən olan SSRİ kimi böyük dövləti idarə edənlərdən biri olmuşdur.**

**Heydər Əliyevin müdrik siyasətçi və dövlət başçısı olduğunu dünyanın ən məşhur adamları - Vladimir Putin, Əhməd Sezər, Süleyman Dəmirəl, Bil Klinton, Corc Buş, Nursultan Nazarbayev, Li Pen, Eduard Şevardanadze, Jak Şirak, Marqaret Tetçer və başqaları demişlər.**

**2003-cü il prezident seçkilərində möhtərəm Prezidentimiz Heydər Əliyev də öz namizədliyini irəli sürmüşdü. Seçkiqabağı görüşlər Azərbaycan əhalisinin 75-80 faizinin Heydər Əliyevə səs verəcəyinə əmin olmağa əsas verirdi. Lakin səhhəti imkan vermədiyindən möhtərəm Prezidentimiz Heydər Əliyev cənab-**

ları öz namizədliyini İlham Əliyevin xeyrinə geri götürdü.

Dövlət başçısı olmaq şərəfli olduğu qədər də ağır və məsuliyyətlidir. Azərbaycan xalqı 15 oktyabrda növbəti beşillikdə öz taleyini İlham Əliyevə etibar etdi.

İlham Əliyev ölkə Prezidenti seçiləndən bir ay yarım sonra ümummilli liderimiz uzun sürən xəstəlikdən sonra vəfat etdi. Açığını deyək ki, Heydər Əliyevdən sonra Azərbaycana rəhbərlik etmək çətin idi. Heydər Əliyev dünya prezidentlərinin ən təcrübəlisi, ən müdriki idi. O dünya prezidentlərinin patriarxı idi. Bunu dünya prezidentlərinin özləri deyirdilər.

Heydər Əliyev məktəbinin yetirməsi olan Prezident İlham Əliyev özünün nələrə qadir olduğunu sübut etdi. İlham Əliyev il yarımdan çox ölkəyə rəhbərlik etdiyi dövrdə həm daxili, həm də xarici siyasət sahəsində yüksək idarəçilik qabiliyyətinə malik olduğunu sübut etdi. O, ölkəyə rəhbərliyi prosesində, sadəcə olaraq Heydər Əliyev kursunun təkcə davamçısı deyil, onu yeni keyfiyyət halına yüksəltmək iqtidarında olduğunu sübut etdi.

İlham Əliyevin Heydər Əliyev cənablarının qurduğu möhkəm dövlətçilik bünövrəsinə əsaslanaraq, malik olduğu yeni iqtisadi təfəkkürü, müasir iqtisadi düşüncəsi, idarəçilik, təşkilatçılıq və diplomatik məharəti ilə uğurlar qazanır.

Azərbaycan əlverişli geosiyasi mövqeli, strateji nöqteyinəzərdən çox vacib, beynəlxalq kommunikasiya xətlərinin, Şimal-Cənub, Qərb-Şərq nəqliyyat dəhlizlərinin kəsişdiyi, təbii sərvətlərlə zəngin bir ölkədir.

Heydər Əliyev Azərbaycanı parçalanıb dağılmaqdan qurtardı. Sosial-siyasi stabillik yaratdı, tənəzzülün qarşısını aldı, sistemli iqtisadi islahatlar apardı, ölkənin iqtisadi inkişafına dinamizm gətirdi və s.

O, Azərabaycanı dünyaya tanıtdı. Avropa ailəsinə daxil olduq. Dünya iqtisadi inteqrasiyasına qoşulduq.

Azərbaycan Avropa, dünya iqtisadiyyatının tərkib hissəsinə çevrilir. İqtisadiyyatımız dünyanın ən yeni texniki və texnoloji sistemlərinə yiyələnir, idarəetmə prinsipləri və qaydalarına görə üstünlüklər əldə edir.



Xatırlatmaq istərdik ki, 1992-1994-cü illərdə iqtisadiyyatda tənəzzül hər il 20-24 faiz olduğu halda, 1997-2003-ci illərdə ümumi daxili məhsul istehsalının orta illik artım tempi 10 faiz təşkil etmişdir. Hazırda bütövlükdə dünya iqtisadiyyatının orta illik artım tempi 1,7-2 faiz təşkil edir, 2005-ci ildə ölkəmizdə ÜDM-də artım tempi 15 faizə yaxın olacağı, 2006-cı ildə isə 25 faizə çatacağı proqnozlaşdırılmışdır.

Son illər ölkədə aparılmış iqtisadi islahatların nəticəsi olan sahibkarlıq subyektlərinin yaranması özəl sektorun xüsusi çəkisinin artmasına səbəb olmuş, onun iqtisadi artımın aparıcı amilinə çevrilməsi ilə nəticələnmişdir.

1997-2004-cü illərdə kənd təsərrüfatı və sənayenin ayrı-ayrı sahələrində məhsul istehsalının artım tempi orta hesabla 10-17 faiz olmuşdur. Dövlət büdcəsinin gəlirləri və xərcləri isə qeyd olunan dövrdə 3 dəfədən çox artmışdır.

Dövlət büdcəsi kəsirinin optimal həddə olması olduqca vacibdir. Məlum olduğu kimi büdcə kəsiri, xərclərin gəlirlərdən artıq olan və yaxud büdcə xərclərinin gəlirlərlə örtülməyən hissəsidir. Müstəqillik illərinin əvvəlində büdcə kəsirinin ÜDM-ə nisbəti 10-14 faizə çatırdı.

Məlum olduğu kimi büdcə kəsirinin ÜDM-ə nisbəti 5-6 faizdən yüksək olduqda o inflyasiya yaradan, iqtisadi stabilliyi pozan faktora çevrilir. Həmin vaxt dövlət büdcəsi həqiqətən sosial-iqtisadi qeyri-stabillik yaradan mühərrikə çevrilmişdi. Bu həmçinin dövlətin borclamaya getməsinə təsir edər və gələcək naslin borc yükü ilə yüklənməsinə səbəb ola bilərdi.

Dövlət büdcəsi kəsirinin normal həddə endirilməsi üçün görülən sistemli tədbirlər 1997-2002-ci illərdə onun tədricən və ardıcıl olaraq azalması ilə nəticələndi. 2003-ci ildə büdcə kəsirinin yuxarı həddinin ÜDM-ə nisbəti 1 faizdən də aşağı olacağı gözlənilir. 2004-cü ildə isə büdcə kəsirinin ÜDM-ə nisbəti 0,8 faiz təsdiq olunmuş, faktiki icrada isə kəsir

olmamışdır. 2004-cü ilin dövlət büdcəsi 36 milyard manat profisitlə yerinə yetirilmişdir.

Qeyd olunanlar müstəqillik illərində dövlət büdcəsi kəsirinin 10-14 dəfə aşağı salındığını göstərir. Yəqin ki, yaxın illərdə biz kəsirsiz büdcə formalaşdırmağa nail olacağıq. Biz profisitli büdcə yaranmasını da təmin edə biləcəyik.

2003-cü ildə «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilmişdir. Qanuna dövlətin məcmu gəlirlərini əhatə edən konsolidə edilmiş, məcmu büdcə anlayışı daxil edilmişdir. Bu 2004-cü ilin büdcə müzakirələrində həmçinin büdcədənkənar dövlət fondlarını da nəzərdən keçirməli olduq. Bu sadəcə olaraq dövlətin il ərzində əldə etdiyi məcmu gəlirləri və xərcləri haqqında dürüst məlumat əldə etməyə deyil, habelə yığımla istehlak arasında optimal nisbət yaratmaq, bu sahədə koordinasiya edilmiş siyasət yeritmək üçün zəruridir.

Konsolidə edilmiş büdcəyə Dövlət Neft Fondu və Dövlət Sosial Müdafiə Fondu da daxildir. Bu həmin fondların funksional xassəsini dəyişdirmədən dövlətin illik məcmu gəlirlərini əhəmiyyətli dərəcədə artırmağa və onlardan istifadənin səmərəliliyini daha da yüksəltməyə şərait yarada bilər.

1994-cü ildən başlayaraq Azərbaycan Respublikasının büdcəsi həmişə sosial istiqamətli olmuşdur. Sosial istiqamətlilik təkcə büdcə xərclərinin əksər hissəsinin sosial sahələrə yönəlməsi ilə əlaqədar deyildir. Burada başlıca məsələ cari və perspektiv inkişaf istiqamətlərinin ən əlverişli əlaqələndirilməsini təmin etməkdir. Bu, habelə, sosial sahələrdə xərclərin strukturunun müəyyən edilməsi və görülən işlərin faydalılıq əmsalının yüksəldilməsi, iqtisadi artım tempinin gücləndirilməsi ilə bağlıdır.

1995-1996-cı illərdə ölkənin idxal-ixrac balansında saldo mənfi 600-700 milyon dollara bərabər idi. Bu həmin illərin dövlət büdcənin gəlirlərindən xeyli artıq idi. Dövlətin yeritdiyi siyasət idxal-ixrac balansında nisbətin dəyişilməsinə şərait



yaratdı. Hazırda ölkənin bu balansında müsbət saldo 400-500 milyon dollar təşkil edir. Burada məsələ təkcə müsbət saldo yaranmasında və onun kəmiyyətində deyil. Mühüm məsələlərdən biri də idxal və ixracın strukturunda keyfiyyət dəyişikliklərinin baş verməsində, onun respublikamızın maraqlarını daha dolğun ifadə etməsindədir.

1992-1994-cü illərdə ölkəni hiperinflyasiya bürümüşdü. İllik inflyasiyanın səviyyəsi 1700-1800 faizə çatmışdı. Dövlətin 1992-ci ildə apardığı islahatlarda naşılıq və səriştəsizliyin hökm sürməsi onun başlıca səbəbi idi. Həmin vaxt iqtidarda olanlar, iqtisadi islahatların «arxitektorları» istehsalçıları sərbəstləşdirmədən, istehsal inhisarçılığını aradan qaldırmadan 1992-ci il yanvarın 1-də qiymətləri sərbəstləşdirdilər.

Əmtəə qıtlığı şəraitində qiymətlərin sərbəstləşdirilməsi ekstremal vəziyyət yaratdı. Qiymətlər həndəsi silsilə ilə artdı. Bu ölkə əhalisinin qısa müddətdə var-yoxdan çıxmasına, müəssisələrin isə dövriyyə vəsaitlərini itirmələrinə səbəb oldu.

Ölkədə kütləvi surətdə yoxsullaşma başlandı. 1992-1997-ci ilərdə ölkəmizdə inflyasiyanın artım tempi əhalinin pul gəlirinin artımını dəfələrlə qabaqlamışdır.

AXC-Müsavat cütlüyü strateqlərinin «apardıqları islahatlara» dözməyən müəssisələr, bunlar isə əksəriyyət təşkil edirdilər, kütləvi surətdə dayandılar. İşsizlik artdı. Bütün bunlar təbii ki, əhalinin həyat səviyyəsinin kəskin surətdə pisləşməsinə təsir etdi.

AXC-Müsavat cütlüyünün yeritdiyi siyasət uzun müddət davam edə bilməzdi. Təsadüfi adamlar ölkəni uçuruma yuvarlatdılar. Özlərinin yaratdıqları vəziyyətdən çıxış yolu tapa bilmədilər. Vaxtilə Heydər Əliyevə hədyanalar oxuyanlar, iki dəfə Naxçıvana təyyarə göndərdilər. Xahiş-minnətlə Heydər Əliyevi ölkə rəhbərliyinə dəvət etdilər.

Çoxlu ziddiyyətlər, ikibaşlı oyunlar baş verdi. Heydər Əliyev ölkəni ümummilli böhrandan çıxarmaq məsuliyyətini öz üzərinə götürməli oldu.

Heydər Əliyevin dövləti idarəetmək səriştəsi və yeritdiyi məqsədyönlü büdcə-vergi, pul-kredit, idxal-ixrac, tarif siyasəti 90-cı illərin ortalarında ölkəni ümummilli böhrandan çıxarmağa imkan verdi. Bu barədə sonra daha ətraflı bəhs edəcəyik.

Son illər ölkəmizdə illik inflyasiya 5-6 faiz təşkil etmişdir. Əhalinin pul gəlirinin illik orta artım tempi 24-25 faizdir. Əhalinin pul gəlirinin artım tempi inflyasiya tempini 4-5 dəfə üstələmişdir. Bu əhalinin alıcılıq qabiliyyətinin artmasına, deməli onların rifahının yüksəlməsinə təsir etmişdir. Bütün bunlar mücərrəd sözlər, rəqəmlər deyil, real faktlardır.

Ölkə Prezidenti 2003 və 2004-cü illərin hər birində büdcə təşkilatlarında çalışanların, habelə digər dövlət müəssisə və təşkilatların işçilərinin əksəriyyətinin aylıq əmək haqqının 50 faiz və daha çox artımını təmin etdi.

1992-1993-cü illərdə ölkə iqtisadiyyatına xarici investisiyalar qoyuluşu olmamışdır. Səbəblər çoxdur. Öncə ölkədə sosial-siyasi və iqtisadi qeyristabillik mövcud idi. Xarici investorlar ölkədə sosial-siyasi stabilliyin olmamasından təbiət boşluqdan qorxan kimi qorxur. Ölkədə sosial-siyasi stabillik yaradılandan sonra respublikamıza xarici investisiya axını sürətləndi.

Ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşu 1997-2002-ci illərdə orta hesabla hər il 1 milyard dollara yaxın olmuşdur. 2003-cü ildə isə o 2 milyard dollar, 2004-cü ildə 4,6 milyard dollar, 2005-ci ildə isə 5 milyard dollardan çox olacağı gözlənilir. Rəsmi məlumatlara görə qarşıdakı 3 ildə Azərbaycan iqtisadiyyatına 10 milyard dollara yaxın xarici investisiya qoyulacaqdır.

Ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşu dövlət başçısına beynəlxalq aləmdə inam və etimadın göstəricisidir. Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşu MDB dövlətlərinin əksəriyyətini üstələyir. Bu İlham Əliyev cənablarının beynəlxalq aləmdə yüksək imicə malik olmasının bariz ifadəsidir.

Dünyada ölkə haqqında imic formalaşmasında beynəlxalq



təşkilatlar mühüm rol oynayırlar. Avropa Şurasının, ATƏT-in, Beynəlxalq Valyuta Fondunun, Avropa Yenidənqurma və İnkişaf Bankının, Dünya Bankının, digər beynəlxalq təşkilatların və maliyyə institutlarının rolu danılmazdır. Burada Avropa Şurasının və ATƏT-in xüsusi rolu ayrıca qeyd edilməlidir.

Dövlətin tapşırığı ilə İlham Əliyev Avropa Şurasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik edirdi. O, Azərbaycanın mövqeyini, nüfuzunu yüksəltdi, Avropa Şurasında ölkəmizin xeyrinə olan bir sıra ciddi qərarlar qəbul etməsini təmin etdi.

Avropa Şurası və ATƏT-in işində iştirak edən Azərbaycan nümayəndə heyətinin koordinasiya olunmuş fəaliyyətini təmin etmək üçün biz ciddi səy göstərirdik. Heç bir mübaliğəsiz İlham Əliyevin prinsipial mövqeyi onun Avropa diplomatları ilə konstruktiv dialoq aparmaq və onları inandırmaq qabiliyyətinin əks-sədası ATƏT-in iclaslarına da gəlib çatırdı.

Avropa Şurasında 40-dan çox, ATƏT-də isə 56-dan çox ölkənin parlamentçiləri təmsil olunur. Deməli, müzakirə olunan məsələlərdə 56 dövlətdən seçilmiş parlament nümayəndələri iştirak edir və dövlət haqqında formalaşan fikir onlarla ölkələrə yayılırdı.

Ölkənin dinamik inkişafı üçün son 10 ildə çox işlər görülmüşdür. Görülən işlər AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu zaman yol verdikləri neqativ halları aradan qaldırmağa imkan vermişdir.

2005-ci ilin fevralında ölkənin strateji valyuta ehtiyatları 2 milyard dollardan çox olmuşdur. Bütün bunlar nəticədir. Onlar göstərir ki, ölkə Prezidentinin müəyyən etdiyi iqtisadi siyasət strategiyası Azərbaycanın maraqlarına cavab verir. Dövlətin iqtisadi fəaliyyəti isə mövcud reallıqdan irəli gəlir və xalqın rifahının yüksəlməsinə xidmət edir.

Respublikamızın son 10 ildə inkişafı göz qabağındadır. Bütün bu işlərin görülməsində, ölkə iqtisadiyyatına dinamizm gətirilməsində İlham Əliyevin xidmətləri danılmazdır.

**Sosial-iqtisadi inkişafda müvəffəqiyyətlər şəksizdir. Lakin həllini gözləyən problemlər də çoxdur. Dağlıq Qarabağ problemi onların ən ağrılısıdır. İşsizlik və yoxsulluq problemləri də mövcuddur. İşsizliyin və yoxsulluğun azaldılması üçün dövlət proqramları qəbul olunmuş və hazırda onlar sistemli həyata keçirilir.**

**Bu problemlərin hər birinin özünə məxsus həlli qaydaları, metodları mövcuddur. Məlum olduğu kimi yoxsulluğu azaltmağın «açarı» yeni iş yerlərinin yaradılmasındadır. İlham Əliyev cənabları yaxın illərdə ölkəmizdə 600 min yeni iş yeri yaradılacağını bəyan etmişdir. Bu vəd inamla yerinə yetirilir.**

**Ölkə Prezidenti Dağlıq Qarabağ probleminin həlli üçün aparılan sistemli işin qarşıdakı illərdə daha radikal tədbirlər görməklə davam etdiriləcəyini bildirmişdir.**

**Qaçqın və məcburi köçkünlər üçün respublikamızın regionlarında inşa edilmiş qəsəbələr torpaqlarımızın azad olunması uğrunda aparılan mübarizəni əsla dayandırmır. Bu sahədə İlham Əliyev cənablarının diplomatik uğurları Dağlıq Qarabağ probleminin qısa müddətdə həll olunacağına ümid etməyə əsas verir.**

**Qeyd olunanları ümumiləşdirərək demək olar ki, ölkə Prezidenti möhtərəm İlham Əliyev cənabları seçki platformasında irəli sürdüyü vəzifələri inamla yerinə yetirir. O, Nazirlər Kabinetinin 2003-cü il 17 noyabr tarixli iclasındakı nitqində qarşıda duran vəzifələrin 2003-cü il 24 noyabr tarixli Fərmanında ölkənin sosial-iqtisadi inkişafını sürətləndirməyin, 2003-cü il 26 dekabr tarixli Fərmanında büdcə-vergi siyasətinin iqtisadi inkişafa təsirini gücləndirməyin geniş spektrli proqramını vermişdir.**

**Müstəqillik illərində ölkəmizdə fundamental islahatlar aparılmış, torpaq kəndlilərə paylanmış, kənd təsərrüfatı məhsulları istehsalçılarına vergi kanikulu (torpaq vergisi istisna olmaqla) verilmiş və digər güzəştlər edilmişdir. Dövlətin yeritdiyi siyasət kənd təsərrüfatı məhsulları istehsalının sürətli artımına səbəb olmuş, məhsul bolluğu yaranmasına təsir etmişdir. Bütün bunlar faktdır. Lakin kənd təsərrüfatı məhsulları istehsalının sürətli artımı emal müəssisələrinin çatışmaması ilə qarşılaşmışdır.**



**Keçmişdən qalma emal müəssisələrinin əksəriyyəti AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə dağıdılmış, avadanlıqları satılmış, qalanları isə yararsız hala salınmışdır. İşləyən emal müəssisələri çatışmadığından alın təri ilə istehsal edilmiş kənd təsərrüfatı məhsullarının xeyli hissəsi zay olub gedir, malqara yeminə çevrilir.**

Dövlət Proqramında hər bir regionda yeni istehsal və sosial infrastruktur sahələri yaradılması üçün tədbirlər nəzərdə tutulur. Azərbaycan iqtisadiyyatına 2008-ci ildə investisiya qoyuluşu 16,8 milyard dollara çatacaq, yəni indikinə nisbətən iqtisadiyyata investisiya qoyuluşu dəfələrlə artacaqdır.

ÜDM istehsalı 2003-cü ildəki 35 trilyon manatdan 2008-ci ildə 76,3 trilyon manata çatacaqdır. Adambaşına ÜDM istehsalı 3,9 milyon manatdan, 7,8 milyon manata yüksələcəkdir. İqtisadiyyatda qeyri-dövlət bölməsinin xüsusi çəkisi 73 faizdən 85 faizə çatacaqdır. Bu müddət ərzində kənd təsərrüfatı məhsulları istehsalında sürətli inkişaf baş verəcək, onun artımı 62,5 faizə bərabər olacaqdır.

**Proqramda, həmçinin mövcud istehsal müəssisələrinin bərpası və yenidən qurulması, onların texnoloji sisteminin müasirləşdirilməsi nəzərdə tutulur. Fikrimizcə, bu sahəyə diferensial yanaşma tələb edir. Texnoloji sistemi hazırki şəraitə uyğun gəlməyən, rəqabətqabiliyyətli məhsul istehsalına yararlı olmayan müəssisələrin kosmetik təmirlə fəaliyyətini bərpa etmək, anbar üçün məhsul istehsalına vəsait sərf etmək olardı.**

**Fəaliyyəti 1992-ci ildən indiyə kimi dayanmış bu müəssisələrin texnoloji vəziyyəti ciddi təhlil edilməli, onların rəqabətqabiliyyətli məhsul istehsalına yararlı olmayan avadanlıqları təkrar emal üçün istifadəyə verilməli, onlar ən yeni texno-**

**loji sistemlərlə əvəzlənməlidirlər. Əgər anbar üçün istehsal etmək istəmiriksə, onda radikal addımlar atmalıyıq.**

**Proqramda regionlarda sosial infrastruktur sahələrinin yaradılması və inkişafına xüsusi əhəmiyyət verilir. Onsuz regionlara xarici investisiyalar cəlb edilməsini, xaricilərlə birgə müəssisələr yaradılmasını, istehsal və reallaşma problemlərinin birgə həllini, yerli istehsalın dünya iqtisadiyyatına inteqrasiyasını təmin etmək mümkün olmazdı.**

**Dövlət Proqramında regionların xammal, material və intellektual potensialı hesabına yerli istehsalın inkişafını sürətləndirmək üçün tədbirlər müəyyən edilmişdir.**

**Biz yerli xammal bazasında fəaliyyət göstərən keyfiyyətcə yeni tipli kiçik və orta müəssisələr yaratmalıyıq. Müasir texnoloji sistemə əsaslanan, ən az xərclə, yüksək keyfiyyətli, təkcə daxildə deyil, habelə xaricdə rəqabətqabiliyyətli məhsullar istehsal edən müəssisələr işə salınmalıdır.**

Əvvəlcədən deyirik ki, Nazirlər Kabinetinin, icra strukturlarının hamısı, eləcə də qanunverici orqanın 2003-cü ilə nisbətdən daha çox fəal çalışmaları **«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2004-2008)»** müəyyən olunmuş vəzifələri yerinə yetirməyə xidmət edə bilər. Həm də yeni iş yerləri yaradılması ilə yanaşı, hər il yüzlərlə kiçik və orta müəssisələrin rəqabətə davam gətirə bilməyərək müflisləşəcəyi, fəaliyyətini dayandıracağı, yeni işsizlər ordusu yaranacağı nəzərə alınmalıdır. Ona görə də yeni iş yerləri yaradılması tempi ilə işsizlərin gözlənilən artımı arasında balans təmin edilməlidir.

**Dövlət Proqramında yeni iş yerləri yaratmaq haqqında müəyyən edilmiş tədbirlərin mənası təkcə iqtisadi nəticələrlə məhdudlaşmır. O uzun müddətli sosial-siyasi stabilliyə iqtisadi təminat yarada bilər. Bu isə öz növbəsində regionlara yeni xarici investisiyalar cəlb edilməsinə, orada xaricilərlə birgə müəssisələr yaradılmasına, yerli sahibkarların iqtisadiyyata investisiya qoyuluşlarının stimullaşdırılmasına təsir edər və deməli, istehsalın yeni yüksəlişinə şərait yarada bilər.**



**Dövlət regionların üstün inkişafını təmin etməklə iş qüvvəsinin, əhalinin regionlardan Bakıya axınının Bakıdan regionlara axınla əvəzlənməsinə nail olmağa çalışır. Bu olduqca vacibdir. Regionlardakı əhalinin xeyli hissəsinin iş yerləri tapmaq üçün Bakıya gəlmələri Bakının infrastruktur sahələrində, kommunikasiya sistemində gərginliklər yaranmasına səbəb olmuşdur. Bu hazırda da davam etməkdədir.**

**Regionlardakı əhalinin Bakı şəhərinə axını respublikanın ucqar rayonlarında da problemlər yaradır. Bu ucqar və dağlıq rayonların, sərhəd bölgələri kəndlərinin, o cümlədən blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının dağ kəndlərinin bəzisinin boşalması ilə nəticələnir. Təbii ki, bu təkcə iqtisadi məsələ deyildir. Onun hansı nəticələr verə biləcəyini əvvəlcədən dərk etməli və müvafiq tədbirlər görməliyik.**

**Hər bir rayonda yerli xammal bazasında fəaliyyət göstərən, rəqabətqabiliyyətli, ixracyönümlü məhsullar istehsal edən emal zavodları yaradılması yüksək iqtisadi səmərə verməklə yanaşı, regionlarda işsizlik, yoxsulluq və miqrasiya problemlərinin həllinə təsir edə bilər. Ona görə də Dövlət Proqramında müvafiq icra hakimiyyəti strukturlarına konkret tapşırıqlar verilmişdir. Proqramda yerli resurslar bazasında hər bir regionun sosial-iqtisadi inkişafını təmin edən ünvanlı vəzifələr müəyyən edilmişdir.**

**Dövlət Proqramının yerinə yetirilməsi müvafiq icra hakimiyyəti orqanlarının gərgin işləməsini tələb edir. Yolların abadlaşdırılması, alternativ enerji mənbələrinin (günəş, külək, su enerjisi və s.) təsərrüfatçılıq dövriyyəsinə cəlb edilməsi, regionların enerji təchizatının yaxşılaşdırılması, müasir tələblərə cavab verən istehsal və sosial infrastruktur sahələrinin yaradılması Dövlət Proqramında günün vacib vəzifəsi kimi irəli sürülür.**

**Fikrimizcə, regionların hamısının birdənbirə inkişafını təmin etmək çətinliklərlə qarşılaşa bilər. Burada əsaslı vəsait qoyuluşunun səpələnməsini istisna edən, maddi və maliyyə**

resurslarından istifadənin səmərəliliyinin yüksəlməsinə təsir edən regionların blok sistemli inkişafını təmin etmək məqsədəuyğun olardı.

**Dünya təcrübəsi regionların üstün inkişafını təmin etmək üçün xüsusi iqtisadi zonaların (XİZ) yaradılmasının böyük əhəmiyyətə malik olduğunu sübut etmişdir. Bu, yeni istehsal və sosial infrastruktur sahələri yaradılmasını, regionlara xarici investisiyalar cəlb edilməsini, xarici iş adamları ilə birgə müəssisələr yaradılmasını, yerli resursların təsərrüfatçılıq dövriyyəsinə cəlb edilməsini sürətləndirə bilər.**

**Fikrimizcə, Azərbaycanın bir neçə regionunun, o cümlədən blokada vəziyyətində olan Naxcıvan Muxtar Respublikasının xüsusi iqtisadi zonaya çevrilməsi onların sosial-iqtisadi inkişafında radikal dəyişikliklər yaradar, məşğulluq, yoxsulluq, milli və iqtisadi təhlükəsizlik problemlərinin həllinə təsir edər.**

**Maliyyə problemlərini həll etmədən regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi mümkün deyil.** Bu dövlət büdcəsi, xarici investisiya qoyuluşları, xaricilərlə birgə müəssisələr yaradılması, yerli iş adamlarının vəsaitləri və bank kreditləri hesabına təmin edilə bilər.

Fikrimizcə, maliyyə resurslarının regionlar arasında səpələnməsinə yol verməmək üçün hər bir regionun sosial-iqtisadi inkişafının məqsədli proqramları hazırlanmalı və bütün maliyyə vəsaitləri onların ardıcıllıqla reallaşmasını təmin etməyə yönəldilməlidir.

**Regionlarda kredit alınması sahəsində mövcud problemlər aradan qaldırılmalıdır. Girov problemi həll olunmalı, kreditlər üçün faizin optimal səviyyəsi təmin edilməlidir.**

**İqtisadi qanunauyğunluqlara əsasən kredit faizi həmişə mənfəət normasından aşağı olmalıdır. Onsuz kredit almaq iqtisadi mənasını itirmiş olar. Kredit faizinin orta mənfəət normasından nə dərəcədə aşağı olması kreditə tələblə, kredit təklifi arasındakı nisbətdən asılı olaraq formalaşır.**

Paradoksal vəziyyət əmələ gəlib. Respublikamızda iqtisadiyyatın orta rentabelliyi 14-15 faiz olduğu halda, kreditlər 19-21 və daha yüksək faizlə verilir. Respublikamızda bir ayı 5-6 faizlə kredit verən mikrokredit bankları da vardır. Dövriyyə sürəti yüksək olan kommersiya strukturları üçün bu faiz, bəlkə də, məqbuldur. Lakin 19-21 faizlə kredit almaq real iqtisadiyyat üçün qətiyyən sərfəli deyildir. Bu, son nəticədə banklar üçün də əlverişli deyildir. Ən azı verilən kreditlərin banklara geri qayıtma əmsalı onların faiz dərəcəsinə tərs mütənasib olaraq dəyişdiyi üçün.

**Bazar iqtisadiyyatında kredit faizinin səviyyəsini tələb-təklif nisbətləri müəyyən edir. Lakin ümumi qanunauyğunluq vardır - kreditə tələbat nə qədər yüksək olsa belə kredit faizi orta mənfəət normasına bərabər ola bilməz.** Respublikamızda bank kreditinə faizin səviyyəsi orta mənfəət normasını üstələyir. Bu şəraitdə kreditdən istifadə etməklə əldə edilən mənfəət, habelə yaranan gəlirin özü də kredit faizini ödəməyə gedir. Deməli, belə kreditləri almaqla nəinki qazanc əldə etmək, istehsal xərclərini və vergiləri də ödəmək mümkün deyil. İstehsal müəssisələri bu cür kreditləri almaqla özlərinin maliyyə vəziyyətini daha da ağırlaşdıra bilərlər.

**Bankların iqtisadiyyata kredit qoyuluşunun ÜDM-ə nisbəti onların iqtisadi inkişafda roluna meyar hesab oluna bilər. Dünya ölkələrində iqtisadiyyata kredit qoyuluşunun ÜDM-ə nisbəti 80-100 faiz və daha yüksək olduğu halda, respublikamızda o 13-14 faiz təşkil edir. İqtisadiyyata kredit qoyuluşunun regionlarda yaranan ÜDM-ə nisbəti isə 3 faizdən də aşağıdır. Bu, bankların Azərbaycan iqtisadiyyatının inkişafında passiv rol oynadığına sübutdur.**

**Kredit qoyuluşunun ÜDM-də xüsusi çəkisinin aşağı olmasının səbəbi kreditlərə ehtiyacın az olması ilə əlaqədar deyildir. Kreditlərin 20 faizlə verilməsi ona tələbin təklifi üstələdiyinə sübutdur.**

**İqtisadiyyata kredit qoyuluşunun tələbatdan az olmasının səbəbləri çoxdur. Onlardan başlıcası, fikrimizcə, -** 1) kreditlərin verilməsində bürokratik əngəllərin çox olması və 2) kreditlərə faiz

dərəcəsinin iqtisadiyyatın orta rentabellik səviyyəsindən yüksək olmasıdır.

**2004-2008-ci illərə dair Dövlət Proqramının reallaşması, regionlarda kredit verilməsi prosedurunu sadələşdirməyi, girov qoyuluşu probleminin təkmilləşdirilməsini, kənd rayonlarında girov qoyma sahəsində yaranan əngəllərin aradan qaldırılmasını, kredit faizinin səviyyəsini real iqtisadiyyatın inkişafına uyğunlaşdırmağı zərurətə çevirir.**

**Real iqtisadiyyatın inkişafına maliyyə təminatı yaradılmasında uzunmüddətli kreditlər mühüm rol oynayırlar. İnvestisiyaya transformasiya olunan bu kreditlər ümumi kredit qoyuluşunun 17-25 faizini təşkil edir. Regionlara uzun müddətli kredit qoyuluşları artırılmalı, kreditlərdən istifadənin səmərəliliyinə və onların müəyyən olunmuş müddətdə geri qaytarılmasına bank nəzarəti gücləndirilməlidir.**

**Bankların demək olar ki, 97-98 faizi səhmdar kommersiya banklarından ibarətdir. Onların hər biri sahibkarlıq subyektləridir. Özlərinə məxsus resurslardan onlar tələb-təklif nisbətləri əsasında formalaşan faizlə kredit verirlər. Heç kim onlara kredit faizinin səviyyəsini aşağı salmaq barədə tapşırıq verə bilməz.**

**Banklar müstəqildir. Onların müstəqilliyi qanunla müəyyən edilir. Kredit faizinə, onun səviyyəsini aşağı salmağa inzibati metodlarla təsir etmək imkanı tükənmişdir. Dövlət fəal pul-kredit siyasəti yeritməklə, pula tələblə, pul təklifi arasında nisbətləri dəyişməklə, kredit faizinin səviyyəsinə təsir edə bilər. Deməli, ölkədə yeridilən pul-kredit siyasətinin regionların inkişafına təsiri gücləndirilməlidir.**

**Respublikamızda banklar Bakıda cəmləşmişdir. Regionlarda onların filialları, şöbələri, nümayəndəlikləri mövcuddur. Onların çoxu yalnız müəssisə və təşkilatlar arası köçürmələrlə, bank xidməti göstərməklə məşğuldur. Bank fəaliyyəti ilə müstəqil məşğul olmaq, kredit vermək imkanı və səlahiyyəti onların xeyli hissəsində yoxdur.**



**Regionların inkişafını təmin etmək üçün ipoteka bankları yaradılmalıdır. Bankların yaradılması və fəaliyyət göstərməsinin qaydaları və prinsipləri qanunla müəyyən edilir. «İpoteka haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur.**

**Dövlət büdcəsindən kiçik və orta sahibkarlığın inkişafına verilən kreditlərə faiz dövlət tərəfindən müəyyən edilə bilər və edilir də. Bu kreditlər 7 faizlə verilir. Lakin büdcə vəsaiti hesabına verilənlər kreditə tələbatın cüzi bir hissəsini ödəyir. Təəssüflə qeyd etməliyik ki, bu kreditlərin verilməsində də burokratik əngəllər və digər neqativ hallar mövcuddur.**

Büdcədən güzəştli şərtlərlə kiçik və orta sahibkarlığın inkişafına kreditlərin verilməsində, fikrimizcə, hər bir rayonda olan Kredit İttifaqlarının xidmətindən istifadə olunması məqsədəuyğun olardı. Bu həmin kreditlərə faizin səviyyəsini bir qədər də aşağı salmağa, ən azı 4 faizə endirməyə, təyinatı üzrə, maksimum səmərəli istifadə etməyə və vaxtında geri qayıtmasına şərait yaradardı.

**Kredit İttifaqlarından və Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyindən verilən kreditlərin şərtləri, qaydaları və prinsiplərində oxşarlıqlar çoxdur.**

Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyindən verilən kreditlərin faizi aşağı, geri qayıtma əmsalı isə 98 faiz təşkil edir. Orada krediti alanlar bir-birini tanıyanlardır. Kredit İttifaqları verilmiş kreditlərin təyinatı üzrə və səmərəli istifadə olunmasına gündəlik nəzarəti həyata keçirmələrində problem yoxdur.

**Kredit İttifaqlarında kreditlər yalnız payçılara verilir. Onlar birgə fəaliyyət göstərən, bir-birini tanıyan və gündəlik fəaliyyətləri biri-biri ilə əlaqəli olan bir ittifaqda birləşmiş şəxslərdir. Qarşılıqlı nəzarət kreditlərin təyinatı üzrə səmərəli istifadəsini və vaxtında qaytarılmasını təmin etməyə şərait yarada bilər. Fikrimizcə, Kredit İttifaqları dövlət büdcəsindən kiçik və orta sahibkarlığın inkişafına güzəştli şərtlərlə verilən**

kreditlərin təyinatı üzrə istifadə olunmasında və regionların inkişafına maliyyə təminatı yaradılmasında banklara nisbətən daha fəal rol oynaya bilər.

Fikrimizcə, «Azərbaycan Respublikası regionlarının sosial - iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008)» uğurla reallaşması və regionların sosial-iqtisadi inkişafını sürətləndirmək üçün:

- regionlarda müasir tipli istehsal və sosial infrastruktur sahələrinin, xidmət müəssisələri və obyektlərinin yaradılması sürətləndirilməlidir;

- kənd təsərrüfatında iqtisadi islahatların ikinci mərhələsinə keçid təmin edilməli, regionlarda aqroservizlər şəbəkəsi, kollektiv əməyə əsaslanan istehsal və xidmət müəssisələri yaradılmalıdır;

- regionlarda lizinq fəaliyyəti və əməliyyatlarından istifadə dairəsininin əhəmiyyətli dərəcədə genişləndirilməsi təmin edilməlidir;

- daha əlverişli investisiya mühiti formalaşdırılmalı, regionların sosial-iqtisadi inkişafına daxili və xarici investorlar cəlb edilməli, respublikanın regionlarına investisiya qoyuluşlarının artımı stimullaşdırılmalıdır;

- regionların idarəetmə sistemi təkmilləşdirilməli, sahə idarəçiliyindən funksional idarəçiliyə keçid təmin olunmalıdır;

- regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsini gücləndirmək məqsədilə xüsusi gömrük, vergi rejimlərinin tətbiqindən geniş istifadə olunmalıdır;

- dağlıq və ucqar rayonların inkişafını sürətləndirmək üçün diferensial vergi dərəcələri, vergi güzəştləri, vergi kanikulları tətbiq olunmalıdır;

- regionların bəzi istehsal və xidmət sahələrini, eləcə də yolları müəyyən müddətə xarici dövlətlərin idarəçiliyinə verilməsi, birgə istehsal və sosial infrastruktur müəssisələri yaradılması praktikasından geniş istifadə edilməlidir;



- ən başlıcası regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün hakimiyyətin müxtəlif qollarının, müxtəlif icra strukturlarının koordinasiya olunmuş fəaliyyəti təmin olunmalıdır. Təəssüflər olsun ki, bu gün hakimiyyət strukturlarının işində ən çox çatışmayan - onların praktiki fəaliyyətlərində pərakəndəlik, sahə maraqları orbitindən kənara çıxa bilməməkdir.

İcrasını təmin edə bilmədikləri dərəcədə çox səlahiyyət toplamaq, işin nəticəsinə görə məsuliyyətdən isə yaxasını kənara çəkmək bir sıra icra hakimiyyəti orqanları rəhbərlərinin əlamətdar cəhətinə çevrilmişdir. Onların bir çoxunun sahə maraqları prinsiplərinə, şəxsi biznes mənafelərinə əsaslanmaları regionların sosial-iqtisadi inkişafının sürətlənməsinə maneələr yaradır. Unudulmamalıdır ki, koordinasiya olunmuş fəaliyyəti təmin etmədən iqtisadi fəaliyyətin səmərəliliyini yüksəltmək və dinamik inkişafa nail olmaq qeyri-mümkündür.

Hamıya məlumdur ki, yoxsulluq problemini həll etməyin açarı yeni iş yerlərinin yaradılmasındadır. Yerli istehsalın stimullaşdırılması regionlarda zəncirvari reaksiya yaradar, əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsini yüksəltməyə, yoxsulluq həddində yaşayanların sayını azaltmağa, iş qüvvəsinin regionlardan Bakı şəhərinə axınının qarşısını almağa, miqrasiya problemlərinin həllinə təsir edə bilər.

Proqramda irəli sürülən vəzifələrin yerinə yetirilməsi müvafiq icra hakimiyyəti strukturlarından olduqca gərgin və koordinasiya olunmuş fəaliyyət göstərmələrini tələb edir.

Qarşıya qoyulmuş vəzifələrin uğurla icrası görüləsi işlərin mənasını, miqyasını və əhəmiyyətini olduğu kimi dərk etməkdən və onların icrasına dövlətçilik mövqeyindən yanaşmaqdan, icra prosesində operativlik göstərilməsindən çox asılıdır.

Acı həqiqət olsa da qeyd etməliyik ki, icra strukturlarında çalışanların bir qismi Dövlət Proqramında irəli sürülmüş vəzifələrin nə ruhunu olduğu kimi dərk edə, nə də onun icrasında öz yerini görə və məsuliyyətini dərk edə bilirlər.

Strategiyasını ölkə Prezidentinin müəyyən etdiyi Dövlət Proqramı Azərbaycanın sosial-iqtisadi inkişafının yüksək sürətli artım tempini nəzərdə tutur. İcra strukturlarına rəhbərlik edənlərin xeyli hissəsi ölkə Prezidentinin müəyyənləşdirdiyi regionların sosial-iqtisadi inkişafının nə yüksək templi inkişafının zəruriliyini, nə məzmununu kifayət qədər anlayır, nə də bu templə ayaqlaşmağa qadir olduqlarını təsdiq edə bilirlər.

İcra strukturlarının yüksək mərtəbələrində əvvəldən potensialı olmayan və yaxud 10 ildən çox eyni kresloda oturan və rəhbərlik etdiyi sahənin inkişafını təmin etmək üçün potensialı çoxdan tükənənlər istənilən qədərdir. Beləlari Nazirlər Kabinetində və Prezident Aparatının özündə də az deyildir.

Onların bir çoxu «özəlləşdirdikləri» kreslodan istifadə edib güclü biznes sahibi də olmuşlar. Hökumət telefonlarını, möhürünü, kabinetlərini, qərar, sərəncam vermək səlahiyyətlərini şəxsi biznesini qorumağa, mənfəətini artırmağa yönəldənlər olmuşdur. Təəssüflə qeyd etməliyik ki, beləlari indi də vardır.

Özünün özəl kommersiya strukturlarının illik dövriyyəsi rəhbərlik etdiyi nazirliyin dövriyyəsindən çox olanın eyni zamanda yüksək dövlət vəzifəsini (Nazir, Dövlət Komitəsinin sədri, Dövlət Konserninin, Şirkətin prezidenti) tələb olunan səviyyədə icra etməsi, fikrimizcə, mümkün deyildir.

Dövlət qulluqçusu, həqiqətən, dövlət qulluqçusu olmalı, bu qulluğun əhatə dairəsində xalqına, dövlətinə xidmət etməlidir. Bizcə, bu dilemma birmənalı həll olunmalıdır - ya dövlət qulluğu, ya da biznes fəaliyyəti, ikisindən biri qalmalıdır.

Dövlət Proqramının reallaşmasına şəxsi biznes maraqları prizmasından baxmaqla, dövləti və xalqı aldatmaqla, xalqa və dövlətə xidmət etmək olmaz. Özlərinə «monopolist» imici qazanmış beləlari ilə dövlət əmlakını, büdcə vəsaitlərini artırmağa nail olmaq, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasını təmin etmək çətinliklərlə qarşılaşa bilər. Bunu unutmamalıyıq.



# FƏSİL II. HEYDƏR ƏLİYEV STRATEGİYASINA VARİSLİK VƏ İNKİŞAFIN YENİ KEYFİYYƏT HALI

## 2.1. İlham Əliyev Azərbaycanı güclü, demokratik ölkəyə çevirmək strategiyasının davamçısıdır

İlham Əliyev Azərbaycanın sosial-iqtisadi həyatında və eləcə də professional siyasətində yeni şəxsiyyət deyildir. İlham Əliyev 1995-ci ildən Azərbaycan parlamentinin üzvü, hakimiyyətdə olan partiya sədrinin birinci müavini olmuşdur. O, 10 ilə qədər ARDNŞ-in birinci vitse-prezidenti, Azərbaycan Respublikasının neft siyasətinin formalaşması və reallaşmasında, Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafında, bir sıra çox vacib sərmayələrin cəlb olunmasında, ən vacibi Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru kəməri ilə bağlı danışıqların aparılmasında və sazişlərin bağlanmasında məsul şəxs olmuşdur.

İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasının sədr müavini və büro üzvü kimi fəaliyyəti də ölkəmiz və dövlətimiz üçün çox mühüm əhəmiyyətə malik olmuşdur. Onun Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, qaçqın və məcburi köçkünlərimizin öz doğma el-obasına qayıtmaları iələ əlaqədar Avropa Şurasının Parlament Assambleyasındakı gərgin fəaliyyəti olmuşdur. İlham Əliyevin Azərbaycanla Ermənistan arasındakı münasibətlər barədə Respublikamızın haqlı tələblərini Avropa parlamentçilərinə çatdırılmasında və onlarda obyektiv fikirlərin formalaşmasında mühüm rolu olmuşdır. 2005-ci il yanvarın axırlarında Avropa Şurasının Parlament Assambleyasında Ermənistanın rəsmən işğalçı dövlət adlandırılması, Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının dərhal azad olunması haqqında müzakirələrin aparılması və müvafiq qərarın qəbul olunması bilavasitə İlham Əliyev cənablarının xidmətidir.

Onun Azərbaycan Olimpiya Komitəsinin prezidenti kimi

**respublikamızda idmanın inkişafındakı, regionlarda idman komplekslərinin yaradılmasındakı böyük xidmətləri xüsusi qeyd olunmalıdır. Hazırda həm Bakıda, həm də respublikamızın bir çox şəhərlərində elə Olimpiya-İdman Kompleksləri vardır ki, onlar bəzi Avropa ölkələrində olanlardan heç də geri qalmırlar.**

**Biz respublikamızda idmanın inkişafına geniş mənada baxırıq. Bu, gənclərimizin fiziki sağlamlığına, onların boş vaxtlarını səmərəli istifadə etmələrinə, ölkəmizin müdafiə qabiliyyətinin möhkəmlənməsinə xidmət edən, mənəvi borclarını yerinə yetirməyə qabil nəslin yetişməsinə şərait yaradır.**

**Qeyd olunanların nəticəsidir ki, bir tərəfdən beynəlxalq yarışlarda Azərbaycan bayrağını ucaldan idmançılarımızın sayı artır, digər tərəfdən Azərbaycan beynəlxalq yarışların keçirildiyi regionlardan birinə çevrilir.**

**İlham Əliyevin peşəkarlığı, qətiyyətliliyi, prinsipiallığı, cəsarətliliyi və ali insani keyfiyyətləri hamıya bəlli olduğu üçün o, prezident seçkilərində də uğur qazandı.**

Peşəkar siyasətçi kimi İlham Əliyevin sosial-iqtisadi proseslərdə mövqeyi ölkənin strateji maraqlarından irəli gələn məntiqi nəticələrə əsaslanır. Bu strateji xətt iqtisadi cəhətdən çox inkişaf etmiş ölkələrin idarə olunmasında on illərlə sınaqdan çıxmış, müsbət nəticələri ilə sübut olunmuş tərəqqi yoludur. Bu xətt genetik olaraq Heydər Əliyevin müəyyən etdiyi yoldur.

Heydər Əliyev əsas götürmüşdür ki, biz dünya sivil dövlətlərinin inkişaf yolundan təcrid olunmuş təsərrüfatçılıq metodlarına əsaslana bilmərik. Dünya qabaqcıl ölkələrinin təsərrüfatçılıq təcrübəsində müsbət nə varsa biz yerli şəraitə uyğun gələnləri öyrənməli və istifadə etməliyik. Bütün bunlar Azərbaycanın iqtisadi siyasət strategiyasının hansısa inkişaf etmiş ölkənin təcrübəsinin respublikamıza köçürülməsi demək deyildir. Bu strateji xətt Azərbaycan iqtisadiyyatının, təsərrüfatçılıq tərzinin, istehsal və işgüzarlıq ənənələrinin, milli iqtisadi düşüncə və təfəkkür tərzinin



məhsuludur. Hesab edirik ki, Azərbaycanda formalaşmış iqtisadi siyasət strategiyası ölkəmizin, xalqımızın maraqlarına cavab verir.

Azərbaycanın 1993-cü ildən sonrakı inkişafının əsaslandığı strateji xətt müvəffəqiyyətlərimizin əsasını təşkil edir. Müstəqil Azərbaycan Respublikasının 10 ildən çox sosial-iqtisadi inkişafı bu strateji xəttə alternativin olmadığını sübut etmişdir. **İlham Əliyev ən əvvəl bu strateji xəttə əsaslanır. Bu xətt onun üçün doğmadır. Ən azı ona görə ki, İlham Əliyev hazırki strateji xəttin formalaşması və reallaşmasının ən fəal iştirakçılarından biri olmuşdur. İlham Əliyev xüsusilə neft strategiyasının formalaşmasında çox mühüm rol oynamışdır.**

Təbii ki, ölkənin hazırki inkişaf meyilləri nəzərə alınmaqla bu strateji xəttin daha da təkmilləşdirilməsi, onun reallaşma formaları, metodları, qaydaları, prinsipləri və üsullarının daha da fəallaşdırılması vacib idi. Ölkə iqtisadiyyatına dinamizm gətirən daha çevik üsullardan istifadə edilməsi ön plana keçmişdir.

**Deputat olduğumuz dövrdən İlham Əliyevin müasir iqtisadi təfəkkürə, yeni iqtisadi düşüncəyə malik şəxsiyyət olduğunu bilirdik. O, Heydər Əliyevin iqtisadi siyasət konsepsiyasına yeni nəfəs, müasir impulslar gətirdi. Bu mövcud strateji xəttin sadəcə olaraq təkrarı deyildir. İlham Əliyevin konsepsiyasına formalaşmış, ictimai-siyasi, sosial-iqtisadi kursa varisliklə, ölkənin gələcək inkişafına dinamizm gətirən yeni keyfiyyət halı səciyyəvidir.**

İlham Əliyev neft siyasətinin formalaşması və reallaşmasında, Dövlət Neft Fondunun yaradılmasında, habelə Bakı-Tibilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişi ilə bağlı müqavilələrin bağlanması və praktiki işlərin icrasında böyük xidmətləri olmuşdur. Elə respublikamızın rayonlarının təbii qazla təminatında, Qaradağ rayonunun sosial-iqtisadi inkişafında, respublikanın bir sıra bölgələrində artıq başa çatmış, bəzilərində isə tikintisi davam etməkdə olan idman komplekslərinin inşası və s. İlham Əliyevin xidmətlərindəndir.

Azərbaycan iqtisadiyyatında neft faktorunun rolunun çox olma-

sı yenilik deyildir. Bu daha qədim zamanlardan belədir. Neft amili Azərbaycanın sosial-iqtisadi həyatında həmişə çox mühüm rol oynamışdır. Hələ uzun müddət bu belə də olacaqdır. Lakin rəqabətə əsaslanan hazırki şəraitdə neft sektorunun dinamik inkişafı üçün sərmayələr cəlb edilməlidir. Əlverişli şərtlərlə xarici investisiyalar cəlb etmədən neft sektorunu yeni keyfiyyət halına qaldırmağın mümkün olmadığını hamımız bilməliyik.

Dövlət başçısının Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşu üçün yaratdığı əlverişli mühit, sosial-siyasi stabillik, hüquqi baza, əlverişli iqtisadi əməkdaşlıq rejimi və s. sərmayə axınının sürətlənməsinə təsir etdi. **1994-cü ildən, yəni ilk böyük neft müqaviləsi, «Əsrin Müqaviləsi» imzalanandan sonra indiyə kimi Azərbaycan iqtisadiyyatına külli miqdarda xarici sərmayə qoyulmuşdur.** Ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi və dünyanın məşur şirkətləri ilə birgə müəssisələrin yaradılması geniş spektrli sosial-iqtisadi nəticələr verir:

**Birincisi,** dünyanın ən məşhur konsorsiumları ilə birgə müəssisələrin yaradılması (təkcə neft sektorunda 30-dan çox ölkənin iştirak etdiyi 20-dən çox müqavilə imzalanmışdır) Azərbaycan iqtisadiyyatına inqilabiləşdirici təsir edir. Ən əvvəl onların bir çoxu hazırda gəlir gətirir və Azərbaycan öz payına mütənasib olaraq gəlirin bölgüsündə iştirak edir. Neft konsorsiumlarının iştirakçısı kimi Azərbaycanın əldə etdiyi gəlirlər Dövlət Neft Fondunda cəmləşir.

**İkincisi,** xarici müəssisələrin, konsorsiumların iştirakı ilə birgə müəssisələrin yaradılması Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına birbaşa inteqrasiyasına, dünyanın ən yeni texniki və texnoloji sistemləri, qabaqcıl idarəetmə üsullarına yiyələnməsinə şərait yaradır.

**Üçüncüsü,** neft strategiyasının tərkib hissəsi kimi birgə müəssisələrin yaradılması hazırki dövrün ən vacib məsələsi olan reallaşma probemini həll etməyə şərait yaradır.

Hazırda təkcə istehsal etmək azdır. Bir tərəfdən rəqabətqabiliyyətli məhsullar istehsal olunmalı, digər tərəfdən dünya bazarında



onların reallaşması üçün yer tapmaq lazım idi.

Başlıca vəzifələrdən biri hazır məhsulların reallaşmasını təmin etməkdən ibarətdir. Dünyanın iri dövlətləri, məşhur konsorsiumları ilə birgə müəssisələrin yaradılması istehsal və reallaşma problemini texnoloji proseslərin tərkib hissəsi kimi birgə həll etməyə şərait yaradır.

**Dördüncü,** neft sektoruna yığılan vəsait iqtisadiyyatın digər sahələrinin inkişafına sərmayə qoyuluşu mənbəyinə çevrilir. Deməli, neft sektorunun inkişafı iqtisadiyyatın bir sıra əlaqəli sahələrinin, sosial və istehsal infrastruktur müəssisələrinin yaranmasına və inkişafına təsir etmişdir. Bu, əvvəl qeyd etdiyimiz kimi, son illər neft sektorunda baş verən inkişafın, iqtisadiyyatın digər sahələrini öz ardı ilə aparan güclü lokomotivə çevrildiyini göstərir.

**Beşincisi,** respublikamızda yüksək əmək haqqı verilən yeni iş yerlərinin yaradılmasıdır. Bu, birgə müəssisələrin əhəmiyyətli cəhətlərindən biridir. Karbohidrogen ehtiyatlarının kəşfiyyatı, istehsalı, daşınması və reallaşması, habelə, əsas ixrac boru kəmərinin çəkilişi istiqamətində görülən işlərdə 20 mindən çox Azərbaycan vətəndaşı çalışır.

Məlum olduğu kimi, Dövlət Neft Fondunun yaradılması və onun fəaliyyəti İlham Əliyevin ARDNŞ-dəki apardığı gərgin işlə birbaşa bağlı idi. İlham Əliyev bu Fonda güclü iqtisadiyyat yaratmaq vasitəsi kimi baxır, onu iqtisadi inkişafa dinamizm gətirmək aləti hesab edir. O, Fondun gəlirlərinin iqtisadiyyatın tarazlı inkişafına, yeni iş yerlərinin yaradılmasına, xalqın rifahının yüksəldilməsinə təsirinin başlıca istiqamətlərini müəyyən etmişdir.

Stabilləşdirmə və yığım funksiyalarını yerinə yetirən Dövlət Neft Fondu Azərbaycanın bu günü və gələcəyi, onun dinamik inkişafı və xalqa firavan həyat şəraiti yaratmaq üçündür. Bu müxtəlif ölkələrin konsorsiumları ilə birgə neft çıxaran və reallaşdıran dünya ölkələrində də belədir.

Neft, qaz və s. zəngin təbii sərvətlər hesabına büdcə gəlirlərini artırmaq imkanlarına malik olan dünya ölkələri az deyildir. Həmin ölkələr belə gəlir mənbələrinin daimi olmadığını nəzərə alaraq:

- iqtisadiyyatın birtərəfli inkişafının, dövlət büdcəsi gəlirlərinin bir mənbədən (neftdən) asılılığının neqativ nəticələr verəcəyini anlayaraq;

- ölkənin bütün texniki, iqtisadi və intellektual potensialını təsərrüfatçılıq dövriyyəsinə cəlb etməyin zəruriliyini dərk edərək;

- sosial-iqtisadi idarəçiliyin operativ həyata keçirilməsinə, ölkənin iqtisadi və milli təhlükəsizliyinin təmin edilməsinə şərait yaratmağın vacibliyini anlayaraq;

- gələcək nəslin həyatı və taleyinin dünya bazarının konyuktur dəyişgənliyindən asılılığına yol verməmək, onların öz taleyini özünün müəyyən etməsinə şərait yaratmaq üçün stabilləşmə və ehtiyat fondları yaradırlar.

XX əsrin ortalarından sonra dünyanın 15-dən çox ölkəsində belə fondlar yaradılmışdır. Yaranma mənbələrinə, bölgü prinsiplərinə, təyinatına, idarə olunma metodlarına və üsullarına görə onların bir sıra xüsusiyyətləri vardır.

Fondların yaradılmasında məqsəd neftin, qazın, əlvan metalların dünya qiymətlərinin kəskin dəyişildiyi dövrlərdə dövlət büdcəsinin gəlirləri və xərcləri arasında tarazlığı təmin etmək, eləcə də təbii sərvətlərin ehtiyatları tükəndiyi halda belə gələcək nəsillərin yaşaması, fəaliyyət göstərməsi və inkişafına normal şərait yaratmaqdan ibarət olmuşdur.

Mütəxəssislər ayrı-ayrı ölkələrdə neft ehtiyatlarının tükənmə müddətini müəyyən etmişlər. Azərbaycanda bu ehtiyatların 2045-2050-ci illərdə tükənəcəyi ehtimal olunur.

Fikrimizcə, texniki iqtisadi əsaslandırmalar, hesablamalar aparılmalı, 40 ildən sonra hazırki enerjini əvəz edəcək yeni enerji növünün tələbatı ödəyə biləcəyi müəyyən edilməli, yeni enerjinin maya dəyərinin hazırkinə nisbətən yuxarı və ya aşağı olması aydınlaşdırılmalıdır.

Respublikanın hazırki və gələcək istehsalı və məişətinin əsaslanacağı yeni enerji növünün müxtəlif spektrlərdən müqayisəli təhlili aparılmalı, analitik təhlillər əsasında karbohidrogen ehtiyatlarına, onlardan istifadə edilmə qaydalarına, formalarına və prinsiplərinə dair elmi cəhətdən əsaslandırılmış tövsiyələr verilməlidir.



Hazırki və gələcəkdə kəşf olunan yeni enerjidən uzun müddət paralel istifadə olunacağı təqdirdə onların bir müddət paralel istifadə olunacağına şübhəmiz yoxdur, mövcud karbohidrogen ehtiyatlarının istismar olunma, onların təsərrüfatçılıq dövriyyəsinə cəlb olunma tempinə sosial-iqtisadi səmərəlilik nöqteyi nəzərdən yanaşılmalıdır.

Dövlət Neft Fondu neft strategiyasının tərkib hissəsi kimi əmələ gəlmişdir. Ora yığılmış vəsaitin xeyli hissəsi qaçqın və məcburi köçkünlərin ən zəruri ehtiyaclarını ödəməyə sərf edilmişdir. 2003-cü ildə isə Dövlət Neft Fondu vəsaitlərindən büdcə təşkilatlarında çalışanların aylıq əmək haqqının artırılması üçün istifadə olunmuşdur.

Ölkə Prezidentinin neft strategiyası respublikamıza külli miqdarda investisiya axınına, ən yeni texnoloji sistemlər və qurğular, idarəetmə üsulları gətirilməsinə, yüksək əmək haqqı verilən yeni iş yerləri yaradılmasına xidmət etmişdir.

Heydər Əliyevin müəyyənləşdirdiyi və həyata keçirilməsinə rəhbərlik etdiyi iqtisadi siyasət strategiyasına alternativ yoxdur. Məhz bu siyasətin nəticəsində Azərbaycan son illər bütün sahələrdə böyük inkişafa nail olmuşdur. Hər bir sahədə - iqtisadiyyatda, idmanda, ordu quruculuğunda və s. inkişaf baş vermişdir.

İlham Əliyev əvvəllər də neft siyasətinin formalaşması və reallaşması ilə məşğul olurdu. İndi onun fəaliyyət dairəsi əhəmiyyətli dərəcədə genişlənmiş, yeni keyfiyyət halı almışdır. Dövlət başçısı bütövlükdə iqtisadiyyatın cari vəziyyəti və operativ idarə olunmasına rəhbərlik etməli olur. Burada məsələ təkcə fəaliyyət dairəsinin genişlənməsində deyil, bu fəaliyyətə daha çox yeni keyfiyyət halının səciyyəvi olmasındadır. İndi ən vacib məsələ iqtisadiyyatın ayrı-ayrı sahələrinin koordinasiya olunmuş fəaliyyətini təmin etməkdən ibarətdir.

Bu təkcə neft sektorunun sahələrini deyil, bütövlükdə makroiqtisadi səviyyəli idarəetməni nəzərdə tutur. **Konkret desək, bu**

**büdcə-vergi, pul-kredit, tarif-qiymət, struktur, idarəetmə, investisiya və s. siyasətinin koordinasiyasını nəzərdə tutur.**

**Əgər belə demək mümkünsə, iqtisadiyyat sahələrinin hər birinin öz orbitində fəaliyyət göstərməsi qarmaqarışıqlıq, hərcmərclik yaradırsa, onların koordinasiya olunmuş fəaliyyəti iqtisadiyyatda ahəngdarlıq yaranmasına təsir edir.**

**Unutmamalıyıq ki, iqtisadi hərcmərclik tənəzzüllə nəticələnirsə, ahəngdarlıq iqtisadi artımın sürətlənməsinə, xalqın rifahının yüksəlməsinə xidmət edir.**

İlham Əliyev müasir iqtisadiyyatı mükəmməl bildiyi, yeni iqtisadi düşüncəyə və iqtisadi təfəkkürə malik olduğu üçün iqtisadi idarəçiliyə operativlik gətirəcəkdir. Biz ona əminik.

İlham Əliyev idarəetmə sistemində radikal islahatların təşəbbüsçüsüdür. Onun idarəetmədə paralelçiliyi aradan qaldıracağına, koordinasiya olunmuş iqtisadi fəaliyyəti yeridəcəyinə əminik. İlham Əliyev cənablarının iqtisadi idarəçiliyə yenilik gətirəcəyinə də əmin olmağa kifayət qədər əsasımız vardır.

İlham Əliyevin Avropa və Amerikada qazandığı nüfuz ölkəmizin beynəlxalq aləmdə əlaqələrinə, müsbət imicinin daha da genişlənməsinə səbəb olacaqdır. Belə imicin formalaşması iqtisadi inteqrasiyanın genişlənməsi və dərinləşməsinə, iqtisadiyyatımızın dünya təsərrüfatı sisteminə qovuşmasına təsir edə bilər.

İlham Əliyev stabilliyin daha da möhkəmlənməsi və inkişafına, beynəlxalq aləmdə müsbət imicin formalaşmasına təsir etməklə, daha əlverişli investisiya mühitinin yaranmasına nail olmaqla, onun respublikamıza xarici investisiya axınının sürətlənməsinə təsir edəcəyinə şübhə edilməməlidir. Elə qarşıdakı 3 ildə Azərbaycan iqtisadiyyatına 10 milyard dollar məbləğində sərmayə qoyulacağı barədə danışıqlar buna əsas verir.

Bir sözlə İlham Əliyev cənablarının fəaliyyəti iqtisadi inkişafa dinamizm, xalqa firavanlıq və yüksək həyat səviyyəsi gətirəcəyinə biz inanırıq. Bu inamın reallığa çevrilməsi üçün hər kəs öz işi ilə məşğul olmalı, hər kəsin öz vəzifə borcunu qanunla müəyyən olunduğu kimi yerinə yetirməsi gərəkdir.



## 2.2. Azərbaycan: müstəqil, hüquqi, demokratik dövlət quruculuğu

Heydər Əliyev Azərbaycan üçün təkcə Prezident olmamışdır. O kiçik fasilələrlə 35 il Azərbaycanın rəhbəri olmuş, minlərlə zavod, fabrik, sosial-mədəni obyektlər, istehsal və sosial infrastuktur sahələri yaradılmasını, xalqın rifahının yüksəldilməsini təmin etmişdir.

Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələn zaman ölkə fəlakətli uçurum astanasında idi. Həmin vaxt Azərbaycana başçılıq edənlərin başları ərazimizi deyil, kreslosunu qorumağa, çoxlu sərvət toplamağa, rəqiblərini fiziki cəhətdən sıradan çıxarmağa qarışan başqanlarımız özləri istəmədən kəndlərimizin, şəhərlərimizin bir-birinin ardınca işğal olunmasına şərait yaratdılar.

Heydər Əliyev uzunmüddətli perspektiv üçün seçimimizi müəyyənləşdirdi. İqtisadi, siyasi, sosial və digər sahələrdə həyata keçirdiyi islahatlarla Azərbaycanın uzunmüddətli inkişafının əsas istiqamətlərini müəyyən etdi. Ona görə də xalqımız Heydər Əliyevə yalnız Prezident kimi deyil, müasir Azərbaycanın yaradıcısı, bütün həyatını xalqın rifahı və firavanlığına həsr etmiş bir şəxsiyyət kimi baxır. Hazırda Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu Azərbaycan Prezidenti İlham Əliyev cənabları inamla yerinə yetirir.

İlham Əliyev əvvəllər də siyasi fəaliyyətlə məşğul olmuşdur. Əlbəttə, Neft Şirkətinin Birinci Vitse Prezidenti və ya Milli Olimpiya Komitəsinin sədri kimi siyasi fəaliyyətlə məşğul olmaq və prezidentlik tam fərqlidir. Prezident dövlətin fəaliyyəti, qəbul etdiyi bütün qərarlar üçün məsuliyyət daşıyır. Bu keçid dövrü ölkələrin əksəriyyətində belədir.

Siyasi təsisatların uzun illərdən bəri bərqərar olduğu hüquqi dövlət formalaşması prosesi başa çatdığı ölkələrdə vəziyyət fərqlidir. Keçid dövrünü yaşayan ölkələrdə isə baş verən bütün proseslərin məsuliyyət yükü Prezidentin çiyninə düşür. Bu, İlham

Əliyevin indiki fəaliyyətini prezidentliyə qədərki fəaliyyətindən fərqləndirən başlıca cəhətlərdəndir. O indi sadəcə olaraq daha çox işləyir və hər zaman dövlət əhəmiyyətli məsələləri həll edir, qərarlar, sərəncamlar və fərmanlar imzalayır, bir sözlə, öz üzərinə ciddi məsuliyyət götürməli olur.

Heydər Əliyevin siyasi, sosial-iqtisadi strategiyasına, onun fəaliyyət prinsiplərinə sadiq olan İlham Əliyev mövcud siyasi kursa bağlı olmuşdur. Bu təkcə genetik bağlılıqla əlaqədar deyildir. Başlıcası ondan ibarətdir ki, İlham Əliyev bu siyasi kursun formalaşması və reallaşmasının ən fəal iştirakçılarından biri olmuşdur.

Röyter agentliyinə müsahibəsində İlham Əliyevin dediyi kimi, ölkəmiz statik vəziyyətdə qala bilməzdi. Onun müxtəlif istiqamətlərdə inkişafı zəruri idi. Ona görə də indi əvvəlki dövrlərdən xeyli fərqlənə bilən qərarlar qəbul oluna bilər. Ona təbii baxmaq lazımdır. Ölkə özünü müasirləşdirir. Cəmiyyətimizin demokratikləşməsi, əhalinin müxtəlif qrupları arasında milli birliyə nail olunması istiqamətində uğurlu addımlar atılır.

İlham Əliyev cənabları ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi və icrasına rəhbərlik etdiyi sosial-iqtisadi inkişaf kursunu sadəcə təkrar etmir, onu yeni keyfiyyət halına yüksəldən siyasət yeridir.

**«Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)», 600 min yeni iş yerlərinin yaradılması, iqtisadi islahatların 2-ci mərhələsinə keçidlə bağlı görülən işlər, özəl sektorun, iqtisadiyyatın qeyri-neft bölməsinin, regionlarda istehsal və sosial infrastruktur sahələrinin inkişafına maliyyə təminatı yaradılmasının gücləndirilməsi, aqroservizlər yaradılması, Azərbaycanın dünya təsərrüfatına inteqrasiyasının dərinləşməsi, respublikamıza xarici investisiylar axınının sürətlənməsi və s. deyilənlərə sübutdur.** Bir sözlə, Heydər Əliyevin strateji xətti ardıcıl olaraq yerinə yetirilir. Bununla yanaşı, həyat dəyişir. Biz özümüz də dəyişirik. Çünki biz həyatın bir hissəsiyik.



Yeni məsələlər, yeni problemlər meydana çıxır. Təbii ki, onların həllində yeni üsullardan və metodlardan istifadə etmək zərurətə çevrilir.

İlham Əliyevin dövlət quruculuğu sahəsində fəaliyyətinin leytmotivini Heydər Əliyev strateji xəttinə varislik və yeni keyfiyyət halı təşkil edir.

İlham Əliyev Heydər Əliyevin iqtisadi siyasət strategiyasına əsaslanır və onu yeni impulslarla zənginləşdirir. Onun özəyini Azərbaycan iqtisadiyyatına dinamizm gətirmək, xalqın rifahını yüksəltmək təşkil edir.

İlham Əliyev ölkə Prezidenti kimi fəaliyyətə başladığı ilk gündən qarşıya qoyduğu vəzifələri necə və hansı komanda ilə yerinə yetirəcəyini dəqiq müəyyən etdi. Cənab Prezident fəaliyyətinin ilk günlərindən görəcəyi işlərə məqsəd aydınlığı gətirdi. Ölkə Prezidentinin **«biz Azərbaycanı zəngin və qüdrətli dövlətə çevirəcəyik»,** lakonik kəlamında onun qarşıya qoyduğu başlıca vəzifələr, strateji məqsədlər, qurmaq, yaratmaq istədiyi cəmiyyətin konstruksiyası ifadə olunmuşdur. Bu ölkənin gələcəyinin genetik əlaqəyə malik, elmi cəhətdən əsaslandırılmış konsepsiyası, modeli idi.

Növbəti məsələ qarşıya qoyulan vəzifələri, onların yerinə yetirilmə yollarını, üsullarını və mexanizmlərini müəyyən etmək idi. İlham Əliyev cənabları bu vəzifələrin başlıca istiqamətlərini, onların konturlarını ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında 2003-cü il 24 noyabr tarixli Fərmanında vermişdir.

Geniş miqyaslı, proqram xarakterli fərman əldə olunmuş nailiyyətlərə, ölkədə yaranmış müsbət meyillərə əsaslanaraq uzunmüddətli, geniş spektrli vəzifələrin sistemli yerinə yetirilməsinə, sosial-iqtisadi inkişafın daha da sürətlənməsini təmin etməyə yönəlmişdir.

Fərman Azərbaycanın ayrı-ayrı regionları və iqtisadiyyatının müxtəlif sahələrində sosial-iqtisadi inkişaf disproporsionallıqlarını aradan qaldırmağı nəzərdə tutur. Fərman iqtisadiyyatın bütün sahələrini əhatə etməsinə, üzərinə götürdüyü vəzifələrin mürəkkəbli-

yinə, icra tempinin sürətinə görə çox gərgin işlərin yerinə yetirilməsinə yönəlmişdir.

Fərmanda müvafiq icra hakimiyyəti orqanlarına ölkənin sosial-iqtisadi inkişafını sürətləndirmək haqqında konkret tapşırıqlar verilmişdir. Orada qarşıya qoyulmuş vəzifələrin icraçıları, onların yerinə yetirilmə müddətləri, görülmüş işlərin nəticəsi barədə hesabatların hazırlanması və təqdim edilməsi müddəti müəyyən olunmuşdur. Fərman:

- kiçik və orta sahibkarlığın inkişafı proqramı, işsizliyin və yoxsulluğun azaldılması proqramı, turizmin inkişafı proqramı və s. proqramların icra vəziyyətini nəzərdən keçirib təhlil etmək, qarşıya qoyulan vəzifələrin tam həcmdə və vaxtında yerinə yetirilməsini təmin etmək üçün görüləcək işlərə;
- elektrik enerjisi istehsalını əhəmiyyətli dərəcədə artırmaq üçün alternativ enerji mənbələrindən, günəş və külək enerjisindən istifadə etmək, regionlarda kiçik həcmli su elektrik stansiyaları inşa etmək və s. sahəsində vəzifələrə;
- yerli istehsalı stimullaşdırmaq, iqtisadi inkişafa dinamizm gətirmək üçün müasir texnoloji sistemlərə əsaslanan, rəqabətqabiliyyətli, ixrac yönümlü istehsal və xidmət müəssisələri yaratmaq sahəsində qarşıda duran vəzifələrə;
- idarəetmə sistemini təkmilləşdirməklə, iqisadi, texniki, texnoloji vasitələr və iqtisadi siyasət komponentlərinin - vergi, gömrük, tarif, qiymət və s. regionların sosial-iqtisadi inkişafına koordinasiya olunmuş təsirini gücləndirməyə;
- keyfiyyətcə yeni prinsiplər, formalar və qaydalar əsasında, müasir tipli kooperasiyalar, aqroservizlər yaradılması, bütövlükdə kənd təsərrüfatı məhsulları istehsalının dinamik inkişafına elmi-texniki, maddi və maliyyə təminatı yaratmağa;
- aqrar islahatların ikinci mərhələsinə keçidi təmin etmək, fermer təsərrüfatlarının aqrotexniki xidmətləri gücləndirmək, onlara büdcə vəsaitləri və güzəştli kreditlərlə maliyyə təminatı yaratmaq, regionlarda yerli xammal bazasında fəaliyyət göstərən emal müəssisələrinin inkişafına, ÜDM istehsalında aqrar sektorun



payının artımına nail olmağa və digər vəzifələrin icrasına yönəlmişdir.

İnvestisiya qoyuluşlarına hüquqi baza, müvafiq qanunlar və qanunvericilik sənədlərimiz vardır. Lakin 90-cı illərin ortalarında qəbul olunmuş «Xarici investisiyaların qorunması haqqında» və «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunları hazırki dövrün tələblərinə həm forma, həm də məzmunca cavab vermir.

Milli Məclis **«İnvestisiya fəaliyyəti haqqında»** yeni qanun layihəsinin müzakirəsinə başlamışdır. Bu qanun bir sıra üstünlüklərə malik olduğu üçün, investisiya qoyuluşlarının stimullaşdırılmasına, respublikamıza investisiya axınının sürətlənməsinə təsir edə bilər.

Dövlət İnvestisiya Proqramı vardır. Proqram ölkə iqtisadiyyatının müxtəlif sahələrinə investisiya cəlb edilməsinin təşviqi, onların iqtisadiyyatın müxtəlif sahələrinə və regionlara tarazlı şəkildə yönəldilməsi, iqtisadiyyatın dinamik inkişafını təmin etməyə, yeni iş yerlərinin yaradılmasına, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə yönəlmişdir. Bütün bunlar investisiya fəaliyyətinin hüquqi bazasının təkmilləşdirməklə ölkə iqtisadiyyatına yeni investorlar cəlb edilməsinə təsir edə bilər.

Ölkə iqtisadiyyatına iri məbləğli investisiya qoyuluşlarının Milli Məclisdə qanunla təsdiq edilməsi xarici investorlarda onun qorunmasına təminatı əhəmiyyətli dərəcədə artırır. Neft sahəsi ilə bağlı 20-dən artıq bağlanmış müqavilə bu cür, yəni qanunvericiliklə təsdiq edilmişdir.

**İlham Əliyev Prezident seçkisi marafonunda verdiyi vədlərinə əməl edərək ən əvvəl iqtisadiyyata investisiya qoyuluşunu stimullaşdırmaq üçün ciddi tədbirlər görür. Əlverişli investisiya mühitinin formalaşması, bir sıra ölkələrlə ikiqat vergiqoymanın aradan qaldırılması, investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında sazişlər bağlanmışdır.** Fransa, Avstriya, Böyük Britaniya, Amerika Birləşmiş Ştatları, İran İslam Respublikası, Almaniya Federativ Respublikası, Rumınya, Finlandiya,

Çin Xalq Respublikası, Pakistan, Polşa, Misir, Qazaxıstan, Ukrayna, Moldova, Kanada və s. ölkələrlə bu sazişlər artıq ratifikasiya olunmuşdur.

İnvestisiya qoyuluşları ümumdövlət əhəmiyyətli magistral yollara Şimal-Cənub, Qərb-Şərq avtomobil yollarına yönəldilir. Son dövrdə Hacıqabul-Kürdəmir (40 milyon dollar), Ucar-Yevlax (20 milyon dollar) sahələrinə investisiya qoyuluşu təsdiq edilmiş, yaxın vaxtlarda bu yolun Yevlaxdan Gəncəyə qədər sahəsinə investisiya qoyuluşu sənədlər təsdiq olunmaq üçün Milli Məclisə təqdim olunacağı gözlənilir.

Dövlətimizin başçısı hesab edir ki, **«Azərbaycanın uğurlu gələcəyi regionların inkişafı ilə bağlıdır».** Dövlət bütün regionların dinamik və tarazlı inkişafını təmin etməklə ölkənin sosial-iqtisadi həyatında zəncirvari reaksiya baş verməsinə, qarşıda duran digər problemlərin həllinə nail olmağa çalışır.

Dövlət regionların üstün inkişafını təmin etməklə sosial-iqtisadi inkişafda sistemli nəticələr əldə edə bilər. İş qüvvəsinin, əhalinin regionlardan Bakıya axınının Bakıdan regionlara axınla əvəzlənməsinə nail ola bilər. Bu məqsədlə:

- regionların üstün inkişafına nail olmaq üçün, dövlət sistemli tədbirlər görür, daxili bazarı haqsız rəqabətdən qoruyur, bütün iqtisadi subyektlərə bərabər şərait yaradan tədbirlər hazırlayır və həyata keçirir;

- regionlarda istehsal və sosial infrastruktur sahələri yaratmaq, onların fəaliyyətini genişləndirməklə yerli resursları təsərrüfatçılıq dövriyyəsinə cəlb etmək, regionlarda ixracyönümlü və rəqabətqabiliyyətli yeni istehsal və sosial infrastruktur sahələri yaradır;

- ölkənin sosial-iqtisadi inkişafını sürətləndirmək, regionlarda işsizlik, yoxsulluq və miqrasiya problemlərini həll etmək məqsədilə yerli xammal mənbələri əsasında fəaliyyət göstərən, rəqabətqabiliyyətli, ixrac yönümlü məhsullar istehsal edən emal müəssisələri yaradılmasını stimullaşdırır;

- iqtisadi islahatların daha da dərinləşməsini, sahə idarəçiliyindən funksional idarəçiliyə keçidin sürətləndirilməsini təmin etmək üçün sistemli iş aparır;

- iqtisadi idarəçilikdə struktur dəyişiklikləri aparılmasını davam etdirir, bəzi nazirliklərdə və Dövlət Komitələrində idarəetmənin iqtisadi inkişafın tormozuna çevrilən dərəcədə mərkəzləşməsini aradan qaldıran radikal tədbirlər görür;

- inhisarçılıq, haqsız rəqabət, qəsdən iflas meyillərinin qarşısını qətiyyətlə almaq, sağlam rəqabətə meydan açmaq, sosial-iqtisadi tərəqqini sürətləndirmək üçün sistemli iş aparır.

Ayrı-ayrı mal qruplarının idxalının bəzi yüksək rütbəli, vəzifəli şəxslərin himayədarlığında olması ciddi problemlər yaradır. Dövlət başçısı belələrinə qarşı qətiyyətlidir: **«Bəzi hallarda o inhisarçı... hansısa böyük vəzifəli şəxsin əhatəsindədir... Mən belə işlərlə məşğul olan şəxslərə bildirmək istəyirəm ki, hələ ki, gec deyil, bu işlərdən əl çəksinlər.»**

Ölkənin sosial-iqtisadi inkişafını sürətləndirmək məqsədilə iqtisadi idarəetmə sistemində islahatlar daha da dərinləşdirilməli, sahə idarəçiliyindən funksional idarəçiliyə keçid sürətləndirilməli, haqsız rəqabəti və inhisarçılığı istisna edən, idarəetmə və təsərrüfatçılıq mexanizmləri formalaşdırılmalıdır. Bu məqsədlə antiinhisar siyasəti ilə məşğul olan dövlət orqanının təşkilat və idarəetmə strukturunda müvafiq dəyişikliklər edilməlidir.

Antiinhisar siyasəti ilə məşğul olan qurum idxalda və istehsalda inhisarları təkcə qeydə almaqla deyil, haqsız rəqabəti aradan qaldıran, bütün iqtisadi subyektlərin ümumi oyun qaydalarına riayət etməsini təmin edən mexanizmləri, qaydaları və prinsipləri müəyyən etməli və hamının ona əməl etməsini təmin etməlidir.

Burada təkcə inzibati metodlarla müvəffəqiyyətə nail olmağın qeyri-mümkün olduğu nəzərə alınmalıdır. İqtisadi islahatların dərinləşməsi, idarəetmənin daha səmərəli üsullarının tətbiqi haqsız rəqabət imkanlarının aradan qaldırılmasına şərait yarada bilər.

Fikrimizcə, bu qurum bir başa ölkə Prezidentinə tabe olan müstəqil orqana çevrilməlidir. Onsuz antiinhisar siyasəti yeridən orqanının inhisarçılığa qarşı qətiyyətli mübarizə aparmasının qeyri

mümkün olduğuna əmin olmalıyıq.

Yaxın illərdə ölkəmizə neft və qaz sahəsindən gəlirlərin sürətli artımı baş verəcəkdir. Karbohidrogen sahəsindən əldə edilən gəlirlərin sürətli artımı qeyri-neft sektorunun, xüsusilə regionların sosial-iqtisadi inkişafının sürətlənməsinə yönəldilməlidir. Bu, uzunmüddətli strateji xəttin əsasını təşkil etməlidir.

Dövlət Neft Fondunun vəsaitlərindən sosial problemlərin həlli üçün istifadə edilmə istiqamətləri dəyişdirilməli, onları bir başa humanitar yardım formasında imkansızlara paylamaqdansa, bu adamlara regionlarda yeni istehsal sahələri, iş yerləri yaradılmasına yönəltməklə sosial nəticələrə nail olunması təmin olunmalıdır.

Fikrimizcə, Dövlət Neft Fondu vəsaitlərinin illik 2-3 faizlə dünyanın etibarlı banklarına qoymaqdansa, onun bir hissəsini qısa müddətdə gəlir gətirən regionlarda istehsal və sosial infrastruktur sahələri, emal müəssisələri yaradılmasına yönəltmək, bu vəsaitlərdən istifadənin səmərəliliyinin əhəmiyyətli dərəcədə yüksəltmək məqsədəuyğun olardı.

Mənfəətin dividentdən əhəmiyyətli dərəcədə yüksək olduğunu sübut etməyə lüzum yoxdur. Çünki divident mənfəətin bir hissəsidir. Dövlət Neft Fondunun vəsaitlərinin, ölkənin strateji valyuta ehtiyatlarının bir hissəsinin regionlarda infrastruktur obyektləri yaradılmasına sərf etməklə onun faydalılıq əmsalının yüksəldilməsində multiplikativ effekt əldə edilə bilər. Bu, Fondun vəsaitlərinin ölkə iqtisadiyyatının sürətli inkişafına, yeni iş yerlərinin yaradılmasına, məşğulluq və yoxsulluq probleminin həllinə xidmət etməsini təmin edə bilər. Daha doğrusu, Azərbaycanın pulu, Azərbaycan iqtisadiyyatnının dinamik inkişafına və xalqın rifahının yüksəlməsinə xidmət edər.

Dövlətin başçısı sahibkarlığa köməyi ölkənin strateji məqsədi hesab edir. O hesab edir ki, sahibkarların gücü ilə dövlətin gücünün birləşdirilməsi ölkə qarşısında duran vəzifələrin həllini sürətləndirə bilər. Burada dövlət başçısının mövqeyi birmənalıdır. Yoxsulluqla **«mübarizə aparmaq, yeni iş yerlərinin açılmasına nail olmaq... üçün... mütləq və mütləq dövlətlə özəl sektor çiyin-çiyinə işləməli, bir-birinə kömək etməlidir, bir-birinə zərbələr vurmamalıdır».**



Ölkə Prezidenti sahibkarları qorumaq, onların maliyyə-təsərrüfat fəaliyyətinə inzibati orqanların əsassız müdaxiləsinin, polis orqanlarının, yol polisinin, digər icra strukturlarının sahibkarlıq fəaliyyətinin inkişafına əngəl yaratmalarının qarşısını qətiyyətlə almağı tələb edir. Dövlət başçısının bu barədə fikri birmənalıdır: **«Biz sahibkarları qorumalıyıq. Bu mənim mövqeyimdir, mənim siyasətimdir. Məni eşidən bütün icra hakimiyyəti orqanlarının nümayəndələri də bilməlidirlər ki, bu sahədə ciddi dönüş yaradılmalıdır. Mən hələlik heç kimin adını çəkmək istəmirəm... Amma hesab edirəm ki, bu müzakirələrdən sonra hərə öz payını götürməlidir və bunu birinci xəbərdarlıq kimi qəbul etməlidir.»**

Ölkə Prezidenti digər tərəfdən iqtisadi fəaliyyətin bütün sahələrində şəffaflığın təmin olunmasını, ikili uçot və hesabat aparılması, gəlirlərin gizlədilməsi, vergidən yayınmaların qarşısının alınması, maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün müntəzəm olaraq tədbirlər görülməsini tələb edir:

- maliyyə vəsaitlərinin formalaşması və maliyyələşmələrin aparılmasında şəffaflığını, ünvanlılığını, təyinatı üzrə istifadə edilməsini təmin etmək və səmərəliliyini yüksəltmək üçün iqtisadi cəhətdən əsaslandırılmış sistemli tədbirlər görülməlidir;
- xarici ölkələrdən alınmış kreditlərin təyinatı üzrə və maksimum səmərəli istifadə olunmasına, müqavilə şərtlərinə əməl olunmasına maliyyə nəzarəti gücləndirilməli, ölkənin imicinə ciddi xələl gətirən münaqişələrin və ya buna bənzər digər insidentlərin (Türkiyə biznesmeni Saka Korxmazla, özəl sektorun bəzi nümayəndələri ilə, o cümlədən Xəzər Dəniz Gəmiçiliyi İdarəsi ilə və s.) bir daha təkrar olunmaması üçün müvafiq tədbirlər görülməlidir;
- dövlət büdcəsinin xərclərində struktur dəyişiklikləri aparılmalı, büdcə vəsaitlərinin təyinatı üzrə, ünvanlı və səmərəli istifadə olunmasına operativ maliyyə nəzarəti gücləndirilməlidir;
- dövlət büdcəsinin tərtibi üçün elmi cəhətdən əsaslandırılmış

təkmil normativlər hazırlanmalı və bütövlükdə büdcə sisteminin müasir tələblərə uyğun təkmilləşdirilməsi təmin olunmalıdır;

- büdcə prosesi ilə bağlı fəaliyyətin bütün sahələrini əhatə edən **«Büdcə Məcəlləsi»**nin hazırlanması sürətləndirilməli və burada dünya sivil dövlətlərin sınaqdan çıxmış müsbət nəticələrindən maksimum istifadə olunmalıdır;

- tenderlərin hazırlanması və keçirilməsində maliyyə intizamına əməl olunması, dövlət satınalmaları sistemində radikal dəyişikliklər aparılması, dövlət vəsaiti hesabına satınalmaların hazırlanması və təşkili prosedurları təkmilləşdirilməli, onların həyata keçirilməsinə, dövlət vəsaitinin hər manatının səmərəli istifadə edilməsinə maliyyə nəzarəti gücləndirilməlidir;

- sahibkarlara kreditlərin verilmə qaydası təkmilləşdirilməli, maliyyə intizamı gücləndirilməli, ödəməmələr problemi həll olunmalı, qarşılıqlı borcların yenidən əmələ gəlməsini istisna edən mexanizmlər yaradılması sürətləndirilməli;

- bank sektoru ilə real iqtisadiyyat arasında qarşılıqlı əlaqələrin səmərəliliyini yüksəldən bank islahatları aparılmalı, bankların iqtisadi inkişafa təsirini artıran tədbirlər görülməli, kreditlərdən istifadəyə bank nəzarəti gücləndirilməli, bank xidmətlərinin kökündən yaxşılaşdırılması təmin edilməlidir və s.

Bunlardan əlavə əhalinin pensiya təminatını yaxşılaşdırmaq, sosial sığorta sistemində islahatları sürətləndirmək və vətəndaşların pensiya təminatını müasir tələblər səviyyəsinə yüksəltmək məqsədilə yeni qanun layihəsi hazırlanmalıdır.

İlham Əliyev cənablarının irəli sürdüyü vəzifələrin müəyyən olunduğu müddətdə və tələb olunan səviyyədə yerinə yetirilməsi sosial-iqtisadi inkişafa dinamizm, əhaliyə yeni iş yerləri və xalqımıza sosial rifah gətirər, Azərbaycanı zəngin və qüdrətli ölkəyə çevirə bilər.

Sosial-iqtisadi inkişafın sürətləndirilməsi icra intizamının daha da gücləndirilməsini tələb edir. Açığını deyək ki, idarəçilik və işgüzarlıq qabiliyyəti müasir tələblərə cavab verməyən «rəhbərlər» icra strukturlarında kifayət qədərdir.



Ölkə Prezidentinin fərman və sərəncamlarında ayrı-ayrı icra orqanlarına tapşırıqların yerinə yetirilmə vəziyyətinin təhlili, icra strukturlarında çalışanların bəzilərinin nə dinamik inkişaf tempinin mahiyyətini dərk etmədiyini, nə də bu templə qətiyyən ayaqlaşa bilmədiyinin şahidi oluruq.

Ölkə Prezidentinin dövlət büdcəsi haqqında qanunun tətbiqi ilə əlaqədar 2000-ci, 2001-ci, 2002-ci, 2003-cü və 2004-cü illərdə imzaladığı fərmanlardakı tapşırıqların bir çoxunun vaxtında və tələb olunan səviyyədə icra olunmaması haqqında çox saylı misallar gətirə bilərik.

Burada zəngin və qüdrətli ölkəni kimlərlə, hansı kadrlarla yaratmaq günün aktual vəzifəsinə çevrilir. Ölkə Prezidenti 2003-cü il noyabrın 17-də Nazirlər Kabinetinin iclasında özünün Heydər Əliyev kursuna, onun kadr siyasətinə sadiq olduğunu bir daha bəyan etməklə yanaşı, bu işə gələcəkdə də ciddi münasibət göstərilməsini tələb edirdi.

Hər bir məmurun dövlət tapşırığının icrasına məsuliyyət hissi həvalə edilmiş işin müəyyən edilmiş vaxtda və lazımi keyfiyyətlə yerinə yetirməsi ilə müəyyən edilməlidir. Nazirlər Kabinetinin iclasında İlham Əliyev cənabları demişdir: **«Hər bir nazirlik öz fəaliyyətinə aid olan problemlərin aradan qaldırılması üçün görüləcək proqramın əsas istiqamətlərinə dair təkliflər paketini Nazirlər Kabinetinə, Azərbaycan Prezidentinə təqdim etməlidir. Bu təklif hesab edirəm ki, geniş hazırlanmalıdır. Maksimum proqram şəklində olmalıdır və bu proqram hökmən icra edilməlidir».** Prezidentin tapşırıqlarını vaxtında və tələb olunan səviyyədə yerinə yetirilməsini təmin etməyən və ya edə bilməyən məmur öz xidməti yerini müəyyən etməlidir. Məsələ orasındadır ki, hər bir işçinin vəzifə səlahiyyəti ilə onun yerinə yetirməli olduğu işin məsuliyyəti arasında balans olmalıdır.

Ölkə Prezidentinin müəyyən etdiyi yüksək inkişaf tempi hər bir icra strukturu başçısının dövlət idarəçiliyi ansamblında koordinasiya olunmuş fəaliyyətini təmin etmədən icra olnmasının qeyri-mümkünlüyü nəzərə alınmalıdır. Ona görə də ölkə Prezi-

dentinin verdiyi tapşırıqların vaxtında və müəyyən olunduğu səviyyədə yerinə yetirilməsini təmin etməyənlər haqqında adekvat tədbirlər görülməlidir.

**Ölkə Prezidentinin müəyyənləşdirdiyi siyasətin reallaşması öz nəticələrini verməkdədir. Əgər 1995-1996-cı illərdə dövlət büdcəsi gəlirlərinin 55-60 faizi neft məhsulları istehsalı və reallaşmasından daxilolmalar hesabına formalaşırdısa, hal-hazırda o 32 faizə enmişdir. Deməli, 1995-2002-ci illərdə büdcə gəlirlərinin neft faktorundan asılılığı 2 dəfə azalmışdır.**

**Bu neft istehsalının dinamik artımı şəraitində baş vermişdir. Yəni qeyri-neft sektorunun daha sürətli inkişafı hesabına büdcənin formalaşmasında nisbətlər dəyişilmişdir.**

Xatırladırıq ki, 1992-1993-cü illərdə dövlətin strateji valyuta ehtiyatları olmamışdır. Həmin vaxt qanunla müəyyən edilmiş gəlirlərin büdcəyə toplanmasını təmin etmək üçün kifayət qədər səy göstərilmədiyindən xərclərin maliyyələşdirlməsində həmişə çətinliklər mövcud olmuşdur.

Həmin dövrdə dövlətin büdcəsi boş idi. Çörək ehtiyatı 2-3 günlük idi. Dövlət çörək əldə etmək üçün borcalmalara getməyə məcbur oldu. 1992-1993-cü illərdə xaricdən çörək əldə etmək üçün Nazirlər Kabinetinin zəmanəti ilə Beynəlxalq Bankdan külli miqdarda kredit götürüldü və AXC-Müsavat başqanları həmin pulla xaricdən «xalqa çörək gətirdilər».

Əvvala, onlar o dərəcədə keyfiyyəti aşağı olan məhsul gətirmişdilər ki, həmin çörək məhsullarının əsas hissəsi yalnız mal-qara yeminə çevrildi.

Digər tərəfdən AXC-Müsavat cütlüyü, yəqin ki, özlərinin müvəqqəti olduqlarını dərk edərək krediti qaytarmağı tamam unutdular. Sonra o, qaytarılma müddəti ötmüş borclara, daha sonra dövlətin daxili borcuna, ən nəhayət isə ildə 70, 99, 110 və s. milyard manatlarla dövlət büdcəsindən ödənilən xərclərə çevrildi. Yəni hazırda müxalifətdə olan və hazırki iqtidarı tənqid edənlərin vaxtilə qamarlayıb mənimsədikləri xalqın vəsaitlərini indiki iqtidar ödəməli olur.



**Ölkə iqtisadiyyatının dinamik inkişafı üçün son 10-11 ildə çox işlər görülmüşdür. Görülən işlər AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu zaman yol verdikləri dağıntıları aradan qaldırmağa imkan vermişdir.**

**Sosial-iqtisadi inkişafda müvəffəqiyyətlər şəksizdir. Lakin həllini gözləyən problemlər də çoxdur. Dağlıq Qarabağ problemi onların ən ağrılısıdır. İşsizlik və yoxsulluq problemləri də mövcuddur. İşsizliyin və yoxsulluğun azaldılması üçün Dövlət Proqramları sistemli həyata keçirilir və müsbət nəticələr verir.**

**Hazırda ölkənin strateji valyuta ehtiyatları əhəmiyyətli dərəcədə artmışdır. Bütün bunlar nəticədir. Onlar göstərir ki, ölkə Prezidentinin müəyyən etdiyi iqtisadi siyasət strategiyası Azərbaycanın maraqlarına cavab verir. Dövlətin iqtisadi fəaliyyəti isə mövcud reallıqdan irəli gəlir və xalqın rifahının yüksəlməsinə xidmət edir.**

**Ölkə iqtisadiyyatına dinamizm gətirilməsində İlham Əliyevin xidmətləri danılmazdır. Ölkə Prezidentinin son fərmanları, sərəncamları, imzaladığı Dövlət Proqramı, çoxsaylı xarici səfərlər zamanı bağlanan dövlətlərarası sazişlər və s. onun operativ fəaliyyətinin dinamik inkişaf tempinə çevrilməsinin göstəriciləridir.**

### 2.3. Prioritetlərin dürüst müəyyən edilməsi

İlham Əliyevin iş prinsipi belədir: məqsəd aydınlığı olmadan, məqsədə çatmağın vasitələrini, yollarını, onların reallaşma alətləri və mexanizmlərini dürüst müəyyən etmədən ölkənin sosial-iqtisadi inkişafının sürətlənməsinə, xalqın rifahının yüksəlməsinə nail olmaq mümkün deyil.

İlham Əliyev iqtisadi strategiyada prioritetləri, ilkin və törəmə amilləri, qarşıda duran cari və perspektiv vəzifələri, onların həlli yollarını, prinsiplərini və qaydalarını dürüst müəyyən etməyi

müvəffəqiyyətə nail olmağın zəruri şərti hesab edir. Keçid iqtisadiyyatında bu xüsusilə vacibdir. Çünki çoxformalı mülkiyyət və təsərrüfatçılıq şəraitində cari və perspektiv vəzifələrin koordinasiyasını təmin etmək, ölkənin sosial-iqtisadi tərəqqisində sistemliliyə nail olmaq rəqabət mübarizəsində qalib gəlməyin vacib şərtidir.

Ölkə iqtisadiyyatının bütün sahələrinin birdən-birə inkişafını təmin etmək qeyri-mümkündür. İqtisadiyyatın aparıcı sahəsindən başlamaq, onun vasitəsilə digər sahələrin inkişafına nail olmaq üçün tədbirlər görülməli idi.

Enerji daşıyıcıları iqtisadiyyatın prioritet sahəsidir. Onun inkişafı iqtisadiyyatda zəncirvari reaksiya yaratmaq, digər sahələrin inkişafına təsir etmək xassəsinə malikdir. Bu, həmişə belə olmuşdur və gələcəkdə də belə olacaqdır. Qeyd olunanları nəzərə alaraq Azərbaycan dövləti neft sektorunu iqtisadi inkişafın prioritet sahəsi hesab etdi.

Azərbaycan Respublikasında neft sektoru ənənəvi olaraq ölkə iqtisadiyyatının ən aparıcı sahəsi olmuşdur. Yeni iqtisadi sistemə keçid şəraitində onun inkişafı, Xəzər dənizinin zəngin təbii sərvətlərinin təsərrüfatçılıq dövriyyəsinə cəlb olunması, külli miqdar vəsait tələb edirdi. Bu vəsait həm də tezliklə əldə edilməli, Xəzər dənizinin Azərbaycan sektorunda işlər ləngidilmədən başlanmalı idi. Məsələnin vacibliyi həm də onunla əlaqədar idi ki, suverenləşmə dalğası altında yaranan xəzəryanı qonşularımız olan dövlətlərin hər biri başqasının ərazisinə girməyə, onun təbii sərvətlərini mənimsəməyə, öz ərazisini başqa ölkələr hesabına genişləndirməyə can atırdılar.

Dünyanın ən imkanlı və nüfuzlu konsorsiumlarını cəlb etmədən Xəzər dənizinin karbohidrogen ehtiyatlarını qısa müddət ərzində təsərrüfatçılıq dövriyyəsinə cəlb etmək mümkün deyildi. Həmin vaxt müxalifətin «Azərbaycana hamıdan çox canı yanan strateqləri» Xəzər dənizinin Azərbaycana məxsus sahəsinin karbohidrogen ehtiyatlarının kəşfi və istismarına xarici investorları cəlb etməyi məqsədəuyğun hesab etmirdilər. Onlar bu işi xarici



sərmayəçiləri cəlb etmədən daxili imkanlar hesabına həll etməyi məqsədəuyğun hesab edirdilər.

Müxalifətçilərin dövlətimizin büdcəsinə gəlirlər yetərincə toplanana qədər Xəzər dənizinin Azərbaycana məxsus sahəsində karbohidrogen ehtiyatlarının kəşfi və təsərrüfatçılıq dövriyyəsinə cəlb edilməsini təxirə salmağı təklif edirdilər. Dövlət büdcəsindən investisiya üçün ayırmalar o qədərdir ki, bu tövsiyələrin yerinə yetirilməsi bizi ən azı 70-80 il geri sala bilərdi. Buna qətiyyən yol vermək olmazdı. Axı son 10 ildə dövlət büdcəsi gəlirlərinin hər il orta hesabla bir milyard dollardan da az olduğunu və bu vəsaitin ən yaxşı halda dörddəbir (¼) hissəsini investisiya qoyuluşuna cəlb etməyin mümkünlüyünü nəzərə alsaq, onda 10 milyardlarla vəsait tələb edən daxili investisiya qoyuluşunu toplamaq üçün 70 ildən çox vaxt tələb olunardı.

Heydər Əliyev müdriklik, sözün həqiqi mənasında, çox böyük uzaqgörənlik nümayiş etdirdi, prioritetləri dürüst müəyyənləşdirdi. Heydər Əliyev zəkası, müdrikliyi və qətiyyəti, həmçinin İlham Əliyevin diplomatik səyləri nəticəsində 20 sentyabr 1994-cü ildə «Əsrin müqaviləsi» kimi tarixə daxil olmuş ilk neft kontraktı imzalandı. Bu heç də asan başa gəlməmişdir. «Əsrin müqaviləsi» ilə bağlı danışıqlır ağır keçmişdir. Çünki hər bir iştirakçı özünün, öz ölkəsinin maraqlarının reallaşmasına çalışırdı. 1994-cü ilin yazında və yayında İstanbulda və Hyustonda gedən danışıqların son mərhələsi xüsusilə ağır keçmişdir. Konsensus əmələ gəlmədiyindən danışıqlara fasilələr vermək lazım gəlirdi.

İlham Əliyev cənabları həmin anları xatırlayarkən yazır:

**«Biz xarici şirkətlərə deyirdik: Siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu, sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcəkdir. Başqa sözlə, biz heç cür heç bir səhvə yol verə bilmərik».**

1994-cü il sentyabrın 20-də bağlanmış müqavilənin tarixi əhə-

miyyəti oldu. **Möhtərəm Prezidentimiz İlham Əliyev cənabları göstərir ki, 1994-cü il sentyabrın 20-də bağlanmış müqavilədə məqsəd təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün gəlirləri (mənfəətləri) – həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir.**

İqtisadi siyasətdə neft amilindən məharətlə istifadənin klassik nümunəsini yaradan Heydər Əliyev Azərbaycanın inkişafı üçün möhkəm təməl yaratdı.

AXC-Müsavat cütlüyünün yeritdiyi siyasət Azərbaycanı dünya iqtisadi inteqrasiyasından təcrid olunmağa istiqamətləndirdiyi halda, Heydər Əliyev siyasəti bu inteqrasiyanı dərinləşdirməyə, onu şaquli və üfüqi istiqamətlərdə genişləndirməyə yönəltdi. Azərbaycan iqtisadiyyatı dünya təsərrüfatının üstünlüklərindən istifadə etmək imkanları qazandı. İqtisadiyyatımızda yeni təsərrüfatçılıq metodları, müasir texnoloji sistemlər, idarəçilik üsulları tətbiq olunmağa başlandı. Əsrin müqaviləsinin əhəmiyyəti həm də ondan ibarət idi ki, o dünyanın potensial investorlarında Azərbaycanla əməkdaşlığa inam formalaşdırdı, sonrakı müqavilələrin bağlanmasına əlverişli zəmin yaratdı.

1994-ci il 20 sentyabr tarixli müqavilə və ondan sonra imzalanmış müqavilələr respublikamızda yüzlərlə istehsal və sosial infrastruktur sahələrinin, minlərlə yeni iş yerlərinin yaranmasına, xalqımızın rifahının yüksəlməsinə xidmət etdi.

Müqavilələr müstəqilliyimizin, suverenliyimizin, dövlətçiliyimizin, milli və iqtisadi təhlükəsizliyimizin daha da möhkəmlənməsinə, ölkə iqtisadiyyatının dünya təsərrüfatına inteqrasiyasının dərinləşməsinə, Azərbaycanın beynəlxalq imicinin əhəmiyyətli dərəcədə yüksəlməsinə, investisiya axınının sürətlənməsinə təsir etmişdir.

Dövlətin yeritdiyi siyasət dünyanın ən məşhur konsorsiumlarının Azərbaycana gəlmələrinə və külli miqdarda investisiya qoymalarına şərait yaratdı. Xarici investorların cəlb edilməsi Xəzər



dənizinin Azərbaycan sektorunun Şimal, Şərq və Cənub ucqarlarında işlərin başlanmasını təmin etdi. Tam səmimiyyətlə deyirəm: biz 70-80 il deyil, 1-2 il ləngisəydik onda başqa mənzərənin şahidi və iştirakçısı olacaqdıq. Onda torpaqlarımızın 20 faizini müvəqqəti də olsa işğal etmiş və hal-hazırda da öz təsiri altında saxlayan Ermənistana nisbətən daha güclü iqtisadi və hərbi potensiala malik olan dövlətlərlə «ikinci Dağlıq Qarabağ» münaqişəsinin Xəzər dənizində yaranacağına şübhə edilməməli idi.

Heydər Əliyevin müdrikliyini, uzaqgörənliyini 1994-cü ildən sonra keçən dövr dəfələrlə təsdiq etmişdir və indi də təsdiq etməkdədir. Məlum olduğu kimi dövlətlər arasında sərhədlər tarixən yaranmışdır. Bu sərhədlərin hüdudları və dairəsi təbii coğrafi məkan olaraq sabit qalır. Lakin dövlətlərarası qüvvələr nisbəti zaman keçdikcə dəyişə bilər. Biz uzaq dövrü müqayisə etmək istəməzdik. SSRİ dövründə, 70 il ərzində Xəzər dənizində İranın özünə, SSRİ-nin də özünə məxsus sektoru olmuşdur. 70 il ərzində SSRİ ilə İran İslam Respublikası arasında bir dəfə olsa belə dənizdə və quruda sərhəd mübahisəsi olmamışdır.

Azərbaycan suverenləşəndən, müstəqil dövlətə çevriləndən sonra Xəzər dənizi də, onun Azərbaycana aid sahəsi də SSRİ dövründə müəyyən edilmiş əvvəlki sektor çərçivəsində qalmışdır. İranla qurudakı sərhədlərimiz də SSRİ dövründə olduğu kimi qalmışdır. Bütün bunlara baxmayaraq, bir tərəfdən İran, digər tərəfdən isə Türkmənistan Xəzər dənizinin Azərbaycan sektoruna girməyə, respublikamızın təbii sərvətlərinin bir hissəsini mənimsəməyə cəhdlər göstərdilər. Bu cəhdlər indi də yeni formada davam etməkdədir. Xəzər dənizinin Azərbaycana məxsus sektorunda İranın və Türkmənistanın dövlət orqanları tərəfindən törədilən insident onu təsdiq etdi.

2001-ci ilin avqustunda İranın hərbi dəniz və hərbi hava qüvvələri Xəzərin Azərbaycan sektorunun cənub hissəsində karbohidrogen ehtiyatlarının zəngin olduğu «Araz», «Alov» və «Şərq» yataqlarında kəşfiyyat işləri aparan gəmini dəfələrlə güc işlətməklə hədələmişlər. Azərbaycan Prezidentinin qətiyyətli və

təmkinli mövqeyi sayəsində İranın bizi münaqişəyə cəlb etmək cəhdləri baş tutmadı. Lakin İranın hakim dairələri təbii sərvətlərlə zəngin olan bu yataqlarda birgə kəşfiyyat işləri aparan bir sıra qərb neft şirkətlərinin, o cümlədən «Britiş petroleum» şirkətinin nümayəndələrini qorxuda bildilər. Nəticədə xarici sərmayədarlar bu yataqlarda birgə kəşfiyyat işləri aparmaqdan çəkindilər. Orada kəşfiyyat işlərini yenidən bərpa etmək hələlik mümkün olmamışdır. Bu, əlbəttə, Azərbaycan iqtisadiyyatına xarici investisiyalar cəlb edilməsinə müəyyən qədər təsir etdi. Bu faktdır.

Əgər məsələyə qlobal nöqteyi nəzərdən yanaşsaq, onda bu insident İranın diplomatik məğlubiyyəti ilə nəticələndiyinin şahidi olarıq. İran İslam Respublikasının beynəlxalq hüquq normalarına zidd hərəkətləri bir sıra dövlətlərin kəskin etirazları ilə qarşılandı. İranın hərəkətlərinə Rusiya ciddi etirazını bildirdi. Qazaxıstan və Türkiyə bu insidentlə bağlı İran hökumətinə daha ciddi bəyanatlar verdilər. Qazaxıstan dövlətlərarası mübahisəli məsələlərin həllində zor işlətməyin, zor işlətməklə hədələməyin beynəlxalq hüququn normalarına zidd olduğunu İran İslam Respublikası rəhbərlərinin nəzərinə çatdırdı.

İnsidentdən bir qədər sonra Türkiyə Respublikası hərbi hava qüvvələrinin bir qrupu, Qıbrıqoğlunun başçılığı ilə Azərbaycana gəlmişdilər. Burada qardaş Türkiyə təyyarəçiləri yüksək ustalıqla uçuş manevrləri nümayiş etdirdilər. Bu, Azərbaycanın hər bir vətəndaşında qürür hissləri oyatdı. Bizim bu cür cəsur qardaşlarımızın olması hər birimizdə fərəh, yüksək əhvalruhiyyə doğurdu. Lakin çox təəssüflə qeyd edirik ki, həmin vaxt İran İslam Respublikasının bəzi dairələrində bunu qısqanclıqla qarşılayanlar da oldu.

İran İslam Respublikası və Azərbaycan Respublikası qonşu ölkələrdirlər. Bu ölkələri bir-birinə yaxınlaşdıran təkcə qonşuluq münasibətləri deyildir. İki ölkə arasında əlaqələrin tarixi kökləri vardır. Yaxşı olardı ki, bu ölkələr bir-birinə maneələr törətmək yolu ilə deyil, qarşılıqlı mənafe əsasında iqtisadi əlaqələrin inkişafı yolu ilə getməyə üstünlük verəydilər.



Azərbaycan Prezidentinin 2005-ci ilin başlanğıcında İran İslam Respublikasına səfəri və həmin vaxt bağlanan sazişlər bu əlaqələrin daha da inkişafına şərait yaradacaqdır.

Məlum olduğu kimi «Çıraq» yatağı Xəzər dənizinin Azərbaycana aid sektorunda olsa da o Türkmənistan sektorunun lap yaxınlığındadır. Bunu əsas götürən Türkmənbaşı «Çıraq» yatağına iddialıdır.

Türkmənbaşının Azərbaycanın hesabına özünə zəngin təbii sərvətlər əldə etməyə çalışanlardan biri olduğu məlumdur. Xəzəryanı ölkələrin zirvə görüşündə onun sağlam məntiqə, diplomatik normalara sığmayan, uşaq ərköyünlüyü ilə dolu çılğınlıqları, Azərbaycana qarşı ərazi iddiası (Xəzər dənizində) və məsuliyyətsiz bəyanatları göstərir ki, biz daha çox düşünməli, müdrik siyasət yeritməli, malik olduğumuz karbohidrogen ehtiyatlarından daha səmərəli istifadə etməliyik.

Neft və təbii qaz istehsalının artımı və reallaşdırılmasında, bu vacib enerji resurslarının təsərrüfatçılıq dövriyyəsinə cəlb olunmasında Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin əhəmiyyəti misilsizdir. Bu yalnız iqtisadi məsələlərlə qurtarmır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri çəkilişinin olduqca vacib siyasi, sosial və strateji əhəmiyyəti vardır. O Azərbaycanın gələcək dinamik iqtisadi inkişafına təməl rolunu oynayacaqdır.

İlham Əliyev Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri çəkilişinin təməlinin qoyulduğu gün (18 sentyabr 2002-ci il) demişdir ki, bu kəmərin çəkilişinin reallaşması, həmçinin təbii qaz istehsalı və ixracı sahəsində müvəffəqiyyətlərə zəmin yaratmışdır. O qeyd etmişdir ki, qaz kəmərinin çəkilişində biz arzu edən potensial sərmayəçilərlə əməkdaşlığa hazırıq və bildiririk ki, bu sahədə bizimlə rəqabət aparmaq çətin olacaqdır. Bunun səbəblərindən biri Şahdəniz yataqlarından təbii qaz istehsalının maya dəyərinin rəqiblərimizə nisbətən daha aşağı olması ilə əlaqədardır.

İlham Əliyev həm kamil təşkilatçı-iqtisadçıdır, həm də dünyanın yüksək səviyyəli auditoriyalarını ələ almaq qabiliyyətinə malik görkəmli diplomat-siyasətçidir. İlham Əliyevin ölkədə və dünyada

nüfuzu müntəzəm olaraq artır. Bu Baş Nazir təyin olunandan, ölkə Prezidenti seçiləndən hələ çox əvvəl hiss olunurdu.

2000-ci ildə Milli Məclisə seçkilərdə bu daha qabarıq şəkildə özünü göstərdi. O, Yeni Azərbaycan Partiyasından deputatlığa namizədlərin siyahısına başçılıq edirdi. Ona görə də partiyalar arasında seçkiqabağı siyasi mübarizənin əsas ağırlığı İlham Əliyevin çiynində idi. Onun seçkiqabağı xalqa müraciətləri, YAP-ın platformasının başlıca tezislərini şərhi, habelə, müxalifət partiyaları «liderlərinin» əsassız ittihamlarına təmkinli, arqumentli cavabları respublika əhalisinin böyük əksəriyyəti tərəfindən rəğbətlə qarşılandı.

Seçki marafonuna qoşulanlardan biri olduğum üçün mən bütün bunların şahidiyəm. Ağdaş seçki dairəsindən olan cəbhəçi, milli istiqlalçı rəqiblərimlə yarışırdım. **Tam səmimiyyətlə deyirəm: İlham Əliyevin seçkiqabağı hər bir çıxışı rayon əhalisi arasında sensasiya yaradırdı.**

Çıxışlarımı İlham müəllimin irəli sürdüyü YAP-ın platforması ətrafında qururdum. İlham Əliyevin gətirdiyi arqumentlərdən yerli şəraitə, auditoriyanın səviyyəsinə uyğun istifadə edirdim. Bütün bunlar mənim 2000-ci ildə Milli Məclisə seçkilərdə uğur qazanmağıma təsir etdi. Bunu tam səmimiyyətlə deyirəm.

**2000-ci ilin parlament seçkilərində Yeni Azərbaycan Partiyası böyük uğurlar qazandı. Bu, əlbəttə, ümummilli liderimiz Heydər Əliyevin yeritdiyi siyasətin qələbəsi idi. Xalqın onun siyasətinə inamı, öz gələcək taleyini, ümidlərini bu siyasi kursa bağlaması idi. Bu siyasi kurs YAP-ın irəli sürdüyü namizədlərin böyük əksəriyyətinin Milli Məclisə seçkilərdə müvəffəqiyyət qazanmaları və parlamentdə çoxluq təşkil etmələri ilə nəticələndi.**

**2000-ci il seçkilərində YAP-ın qələbəsinin təmin olunmasında namizədlərin partiya siyahısına başçılıq etmiş İlham Əliyevin xidmətləri hamı tərəfindən qəbul olunmuş faktdır.**

**Dünyada qəbul olunmuş parlamentçilik ənənələri vardır: parlament seçkilərində partiya siyahısına başçılıq edən və**



**partiyaya uğur qazandıran, yeni seçilmiş parlamentin rəhbərlərindən biri olur.**

Yeni seçilmiş Milli Məclisin ilk iclasında bu məsələni qaldırdım. O iclasın stenoqramında vardır. Nədənsə, qaldırdığım məsələ reallaşmadı.

Ümummilli liderimiz Heydər Əliyevin respublikada formalaşdırdığı siyasi kursun uzun ömürlü olmasına təminat yaradılmalıdır.

İnkişaf etmiş Avropa ölkələrində, ABŞ-da prezidentlər bir-birini əvəz edəndə ölkənin siyasi kursunun strateji xətti dəyişmir. Orada sosial-iqtisadi sistem qanunlarla tənzimlənir, idarə olunur. Prezidentlərin dəyişilməsi ölkə iqtisadiyyatının qeyri-müəyyən vəziyyətə düşməsi, xalqın güzəranının pisləşməsi ilə nəticələnmir. Keçid iqtisadiyyatını yaşayan ölkələrdə subyektiv amillərin, iradi göstərişlərin rolu, o qədər böyük olur ki, orada qanunlar, bəzən lap Konstitusiyanın özü də yeni Prezidentin iradi göstərişlərinə uyğunlaşdırılır. Bu idarəetmə sisteminə, dövlətin fəaliyyətinin bütün sahələrinə təsir edir. Çoxillik təcrübənin göstərdiyi kimi onun ağrılarını hamıdan çox geniş xalq kütləsi çəkir. Ona görə də siyasi kursda stabilliyin təmin olunması olduqca vacib olan vəzifələrdən biridir.

Biz 90-cı illərin axırlarından deyirik ki, bu gün ölkəmizdə yeridilən sosial-iqtisadi siyasətin ən layiqli davamçısı, heç bir mübaliğəsiz İlham Əliyev ola bilər. Bu təkcə bizim fikrimiz deyildi. Azərbaycan Respublikası vətəndaşlarının böyük əksəriyyəti bu fikirdə idilər. Biz İlham Əliyevin Azərbaycan xalqının bugünki və sabahkı həyatında çox mühüm rol oynayacağına əmin idik.

**Möhtərəm Prezidentimizin Milli Məclisin razılığı ilə İlham Əliyevi Baş Nazir vəzifəsinə təyin etməsi (4 avqust 2003-cü il) Azərbaycan xalqının böyük əksəriyyətinin ürəyincə oldu. Bu təyinat əhalidə sabahkı günə əminlik yaratdı.**

İlham Əliyev öz təyinatı ilə əlaqədar bildirdi ki, mənim təyinatım, hər şeydən əvvəl o deməkdir ki, Prezident Heydər Əliyevin Azərbaycanda 1993-cü ildən bəri apardığı siyasət davam

etdiriləcəkdir. O öz sözünün sahibi oldu. Heydər Əliyev kursunun davamı və daha da inkişafı üçün sistemli tədbirlər görməyi özünün birinci dərəcəli vəzifəsi hesab etdi.

İlham Əliyev Baş Nazir vəzifəsinə təyin olunandan 5 gün sonra «Vaşinqton Post» qəzetinə verdiyi müsahibəsində (9 avqust 2003) qeyd etmişdir: **«keçmişdə bizim çətin anlarımız olub - qeyri-sabitlik, qarma-qarışıqlıq vaxtları, vətəndaş müharibəsi, iqtisadiyyatın tamamilə dağılması. Bütün bunları geridə qoymaq üçün olduqca çox vaxt və səylər tələb olundu. Ona görə də cəmiyyətin əsas məqsədi sabitliyi qorumaq və aparılan siyasətin dəyişilməsinə yol verməməkdir. Düşünürəm ki, parlamentin mənim təyinatıma razılıq barədə qərarının əsasında da məhz bu fikirlər, düşüncələr, bu məqsədlər dururdu.»**

Yuxarıda qeyd olunanlar İlham Əliyev cənablarının stabilləşməyə istinad etməsindən heç də sosial-iqtisadi inkişaf dinamikasında ləngimələr baş verəcəyi nəticəsi çıxarılmamalıdır.

İqtisadiyyatı mükəmməl bilən İlham Əliyev rəqabət mühitində bir yerdə dayanmağın məhvə məhkum olduğunu yaxşı bilir. Bu barədə onun fikri birmənalıdır: **«Əlbəttə, mən çalışacağam bacardığımı edim ki, indiyədək əldə olunanların hamısı nəinki qorunub saxlansın, həm də hökumət iqtisadi islahatlar sahəsində bu vaxtadək əldə etdiyimiz nailyyətləri daha da artırsın.»**

İlham Əliyev iqtisadi inqkişafla yanaşı, ölkəmizdə demokratik proseslərin inkişafı üçün də öz səlahiyyətləri daxilində tədbirlər görəcəyini vəd etmişdir. O öz mövqeyini aydın ifadə etmişdir: **«İqtisadiyyatın inkişafı ilə yanaşı, demokratiyanı da inkişaf etdirmək vacibdir... Azərbaycan gərək siyasi və iqtisadi cəhətdən güclü, demokratik ölkə olsun. Bu, bizim ümumi məqsədimizdir.»** Ölkədə keçirilmiş prezident seçkilərinin demokratik prinsiplərə əsaslanması xarici müşahidəçilərin əksəriyyəti tərəfindən ifadə olunmuşdur.

Biz əminik ki, İlham Əliyev cənabları sosial-iqtisadi proseslərdə prioritetləri əvvəlcədən görmək, iqtisadi idarəçilikdə koordinasiya olunmuş fəaliyyəti təmin etmək və Azərbaycan iqtisadiyyatına dinamizm gətirmək imkanına malikdir. Bu imkanların yaxın vaxtlarda reallaşacağını ümid etməyə əsasımız vardır.



## 2.4. İqtisadiyyat, siyasət, peşəkarlıq və yeni düşüncə

**Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə 1993-2003-cü illərdə ölkəmizin sosial-iqtisadi tərəqqisi, dünya iqtisadi inteqrasiyasına qoşulması, istehsal və sosial infrastruktur sahələrinin inkişafında çox böyük nailiyyətlər əldə edilmişdir. Lakin görüləsi işlər və həlli zəruri olan problemlərimiz də kifayət qədərdir.**

**Ən əvvəl Dağlıq Qarabağ probleminin həlli, ölkənin ərazi bütövlüyünün təmin olunması, qaçqın və məcburi köçkünlərin öz el-obalarına qayıtmalarını təmin etmək üçün daha radikal tədbirlər görülməlidir.**

**İşsizlik, yoxsulluq problemlərinin həlli, cəmiyyətdə təbəqələşmənin, varlılarla yoxsullar arasında uçurumun dərinləşməsinin qarşısını almaq, orta təbəqənin formalaşması və genişlənməsi üçün sistemli tədbirlər görülməlidir.**

**Öncə cəmiyyətin fəallaşması gərəkdir. Nəyin Azərbaycanın qarşısında duran problemlərin həllinə xidmət etdiyi, hansı hərəkətlərimizin isə erməni işğalçılarına xeyirli olduğunu dərk etməli və respublikamıza qarşı istifadə üçün heç kimə faktlar verməməliyik.**

**Çox təəssüf olsun ki, müxalifət qəzetlərinin bəzisi, sanki, ermənilərin sifarişləri ilə fəaliyyət göstərir, onların maliyyələşməsinə əsaslanırlar.**

**ATƏT-in Parlament Assambleyasının iclaslarında Ermənistan nümayəndələri bizə qarşı çıxışlarında «Müsavat» qəzetindən gətirdikləri sitatlara istinad edirdilər. Azərbaycana qarşı ermənilərin «Müsavat» qəzetindən dəfələrlə sitat gətirmə-**

lərinin şahidi olmuşuq.

«Müsavat» qəzeti Azərbaycanın gah Usama ben Ladenlə, gah Səddam Hüseynlə əməkdaşlıq etdiyini yazır. Bu qəzet 28 sentyabr 2003-cü ildə «Səddam Hüseyn Bakıdadır» adlı yazı vermişdi. Bu təxribat xarakterli yazıları verməklə «Müsavat» qəzeti beynəlxalq aləmdə Azərbaycanın imicinə xələl gətirir. Qəzetin baş redaktoru Arifoğluna «həqiqətə uyğun olmayan belə yazılar Azərbaycanı beynəlxalq içtimaiyyətin tənqid obyektinə çevirmirmi?» sualına o, «beynəlxalq içtimaiyyət Azərbaycanı deyil, onun hökumətini günahlandıracaqdır» deyə cavab verir. Təxribatçılıq, hökumətə böhtan atmaq, dövlət rəhbərlərinə qarşı təhqir, söyüş yağdırmaq bu adamın peşəsidir. Lakin beləl期 lərinə başa salmaq lazımdır ki, törətdikləri əməllər, yazdıqları böhtanlar Azərbaycan dövlətinin imicinə zərbə, ermənilərə isə beynəlxalq təşkilatlarda antiazərbaycan təbliğatı üçün material verir.

Hamımıza aydın olmalıdır ki, cəmiyyətin fəallaşması, heç də meydan oratorlarının küçələrə axışıb qışqırmaları, meydan və küçələrdə qaçışlar, yürüşlər təşkil etmələri, boğazlarına kəfən dolayıb Milli Məclisin yanında hündür bir daşın üzərinə çıxmaları və oradaca Dağlıq Qarabağı «dərhal azad etmələri» deyildir.

Boğazına kəfən dolamaqla erməniləri həlləlik onların tapdağı altında olan Azərbaycan torpaqlarından çıxarmaq və Dağlıq Qarabağ problemini həll etmək nə qədər sadəlövh primitiv düşüncələrin məhsuludur. Bu cür «fəallıq» Azərbaycanın mövqeyinin zəifləməsinə, diplomatik uğursuzluğa, yeni ərazilərimizin itirilməsinə şərait yarada bilər.

Biz bütövlükdə əhalinin fəallaşmasını dedikdə müəyyən nəticə əldə etmək üçün Ermənistana düşünülmüş yollar, üsullar və metodlarla təzyiqlərin artırılmasını nəzərdə tuturuq.

MDB, ATƏT, Avropa Şurasının üzvü olan bir dövlətin – Ermənistanın həmin təşkilatların üzvü olan digər dövlətin ərazisinin bir hissəsini öz ölkəsinin ərazisinə birləşdirmək,



ilhaq etmək haqqında qanunverici orqanının qərar qəbul etməsi, işğalçılığın dövlət siyasəti səviyyəsinə yüksəlməsinin bariz ifadəsidir.

Biz Ermənistanın işğalçı siyasətini, erməni ekstremistlərinin Azərbaycana qarşı törətdikləri cinayətləri konkret faktlarla, sənədlərlə dünya parlamentçilərinin, dövlət xadimlərinin, bütövlükdə dünya ictimaiyyətinin nəzərinə çatdırmalıyıq.

Biz təcavüzkarlığın, işğalçılığın Ermənistanda dövlət siyasətinə çevrildiyini, Dağlıq Qarabağın Ermənistan Respublikasına birləşdirilməsi haqqında Ermənistan Parlamentinin qərarını ingilis, fransız və alman dillərində çap etdirib yaymalıyıq.

Beynəlxalq təşkilatlarda erməni işğalçılığı, terrorçuluğu, aqressiv separatçılığı haqqında dəqiq arqumentlərə əsaslanan ifşaedici çıxışlarla erməni nümayəndə heyətinə təzyiqləri gücləndirməliyik.

Bütün beynəlxalq təşkilatlarda erməni terrorizmi, şovinizmi və ekstremizminə dair lakonik yazılar, plakatlar hazırlamaq və yaymaq, bütövlükdə ideoloji işi gücləndirməliyik. Təbii ki, bu iş müxtəlif istiqamətlərdə: siyasi, ideoloji, hərbi, texniki, iqtisadi və s. sahələrdə aparılmalıdır.

İqtisadi inkişafa dinamizm gətirmək, yerli istehsalı stimullaşdırmaq, işsizlik, yoxsulluq problemlərini həll etmək istiqamətində daha fəal iş aparılmalıdır.

Dağlıq Qarabağ hərəkatı dalğasında hakimiyyətə gələnlərin, sonra səriştəsizlik ucbatından ölkəni uçuruma aparanların və ona görə də xalqın qəzəbinə düçar olanların, başını götürüb qaçanların acı təcrübəsi və aqibəti bizə məlumdur.

Deyirlər: ağıllı özgənin başına gələnlərdən, ağlı bir qədər az olan isə öz başına gələnlərdən nəticə çıxarır. Heç olmazsa öz başımıza, xalqımızın başına gələnlərdən nəticə çıxarmalı, yeni səhvlərə yol verməməliyik.

Həmişə olduğu kimi, Prezident və parlament seçkiləri ərəfəsində sosial-iqtisadi problemlər, onların həlli yolları, vasitələri ətrafında ehtiraslar coşur. Dağlıq Qarabağ probleminin həlli,

qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasını təmin etmək siyasi partiyalar və namizədliyi irəli sürülənlərin polemikasının mərkəzində durur.

Yarış başlanır. Prezidentliyə namizədlərin bir çoxu ölkənin, xalqın ən ümdə problemlərini təkcə onun özünün həll etməyə qadir olduğunu sübut etməyə çalışırlar.

Ümumi daxili məhsulu, dövlət büdcəsinin gəlirlərini, əmək haqqını, pensiya və təqaüdləri bir neçə ay ərzində 4-5 dəfə qaldırmaq, Dağlıq Qarabağ problemini 4-5 günə, ən geci isə bir aya həll etmək, işsizlik və yoxsulluq problemlərinə qısa müddətdə son qoymaq və s. vədlərini verənlərin sayı artır. Lakin onların bəzisi qaldırdıqları problemlərin həllinin heç texnologiyasını da bilmədən belə vədlər verirlər. Hər bir namizəd özünə məxsus metodlar və üsullarla öz platformasını şərh edir. Əlbəttə, burada siyasi rəqiblərin qarşılıqlı tənqidi də unudulmur. Bu, dünya ölkələrinin əksəriyyətində belədir.

Qanunun aliliyi təmin olunmuş ölkələrdə siyasi rəqiblərin opponentliyi sivil formalarda, etik normalara əməl etməklə baş verir. Keçid iqtisadiyyatı ölkələrində isə bu əksər hallarda ekstremist metodlara, siyasi rəqiblərə qarşı hətta silah işlədilməsi və ya digər ağır cinayətlər törədilməsi hallarına gətirib çıxarır. Ermənistanda olduğu kimi.

**Köçəryan ikinci dəfə prezident seçilərkən Ermənistanda gündüzün günorta vaxtı seçki məntəqəsinin yaxınlığında bir jurnalist güllələnərək öldürülmüşdür.**

**Seçkiləri müşahidə etmiş ATƏT-in nümayəndələri isə Ermənistanda prezident seçkilərində qanun pozuntularına yol verildiyini, ATƏT-in Parlament Assambleyasının sessiyasında (Rotterdamda 5-7 iyul 2003-cü ildə) qeyd etdilər. Lakin Ermənistanda prezident seçkilərində jurnalistin öldürülməsi faktı ilə əlaqədar ATƏT-in Parlament Assambleyasının illik sessiyasında danışmaq və tədbir görmək əvəzinə, qeyd edildi ki, Ermənistanda prezident seçkilərində cüzi nöqsanlara yol verilsə də, bütövlükdə demokratik proseslərin inkişafında**



**irəliyə doğru addım atılmışdır.** Bu rəyin nə cür və neçəyə başa gəldiyi bizə məlum deyil. Lakin orada ikili standart olduğuna bizim şübhəmiz yoxdur.

2003-cü il iyul ayının axırlarına kimi ölkə prezidentliyinə 20-yə yaxın Azərbaycan vətəndaşının namizədliyi irəli sürülmüşdü. Onların xeyli hissəsi imza toplanmasını və digər zəruri sənədlərin hazırlanmasını başa çatdırmış, MSK onları qeydə almış və seçkilərdə iştirak etmələrinə şərait yaradılmışdı.

Əlbəttə, kimi Prezident seçmək xalqın, seçicilərin işidir. Lakin ən layiqlisini seçmək, seçimi qanunla müəyyən edildiyi kimi aparmaq təkcə seçicilər üçün deyil, bütövlükdə xalqımız, ölkəmiz üçün olduqca vacibdir.

Ən layiqli namizədin ölkə Prezidenti seçilməsi üçün namizədlərin seçkiqabağı çıxışları, öz platformalarını şərh etmələri olduqca vacibdir. Bu həm namizədliyi irəli sürülənlər üçün, həm də seçicilər üçün son dərəcə əhəmiyyətlidir.

Qeyd edilənlər namizədlərin siyasi və iqtisadi platformasının başlıca istiqamətlərini öyrənməyə, onları müqayisə və təhlil etməyə, prezidentliyə namizədlərin ciddi və ya qeyri ciddi, işgüzar və ya başqa keyfiyyətlərə malik olduğunu müəyyən etməyə, namizədin profesionallığı və təşkilatçılıq qabiliyyəti haqqında fikir yürütməyə şərait yaradır. Bir sözlə, bu prezidentliyə kimin daha layiq olduğunu müəyyən etməyin ən əlverişli üsuludur.

Prezident dövlət atributlarının daşıyıcısıdır. Azərbaycan xalqı adından danışmaq səlahiyyəti olan və bütün beynəlxalq təşkilatlarda Azərbaycan dövlətini təmsil edən şəxsdir.

Heydər Əliyev 30 ildən çox ölkəmizə rəhbərlik etmişdir. Onun zəngin dövlət idarəçiliyi təcrübəsinə malik olduğu hamı tərəfindən qəbul olunmuş faktdır. Dünya Prezidentlərindən 30 ildən çox dövlətə başçılıq edən, dövlət idarəçiliyi təcrübəsinə malik olan demək olar ki, yoxdur. Burada söhbət təkcə uzun müddət dövlət rəhbəri olmaqdan getmir. Ölkə həyatının ən məsul anlarında diplomatik məharətlə ən əlverişli çıxış yolu tapmaq bacarığından, ölkəmizin bu günü və gələcəyi üçün qəbul edilən əhəmiyyətli

qərarların verə biləcəyi nəticələri əvvəlcədən görmək, xalqımızın və ölkəmizin maraqlarına cavab verən çevik və perspektivli tədbirlər həyata keçirmək qabiliyyətindən gedir. Belə məqamlarda Heydər Əliyev tərəddüd etmədən, riski üzərinə götürməklə reallığa cavab verən operativ qərarlar qəbul etmək qətiyyətinə malik olduğunu dəfələrlə sübut etmişdir.

Misal üçün, İran İslam Respublikası təyyarələrinin Xəzər dənizinin Azərbaycana məxsus cənub hissəsində karbohidrogen ehtiyatlarının kəşfiyyatı ilə məşğul olan bizim gəmiyə qarşı güc işlətmək, hədələmək cəhdləri ilə əlaqədar yaranan insident, AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu vaxt baş vermiş olsaydı, onda Ermənistan Azərbaycan münaqişəsinə bənzər yeni münaqişə yarana bilərdi. Unutmamalıyıq ki, İranla münaqişə, Ermənistanla münaqişə deyil.

ABŞ-ın Əfqanıstana, İraqa qarşı tədbirlərində Azərbaycan Prezidentinin tərəddüd etmədən antiterror koalisiyasına qoşulmaq haqqında birmənalı qərar qəbul etməsi, həqiqətən, hadisələrin gələcəyini əvvəlcədən görmək idi. Onun müdrik qərar olduğunu bir çoxları sonradan dərk etdilər.

İraqla bağlı problemdə qardaş Türkiyənin operativ qərar qəbul etməməsi, onun bir sıra məsələlərdə tərəddüdləri, ABŞ-Türkiyə münasibətlərinin sərinləşməsi ilə nəticələndi. Bu, hamımıza məlum həqiqətlərdir.

Fərz edək ki, Türkiyə və ya Azərbaycan ABŞ-ın Əfqanıstanı və ya İraqı bombalamasına qarşı çıxsaydı, bu ABŞ-ın öz qərarını dəyişməsi ilə nəticələnə bilərdimi? Fikrimizcə, ABŞ bu fikirlərə heç məhəl də qoymayıb, özünə lazım olan işləri görəcəkdi. Birləşmiş Millətlər Təşkilatı və onun müvafiq komitələrinin qərarlarını gözləmədən öz istədiyini etdiyi kimi.

**Qalibi mühakimə etmirlər. Amerika isə zəifləri sevmir.**

Müdrik siyasət yeridən dövlət başçısı heç olmasa öz xalqı üçün xeyir gətirən siyasət yeritməklə diplomatik uğurlar qazanır. Biz hesab edirik ki, Heydər Əliyev antiterror koalisiyasına qoşulmaq haqqında müdrik qərar qəbul etməklə Azərbaycanın maraqlarına adekvat fəaliyyət göstərmişdir.



Heç kimə sirr deyildir ki, Heydər Əliyev siyasətinin formalaşması və reallaşmasında ən fəal rol oynayanlardan biri İlham Əliyev cənablarıdır. Yüksək intellektual potensiallı diplomat, müasir təfəkkürlü iqtisadçı və böyük idarəçilik məharətinə malik İlham Əliyevin ölkə prezidentliyinə namizədliyinin irəli sürülməsi xüsusilə mürtəce müxalifətin müxtəlif qrupları arasında böyük qısqanclıq ajiotajı ilə qarşılandı.

Heydər Əliyevin dövlətçilik məktəbinin ən bacarıqlı yetirməsi olan İlham Əliyev bu qaragüruhçu müxalifətdən fərqli olaraq, Azərbaycan xalqı qarşısında hələ ölkə Prezidenti seçilməmişdən çox-çox əvvəl də böyük xidmətlər göstərmişdir.

İlham Əliyevin nəyə qadir olduğunu Avropanın, Amerikanın məşhur siyasətçiləri də bilirlər. Onu bütün dünyada tanıyırlar və malik olduğu intellektual potensiala adekvat hörmətlə yanaşırlar. O yüksək intellektual səviyyəyə, Avropa auditoriyalarını ələ almaq, öz məntiqi mühakimələri ilə onu məqsədyönlü səmtə yönəltmək qabiliyyətinə malik görkəmli şəxsiyyətdir.

Prezident seçkilərində özünün iştirakına razılıq verməsinə aydınlıq gətirən **İlham Əliyev: «Mən namizədliyimi irəli sürən adamlara hörmətlə yanaşıram, ona görə də buna razılıq verdim, lakin mən istəyirəm biləsiniz ki, bu addımı atmaqda məqsədim ilk növbədə Heydər Əliyevin seçki kampaniyasında daha fəal iştirak etmək idi», deyirdi.**

Həmin vaxt İlham Əliyev qeyd etmişdir ki, onsuz da bu kampaniyada iştirak edəcəkdim: **«Lakin belə status mənim üçün əlavə imkanlar açır. Düşünürəm və bunu siz də bilməlisiniz ki, mənim namizədliyimin irəli sürülməsi yalnız bu məqsədi güdür. Mən öz fəaliyyətimlə ümumi işə dəstək verməyə çalışacağam».**

İlham Əliyev həmin vaxt ürəkdən gələn səmimiyyətlə qeyd edirdi ki, Azərbaycan xalqının böyük əksəriyyətinin seçkilərdə dövlət başçısı Heydər Əliyevə səs verəcəklər. O. deyirdi: **«Əminəm ki, Heydər Əliyev seçkilərdə qalib gələcək və mən**

**ona səs verəcəyəm».**

Əgər Heydər Əliyev namizədliyini geri götürməsəydi, onda xalqımızın ən azı 70-80 faizi 2003-cü ilin oktyabrın 15-də ümummilli liderimiz Heydər Əliyevə səs verəcəkdi. Biz buna əmin idik.

## 2. 5. Siyasi mübarizəni siyasi oyuna çevirmələr

Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrdə hansı keyfiyyətlərə malik olduğunu dəfələrlə sübut etmişdir. Ona görə də Azərbaycan əhalisinin ən azı 75-85 faizi Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu müdafiə edənlərdir. Ölkə əhalisinin, müxtəlif təbəqələrdən olan insanların Heydər Əliyevə və İlham Əliyevə hüsn-rəğbəti təbiidir. Ölkənin taleyi və xalqın rifahı üçün onların gördükləri çoxmiqyaslı fəaliyyətə başqa cür münasibət ola da bilməzdi.

Müxalifətə də xalqın münasibəti göz qabağındadır. Onları hamı tanıyır. Bir il ölkəyə başçılıq ediblər. Daha doğrusu ölkənin başına min cür müsibətlər açıblar.

Respublikanın taleyini heç bir dövlət idarəçiliyi təcrübəsinə malik olmayanlara, Azərbaycanı vətəndaş müharibəsinə sürükləyən, savadsız, səriştəsiz, lakin böyük ambisiyaları olanlara, siyasətə meydandan gələnlərə, meydan oratorlarına, bazar alverçiliyindən başqa əlindən bir şey gəlməyənlərə etibar etmək olmaz. Bu geniş xalq kütləsinin fikridir.

AXC-Müsavat cütlüyü hakimiyyətdə olduqları dövrdə ölkəni fəlakət həddinə gətirəndən, xalqın qəzəbinə, nifrətinə düçar olandan sonra canlarının qorxusundan başlarını götürüb ölkədən xəlvətcə qaçıb aradan çıxdılar. Axı Azərbaycan xalqı bu biabırçı tarixi yaşayıb. Həmin dövr bizim tariximiz üçün qara ləkədir.

İndiki müxalifət keçmişdə iqtidarda idi və iqtidarda olduğu bir il ərzində öz yaramaz və yarıtmaz fəaliyyəti ilə insanlarda özlərinə



qarşı nifrət hissi oyatmışdır və insanlar onları siyasət səhnəsindən süpürüb atmışlar. Bu adamlar indi hansı üzlə yenidən hakimiyyətə gəlmək istəyirdilər?

Onlar xalqa əzabdan başqa heç nə verməmişlər. Bunları heç kim unutmayıb, hər şey bizim yadımızdadır. Ona görə də Vətənini, öz övladını sevən hər bir şəxs heç vaxt istəməz ki, bu qara qüvvələr yenidən hakimiyyətə gəlsin.

Onlar ölkəni çıxışı görünməyən tunelə saldılar. Özləri də ağır vəziyyətə düşən başqanlar ökədə qardaş qırğını törətdilər. Öz əməlləri ilə dövlətçiliyi o dərəcədə zəiflətdilər ki, ona ayaq qaldıran quldur dəstlərinin sayı artdı. Çünki vahid mərkəzdən idarə olunmayan silahlı dəstələr yaradılmışdı və onların arasında da kreslo davaları və s. gedirdi. Ölkə idarəolunmaz vəziyyətə düşmüşdü.

Hakimiyyətdə olanlar başlarını itirmişdilər. Bir tərəfdən ölkəni uçuruma sürükləyənləri süpürüb atmaq, Azərbaycanı xilas etməyə Heydər Əliyevi dəvət etməyi tələb edən xalq hərəkatı, digər tərəfdən Gəncədən Bakıya öz silahlı dəstəsi ilə yürüş edən polkovnik vahiməsi. Polkovnik hakimiyyətdə olanları dar ağacından asacağını bildirmişdi. Gəncədən gələn polkovnik isə dediklərini edirdi. O, iqtidarın bəzi iri vəzifəlilərini, o cümlədən, ölkənin baş prokurorunu həbs etmişdi.

Məsələnin nə dərəcədə ciddi olduğunu dərk edən və başqa çıxış yolu tapa bilməyən AXC-Müsavat cütlüyü özlərinin yaratdıqları fəlakətdən xilas olmağın yolunu Heydər Əliyevi Bakıya, dövlət rəhbərliyinə dəvət etməkdə gördülər.

Zaman keçdi. Çoxlu yeniləşmələr, dəyişikliklər baş vermişdir. Lakin müxalifətin iflic olmuşları hələ də dəyişməz qalmışlar.

Müsavat başqanı «Müsavat»qəzetində Heydər Əliyev və İlham Əliyev haqqında əxlaqsız, tərbiyəsiz sözlər yazılmasını rəvaclandırır. Hər şey qanun çərçivəsində olmalıdır. Qəzetlər və siyasi partiya rəhbərlərinin etik normalarını pozduqları üçün qanun qarşısında cavab verməlidirlər.

Biz siyasi mübarizəni də, yenidən hakimiyyətə gəlmək istəyini

də başa düşürük. Amma hər şey sivil formada, qanunlar və qaydalar çərçivəsində olmalıdır.

Heydər Əliyevi, İlham Əliyevi tənqid edənlərin fəaliyyəti Azərbaycanı parçalanmağa, uçuruma yuvarladırdı. Yaxınlaşan fəlakət qarşısında onlar çıxış yolu tapa bilmədilər. Ölkəni dağılmaqdan, parçalanmaqdan, quberniyalara, xanlıqlara çevirməkdən, sıradan çıxmaqdan xilas edən – Heydər Əliyev oldu.

Müxalifətçilər Heydər Əliyevi Azərbaycan xalqı, dövlətçiliyi qarşısında göstərdiyi xidmətlərə görə tənqid edirlər.

İlham Əliyevin fikrincə, müxalifətdəki bu adamlara ən yaxşı cavab bizim praktiki işlərimiz, əməli addımlarımız ola bilər. O deyir: **«Əgər geriyə, 1992-ci ilə bu adamların müxalifətin hakimiyyətdə olduğu zamankı Azərbaycana baxsanız və bugünkü günlə müqayisə etsəniz böyük fərq görünəcəkdir.**

**Bu gün biz dünyada hörmət qazanmış ölkəyik. Azərbaycan insanların həyat şəraitinin günbəgün yaxşılaşdığı ölkədir. Özü də bütün bunlar bizim əhalimizin 1 milyonunun qaçqın-köçkün olduğu bir şəraitdə baş verir.»**

Ermənistanın təcavüzü nəticəsində ərazimizin 20 faizi işğal olunmuşdur. Biz dünyada əhalinin sayına görə qaçqın-köçkünlərin ən yüksək faiz təşkil etdiyi ölkəyik.

Azərbaycan unikal ölkədir. Respublikamızda hər 8 nəfərdən biri qaçqın-köçkündür. Bütün bunlara baxmayaraq, Azərbaycanda inkişaf prosesi gedir.

Heydər Əliyev və İlham Əliyev haqqında əxlaqsız, tərbiyəsiz sözlər yazılmasını, şəkillər verilməsini rəvaclandıran İsa Qəmbər və onun tərəfdarları 1993-cü ildə Naxçıvana bir neçə dəfə təyyarə göndərib Heydər Əliyevi Bakıya, Azərbaycan rəhbərliyinə gəlməyə, onların boğazını Gəncədən gələn polkovnikin kəndirindən xilas etməyə dəvət edirdilər.

Bu cənablar unutmamalıdırlar ki, «əlinizi qardaş qanına batırdığınıza» görə sizlərin boğazınızı gözləyən kəndir də durur, Gəncədən Bakıya gələn polkovnik də.

Çirkab içində üzən bəzi müxalifət nümayəndələri onların cinayət tərkibli əməllərinə mütənasib cəza verilməməsindən sui istifadə edirlər. Ölkə Prezidenti vaxtilə törətdiyi əməllərə görə cəzasını çəkməli olan «Müsavat» qəzetinin redaktorunu əfv etmiş və belə hallar bir neç dəfə təkrar olunmuşdur. Humanistlik göstərilməsindən nəticə çıxarmaq, bəd əməllərindən əl çəkmək əvəzinə, Arifoğlu cəzasızlıq mühiti yarandığını, cəzaya immunitetli olduğunu zənn edərək, heç bir etik normaları gözləmədən ölkə rəhbərliyinə ünvanlanmış təhqir, söyüş və qarğışlar yazır.

Onlar çalışırlar ki, hüquq-mühafizə orqanları tərəfindən döyülsünlər, başları yarılsın və başlarına yaylıq bağlayıb xarici səfirliklərin qarşısında göz yaşı töksünlər. Amma əminik ki, bizim hüquq-mühafizə orqanları onları planlarını həyata keçirmələrinə imkan verməyəcəklər.

Təəssüflər olsun ki, oktyabrın 15-16-da İsa Qəmbər, Rauf Arifoğlu və onların yoldan çıxardıqları adamlar Bakı şəhərində iğtişaş törədilməsinə nail oldular. Seçki bülletenləri hesablanmamış, seçkinin nəticələri elan olunmamış İsa Qəmbər özünü prezident elan etdi. Əvvəl, bir dəstə küçə uşaqları, Müsavat başqanının kabineti qarşısında yallı getdilər və konsert verdilər. Sonra isə dəyənəkləri əllərinə alıb küçədən keçənləri özlərinə qoşulmağa məcbur etdilər. «Ya dəyənəkləməliyik, ya da bizə qoşulub nümayişə çıxmalısınız» prinsipi ilə.

Daşla, dəyənəklə, armaturlarla silahlanıb prezident kürsüsünə «seçilmək», yiyələnmək üçün yürüşə başladılar. Prezident kreslosuna çıxmaq üçün qarşılarına çıxan maşınları, idarə, müəssisə və təşkilatların, sahibkarlara məxsus obyektlərin hamısını qarət etdilər, qırıb dağıtdılar, hayqırtı qoparıb əsas meydana doluşdular. Sanki, prezident kürsüsünü Azadlıq Meydanının ortasına qoyub ölkəyə başqanlıq etmək istəyirdilər.

**Əvvəllər elmimizin klassikləri insanın meymundan əmələ gəldiyini deyirdilər. Lakin bu çevrilmə evolyusiyası milyon illər ərzində baş vermişdi. İsa Qəmbər və onun adamları sübut etdilər ki, insan da meymuna çevrilə bilər. Lakin bunun üçün uzun vaxt lazım deyilmiş, cəmisi bir saatın içərisində insanın**

**öz tarixi əcdadına çevrilməsi mümkün imiş. Küçədə qarşıya çıxan avtomobillərin üzərində meymun kimi hoppanıb düşən «igidləri» görəndə İsə Qəmbərin kim olduğu aydın olur.**

Azğınlaşmış, dağıdıcı ünsürlər əgər Qarabağa, torpaqlarımızı azad etməyə çağırılsa, onların bir qismi hökmən çarəsi bilinməyən xəstəliyə mübtəla olduqlarına dair daşdan keçən sənəd alacaqlarına şübhə edilməməlidir. 1990-cı il 20 yanvar hadisələrində olduğu kimi İsa Qəmbərin, Rauf Arifoğlunun heç burnu da qanamadı. İsa bəy sudan quru çıxmaq ustası olduğu üçün.

İsa Qəmbər, Rauf Arifoğlu, çox təəssüf ki, onların heç biri həbs olunmadı. Azərbaycan Konstitusiyasının qanunlarını pozan cəzasız qalmamalıdır.

Onlar 15-16 oktyabrda qan tökülməsində təqsirli olsalar belə özlərini rahat hiss edirlər. Beş ildə beş manat gəliri olmayan İsa Qəmbər (bəyannaməsində arvadının qazancı hesabına yaşadığını yazıb) əvvəlki quruluşda tüfeyli adlandırılar və Sibirə sürgün olunardı. İndi də müxalifət rahat yaşayır. Onların hamısının əla yaşayış və siyasi fəaliyyətlərini davam etdirmək üçün şəraitləri vardır. Ona görə də, yəqin özlərini xoşbəxt sayırlar, vəziyyətdən razıdırlar.

Onlar bu siyasi mühitdən ayrılsalar, aralı düşsələr, cəmiyyətdə öz yerlərini tapa bilməyəcəklər. Onların heç biri hansısa bir sahədə özlərini heç bir cəhətdən büruzə verə bilməyib, heç biri ölkə üçün yaxşı bir iş görə bilməyibdir. Onlar siyasətə küçələrdən gəldikləri kimi siyasəti də dartıb meydanlara aparırlar.

O vaxt küçələrdə narazılıqlarını bildirən insan kütlələri yığışırdı, onların da ən zil səslə qışqıranları mövqe tutdular. Sizə deyə bilərəm ki, parlamentin keçmiş spikeri Qəmbərov, hansı ki, indi özünü müxalifət lideri kimi qələmə verməyə çalışır, o da belələrindən biri olmuşdur. O, on ildən artıq bir müddətdə Elmi Tədqiqat İnstitutunda işləmiş, baş laborant vəzifəsinə kimi yüksələ bilmişdir. Elmi idarədə ən aşağı iş laborantlıqdır. İndi müxalifətdə olan, o vaxtkı baş nazir bir vaxtlar bazarda qarpız satan idi. Bu onların qısa tərcümeyi-halıdır.



Bu adamların ölkə idarə etmək təcrübəsi yoxdur və onların 1992-ci ildə idarəetmə dövrü bunu sübuta yetirdi. Onların bacarıqları, bilikləri, təcrübələri yoxdur. Onların cəmiyyətdən alacaqları dəstək də yoxdur. Cəmiyyət o dövrdəki böyük narahatlıqdan cana doymuşdur. Cəmiyyətə sabitlik lazımdır. İnsanlar iş istəyirlər, yaxşı maaş istəyirlər, uşaqlarını təhlükəsiz mühitdə böyütmək istəyirlər və indi bizim vəzifəmiz onlara bu şəraiti təmin etməkdir.

Rəhbərlikdə olanların bəzisi ölkədə illərdən bəri qorunub saxlanılan və davam etməkdə olan stabilliyin pozulmaması naminə konfliktə girməməyi tövsiyə edirlər. Ağlı başında olmayanlara baş qoşmamağı məqsədə müvafiq hesab edirlər.

Fikrimizcə, qanunu pozanlara qarşı qanun tətbiq etməməklə ictimai-siyasi stabilliyi uzun müddət qoruyub saxlamaq mümkün olmayacaqdır. Hamımız bilməliyik ki, qanun o vaxt qanundur ki, o hamıya, hər yerdə və eyni qaydada tətbiq olunur. İstər «Yeni Müsavat» qəzetinin başqanı, istərsə də Milli Məclis üzvü eksteritorial hüquqlu deyillər.

Arifoğlunun başqanlığı ilə «Yeni Müsavat»da baş alıb gedən söyüşlər, təhqirlər, böhtan dolu, tərbiyəsiz, mənəviyyatsız, əxlaqsız, jurnalist etikasına, ən adi sağlam mənəviyyata daban-dabana zidd olan yazılar, foto rəsmləri açıq-aşkar demokratiyaya, dövlətçiliyə qarşı yönəlmişdir.

Şərəf və ləyaqəti qanunla qorunan ölkə Prezidentinə, onun ailəsinə, ən əvvəl İlham Əliyev cənablarına Arifoğlunun özünə məxsus əxlaqsızlıqları aid etməyə çalışmasından bir şey çıxmayacaqdır. Azərbaycan çox böyük ölkə deyildir. Burada üzdə olanları hamı tanıyır. Kimin kim olduğunu Azərbaycan əhalisinə, bizim ziyalılara tanıtmağa lüzum yoxdur.

İlham Əliyev müsahibələrində qeyd edir ki, «**1995-ci ildən mənim həyatım ictimaiyyətlə bağlı həyat tərzidir. Parlament üzvü seçildikdən sonra sənin hər addımın, hər hərəkətin bütün cəmiyyətə məlumdur. Bütün həyatım boyu, uşaqlığın lap erkən çağından çalışmışam elə edim ki, öz hərəkətlərimlə atamı peşman etməyim. O, Azərbaycanın lideri olub, sovet sistemində**

**tanınmış siyasətçi idi və siz bilirsiniz ki, sovet sistemi nə qədər ciddi idi. Ona görə də mən həmişə çalışmışam elə hərəkət edim ki, onun nüfuzuna xələl gəlməsin. Bu həmişə mənim üzərimə əlavə məsuliyyət qoyurdu. Mən də məsuliyyət hiss edən adamam. İnsanlar nə istəsələr deyə bilərlər: qaraya ağ, ağa qara. Amma mənim adımla bağlı heç bir şayiənin, heç bir sözün əsasını, sübutunu tapmaq mümkün deyildir. Bütün şayiələr uydurmadır və müvafiq qurumlar tərəfindən ifşa edilmişdir.»**

İlham Əliyev Azərbaycanı beynəlxalq aləmdə təmsil etmək qabiliyyətinə malik olduğunu dəfələrlə sübut etmişdir. Bu İlham Əliyevdir ki, dünyanın məşhur siyasətçiləri ilə prinsipial mübahisələrə girir, əsaslı arqumentləri, məntiqi mühakimə qabiliyyəti ilə qarşısına qoyduğu məqsədlərə nail olur.

Azərbaycanın hazırki siyasi spektrində profesionallığı, diplomatçılıq qabiliyyəti, müasir iqtisadi təfəkkürü, yeni iqtisadi düşüncəsi olan İlham Əliyevə bərabər ikinci gənc şəxsiyyət yoxdur.

İlham Əliyevi Azərbaycanda özünü siyasətçi hesab edənlərin əksəriyyəti ilə müqayisə etmək olmaz. Bizim siyasətbazların əksəriyyəti siyasi alverçilər, siyasət dəllalları, siyasi möhtəgirlərdilər. Onların siyasəti ticarət meydanına, sövdələşmə, alver məkanına, kreslo bölüşdürmək, daha gəlirli, mənfəətli, şan şöhrətli vəzifə əldə etmək vasitəsinə çevirdiklərini hamı bilir.



# FƏSİL III. ÇOXSAHƏLİ İQTİSADİ İNKİŞAF VƏ KOORDİNASİYA

## 3.1. Neft məqsəd yox, çoxsahəli güclü iqtisadiyyat yaratmaq

Ölkəmizin bu günə kimi əldə etdiyi uğurların səbəbi heç də təkcə neft amili ilə bağlı deyildir. Biz hazırda böyük həcmdə neft çıxarmırıq, böyük həcmdə neft hasilatının yalnız astanasındayıq.

Respublikamızın sosial-iqtisadi inkişafının əsasını ölkədə həyata keçirilən iqtisadi struktur, idarəetmə islahatları təşkil etmişdir. Onların hamısının ana xəttini dövlət başçısının müəyyən etdiyi iqtisadi siyasət strategiyası müəyyən etmişdir.

Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi neft və qeyri-neft sektorunun inkişafına güclü təkan vermiş, Dövlət Neft Fondu yaradılmışdır. Bu Fond şəffafdır. Onun hesabatları, büdcə məlumatları, Dövlət Neft Fondu büdcəsinin bölgüsü və istifadəsinə aid məlumatlar mətbuatda verilir. Hər bir vətəndaş bu məlumatlarla tanış olmaq imkanına malikdir. Beləliklə bilir ki, ölkə neftdən nə qədər gəlir əldə etmiş və o hansı istiqamətlərə yönəldilmişdir.

Fondda beynəlxalq audit aparılır və o beynəlxalq maliyyə təsisatlarının tövsiyələri əsasında idarə olunur. Buna görə də prezident seçkilərindən sonra bizim qəbul etdiyimiz regional inkişaf proqramı və sosial-iqtisadi yönümlü digər proqramlar əsasən regionlarımızın inkişafı, iqtisadiyyatımızın çoxşaxəliliyinin təmin olunmasına xidmət edir. Yeni iş yerlərinin açılması, sözsüz ki, qeyri-neft sektorunda da baş verəcəkdir. Biz Azərbaycanda neft amilinin rolunu heç zaman unutmalıyıq və iqtisadiyyatımızda bu amili əsas tutmalıyıq. Neft amili böyük xöşbəxtlik gətirməklə yanaşı, eyni zamanda böyük problemlər də yaradır.

İlham Əliyev cənablarının irəli sürdüyü vəzifələrin müəyyən olunduğu müddətdə və tələb olunan səviyyədə yerinə yetirilməsi sosial-iqtisadi inkişafa dinamizm, əhaliyə yeni iş yerləri və

xalqımıza sosial rifah gətirər, ölkəmizi zəngin və qüdrətli ölkəyə çevirə bilər. Bu vəzifələrin xeyli hissəsinin əsası ulu Prezidentimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Neft sektoru ilə bağlı irimiqyaslı, strateji əhəmiyyətli tədbirlərin də başlanğıcını, təməlini müdrik Prezidentimiz Heydər Əliyev qoymuşdur.

**Bu tədbirlər öz başlanğıcını 20 sentyabr 1994-cü ildən götürmüşdür. 20 sentyabr 1994-cü ildən «Əsrin müqaviləsi» kimi tarixə çevrilmiş, sonra isə sistemli imzalanmış digər sazişlər təkcə neft sektoruna aid deyil ölkənin sosial-iqtisadi həyatının bütün sahələrini əhatə edən qlobal tədbirlərin həyata keçirilməsinə şərait yaratdı. Bu sazişlərin məntiqi nəticələrindən biri «Azərbaycan Respublikasında Dövlət Neft Fondunun yaradılması haqqında» 1999-cu il 29 dekabr tarixli Fərman və Fondun Əsasnaməsinin təsdiqi oldu.**

**Bütün bu sazişlərin hazırlanması və reallaşmasının təşəbbüskarı və müəllifi ümummilli liderimiz Heydər Əliyev olmuşdur. Lakin onların hazırlanması və reallaşmasında, o cümlədən Dövlət Neft Fondunun yaradılmasında da aparıcı rol oynayanlardan birincisi heç bir mübaliğəsiz İlham Əliyev cənabları olmuşdur.**

Neft strategiyasının formalaşmasında İlham Əliyevin müstəsna rolu olmasının səbəbləri çoxdur. Başlıca səbəblərindən biri də onun ARDNŞ-ın birinci vitse-prezidenti, vəzifəsinin səlahiyyətləri ilə bağlı olmuşdur. Çünki dövlət qulluğunda İlham Əliyevin əməli fəaliyyətinin başlıca istiqaməti neft sektorunun inkişafı, onun Azərbaycan xalqının rifahının yüksəlməsinə xidmət etməsi üçün tədbirlər müəyyən etməkdən, onların icrasını təşkil etməkdən ibarət olmuşdur.

İlham Əliyev Dövlət Neft Fondunu güclü iqtisadiyyat yaratmaq, iqtisadi inkişafa dinamizm gətirmək, xalqın rifahını yüksəltmək vasitəsi hesab edir. O, Fondun gəlirlərinin formalaşma mənbələrinin müəyyən edilməsində, onların dəqiq uçotu və hesabatının aparılmasında dəyərli tövsiyələr vermişdir.

İlham Əliyev Fondun gəlirlərinin təkrar istehsalı, bölgüsü və



istifadəsinin başlıca prinsip və qaydalarının müəyyənləşdirilməsində mühüm rol oynamışdır.

İlham Əliyev neft sektorundan əldə edilən gəlirlərin bölgüsü və istifadəsi ilə bağlı ən azı iki cəhətin nəzərə alınmasını məqsədəuyğun sayır. Bu ən əvvəl, Azərbaycanın özünün istehsal etdiyi, daxildə və xaricdə reallaşdırdığı neft məhsullarından əldə etdiyi gəlirlərlə bağlıdır. Bu gəlirlərin yaranması, bölgüsü və istifadəsi, qanunvericilikdə müəyyən olunduğu kimi, dövlət büdcəsi vasitəsilə həyata keçirilir.

İkinci cəhət beynəlxalq müqavilələrin iştirakçısı kimi neft məhsulları istehsalı və reallaşdırılmasından Azərbaycana çatan payın xüsusi fondda - Dövlət Neft Fondunda cəmləşməsidir.

İlham Əliyev Dövlət Neft Fondunun vəsaitlərinin idarə edilməsinin səmərəliliyinə böyük əhəmiyyət verir. O, Fondun hər manatından istifadənin səmərəliliyinin yüksəldilməsi yolları və istiqamətlərini müntəzəm olaraq təkmilləşdirməyi, dəqiq uçot, hesabat və nəzarət mexanizmlərinin tətbiq edilməsini tövsiyə edir.

İlham Əliyev Fondun iqtisadiyyatın tarazlı inkişafına, yeni iş yerlərinin yaradılmasına təsir edən alətləri və mexanizmlərini dəqiqləşdirmişdir.

Stabilləşdirmə və yığım funksiyalarını yerinə yetirən bu fond Azərbaycanın bu günü və gələcəyi, dinamik inkişafı və firavan həyat şəraitinin təmin olunması üçündür. Bu birgə neft çıxaran və reallaşdıran dünya ölkələrində də belədir.

Dünyada zəngin təbii resursları olan ölkələr çoxdur. Təbii sərvətlərlə zəngin olmaları bu ölkələrə öz gəlirlərini artırmaqda üstün imkanlar yaradır.

Onlar bu əlverişli gəlir mənbələrinin daimi olmadığını, yalnız müəyyən dövr üçün istifadəsinin mümkünlüyünü və həmin sərvətlərin ehtiyatlarının müəyyən zamandan sonra tükənəcəyini nəzərə alaraq əvvəlcədən qabaqlayıcı tədbirlər görməli olurlar. Bu təbii sərvətlərdən hazırki və gələcək nəsilin istifadəsinə şərait yaratmaq, bu ölkələr iqtisadiyyatın birtərəfli inkişafına, dövlət büdcəsi gəlirlərinin bir mənbədən asılılığına yol verməmək üçün

tədbirlər görməli olurlar. Çünki iqtisadiyyatın birtərəfli inkişafı və büdcə gəlirlərinin bir mənbədən asılılığı ölkənin iqtisadi təhlükəsizliyi üçün çox ciddi əngəllər yarada bilər. Bu cür vəziyyətdə olan ölkələr iqtisadiyyatın digər sahələrinin inkişafına şərait yaratmaq zərurətini vaxtında dərk etməli və lazımi tədbirlər görməlidirlər.

Bu ölkələr malik olduqları digər təbii, texniki, iqtisadi və intellektual potensialını təsərrüfatçılıq dövriyyəsinə cəlb etmək, dövlət büdcəsi gəlirlərinin bir mənbədən (neftdən) asılılığını azaltmaq, ölkənin iqtisadi və milli təhlükəsizliyini təmin etmək, konkret şəraitin tələblərinə cavab verən çevik tədbirlər həyata keçirməli olurlar. Bu ölkələr cari və perspektiv vəzifələri yerinə yetirmək üçün stabilləşmə və ehtiyat fondları yaradırlar.

XX əsrin 90-cı illərində dünyanın 15-dən çox ölkəsində belə Dövlət Fondları yaradılmışdır. Onların yaranma mənbəyinə, təyinatına, idarə olunma metodlarına və üsullarına görə şərti olaraq üç qrupa bölmək olar:

- stabilləşdirmə fondu (ABŞ-ın Alyaska ştatı, Venesuela, Kolumbiya, Küveyt, Nigeriya, Norveç, Çili);
- gələcək nəsil üçün fond (Alberto, ABŞ-ın Alyaska ştatı, Kiribati, Küveyt, Oman, Papua -Yeni Qvineya);
- büdcə ehtiyatları fondu (Honhonq, Sinqapur, Estoniya, Cənubi Afrika Respublikası).

Bu fondlar ən ümumi formada stabilləşmə və yığım funksiyalarını yerinə yetirirlər. Bir qayda olaraq stabilləşmə fondlarının gəliri təbii resursların (neftin, misin, əlvan metalların) dünya qiymətlərinin səviyyəsindən, yığım fondlarının gəlirləri isə ölkə ərazisinin təbii sərvətlərlə zənginliyindən asılı olur.

Fondların yaradılmasında məqsəd neftin, qazın, əlvan metalların dünya qiymətlərinin kəskin dəyişildiyi dövrlərdə dövlət büdcəsinin gəlirləri və xərcləri arasında tarazlığı təmin etmək, eləcə də təbii sərvətlərin ehtiyatları tükəndiyi halda belə gələcək nəslin normal yaşamasından, fəaliyyət göstərməsindən və inkişafına şərait yaratmaqdan ibarət olmuşdur.



Bu fondların gəlirlərinin formalaşma mənbələri, onların bölgüsü və istifadəsinin əsas prinsipləri və qaydalarının müəyyən edilməsində xüsusiyyətlər çoxdur. Xüsusiyyətlərin bir qismi fondların şəffaflığı ilə bağlıdır.

Bir çox ölkələrdə, xüsusilə ərəb ölkələrində Dövlət Neft Fondu gəlirlərinin formalaşması, bölgüsü və istifadəsinin dəqiq müəyyən edilmiş prinsipləri, qaydaları və mexanizmləri yoxdur. Ən başlıcası, orada fondun gəlirlərinin kəmiyyəti, onların formalaşma yolları, prinsipləri və qaydaları, onun xərclərinin başlıca parametrləri məxfi saxlanılır.

Əgər xalqa məxsus olan Neft Fondunun gəlirləri və xərcləri ilə xalqın (ən azı deputatların) ətraflı tanış olmasına şərait yaradılmırsa və xalqın milli sərvətini idarə edənlər onun gəlirlərinin nə qədər olması, onların bölgüsünün hansı prinsiplərlə aparılması və ondan nə cür istifadə edilməsi barədə xalqa hesabat vermirsə, onda bu fond özbaşınalıq və korrupsiyaya meydan açan iri pul kisəsinə çevrilə bilər.

Respublikamızda Neft Fonduna vəsaitlərin toplanması, bölgüsü və istifadəsində şəffaflığı təmin etmək üçün ilk gündən sistemli iş aparılır. Bu işin ön cərgəsində duranlardan, Neft Fondu yaradılmasının təşəbbüskarlarından biri cənab İlham Əliyev olmuşdur.

İlham Əliyev bu sahədə dövlət siyasətini yerinə yetirənlərdən biridir. O hesab edir ki: **«Neft Fondunun işində daha çox şəffaflıq olmalıdır. İctimaiyyət bilməlidir ki, neftdən nə qədər pul gəlir və bu pullar haraya»** xərclənir.

Heydər Əliyev cənablarının və İlham Əliyevin Dövlət Neft Fondunun yaradılmasına dair fikrləri bir-birini tamamlayır. Onların yekdil fikri belədir: **«Neft bizim üçün məqsəd yox, güclü iqtisadiyyat yaratmaq vasitəsi»**dir. Azərbaycan dövləti üçün neft siyasəti:

- indiki və gələcək nəsillərin firavan yaşayışını təmin etmək;
- Azərbaycan vətəndaşlarına yüksək və stabil əmək haqqı ödənilən yeni iş yerləri yaratmaq;
- ölkənin gələcəkdə yalnız neft sektorundan asılı olmamasını,

iqtisadiyyatın digər sahələrinin inkişafını təmin etmək;

- ən başlıcası isə o Azərbaycan dövlətinin suverenliyini, iqtisadi müstəqilliyini və iqtisadi təhlükəsizliyini daha da möhkəmlətmək vasitəsidir.

Analitiklərin fikrincə, daxili bazara neft sektorundan külli miqdar möhkəm valyutanın daxil olması milli valyutanın mübadilə kursuna təsir edə və qiymətlərin qalxmasına səbəb ola bilər. Yerli sənaye yetərincə rəqabətqabiliyyətli olmadığından milli istehsalda tənəzzül baş verə bilər. Bu, ölkənin öz enerji sektorundan asılı vəziyyətə düşməsinə gətirib çıxara bilər. O təkcə iqtisadiyyatda deyil, habelə bütövlükdə cəmiyyətdə destabillik yaranmasına, neft sektoru ilə bağlı olan işçilərlə (oradan divident alanlarla) iqtisadiyyatın digər bölmələrində çalışanlar arasında təbəqələşmənin dərinləşməsinə səbəb ola bilər.

Ona görə də İlham Əliyev neft məhsulları satışından əldə edilən vəsaitlərin investisiya şəklində Azərbaycan iqtisadiyyatının başqa sektorlarına qoyulmasını, regionlarda yerli xammal bazasında işləyən istehsal sahələrinin, yeni iş yerlərinin yaradılmasına yönəldilməsini həlli vacib sosial-iqtisadi vəzifə hesab edir. Onun fikrincə, neftin güclü iqtisadiyyat yaratmaq vasitəsinə çevrilməsi üçün gələcək nəsillərin neft hasilatının səviyyəsindən və dünya bazarında neftin qiymətlərinin dəyişilməsindən asılılığını istisna edən məqsədli proqramlar hazırlanmalı və həyata keçirilməlidir.

Analitiklərin **«əgər lazımi nəzarət təmin edilməsə, Fondun vəsaiti iqtisadiyyata qovuşar və iqtisadiyyatda artıq pul kütləsi yarana bilər»** müddəasının, fikrimizcə, Azərbaycana dəxli yoxdur. Ən azı ona görə ki, bu gün Azərbaycanda tədavüldə olan pul kütləsinin ÜDM-ə nisbəti 13-14 faiz (Avropa ölkələrindən 5-7 dəfə az) təşkil edir. İqtisadiyyatını pul çatışmamazlığı bürüyən Azərbaycan üçün əmtəə təminatlı pul kütləsinin artımı neqativ deyil, müsbət nəticələr verə bilər.

İlham Əliyev hesab edir ki, fondun sosial-iqtisadi səmərəsi onun dövlət büdcəsi ilə təkmil inteqrasiyası və koordinasiyasının təmin olunmasından asılı olacaqdır. Azərbaycan Respublikası



Prezidentinin 2001-ci il 12 sentyabr tarixli Fərmanı ilə təsdiq olunmuş **«Azərbaycan Respublikası Dövlət Neft fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası qaydaları»**nda Fondla dövlət büdcəsinin tərtibi, gəlir və xərc maddələrinin formalaşma qaydalarının müəyyən edilməsi, onun digər parametrlərinin koordinasiyası üçün mühüm tədbirlər nəzərdə tutulur. O cümlədən:

**- Neft Fondu büdcəsinin tərtibi və icrasının Azərbaycan Respublikasında vahid makroiqtisadi siyasətin yeridilməsi və dövlət idarəetmə sektorunun gəlir və xərclərinin ümumiləşdirilməsi prinsipi əsasında həyata keçirilməsi;**

**- Neft Fondu vəsaitlərinin istifadə edilməsinin əsas istiqamətləri (proqramı) ilə bağlı xərc maddələri Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının makroiqtisadi proqnozları, milli iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı və rəqabət qabiliyyətinin artırılmasının zəruriliyinin əsas götürülməsi;**

**- Dövlət Neft Fondunun büdcəsi ilə Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlirləri və xərclərinin əlaqələndirilməsi;**

**- Dövlət Neft Fondunun ümumiyyətlə konsolidə olunmuş büdcənin bir hissəsi funksiyasını yerinə yetirməsi;**

**- Dövlət Neft Fondunun fəaliyyəti üçün nəzərdə tutulmuş xərclər istisna olmaqla, bu Fondun bütün xərclərinin xəzinədarlıq vasitəsilə həyata keçirilməsi və s.**

Respublikada maliyyə siyasətinin yerinə yetirilməsində fondun rolu yetərincə nəzərə alınsa da, **fondun vəsaitinin dövlət borcu ilə yüklənməsinə, girov subyektinə çevrilməsinə yol verilmir.**

Fond vergi və rüsumlardan azaddır. Fondun gəlirləri aşağıdakı mənbələrdən formalaşır:

- dövlətin payına düşən neftin və qazın satışından;
- akrhesabı ödənişlərdən;
- neft və qaz müqavilələri çərçivəsində dövlət əmlakından istifadə müqabilində xarici şirkətlərin ödədikləri icarə haqqından;
- xarici şirkətlərlə bağlanan müqavilələrə müvafiq olaraq Azər-

baycanın mülkiyyətinə keçən əmlakın satışından əldə edilən gəlirdən;

- xarici şirkətlərlə birgə fəaliyyət nəticəsində əldə edilən digər gəlirlərdən;

- fondun vəsaitinin yerləşdirilməsi və idarə olunmasından əldə edilən gəlirlərdən və s.

Ölkə Prezidentinin Dövlət Neft Fondunun yaradılması haqqında 1999-cu il 29 dekabr tarixli Fərmanında mənfəət neftinin satışından daxil olan valyuta vəsaitlərinin, bonusların və digər gəlirlərin bu Fondda toplanması və ondan səmərəli istifadə olunma yolları müəyyən edilmişdir.

Fondun vəsaiti dünyanın yüksək reytinqli banklarında saxlanılır. Onun vəsaiti ölkənin sosial-iqtisadi tərəqqisi naminə ümummilli problemlərin həllinə və strateji əhəmiyyətli obyektlərin inşası və yenidənqurulması üçün istifadə edilə bilər. Bu Fondun idarə edilməsindən əldə edilən gəlirlərlə həyata keçirilir.

Ölkə Prezidenti Fondun icraçı direktorunu təyin və işdən azad edir. Əsasnaməyə görə Fondun icraçı direktoru Prezidentə hesabat verir, fondun fəaliyyətinə ümumi nəzarəti isə Müşahidə Şurası həyata keçirir.

Şura Fondun illik büdcə layihəsini, onun illik hesabatını auditor rəyi ilə birlikdə nəzərdən keçirir. Fonda vəsaitin toplanması, uçotu, istifadə edilməsi, hesabatın tərtibi qaydaları Müşahidə Şurası tərəfindən müəyyən edilir. İcraya nəzarəti də Müşahidə Şurası həyata keçirir. Fondun xərcləri barədə rüblük hesabatlar və Fondun maliyyə-təsərrüfat fəaliyyətinin illik auditinin nəticələri mətbuatda çap olunur.

Ölkə Prezidenti fondun büdcəsinin gəlirləri və xərclərini, onların maddələr üzrə bölgüsünü, Fondun valyuta vəsaitlərinin saxlanması, yerləşdirilməsi və idarə edilməsi qaydalarını təsdiq edir, Fondun Müşahidə Şurası üzvlərini təyin edir.

Konstitusiyaya əsasən ölkə Prezidenti dövlət büdcəsinin sərəncamçısıdır. O həmçinin Dövlət Neft Fondunun sərəncamçısıdır. Lakin hazırda Dövlət Neft Fondunun gəlirləri bir milyard dollar-



dan çoxdur. Bir neçə ildən sonra onun gəlirləri dövlət büdcəsi gəlirlərini ötüb keçəcəkdir. Bu Fondun fəaliyyətinə hüquqi bazanın daha da təkmilləşdirilməsini, onun qanunlarla tənzimlənməsini zərurətə çevirəcəkdir.

İlham Əliyev Dövlət Neft Fondunun fəaliyyətini daha da təkmilləşdirməyi, onun gəlirlərinin artırılması, xərclərinin, fondun vəsaitlərinin idarə olunmasının səmərəliliyinin yüksəldilməsi istiqamətində əlavə tədbirlər görülməsini tövsiyə edir. Onun fondun vəsaitlərinin formalaşması və reallaşması prosesində aşkarlığın daha da genişlənməsi, qanunun aliliyi prinsipinə əməl olunması barədə tövsiyələri hamının diqqətini cəlb edir.

İlham Əliyevin dünya standartlarına cavab verən siyasətçi olması, təşkilatçılıq qabiliyyəti, güclü diplomatiyaya, məntiqi mühakimə qabiliyyətinə malik olması, Azərbaycanın siyasət meydanında onunla rəqabətə girməyə qadir siyasətçi olmadığı üçün bir çoxlarını qısqanclıq əzabı bürümüşdü. Xüsusilə o, Baş Nazir vəzifəsinə təyin olunandan sonra bir çoxlarının qara niyyətlərinin puç olması onları lap dəhşətə gətirmişdi.

İlham Əliyevlə bağlı mətbuatda çoxsaylı yazılar olmuş və yenə də olacaqdır. Hansı məsələdən bəhs olunsa belə orada «varislik problemi» hökmən öz əksini tapırdı. Qısa desək bu yazıların leytimotivini «varislik problemi» təşkil edirdi, «hakimiyyət məsələsi hər bir inqilabın başlıca məsələsi», olduğu kimi.

İlham Əliyevlə bağlı o, siyasət aləminə qatıldığı zamandan yazmışlar, gələcəkdə də yazacaqlar. Bəziləri İlham Əliyevə «patoloji» qısqanclıqdan yazırlar. Azərbaycanın siyasi spektrində az çox tanınan siyasətçilər özləri özlərini İlham Əliyevlə müqayisə edir, o dərəcədə iddialı, təkəbbürlü yazır və yaxud yazdırırlar ki, kənardan baxan kimi onun qərəzli olduğu açıq-aydın görünür.

Belələrinə tam səmimiyyətlə deyərdim: **xanımlar və cənablar! Üçüncü şəxsə çevrilin, özünüzə kənardan baxın, müqayisəli təhlil aparın, onda siz siyasətdə İlham Əliyevin harasına kimi çata bildiyinizi bəlkə görərsiniz.**

**Qlobal siyasətdə Biləcəri qəsəbəsindən o yanda tanınmayan,**

**«siyasət» sözünün mənasını, mahiyyətini anlamayan, özünü özünəməxsus ölçü vahidi ilə İlham Əliyevlə müqayisə edirsə, ona nə ad qoyasan? Belələrinə məşhur rus yazarı Krılovun təmsillərindən birindən yadımda qalan iki misranı xatırlatmaq istərdim:**

**«Bərəkallah, qüvvətlicə alabaş,**
**Filin üstə əcəb gedir birbaş!»**

İlham Əliyev haqqında yazanların böyük əksəriyyəti sevinc dolu, ürəkdən gələn sözlər yazırlar. Onlar əvvəl da yazıblar, indi də yazırlar və sonra da yazacaqlar. Artıq iki ilə yaxındır ki, İlham Əliyev Azərbaycan Respublikasının Prezidentidir.

Bir şey həqiqətdir ki, bütün bu yazıların təşəbbüsçüsü İlham Əliyev olmamışdır. Ən azı ona görə ki, onun belə yazılara ehtiyacı yoxdur. Heç bəndənizin (yəni mənim) bu yazısına da cənab İlham Əliyevin ehtiyacı yoxdur. Bunu öz ürəyimin hökmü ilə yazıram. Özümün bacardığım kimi. Bunu tam səmimiyyətlə deyirəm.

İlham Əliyev «Vaşinqton Post» qəzetinə müsahibəsində demişdir: **«Mən bütün həyatım boyu çalışacağam ki, atam kimi görünüm. O, mənim üçün həmişə həyatımızın nümunəsi olubdur. Onun həyatının çox çətin dövrləri olub. Kommunist partiyası Siyasi Bürosunun üzvlüyündən, - bildiyiniz kimi, o, keçmiş SSRİ rəhbərliyində 8-9 adamdan biri idi, - kiçik, doğma Naxçıvan şəhərinə gəldi, elektrik enerjisinin olmadığı bir şəraitdə yaşamağa başladı.**

**Orada qış ayları çox sərt olur. O, keçmiş sovetlər ittifaqına və Azərbaycana həmin vaxt başçılıq edənlərin hücumlarına məruz qalmışdı. Sonra Azərbaycana yenidən rəhbərlik edəndə müxtəlif hakimiyyət çevrilişi cəhdləri olmuşdur.**

**Ona qarşı terror cəhdləri olmuşdur. Bütün hallarda o təkcə siyasətçi kimi deyil, həm də qorxmaz, igid adam kimi hərəkət etmişdir.**

**Hesab edirəm ki, bununla o gənc nəslə nümunə olmuşdur. Bax, buna görə də çalışıram ki, onun kimi görünüm. Çünki mənim üçün o həmişə etalon olubdur. Ancaq siyasi fəaliyyət**



**etalonu yox, şəxsi davranış etalonu olubdur.»**

İlham Əliyev biliyinə, iqtisadi düşüncəsinə, təfəkkürünə, təcrübəsinə, bacarığına, bir sözlə, malik olduğu insani keyfiyyətlərinə görə Azərbaycanın siyasi həyatında öz yerini tutmuşdur. Burada müxalifətin əks-effekt yaratmaq cəhdi, effektin xeyrinə işləyir. Bu reallıqdır.

## 3.2. Regionların sosial-iqtisadi inkişafını sürətləndirmək

**Heydər Əliyev respublikamızın təsərrüfatçılıq ənənələrini, milli xüsusiyyətlərini, sosial-iqtisadi gerçəkliyini eh-tiva edən iqtisadi inkişafın Azərbaycan modelini yaratmışdır. Bu dünya ölkələrinin əksəriyyətinin keçdiyi bazar iqtisadiyyatı yoludur. O, çoxformalı (plüralist) mülkiyyətçilik və təsərrüfatçılıq, azad sahibkarlıq, sərbəst rəqabətə meydan açan, liberal inkişaf modelidir. Regionların tarazlı sosial-iqtisadi inkişafını sürətləndirmək Heydər Əliyevin formalaşdırdığı bu strateji xəttin tərkib hissəsini təşkil edir.**

**Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi siyasətin başlıca konturları İlham Əliyev cənablarına gərək oldu. İlham Əliyev bu strateji xəttin mahiyyətini mənimsədi. O mövcud strateji xətti yeni keyfiyyət halına yüksəltmək, onun reallaşmasına dinamizm gətirmək, sosial-iqtisadi inkişafı sürətləndirmək yolları və üsullarını müəyyən etməli oldu.**

**Ölkə Prezidenti regionların sosial-iqtisadi inkişafını sürətləndirməyi, Bakı zonası ilə respublikanın digər regionlarının inkişafındakı fərqləri aradan qaldırmağı dövlətin prioritet vəzifələrindən biri hesab edir. 2004-cü il fevralın 11-də qəbul olunmuş «Azərbaycan Respublikası regionlarının sosial – iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008)» bu vəzifələrin icrasına yönəlmişdir.**

**Bakı və regionların sosial-iqtisadi inkişafında fərqlər tari-**

xən yaranmışdır. Onların bir çoxu bu gün də qalmaqdadır.

Ölkə ərazisinin 2,5 faizini təşkil edən Bakı şəhərində Azərbaycan əhalisinin 25 faizi yaşayır. Sahibkarlıq subyektlərinin 80 faizi, işləyən istehsal müəssisələrinin 75-80 faizi, kapital qoyuluşlarının 90 faizi bu zonada cəmləşmişdir.

Respublikamızda fəaliyyətdə olan kiçik və orta müəssisələrin 6,3 faizi Gəncə-Qazax zonasında, 5 faizi Abşeronda, 4,2 faizi Lənkəranda, 2,2 faizi Şəki-Zaqatalada, 1,9 faizi Quba-Xaçmazda, 1,5 faizi Naxçıvanda olduğu halda, bu müəssisələrin 80 faizi Bakı şəhərində cəmləşmişdir.

Dövlət büdcəsi gəlirlərinin 90 faizindən çoxu Bakı şəhərində formalaşır. Respublikanın qalan ərazisində isə büdcə gəlirlərinin 10 faizə qədəri təmin olunur. Onun xeyli hissəsi büdcə gəlirlərinin Bakıdan rayonlara göndərilən hissəsindən formalaşır. Bu büdcə xərclərinin yenidən dövlət büdcəsinə qayıdan hissəsidir. Bu təhsil, səhiyyə, mədəniyyət işçilərinin, icra hakimiyyəti aparatında, prokurorluq, polis, məhkəmə və s. orqanlarında çalışanların əmək haqqından tutulan gəlir vergisinin büdcəyə köçürülən hissəsidir.

Respublikamızda rayonların xərclərinin yerli gəlirlərlə ödənilməyən hissəsi (dotasiya) dövlət büdcəsindən ödənilir. Azərbaycan regionlarının hamısı dotasiya alırlar. Rayonlara verilən dotasiyanın ümumi məbləği yüz milyardlarla manata bərabərdir. Təkcə 2004-cü ildə yerli gəlirlərlə xərcləri tənzimləmək üçün respublikanın rayonlarına mərkəzləşdirilmiş xərclərdən (dövlət büdcəsindən) 1 trilyon 045,3 milyard manat vəsait ayrılmışdır. Təkcə dotasiya dövlət büdcəsi xərclərinin 15 faizini təşkil edir.

Yerli gəlirlərlə xərcləri tənzimləmək üçün respublikanın rayonlarına mərkəzləşdirilmiş xərclərdən, 2005-ci ilin dövlət büdcəsindən 1 trilyon 324,5 milyard manatdan artıq vəsait ayrılmışdır. 2005-ci ildə dotasiyanın dövlət büdcəsi xərclərinə nisbəti 13,2 faiz təşkil etməsi nəzərdə tutulmuşdur.

Dövlət büdcəsi gəlirlərinin Bakıda formalaşması təkcə iqti-



sadi məsələ deyildir. O yalnız büdcə məsələsi də deyildir. Bu regionların ümumi vəziyyəti, onların iqtisadi inkişaf səviyyəsi, sosial-iqtisadi fəaliyyətin bütün sahələrinin rəsmi dövriyyəyə cəlb olunma dərəcəsi, vergi ödənişlərinin və büdcə daxiolmalarının səviyyəsi ilə bağlıdır.

Məlum olduğu kimi, istehsal ilkin, büdcə isə törəmədir. Dövlət büdcəsi gəlirlərinin hansı regionlardan formalaşması həmin regionun sosial-iqtisadi inkişaf səviyyəsindən asılıdır. Dövlət ölkənin bütün regionlarının tarazlı və sürətli inkişafını təmin etməklə digər problemlərin həllinə nail ola bilər.

Ölkədə fundamental islahatlar aparılmış, torpaq kəndlilərə verilmiş, kənd təsərrüfatı məhsulları istehsalçılarına vergi kanikulu (torpaq vergisi istisna olmaqla) verilmiş və digər güzəştlər edilmişdir. Dövlətin yeritdiyi siyasət kənd təsərrüfatı məhsulları istehsalının sürətli artımına səbəb olmuş, məhsul bolluğu yaranmasına təsir etmişdir. Bütün bunlar faktdır. Lakin kənd təsərrüfatı məhsulları istehsalının sürətlə artımı emal müəssisələrinin çatışmaması ilə qarşılaşmışdır.

Keçmişdən qalma emal müəssisələrinin əksəriyyəti AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə dağıdılmış, avadanlıqları satılmış, qalanları isə yararsız hala salınmışdır. İşləyən emal müəssisələri çatışmadığından alın təri ilə istehsal edilmiş kənd təsərrüfatı məhsullarının xeyli hissəsi zay olub gedir, mal-qara yeminə çevrilir.

Proqramda yerli resurslar bazasında hər bir regionun sosial-iqtisadi inkişafını təmin edən ünvanlı vəzifələr müəyyən edilmişdir.

Dövlət Proqramında Respublika ərazisi 10 iqtisadi rayona bölünmüş və hər bir rayonun sosial-iqtisadi inkişafı üçün tədbirlər müəyyən olunmuşdur. Respublikamızda əvvəllər qəbul olunmuş Dövlət Proqramlarından fərqli olaraq, bu proqramda düzgün olaraq işğal altında olan yuxarı Qarabağ (Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonları, Xankəndi şəhəri), habelə Kəlbəcər-Laçın (Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan rayonları)

iqtisadi rayonlarında da görüləsi işlər öz əksini tapmışdır. Bu, Azərbaycan ərazisinin bütövlüyünü təmin edəcəyimizə inamı daha da artırır. Bizi həmin rayonlar işğaldan azad olunandan sonra onların gələcək inkişafı haqqında daha fəal düşünməyə vadar edir.

Dövlət Proqramının icrası müvafiq icra hakimiyyəti orqanlarının gərgin işləməsini tələb edir. Yolların abadlaşdırılması, alternativ enerji mənbələrinin (günəş, külək enerjisindən istifadə olunması, habelə kiçik həcmli su elektrik stansiyaları tikintisi və s.) təsərrüfatçılıq dövriyyəsinə cəlb edilməsi, regionların enerji təchizatının yaxşılaşdırılması, müasir tələblərə cavab verən istehsal və sosial infrastruktur sahələrinin yaradılması proqramda günün vacib vəzifəsi kimi irəli sürülür.

Fikrimizcə, regionların hamısının birdən-birə inkişafını təmin etmək çətin olardı. Burada əsaslı vəsait qoyuluşunun səpələnməsini istisna edən, maddi və maliyyə resurslarından istifadənin səmərəliliyinin yüksəlməsinə təsir edən regionların blok sistemli inkişafını təmin etmək məqsədəuyğun olardı.

Dünya təcrübəsi regionların üstün inkişafını təmin etmək üçün xüsusi iqtisadi zonaların (XİZ) yaradılmasının böyük əhəmiyyətə malik olduğunu sübut edilmişdir. Bu, yeni istehsal və sosial infrastruktur sahələri yaradılmasını regionlara xarici investisiyalar cəlb edilməsini, xarici iş adamları ilə birgə müəssisələr yaradılmasını, yerli resursların təsərrüfatçılıq dövriyyəsinə cəlb edilməsini sürətləndirə bilər.

Fikrimizcə, Azərbaycanın bir neçə regionunun, o cümlədən blokada vəziyyətində olan Naxcıvan Muxtar Respublikasının xüsusi iqtisadi zonaya çevrilməsi onların sosial-iqtisadi inkişafında radikal dəyişikliklər yaradar, məşğulluq, yoxsulluq, milli və iqtisadi təhlükəsizlik problemlərinin həllinə təsir edər. Maliyyə problemlərini həll etmədən regionların sosial-iqtisadi inkişafının sürətləndirməyə nail olmaq mümkün deyil. O, dövlət büdcəsi, xarici investisiya qoyuluşları, xaricilərlə birgə müəssisələr yaradılması, yerli iş adamlarının vəsaitləri və bank kreditləri hesabına təmin edilə bilər.



Fikrimizcə, maliyyə resurslarının regionlar arasında səpələnməsinə yol verməmək üçün hər bir regionun sosial-iqtisadi inkişafının məqsədli proqramları hazırlanmalı və bütün maliyyə vəsaitləri onların ardıcıllıqla reallaşdırılmasını təmin etməyə yönəldilməlidir.

Regionlarda kredit alınması sahəsində mövcud problemlər aradan qaldırılmalı, girov problemi həll olunmalı, kreditlər üçün faizin optimal səviyyəsi təmin edilməlidir.

İqtisadi qanunauyğunluqlara əsasən kredit faizi həmişə mənfəət normasından aşağı olmalıdır. Onsuz kredit almaq iqtisadi mənasını itirmiş olar. Kredit faizinin orta mənfəət normasından nə dərəcədə aşağı olması tələblə təklif arasındakı nisbətdən asılı olaraq formalaşır.

Paradoksal vəziyyətdir! Respublikamızda iqtisadiyyatın orta rentabelliyi 14-15 faiz olduğu halda, kreditlər 19-20 və daha yüksək faizlə verilir. Bir aylıq krediti 5-6 faizlə (ili 60-70 faizlə) verən mikrokredit bankları da vardır. Dövriyyə sürəti yüksək olan kommersiya strukturları üçün bu faiz, bəlkə də, məqbuldur. Lakin 19-20 faizlə kredit almaq real iqtisadiyyat üçün qətiyyən sərfəli deyildir. Bu, son nəticədə banklar üçün də sərfəli deyildir. Çünki kreditlərin banklara geri qayıtma əmsalı onların faiz dərəcəsinə tərs mütənasib olaraq dəyişilir.

Doğrudur, kredit faizinin səviyyəsini tələb-təklif nisbətləri müəyyən edir. Lakin ümumi qanunauyğunluq vardır: kreditə tələbat nə qədər yüksək olsa da kredit faizi orta mənfəət normasına bərabər ola bilməz. Respublikamızda bank kreditinə faizin səviyyəsi orta mənfəət normasını üstələyir. Bu vəziyyətdə kreditdən istifadə etməklə əldə edilən mənfəət, habelə yaranan gəlirin özü də kredit faizini ödəməyə gedir. Deməli, belə kreditləri almaqla nəinki qazanc əldə etmək, hətta istehsal xərclərini və vergiləri də ödəmək mümkün deyil. İstehsal müəssisələri bu cür kreditləri almaqla özlərinin maliyyə təsərrüfat fəaliyyətinin daha da ağırlaşdıra bilərlər.

Bankların iqtisadiyyata kredit qoyuluşunun ÜDM-ə nisbəti onların iqtisadi inkişafda roluna meyar hesab oluna bilər. Dünya

ölkələrində iqtisadiyyata kredit qoyuluşununun ÜDM-ə nisbəti 80-100 faiz və daha yüksək olduğu halda, respublikamızda o 13-14 faiz təşkil edir. İqtisadiyyata kredit qoyuluşunun regionlarda yaranan ÜDM-ə nisbəti isə 3 faizdən də aşağıdır. Bu, bankların Azərbaycan iqtisadiyyatının inkişafında passiv rol oynadığına sübutdur. Kredit qoyuluşunun ÜDM-də xüsusi çəkisinin aşağı olmasının səbəbi kreditlərə ehtiycın az olması ilə əlaqədar deyildir. Kreditlərə tələbin kredit təklifini üstələdiyinə kreditlərin 20 faizlə verilməsi sübutdur.

İqtisadiyyata kredit qoyuluşunun tələbatdan az olmasının səbəbləri çoxdur. Onlardan başlıcası, fikrimizcə, 1) kreditlərin verilməsində bürokratik əngəllərin çox olması və 2) kredit şərtlərinin ağır, faiz dərəcəsinin yüksək olmasıdır.

Regionların inkişafına dair Dövlət Proqramının reallaşması bankların rolunda radikal dəyişikliklər edilməsini zərurətə çevirir. Kredit verilməsi proseduru sadələşdirilməli, kredit faizinin aşağı salınmasına təsir edən bütün vasitələrdən istifadə edilməli, tələb-təklif nisbətlərində iqtisadi cəhətdən əsaslandırılmış dəyişikliklər edilməlidir.

Real iqtisadiyyatın inkişafında uzunmüddətli kreditlər mühüm rol oynayırlar. İnvestiyiyaya transformasiya olunan bu kreditlər ümumi kredit qoyuluşunun 17-25 faizini təşkil edir. Ona görə də real iqtisadiyyata uzun müddətli kredit qoyuluşlarının artırılması üçün tədbirlər görülməli və kreditlərdən səmərəli istifadə olunmasına bank nəzarəti gücləndirilməlidir.

Bankların demək olar ki, 97-98 faizi səhmdar kommersiya banklarından ibarətdir. Onların hər biri sahibkarlıq subyektləridir. Özlərinə məxsus resurslardan onlar tələb-təklif nisbətləri əsasında formalaşan faizlə kredit verirlər. Heç kim onlara kredit faizinin səviyyəsini aşağı salmaq barədə tapşırıq verə bilməz.

Dövlət kredit faizinə, onun səviyyəsini aşağı salmağa bir başa təsir etmək imkanına malik deyil. Dövlət fəal pul-kredit siyasəti yeritməklə, pula tələbatla pul təklifi arasında nisbətləri dəyişdirməklə kredit faizinin səviyyəsinə təsir edə bilər.



Respublikamızda banklar Bakıda cəmləşmişdir. Regionlarda onların filialları, şöbələri, nümayəndəlikləri mövcuddur. Onların çoxu yalnız müəssisə və təşkilatlar arası köçürmələrlə, bank xidməti göstərməklə məşğuldur. Bank fəaliyyəti ilə müstəqil məşğul olmaq, kredit vermək imkanı və səlahiyyəti onların xeyli hissəsində yoxdur.

Regionların inkişafını təmin etmək üçün ipoteka bankları yaradılmalıdır. Bankların yaradılması və fəaliyyət göstrəməsinin qaydaları və prinsipləri qanunla müəyyən edilir. «İpoteka haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur.

Dövlət büdcəsindən kiçik və orta sahibkarlığın inkişafına verilən kreditlərə faiz dövlət tərəfindən müəyyən edilə bilər və edilir də. Bu kreditlər 7 faizlə verilir. Lakin büdcə vəsaiti hesabına verilənlər kreditə tələbatın cüzi bir hissəsini ödəyir. Təəssüflə qeyd etməliyik ki, bu kreditlərin verilməsində də burokratik əngəllər və digər neqativ hallar mövcuddur.

Büdcədən güzəştli şərtlərlə kiçik və orta sahibkarlığın inkişafına kreditlərin verilməsində, fikrimizcə, hər bir rayonda olan Kredit İttifaqlarının xidmətindən istifadə olunması məqsədəuyğun olardı. Bu həmin kreditlərə faizin səviyyəsini bir qədər də aşağı salmağa, ən azı 4-5 faizə endirməyə, kreditlərin verilməsində bürokratik əngəlləri aradan qaldırmağa və onların təyinatı üzrə maksimum səmərəli istifadə olunmasına, eləcə də müəyyən olunmuş vaxtda geri qaytarılmasına şərait yaradardı.

Kredit İttifaqlarından və Kənd Təsərrüfatında Özəl Bölmənin İnkişafına Yardım Agentliyindən verilən kreditlərin şərtləri, qaydaları və prinsiplərində oxşarlıqlar çoxdur. Agentlikdən verilən kreditlərin faizi aşağı, geri qayıtma əmsalı isə 98 faiz təşkil edir. Orada kredit alanlar bir-birini tanıyanlardır. Kredit İttifaqlarının verilmiş kreditlərin təyinatı üzrə və səmərəli istifadə olunmasına gündəlik nəzarəti həyata keçirmələrində problem yoxdur.

Kredit İttifaqlarında kreditlər yalnız payçılara verilir. Onlar birgə fəaliyyət göstərən, bir-birini tanıyan və gündəlik fəaliyyətləri biri-biri ilə əlaqəli olan bir ittifaqda birləşmiş şəxslərdir. Qarşılıqlı

nəzarət kreditlərin təyinatı üzrə səmərəli istifadəsini və vaxtında qaytarılmasını təmin etməyə şərait yarada bilər. Kredit İttifaqları dövlət büdcəsindən verilən kreditlərin təyinatı üzrə istifadə olunmasında və regionların inkişafına maliyyə təminatı yaradılmasında banklara nisbətən daha fəal rol oynaya bilər.

Dövlət Proqramında hər bir regionda mövcud istehsal müəssisələrinin bərpası nəzərdə tutulur. Fikrimizcə, bu diferensial yanaşma tələb edir. Texnoloji sistemi hazırki şəraitə uyğun gəlməyən, rəqabətqabiliyyətli məhsul istehsalına yararlı olmayan müəssisələri bərpa etmək, anbar üçün məhsul istehsalına vəsait sərf etmək olardı. Bu müəssisələrin texnoloji vəziyyəti ciddi təhlil edilməli, onların rəqabətqabiliyyətli məhsul istehsalına yararlı olmayan avadanlıqları təkrar emal üçün istifadə edilməlidir.

Proqramda regionlarda istehsal və sosial infrastruktur sahələrinin yaradılması və inkişafına xüsusi əhəmiyyət verilir. Onsuz regionlara xarici investisiyalar cəlb edilməsini, xaricilərlə birgə müəssisələr yaradılmasını, istehsal və realizasiyasını problemlərinin birgə həllini, yerli istehsalın dünya iqtisadiyyatına inteqrasiyasını təmin etmək mümkün olmazdı.

Dövlət Proqramında regionların xammal, material və intellektual potensialı hesabına yerli istehsalın inkişafını sürətləndirmək üçün tədbirlər müəyyən edilmişdir.

Ölkəmizdə yerli xammal bazasında fəaliyyət göstərən keyfiyyətcə yeni tipli kiçik və orta müəssisələr yaratmalıyıq. Onlar müasir texnoloji sistemə əsaslanmalı, ən aşağı xərclə, yüksək keyfiyyətli və rəqabətqabiliyyətli məhsullar istehsal etməyə şərait yaratmalıdır.

Məlum olduğu kimi, yoxsulluğun açarı yeni iş yerlərinin yaradılmasındadır. Yerli istehsalın stimullaşdırılması regionlarda zəncirvari reaksiya yaradar, əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsini yüksəltməyə, yoxsulluq həddində yaşayanların sayını azaltmağa, iş qüvvəsinin regionlardan Bakı şəhərinə axınının qarşısını almağa, miqrasiya problemlərinin həllinə təsir edə bilər.

Beş ildə 600 min yeni iş yerlərinin yaradılması Dövlət Proqramının mühüm istiqamətlərindən birini təşkil edir. Bu isə hər il respublikada 120-130 min yeni iş yerlərinin açılması deməkdir. İlham Əliyev cənabları ölkə Prezidenti seçiləndən indiyə, 2005-ci il martın 31-nə kimi 170 mindən çox yeni iş yerləri yaradılmışdır.



Dövlət Proqramının qəbulundan bir il keçmişdir. Bu müddət ərzində bütün şəhər və rayon icra hakimiyyətlərində, eləcə də sənədin icraçıları olan dövlət qurumlarında müvafiq komissiyalar yaradılıb və müxtəlif sahələr üzrə əlavə işçi qrupları təşkil edilib. Bunlardan əlavə işlərin daha səmərəli təşkil edilməsi üçün dövlət başçısının fərmanı ilə əlaqələndirici funksiyanı həyata keçirən İqtisadi İnkişaf Nazirliyində katiblik və hər bir iqtisadi rayon üzrə müvafiq regional inkişaf şöbəsi yaradılmışdır.

Proqramın icrasına xarici maliyyə mənbələrinin, həmçinin xarici investorların vəsaitlərinin cəlb edilməsi məqsədi ilə 40-dan artıq beynəlxalq maliyyə və texniki yardım təşkilatına, o cümlədən bəzi ölkələrin diplomatik nümayəndəliklərinə müraciətlər olunub və bu istiqamətdə müəyyən nəticələr var. Bununla yanaşı, Azərbaycanda fəaliyyət göstərən xarici və beynəlxalq humanitar təşkilatların da imkanlarından istifadə olunaraq onların regionlara istiqamətləndirilməsi sahəsində tədbirlər həyata keçirilib və həmin tədbirlər bu gün də davam etdirilir.

Bütün bu və qeyd etmədiyimiz digər tədbirlərin nəticəsi kimi ölkənin 2004-cü ilin makroiqtisadi göstəricilərinə nəzər salmaq kifayətdir. Ötən il Azərbaycanda ÜDM istehsalının artımı 2003-cü ilə nisbətən 10,2 faiz təşkil etmişdir. Adambaşına düşən ÜDM-də həcmi 9,2 faiz çoxalaraq 5,1 milyon manata çatmış, ümumi daxili məhsulda qeyri-dövlət sektorunun xüsusi çəkisi 74-75 faiz təşkil etmişdir.

2004-cü ildə bütün maliyyə mənbələri hesabına əsas kapitala 24,2 trilyon manat, yəni əvvəlki ildəkindən 36,1 faiz çox investisiya yönəldilmişdir. Bunun 23,5 faizi qeyri-neft sektorunun inkişafına sərf olunmuşdur.

2004-cü ildə əhalinin nominal pul gəlirləri də 20,7 faiz artaraq 30 trilyon manatı ötüb. Həmin dövrdə iqtisadi sahələrdə

çalışanların orta aylıq əmək haqqı 483,4 min manat olmuş, bu da 2003-cü ilə nisbətən 26,2 faiz çoxdur.

Bu nəticələrin əldə edilməsində Dövlət Proqramının icrası ilə bağlı görülmüş tədbirlərin rolu az olmamışdır.

Sahibkarlığın daha da inkişaf etdirilməsi, iş adamları üçün əlverişli şəraitin mövcudluğu ötən bir ildə bölgələrdə çoxsaylı müəssisələrin istifadəyə verilməsinə səbəb olmuşdur. Eyni zamanda, regionlardakı çoxdan işləməyən bir çox müəssisələr də yenidən fəaliyyətə başlayıb. Yeni istifadəyə verilən və fəaliyyətini bərpa etmiş müəssisələr əsasən yüngül, yeyinti və emal sənayesi məhsulları istehsal edir. Bununla belə, istifadəyə verilmiş bir sıra müəssisələr ölkəmiz üçün yeni istehsal sahələridir. Məsələn, indi regionlarımızda minik avtomobilləri, televizorlar yığılan müəssisələr fəaliyyət göstərməyə başlamışdır. Həmçinin rayonlarda özəl tibb klinikaları, tədris ocaqları da yaradılmışdır.

Azərbaycanda salınacaq sənaye şəhərciyi haqqında bir qədər ətraflı məlumat vermək lazımdır. Bu şəhərciyin layihəsi ölkə sənayesinin daha mütərəqqi yollarla inkişaf etdirilməsi üçün BMT-nin Sənaye İnkişafı Təşkilatı ilə birgə həyata keçirilir. Müasir kommunikasiya və infrastruktura malik olacaq sənaye şəhərciyinin texniki-iqtisadi əsaslandırılması artıq hazırdır və onun reallaşması üçün Nazirlər Kabinetinin qərarı ilə Abşeron və Xızı rayonlarının ərazisində konkret desək, Yeni Yaşma qəsəbəsində 300 hektar sahə ayrılıb.

Onu da qeyd edək ki, ölkənin sənaye potensialının və ixracyönümlü məhsul istehsalının artırılması, eləcə də ətraf rayonlarda yaşayan əhalinin yüksək ödənişli işlə təminatı baxımından mühüm əhəmiyyət kəsb edən bu şəhərciyin salınması və idarə olunması təcrübəsi ilə yerində tanış olmaq üçün müvafiq işçi qrupu Türkiyəyə ezam edilmişdi. Ezamiyyət müddətində öyrənilən təcrübə, Azərbaycanda sənaye şəhərciyinin yaradılmasının mühüm istiqamətlərinə dair verilən tövsiyələr və həyata keçirilməli olan tədbirlər müəyyənləşdirilib. Hazırda zəruri təşkilati tədbirlərin həyata keçirilməsi istiqamətində işlər davam etdirilir.



Dövlət Proqramının qəbul olunması səbəblərindən biri də regionlarda istehsal və sosial infrastruktur obyektləri yaratmaqdan ibarətdir. Bölgələrə investisiya cəlb etmək üçün ilk növbədə həmin ərazi zəruri infrastruktura malik olmalıdır. Məhz bu səbəbdən Dövlət Proqramında infrastrukturun inkişafı ilə bağlı hər iqtisadi və inzibati rayon üzrə tədbirlər müəyyən edilib və ötən bir ildə bu sahədə xeyli iş görülmüşdür. İlk növbədə regionlarda əsas problem olan elektrik enerjisi və təbii qaz çatışmazlığını aradan qaldırmaq üçün müəyyən tədbirlər həyata keçirilib. Bütün iqtisadi rayonlarda tikilmiş və tikilməkdə olan yarımstansiyalardan, elektrik verilişli xətlərindən, gücləndirilən transformatorlardan savayı, kiçik SES-lər şəbəkəsinin genişləndirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə məsələsi də gündəliyə gətirilib və bu sahədə konkret işlər görülüb. Region əhalisinin təbii qazla təchizatına gəldikdə isə, ötən bu bir ildə minlərlə metr qaz borularında təmir-bərpa işləri aparılıb, yeni kəmərlər çəkilib. Bu dövrdə həmçinin regionlarda su təminatı və kanalizasiya sistemlərinin yenidən qurulması sahələrində də müəyyən tədbirlər həyata keçirilib.

Qeyd etmək lazımdır ki, bu görülən işlər regionlarda, bölgələrdə infrastrukturun yaradılması, yaxud bərpası sahəsində görüləcək işlərin başlanğıcıdır. Bu istiqamətdə görüləsi işlər və həll ediləsi problemlər hələ çoxdur.

Azərbaycanda sahibkarlığın inkişafı, özəl sektorun təşəkkül tapması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Onun 2002-ci ilin yazında yerli və ölkəmizdə fəaliyyət göstərən xarici iş adamları ilə görüşləri Azərbaycanda sahibkarlığın və özəl sektorun inkişafına təkan verdi. Hazırda dövlət başçısı cənab İlham Əliyev də bu kursu çox uğurla davam etdirir.

Həqiqətən, regionların, deməli, həm də ölkənin sosial-iqtisadi inkişafına, bilavasitə sahibkarlığa və özəl sektora geniş meydan verilməsi, iş adamları üçün əlverişli şəraitin yaradılması dövlət siyasəti olduğundan müvəffəqiyyət qazanmaq mümkün olur. Regionların sosial-iqtisadi inkişafının sürətlənməsi sahəsində tədbirlərin əsası Dövlət Proqramında öz geniş əksini tapmışdır. İlk

növbədə, «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin ikinci Dövlət Proqramı»na və qüvvəyə minmiş digər normativ-hüquqi aktlara uyğun olaraq, keçən bir ildə dövlət əmlakından səmərəli istifadə edilməsi və özəlləşdirilməsi sahəsində xeyli iş görülüb. Misal olaraq Daşkəsən filizsaflaşlaşdırma, Qaradağ rezin qarışığı, Bakı «Çinar» soyuducuları, Bakı elektroavtomat, Neftçala yod-brom və s. müəssisələrin satışı üzrə keçirilmiş investisiya müsabiqələrini göstərmək olar. Bunlardan əlavə, 20 dövlət müəssisəsinin də özəlləşdirilməsi ilə bağlı hazırlanmış sənədlər ekspertizadan keçirilir. Eyni zamanda, kiçik müəssisələrin özəlləşdirilməsi prosesi davam etdirilir. Son bir ildə 380-dək belə obyekt öz mülkiyyət formasını dəyişib ki, onların da 160-dan çoxu regionlarda yerləşir. Bu siyahını uzatmaq da mümkündür.

Ölkə iqtisadiyyatında qeyri-dövlət sektorunun xüsusi çəkisinin sürətlə artmasını sübut edən digər faktlara müraciət edək: keçən il Azərbaycan iqtisadiyyatında işləyən əhalinin 70 faizi özəl sektorda çalışanlar təşkil etmişlər. Dövlət büdcəsinin 50 faizə yaxını qeyri-dövlət sektorunun hesabına formalaşmışdır.

Son 5 ildə hüquqi şəxslərin sayı 1,5 dəfə artaraq 65 mini ötüb keçmiş, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sayı isə 183 mindən çox olmuşdur.

Sahibkarlıq fəaliyyətinə başlayanların heç də hamısı kreditlərə bel bağlamır. Onların müəyyən hissəsinin ilkin kapital kimi öz vəsaitləri olur. Hazırda ölkədə fəaliyyət göstərən həm dövlət, həm də kommersiya bankları hər hansı fiziki, yaxud hüquqi şəxsi maliyyələşdirmək üçün kifayət qədər kredit resurslarına malikdir.

Sahibkarlığa Kömək Milli Fonduna dövlət büdcəsindən güzəştli şərtlərlə kredit vermək üçün ayrılan vəsaitin məbləği ildən-ilə artır. Bu vəsait müvəkkil banklar vasitəsi ilə kiçik və orta sahibkarlara güzəştli kreditlərlə verilir.

Ölkə Prezidentinin 2004-cü il 4 may tarixli fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərindən istifadə qaydalarına əlavələr və dəyişikliklər edilmiş, o, xeyli təkmilləşdirilmişdir. Həmçinin müvəkkil kredit təşkilatlarının şəbəkəsi xeyli genişləndirilmiş və indi onların sayı 25-ə çatmışdır. Ötən bir ildə Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti bu kredit təşkilatlarının vasitəsi ilə 53 şəhər və rayon üzrə 1300-dən çox sahibkarlıq subyektinin investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilib.

Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri layihələrin 90 faizə yaxın hissəsi istehsal və emal yönümlüdür və vəsaitin 80 faizdən çoxu regionlarda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilmişdir. Bundan əlavə, sahibkarların alternativ maliyyə təminatı mənbələrindən istifadə imkanlarının genişləndirilməsi üzrə lizinq mexanizminin hüquqi bazası təkmilləşdirilib, onun tətbiqinin stimullaşdırılması üzrə bir sıra tədbirlər həyata keçirilib. Həmçinin xarici və beynəlxalq maliyyə-kredit qurumları ilə kiçik sahibkarlığın maliyyələşdirilməsi sahəsində əməkdaşlığın nəticəsi kimi yaradılmış Azərbaycan Mikromaliyyələşdirmə Bankının fəaliyyəti genişləndirilərək filialları açılıb və bu iş cari ildə də davam etdiriləcək. Eyni zamanda, bir sıra beynəlxalq maliyyə qurumları tərəfindən sahibkarlığa maliyyə dəstəyi istiqamətində layihələr də reallaşdırılıb.

Dövlət Proqramında hər bir iqtisadi və inzibati rayon üzrə həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin sırasında aqrar sektorla bağlı müddəalar üstünlük təşkil edir. Bu təsadüfi deyildir. Tarixən rayonlarımızın iqtisadiyyatının əsasını kənd təsərrüfatı məhsulları istehsalı təşkil edib və Azərbaycan həm neft ölkəsi, həm də aqrar-sənaye respublikası hesab olunmuşdur.

Dövlətin yeritdiyi siyasət nəticəsində hazırda aqrar sektor ölkəmizdə dinamik inkişaf edən sahələrdən biridir. Aqrar sektorun bazar iqtisadiyyatı şəraitində belə sürətlə inkişafı ümummilli liderimiz Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır.

Məhz Heydər Əliyev 1995-ci ildə heç bir postsovet respublikasının cürət edib başlamadığı bir dövrdə aqrar islahatlara start verdi. Kolxoz və sovxozların mülkiyyəti özəlləşdirildi, torpaqlar təmənnasız olaraq kəndlilərə paylandı. O vaxt çoxları bunu riskli addım hesab edirdilər. Amma 3-4 illik qısa zaman ümummilli liderimizin böyük uzaqgörənliklə həyata keçirdiyi aqrar islahat-

ların vaxtında aparıldığını sübut etdi. İndi MDB ölkələri Azərbaycanın kənd təsərrüfatı sahəsində apardığı islahatları təcrübə kimi öyrənirlər.

Cəmi 10 il əvvəl kənd təsərrüfatı məhsullarının az qala 90 faizini kənardan gətirən ölkəmiz indi özü xaricə belə məhsullar ixrac edir. Bu gün ölkənin bir çox ərzaq məhsullarına olan tələbatı tam daxili istehsal hesabına ödənilir. Təkcə 2004-cü ildə Azərbaycanda 2,1 milyon ton taxıl, 930 min tondan çox kartof, 1 milyon tondan artıq tərəvəz, 420 min ton meyvə, 355 min ton bostan, 56,8 min ton şəkər çuğunduru, 135,7 min ton pambıq və s. məhsullar istehsal edilmişdir.

Sözsüz ki, bütün bunlar cənab İlham Əliyevin rəhbərliyi altında aparılan düzgün aqrar siyasətin, o cümlədən Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin nəticəsidir. Ötən bir ildə aqrar sektorda çoxlu tədbirlər həyata keçirilmişdir. Aqrar sahənin inkişafının sürətləndirmək və fermerlərin kənd təsərrüfatı texnikası ilə təminatını yaxşılaşdırmaq üçün «Aqrolizinq» şirkəti və Belarus investorlarının iştirakı ilə «BelAz-Azərbaycan» müştərək müəssisəsi yaradılmışdır.

Aqrar sektorda çalışanların kreditləşdirilməsi üçün də 2004-cü ildə xeyli iş görülmüşdür. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən il Şəki, Quba, Lənkəran, Gəncə, Naxçıvan, İmişli və Mingəçevirdə keçirilmiş kredit yarmarkalarında 800-ə yaxın sahibkarlıq subyektinə 60 milyard manat həcmində güzəştli kredit verilmişdir. Kredit alan sahibkarların 40 faizini fermerlər təşkil etmişdir.

2004-cü ildə Asiya İnkişaf Bankının təklif etdiyi 24 milyon dollarlıq «Azərbaycanda mikro və kənd maliyyələşdirilməsinin inkişafı» layihəsinin həyata keçirilməsi ilə bağlı razılıq əldə olunmuşdur. Həmin imkanlardan da sahibkarların kreditlərə ehtiyacının ödənilməsində aktiv istifadə olunacaqdır.

Dövlət Proqramında yeni iş yerləri yaratmaq haqqında müəyyən edilmiş tədbirlərin mənası təkcə iqtisadi nəticələrlə məhdudlaşmır. O uzunmüddətli sosial-siyasi stabilliyə iqtisadi təminat yarada bilər. Bu isə öz növbəsində regionlara yeni xarici



investisiyalar cəlb edilməsinə, orada xaricilərlə birgə müəssisələr yaradılmasına, yerli sahibkarlarda iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılmasına təsir edər və deməli, istehsalın yeni yüksəlişinə şərait yarada bilər.

Dövlət regionların üstün inkişafını təmin etməklə iş qüvvəsinin, əhalinin regionlardan Bakıya axınının Bakıdan regionlara axınla əvəzlənməsinə nail olmağa çalışır. Bu olduqca vacibdir. Regionlardakı əhalinin xeyli hissəsinin iş yerləri tapmaq üçün Bakıya gəlmələri Bakının infrastruktur sahələrində, kommunikasiya sistemində gərginliklər yaranmasına səbəb olmuşdur. Bu hazırda da davam etməkdədir.

Regionlardakı əhalinin Bakı şəhərinə axını respublikanın ucqar rayonlarında onların özlərinə məxsus problemlər yaratmışdır. Bu, ucqar və dağlıq rayonların, sərhəd bölgələri kəndlərinin, o cümlədən blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının dağ kəndlərinin bəzisinin boşalması ilə nəticələnmişdir. Bu təkcə iqtisadi məsələ deyildir. Onun hansı nəticələr verə biləcəyini əvvəlcədən dərk etməli və müvafiq tədbirlər görməliyik.

Hər bir rayonda yerli xammal bazasında fəaliyyət göstərən, rəqabət qabiliyyətli, ixrac yönümlü məhsullar istehsal edən emal zavodlarının yaradılması yüksək iqtisadi səmərə verməklə yanaşı, regionlarda işsizlik, yoxsulluq və miqrasiya problemlərinin həllinə təsir edə bilər.

Fikrimizcə, regionların sosial-iqtisadi inkişafını sürətləndirmək üçün:

- regionlarda istehsal və sosial infrastruktur sahələrinin və xidmət müəssisələrinin yaradılması sürətləndirilməlidir;
- kənd təsərrüfatında iqtisadi islahatların ikinci mərhələsinə keçid təmin edilməli, regionlarda aqroservislər şəbəkəsi, kollektiv əməyə əsaslanan istehsal və xidmət müəssisələri yaradılmalıdır;
- regionlarda lizinq fəaliyyəti və əməliyyatlarından istifadə dairəsinin əhəmiyyətli dərəcədə genişləndirilməsi təmin edilməlidir;
- daha əlverişli investisiya mühiti formalaşdırılmalı, regionla-

rın sosial-iqtisadi inkişafına daxili və xarici investorlar cəlb edilməli, respublikanın regionlarına investisiya qoyuluşlarının artımı stimullaşdırılmalıdır;

- regionların idarəetmə sistemi təkmilləşdirilməli, sahə idarəçiliyindən funksional idarəçiliyə keçid təmin olunmalıdır;

- regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsini gücləndirmək məqsədilə xüsusi gömrük, vergi rejimlərinin tətbiqindən geniş istifadə olunmalıdır;

- dağlıq və ucqar rayonların inkişafını sürətləndirmək üçün diferensial vergi dərəcələri, vergi güzəştləri, vergi kanikulları tətbiq olunmalıdır;

- regionların bəzi istehsal və xidmət sahələrinin müəyyən müddətə xarici idarəçiliyə verilməsi, birgə istehsal və sosial infrastruktur müəssisələri yaradılması praktikasından geniş istifadə edilməlidir;

- ən başlıcası regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün hakimiyyətin müxtəlif qollarının, icra strukturlarının koordinasiya olunmuş fəaliyyəti təmin olunmalıdır. Təəssüflər olsun ki, bu gün ən çox çatışmayan cəhət icra strukturlarında pərakəndəlik, sahə maraqları orbitindən kənara çıxa bilməməkdir.

İcrasını təmin edə bilmədikləri dərəcədə özlərinə çoxlu səlahiyyət toplamaq, lakin işin nəticəsi barədə hesabat verməkdən yaxasını kənara çəkmək bir sıra icra hakimiyyəti orqanlarının əlamətdar cəhətinə çevrilmişdir. Onların hər birinin ümumdövlət maraqları ilə uzlaşmayan öz orbitində sahə maraqları prinsipləri ilə fəaliyyət göstərmələri regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə maneələr yaradır. Unudulmamalıdır ki, koordinasiya olunmuş fəaliyyəti təmin etmədən iqtisadi fəaliyyətin səmərəliliyini yüksəltmək və dinamik inkişafa nail olmaq qeyri-mümkündür.

Proqramda irəli sürülən vəzifələrin yerinə yetirilməsi müvafiq icra hakimiyyəti strukturlarından olduqca gərgin və koordinasiya olunmuş fəaliyyət göstərilməsini tələb edir.

Qarşıya qoyulmuş vəzifələrin uğurla icrası onların mənası və əhəmiyyətinin olduğu kimi dərk edilməsindən və müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsinə dövlətçilik mövqeyindən yanaşılmasından, icra prosesində operativlik göstərilməsindən çox asılıdır.

Acı həqiqət olsa da, qeyd etməliyik ki, icra strukturlarında çalışanların bir qismi Dövlət Proqramında irəli sürülmüş vəzifələrin nə ruhunu olduğu kimi dərk edə, nə də onun icrasında öz yerini görə və məsuliyyətini dərk edə bilirlər. Ölkə Prezidenti «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında (2004-2008)» sürətli inkişaf tempi nəzərdə tutur. İcra strukturlarına rəhbərlik edənlərin xeyli hissəsi ölkə Prezidentinin müəyyənləşdirdiyi regionların yüksək templi inkişafının nə məzmununu kifayət qədər anlayır, nə də bu templə ayaqlaşmağa qadir olduqlarını təsdiq edə bilirlər.

İcra strukturlarının lap yüksək mərtəbələrində əvvəldən potensialı olmayan və yaxud 10 ildən çox rəhbərlik etdiyi sahənin inkişafını təmin etmək üçün potensialı çoxdan tükənənlər istənilən qədərdir. Beləəri Nazirlər Kabinetində və Prezident Aparatının özündə də az deyildir.

Kreslosunu qorumaq üçün yaltaqlıq rüşvətini sağa, sola səpələyənlərlə, hökumət telefonlarını, möhürünü, kabinetlərini, qərar, sərəncam vermək səlahiyyətlərini şəxsi biznesini qorumağa, öz inhisarçı mənfəətini artırmağa yönəldənlərlə belə gərgin proqramın vaxtında və tələb olunan səviyyədə icrasını təmin etmək çətinliklərlə qarşılaşa bilər.

Dövlət qulluqçusu həqiqətən dövlət qulluqçusu olmalı, bu qulluğun əhatə dairəsində xalqına, dövlətinə xidmət etməlidir. Rəhbərlik etdiyi nazirliyin dövriyyəsindən böyük inhisarçı kommersiya strukturları olanın eyni zamanda yüksək dövlət vəzifəsini (Nazir, Dövlət Komitəsinin sədri, Dövlət Konserninin, Şirkətin prezidenti) tələb olunan səviyyədə icra etməsi mümkün deyildir. Fikrimizcə, bu dilemma birmənalı həll olunmalıdır - ya dövlət qulluğu, ya da şəxsi biznes fəaliyyəti, ikisindən biri qalmalıdır.

Dövlət Proqramının reallaşmasına şəxsi biznes maraqları prizmasından baxmaqla, şəxsi varidatını artırmaq vasitəsinə çevirmək-

lə, dövləti və xalqı aldatmaqla xalqa və dövlətə xidmət etmək, büdcə vəsaitlərini artırmağa nail olmaq, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasını təmin etmək çətinliklərlə qarşılaşa bilər.

Ölkə Prezidenti 2003-cü il noyabrın 17-də Nazirlər Kabinetinin iclasında özünün Heydər Əliyev kursuna, onun kadr siyasətinə sadiq olduğunu bir daha bəyan etməklə yanaşı, bildirmişdir ki, «hər birimizin gələcəyi nəticələrdən asılı olacaqdır. Bütün sahələrdə nəticə olmalıdır.... Yüksək nəticələr əldə etmək üçün gözəl şərait vardır. Heydər Əliyev tərəfindən Azərbaycanda yaradılmış bu iqtisadi iqlim o qədər gözəldir ki, yeni nəticələr əldə etmək üçün çox yaxşı şərait vardır. Əlbəttə, hamıdan tələb edirəm ki, öz işinə məsuliyyətlə yanaşsın və öz vəzifə borcunu vicdanla yerinə yetirsin.» Bu İlham Əliyev cənablarının yeridəcəyi kadr siyasətinin başlıca konturlarından biridir.

Hər bir məmurun dövlət tapşırığının icrasına məsuliyyət hissi, həvalə edilmiş işin icrasının lazımi keyfiyyətlə və müəyyən edilmiş vaxtda yerinə yetirməsi ilə müəyyən edilməlidir. Prezidentin tapşırıqlarının vaxtında və lazımi səviyyədə yerinə yetirilməsini təmin etməyən və ya edə bilməyən məmur öz xidməti mövqeyini müəyyən etməlidir. Məsələ orasındadır ki, hər bir işçinin səlahiyyəti ilə məsuliyyəti arasında balans olmalıdır. Hər bir icra strukturunun, işçinin dövlət idarəçiliyi ansamblında koordinasiya olunmuş fəaliyyəti təmin edilmədən müvəffəqiyyətə nail olmağın qeyrimümkünlüyü nəzərə alınmalıdır. Ona görə də fərmanda göstərilən müddəaların vaxtında və müəyyən olunmuş səviyyədə yerinə yetirilməsini təmin etməyənlər haqqında adekvat tədbirlər görülməlidir. Onsuz Azərbaycanı son on ildə yaradılmış, möhkəm təməl üzərində qurulmuş zəngin və qüdrətli dövlətə çevirmək çətinliklərlə qarşılaşa bilər.

Dövlət Proqramının reallaşması üçün mümkün olan hər şeyin ediləcəyinə şübhə yoxdur. Onun reallaşması ÜDM istehsalının 2003-cü ilə nisbətən 2008-ci ildə 2,3 dəfə artaraq 76,3 trilyon manat, kənd təsərrüfatı məhsulları istehsalının real artımı 62,5 faiz



olacaq, investisiya qoyuluşunun 60 faizi regionlara yönəldiləcək, 600 min yeni iş yeri yaradılacaq, orta aylıq əmək haqqı 3,1 dəfə artacaqdır. Azərbaycan yaxın illərdə Avropanın inkişaf etmiş dövlətlərinin səviyyəsinə qalxacaqdır.

Dövlət Proqramı Heydər Əliyevin Azərbaycanın güclü və qüdrətli dövlətə çevirmək haqqında tövsiyələrinin yerinə yetirilməsinin məntiqi nəticəsi olacaqdır.

### 3.3. İqtisadiyyata dinamizm gətirməyin vacib şərtləri – sistemlilik və koordinasiya

Ümummilli liderimiz Heydər Əliyev iqtisadi siyasətdə sistemlilik və koordinasiyanı təmin etməyi ölkə qarşısında duran cari və perspektiv problemlərin həllində son dərəcə vacib şərt hesab edirdi. Ölkə iqtisadiyatının inkişafı üçün tədbirlər hazırlayıb, həyata keçirəndə sistemlilik və koordinasiyaya əməl olunmasına xüsusi əhəmiyyət verirdi. Hazırda İlham Əliyev cənabları tərəfindən də bu siyasət yeni keyfiyyət halında aparılır və müsbət nəticələr əldə olunur.

İqtisadi siyasətdə sistemlilik və koordinasiyaya ən əvvəl enerji daşıyıcıları sistemində əməl olunması vacibdir. Çünki enerji daşıyıcıları (ilk növbədə neft sektoru) iqtisadiyyatda zəncirvari reaksiya yaradan, sosial-iqtisadi proseslərə əhəmiyyətli dərəcədə təsir edən, ölkənin iqtisadi təhlükəsiz-liyinin təmin olunmasında mühüm rol oynayan sahədir.

Bu sahədə sistemlilik və koordinasiyanı zəruri edən səbəblərdən biri xarici təsirlərin həmin sahədə daha güclü olmasıdır. Burada baş verən proseslərin xeyli hissəsi Azərbaycan dövlətinin iradəsindən asılı olmadan baş verir. Azərbaycan miqyasına və iqtisadi potensialına görə dünya bazarında baş verən proseslərə təsir və nəzarət, orada baş verən proseslərin təsirinə məruz qalır. Ona görə də Azərbaycan özünü, milli maraqlarını, iqtisadi və milli

təhlükəsizliyini təmin edən siyasət yeritməli, dünya bazarında qiymətlərin dəyişilməsinin mənfi nəticələrindən özünü sığortalamağı bacarmalıdır.

Məlum olduğu kimi, dünya neft biznesinin səhmlərinə nəzarət zərfinin hələ uzun müddət OPEK ölkələrinin əlində olacaqdır. OPEK ölkələri və ya onlara təsir edə bilən dövlətlər dünya bazarında neftin qiymətinə əhəmiyyətli dərəcədə təsir edə bilərlər. Onlar öz maraqları üçün zərurət yarandıqda dünya bazarlarında neft məhsullarının tələb-təklif nisbətlərinə təsir etməklə, neftin qiymətinin yüksəlməsinə və yaxud aşağı düşməsinə təsir edə bilirlər.

OPEK üzv dövlətləri kəskin zərurət yarandıqda neft hasilatını xeyli artıra və dünya bazarında neftin qiymətini əhəmiyyətli dərəcədə aşağı sala bilərlər. Bu şəraitdə Xəzər neftinin, xüsusilə dənizin dərinliklərindən çıxarılan neftin xeyli hissəsi qeyri-rentabelli olar və onun istehsalı iqtisadi səmərəliliyini tamam itirə bilər.

OPEK ölkələrinin bu sahədə sınaqdan çıxardıqları təcrübə vardır. ABŞ-ın keçmiş Prezidenti R. Reyqan tərəfindən vaxtilə dilə tutulan OPEK ölkələri neft məhsulları istehsalını əhəmiyyətli dərəcədə artırdılar və neftin dünya bazarındakı qiymətlərinin kəskin surətdə aşağı düşməsinə nail oldular. Bununla onlar dövlət büdcəsinin gəlirləri başlıca olaraq neft məhsullarının dünya bazarlarında reallaşması hesabına formalaşan SSRİ-yə məhvedici zərbə vurdular. Elə zərbə ki, ondan sonra imperiyanın parçalanmasının qarşısını almaq mümkün olmadı. İmperiya çökdü.

Səüdiyyə Ərəbistanında bir barel neftin maya dəyəri 3-4 dollar, Küveytdə 1-2 dollar olduğundan neftin qiymətinin dünya bazarlarında 1998-ci ildə olduğu kimi bir müddət 9-10 dollara enməsi bu ölkələrə ciddi təsir edə bilməzdi.

1998-ci ildə Azərbaycanın dövlət büdcəsinin gəlirləri təsdiq olunduğundan 744 milyard manat az icra olundu. Onun başlıca səbəblərindən biri dünya bazarlarında bir barel neftin qiymətinin 24-25 dollardan 9-10 dollara enməsi oldu. Bir barel neftin qiyməti 19 dollarla büdcə gəlirləri hesablandığı halda neftin qiymətinin 2 dəfə aşağı düşməsi dövlət büdcəsi gəlirlərinə öz təsirini göstərməyə bilməzdi. Biz çətinliklərlə rastlaşdıq. Lakin böhrandan çıxdıq. Bu vəziyyətin dübarə təkrar olunmayacağına zəmanət vermək mümkün deyil.

İlham Əliyev bunları qabaqcadan görərək dünya bazarında baş verə biləcək konyunktur dəyişikliyin təsirindən respublikamızın «sığortalanmasını» təmin edən tədbirlər hazırlayıb həyata keçirməyi tövsiyə etdi.

Başlıca vəzifə büdcə daxilolmalarının neft faktorundan asılılığını azaltmaq və tədricən bu asılılığı aradan qaldırmaqdır. Respublikamızda qeyri-neft sektorunun inkişafına daha üstün şərait yaratmaqla büdcə gəlirlərinin neftdən asılılığı ardıcıl olaraq azaldılır.

Əgər 1995-1996-cı illərdə büdcə gəlirlərinin 55-60 faizi neft məhsulları satışından daxilolmalar hesabına formalaşırdısa, 2004-cü ildə 32-33 faizi bu mənbə hesabına təmin olunmuşdur. Göründüyü kimi 10 il ərzində dövlət büdcəsi gəlirlərinin neft faktorundan asılılığı 2 dəfə aşağı salınmışdır. Həm də bu neft sektorunda inkişafın ləngidilməsi hesabına deyil, əksinə onun sürətli inkişafı şəraitində baş vermişdir. Nisbətlərin dəyişilməsi qeyri-neft sektorunun daha sürətli inkişafı ilə təmin olunmuşdur.

Regionlarda istehsal və sosial infrastruktur sahələri, yerli xammal bazasında işləyən müəssisələr, o cümlədən xaricilərlə birgə müəssisələr yaradılması stimullaşdırılır. **Dövlət reyestrində qeydə alınmış müəssisələrin sayı 1998-ci ildəki 49.049-dan 2004-cü ilin birinci yarısında 65.455-ə, o cümlədən kiçik müəssisələrin sayı 40.154-dən 57.675-ə çatmışdır. Həm də bu, göstərilən dövrdə rəqabətə davam gətirməyən, müflisləşən, fəaliyyətini dayandıran 100-lərlə müəssisənin sıradan çıxdığı şəraitdə baş vermişdir.**

**2004-cü ilin birinci yarısında ölkəmizdə kiçik və orta müəssisələrin mülkiyyət növlərinə görə strukturu: dövlət mülkiyyəti - 20,5 faiz, bələdiyyə mülkiyyətində olanlar 4,5 faiz, xüsusi mülkiyyət - 69,7 faiz, yüz faiz xaricilərin mülkiyyətində**

**olanlar – 3,7 faiz, birgə (qarışıq) mülkiyyətdə olanlar – 1,6 faiz təşkil etmişlər. Göründüyü kimi, xüsusi mülkiyyətə əsaslanan müəssisələr birlikdə götürülmüş qalan mülkiyyət formalarından 2 dəfədən çoxdur.**

Ölkə Prezidentinin 2002-ci ilin ortalarında sahibkarlarla görüşlərindən sonra imzaladığı sənədlər yerli istehsalın stimullaşdırılmasına, regionların iqtisadi inkişafının sürətlənməsinə, yeni iş yerlərinin yaranmasına, büdcə gəlirlərinin qeyri-neft sektoru hesabına artımına təsir edir. Qeyd olunanlar müxalifətin «Azərbaycana hamıdan çox canı yanan liderlərinin», «Holland sindromu», «iqtisadiyyatın birtərəfli inkişafı», «investisiyaların təkcə neft sektoruna qoyulduğu» və s. haqqında qışqırıqlarının nə dərəcədə dayaz olduğunu bir daha göstərir.

Müxalifətin «uzaqgörən və çoxbilən» başqanları nəhayət anlamalıdırlar ki, ölkə qarşısında duran problemlərin hamısını «bir oturumda həll etməyə çalışmaqdan» bir şey çıxmaz.

İqtisadi problemlər sistemində prioritetləri müəyyən etməyi bacarmayan, onların vasitəsilə digər problemlərin həllinə nail olmağın mümkün olduğunu dərk etməyən «meydan oratorlarına» məsləhət görərdik ki, əsassız yalanlar uydurmaq üçün burnunun ucundan uzağı görməyən «strateqlərinə» «alın təri ilə qazandıqları pullarını» paylamaqdan çəkinsinlər. Axı pulu qazanmaq asan deyil!

«Zatıpələng» radikal müxalifətçilərə məsləhət görərdik ki, öz köhnə adətlərindən, ucuz şöhrət qazanmağın ardınca qaçmaq vərdişlərindən əl çəksinlər.

Prezident və parlament seçkiləri ərəfəsində ucuz şöhrət qazanmaq, bayağı populist çıxışlar və çağırışlar ardınca qaçmasınlar. Onlara məsləhət görərdik ki, öz səlahiyyətlərinə aid olmayan vədlər verməkdən çəkinsinlər.

Qanunvericiliyə və mülkiyyət münasibətlərinə görə Dövlət Neft Fondunun vəsaitlərinə sərəncam vermək səlahiyyəti ölkə Prezidentinə məxsusdur. «Xalq, xalq deyən», xalqdan öz məqsədlərinə çatmaq üçün bir vasitə kimi istifadə edənlər anlamalıdırlar ki, Dövlət Neft Fondunun vəsaitləri xalqa məxsusdur. Bu fondun



vəsaitləri hesabına səxavətlilik göstərmək, xalqa bəxşeyişlər vəd etmək ucuz şöhrət qazanmaqdır.

Xalqa yalan satmaqla, xalqın sevimlisinə çevrilmək mümkün deyil. Onların Dövlət Neft Fonduna yığılmış vəsaitləri öz ata malı kimi səxavətlə bölüşdürmək, paylaşdırmaq şüarları, çağırışları xalqı aldatmaqdan başqa bir şey deyildir.

Dövlət Neft Fonduna yığılmış vəsaitlərin bölgüsü və istifadəsi çılğın çağırışlarla, populist şüarlarla yox, onun əsasnaməsində müəyyən olunmuş qaydalar və prinsiplərlə aparılmalıdır və aparılır.

**Qəribə orasıdır ki, bu populistlər neft siyasətinin yerinə yetirilməsinə, xarici investorlarla birgə neft çıxarılmasına, əsas ixrac boru kəmərinin çəkilişinə, Dövlət Neft Fondunun yaradılmasına etiraz edənlər idilər. İndi onlar bu fonda yığılmış vəsaitlərin bölüşdürülməsi, paylaşdırılması problemlərini həll etməyə çalışırlar.**

Azərbaycanda yaxın illərdə neft hasilatının ümumi həcminin ildə 60 milyon tona, təbii qaz hasilatı həcminin isə ildə 30 miyard kubmetrə çatacağı gözlənilir. Bu vaxt biz problemlərimizin həllini reallaşdıra bilərik.

**Ümummilli liderimiz Heydər Əliyev bu vəziyyətin yaranma ehtimalını hamıdan qabaq gördü və gələcəkdə yarana biləcək problemin həlli yollarını müəyyən etdi.**

**O, Azərbaycanda istehsal olunacaq neftin və qazın dünya bazarına çıxarılması üçün əvvəlcədən düşünmək, ixrac boru kəməri çəkilişi problemini həll etmək vəzifəsini qarşıya qoydu.**

**Azərbaycanın neft strategiyası hələ rüşeym halında olduğu zaman, 1994-cü ildə Heydər Əliyev uzaqgörənliklə əsas ixrac boru kəməri çəkilişinin Azərbaycanın iqtisadi və siyasi maraqlarını ifadə edən istiqamətlərini müəyyən etmişdi. Bu Heydər Əliyev siyasəti və əməli fəaliyyətində müdrikliyin təzahürü idi.**

Bu vaxt əsas ixrac boru kəməri çəkilişinin texniki iqtisadi əsaslandırmalarını hazırlamaq və partnyorlarla razılaşdırmaq gərgin əmək sərf etməyi tələb edirdi. Ölkələrarası strateji əhəmiyyətə malik olan bu layihənin əleyhdarları da çox güclü idilər. Onlar bir

yerdə dayanmamışdılar. Onları neytrallaşdırmaq üçün ciddi iş aparmaq tələb olunurdu. İlham Əliyev bu olduqca gərgin işin yerinə yetirilməsində aparıcı rol oynamışdır.

Xoşbəxt Yusifzadə İlham Əliyevlə birlikdə ay yarım Hyustonda olmuşlar. O günləri xatırlayan Dövlət Neft Şirkətinin vitse-prezidenti, görkəmli neftçi alim Xoşbəxt Yusifzadə deyir: **«Elə olurdu ki, əsəbdən gecə səhərə kimi yata bilmirdik. Danışıqlar zamanı yaranan çətin məqamlarda İlham müəllimin diplomatiyası, bacarığı, xarici dili yaxşı bilməsi, iqtisadiyyatı yaxşı başa düşməsi çətin məsələlərin həllini asanlaşdırdı».**

Azərbaycanın müstəqil siyasət yeritməsi, neft istehsalı və ixracına dair beynəlxalq müqavilələri «böyük qardaşın razılığını» almadan imzalaması bəzi qüvvələri bərk hiddətləndirdi.

Təxribatçılar ləngimədən öz sözlərini dedilər. **İlham Əliyevin qeyd etdiyi kimi «Əsrin müqaviləsi» imzalandıqdan cəmi bir neçə gün sonra xaricdən idarə olunan qüvvələr tərəfindən Azərbaycanda terrorçuluq, dövlət çevrilişi cəhdləri başlandı.** Terror hakimiyyət uğrunda mübarizənin, siyasi məqsədlərə nail olmağın ən güclü alətinə çevrildi. Onlarla terror aktları həyata keçirildi.

1994-cü və 1995-ci illərdə xarici qüvvələr və daxili irtica birləşərək dövlət çevrilişinə cəhd etdilər. Terrorçular sonra ölkə Prezidentinin keçəcəyi körpünü partlatmağa cəhd göstərdilər. Yalnız polisin, təhlükəsizlik xidmətinin əməliyyat tədbirləri nəticəsində bu terror aktının qarşısı alındı.

Xarici səfərdən qayıdan Prezidentin təyyarəsini raketlə vurmağa cəhd göstərdilər. Xoş bir təsadüflə, küləyin səmtinin dəyişilməsi ilə bu təxribatçılıq və cinayət baş tutmadı. Allahtəala Heydər Əliyevi hifz elədi, Vətəni, Xalqı üçün, bizim üçün.

**Bütün terrorçuluq cəhdləri Azərbaycan Prezidentini öz qətiyyətindən döndərə bilmədi. O təkcə müdrik siyasətçi deyil, həm də xalqını qorumaq üçün lazım gələrsə həyatı ilə risk etməyə hər an hazır olan, mərd və cəsur şəxsiyyət olduğunu sübut etdi. Budur cəsarət, qələbəyə inam, mərdlik və qətiyyət!**



## 3.4. İqtisadi idarəçiliyin təkmilləşdirilməsində, şəffaflıq və koordinasiya

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə ölkədə aparılan iqtisadi islahatlar, habelə **«Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı»nın (2002-2005-ci illər)** reallaşması nəticəsində özəl sektor iqtisadiyyatın aparıcı sahəsinə çevrilmişdir. 2004-cü ildə qeyri-dövlət bölməsinin ÜDM-də payı 74-76 faiz təşkil etmişdir. Sənaye istehsalının 48-50 faizi, kənd təsərrüfatı istehsalının 99 faizi, tikinti işlərinin 90 faizi, daxili əmtəə dövriyyəsinin 99 faizi, əhaliyə göstərilən pullu xidmətlərin 70 faizi, sərnişin daşımaların 90 faizi, xarici ticarət dövriyyəsinin 65-70 faizi, ixracın 70 faizi, idxalın 75 faizi qeyri-dövlət bölməsinə aid olmuşdur.

Heydər Əliyev cənabları ölkənin sosial-iqtisadi inkişafında sahibkarların rolunu nəzərə alaraq onlarla müntəzəm görüşlər keçirir, problemlərini öyrənir və aradan qaldırılması üçün tədbirlər görürdü. Onun rəhbərliyi ilə kiçik və orta sahibkarlığın inkişafına dövlət himayəsini daha da gücləndirmək, sahibkarların işinə əsassız müdaxilələrin qarşısını almaq, sahibkarlıq subyektlərinin dinamik inkişafına hüquqi baza yaratmaq istiqamətində konkret tədbirlər görülmüşdür.

**Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı»nı (2002-2005 ci illər) 17 avqust 2002-ci ildə təsdiq etmişdir. O, «Azərbaycan Respublikasınnın Prezidenti yanında Sahibkarlıq Şurasının yaradılması haqqında» (27 avqust 2002-ci il), «Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamənin təsdiq edilməsi barədə» (28 avqust 2002-ci il), «Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında» (02 sentyabr 2002-ci il), «Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət**

**himayəsi sahəsində əlavə tədbirlər haqqında» (10 sentyabr 2002-ci il)** və s. fərmanlar vermişdir. Görülən tədbirlər sahibkarlığın inkişafına şərait yaratmış, bu sektorun ölkə iqtisadiyyatının aparıcı sahəsinə çevrilməsinə təsirli dəstək vermişdir.

Hazırda da sahibkarların potensial imkanlarından istifadə etməklə yeni iş yerlərinin yaradılması, ÜDM-də və dövlət büdcəsi gəlirlərinin artırılması ehtiyatları kifayət qədərdir. İqtisadiyyatın bu bölməsinin imkanlarından tam istifadə olunmasını təmin etmək, yüksək keyfiyyətli, rəqabətqabiliyyətli, ixrac yönümlü məhsullar istehsalını artırmaq üçün respublikada yaradılmış vəziyyətdən maksimum səmərəli istifadə olunmalıdır. Sahibkarlığın inkişafı məhsul istehsalının artımı ilə yanaşı, məşğulluq, yoxsulluq problemlərinin həllinə, sosial-siyasi stabilliyin daha da möhkəmlənməsinə təsir edə bilər.

Azərbaycan Respublikası Prezidenti möhtərəm İlham Əliyev cənabları 2003-cü il 24 noyabr tarixli Fərmanında inhisarçılıq meyillərinə qarşı mübarizəni gücləndirmək, sahibkarlıq fəaliyyətinə dinamizm gətirmək və ölkənin sosial-iqtisadi inkişafını sürətləndirmək üçün Nazirlər Kabinetinə, ayrı-ayrı nazirliklərə, Dövlət Komitələrinə tapşırıqlar vermişdir. Bu fərmanda nazirlik, idarə və təşkilatlarda struktur və idarəetmə islahatlarını daha da dərinləşdirmək, paralelçiliyi aradan qaldırmaq, sahə idarəçiliyindən funksional idarəçiliyə keçidi sürətləndirmək üçün qarşıda duran vəzifələr və onların icrası üçün görüləsi işlər müəyyən edilmişdir. Dövlət sahibkarlığın inkişafına şərait yaratmaq üçün:

- mənfəət vergisinin dərəcəsini 24 faizə endirmiş, fiziki şəxslərin aylıq gəlirinin vergiyə cəlb olunmayan hissəsini 150 min manata çatdırmış, sadələşdirilmiş sistem üzrə vergilərin tətbiq dairəsini xeyli genişləndirmişdir;
- sosial sığorta ödənişlərinin dərəcəsini aşağı salmaq, sosial sığorta ödənişləri sistemini əsaslı təkmilləşdirmək üçün tədbirlər görür;
- təbii inhisar subyektlərində (elektrik, qaz, su, dəmir yolu, hava və dəniz nəqliyyatı, rabitə xidməti) tariflərin təkmilləşdirilməsi



və aşağı salınması üçün sistemli iş aparır;
- daxili bazarı və ixracı stimullaşdıran büdcə-vergi və pul-kredit, gömrük, tarif siyasəti yeridir;
- istehsal, idxal-ixrac əməliyyatlarında inhisarçılıq meyillərinin qarşısını qətiyyətlə almaq və sağlam rəqabətə meydan açmaq üçün tədbirlər hazırlayır və reallaşmasını təmin edir;
- dövlət əmlakının icarəyə verilməsinin qaydaları və prosedurlarını daha da təkmilləşdirmək, onların özəlləşdirilməsini sürətləndirmək üçün sistemli tədbirlər görür;
- 2004-cü ilin dövlət büdcəsində kiçik sahibkarlığa investisiya yardımı üçün nəzərdə tutulmuş vəsait hesabına Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə tam şəffaf bir şəraitdə yardım layihələrini təşkil edir;
- maliyyə sektorunun (bankların) real iqtisadiyyatın inkişafına təsirini gücləndirmək üçün kredit qoyuluşlarında struktur dəyişikliklərinin aparılmasına, kreditlərin faiz dərəcəsinin aşağı salınmasına daha fəal təsir etmək üçün yollar müəyyən edir;
- kiçik və orta sahibkarlara xidmət edən mikromaliyyələşdirmə banklarının yaradılması üzrə fəaliyyəti canlandırmaq üçün tədbirlər görür;
- istehsal yönümlü layihələrin kreditləşdirilməsi, kredit qoyuluşunda struktur dəyişikliklərin təmin edilməsi, uzunmüddətli kreditlərin xüsusi çəkisinin artırılması üçün tədbirlər görür və s. Göstərilən tədbirlər yeni iş yerlərinin yaranmasına təsir edir.

İstehsalın inkişafında ən çətin problemlərdən biri maliyyə vəsaitlərinin lazımi dərəcədə olmaması və ya çatışmaması, müəssisələrin rəqabətaparma qabiliyyətini artırmaq üçün istehsal xərclərini azaltmaqdır. Azərbaycan müəssisələrinin əksəriyyəti üçün azacıq əməliyyat xərcləri müqabilində, idarəçilik və inzibatçılıq xərclərinin yüksək səviyyəsi səciyyəvidir. Ən ağrılı problemlərdən biri müəssisə və təşkilatlarda zəruri həddən 30-50 faiz çox olan işçilərin ixtisarıdır. Burada müəssisələrin gəlirliliyini artırmaq, istehsal olunan malların rəqabət qabiliyyətliliyini yüksəltmək məşğulluğu təmin etmək dilemması ilə qarşılaşırlar.

İşsizlik problemi yaranmasının qarşısı yalnız yeni istehsal sahələrinin yaradılması, mövcud istehsal sahələrinin inkişafı hesabına həll edilə bilər. Burada irimiqyaslı dövlət köməyi olmadan keçinmək sadəcə olaraq mümkün deyildir.

İstehsalı stimullaşdırmaqla tədiyyə qabiliyyətli tələbatın birgə artımı təmin edilməlidir. Burada Milli Bank müəyyən etdiyi qaydalar və normalarla, pul aqreqatlarını tənzimləməklə maliyyə bölməsini spekulyativ əməliyyatlardan azad etmək, real iqtisadiyyata təsirini gücləndirməklə yeni iş yerləri yaratmaq, praktiki nəticələr əldə etmək mümkündür.

Respublikamızda iqtisadi idarəetmədə struktur dəyişiklikləri və funksional idarəçiliyin səmərəliliyi iqtisadiyyatın cari vəziyyəti və operativ idarə olunmasına məsul orqandan, Nazirlər Kabinetindən başlamaq və tədricən idarəetmənin digər pillələri və strukturlarına keçidlə təmin oluna bilər. Əgər belə edilsəydi onda bir sıra nazirlik və dövlət komitələrində islahatların strategiyası və mahiyyəti ilə uzlaşmayan, idarəetmə sistemində pərakəndəlik yaradan «yenidənqurmalar» qeyri-mümkün olardı.

Respublikamızın bir sıra Nazirlik və Dövlət Komitələri onların funksional xüsusiyyətləri nəzərə alınmadan mexaniki olaraq birləşdirilmiş, bir nazirlik və ya Dövlət Komitəsi yaradılmışdır. Müxtəlif funksiyalı qurumların bir təşkilatda birləşdirilməsi iqtisadi inkişafın tormozuna çevrilmiş, idarəetmədə paralelçiliyin yaranmasına, səmərəliliyin əhəmiyyətli dərəcədə aşağı düşməsinə səbəb olmuşdur. İqtisadi İnkişaf Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi deyilənlərə misal ola bilər.

Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsinin İqtisadi İnkişaf Nazirliyinin struktur bölməsinə çevrilməsi onun antiinhisar siyasəti yeritmək imkanlarını heçə endirən dərəcədə zəiflətmişdir. Antiinhisar siyasəti yeritməli olan qurumun idarəetmə silsiləsində lazımi dərəcədə əsaslandırılmadan aparılan dəyişikliklər onu öz funksiyalarını yerinə yetirməkdən əhəmiyyətli dərəcədə kənarlaşdırmışdır.

İqtisadi fəaliyyətin liberallaşması, rəqabətə meydan açılması



dövlət tərəfindən kifayət qədər tənzimlənmədiyindən istehsal, idxal-ixrac əməliyyatlarında, xidmət sahələrində təbəqələşmə dərinləşmiş, «rəqabətdə» qalib gələnlər daha da güclənmiş, inhisarlar yaranması ilə nəticələnmişdir. Bütün bunlar ölkədəki iri həcmli mal-material və maliyyə resursları axınının bir qrup inhisarçıların əlində cəmləşməsi ilə nəticələnmişdir. Azad rəqabətin buxovuna çevrilən inhisarçılıq, istehsal və qeyri-istehsal sahələrinə yayılmış, ən başlıcası isə bütün istehlakçılara öz şərtlərini diktə etməyə başlamışdır.

İnhisarçılıq iqtisadiyyatda zəncirvari reaksiya yaradır, bazarda tələb-təklif nisbətlərini tənzimləmək inhisarların nəzarəti və idarəçiliyinə keçir, onlar öz maraqları baxımından topdansatış və pərakəndə satış qiymətlərinə təsir edirlər. Rəqibləri sıradan çıxarmaq zərurəti yarandıqda dempinq qiymətləri tətbiq edir, qiymətləri ən aşağı həddə salırlar. Rəqibini sıradan çıxardıqdan, inhisar mövqeyinə yiyələndikdən sonra yenidən yüksək inhisar mənfəəti gətirən qiymətləri tətbiq edirlər. Bütün bunlar əhalinin alıcılıq qabiliyyətinə, az təminatlı ailələrin vəziyyətinin pisləşməsinə, əhalinin xeyli hissəsinin yoxsullara çevrilməsinə, sosial gərginlik yaranmasına, hakimiyyətdən narazı olanların sayının artmasına səbəb ola bilər. Beləliklə, inhisarçılıq iqtisadi problemdən, ölkədə stabilliyin pozulması ilə nəticələnə bilən sosial-siyasi problemə çevrilə bilər. İnhisarçılar həddindən ziyadə güclü olduqlarından onların qarşısı həm iqtisadi, həm də qeyri-iqtisadi, inzibati metodlarla alınmalıdır.

İnhisarçılığa qarşı mübarizə heç də asan başa gəlmir. Müharibə şəraitində yaşayan ölkəmizdə müəyyən hədd daxilində taxıl ehtiyatı fondu yaradılmasının zəruriliyi şübhəsizdir. Milli Məclis üzvlərinin respublikamızda taxıl ehtiyatı fondunun yaradılması haqqında göstərdikləri cəhdlərin reallaşması xeyli müddətdir ki, taxıl idxalçısı inhisarlarının müdaxilələri ucbatından mümkün olmamışdır.

Elektrik enerjisi satışında, çay, spirt, spirtli içkilər, tütün, taxıl məhsulları və s. idxalında inhisarçılıq daha qabarıq şəkildə özünü

göstərir. Təcrübə sübut edir ki, sağlam rəqabətə meydan açmaqla qiymətlərin əhəmiyyətli dərəcədə aşağı düşməsinə təsir etmək mümkündür.

Bir misal gətirək. **Londondan Nyu Yorka 3 dəqiqəlik telefon danışığının qiyməti 1930-1935-ci illərdə 300 dollara bərabər olmuşdur. Rəqabət mübarizəsinə geniş meydan açılması elmi-texniki tərəqqinin sürətlənməsinə, yeni texnoloji sistemlərin meydana gəlməsi və tətbiqinə şərait yaratmışdır. Bütün bunlar rabitə xərclərinin aşağı düşməsinə təsir etdiyindən Londondan Nyu Yorka 3 dəqiqəlik telefon danışığı 2000-ci ildə 36 sentə, 2003-cü ildə isə 15 sentə bərabər olmuşdur. Qeyd edilənlər rəqabət mübarizəsinin genişlənməsi və sağlam rəqabətə meydan açılmasının, Londondan Nyuyorka 3 dəqiqəlik danışığın 1930-cu ildəki 300 dollardan 2003-cü ildə 15 sentə enməsi ilə nəticələnmişdir.**

**Antiinhisar siyasəti ilə məşğul olan dövlət orqanını bir başa ölkə Prezidentinə tabe olan müstəqil quruma çevirmədən iqtisadiyyatın bütün sahələrində meydana gələn və hörümçək toru kimi onu boğan inhisarçılığa qarşı qətiyyətli mübarizə aparmağın qeyri mümkün olduğunu hamımız dərk etməliyik. Onsuz sosial-iqtisadi inkişafa dinamizm gətirmək çətinliklərlə qarşılaşa bilər.**

**İnhisarçılığın, haqsız rəqabətin, qəsdən iflasolma meyillərinin qarşısını almaq, sağlam rəqabətə meydan açmaq, sosial-iqtisadi tərəqqini sürətləndirmək məqsədilə qanunvericilik çərçivəsində zəruri tədbirlərin həyata keçirilməsi təmin edilməlidir.**

Bir qrup Nazirlik və Dövlət Komitələrində isə kosmetik dəyişikliklər istisna olmaqla müasir tələblərə uyğun, operativ idarəçiliyi təmin edən yenidənqurmalar aparılmalıdır. Elə dəyişikliklər aparılmalıdır ki, bu strukturlar iqtisadi inkişafa bürokratik əngəllər yaradan buxova çevrilməsinlər.

Lazımi dərəcədə əsaslandırmadan aparılan idarəetmə və struktur islahatları iqtisadi idarəetmə sisteminin bir sıra sahələrində səlahiyyət və məsuliyyət balansının pozulmasına, material, əmək və maliyyə vəsaitlərinin səpələnməsinə, onların səmərəliliyinin aşağı düşməsinə gətirib çıxarmışdır.

Liberal-monetarist metodla bazar iqtisadiyyatı yaratmağın qeyri-mümkünlüyünü hamımız dərk etməliyik. Pul, əmtəə, iş qüvvəsi bazarının təkcə liberal-monetarist metodla formalaşdırmaq cəhdlərinin real iqtisadiyyatı bazar münasibətlərinin autsayderinə çevirdiyinə dünya təcrübəsi sübutdur. Bu siyasətin nəticəsi iqtisadiyyatın maliyyə və real sektorlarının təcrid olunmuş fəaliyyətini şərtləndirir. İqtisadiyyatın maliyyə sahəsi beynəlxalq prizlər alır, real bölmədə isə bütövlükdə hər iki bölməni iflic halına salan debitor və kreditor borclar artır.

İqtisadi idarəçilik təcrübəsinin ümumiləşdirilməsi onun üç tipinin - **avtoritar, liberal-monetarist və radikal islahatlarla tənzimlənən modellərinin olduğunu göstərir.**

Biz avtoritar idarəçilik üsulundan imtina etmişik, ölkəni dünya bazarının xammal əlavəsinə çevirən liberal-monetarist modelli idarəçiliyə bazar iqtisadiyyatına keçidin ilk illərində keçmişik. nəhayət, növbəti ixrac məhsulları istehsalının artımına yönəlmiş bölmənin bazasında radikal islahatlarla tənzimlənən iqtisadiyyata indi keçməliyik. Sonuncu üsul bir sıra dünya ölkələrinin iqtisadi möcüzələrə nail olmasının mühüm şərtlərini təşkil edir.

Məlumdur ki, maliyyə təminatı yaradılmadan zəncirvari pozitiv nəticələr verən iqtisadi inkişafa nail olmaq mümkün deyil. Daxili imkanlar hesabına iqtisadi inkişaf üçün maliyyə təminatı yaratmaqla yanaşı, xarici investisiyalar cəlb edilməsi üçün daha fəal stimullaşdırıcı tədbirlər həyata keçirilməlidir.

Bütün maliyyə mənbələri hesabına Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşu 1995-ci ildə 2,4 trilyon, 1996-cı ildə 4 trilyon, 1997-ci ildə 6,7 trilyon, 1998-ci ildə 7,4 trilyon, 1999-cu ildə 8,9 trilyon manat, 2003-cü ildə isə 15 trilyon manatdan çox olmuşdur. Onun yarıdan çoxunu xarici investisiyalar təşkil edir. İqtisadiyyata investisiya qoyuluşu 8 ildə 6 dəfədən çox artmışdır. Bu MDB ölkələri arasında ən yüksək göstəricidir. O dövlət başçısının müd-

rik daxili və xarici siyasətinin məntiqi nəticəsidir.

Azərbaycanda uzun müddətdir ki, pul qıtlığı yaratmaqla manatın stabilliyi təmin olunur. Müəyyən dövr üçün zəruri olan bu tədbir hazırda sahibkarlıq fəaliyyətinin inkişafına neqativ təsir göstərən amilə çevrilmişdir.

Pula tələbatın ödənilməməsi iqtisadiyyatın dollarlaşmasının, barterləşməsinin, nisyələşmələrin, müəssisə və təşkilatlar arasında qarşılıqlı borcların artmasının başlıca səbəbini təşkil edir.

Pul qıtlığı yaratmaqla manatın alıcılıq qabiliiyyətini qoruyub saxlamaq, qiymətlərin stabilliyini təmin etmək uzunmüddətli məqsədə çevrilməməlidir. Ümumiyyətlə iqtisadi fəaliyyətdə, eləcə də digər sahələrdə məqsədlə ona çatmaq vasitələri eyniləşdirilməməlidir. Qiymətlərin stabilliyi iqtisadiyyatın inkişafı və xalqın rifahı üçün olduqca vacibdir. Lakin o yalnız məqsədə aparan vasitələrdən biridir. Məqsəd isə ölkənin sosial-iqtisadi inkişafı, işsizlik, yoxsulluq problemlərinin həlli, xalqın rifahının daha da yüksəldilməsidir.

Dövlət siyasətinin ağırlıq mərkəzini maliyyə sektorundan real iqtisadiyyat sahələrinin inkişafına keçirməklə yanaşı, bu sektorda radikal struktur islahatlarının aparılması sürətləndirilməlidir. Struktur islahatları praktiki olaraq aparıldıqca onun aktuallığı daha da artacaqdır. Burada ixracat sahələrinin, istehlak malları istehsalının, elmi-texniki tərəqqinin son nailiyyətlərinə əsaslanan yüksək texnoloji sistemə malik sahələrin inkişafı üçün tədbirlər görülməsi müstəsna əhəmiyyətə malik olacaqdır.

Yaponiya, Çin, Koreya, Sinqapurun təcrübəsi ixracatı artırmağın ümummilli vəzifələrin prioritetinə çevrilməsi iqtisadi möcüzə yaratmağın əsasını təşkil etmişdir. Bu artıq təcrübədə sübut olunmuş yoldur.

Ölkə Prezidentinin 2003-cü il 24 noyabr və 2004-cü il 11 fevral tarixli fərmanlarında respublikamızın iqtisadiyyatına dinamizm gətirən, sosial-iqtisadi inkişafı sürətləndirən, xalqın rifahının yüksəlməsinə xidmət edən uzunmüddətli proqramlar hazırlanması tövsiyə olunur. Onun müəyyən olunmuş vaxtda və keyfiyyətdə icrasını təmin etmək üçün ölkə Prezidenti müxtəlif icra hakimiyyəti strukturlarına icra müddəti göstərilməklə tapşırıqlar vermişdir. Bu tapşırıqların əksəriyyətinin icrası üçün fərmanda müəyyən edilmiş vaxt artıq başa çatmışdır. Tapşırığın yerinə yetirilmə vəziyyəti, icra intizamı nəzərdən keçirilməli və görülmüş işlərin keyfiyyəti araşdırılmalı, analitik təhlil aparılmalı, hər bir icra strukturunun öz vəzifəsinə nə dərəcədə məsuliyyətlə yanaşması müəyyən edilməlidir.

Qeyd olunanlardan İlham Əliyev cənablarının dövlət əhəmiyyətli hər bir işə sistemli yanaşdığı, prioritetləri hamıdan qabaq gördüyü, son nəticəyə nail olmaq üçün ara mərhələləri dürüst müəyyən etdiyi və Azərbaycanın maraqlarına cavab verən qərarların heç nədən çəkinmədən prinsipiallıq, cəsarət və qətiyyətlə reallaşmasına çalışdığı aydın olur. Budur siyasətdə müdriklik, həyatda praqmatizm məktəbi, dövlət idarəçiliyində ustalıq! İlham Əliyev Azərbaycanın iqtisadi sərvətlərindən istifadə olunmasında israfçılığa yol verməməyi, qazanılan və sərf edilən hər manatın dəqiq uçotunun aparılmasını, dövlət büdcəsinə, Neft Fonduna yığılmış vəsaitlərin şəffaflığını və səmərəliliyini yüksəltməyi vacib şərt hesab edir. O göstərir ki, mühüm vəzifələrimizdən biri «**əsassız xərclərin... qarşısını almaqdır, çünki neft-qaz əməliyyatlarına çəkilən bütün məsrəflər Azərbaycan nefti hesabına ödənilir. Ona görə də biz imkan verə bilmərik ki, hər hansı bir obyektin, indiki halda... neft kəmərinin tikintisinə çəkilən xərclər həddən artıq olsun**».

İlham Əliyev qənaətciliyi, ən az maddi, əmək və material məsrəfləri ilə maksimum nəticə əldə etməyi sosial-iqtisadi inkişafı sürətləndirməyin mühüm amili hesab edir.

Azərbaycan, Gürcüstan, Türkiyə Prezidentləri və ABŞ-ın məsul vəzifəli şəxslərinin iştirakı ilə 2002-ci il sentyabrın 18-də Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişinin təməli qoyulmuşdur. İlham Əliyev bu kəmərin çəkilişində də israfçılığa yol verməməyi, bazar iqtisadiyyatı prinsiplərinə adekvat təsərrü-

fatçılıq metodlarına əməl etməyi, bir sözlə səmərəliliyi və şəffaflığı görülən işlərin meyarına çevirməyi tövsiyə edir.

Dünyanın müxtəlif ölkələrində yaradılmış Neft Fondları gəlirlərinin formalaşma mənbələrində, onların bölgüsü və istifadəsi qaydalarında xüsusiyyətlər vardır. Bu xüsusiyyətlərin bir qismi Neft Fondlarının yaradılması, bölgüsü və istifadəsində şəffaflığın təmin edilməsi ilə bağlıdır.

Bir çox ölkələrdə, Küveytdə, Omanda Neft Fondlarının gəlirləri və xərcləri məxvi saxlanılır. Orada Fondun gəlirlərinin formalaşması, bölgüsü və istifadəsinin dəqiq müəyyən edilmiş prinsipləri və qaydaları yoxdur.

Respublikamızda Neft Fonduna vəsaitlərin toplanması, bölgüsü və istifadəsində şəffaflığı təmin etmək üçün ilk gündən sistemli iş aparılır. İlham Əliyev Neft Fondunun yaradıldığı vaxtdan bu işin ön cərgəsində olmuşdur. O, Dövlət Neft Fondunun gəlirləri formalaşmasında və xərclərinin reallaşdırılması prosesində aşkarlıq yaradılmasını, hər bir gəlir və xərc əməliyyatının ictimayyətin gözü qarşısında baş verməsini təmin etməyin böyük əhəmiyyətə malik olduğunu qeyd etmişdir.

Heydər Əliyevin və İlham Əliyevin Dövlət Neft Fondunun yaradılması, onun gəlirlərinin formalaşması və reallaşmasına dair fikirləri bir-birini tamamlayır.

Onlar hesab edirlər ki, neft məhsulları satışından əldə edilən və Dövlət Neft Fonduna yığılan vəsaitlər investisiya şəklində Azərbaycan iqtisadiyyatının başqa sektorlarına qoyulmalı, neft ilə bağlı olmayan digər sahələrin inkişafına, yeni iş yerləri yaradılmasına yönəldilməlidir. Bu maliyyə vəsaitlərini öz iqtisadiyyatımıza sərf etməyə, yerli xammal ehtiyatlarını təsərrüfatçılıq dövriyyəsinə cəlb etməyə, yeni iş yerləri yaratmağa, məşğulluq problemini həll etməyə təsir edə bilər.

Bu respublikamızın iqtisadi inkişafına, yeni iş yerləri yaradılmasına maliyyə təminatı yaratmağa xidmət edə bilər.

Ölkə Prezidentinin yeritdiyi müdrik siyasət və sistemli aparılan islahatlar kənd təsərrüfatı məhsulları bolluğunun yaranmasına



səbəb olmuşdur. İstehsal artmış, «kommunizmdən» qalma emal müəssisələri isə dayanmışdır. Onların yeni texnoloji sistemlə, müasir tələblərə uyğun qurulması, rəqabətqabiliyyətli məhsulların istehsalını artırmağa, mənfəət əldə etməyə şərait yaradırdı.

Təcrübə göstərir ki, Dövlət Neft Fondunun vəsaitlərini təkcə dünyanın etibarlı banklarında saxlamaq düzgün olmazdı. Fondun vəsaitlərinin idarə olunmasında iqtisadi cəhətdən əsaslandırılmış çoxvariantlılıq, manevretmə imkanını artırmağa, riskləri azaltmağa, idarəetmə sistemini və qaydalarını təkmilləşdirməklə vəsaitin hər manatının daha yüksək gəlir gətirməsini təmin etməyə təsir etmək mümkündür. Burada, rusların dediyi kimi: «yumurtaların hamısını bir zəmbilə yığmaq olmaz».

Fikrimizcə, Dövlət Neft Fondunun vəsaiti artdıqca, onun ölkənin maliyyə sistemində rolu yüksəldikcə görülən işlərin qanunla tənzimlənməsi zərurətə çevriləcəkdir. O həmçinin bu Fondun vəsaitlərindən istifadədə aşkarlığı, çoxvariantlılığı təmin etməyə, səmərəliliyi yüksəltməyə xidmət edə bilər.

İlham Əliyevin fikrincə Dövlət Neft Fondunun güclü iqtisadiyyat yaratmaq vasitəsinə çevrilməsi üçün gələcək nəsillərin neft hasilatının səviyyəsindən və dünya bazarında neftin qiymətlərinin dəyişilməsindən asılılığını istisna edən hökumət proqramları hazırlanmalı və həyata keçirilməlidir.

Əsas İxrac Boru Kəmərinin 2005-ci ilin axırlarında işə düşməsi Azərbaycana çoxlu dönərli valyuta gəlməsinə təsir edəcəkdir. Başlıca vəzifələrdən biri bu vəsaitləri xalqımızın bu günü, sabahı və uzunmüddətli perspektivi üçün necə yerləşdirmək və nə cür istifadə etməkdən ibarət olacaqdır.

Ölkə Prezidenti sosial-iqtisadi inkişafın prioritetlərini nəzərə almaqla məqsədli proqramlar hazırlamaq, onların reallaşması üçün Dövlət Neft Fondunun vəsaitlərindən istifadə etmək haqqında tapşırıq vermişdir. Hazırda bu sahədə gərgin iş gedir.

Ölkə Prezidentinin 2002-ci il 10 sentyabr tarixli Fərmanında qeyri-neft sektorunun inkişafına nail olmaq üçün sistemli tədbirlər müəyyən edilmişdir. Orada Nazirlər Kabinetinə, İqtisadi İnkişaf

Nazirliyinə, Maliyyə Nazirliyinə, Milli Banka, Ədliyyə Nazirliyinə və s. konkret tapşırıqlar verilmişdir. Bütün bunlar ayrı-ayrı regionlarda yerli xammal bazasında fəaliyyət göstərən rəqabət-qabiliyyətli istehsal sahələrinin yaranmasına təsir edə bilər.

Azərbaycanda biznes mühitinin əlverişli olması üçün, biznesi həvəsləndirmək, sürətləndirmək sahəsində çox işlər görülmüşdür. Biznesmenlərin işini asanlaşdırmaq üçün qərarlar qəbul edilmişdir. Bu sahədə qərbin inkişaf etmiş ölkələri bizə yaxşı nümunə göstərirlər. Kiçik və orta şirkətlər çoxsaylı və güclü olarsa, möhkəm orta təbəqə yaranarsa, yaxşı nəticələr əldə edilə bilər.

İlham Əliyev göstərir ki, hökumətin məqsədi, daha doğrusu, məqsədlərindən biri qeyri-neft sektorunun inkişafını təmin etmək, dövlət büdcəsi gəlirlərinin neft faktorundan asılılığını aradan qaldırmaqdır. Bu sahədə bizim müsbət təcrübəmiz vardır.

Rəqabətqabiliyyətli və ixracyönümlü yeni müəssisələrin işə salınması, yerli məhsulun istehsalına təkan verər, bununla ixracın artırılmasına şərait yaradar. Ona görə də həm xarici biznes-menlərin, həm də yerli iş adamlarının normal fəaliyyəti üçün şərait yaratmaq iqtisadi inkişafı stimullaşdırmağın ən vacib istiqamət-lərindən biridir.

İlham Əliyev xalqına xidmət etməyi, onun rifahının daha da yüksəlməsi üçün daha çox səy göstərməyi özünün ən vacib vəzifəsi hesab edir. O göstərir ki, insanların həyat şəraitini yaxşılaşdırmaq dövlət başçısının qarşısında duran ən böyük vəzifədir. Buna nail olmaq üçün bizim hər cür imkanımız və yetərincə möhkəm iradəmiz var.

Hakimiyyətdə olanın əsas vəzifəsi həmvətənlərinin rifahını yüksəltmək,onların rifahı üçün işləməkdir.

O, göstərir ki, biz ÜDM istehsalının həcmini son 6 ildə, təxminən 10 dəfə artırmışıq. Bu mübaliğəsiz çox yaxşı nəticədir. Lakin hələ də insanların həyat şəraitini yaxşılaşdırmaq üçün görüləsi işlər çoxdur.

Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması qarşıda duran ən vacib vəzifədir. Ermənistanın Azərbaycan













Heydər Əliyev adına Bakı – Tbilisi - Ceyhan
Əsas İxrac Boru Kəmərinin Azərbaycan
hissəsinin istismara verilməsi
Opening of the Azerbaijan Section
of the Heydar Aliyev "Baku-Tbilisi-Ceyhan"
Export Pipeline


First Oil


First Oil
2005 Celebration
btc


btc








99
2000




torpaqlarını işğal altında saxlamasına beynəlxalq birliyin köməyi ilə son qoymaq vacibdir ki, Azərbaycanın bir milyondan çox olan qaçqın və köçkünü öz yerlərinə qayıda bilsin. Bizə elə gəlir ki, bu baş verəcəkdir. Əminik ki, Azərbaycan iqtisadi cəhətdən güclü ölkəyə çevriləcək və bir sıra digər ölkələrə nümunə olacaqdır. Biz Azərbaycanı belə görmək istəyirik.

# FƏSİL IV. İLHAM ƏLİYEV, İQTİSADİ İNKİŞAFIN MALİYYƏ ƏSASLARI

## 4.1. Dövlətin iqtisadi siyasəti büdcə vasitəsi ilə reallaşdırılır

**Ölkə Prezidentinin strategiyasını müəyyən etdiyi büdcə-vergi, pul-kredit, dövlət rüsumları, qiymət-tarif siyasəti sistemli reallaşdırılır və müsbət nəticələr verir. Dölət büdcəsinin mahiyyəti və strukturunun təhlili bu siyasətin sistemli reallaşdırıldığına sübutdur.**

Dövlət büdcəsi, dövlətin birillik gəlirlər və xərclər balansıdır. O birbaşa hüquqi qüvvəyə malik olan dövlətin birillik ən ali maliyyə sənədidir. Onu təsdiq etmədən yeni ildə heç bir ciddi maliyyə sənədini imzalamaq mümkün deyil. Ona görə dövlət büdcəsinə, dövlətin birillik iqtisadi konstitusiyası da deyirlər.

Dövlət büdcəsi, dövlətin iqtisadi siyasətini reallaşdırmağın ən güclü alətidir. Orada dövlətin növbəti ildə ölkənin sosial-iqtisadi inkişafı, xalqın rifahının daha da yüksəldilməsi üçün qarşıya qoyduğu vəzifələr və onların reallaşmasına maliyyə təminatları yaradılmasının əsas istiqamətləri öz əksini tapır.

Dövlət büdcəsi iqtisadiyyatdan formalaşır. Büdcə gəlirlərinin məbləği ölkənin sosial-iqtisadi inkişafından asılıdır. Bu mənada iqtisadiyyat ilkin, büdcə isə törəmədir.

İqtisadiyyat-büdcə əlaqələri qarşılıqlıdır. Bu əlaqələr nəyin birinci, nəyinsə ikinci olmasından qat-qat dərindir.

İqtisadiyyatdan törəyən büdcə sosial-iqtisadi inkişafın sürətlənməsinə, xalqın rifahının yüksəlməsinə güclü təsir etmək imkanlarına malikdir. Əgər büdcə-vergi siyasəti qeyri-təkmil olarsa o ölkədə maliyyə çətinlikləri yaranmasına, iqtisadiyyatda tənəzzülün baş verməsinə, işsizlərin, yoxsulların sayının artmasına və s. səbəb ola bilər.

**2002-ci ilin dövlət büdcəsi 28,7 trilyon manatlıq ümumi daxili məhsul (ÜDM) bazasında hazırlanmışdır. Bu 2001-ci ilin sosial-iqtisadi inkişaf proqnozlarında göstərilən ÜDM-dən 7,1**



**trilyon manat çoxdur.**

**Dövlət büdcəsinin başlıca makroiqtisadi göstəriciləri:**

**Dövlət büdcəsinin gəlirləri - 4.780 milyard manat, onun ÜDM-ə nisbəti isə 16,6 faiz müəyyən edilmişdir.**

**Büdcənin xərcləri - 5. 130 milyard manat, xərclərin ÜDM-ə nisbəti 17,8 faiz nəzərdə tutulmuşdur.**

**Dövlət büdcəsi kəsirinin yuxarı həddi - 350 milyard manat, onun ÜDM-ə nisbəti - 1,2 faiz təsdiq edilmişdir.**

**Fikrimizi ümumiləşdirərək deyirik ki, 2002-ci ilin dövlət büdcəsi əvvəlki illərin Dövlət büdcələrinə nisbətən daha təkmil hazırlansa da onu ideal büdcə hesab etmək olmaz. Fikrimizcə, ölkənin sosial-iqtisadi inkişaf proqnozlarını və dövlət büdcəsini təkmilləşdirmək imkanları kifayət qədərdir. Dövlət büdcəsi gəlirlərinin artırılması və xərclərinin səmərəliliyinin yüksəldilməsi üçün əlavə tədbirlər görülməsi vacibdir. 2002-ci il dövlət büdcəsi gəlirləri və xərclərinin təhlili qeyd etdiklərimizə sübutdur.**

**2002-ci ildə dövlət büdcəsinin gəlirləri bir milyard dollardan bir qədər artıq olmuşdur. Azərbaycan Respublikasının tarixində ilk dəfədir ki, dövlət büdcəsinin gəlirləri bir milyard dollara çatır və onu ötüb keçir. Bu nailiyyətdir.**

Unutmamalıyıq ki, dövlət büdcəsinin hazırlanması və reallaşması prosesində başlıca məsələ gəlirlərin artırılmasıdır. Ən azı ona görə ki, büdcə gəlirlərini artırmadan xərcləri artırmaq, əhalinin rifahını daha da yüksəltmək, ölkənin müdafiə qabiliyyətini möhkəmlətmək və s. mümkün deyildir.

2002-ci ilin dövlət büdcəsində gəlirlərin 2001-ci ilə nisbətən 605 milyard manat artımı təmin edilmişdir. Onu daha da artırmaq mümkün idimi? Fikrimizcə, dövlət büdcəsi gəlirlərini artırmaq həm mümkündür, həm də zəruridir.

Ən əvvəl ölkənin sosial-iqtisadi inkişaf proqnozları real imkanlara əsaslanmalıdır. 2001-ci ilin sosial-iqtisadi inkişaf proqnozlarında ÜDM istehsalının 21 trilyon manat olacağı göstərildiyi halda, o 25,6 trilyon manat olmuşdur. Bu 2001-ci ildə proqnozların

real imkanlardan aşağı səviyyədə müəyyənləşdirildiyinə sübutdur.

Çoxillik təcrübə göstərir ki, müəssisə və təşkilatlardan, eləcə də hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən hesablanmış büdcə daxilolmaları proqnozları ilə faktiki ödənilmiş daxilolmalar arasında fərq hər il orta hesabla 600-700 milyard manata bərabər olur. Onun öz səbəbləri vardır. Xırdaçılığa varmamaq üçün onların araşdırılması və təhlilinə vaxt sərf etmirik. Lakin bir şey aydındır ki, bu mənbədən faktiki büdcə daxilolmaları proqnoz göstəricilərini üstələyir.

Fikrimizcə, dövlətin gəlirlərini daha da artırmaq üçün büdcə mədaxilini təmin edən orqanların fəallığını və məsuliyyətini yüksəltməklə yanaşı, növbəti ilin sosial-iqtisadi inkişaf proqnozlarının reallığı dolğun ifadə etməsinə diqqət artırılmalıdır.

Proqnoz göstəricilərinin azaldılma səbəbləri təhlil edilməli və təqsirkarlara məsuliyyət tətbiq edilməlidir. Son illər bu sahədə bir sıra tədbirlər görülsədə onu tamamilə həll etmək sosial-iqtisadi inkişaf proqnozlarının reallığa uyğunluğunu təmin etmək hələlik mümkün olmamışdır. Bu daha radikal tədbirlər hazırlanıb həyata keçirilməsini zərurətə çevirir. Bir sözlə elə tədbirlər hazırlanıb sistemli həyata keçirilməlidir ki, o dövlət büdcəsi gəlirlərinin potensial imkanlar səviyyəsinə uyğunluğunu təmin etsin.

Büdcə gəlirlərini artırmaq ölkə Prezidentinin xalqın həyat səviyyəsini daha da yüksəltmək üçün tədbirlər görməsinə şərait yarada bilər. Çünki ölkə Prezidenti büdcənin imkanlarını nəzərə almaqla xalqın həyat səviyyəsinin yüksəlməsinə xidmət edən, işqtisadi cəhətdən əsaslandırılmış qərarlar qəbul edir. Əmək haqqı və pensiyaların səviyyəsinin yüksəldilməsi haqqında son illərdə 10-a yaxın fərman verilməsinə baxmayaraq, onların heç birinin inflyasiya ilə nəticələnməməsi, dövlət başçısının həmişə iqtisadi cəhətdən əsaslandırılmış qərarlar qəbul etməsinə sübutdur.

Hesab edirik ki, ölkənin sosial-iqtisadi inkişaf proqnozları mövcud imkanların hamısının büdcə gəlirlərinin artırılmasını təmin etməyə daha fəal yönəldilməsini təmin etməlidir. Bu onun səfərbəredici rolunun yüksəlməsinə, dövlətin mərkəzləşdirilmiş gə-



lirlərinin əhəmiyyətli dərəcədə artımına xidmət edə bilər.

2002-ci ildə vergi dərəcələrinin azaldılması istiqamətində ciddi dəyişikliklər edilmədiyi, vergi bazasının genişləndirilməsi üçün isə bir sıra tədbirlər görüldüyü şəraitdə dövlət büdcəsi gəlirlərinin ÜDM-ə nisbətinin əvvəlki illərin proqnoz göstəricilərinə nisbətən daha sürətli artımını təmin etməli idi.

2002-ci il dövlət büdcəsində fiziki şəxslərin gəlir vergisi 530 milyard manat nəzərdə tutulmuşdur. Bu 2001-ci ilə nisbətən 110 milyard manat azdır. Doğrudur, «Vergi Məcəlləsi»nə 2001-ci ilin sonunda edilmiş dəyişikliklər və əlavələrlə gəlir vergisinin şkalaları 2002-ci ildən dəyişdirilmişdir. Yəni beş şkalalı sistemdən üç şkalalı gəlir vergisi sisteminə keçid məqsədəuyğun hesab olunmuşdur. Bu gəlir vergisinin bir qədər azalmasına təsir etmişdir. Lakin birincisi işləyənlərin sayı artmış, ikincisi aylıq orta əmək haqqı 2001-ci ildəki 254 min manatdan 2002-ci ildə 290 min manatdan bir qədər artıq olmuşdur. Bu göstərilənlər gəlir vergisindən büdcə daxilolmalarının azalmasına deyil, artımına təsir etməli idi.

Əhalinin pul gəliri 2001-ci ildə 10,7 faiz artmışdır. 2002-ci ildə isə onun 12 faizdən artıq yüksələcəyi nəzərə alınmalı idi. Qeyd olunanlar dövlət büdcəsinə fiziki şəxslərin gəlir vergisindən daxilolmaların artımına təsir etməli idi.

Digər tərəfdən 2002-ci ildə bir sıra fərdi vergi güzəştlərinin (cəmi 12 güzəşt) aradan qaldırılması haqqında qanun qəbul olunmuşdur. Bütün bunlar fiziki şəxslərdən tutulan gəlir vergisi bazasının xeyli genişlənməsinə təsir etmişdir. İşləyənlərin sayının, orta aylıq əmək haqqının və aylıq gəlirin artdığı, fiziki şəxslərin gəlir vergisində güzəştlərin aradan qaldırıldığı, vergi dərəcəsinin isə sabit qaldığı şəraitdə bu vergidən büdcə daxilolmaları azalmalı deyil, artmalıdır. Bu məntiqi nəticədir.

Yeni maliyyə ilinin dövlət büdcəsində ƏDV-nin 2001-ci ilə nisbətən 2002-ci ildə 627 milyard manat artımı nəzərdə tutulmuşdur. Dərəcəsi sabit qaldığı şəraitdə bir ildə ƏDV-dən büdcə daxilolmalarının bu qədər artımının mənbələri göstərilməlidir.

2001-ci ildən Rusiyadan idxal olunan mallara ƏDV tətbiqinin

istehlak prinsipinə keçirilməsi təbii ki, verginin bu formasından büdcə daxilolmalarının bir qədər artımına təsir edəcəkdir. Lakin bu mənbə hesabına ƏDV-dən büdcə daxilolmalarının 2002-ci ildə 627 milyard manat artımı haqqında gətirilən rəqəmlərin reallığı şübhə doğurmaya bilmir.

Sosial-iqtisadi inkişaf proqnozlarını hazırlayan və büdcə gəlirlərini formalaşdıran qurumlar 2002-ci ildə ƏDV-dən büdcə daxilolmalarının 627 milyard manat artımının reallığını əsaslandırmalı idilər. Belə əsaslandırıcı məlumatlar bizə verilməmişdir. Əgər bu məlumatlar bizə vaxtında təqdim edilsəydi bəlkə də bu suallara ehtiyac qalmazdı.

2002-ci ilin dövlət büdcəsinin layihəsində sadələşdirilmiş sistem üzrə vergi nəzərdə tutulmamışdı. Bu vergi rüblük dövriyyəsi 100 milyon manata qədər olan iqtisadi subyektlərə şamil edilir. Məqsəd kiçik və orta sahibkarlığın inkişafına, cəmiyyətdə orta təbəqənin formalaşmasına daha əlverişli şərait yaratmaqdan ibarət olmuşdur. Bir sıra hüquqi şəxslərin hissələrə bölünməklə rüblük dövriyyəsinin həcmini 100 milyon manatdan aşağı salmaları və 2 faizlik sadələşdirilmiş sistem üzrə vergi ödənişi sisteminə keçmələrini, bu vergi formasının ləğvi üçün əsas hesab etmək, fikrimizcə, düzgün olmazdı.

Sadələşdirilmiş sistem üzrə vergi müvafiq icra hakimiyyəti orqanlarının təşəbbüsü ilə «Vergi Məcəlləsi»nə daxil edilmişdi. Dövlət büdcəsinin layihəsində də onların təşəbbüsü ilə sadələşdirilmiş sistem üzrə verginin tamamilə çıxarılmasına cəhd göstərilirdi. «Vergi Məcəlləsi»nin qüvvəyə mindiyi vaxtdan bir il keçmişdir. Bu müddət sadələşdirilmiş sistem üzrə verginin səmərəliliyi və ya səmərəli olmaması haqqında nəticə çıxarmaq üçün tələsiklik olardı.

İqtisadiyyatda inersiya daha güclüdür. Tez-tez aparılan eksperimentlər iqtisadiyyatda kataklizmlər yaranması ilə nəticələnə bilər. Fikrimizcə, sadələşdirilmiş sistem üzrə vergini ləğv etmək deyil, onun büdcə daxilolmalarında rolunu artırmaq üçün tədbirlər görülməlidir.



Sadələşdirilmiş sistem üzrə verginin təkmilləşdirmə variantları çoxdur. Fikrimizcə, ən məqbul variant bu verginin dərəcəsini 2 faizdən 4 faizə və yaxud 5 faizə qaldırmaq, onun ödənilmə prinsipi və qaydalırını isə əvvəlki kimi saxlamaq olardı. O həmin verginin konstruksiyasını dəyişmədən büdcə daxilolmalarında rolunu artırmağa şərait yaradardı.

Sadələşdirilmiş sistem üzrə vergilərin dövlət büdcəsinin mədaxil maddəsinə ayrıca sətirlə saxlanılması barədə deputatların təklifi nəzərə alındı. Lakin 100 milyon manatadək olan rüblük dövriyyə 30 milyon manata endirildi və bu qəbildən olan sahibkarlıq subyektlərinə torpaq və əmlak vergisi tətbiq olundu.

Hazırda dövlət büdcəsindən maliyyələşən nazirliklərin, dövlət komitələrinin, şirkətlərin, konsernlərin bəzisinin büdcədən kənar fondları mövcuddur. Bu fondlar barədə vahid dövlət siyasətinin yeridilməsi və onların iqtisadi cəhətdən əsaslandırılmış qaydalarla dövlət büdcəsinə cəlb edilməsi məqsədəuyğun olardı. Qanunvericiliyə əsasən 2002-ci ilin fevralından 2003-cü ilin sosial-iqtisadi inkişaf proqnozları və dövlət büdcəsinin layihəsinin hazırlanmasına başlanılmışdır. Orada büdcədən maliyyələşdirilən qurumların büdcədənkənar fondlarının 2003-cü ilin dövlət büdcəsinə cəlb edilməsi təmin olunmalıdır. Bu həm dövlət büdcəsi mədaxilininin xeyli artımına, həm də büdcədən maliyyələşən ayrı-ayrı qurumlarda uçot-hesabat əməliyyatlarının dəqiqləşməsinə, maliyyə intizamının möhkəmlənməsinə, aşkarlıq və şəffaflıq prinsipinin daha da genişlənməsinə təsir edə bilər.

2001-ci ildə dövlət rüsumlarından toplanan vəsaitin 15-25 faizi bir sıra nazirlik, komitə, konsern və şirkətlərdə qalır. Onun 75-85 faizi isə dövlət büdcəsinə köçürülür. Bu büdcədən maliyyələşən ayrı-ayrı qurumlar arasında ayrıseçkiliyə səbəb olur. Digər tərəfdən o dövlət rüsümunun ümumi konstruksiyası ilə uzlaşmır. Çünki dövlət rüsumu mahiyyətcə dövlətin göstərdiyi xidmətlər müqabilində hüquqi və fiziki şəxslərin dövlət büdcəsinə ödəmələridir.

«Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən 2003-cü ildən bütün sahələrdən yığılan dövlət

rüsumları 100 faiz dövlət büdcəsinə köçürüləcəkdər. Bu dövlət rüsumları sahəsində vahid siyasət yeritməyə və dövlət büdcəsi gəlirlərini xeyli artırmağa şərait yaradacaqdır.

Dövlət büdcəsinin xərcləri:

**1. 2002-ci il dövlət büdcəsinin 5.130 milyard manatdan ibarət olan xərclərinin 62,5 faizi sosial istiqamətli xərclər təşkil edirdi.**

Büdcənin sosial istiqamətliliyinin öz səbəbləri vardır. Onun zəruriliyi, məqsədəuyğunluğu şübhəsizdir. Lakin büdcənin sosial istiqamətliliyi ilə investisiya yönümlülüyü arasında balans olmalıdır.

2002-ci ildə Dövlət investisiyasına 164,7 milyard manat nəzərdə tutulmuşdur. Bu büdcə xərclərinin 3,4 faizini təşkil edirdi. Büdcə vəsaiti hesabına investisiya ayırmalarının 2001-ci ilə nisbətən 2002-ci ildə 2.7 milyard manat artımına baxmayaraq, o cüzi məbləğ təşkil edir. Belə vəziyyətin uzun illər davam etməsi neqativ nəticələr verə bilər. Ona görə də dövlət büdcəsində investisiya ayırmalarının artırılması, onun iqtisadi inkişaf büdcəsinə çevrilməsi üçün tədbirlər görülməli idi.

**2.** 2002-ci ilin dövlət büdcəsində bəzi xərc maddələrinin bölgüsü etiraz doğurmaya bilmir. Misal üçün, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq xərclərinə ayrılmış 248,4 milyard manatın 3,3 milyard manatı fermer təsərrüfatlarına kredit güzəştləri fonduna ayrıca sətirlə ayrıldığı halda, 245 milyard manatı bu bölmənin sair xərclərinə aid edilmişdir.

Dövlət büdcəsindən maliyyələşən 3,3 milyard manatın ünvanlı, 245 milyard manatın isə ünvansız göstərilməsi, fikrimizcə, məqbul hesab oluna bilməz. Doğrudur, büdcədə 245 milyard manatın təsnifat üzrə bölgüsü yəqin ki, verilmişdir. Lakin qanunda 3,3 milyard manatlıq xərcin təyinatı ayrıca sətirlə göstərildiyi halda 245 milyard manatın sair xərclər kimi verilməsini, fikrimizcə, düzgün hesab etmək olmaz.

**3.** Elm xərcləri, dövlət büdcəsi xərclərinin 1,2 faizini təşkil edir. Bu iqtisadi təhlükəli həddir. Səhiyyə, mədəniyyət, incəsənət



sahəsində də vəziyyət oxşardır. Səhiyyə xərcləri büdcə xərclərinin 5,2 faizini, mədəniyyət və incəsənət xərcləri büdcə xərclərinin 2,2 faizini təşkil edir. Bu sahələrdə radikal islahatlar aparmadan əsaslı dəyişikliyə nail olmaq mümkün olmayacaqdır.

Təhsil və səhiyyə sistemində dövlət büdcəsindən maliyyələşmə mövcud imkanlar çərçivəsində aparılır. 2002-ci ildə təhsilə ayrılan vəsait büdcə xərclərinin 21,8 faizini təşkil edirdi. Dövlət büdcəsinin xərc maddəsində təhsilə ayrılan qədər vəsait ayrıldığı ikinci sahə yoxdur. Buna baxmayaraq vəsait çatışmamazlığı həmişə özünü büruzə verir. Mövcud vəziyyət bu sahədə radikal islahatlar aparmadan keçinməyin mümkün olmadığını göstərir. Burada radikal islahatlar aparılmalı, onların reallaşma mexanizmləri, qaydaları və prinsipləri müəyyən edilməlidir.

Büdcə xərclərinin təhlili hər bir xərc maddəsini artırmağın zəruri olduğunu göstərir. Lakin büdcə xərcləri, büdcə gəlirlərindən asılı olduğunu unutmamalıyıq. Hamımız bilməliyik ki, xərcləri artırmaq üçün dövlət büdcəsinin gəlirləri artırılmalıdır. Yəni əvvəl büdcəyə yığmaq, sonra isə onu istifadə etmək olar.

**Dövlət büdcəsi kəsiri:**

**Dövlət büdcəsi kəsirinin yuxarı həddi, yəni büdcə xərclərinin büdcə gəlirləri ilə örtülməyən hissəsi 2001-ci ilə nisbətən 2002-ci ildə 70 milyard manat azalmış və 350 milyard manat təşkil etmişdir. Büdcə kəsirinin ÜDM-ə nisbəti əvvəlki illərə nisbətən ən aşağı həddə enmişdir.** Bu kəsirsiz büdcə formalaşdırmaq istiqamətində ciddi addım hesab olunmalıdır. Büdcə kəsirinin örtülmə mənbələrinə gəldikdə, onlar inflyasiya doğurmayan mənbələr hesabına formalaşdırılmışdır. **Daha dəqiq desək 2002-ci ildə dövlət büdcəsi kəsirinin 150 milyard manatı dövlət mülkiyyətinin özəlləşdirilməsindən, 36 milyard manatı qısamüddətli xəzinə öhdəlikləri və 20 milyard manatı istiqrazlar buraxılışından daxilolmalar, 144 milyard manatı isə xarici kreditlər hesabına örtülmüşdür. Deməli əvvəlki illərdə olduğu kimi, 2002-ci ildə də Milli Bankın pul emissiyası olmadan dövlət büdcəsi kəsirinin bağlanması təmin edilmişdir.**

## 4.2. Büdcə-vergi siyasətinin əsası – iqtisadi artımı stimullaşdırmaq və büdcə gəlirlərini artırmaq

Ölkə Prezidenti büdcə gəlirlərinin artırılmasını başlıca şərt hesab edir. Çünki gəlirlər ilkin, xərclərsə törəmədir. Gəlirləri artırmaq üçün dövlət iqtisadiyyatın vergi yükünü artırmağa deyil, iqtisadi artım tempini sürətləndirməyə çalışır. Fikrimizcə, bu doğru yoldur.

Vergi, təkcə büdcə gəlirlərini mexaniki olaraq təmin etmək və artırmaq vasitəsi deyildir. Vergi dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissəsidir.

Vergi siyasəti ilə dövlət ən azı 3 funksiyanın yerinə yetirilməsinə təsir edir: 1) yerli istehsalın inkişafını stimullaşdırmaq; 2) dövlət büdcəsinin gəlirlərinin formalaşmasında həlledici rol oynamaq; 3) iqtisadi inkişafın sahələrarası tarazlaşmasını təmin etmək (müəyyən sahənin inkişafına antistimul yaratmaq, digər sahənin isə üstün inkişafını stimullaşdırmaq).

Hər ilin büdcə zərfində Milli Məclisə göndərilən sənədlər arasında, dövlət büdcəsi ilə yanaşı, növbəti maliyyə ilində büdcə-vergi siyasətinin başlıca istiqamətləri barədə də sənəd olur. Orada vergi sahəsində yeni maliyyə ilində həyata keçiriləcək tədbirlər öz əksini tapır.

2003-cü ilin büdcə zərfində vergi siyasətinin təkmilləşdirilməsi istiqamətində ciddi tədbirlər nəzərdə tutulmuşdur. Bu tədbirlər regionların iqtisadi inkişafını sürətləndirmək və gələcəkdə vergi bazasını əhəmiyyətli dərəcədə artırmağı nəzərdə tuturdu.

2003-cü ildə vergi siyasətində dəyişikliklərin üç istiqamətdə aparılması məqsədəmüvafiq hesab olunmuşdur:

1) vergi dərəcəsini aşağı salmaq;

2) regionlar üzrə diferensial vergi dərəcələrini tətbiq etmək;

3) sahələr üzrə diferensial vergi dərəcələrini tətbiq etmək.



1) 2003-cü ildən mənfəət vergisinin dərəcəsi 2 faiz aşağı salınaraq 25 faizə endirilmişdir. Bu, büdcə gəlirlərinin birbaşa 60 milyard manatdan çox azalmasına səbəb olsa da, dövlət bu addımı atmağı məqsədəuyğun hesab etmişdir. Məsələ təkcə mənfəət vergisinin dərəcəsinin azalması ilə bitmir. Başlıca cəhətlərdən biri mənfəət vergisinin dərəcəsinin respublikanın regionları üzrə diferensial müəyyən edilməsindən ibarətdir. Həm istehsal sahələri, həm də regionlar üzrə mənfəət vergisinin dərəcəsini diferensial müəyyən etmək nəzərdə tutulur.

Respublikanın dağlıq rayonlarında mənfəət vergisi 25 faizlə deyil 10 faizlə hesablanması nəzərdə tutulmuşdur. Dağ rayonlarının siyahısı isə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Mənfəət vergisi turizm fəaliyyətində 20 faizlə, misgərlik, bağçılıq-bostançılıq və xalq sənətkarlığı, əllə xalça toxunması, ağac materiallarından məişət alətlərinin hazırlanması sahəsində isə 10 faizlə ödəniləcəkdir.

Bu vergi güzəştlərindən vergi ödəyiciləri o vaxt istifadə edə bilər ki, onların 1) istehsal sahələri, 2) daşınmaz əmlakı və 3) istifadə etdiyi işçi qüvvəsi güzəşt verilən ərazilərdə fəaliyyət göstərmiş olsun.

Güzəşt hüququ olan müəssisənin güzəşt şamil edilən mənfəətdən başqa digər fəaliyyəti də olduqda, onun güzəştə düşən və güzəşt hüququ olmayan fəaliyyət növləri üzrə vergi uçotu ayrı-ayrılıqda aparılması nəzərdə tutulmuşdur. Əks halda güzəştin tətbiq olunmayacağı müəyyən edilmişdir.

Xatırladaq ki, 2002-ci ildə qanunvericilik təşəbbüsünün subyektləri sadələşdirilmiş sistem üzrə vergiləri tamam çıxarmağa cəhd göstərdilər. Daha doğrusu 2002-ci ilin büdcə zərfindəki sənədlərdə sadələşdirlmiş sistem üzrə vergilər tamam çıxarılmışdı.

Milli Məclisdə müzakirə aparılarkən biz ona yol vermədik. Qanunvericilik təşəbbüsünün subyektlərini inandırdıq ki, bu vergi sisteminin qalması kiçik və orta sahibkarlığın inkişafı,

regionlarda iqtisadi fəaliyyətin stimullaşdırılması, cəmiyyətdə orta təbəqənin formalaşması və s. üçün vacibdir.

Ölkə Prezidentinin 2002-ci ildə respublikamızda fəaliyyət göstərən xarici sahibkarlar və eləcə də yerli iş adamları ilə keçirdikləri görüşlərdən sonra vəziyyət xeyli dəyişildi. Ölkə Prezidentinin imzaladığı fərmanlar, xüsusilə «Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı dövlətin kiçik və orta sahibkarlarlğın inkişafına kömək göstərməsi üçün əlverişli zəmin yaratdı. Sonra sadələşdirilmiş sistem üzrə vergidə yeni dəyişikliklərin edilməsi, bu verginin keyfiyyətcə bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılması üçün tədbirlər görüldü.

2002-ci ildə sadələşdirilmiş sistem üzrə vergilərdə rüblük dövriyyə 30 milyon manata endirilmişdi. Rüblük dövriyyəsi 30 milyon manatdan çox olduğundan kiçik və orta sahibkarların böyük əksəriyyəti sadələşdirilmiş sistemə aid olunmadı. 2003-cü ildə sadələşdirilmiş sistem üzrə vergilərin və onların dərəcəsinin müəyyən edilməsində xeyli dəyişikliklər edilmişdir.

Birincisi, 2003-cü ildən sadələşdirilmiş sistem üzrə vergilərin tətbiq dairəsi genişləndirildi. O təkcə hüquqi şəxslərə deyil, eləcədə fiziki şəxslərə də şamil edildi.

İkincisi, sadələşmiş sistem üzrə vergi ödəyicilərinin rüblük dövriyyənin həcmini 30 milyon manatdan, 125 milyon manata çatdırmaq nəzərdə tutuldu. Bu sadələşdirilmiş sistem üzrə vergi ödəyicilərinin siyahısının dəfələrlə artımına səbəb oldu. Hesablamalara görə 2003-cü ildə vergi ödəyicilərinin 90 faizə qədəri sadələşdirilmiş sistem üzrə vergi ödəyənlər oldu.

Üçüncüsü, sadələşdirilmiş sistem üzrə vergilərin diferensiallığı təmin edildi. Bakı şəhəri üzrə dövriyyədən 4 faizlə, respublikanın digər şəhər və regionları, o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə isə - 2 faizlə vergiyə cəlb etmək məqsədəuyğun hesab olundu.

Dördüncüsü, yük və sərnişin nəqliyyatında sadələşdirilmiş



sistem üzrə vergilər 10 faiz dərəcəsi ilə ödənilməsi qərara alındı. Bu verginin ödəyiciləri rayonlarda qeydiyyatdan keçib Bakı şəhərində fəaliyyət göstərərlərsə onda onlar Bakı şəhəri üzrə müəyyən olunmuş dərəcə ilə vergi ödəməli olacaqlar.

Məlum olduğu kimi, sosial sığorta vergi deyil. Lakin o da sahibkarın, iş adamının ümumi gəlirindən tutulur. 2003-cü ilin büdcə zərfində sosial sığorta ödənişlərinin 29 faizdən 27 faizə endirilməsi təmin edildi. Milli Məclis bu dəyişiklikləri məqsədəuyğun hesab etdi. Onlar təbii ki, sosial sığorta ödənişlərindən daxilolmaların müəyyən qədər azalmasına təsir edəcəkdir. Hesablamalar göstərir ki, 2 dərəcə azalma sosial sığorta ayırmalarından daxilolmaların 60 milyard manatdan çox azalması ilə nəticələnəcəkdir. Lakin o sosial sığorta ödəyicilərinin maliyyə vəziyyətinin bir qədər sağlamlaşmasına, sosial sığorta ödənişlərindən yayınmaların azalmasına, bu ödənişlərdən yığım əmsalının müəyyən qədər artmasına və müəssisələrin rəqabət qabiliyyətinin yüksəlməsinə təsir edə bilər.

Fikrimizcə, vergi siyasətində edilən dəyişikliklər sahibkarlıqla məşğul olanların fəaliyyət dairəsinin genişlənməsinə və vergi ödəyicilərinin sayının artmasına (vergi bazasının böyüməsinə), vergidən yayınma hallarının azalmasına, məşğulluq probleminin həllinə, ÜDM istehsalının artımına və xalqın rifahının yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir edə bilər.

İqtisadiyyatın vergi yükü (ən ümumi formada) büdcə gəlirlərinin ÜDM-ə nisbəti ilə müəyyən edilir. Bü səviyyə 2003-cü ilin dövlət büdcəsində 18,6 faizdir. Avropa ölkələrində bu nisbət 30-35 faiz təşkil edir. MDB ölkələrində də bu nisbətin respublikamızdan yüksək olduğu dövlətlər çoxdur. Gəlirlərin hesablama metodunda fərqlər olsa da, həqiqətən büdcə gəlirlərinin ÜDM-ə nisbət Avropa ölkələrində Azərbaycandan çox yüksəkdir.

Respublikamızda vergi bazasını genişləndirmək imkanlarından səmərəli istifadə edilməlidir. Burada ən əvvəl Maliyyə Nazirliyi fəallıq göstərməlidir.

Büdcənin icrasına cari nəzarəti Maliyyə Nazirliyi həyata keçirir. Bu eyni dərəcədə gəlirlərə və xərclərə aiddir. Təcrübənin göstərdiyi kimi bir çox hallarda bu nazirlik büdcə gəlirlərinin formalaşmasına, büdcədən xərclərin aparılmasında problemlər, gərginliklər yarandıqda fikir verir. Bu onunla əsaslandırılır ki, Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi büdcə gəlirlərinin 80 faizindən çoxunu təmin edir. Büdcə gəlirlərini təmin etmək Vergilər Nazirliyinin və qismən də Dövlət Gömrük Komitəsinin birbaşa işi olsa da Maliyyə Nazirliyi dövlət büdcəsi gəlirlərinin formalaşmasında fəallıq göstərməlidir.

Zəruri xərcləri maliyyələşdirmək üçün dövlət büdcəsində vəsait çatışmadıqda, Maliyyə Nazirliyi qanunun ona verdiyi hüquqdan istifadə edərək qısamüddətli xəzinə öhdəlikləri buraxıb, banklardan «borc» almaqla problemi həll edir. Bu dövlət büdcəsinin gəlirlərində yaranan problemləri həll etməyin ən asan yoludur. Həm də o təkcə asan yol deyil, orda başqa proseslər də olur. 2003-cü ildə bu məqsəd üçün dövlət büdcəsindən 40 milyard manat xərclənmişdir.

Xərclərin maliyyələşdirilməsi çətin deyildir. Büdcə gəlirlərinin bölüşdürülməsi, paylaşdırılması və maliyyələşdirmələrin aparılması bu işin ən asanıdır. Başlıcası büdcə gəlirlərinin toplanmasını, yığılmasını təmin etməkdir.

Fikrimizcə, dövlət büdcəsinin icrasına cari nəzarəti həyata keçirən Maliyyə Nazirliyi gəlirlərin formalaşmasını öz fəaliyyətində prioritet sahəyə çevirməlidir. Buna banklardan qısa müddətli xəzinə öhdəlikləri ilə 14-16 faizlə borc almaqla yox, gəlirlərin formalaşmasına ardıcıl və sistemli nəzarəti təmin etməklə nail olmaq lazımdır. Ən əvvəl ölkənin gəlirləri, büdcədaxilolmaları potensialı dürüst müəyyən edilməlidir.

Sosial-iqtisadi inkişaf proqnozları tərtib olunarkən ölkənin vergi və rüsum potensialı dürüst müəyyən edilməlidir. Bu dövlət büdcəsi gəlirlərinin dəqiq uçotunu aparmaq və onları büdcəyə cəlb etməyin ilkin və zəruri şərtidir.

Vergi bazasını genişləndirmək, yığım əmsalını artırmaq



hesabına büdcə gəlirlərini əhəmiyyətli dərəcədə artırmaq mümkündür. Bu sahədə istifadə olunmalı ehtiyatlar kifayət qədərdir.

Biz regionlar və istehsal sahələri üzrə vergiqoymada iqtisadi cəhətdən əsaslandırılmış diferensiallaşmanı təmin etməyə, hər bir regionun vergi bazasını dürüst müəyyən etməyə, yığım əmsalını artırmağa çalışmalıyıq. Bunların xeyli hissəsi 2003-cü ilin dövlət büdcəsində öz əksini tapmışdır.

2003-cü ilin büdcə zərfində «Vergi Məcəlləsi»nə dəyişikliklər və əlavələrə aid qanun layihəsi göndərilmişdi. Orada regionlar və sahələr üzrə mənfəət vergisinin, sadələşmiş verginin dərəcəsini diferensial müəyyən etmək təklif olunmuşdu.

İqtisadi inkişafa təsir etməyin ən təsirli vasitələrindən biri olan vergidən bir alət kimi istifadə etmək qanunun mahiyyətini təşkil edir. Milli Məclis qanun layihəsini ətraflı müzakirə etdi və orada 45-dən çox düzəlişlər apardıqdan sonra onu qəbul etdi.

«Vergi Məcəlləsi»nə edilmiş bu dəyişikliklər və əlavələrin regionların iqtisadi inkişafını stimullaşdırmağa müsbət təsir edəcəyinə əminik. Biz eyni zamanda ona əminik ki, təkcə diferensial vergi dərəcələri tətbiq etməklə, yalnız qanun qəbul etməklə avtomatik olaraq regionların ikişafına nail olmaq mümkün deyil.

Fikrimizcə, regionlarda paralel olaraq sosial və istehsal infrastruktur sahələrinin yaradıldığı, enerji daşıyıcıları ilə regionların fasiləsiz və davamlı təchiz edildiyi, kiçik və orta sahibkarların fəaliyyətinin pul-kredit siyasəti ilə dəstəkləndiyi şəraitdə diferensial vergi siyasəti iqtisadi artıma təsir edə bilər. Əks təqdirdə regionlar və sahələr üzrə vergi dərəcələrindəki fərqlər, büdcə daxilolmaları potensialının bir hissəsinin havaya sovrulması olacaqdır. Ona görə dövlət diferensial vergi siyasətinə, iqtisadi siyasətin digər komponentlərinin birgə, paralel təsirini təmin etmək imkanlarını götür-qoy etməlidir. Burada müvafiq icra hakimiyyəti strukturlarının, ən əvvəl iqtisadiyyatın cari vəziyyəti

və operativ idarə olunmasına məsul orqanların sistemli, koordinasiya olunmuş fəaliyyəti gərəkdir.

Biz bu strukturların nəzərinə çatdırırıq ki, əgər qeyd olunan tədbirlərin paralel, sistemli tətbiqini təmin etmək mümkün olmasa, onda diferensial vergi siyasətinin iflasa uğrayacağına şübhə edilməməlidir.

**Aksiz markaları satışından dövlət büdcəsinə daxilolmalar 2002-ci ildə 4,5 milyard manat olmuş və 2003-cü ildə də 4,5 milyard manat nəzərdə tutulmuşdur. Sosial-iqtisadi inkişaf proqnozlarına əsasən Azərbaycan Respublikasına mal və xidmətlərin idxalı 2002-ci ildə 12.720 milyard manat olduğu halda, 2003-cü ildə o 13.968 milyard manatdan artıq olmuşdur. İdxalın strukturu aksiz markaları satışından büdcədaxilolmalarını 2003-cü ildə bir milyard manat artırmaq imkanı vermişdir.**

**Hesablamalardan aydın olur ki, 2003-cü ildə mal və xidmətlər idxalının artımı 9 faiz təşkil etmişdir. Mütəxəssislərlə birlikdə apardığımız hesablamalara görə 2003-cü ildə aksiz markaları satışından daxilolmaların 2003-cü ildə ən azı 6,5 milyard manat təmin olunması mümkünlüyünü göstərmişdir. Buna görə də 2003-cü ilin dövlət büdcəsində aksiz markaları satışından daxilolmalar 4,5 milyard manat deyil, 6,5 milyard manat yazılmasını məqsədəuyğun hesab etmişdik.**

**Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar 2002-ci ildə 10 milyard manat, 2003-cü ildə isə 12 milyard manat nəzərdə tutulmuşdur. Biz 2 milyard manatlıq artımın kifayət olmadığını qeyd etmiş və onun yüksəldilməsinin zəruriliyini təklif etmişdik.**

**«İcarə haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən təsərrüfat hesablı müəssisə və təşkilatlarda gəlirin 50 faizi özlərində qalacaq, 50 faizi isə dövlət büdcəsinə cəlb ediləcəkdir. Büdcə təşkilatlarına aid əmlakın icarəyə verilməsindən əldə edilən gəlirlər isə 2003-cü ildən 100 faiz dövlət büdcəsinə cəlb edilmişdir.** Bu icarəyə verilmiş dövlət



əmlakından büdcə daxilolmalarının əhəmiyyətli dərəcədə artmasına təsir etmişdir.

2003-cü ildə daşınmaz əmlakın bir qisminin özəlləşdirilməsi icarəyə verilən əmlakın azalmasına və icarəyə verilən obyektlərdən gəlirlərin ümumi məbləğinə təsiri nəzərə alınmışdır.

**Gəlirlərin artım tempi onun azalmasını dəfələrlə qabaqladığından 2003cü ilin dövlət büdcəsində, dövlət əmlakının icarəyə verilməsindən daxilolmaların 12 deyil, 14 milyard manat yazılmasının məqsədəuyğun olduğunu qeyd etmişdik.**

**Banklardan alınan dividentlər 2002-ci ildə 6.575 milyon manat, 2003-cü ildə isə 5.652,9 milyon manat, yəni 922 milyon manat az müəyyən edilmişdir. Milli Bank mərkəzləşdirilmiş kredit resurslarının dərəcəsini 10 faizdən 7 faizə endirsə də Azərbaycanda qısamüddətli və uzunmüddətli kreditlərin faizi 18-21 faiz olaraq qalmışdır. Onun çox və ya az olması başqa söhbətin mövzusudur.**

Kredit faizinin səviyyəsi aşağı düşmədiyi, iqtisadiyyata kredit qoyuluşunun məbləği isə əhəmiyyətli dərəcədə artdığı şəraitdə banklardan alınan dividentlər azalmalı deyil, artmalıdır. Deyilənləri nəzərə alaraq banklardan alınan dividentlərin 2003-cü ildə 6.775 milyon manat müəyyən edilməsini, yəni 1 milyard 200 milyon manat artırılmasını məqsədəuyğun hesab etmişik.

**«Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli Fərmanında Nazirlər Kabinetinə ayrı-ayrı nazirliklərdə və dövlət orqanlarında cəmləşən büdcədənkənar vəsaitin formalaşması və istifadə edilməsi proseslərini araşdırmaq, təhlil etmək və onların 2003-cü ilin dövlət büdcəsinə daxil etmək barədə tapşırıqlar verilmişdi.**

**Aparılmış təhlil və araşdırmalar nəticəsində büdcədənkənar vəsaitlərin formalaşması və istifadəsində ciddi maliyyə pozuntularına yol verildiyi aşkarlanmışdı. Büdcə gəlirlərinin formalaşması və xərclərin səmərəliliyinin təmin olunması üçün**

**tədbirlər müəyyən edildi. O cümlədən, bir sıra qanunlarda büdcədən maliyyəşən təşkilatların büdcədənkənar fondlarının büdcəyə birləşdirilməsini nəzərdə tutan dəyişikliklər və əlavələr edilməsi təklif olundu.**

**«Bitki karantini haqqında» Azərbaycan Respublikası Qanunun «dövlət bitki karantin xidmətinin maliyyələşdirilməsi və maddi-texniki təminatı dövlət büdcəsi hesabına, habelə bitki karantini xidmətindən və digər xüsusi xidmətlərin göstərilməsindən əldə edilən vəsait hesabına həyata keçirilir» yazılmış 14-cü maddəsində dəyişikliklər edilməsi tövsiyə olundu. Qanun layihəsindəki həmin abzasının** «Dövlət bitki karantini xidmətinin maliyyələşdirilməsi və maddi-texniki təminatı dövlət büdcəsi hesabına həyata keçirilir. Bitki karantini xidmətində xidmətlər göstərilməsindən əldə edilən vəsait bütövlükdə dövlət büdcəsinə köçürülür». **redaksiyasında verilməsi təklif olundu. Bir sıra digər qanunlara da bu cür dəyişikliklər və əlavələr edildi.**

**«Muzeylər haqqında», «Dövlət satınalmaları haqqında», «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında», «Qiymətli kağızlar bazarında investorların hüquqlarının qorunması haqqında», «Statistika haqqında», «Bitki karantini haqqında», «Baytarlıq tədbirləri haqqında», «Yanğın təhlükəsizliyi haqqında», «Məhkəmələr və hakimlər haqqında», «Prokurorluq orqanlarında qulluq keçmə haqqında», «Mədəniyyət haqqında», «Milli arxiv fondu haqqında» qanunlarda həmin sahələrin dövlət mülkiyyətində olan müəssisə və təşkilatlarında maliyyələşmənin dövlət büdcəsi hesabına aparılması və bu sahələrin qanunla qadağan olmayan fəaliyyətlərindən əldə etdikləri gəlirlərin 100 faiz dövlət büdcəsinə köçürülməsi əsaslandırıldı.** Milli Məclis bü təklifləri müzakirə etdikdən sonra qəbul etdi.

**«Sosial sığorta haqqında» Azərbaycan Respublikası Qanununda dövlət sosial sığorta haqqının 29 faizdən 27 faizə endirilməsi, mülki hüquqi xarakterli müqavilələrlə işləyənlər üçün onların gəlirlərinin 20 faizi miqdarında, xarici ölkələrdə haqqı ödənilən əmək fəaliyyəti ilə və ya sahibkarlıqla məşğul**



**olan Azərbaycan Respublikası vətəndaşları üçün isə ölkə üzrə ötən ilin orta aylıq əmək haqqının 20 faizi miqdarında müəyyənləşdirilməsi təklif olunmuşdu.**

Qanun layihəsində ticarət və ictimai-iaişə obyektlərində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər üçün ölkə üzrə ötən ilin orta aylıq əmək haqqının 30 faizi əvəzinə 20 faizi, əhaliyyə nəqliyyat və məişət xidməti göstərən fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər üçün 25 faiz əvəzinə 15 faiz, fərdi sahibkarlıq fəaliyyətinin digər növləri ilə məşğul olan şəxslər üçün 20 faiz əvəzinə 10 faiz miqdarında sosial sığorta ödənişi müəyyənləşdirilməsi təklif olunmuşdu. Qeyd edilənlər məşğul olan şəxslərin ödəməli olduqları sosial sığorta haqqının aşağı salınmasını nəzərdə tutur. Bütün bu təklifləri müzakirə edən Milli Məclis qanunvericilikdə dəyişikliklər edilməsini məqsədəuyğun hesab etdi.

**«Dövlət rüsumu haqqında» Azərbaycan Respublikasının Qanununu 2002-ci il yanvarın 1-də qüvvəyə minmişdir. Keçən dövr ərzində irəli sürülmüş təkliflər nəzərə alınaraq qanunun bir neçə maddəsinə dəyişikliklər və əlavələr edilməsi məqsədəuyğun hesab edilmişdir. Əvvəla, bu dənizçi kitabçasının verilməsi üçün şərti maliyyə vahidinin 10 misli miqdarında dövlət rüsumu ödənişini nəzərdə tutmuşdur.**

**Azərbaycan Respublikası ilə həmsərhəd olan dövlətlərə vətəndaşların sadələşdirilmiş qaydada gediş-gəlişi üçün sənədlərin verilməsinə görə şərti maliyyə vahidinin 2 misli miqdarında dövlət rüsumu ödənişi nəzərdə tutmuşdur. Habelə, Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazələrin verilməsinə dövlət rüsumu sahəsində də dəyişikliklər təklif edilmişdir. Milli Məclis bu təkliflərə də müsbət münasibət bildirmişdi.**

**Təklif olunan dəyişikliklər büdcə, vergi və rüsumla bağlı münasibətlərin təkmilləşməsinə, iqtisadi inkişafa və büdcə gəlirlərinin artımına təsir edə bilərlər.**

Dövlət büdcəsinin 2003-cü ildə iqtisadi fəaliyyətlə bağlı xərclərində fermer təsərrüfatlarına kömək üçün 1 milyard manat

vəsait nəzərdə tutulmuşdur. Fikrimizcə, bu çox az məbləğdir. Respublikamızda 2500-ə yaxın fermer təsərrüfatı mövcuddur. Bu halda orta hesabla hər fermer təsərrüfatına 400 min manat vəsait düşür. Mütəxəssislərlə apardığımız hesablamalara əsasən fermer təsərrüfatları üçün xərcləri ən azı 3 dəfə yüksəltmək mümkündür. Ona görə də kəndli fermer təsərrüfatları üçün büdcədən xərcləri 2003-cü ildə 4 milyard manata çatdırmaq məqsədəuyğun hesab edilmişdir.

Dövlət büdcəsinin layihəsində **«Beynəlxalq təşkilatlara üzvlük haqqı»** bəndi çox ümumidir. Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatlar çoxdur. Onların hər-birinin üzvlük haqqı fərqlidir. Dövlət büdcəsində onların hamısı bir sətirdə cəm halda verilmişdir. Fikrimizcə, bu bənd açılmalı, beynəlxalq təşkilatların hər birinə ödənilməli olan üzvlük haqqının məbləği ayrıca verilməlidir. Büdcə gəlirləri və xərclərinin konstruksiyasında dəyişiklik aparmadan bu təklifin reallaşması mümkündür.

Hesablama Palatası haqqında qanuna əsasən onun xərcləri dövlət büdcəsində ayrıca sətirlə göstərilməlidir. Bu müddəanın 2003-cü ilin dövlət büdcəsində öz əksini tapması məqsədəuyğun olardı.

**2003-cü ilin dövlət büdcəsində «Yerli büdcələrə ayrılan dotasiya»ya 25 milyard manat vəsait ayırmaq nəzərdə tutulmuşdur. Bunun bələdiyyələrin büdcəsinə aid olduğu məlumdur.**

Xatırladırıq ki, 2002-ci ildə də dövlət büdcəsindən, bələdiyyələrin büdcəsinə 25 milyard manat ayrılmışdı.

Biz hesab edirik ki, bələdiyyələr yeni yaradılmış qurum olduğuna görə onların fəaliyyətinə şərait yaratmaq üçün dövlət büdcəsindən vəsait ayrılmalıdır. Bu ən azı iki istiqamətdə: bələdiyyələrin təşkilatlanmasına maliyyə yardımı və ya müəyyən layihənin bələdiyyə tərəfindən icra olunmasına dövlət sifarişi verilməsi ilə bağlı ola bilər.

**Yardımın ikinci forması konkret işin icrası ilə bağlıdır. Sifarişi verən ona maliyyə təminatı yaratmalıdır. Bu həmişə belə olub və gələcəkdə də belə olacaqdır.**

Dövlət büdcəsindən bələdiyyələrin təşkilatlanması üçün vəsait



ayrılmasını isə əbədiləşdirmək, fikrimizcə, düzgün deyil. Ən azı ona görə ki, bu bələdiyyələri **«ələbaxımlığa»** öyrədə bilər.

Əvvəllər dövlət büdcəsinə yığılan 4 növ vergi qanunla bələdiyyələrə verilmişdir. Hazırda həmin vergilər bələdiyyələr tərəfindən hesablanılır və yığılır.

Fikrimizcə, təşkilatlanmasına kömək məqsədilə dövlət büdcəsindən bələdiyyələrə əvəzsiz yardım ildən ilə azaldılmalıdır. 2002-ci ildə 25 milyard manat məbləğində olan bu yardım, 2003-cü ildə 20 milyard manat, 2004-cü ildə 10 milyard manat və nəhayət o yekunlaşmalıdır. Bələdiyyələr öz gəlirləri ilə xərclərini ödəyən qeyri hökümət təşkilatı olaraq müstəqil fəaliyyət göstərməlidirlər.

**Fikrimizcə, 2003-cü ilin dövlət büdcəsində «Yerli büdcələrə ayrılan dotasiya»nın məbləği 25 milyard manatdan, 20 milyard manata endirilməsi məqsədəuyğun olardı.**

**Büdcənin sosial istiqamətliliyi həmçinin tələbələrin həyat şəraitinin yaxşılaşmasına istiqamətlənməlidir. Onların aylıq təqaüdü 15 min manatdır.**

Deyirik, gənclər bizim gələcəyimizdir. Onlar 15 min manata bir ay yaşaya bilərmi? Aylıq tələbə təqaüdünün 15 min manat olması heç bir ölçüyə, məntiqə sığışmır. Onu almaq və ya almamaq bir məna kəsb etmir. Tələbələrin təqaüdünün yüksəldilməsi üçün radikal addım atılmalıdır. Ola bilsin ki, yalnız əlaçılara və ya ailə vəziyyəti ən ağır olanlara ünvanlı təqaüd verməklə onun minimum həddini 300 min manat həcminə çatdırmaq məqsədəuyğun olardı.

**Dövlət büdcəsi natural göstəricilərdən (taxta, mişar daşı, parça, paltar və s.) ibarət deyil. Bu hamıya məlum həqiqətdir. Dövlət büdcəsi müəyyən məbləğ pul kütləsindən ibarətdir.**

**Dövlət büdcəsinin icrasını təmin etmək üçün müəyyən məbləğ pul kütləsi zəruridir. İqtisadi qanunauyğunluqlara görə ÜDM-in dövranı və dövriyyəsi üçün zəruri məbləğdə pul kütləsi olmadan büdcənin icrasını təmin etmək mümkün deyil.**

Dövlət büdcəsi ilə pul-kredit siyasətinin üzvi surətdə əlaqədar olduğunu sübut etməyə ehtiyac yoxdur. Onlar koordinasiya olunmadan iqtisadi artımı sürətləndirmək mümkün deyil.

Hər ilin dövlət büdcəsi Milli Məclisdə müzakirə olunur və təsdiqlənir. Pul kredit siyasəti isə hər il üçün müzakirə və təsdiq olunmalı olduğu halda heç harada nə müzakirə, nə də təsdiq olunur. 1996-cı ildən sonrakı illərdə pul-kredit siyasətinin başlıca istiqamətləri Milli Məclisdə müzakirə və təsdiq olunmamışdır.

Dünya ölkələrinin əksəriyyətində hər ilin pul-kredit siyasəti dövlət büdcəsi ilə yanaşı, parlamentdə müzakirə edilir və təsdiqlənir. MDB ölkələrində də belədir.

Bizim ölkəmizdə də növbəti maliyyə ilinin dövlət büdcəsi ilə yanaşı, həmin ilə aid pul-kredit siyasətinin başlıca istiqamətləri müzakirə və təsdiq olunmaq üçün Milli Məclisə təqdim olunmalıdır. Biz, bu məsələni hər il qaldırırıq. Lakin onun həlli əsassız olaraq ləngidilir.

Bu bizim inadkarlığımız deyil, iqtisadi inkişafın tələbidir. **Növbəti maliyyə ilində iqtisadiyyatın nəğd və qeyri-nəğd pul kütləsinə tələbatını, uzunmüddətli və qısamüddətli kredit qoyuluşunun məbləğini, onların faiz dərəcəsini, inflyasiya tempini, manatın məzənnəsini bilmədən, onların koordinasiyasını təmin etmədən iqtisadi inkişaf konsepsiyasını reallaşdırmaq, qarşılıqlı ödəməmələr problemini həll etmək, iqtisadiyyatın dollarlaşmasının qarşısını almaq çətinliklərlə qarşılaşa bilər.**

Pul-kredit siyasətində respublikanın makroiqtisadi və makromaliyyə vəziyyəti təhlil edilir, manatın məzənnəsi, inflyasiyanın səviyyəsi, pul kütləsinin həcmi və strukturunun tənzimlənməsi, ölkənin tədiyyə qabiliyyətinin sabitliyi və valyuta ehtiyatlarının zəruri səviyyəsinin təmin edilməsi və s., habelə bu siyasəti reallaşdırmağın metodları müəyyənləşdirilir.

Hazırda inflyasiya tempi 2 faiz, iqtisadiyyatın orta rentabelliyi 13-14 faiz olduğu halda kreditlərin rəsmi məzənnəsi 19-21 faizdir. Burada qeyri-rəsmi faiz əlavələrinin də olduğu istisna deyil. Bu kreditlər real iqtisadiyyat üçün sərfəli deyil.

İqtisadiyyatın öz qanunauyğunluqları vardır. **Onlardan biri belədir - kreditə tələb nə qədər yüksək olsa belə faizin səviyyəsi heç vaxt mənfəətə bərabər ola bilməz.** Əgər kreditin faizi



mənfəətə bərabər olarsa onda krediti almaq iqtisadi mənasını itirər. Respublikamızda isə analoqu olmayan vəziyyət yaranmışdır. Burada kreditin faizi mənfəətin normasını üstələyir. Bu zərərə düşmək məqsədilə kredit almaq kimidir. Bu iqtisadi məntiqə sığmayan vəziyyət, kreditlərin real iqtisadiyyata tətbiqini mümkünsüz edir. Məhz ona görə də **respublikamızda iqtisadiyyata kredit qoyuluşunun ÜDM-ə nisbəti 2000-ci ildə 9 faiz, 2001-ci ildə 9,3 faiz, 2002-ci ilin yanvar-oktyabr aylarında isə bu nisbət 10,5 faiz olmuşdur.**

**Bank sektoru üçün sərfəli olmadığından real iqtisadiyyata kredit qoyuluşu cüzi məbləğ təşkil edir. Həm də bu kreditlərin 2002-ci ilin 10 ayı ərzində ödəmə vaxtı ötmüşlər 656 milyard manat və ya ümumi kredit qoyuluşunun 26,8 faizini təşkil edir.**

Pul-kredit siyasəti Milli Məclisdə və ümumiyyətlə heç harada müzakirə olunmursa və təsdiq edilmirsə onda həmin proseslərə necə təsir etmək olar?

Fikrimizcə, dövlət büdcəsinin və pul-kredit siyasətinin hər birinin öz orbitində, bir-birindən təcrid olunmuş halda fəaliyyət göstərməsi iqtisadi inkişafa xidmət etmir.

Bank sisteminin iqtisadi inkişafa təsirinin mühüm istiqamətlərindən biri kredit qoyuluşudur. **İqtisadiyyata kredit qoyuluşunun ÜDM-ə nisbəti Avropa ölkələrində 80-90 faiz, ABŞ-da 130 faiz, Yaponiyada 190 faiz təşkil edir. Azərbaycanda isə bu nisbət 2002-ci il yanvarın 1-dən oktyabrın 1-nə kimi** (müqayisə olunan dövrdə Azərbaycan banklarının iqtisadiyyata kredit qoyuluşu 2,4 trilyon manat, ÜDM istehsalı isə 22,7 trilyon manat olmuşdur) **10,5 faiz təşkil edir.**

**Milli Bank mərkəzləşdirilmiş kredit resurslarına faiz dərəcəsini əvvəl qeyd etdiyimiz kimi 10 faizdən 7 faizə endirməsi kredit faizinin aşağı salınması üçün kifayətedici dərəcədə təsir göstərə bilmədi. Deməli, əlavə tədbirlər görülməsi zəruridir.**

Kredit faizi tələblə təklif arasında nisbətdən asılı olaraq formalaşır. Kreditlərə faizin səviyyəsini aşağı salmaq üçün pula tələblə pul təklifi arasında nisbət dəyişilməlidir. Bu bütövlükdə

pul-kredit siyasətinin formalaşma və reallaşma qaydalarında, metodlarında dəyişikliklər etməklə həll edilə bilər.

«İnflyasiyanı boğmaq» siyasətinin hazırki şəraitdə davamı, iqtisadiyyatda pul «aclığı» yaranmasına, iqtisadi dövriyyənin ancaq 50-60 faizə qədərinin real pulla aparılmasına, nisyə mal satışı, qarşılıqlı borclamaya getmələrin kütləvi xarakter almasına səbəb olur. Göstərilənlər iqtisadi dövriyyənin xeyli hissəsinin vergi və digər icbari ödənişlərdən yayınmasına səbəb olur.

Əgər pul-kredit alətləri öz əsaslarından, real iqtisadiyyatdan ayrı salınarsa, o iqtisadi şəraitə pozucu təsir göstərən, destabilləşdirici amilə çevrilə bilər. **Digər tərəfdən borc faizinin norması, istehsal dairəsində mənfəət normasını əhəmiyyətli dərəcədə üstələyərsə, onda borc kapitalının tədavül dairəsinə sahələrarası axımının baş verməsi, real iqtisadiyyatda isə kredit qoyuluşunun azalması ilə nəticələnə bilər.**

Müəssisə və təşkilatlar arası mübadilədə və ödənişlərdə nisyələşmə, naturallaşma, barter əməliyyatları, iqtisadiyyatda «dollarlaşma»nın artımı həmin siyasətdə dəyişiklik edilməsinin zəruriliyini göstərir.

**Respublikada pul-kredit siyasətinin məqsədi ilə, ona nail olma vasitələri və alətlərinin koordinasiyası təmin edilməlidir. ÜDM-in dövranı və dövriyyəsi, dövlət büdcəsinin icrası üçün çox vacib amil olan pul kütləsi ilə iqtisadiyyatın pula tələbatı arasında optimal nisbət yaradılmalıdır. Pul-kredit siyasətinin başlıca istiqamətlərinin hər il dövlət büdcəsi ilə eyni vaxtda Milli Məclisdə müzakirə olunub təsdiqlənməsi təmin edilməlidir.**

Hesablama palatası büdcə prosesinin təhlilində Milli Məclisə yaxından kömək etməlidir. Bu Hesablama Palatasının başlıca funksiyalarından biridir. Açığını deyək ki, Hesablama Palatasının 2003-cü ilin dövlət büdcəsi barədə analitik ekspertizası qanunla müəyyən olunan tələblərdən çox aşağıdır.

**Hesablama Palatasının 2003-cü il büdcəsinin ekspertizasına aid Milli Məclisə təqdim etdiyi sənədlər 2003-cü ilin sosial-**



**iqtisadi inkişaf proqnozlarının izahatından (komentariyasından) ibarət idi. Orada bir yeni fikir, konstruktiv təklif olmamışdır. Sözün qısası Hesablama Palatasının 2003-cü il büdcəsinə aid Milli Məclisə təqdim etdiyi sənədlərdə ümumiyyətlə təhlil, təklif verilmımişdir.**

Hesablama Palatasının yenicə formalaşdığını nəzərə alaraq onun fəaliyyətini canlandırmaq üçün tədbirlər görülməlidir. Hesablama Palatası dərin təhlil aparmalı, büdcə daxilolmaları ehtiyatlarının aşkar edilməsində, onların büdcə gəlirlərinə cəlb edilməsində mühüm rol oynayan konstruktiv təkliflər hazırlamalıdır.

Hesablama Palatasının, həmçinin dövlət büdcəsi xərclərinin səmərəliliyini yüksəltməyin yolları haqqında təkliflər verməlidir. Bir sözlə Hesablama Palatası öz işinə ciddi yanaşmalı, Milli Məclisin daimi komissiyalarının, onun funksional fəaliyyəti ilə bağlı məktublarına qanunla müəyyən edilmiş müddətdə və tələb olunan səviyyədə cavab verməlidir. Bu sahədə də Hesablama Palatasının işində nöqsanlar mövcuddur. Onların aradan qaldırılması üçün sistemli iş aparılmalıdır.

**Biz 2003-cü ilin dövlət büdcəsinin keyfiyyətinin daha da yüksəlməsi üçün təkliflərimizi onun müzakirələri zamanı vermişdik. Təkliflərimizin bir qismi büdcənin müzakirələri zamanı nəzərə alındı. Qalan təkliflərimizi müvafiq icra hakimiyyəti orqanının rəhbərlərinin nəzərinə çatdırdıq. Fikrimizcə, onların nəzərə alınması ümumi işin xeyrinə olardı.**

**2003-cü ilin dövlət büdcəsini vaxtında təsdiq etməklə müvafiq icra hakimiyyəti strukturlarının yeni maliyyə ilinə dair vəzifələrini təkmil yerinə yetirmələrinə şərait yaratmış olduq. Elə vəzifələr ki, büdcə təsdiq edilmədən onların icrası sadəcə olaraq mümkün deyildir.**

**Biz ən əvvəl dövlət büdcəsindən maliyyələşməyə əsaslanan 2003-cü ilin tikinti proqramını hazırlamağı, dövlət büdcəsinin gəlirləri və xərclərinin rüblər üzrə bölgüsünü aparmağı və onları iri vergi ödəyicilərinə vaxtında çatdırmağı və s. nəzərdə tuturduq.**

**Dövlət büdcəsi qanunla müəyyən edilən vaxt təsdiq olunduğu halda tikinti proqramının müzakirələri və təsdiqində ləngimələrə yol verilir. Çoxillik təcrübənin göstərdiyi kimi bu neqativ nəticələr verir. Dövlət büdcəsi noyabr ayında təsdiq olunduğu halda, tikinti proqramının yeni maliyyə ili başlayandan dörd-beş ay sonra təsdiqi və obyektlərdə praktiki işin ilin yarısından sonra başlanması tikinti işlərinin tam reallaşmasını qeyri-mümkün edir. Bu yarımçıq qalmış tikintilərin yarımçıq qalmasına, kapital qoyuluşlarının səpələnməsinə, israfçılıq, oğurluq hallarının və s. baş verməsinə səbəb olur.**

**Dövlət büdcəsində həmin məqsəd üçün ayrılmış vəsaitin xeyli hissəsi müvafiq icra strukturlarının yaratdığı burokratik əngəllər ucbatından ilin axırına istifadə olunmamış qalır. Son 6-7 ilin təcrübəsi göstərir ki, hər il tikinti proqramında təsdiq edilmiş vəsaitin 16-20 milyard manatı istifadə olunmamış qalır. Tikinti vəsait çatışmadığından yarımçıq qalır, bu məqsəd üçün büdcədə nəzərdə tutulmuş vəsait isə istifadə olunmadığından ilin sonunda büdcəyə qaytarılır.**

**Bütün bunlar ölkə Prezidentinin fərmanlarının, sərəncamlarının, qərarlarının və Milli Məclisin qəbul etdiyi qanunların reallaşmasına maneələr yaradır. Qeyd olunanlar göstərir ki, müxtəlif səviyyəli məmurların bəzisi ölkə Prezidentinin çox vacib qərarlarının, sərəncamlarının nə ruhunu anlayır, nə də onlarda göstərilən templə ayaqlaşırlar. Ona görə də bir sıra qanun və qərarların icrası yerinə yetirilməmiş qalır.**

Ölkə Prezidenti Elmlər Akademiyasının Naxçıvan Muxtar Respublikası üzrə bölməsinin yaradılması haqqında qərar qəbul edəndən sonra avqustun ortalarında özü oraya gəlmiş və onun icrasının təmin olunmasında şəxsən iştirak etmişdir. Təbii ki, hər bir qərarın, fərmanın icrasına ölkə Prezidentinin nəzarət etməsi praktiki cəhətdən mümkün deyil. Buna heç zərurət də yoxdur. Yalnız bir şərtlə, hərə öz işi ilə, qanunla müəyyən olunduğu kimi məşğul olduqda. Çox təəssüflə qeyd etməliyik ki, qəbul olunmuş qərar və fərmanların icrasında nöqsanlara yol verilir. Bunu



deməklə yəqin ki, sirr açmaram. Qanun qəbul edib onun icrasını təmin etməməkdənsə, belə qanunu qəbul etməmək daha sərfəli olardı. İcrası təmin olunmamış qanun cəmiyyətdə etinasızlıq, məsuliyyətsizlik mühiti formalaşdırır. Belə vəziyyət yaranmasına biz yol verməməliyik.

**Unutmamalıyıq ki, ən təkmil qanun belə avtomat reallaşma xassəsinə malik deyildir. Qanun, o vaxt qanundur ki, onun icrası təmin olunur, qanunu pozanlara, onun müddəalarına əməl etməyənlərə qarşı isə qanun tətbiq olunur.**

**Biz hüquqi dövlət qururuq. Bu həyatımızı, fəaliyyətimizi qanunla tənzimləməyi, qanuna əsaslanmağı, ona riayət etməyi öyrəndiyimiz zaman, qanunun tələbləri hamımızın həyat normasına çevrildiyi şəraitdə sosial-iqtisadi inkişafa dinamizm gətirmək, işsizlik, yoxsulluq problemlərini həll etmək, xalqın rifahını əhəmiyyətli dərəcədə yüksəltmək mümkün olacaqdır.**

### 4.3. Reallığa əsaslanan 2002-ci ilin dövlət büdcəsi və onun icrası

**Heydər Əliyev respublikamızda yeridilən büdcə-vergi, pul-kredit, dövlət rüsumları, qiymət-tarif siyasətinin strateji xəttini müəyyən etmişdir. Bu xətt ölkəmizdə sistemli reallaşdırılır və müsbət nəticələr verir. Yeni maliyyə ilinə dair Milli Məclisə göndərilmiş sənədlərdə - büdcə zərfində bu özünün bariz ifadəsini tapmışdır.**

**Büdcə zərfi dövlət büdcəsinin layihəsindən, qanunlardan, qanunlara əlavələrdən və dəyişikliklərdən, məqsədli proqramlardan, hesabatlardan, arayışlardan, məlumatlardan ibarət geniş spektrli sənədlər toplusundan ibarətdir. Orada 20-yə yaxın sənəd olur.**

**Milli Məclisə 1995-ci ildən bəri 2002-ci ilin büdcə zərfindəki qədər zəngin sənədlər göndərilməmişdir. Bu göndərilmiş**

**sənədlər təkcə kəmiyyətcə deyil, ən əvvəl onların təkmil olmasıyla, dolğunluq dərəcəsinə aiddir. Qeyd edilənlər dövlət başçısının rəhbərliyi altında respublikamızda büdcə siyasətinin və onun reallaşma mexanizmlərinin müntəzəm olaraq sistemli təkmilləşdirildiyinə sübutdur.**

**Büdcə zərfinə daxil olan sənədlərin Milli Məclisdə bir aydan artıq müzakirələri davam etmiş, konstruktiv təkliflər nəzərə alınmaqla o təsdiq edilmişdir.**

Dövlət büdcəsi dövlətin birillik gəlirlər və xərclər balansıdır. O, birbaşa hüquqi qüvvəyə malik olan dövlətin birillik ən ali maliyyə sənədidir. Dünya sivil dövlətlərində büdcə qəbul olunmamış yeni ildə heç bir ciddi maliyyə sənədini imzalamaq mümkün deyil. Ona görə dövlət büdcəsinə dövlətin birillik iqtisadi konstitusiyası da deyirlər.

Dövlət büdcəsi dövlətin iqtisadi siyasətini reallaşdırmağın ən güclü alətidir. Orada dövlətin növbəti ildə ölkənin sosial-iqtisadi inkişafı, xalqın rifahının daha da yüksəldilməsi üçün qarşıya qoyduğu vəzifələr və onların reallaşmasına maliyyə təminatları yaradılmasının əsas istiqamətləri öz əksini tapır.

Dövlət büdcəsi iqtisadiyyatdan formalaşır. Büdcə gəlirlərinin məbləği ölkənin sosial-iqtisadi inkişafından asılıdır. Bu mənada iqtisadiyyat ilkin, büdcə isə törəmədir.

İqtisadiyyat-büdcə əlaqələri qarşılıqlıdır. O, zahirdə göründüyündən daha çox mövcud iqtisadi imkanlara əsaslanmalı, real olmalıdır. Onun reallığı sosial-iqtisadi inkişaf proqnozlarının reallığından asılıdır.

Dövlət başçısı büdcə-vergi siyasətinin və ölkənin sosial-iqtisadi inkişaf proqnozlarının reallığa əsaslanması və onun iqtisadi inkişafa, xalqın rifahının daha da yüksəldilməsinə təsirinin gücləndirilməsi üçün müntəzəm iş aparır. Milli Məclisə göndərilmiş sənədlərin strukturu və məzmunu ona sübutdur.

Büdcə zərfindəki sənədlər bir-biri ilə bağlıdır. Lakin onların hamısının birdən müzakirəsi mümkün deyildir. Oradakı sənədlər mahiyyətcə 3 bloka bölünür. Birincisi, 2002-ci il dövlət büdcəsinin



layihəsi və ona əlavə edilən sənədlərdir. Bu bloka 10 sənəd daxildir. İkinci blok sosial sahə, üçüncü blok vergi siyasəti və onun qanunvericilik bazasının daha da təkmilləşdirilməsi ilə bağlı sənədlər toplusundan ibarətdir.

Milli Məclis həmin sənədləri qeyd olunan ardıcıllıqla müzakirə etmiş, deputatların təkliflərim və qeydlərini nəzərdən keçirmiş, onların təkmilləşdirilməsinə xidmət edən konstruktiv təklifləri nəzərə almış, müvafiq dəyişikliklər və əlavələr etmişdir.

2002-ci ilin dövlət büdcəsi 1996-cı ildən başlanmış ölkənin sosial-iqtisadi tərəqqisində əldə edilmiş nəticələrə əsaslanırdı. O iqtisadi islahatların idarəetmə sisteminin təkmilləşdirilməsinə, struktur dəyişikliklərinin dərinləşməsinə və dinamik inkişafın təmin olunmasına, xalqın rifahının daha da yüksəldilməsinə yönəltmişdir.

Dövlət başçısının rəhbərliyi ilə 2002-ci ildə hazırlanmış ölkənin sosial-iqtisadi inkişaf proqnozlarının və dövlət büdcəsinin bir sıra fərqləndirici cəhətləri var idi:

- 2002-ci ilin dövlət büdcəsi 2001-2010-cu illər üçün Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri və qarşıdakı 3 ilin iqtisadi inkişaf konsepsiyası əsasında hazırlanmışdı. Bu olduqca vacibdir. Dövlət büdcəsi tərtib edilərkən əvvəlki illərin təcrübəsi, sosial-iqtisadi inkişafın baza göstəriciləri, nail olunmuş nəticələr nəzərə alınmışdır. Bununla yanaşı, dünyanın bir sıra ölkələrində edildiyi kimi, Azərbaycan Respublikasının 2002-ci il dövlət büdcəsi layihəsinin hazırlanmasında ölkənin sosial-iqtisadi inkişafının 3 illik perspektiv meyilləri nəzərə alınmışdı. Bu dövlət büdcəsində nəzərdə tutulmuş bəzi proqramların reallaşmasının bir illə məhdudlaşmadığı və sonrakı illərə keçdiyi üçün zəruridir. Bu həm də büdcə prosesində sistemliliyi təmin etməyin vacib şərtidir. 2002-ci ilin sosial-iqtisadi inkişaf proqnozlarında və dövlət büdcəsində bu meyillərin nəzərə alınması müsbət cəhət kimi qeyd edilməlidir.
- əvvəlki illərdən fərqli olaraq 2002-ci ilin sosial-iqtisadi inkişaf proqnozları 2000-ci ilin icra olunmuş büdcə rəqəmlərinin,

2001-ci ilin müqayisəli təhlilinə əsaslanırdı. Bu, fikrimizcə, olduqca vacibdir. Çünki sosial-iqtisadi inkişafın makroiqtisadi göstəricilərində baş verən meyillərin müqayisəli təhlilinə əsaslanmadan təkmil büdcə siyasəti yeritmək mümkün deyildir.

- büdcə zərfindəki sənədlərin təhlili bəzi sahələr üzrə proqnozların reallığa əsaslanmasını təmin etmək üçün hələ çox iş görməyin zəruri olduğunu göstərir. Misal üçün, sosial-iqtisadi inkişaf proqnozlarında 2002-ci ildə yüngül sənaye məhsulları istehsalının 76 faiz yüksələcəyi göstərilmişdi. Bir ildə rəqabətqabiliyyətli yüngül sənaye məhsulları istehsalının 76 faiz artımının texniki-iqtisadi əsasları açılmadığından onun reallığı şübhə doğurur. Bu həmçinin 2002-ci ildə elektrik enerjisi istehsalına və əhalinin enerjiyə tələbatının ödənilməsinə aid proqnoz göstəricilərinə də aid edilə bilər.

Ölkəmizdə elektrik enerjisi istehsalı 2000-ci ildə 18,6 milyard kv. saata çatmış, 2001-ci ildə onun xeyli artımı təmin olunmuşdu. 2002-ci ilin sosial-iqtisadi inkişaf proqnozlarında isə elektrik enerjisi itehsalını 21,4 milyard kv. saata çatdırmaq nəzərdə tutulmuşdu.

Elektrik enerjisi təchizatında problemlər olduğu heç kimə sirr deyildir. Rayonlarımızın xeyli hissəsində istilik üçün də elektrik enerjisindən istifadə olunması problemi daha da çətinləşdirir.

Bu gün respublikamızda istehsal olunan, o cümlədən xaricdən alınan təbii qazın xeyli hissəsi istilik enerjisinə çevrilir, elektrik enerjisi yaradır. Sonra xüsusilə kənd rayonlarında elektrik enerjisinin xeyli hissəsi məişət ehtiyaclarını ödəmək üçün yenidən istilik enerjisinə çevrilir.

Həmişə olduğu kimi, qış aylarında elektrik enerjisinə tələbat daha da artır. Eyni zamanda istilik üçün elektrik enerjisindən istifadə edilməsi elektrik xətlərində gərginliyin artmasına səbəb olur, digər tərəfdən isə gərginliyə davam gətirməyən elektrik avadanlıqlarının, o cümlədən transformatorların xeyli hissəsinin tez-tez sıradan çıxmasına səbəb olur. O digər tərəfdən enerjidən istifadənin faydalılıq əmsalını ən azı 40-50 faiz aşağı salır.

Rayonları təbii qazla təmin etmədən elektrik enerjisi təchizatında problemləri aradan qaldırmağın çətinliklərlə qarşılaşacağına şübhə edilməməlidir.



Dövlət 2001-ci ilin noyabrından əlavə olaraq 17 rayona təbii qaz verilməsini təmin etmişdir. Rayonlara təbii qaz verilməsi elektrik enerjisi təchizatında problemlərin xeyli hissəsinin həllinə şərait yaratsada, bu sahədə görüləsi işlər hələ çoxdur.

Ən əvvəl, hüquqi və fiziki şəxslər tərəfindən istifadə edilmiş elektrik enerjisi ödənişlərindəki vəziyyət ciddi narahatlıqlar doğurur. Ayrı-ayrı rayonlarda istifadə edilmiş elektrik enerjisinin ödəmə əmsalı 10-12 faizdir. Yəni bəzi rayonlarda istifadə edilmiş elektrik enerjisinin 88-90 faizi ödənilməmiş qalır. Bu həm müəssisə və təşkilatlara, həm də əhalinin istifadə etdiyi elektrik enerjisinə aiddir.

Hüquqi və fiziki şəxslərin «Azərenerji»yə, «Azərenerji»nin Dövlət Neft Şirkətinə, Dövlət Neft Şirkətinin isə digər müəssisə və təşkilatlara borcları astronomik rəqəmə çatır. Beləliklə, zəncirvari borclar sistemi yaranır. Qarşılıqlı borcların illərlə yığılıb qalması təsərrüfatçılıq subyektlərində maliyyə vəziyyətinin ağırlaşmasına, iqtisadi inkişafa dinamizm gətirilməsinə, büdcə gəlirlərinin artırılmasına maneələr yaradır.

Təbii ki, qarşılıqlı borclar sahəsində yaranan bu vəziyyətə heç bir enerji sistemi davam gətirə bilməz. Bunu hamımız başa düşməli, istifadə olunmuş elektrik enerjisi ödənişlərinin vaxtında və tam həcmdə ödənilməsini təmin etmk üçün ciddi tədbirlər görməliyik. Onsuz elektrik enerjisi təchizatında problemləri aradan qaldırmaq, sadəcə olaraq, mümkün deyil.

Enerji sistemində əsaslı dəyişikliklərə nail olmaq üçün dövlət intensiv iş aparır. Onun xarici idarəçiliyə verilməsi prosesi reallaşmaqdadır. Bu həm investisiya qoyuluşu, yeni texniki vasitələr, texnoloji sistemlər tətbiqini bazar münasibətləri prinsipi ilə əhalinin enerji təchizatında köklü dəyişikliklər etməyi nəzərdə tutur.

- 2002-ci ilin dövlət büdcəsində 4 məqsədli proqram nəzərdə tutulmuşdu. **Elmin, təhsilin, səhiyyənin, mədəniyyətin maliyyələşdirilməsi proqramları.** Əlbəttə, büdcə zərfində belə proqram-

ların olması, özlüyündə müsbət haldır. Ən azı ona görə ki, dövlət büdcəsinin məqsədli proqramlar əsasında tərtibi, vəsaitlərdən istifadənin səmərəliliyini yüksəltməyin zəruri şərtidir. Lakin açığını deyək ki, bu məqsədli proqramların hər birinin təkmilləşdirilməsi istiqamətində çox iş görülməlidir. Onlar təkmil, iqtisadi əsaslara və səmərəli reallaşma mexanizmlərinə malik olmalıdırlar.

Fikrimizcə, məqsədli proqramları həmin sahələrin müvafiq icra hakimiyyəti orqanları ilə büdcə layihəsini hazırlayan qurumlar birgə hazırlamalıdırlar. O büdcə vəsaitlərindən məqsədli istifadə ilə yanaşı, həmin proqramların yönəldiyi sahələrin daxili imkanlarından, onların potensial resurslarından istifadənin səmərəliliyini yüksəltməyə istiqamətlənməlidir.

- büdcə zərfinin fərqləndirici xüsusiyyətlərindən biri də əvvəlki illərdə geniş verilməyən Azərbaycan Respublikasının 2002-ci ildə toplu maliyyə balansı və büdcə-vergi siyasətinin əsas istiqamətləri, eləcə də dövlət büdcəsinin layihəsinə dair izahatın dolğun hazırlanmasıdır. Bütün bunlar büdcənin makroiqtisadi göstəricilərinin mahiyyətini daha mükəmməl öyrənməyə və təhlil etməyə şərait yaradır.

Fikrimizcə, dövlətin gəlirlərini daha da artırmaq üçün büdcə mədaxilini təmin edən orqanların fəallığını və məsuliyyətini yüksəltməklə yanaşı, qarşılıqlı ödəmələr probleminin həlli zəruridir.

Son illər bu problemin həlli istiqamətində bir sıra tədbirlər görülsə də, onu tamamilə həll etmək hələlik mümkün olmamışdır. Bu qarşılıqlı borclar probleminin həlli üçün daha radikal tədbirlər hazırlanıb həyata keçirilməsinin zəruri olduğunu göstərir. Bir sözlə, elə tədbirlər hazırlanıb sistemli həyata keçirilməlidir ki, o dövlət büdcəsi gəlirlərinin potensial imkanlar səviyyəsinə yaxınlaşmasını təmin etsin.

Məlum olduğu kimi, ölkə Prezidenti xalqın həyat səviyyəsini yüksəltmək üçün iqtisadi cəhətdən əsaslandırılmış qərarlar qəbul edir. Büdcə gəlirlərini artırmaq ölkə Prezidentinin xalqın həyat səviyyəsini daha da yüksəltmək üçün tədbirlər görməsinə şərait



yarada bilər. Çünki ölkə Prezidenti büdcənin imkanlarını nəzərə almaqla xalqın həyat səviyyəsinin yüksəlməsinə xidmət edən, iqtisadi cəhətdən əsaslandırılmış qərarlar qəbul edir. Əmək haqqı və pensiyaların səviyyəsinin yüksəldilməsi haqqında son illərdə 10-a yaxın fərman verilməsinə baxmayaraq onların heç birinin inflyasiya ilə nəticələnməməsi dövlət başçısının həmişə iqtisadi cəhətdən əsaslandırılmış qərarlar qəbul etməsinə sübutdur.

Hazırda dövlət büdcəsindən maliyyələşən nazirliklərin, dövlət komitələrinin, şirkətlərin, konsernlərin bəzisinin büdcədənkənar fondları mövcuddur. Bu fondlar barədə vahid dövlət siyasətinin yeridilməsi və onların iqtisadi cəhətdən əsaslandırılmış qaydalarla dövlət büdcəsinə cəlb edilməsi məqsədəuyğun olardı.

Qanunvericiliyə əsasən 2002-ci ilin fevralından növbəti ilin sosial-iqtisadi inkişaf proqnozları və dövlət büdcəsinin hazırlanması başlanılır. Orada büdcədən maliyyələşdirilən qurumların büdcədənkənar fondlarının 2003-cü ilin dövlət büdcəsinə cəlb edilməsi təmin olunmuşdur. Bu həm dövlət büdcəsi mədaxilinin xeyli artımına, həm də büdcədən maliyyələşən ayrı-ayrı qurumlarda uçot-hesabat əməliyyatlarının dəqiqləşməsinə, maliyyə intizamının möhkəmlənməsinə, aşkarlıq prinsipinin daha da genişlənməsinə təsir edə bilər.

2001-ci ilə qədərki qanunvericilikdə dövlət rüsumlarından yığılan vəsaitin 15-25 faizinin bəzi nazirliklərdə, komitələrdə, konsernlərdə qalması, 85-75 faizi isə dövlət büdcəsinə köçürülməsi nəzərdə tutulmuşdu. Dövlət rüsumu haqqında 2001-ci ildə qəbul olunmuş qanuna əsasən 2003-cü ildən onların hamısı dövlət büdcəsində cəmləşməlidir. O dövlət büdcəsi gəlirlərinin xeyli artımına şərait yaradacaqdır.

**Dövlət büdcəsinin xərcləri:**

Büdcə sosial istiqamətlidir. Sosial istiqamətliliyin öz səbəbləri vardır. Onun zəruriliyi, məqsədəuyğunluğu şübhəsizdir.

2002-ci il dövlət büdcəsinin 5.130 milyard manatdan ibarət olan xərclərinin 62,5 faizi sosial istiqamətli xərclər təşkil edirdi. Lakin büdcənin sosial istiqamətliliyi ilə investisiya yönümlülüyü

arasında balans olmalıdır. Fikrimizcə, onların optimal nisbətlərinin təmin olunmasına diqqət artırılmalıdır.

2002-ci ildə Dövlət investisiyasına 164,7 milyard manat nəzərdə tutulmuşdur. Bu büdcə xərclərinin 3,4 faizini təşkil edir. Büdcə vəsaiti hesabına investisiya ayırmalarının 2001-ci ilə nisbətən 2002-ci ildə 2,7 milyard manat artımına baxmayaraq, o cüzi məbləğ təşkil edirdi. Belə vəziyyətin uzun illər davam etməsi neqativ nəticələr verə bilərdi. Ona görə də dövlət büdcəsində investisiya ayırmalarının artırılması, onun iqtisadi inkişaf büdcəsinə çevrilməsi üçün tədbirlər görülmüşdür.

**3.** 2002-ci ilin dövlət büdcəsində bəzi xərc maddələrinin bölgüsü etiraz doğurmaya bilmirdi. Misal üçün, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq xərclərinə ayrılmış 248,4 milyard manatın 3,3 milyard manatı fermer təsərrüfatlarına kredit güzəştləri fonduna (təcrübənin göstərdiyi kimi, onun əksəriyyəti istifadə edilmir) ayrıca sətirlə ayrıldığı halda, 245 milyard manatı bu bölmənin sair xərclərinə aid edilmişdi.

Dövlət büdcəsindən maliyyələşən 3,3 milyard manat ünvanlı, 245 milyard manatın isə ünvansız göstərilməsi, fikrimizcə, məqbul hesab oluna bilməz. Doğrudur, büdcədə 245 milyard manatın təsnifat üzrə bölgüsü, yəqin ki, verilmişdir. Lakin qanunda 3,3 milyard manatlıq xərcin təyinatı ayrıca sətirlə göstərildiyi halda, 245 milyard manatın sair xərclər kimi verilməsini, fikrimizcə, düzgün hesab etmək olmazdı.

**4.** Elm xərcləri, dövlət büdcəsi xərclərinin 1,2 faizini təşkil edirdi. Bu iqtisadi təhlükəli həddir. Səhiyyə, mədəniyyət, incəsənət sahəsində də vəziyyət oxşardı. Səhiyyə xərcləri büdcə xərclərinin 5,2 faizini, mədəniyyət və incəsənət xərcləri büdcə xərclərinin 2,2 faizini təşkil edirdi. Bu sahələrdə radikal islahatlar aparmadan əsaslı dəyişikliyə nail olmaq mümkün olmamışdı.

Təhsil və səhiyyə sistemində dövlət büdcəsindən maliyyələşmə mövcud imkanlar çərçivəsində aparılırdı. Təhsilə ayrılan vəsait büdcə xərclərinin 21,8 faizini təşkil edirdi. Dövlət büdcəsinin xərc maddəsində təhsilə ayrılan qədər vəsait ayrıldığı ikinci sahə



yoxdur. Buna baxmayaraq, vəsait çatışmamazlığı həmişə özünü büruzə verirdi. Mövcud vəziyyət bu sahədə radikal islahatlar aparmadan keçinməyin mümkün olmadığını göstərirdi. Burada radikal islahatlar aparılmalı, onların radikallaşmasının mexanizmləri qaydaları və prinsipləri müəyyən edilməlidi. Bu ayrıca təhlilin mövzusu ola bilər.

Büdcə xərclərinin təhlili demək olar ki, hər bir xərc maddələrini artırmağın zəruri olduğunu göstərir. Lakin büdcə xərclərinin büdcə gəlirlərindən asılı olduğunu unutmamalıyıq. Hamımız biləliyik ki, xərcləri artırmaq üçün dövlət büdcəsinin gəlirləri artırılmalıdır. Yəni əvvəl büdcəyə yığmaq, sonra isə onu istifadə etmək olar.

**Dövlət büdcəsinin kəsiri:**

Dövlət büdcəsi kəsirinin yuxarı həddi, yəni büdcə xərclərinin büdcə gəlirləri ilə örtülməyən hissəsi 2001-ci ilə nisbətən 2002-ci ildə 70 milyard manat azalmış və 350 milyard manat təşkil etmişdir. Büdcə kəsirinin ÜDM-ə nisbəti əvvəlki illərə nisbətən ən aşağı həddə enmiş, 1,2 faiz təşkil etmişdir. Bu kəsirsiz büdcə formalaşdırmaq istiqamətində ciddi addım hesab olunmalıdır. Büdcə kəsirinin örtülmə mənbələrinə gəldikdə isə onlar inflyasiya doğurmayan mənbələr hesabına formalaşdırılmışdır. Daha dəqiq desək, 2002-ci ildə dövlət büdcəsi kəsirinin 150 milyard manatı dövlət mülkiyyətinin özəlləşdirilməsi, 36 milyard manatı qısamüddətli xəzinə öhdəlikləri, 20 milyard manatı istiqrazlar buraxılışından daxilolmalar, 144 milyard manatı isə xarici kreditlər hesabına (SAK II) örtülməsi nəzərdə tutulmuşdu. Büdcə kəsirinin 206 milyard manatı daxili, 144 milyard manatı isə xarici maliyyələşmə mənbələri hesabına örtülmüşdür. Deməli, əvvəlki illərdə olduğu kimi, 2002-ci ildə də Milli Bankın pul emissiyası olmadan dövlət büdcəsi kəsirinin bağlanması nəzərdə tutulmamışdır.

Dövlət büdcəsinin kəsiri inflyasiya yaratmayan mənbələr hesabına örtüləcəyi barədə qanun qəbul olunduğu şəraitdə «Exo» qəzetinin 2001-ci il 19 dekabr tarixli sayında 2002-ci ildə pul emissiyası baş verəcəyi və ərzaq məhsulları qiymətinin kütləvi

surətdə artacağı haqqında heç bir əsas olmadan qışqırıqlı sensasiya yaratmağa cəhd göstərilmişdir. Bu, fikrimizcə, avanturadan başqa bir şey deyildir. Ona görə də bu barədə fikri dərinləşdirməyə lüzum görmürük.

Yekun olaraq bildiririk ki, Azərbaycan Respublikasının 2002-ci il dövlət büdcəsi Milli Məclisin bütün komissiyalarında müzakirə edilmişdir.

İclaslara dövlət büdcəsi gəlirinin formalaşması ilə məşğul olan nazirliklərin, iri vergi ödəyicilərinin, sahibkarlıq fəaliyyəti ilə məşğul olanların, o cümlədən xarici investisiyalı müəssisələrin, habelə büdcə vəsaitlərindən istifadə edən nazirliklərin, komitələrin, konsernlərin, şirkətlərin və s. nümayəndələrini dəvət etmişdik. İclaslarda Azərbaycan Respublikasının 2002-ci il dövlət büdcəsinin layihəsi və onunla bağlı sənədlər Milli Məclisdə 50 saatdan çox müzakirə olundu və deputatların konstruktiv təklifləri nəzərə alınmaqla xeyli dəyişikliklər edilməklə qəbul olundu.

İclaslarda göstərildi ki, 2002-ci ilin dövlət büdcəsi reallığa əsaslanırdı. Büdcənin bütün makroiqtisadi göstəricilərində, gəlirlər və xərclər maddələrində dinamikanın olduğu xüsusi qeyd edildi. Qeyd edildi ki, dövlət büdcəsi iqtisadi inkişafa, rəqabətqabiliyyətli məhsullar istehsalının artımına, məşğulluq və yoxsulluq problemlərinin həllinə istiqamətlənmişdir. Bu ölkə rəhbərinin, dövlət büdcəsində konkret ifadəsini tapmış siyasətinin xalqın, ölkənin maraqlarını ifadə etdiyini, yeridilən iqtisadi siyasət strategiyasının həyatiliyini göstərir.

Son illər Milli Məclisdə müsbət ənənə yaranmışdır. Respublikamızda 1997-ci ildən yeni maliyyə ilinə təsdiq edilmiş dövlət büdcəsi ilə başlamaq ənənəyə çevrilmişdir.

Milli Məclisin deputatları 2001-ci ildə də bu ənənəyə sadiq qaldılar. Dövlət büdcəsini ətraflı müzakirə edib, qanunla müəyyən edilmiş müddətdə qəbul olunmasına səs verdilər.

Milli Məclis dövlət büdcəsini vaxtında təsdiq etməklə hakimiyyət strukturlarının büdcənin icrası sahəsində öz işlərini vaxtında yerinə yetirmələrinə şərait yaratmışdır. Məlum olduğu kimi,



dövlət büdcəsi təsdiq ediləndən sonra onun icrası üçün bir sıra sənədlər hazırlanmalı və təsdiq edilməlidir.

Ən əvvəl, **«Azərbaycan Respublikasının 2002-ci il dövlət büdcəsi haqqında»** Azərbaycan Respublikasının Qanununun tətbiqi haqqında Fərman hazırlanmalıdır. Dövlət büdcəsi xərclərinin sahədaxili bölgüsü aparılmalı, büdcə vəsaiti hesabına maliyyələşən yarımçıq qalmış sosial obyektlərin ən zəruriləri müəyyənləşdirilməli və Nazirlər Kabineti 2002-ci ilin tikinti proqramını hazırlamalı və təsdiq etməli idi.

Maliyyə Nazirliyi büdcənin gəlirləri və xərclərinin rüblər üzrə bölgüsünü aparmalı, onları iri vergi ödəyicilərinə, eləcə də büdcə vəsaitindən istifadə edən ən mühüm təşkilatlara çatdırmalı idi. Bir sözlə, icra strukturları 2002-ci il dövlət büdcəsinin icrası ilə bağlı çox saylı işlər görməli idi. Təbii ki, bütün bu işləri dövlət büdcəsi təsdiq olunmadan görmək mümkün deyildi.

Bütün bu deyilənlər dövlət hakimiyyətinin mühüm qollarından biri olan Milli Məclisin öz funksiyalarını Azərbaycan Respublikası Konstitusiyasında və «Dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanununda müəyyən olunduğu kimi yerinə yetirdiyinə, ölkənin sosial-iqtisadi inkişafında fəal rol oynadığına sübutdur.

2002-ci ildə dövlət büdcəsinin mədaxil proqnozu 4780,0 mlrd. manata qarşı 4551,2 mlrd. manat və ya 95,2 faiz icra olunmuşdur ki, bu da 2001-ci ilə nisbətən 627,1 mlrd. manat və ya 16,0 faiz çoxdur.

Dövlət büdcəsinin gəlirləri 2002-ci ildə istehsal olunmuş Ümumi Daxili Məhsulun 15,4 faizini təşkil etməklə 2001-ci illə müqayisədə 0,7 bənd çox olmuşdur.

Büdcə daxilolmalarının 74,7 faizi və ya 3399,7 mlrd. manatı Vergilər Nazirliyi, 20,3 faizi və ya 921,8 mlrd. manatı Dövlət Gömrük Komitəsi, 0,2 faizi və ya 11,3 mlrd. manatı İqtisadi İnkişaf Nazirliyi tərəfindən təmin edilmiş, 4,8 faizi və ya 218,4 mlrd. manatı isə digər mənbələrdən daxil olmuşdur.

Vergilər Nazirliyi tərəfindən proqnoza 93,9 faiz əməl olunmuş, büdcəyə nəzərdə tutulduğundan 220,3 mlrd. manat az,

2001-ci illə müqayisədə isə 502,1 mlrd. manat və ya 17,3 faiz çox vəsait təmin edilmişdir.

Vergi orqanlarının xətti ilə toplanmış vəsaitin 62,0 faizi və ya 2106,3 mlrd. manatı dövlət müəssisələrinin payına düşmüşdür ki, bu da 2001-ci illə müqayisədə 339,7 mlrd. manat və ya 19,2 faiz çoxdur. Dövlət müəssisələri üzrə artımın 94,7 faizi və ya 321,6 mlrd. manatı Dövlət Neft Şirkətinin hesabına olmuşdur.

2002-ci ildə dövlət büdcəsinə vergi orqanları vasitəsilə toplanmış vəsaitin 48,8 faizini və ya 1660,1 mlrd. manatını Dövlət Neft Şirkəti təmin etmişdir ki, bu da 2001-ci ilə nisbətən 24,0 faiz çoxdur. 2002-ci ildə Dövlət Neft Şirkətinin hesablarına daxil olmuş vəsaitlərin 27,5 faizi büdcəyə ödənilmişdir.

Dövlət Neft Şirkəti istisna olmaqla, digər 7 iri vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 2001-ci ilə nisbətən 9,4 faiz çox və ya 337,0 mlrd. manat vəsait köçürülmüşdür.

Dövlət büdcəsinə vergi orqanları xətti ilə toplanmış vəsaitin 2,9 faizi və ya 100,2 mlrd. manatı Dövlət Dəmir Yolu İdarəsinin, 2,5 faizi və ya 86,0 mlrd. manatı Rabitə Nazirliyinin, 1,3 faizi və ya 44,7 mlrd. manatı «Azəriqaz» Səhmdar Cəmiyyətinin, 1,2 faizi və ya 39,9 mlrd. manatı «Azərenerji» Səhmdar Cəmiyyətinin, 0,9 faizi və ya 30,1 mlrd. manatı Xəzər Dəniz Gəmiçiliyinin, 0,8 faizi və ya 28,1 mlrd. manatı «Azərbaycan Hava Yolları» Dövlət Konserninin, 0,2 faizi və ya 8,0 mlrd. manatı «Azərkimya» Dövlət Şirkətinin, 3,2 faizi və ya 109,5 mlrd. manatı digər dövlət müəssisələrinin payına düşmüşdür. 2001-ci ilə nisbətən büdcəyə «Azəriqaz» Səhmdar Cəmiyyəti 88,8 faiz, Rabitə Nazirliyi 24,7 faiz, Dövlət Dəmir Yolu İdarəsi 12,0 faiz, «Azərbaycan Hava Yolları» Dövlət Konserni 4,4 faiz çox, «Azərenerji» Səhmdar Cəmiyyəti 30,5 faiz, «Azərkimya» Dövlət Şirkəti 19,9 faiz az vergi ödəmişlər.

Özəl sektordan dövlət büdcəsinə 1293,4 mlrd. manat vəsait daxil olmuşdur ki, bu da 2001-ci ilə nisbətən 14,4 faiz və ya 162,4 mlrd. manat çoxdur.

Xarici investisiyalı müəssisələr tərəfindən büdcəyə 2001-ci illə



müqayisədə 43,7 mlrd. manat (7,7 faiz) çox və ya 614,4 mlrd. manat vəsait təmin olunmuşdur. Bu vəsaitin 56,0 faizi və ya 344,2 mlrd. manatı hasilatın pay bölgüsü sazişləri hesabına olmuşdur.

2002-ci ildə yerli özəl qurumlar tərəfindən büdcəyə 679,0 mlrd. manat vəsait ödənilmişdir ki, bu da 2001-ci ilə nisbətən 21,2 faiz və ya 118,7 mlrd manat çoxdur.

Respublikamızın 66 şəhər və rayonundan 40-ı üzrə vergi orqanları tərəfindən proqnozun artıqlaması ilə yerinə yetirilməsi təmin edildiyi halda, 26-sı (Bakı, Yevlax, Mingəçevir, Sumqayıt, Şəki, Ağsu, Ağcabədi, Biləsuvar, Qusar, Dəvəçi, İsmayıllı, Göyçay, Saatlı, Sabirabad, Salyan, Ucar, Cəlilabad, Şuşa, Şəmkir və s.) üzrə proqnoz yerinə yetirilməmişdir.

Bakı şəhəri istisna olmaqla, respublikanın digər şəhər və rayonları üzrə gəlir proqnozu 101,9 faiz icra olunmaqla büdcəyə 200,5 mlrd. manat vəsait toplanmışdır.

Bakı şəhərində vergi orqanları tərəfindən büdcəyə proqnozla nəzərdə tutulan 3423,2 mlrd. manata qarşı 3199,4 mlrd. manat və ya 223,9 mlrd. manat az vəsait təmin olunmuşdur ki, bu da dövlət büdcəsinin gəlir proqnozunun bütövlükdə kəsirlə yerinə yetirilməsi ilə nəticələnmişdir.

2002-ci ildə Dövlət Gömrük Komitəsi proqnoza 100,2 faiz əməl edərək büdcəyə 921,8 mlrd. manat vəsait təmin etmişdir ki, bu da 2001-ci ilə nisbətən 99,6 mlrd. manat və ya 12,1 faiz çoxdur.

2002-ci ildə vergi növləri üzrə büdcə gəlirlərinin vəziyyəti aşağıdakı kimi olmuşdur.

Əlavə dəyər vergisi 1635,0 mlrd. manat proqnoza qarşı 1674,4 mlrd. manat və ya 102,4 faiz icra olunmuşdur. Bunun 1072,3 mlrd. manatı vergi orqanlarının (2001-ci ilə nisbətən 44,0 faiz çox), 602,1 mlrd. manatı gömrük orqanlarının (2001-ci ilə nisbətən 15,4 faiz çox) xətti ilə yığılmışdır. Büdcə gəlirlərində əlavə dəyər vergisinin xüsusi çəkisi 36,8 faizə çatmışdır ki, bu da 2001-ci ilə nisbətən 4,5 bənd yuxarıdır.

Ümumi Daxili Məhsulun və idxalın artımı, sadələşdirilmiş sistem üzrə verginin vergitutma obyektinin aylıq gəlirinin vergi

tutulmayan məbləğinin 1 min mislindən 300 mislinə endirilməsi hesabına əlavə dəyər vergisinin tətbiqi dairəsinin genişləndirilməsi əlavə dəyər vergisi üzrə daxilolmanın artımını təmin etmişdir.

Aksiz vergisi 495,0 mlrd. manat proqnoza qarşı 433,3 mlrd. manat (87,5 faiz) və ya 61,7 mlrd. manat az icra olunmuşdur. Vəsaitin 397,4 mlrd. manatı vergi orqanlarının, 35,9 mlrd. manatı isə gömrük orqanlarının xətti ilə toplanmışdır. Vergi orqanlarının xətti ilə toplanmış aksizlərin 94,5 faizi və ya 375,4 mlrd. manatı Dövlət Neft Şirkətinin hesabına olmuşdur.

Mənfəət vergisi 700,0 mlrd. manat proqnoza qarşı 739,1 mlrd. manat (105,6 faiz) və ya 39,1 mlrd. manat çox icra olunmuşdur ki, bu da 2001-ci illə müqayisədə 150,9 mlrd. manat (25,6 faiz) çoxdur. Bu vergi üzrə daxilolmanın artımı müəssisə və təşkilatların mənfəətinin əvvəlki illə müqayisədə artması ilə bağlı olmuşdur. Bununla yanaşı, 2002-ci ildə investisiyalara görə mənfəətdən vergi üzrə verilən güzəştlərin strukturunun dəyişilməsi vergi bazasının genişlənməsinə müsbət təsir göstərmişdir.

Fiziki şəxslərdən gəlir vergisi üzrə proqnoza 103,5 faiz əməl olunmaqla büdcəyə 548,3 mlrd. manat vəsait ödənilmişdir ki, bu da 2001-ci illə müqayisədə 74,7 mlrd. manat və ya 15,8 faiz çoxdur.

2002-ci ildə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərlə «digər yardımların» güzəştlərdən çıxarılması və himayəsində 3 və daha çox azyaşlı uşağı olanlara güzəştin gəlir vergisinə cəlb olunmayan minimumun 3 misldən 1 misədək azaldılması daxilolmaların səviyyəsinə müsbət təsir etmişdir. Eyni zamanda əmək haqlarının, neft sazişləri çərçivəsində xarici şirkətlərdə vergi ödəyən fiziki şəxslərin sayının artması daxilolmaların səviyyəsini artırmışdır.

Mədən vergisi üzrə proqnoz 59,5 faiz icra olunaraq büdcəyə 250,1 mlrd. manat vəsait ödənilmişdir ki, bu da 2001-ci ilə nisbətən 12,5 mlrd. manat və ya 5,3 faiz çoxdur. Mədən vergisi əsasən neft sektorundan ödənildiyi üçün daxilolmanın səviyyəsi də ilk növbədə Dövlət Neft Şirkəti tərəfindən ödənilən vəsaitlərin



məbləğindən asılı olmuşdur. 2002-ci ildə dövlət büdcəsinə ödənilmiş mədən vergisinin 92,4 faizi və ya 231,0 mlrd. manatı Dövlət Neft Şirkətinin payına düşmüşdür.

Torpaq və əmlak vergiləri üzrə 135,0 mlrd. manat proqnoza qarşı icra 143,8 mlrd. manat və ya 106,5 faiz olmuşdur ki, bu da 2001-ci ilə nisbətən 29,6 mlrd. manat və ya 26,0 faiz çoxdur.

Sadələşdirilmiş sistem üzrə vergi 8,0 mlrd. manat proqnoza qarşı 12,6 mlrd. manat (158,2 faiz) və ya 4,6 mlrd. manat çox icra olunmuşdur.

2002-ci ildə yol vergisi üzrə 10,0 mlrd. manat proqnoza qarşı 7,1 mlrd. manat (70,9 faiz) və ya 2,9 mlrd. manat az icra olunmuşdur.

2002-ci ildə Vergi Məcəlləsində edilmiş əlavə və dəyişikliklərlə yol vergisinin dərəcələri respublikaya daxil olmuş yük avtonəqliyyat vasitələrinin yük götürmə qabiliyyətinə uyğun aşağı salınmışdır.

2002-ci ildə dövlət rüsumu üzrə proqnoz 92,6 faiz icra olunmuş, büdcəyə nəzərdə tutulduğundan 8,5 mlrd. manat az vəsait ödənilmişdir.

01 yanvar 2002-ci ildən qüvvəyə minmiş «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikası Qanunu ilə bəzi rüsum dərəcələri aşağı salınmışdır. Eyni zamanda «Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı azaldılmışdır.

2002-ci ildə vergi olmayan sair gəlirlər üzrə proqnoza 64,1 faiz əməl olunmaqla büdcəyə nəzərdə tutulduğundan 72,4 mlrd. manat az və ya 129,6 mlrd. manat vəsait ödənilmişdir ki, bu da 2001-ci ilə nisbətən 17,9 mlrd. manat (16,0 faiz) çoxdur.

Vergi olmayan sair gəlirlərin əsas hissəsini respublikada istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı kontrakt qiyməti ilə respublikadaxili müəssisə topdansatış qiyməti arasındakı fərqin büdcəyə ödənilməsi təşkil etmişdir.

Gömrük rüsumları üzrə proqnoz 95,4 faiz icra edilərək dövlət büсəsinə 276,8 mlrd. manat vəsait daxil olmuşdur ki, bu da 2001-ci ilə nisbətən 16,1 mlrd. manat və ya 6,2 faiz çoxdur.

Gömrük rüsumları üzrə daxilolmanın vəziyyəti ilk növbədə idxalla və onun strukturundakı dəyişikliklərlə bağlıdır. Belə ki, 2002-ci ildə idxalın səviyyəsinin 2001-ci ilə nisbətən 16,4 faiz artmasına baxmayaraq, artımın əsas hissəsini gömrük rüsumuna cəlb olunmayan idxal təşkil etmişdir. Bununla yanaşı, azad ticarət zonasına daxil olmuş dövlətlər arasında ticarət əməliyyatlarının gömrük rüsumlarına cəlb edilməməsi də gömrük rüsumlarının səviyyəsinə mənfi təsir etmişdir.

İqtisadi İnkişaf Nazirliyi tərəfindən dövlət əmlakının icarəyə verilməsindən icarə haqqı şəklində büdcəyə proqnozun 113,2 faizi həcmində və ya 11,3 mlrd. manat vəsait təmin edilmişdir.

Azərbaycan Respublikası Milli Bankın mənfəətindən 140,0 mlrd. manat proqnoza qarşı büdcəyə 120,0 mlrd. manat vəsait daxil olmaqla icra 85,7 faiz təşkil etmişdir.

Avropa Birliyinin Azərbaycan Respublikasına verdiyi qrant şəklində büdcəyə 56,5 mlrd. manat vəsait ödənilmişdir ki, bu da nəzərdə tutulduğundan 9,5 mlrd. manat və ya 20,3 faiz çoxdur.

2002-ci ildə proqnozla nəzərdə tutulan 43,0 mlrd. manat sair gəlirlərdən (məqsədli büdcə fondlarının gəlirləri, büdcədən verilmiş kreditlər üzrə daxilolmalar və s.) büdcəyə 41,8 mlrd. manat daxil olmuşdur ki, bu da 2001-ci illə müqayisədə 11,0 mlrd. manat və ya 36,0 faiz çoxdur.

Büdcədən verilmiş kreditlər üzrə daxilolmalar 3,0 mlrd. manat proqnoza qarşı 4,9 mlrd. manat icra edilmişdir.

Dövlət zəmanəti ilə Beynəlxalq bank tərəfindən verilmiş kreditlər üzrə borclu təşkilatlardan daxilolmalar üzrə icra 13,4 mlrd. manata qarşı 0,9 mlrd. manat olmuşdur.

«Aqrarkredit» Qapalı Səhmdar Cəmiyyətinin problemli kreditləri üzrə nəzərdə tutulmuş 5,0 mlrd. manatdan dövlət büdcəsinə vəsait daxil olmamışdır.

Təkrar borc sazişləri üzrə büdcəyə 8,9 mlrd. manat və ya nəzərdə tutulduğundan 3,9 mlrd. manat çox vəsait daxil olmuşdur.



Gürcüstan Respublikasına verilmiş kreditlər üzrə daxilolmalar nəzərdə tutulduğundan 1,2 mlrd. manat çox olmaqla 3,9 mlrd. manat təşkil etmişdir.

Dövlət büdcəsinə məqsədli büdcə fondlarının gəlirləri üzrə 2,9 mlrd. manat vəsait daxil olmuşdur.

Aksiz markalarının satışından daxilolmalar 7,2 mlrd. manat təşkil etmişdir ki, bu da nəzərdə tutulduğundan 2,7 mlrd. manat çoxdur.

2002-ci ildə dövlət büdcəsinin xərcləri 5130,0 mlrd. manat proqnoza qarşı 4658,8 mlrd. manat və ya 90,8 faiz icra edilsə də, 2001-ci illə müqayisədə 621,3 mlrd. manat və ya 15,4 faiz çox olmuşdur.

Xərclərin az icra olunmasının əsas səbəblərindən biri Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi xətti ilə 220,7 mlrd. manatadək vəsaitin və ya illik gəlirlərin 4,6 faizinin yalnız hesabat dövrünün axırıncı ayının 24-30-da Maliyyə Nazirliyinin xəzinə hesabına köçürülməsi ilə bağlı olmuşdur. 01 yanvar 2003-cü il tarixə xəzinə hesabında 243,7 mlrd. manat istifadə olunmamış vəsait qalmışdır. Xərclərin az icrasının digər əsaslı səbəbi 2002-ci ildə Təhsil, Səhiyyə, Hüquq-mühafizə və digər xərc bölmələri üzrə əmək haqqının artımı üçün nəzərdə tutulmuş vəsaitdən istifadə edilməməsi olmuşdur.

Dövlət büdcəsinin xərcləri 2002-ci ildə istehsal olunmuş Ümumi Daxili Məhsulun 15,7 faizini təşkil etmişdir ki, bu da 2001-ci ilə nisbətən 0,5 bənd çoxdur.

Əvvəlki illərdə olduğu kimi 2002-ci ildə də dövlət büdcəsinin xərclərinin icrası zamanı vəsaitlər ilk növbədə əmək haqqı, əmək haqqına üstəlik və onlara bərabər tutulan xərclərin maliyyələşdirilməsinə, sonra isə digər xərc maddələrinə yönəldilmişdir.

Xərclərinin icrası zamanı sosialyönümlü tədbirlərin maliyyələşdirilməsinə üstünlük verilməklə bu məqsədə daxil olan vəsaitin 63,1 faizi və ya 2938,4 mlrd. manatı yönəldilmişdir ki, bu da 2001-ci illə müqayisədə 908,6 mlrd. manat və ya 44,8 faiz çoxdur.

Elm xərclərinə 57,1 mlrd. manat vəsait yönəldilməklə icra 92,6 faiz (2001-ci illə müqayisədə 10,1 mlrd. manat və ya 21,5 faiz çox). Müdafiə xərclərinə 604,6 mlrd. manat vəsait yönəldilməklə icra 99,4 faiz (2001-ci illə müqayisədə 71,8 mlrd. manat və ya13,5 faiz çox). Təhsil xərclərinə 956,2 mlrd. manat vəsait yönəldilməklə icra 88,4 faiz (2001-ci illə müqayisədə 25,1 mlrd. manat və ya 2,7 faiz çox). Səhiyyə xərclərinə 224,1 mlrd. manat vəsait yönəldilməklə icra 82,9 faiz (2001-ci illə müqayisədə 14,0 mlrd. manat və ya 6,6 faiz çox). Sosial təminat xərclərinə 225,3 mlrd. manat vəsait yönəldilməklə icra 95,4 faiz (2001-ci illə müqayisədə 9,7 mlrd. manat və ya 4,5 faiz çox). Mədəniyyət, incəsənət, kütləvi informasiya, bədən tərbiyyəsi və din sahəsində fəaliyyətin xərclərinə 116,6 mlrd. manat vəsait yönəldilməklə icra 90,8 faiz (2001-ci illə müqayisədə 6,7 mlrd. manat və ya 6,1 faiz çox) olmuşdur.

Sosial müdafiə xərcləri 690,0 mlrd. manat proqnoza qarşı 725,8 mlrd. manat və ya 105,2 faiz icra olunmuşdur. Artıq icra təhsil, səhiyyə, mədəniyyət və digər bölmələr üzrə əmək haqqı üçün nəzərdə tutulan artım və buna hesablanan əmək haqqına üstəlik xərcinin istifadə edilməməsi hesabına olmuşdur. Ona görə də «Azərbaycan Respublikasının 2002-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinə müvafiq olaraq nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı 35,8 mlrd. manat fərq qədər mərkəzləşdirilmiş xərclərdən Dövlət Sosial Müdafiə Fonduna transfertin məbləği artırılmışdır.

Mənzil-kommunal təsərrüfatı xərcləri üzrə 95,3 mlrd. manat proqnoza qarşı icra 100,0 mlrd. manat və ya 104,9 faiz olmuşdur. Artıq icra Naxçıvan Muxtar Respublikasında mənzil-kommunal təsərrüfatı tədbirlərinə proqnozla nəzərdə tutulduğundan əlavə vəsait xərc edilməsi hesabına olmuşdur.

Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq xərcləri üzrə icra 248,5 mlrd. manat proqnoza qarşı 226,6 mlrd. manat və ya 91,2 faiz olmuşdur ki, bu da 2001-ci ilə nisbətən 55,8 mlrd. manat və ya 32,7 faiz, sənaye və tikinti xərcləri üzrə icra 18,2 mlrd.manat



proqnoza qarşı 16,1 mlrd. manat və ya 88,5 faiz olmaqla 2001-ci ilə nisbətən 2,3 mlrd. manat və ya 16,7 faiz, dövlət investisiya xərcləri üzrə icra 164,7 mlrd. Manat proqnoza qarşı 159,7 mlrd. manat və ya 97,0 faiz olmaqla 2001-ci ilə nisbətən 33,3 mlrd. manat və ya 26,4 faiz, nəqliyyat və rabitə xərcləri üzrə icra 171,6 mlrd. manat proqnoza qarşı 168,0 mlrd. manat və ya 97,9 faiz olmaqla 2001-ci ilə nisbətən 49,7 mlrd. manat və ya 42,1 faiz, iqtisadi fəaliyyətlə bağlı digər xərclər üzrə icra 52,2 mlrd. manat proqnoza qarşı 13,7 mlrd. manat və ya 26,2 faiz icra olmaqla 2001-ci ilə nisbətən 10,5 mlrd. manat və ya 4,0 dəfə çox olmuşdur.

İqtisadi fəaliyyətlə bağlı digər xərclər üzrə icranın xeyli kəsirdə qalmasına səbəb iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı xərclər və dövlət əmlakının özəlləşdirilməsi prosesində müstəqil maliyyə məsləhətçilərinin cəlb edilməməsi, özəlləşdirmə ilə bağlı informasiya təminatının təşkili və müəssisələrin özəlləşdirmə qabağı sağlamlaşdırılması xərcləri üçün nəzərdə tutulmuş vəsaitlərdən istifadə edilməməsi olmuşdur.

Beynəlxalq təşkilatlara üzvlük haqqı xərci üzrə icra 57,5 mlrd. manat proqnoza qarşı 27,0 mlrd. manat və ya 47,0 faiz olmuşdur ki, bu da əsasən üzvü olduğumuz bəzi beynəlxalq təşkilatlar tərəfindən Respublikanın üzvülük haqqı ödəmələrindən azad etmələri və hər bir təşkilatla əlaqələrin xüsusiyyətlərindən asılı olaraq ödənişlərin həyata keçirilməsi ilə bağlı olmuşdur.

Dövlətin xarici borcları üzrə 121,0 mlrd. manat proqnoza qarşı icra 50,7 mlrd. manat və ya 41,9 faiz olmuşdur. Bu əsasən 2002-ci il ərzində bir sıra layihələr üzrə xərclərin dövlət zəmanəti ilə kredit almış təşkilatların öz vəsaitləri hesabına ödənilməsi nəticəsində olmuşdur.

Banklarla hesablaşma xərcləri üzrə icra 25,0 mlrd. manat proqnoza qarşı 22,4 mlrd. manat (89,7 faiz) və ya 2,6 mlrd. manat az olmuşdur.

Dövlətin daxili borcunun ödənilməsi ilə bağlı xərclər üzrə icra 111,2 mlrd. manata qarşı 108,0 mlrd. manat və ya 97,2 faiz olmuşdur.

2002-ci ildə Ehtiyat Fondu üzrə nəzərdə tutulan 75,5 mlrd. manat proqnoza qarşı icra 74,7 mlrd. manat və ya 99,0 faiz olmuşdur. 2002-ci il ərzində Ehtiyat Fondundan dövlət büdcəsində nəzərdə tutulmayan bir sıra xərclərin, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklərin edilməsi məqsədilə 24 avqust 2002-ci il tarixdə referendumun keçirilməsi, 2002-ci ildə baş vermiş təbii fəlakətlərin vurduğu zərərlərin aradan qaldırılması, yol və körpülərin yenidən qurulması və digər dövlət tədbirlərinin maliyyələşdirilməsi üçün istifadə olunmuşdur.

Məqsədli büdcə fondlarının xərcləri üzrə icra 2,8 mlrd. manata qarşı 2,1 mlrd. manat və ya 75,9 faiz olmuşdur.

Yerli büdcələrə ayrılan dotasiya üzrə nəzərdə tutulan 25,0 mlrd. manat bütövlükdə bələdiyyələrin hesabına köçürülmüşdür.

2002-ci ildə faktiki xərclərin 1554,9 mlrd. manatı və ya 33,4 faizi əmək haqqı və əmək haqqına üstəlik xərclərinə (2001-ci ilə nisbətən 346,8 mlrd. manat və ya 28,7 faiz çox), 360,3 mlrd. manatı və ya 7,7 faizi dərman və ərzaq məhsullarının alınmasına (2001-ci ilə nisbətən 232,3 mlrd. manat və ya 2,8 dəfə çox), 1023,3 mlrd. manatı və ya 22,0 faizi pensiya, müavinət, təqaüd və əhaliyə sair ödənişlərin maliyyələşdirilməsinə (2001-ci ilə nisbətən 329,5 mlrd. manat və ya 47,5 faiz çox), 72,5 mlrd. manatı və ya 1,6 faizi əsas vəsaitlərin alınmasına (2001-ci ilə nisbətən 52,6 mlrd. manat və ya 3,6 dəfə çox), 174,8 mlrd. manatı və ya 3,8 faizi əsaslı tikintiyə (2001-ci ilə nisbətən 48,4 mlrd. manat və ya 38,0 faiz çox), 165,5 mlrd. manatı və ya 3,6 faizi əsaslı təmirə (2001-ci ilə nisbətən 39,9 mlrd. manat və ya 31,8 faiz çox) yönəldilmişdir. Qeyd olunan xərclərə bütövlükdə 3351,3 mlrd. manat vəsait yönəldilmişdir ki, bu da kassa xərcinin 71,9 faizinə bərabər olmaqla 2001-ci ilə nisbətən 1049,5 mlrd. manat və ya 45,6 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikasın, respublika tabeli şəhər və rayonların yerli xərcləri üzrə 1415,4 mlrd. manat proqnoza qarşı icra 1268,7 mlrd. manat və ya 89,6 faiz olmaqla 2001-ci illə müqayisədə 54,3 mlrd. manat və ya 4,5 faiz çoxdur.

Bütövlükdə dövlət büdcəsi xərclərinin kəsrlə icra olunmasına baxmayaraq, 2002-ci ildə müdafiə olunan xərclər, əsasən də əmək haqqı və pensiyalar üzrə borc qalmamışdır.



2003-cü il 01 yanvar tarixinə dövlətin daxili borcu 562,8 mlrd. manat, o cümlədən dövlət qısamüddətli istiqraz vərəqələri üzrə 140,0 mlrd. manat, Birləşmiş Universal Səhmdar Bankının zəruri kapitala və likvidliyə olan tələbatını ödəmək məqsədilə buraxılmış dövlət qiymətli kağızları üzrə 99,8 mlrd. manat, mərkəzləşdirilmiş kredit resursları üzrə Azərbaycan Respublikası Milli Bankının silinmiş əsas borcu məbləğində yerləşdirilmiş dövlət qiymətli kağızları üzrə 317,2 mlrd. manat, 2001-ci il dövlət daxili uduşlu istiqraz vərəqələri üzrə 5,8 mlrd. manat təşkil etmişdir.

1994-cü il dövlət 150 faizli istiqraz vərəqələrinin, dövlət nəğdsiz kuponlu istiqrazların, şəxsiyyət vəsiqələrinin hazırlanması, məlumataxtarış sisteminin yaradılması və Səhiyyə Nazirliyinin 1 nömrəli klinik xəstəxanasının yenidən qurulması üçün Beynəlxalq Bankdan alınmış kreditin və dövlət qısamüdətli istiqraz vərəqələri üzrə borcun bir hissəsinin ödənişi hesabına daxili dövlət borcunun həcmi 2001-ci illə müqayisədə 84,9 mlrd. manat azaltmışdır.

2002-ci ildə Azərbaycan Respublikasının daxili dövlət borcunun qanunvericiliklə təsdiq edilmiş 200,0 mlrd. manat limiti il ərzində gözlənilmişdir.

2003-cü il 01 yanvar tarixinə beynəlxalq maliyyə-kredit və digər kreditor təşkilatlarla ölkədə həyata keçirilən iqtisadi islahatların dəstəklənməsi və ayrı-ayrı prioritet hesab edilən layihələrin maliyyələşdirilməsi məqsədilə 2033,0 milyon ABŞ dolları məbləğində kredit sazişləri imzalanmışdır. Bu sazişlər əsasında istifadə olunmuş kreditlər üzrə respublikanın xarici dövlət borcunun ümumi məbləği borclu təşkilatların təqdim etdiyi hesabat məlumatlarına əsasən 1356,0 milyon ABŞ dolları olmuşdur.

İmzalanmış sazişlər üzrə istifadə edilmiş kreditlərə görə xarici dövlət borcu Ümumi Daxili Məhsulun (ÜDM) 23 faizini, malların və xidmətlərin ixracına olan nisbəti isə 61 faizini təşkil e tmişdir ki, bu hədlər də ümumən beynəlxalq borclanma təcrübəsində normal hesab edilir.

Digər MDB ölkələri ilə müqayisədə adambaşına düşən xarici dövlət borcuna (166 ABŞ dolları) və borcun ÜDM-ə nisbətinə görə Azərbaycan ən aşağı yerlərdə duran ölkələr sırasındadır.

Xarici dövlət borcunun 26 faizi 5 ilə qədər, 24 faizi 5 ildən 10 ilə qədər, 7 faizi 10 ildən 20 ilə qədər, 43 faizi isə 20 ildən yuxarı olan müddətlərdə kreditorlara qaytarılmalıdır.

Kreditlərin istifadə istiqamətləri üzrə bölgüsündə elektrik enerjisi sektorunun inkişafı və bərpasına ayrılan kredit ümumi kreditlərin 24,0 faizini, nəqliyyat infrastrukturunun bərpasına ayrılan kredit 11,0 faizini, irriqasiya və kənd təsərrüfatına ayrılan kredit 9,0 faizini, sosial sahələrin inkişafına yardım üçün ayrılan kreditlər isə 4,0 faizini təşkil etmişdir. Hökumətin həyata keçirdiyi iqtisadi islahatların dəstəklənməsi üçün Dünya Bankı və Beynəlxalq Valyuta Fondundan alınan kreditlərin məbləği isə xarici dövlət borcunun 35,0 faizinə bərabərdir.

«Azərbaycan Respublikasının 2002-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu ilə 2002-ci il üçün xarici dövlət borclanma limiti 955,0 mlrd. manat (200,0 mln. ABŞ dolları) müəyyən edilmiş, faktiki olaraq 70,0 mln. ABŞ dolları məbləğində kredit sazişləri imzalanmışdır.

Bütövlükdə imzalanmış kredit sazişləri üzrə alınmış kreditlərdən 2002-ci ildə 225,0 mln. ABŞ dolları məbləğində istifadə edilmişdir ki, bu da 2001-ci illə müqayisədə 14,0 faiz və ya 27,5 mln. ABŞ dolları çoxdur.

2002-ci il ərzində dövlət büdcəsindən yönəldilən vəsaitlər də nəzərə alınmaqla xarici dövlət borcuna xidmətlə əlaqədar 117,4 mln. ABŞ dolları məbləğdə ödənişlər həyata keçirilmişdir ki, bu da 2001-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,0 faiz çoxdur. Bu məbləğin 97,2 mln. ABŞ dolları əsas borc kimi, 20,2 mln. ABŞ dolları isə kreditlərə hesablanmış faizlərə görə həyata keçirilən ödənişlərdir.

2002-ci il dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsinə 210,3 mlrd. manat vəsait cəlb edilmiş, faktiki kəsir isə 107,6 mlrd. manat olmuşdur.



### 4.4. 2003-cü il dövlət büdcəsinin fərqləndirici xüsusiyyətləri

Ölkə Prezidenti dövlət büdcəsini, dövlətin yeritdiyi iqtisadi siyasətin tərkib hissəsi və bu siyasəti reallaşdırmağın ən təsirli aləti hesab edir. Dövlətin müəyyən etdiyi iqtisadi siyasət dövlət büdcəsində icrası qanunla təmin olunan dövlət tapşırığına, dövlətin konkret fəaliyyət proqramına çevrilir.

Dövlət başçısı ilin ən ali maliyyə sənədi olan dövlət büdcəsinin formalaşması, müzakirələri və praktiki icrası prosesinə rəhbərlik edir. Onun büdcənin başlıca parametrlərinə aid qeydləri, təklifləri və tövsiyələri, dövlət büdcəsinin başlıca istiqamətlərinin, mühüm göstəricilərinin müəyyənləşdirilməsində, onların iqtisadi inkişafa, xalqın rifahının yüksəldilməsinə təsirinin gücləndirilməsində həlledici rol oynayır.

Dövlət büdcəsi ilin ən ali maliyyə sənədidir. Onu bəzən ilin iqtisadi konstitusiyası adlandırırlar. Bu həm formaca, həm də məzmunca belədir. Orada dövlətin yeni maliyyə ilində nə etmək istədiyi, hansı vəzifələri qarşıya məqsəd qoyduğu və onları yerinə yetirmək üçün maddi və maliyyə təminatını yaratmaq yolları və istiqamətləri öz əksini tapır. Dövlət büdcəsində ölkənin bu gününün və gələcəyinin sosial-iqtisadi mənzərəsi, qarşıda duran vəzifələr və onların həlli yolları müəyyən edilir.

Dövlət büdcəsi iqtisadi siyasətin tərkib hissəsi kimi, bir-biri ilə qarşılıqlı əlaqə və təsir halında olan proseslərin məcmusudur. O özlüyündə sosial-iqtisadi proseslər sistemidir. Siyasətin iqtisadiyyata, ideal olanın (siyasətin) praktikaya (iqtisadi inkişafa) çevrilməsi prosesidir.

Xüsusi növ bölgü münasibətlərini ifadə edən büdcə təkrar istehsal prosesinin bütün mərhələlərini, onun hər bir fazasını, təsərrüfat əlaqələrinin üfüqi və şaquli sistemlərini əhatə edir və yeni istehsal tsikllərinin baş verməsinə zəmin yaradır.

Ölkə Prezidentinin müəyyən etdiyi iqtisadi siyasət strategiyası dövlət büdcəsinin başlıca parametrlərinin müəyyən edilməsində

həlledici rol oynayır. Dövlət büdcəsinin sərəncamçısı ölkə Prezidentidir. Bu onun Konstitusiya ilə müəyyən olunan hüququdur.

İqtisadi siyasətin tərkib hissəsi olan vergi, gömrük, bank, sığorta və s. bütövlükdə maliyyə sisteminin formalaşması və reallaşmasında dövlət büdcəsi həlledici rol oynayır.

Dövlətin iqtisadi siyasəti daim təkmilləşir. Bu siyasətin tərkib hissəsi və reallaşma vasitəsi kimi büdcə siyasəti də daim təkmilləşir, illər üzrə konkretləşir. O, hər büdcə ilinin konkret tapşırıqlarını özündə əks etdirir.

Dövlət büdcəsi 8 milyondan artıq olan xalqımızın, hər bir vətəndaşın maraqlarını ifadə edir. Əhalinin bir qismi büdcə gəlirlərinin formalaşmasında iştirak edir, büdcəyə ödəyir, digəri büdcədən əmək haqqı, pensiya, müavinət və s. alır. Deməli, ölkə əhalisindən dövlət büdcəsinin formalaşması və reallaşmasında marağı olmayan yoxdur. Məhz ona görə də dövlət büdcəsinin müzakirələri ümumxalq marağı doğurur.

Dövlət büdcəsi ölkənin iqtisadi vəziyyətinin güzgüsüdür. İqtisadiyyatdan formalaşan büdcə iqtisadi inkişafa fəal təsir edir. O iqtisadi artımın sürətlənməsinə də, iqtisadiyyatda tənəzzülün baş verməsinə də təsir edə bilir.

Dövlət büdcəsi iqtisadiyyatdan formalaşır. Onun gəlirləri ən əvvəl ölkədə istehsal olunan ümumi daxili məhsuldan asılıdır. İqtisadi inkişafın sürətlənməsi, ÜDM istehsalının artımı dövlət büdcəsi gəlirlərinin həcminin müəyyənləşməsində həlledici rol oynayır. Dövlət büdcəsində iqtisadi inkişafın həm nəticələri, həm də perspektivi öz ifadəsini tapır.

Dövlət büdcəsi sözün həqiqi mənasında ilin ən ali maliyyə sənədidir. O dərəcədə ali sənəddir ki, onu qəbul etmədən yeni maliyyə ilində heç bir mühüm maliyyə sənədinə imza atmaq olmaz. Ən azı ona görə ki, büdcə imzalanmadan büdcədən (əmək haqqı və ona bərabər tutulan xərclər istisna olmaqla) maliyyələşmələr aparmaq düzgün olmazdı. Ən azı dünyanın sivil dövlətlərində belə edirlər.

Dövlət büdcəsi müvafiq icra hakimiyyəti orqanları tərəfindən



hazırlanılır, müzakirə və təsdiq olunmaq üçün Milli Məclisə göndərilir. Onun müzakirələri və təsdiqi qanunla müəyyən olunmuş müddətdə aparılır. Bu proses eyni zamanda icra olunmuş dövlət büdcəsinin müzakirələri və təsdiqinə aiddir.

Dövlət büdcəsinin vəsaitləri ümumxalq malıdır, xalqa məxsusdur. Onu təsdiq edən Milli Məclis eyni zamanda xalqın adından büdcənin icrasına nəzarət edir. Bu Milli Məclisin Konstitusiya ilə müyyən edilmiş hüququdur.

Milli Məclisin dövlət büdcəsinin icrasına nəzarət qaydaları və müddəti qanunla ən əvvəl «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununla müəyyən edilir. Dövlət büdcəsinin icrasına nəzarət özü bir sistemdir. Onun səmərəli təşkilindən büdcənin gəlirlərinin artırılması və xərclərin səmərəliliyinin yüksəldilməsi əhəmiyyətli dərəcədə asılıdır.

Müstəqillik illərinin başlanğıcında respublikamızda dövlət büdcəsinin Milli Məclisə təqdim edilməsi, müzakirələri və təsdiq olunmasında ləngimələr ənənəyə çevrilmişdi.

Psevdodemokratlar səriştəsizlikləri ucbatından və başları daxili çəkişmələrə, kreslo davalarına qarışdığından 1992-ci ilin dövlət büdcəsini təsdiq etməyi unutmuşdular. 1992-ci ilin dövlət büdcəsi 1991-ci il dekabrın 26-sına kimi təsdiq olunmalı olduğu halda, o 1992-ci ilin noyabr ayının ortalarında, yəni maliyyə ili başa çatmaq ərəfəsində təsdiqlənmişdi. Yəni 1992-ci il dövlət büdcəsi təsdiq edilmədən başa çatmışdı.

İlin sonunda dövlət büdcəsi icra olunandan, büdcə ili başa çatandan sonra həmin büdcənin layihəsinin müzakirəsini aparmağın və təsdiq etməyin iqtisadi mənası yoxdur. Maliyyə ili yekunlaşdığı zaman dövlət büdcəsini təsdiq etmək il ərzində yol verilmiş maliyyə pozuntularını qanuniləşdirmək məsuliyyətdən yaxa qurtarmaq cəhdidir. Bunun başqa cür izahı yoxdur.

1992-ci ildən sonra da dövlət büdcəsinin Milli Məclisə təqdim olunmasında ləngimələrə yol verildiyi hallar olmuşdur. Biz 1996-cı ilin büdcəsinin təsdiq olunmasını, yeni maliyyə ili başlayandan 2 ay sonra, fevralın axırlarında başa çatdıra bildik.

Dövlət büdcəsinin Milli Məclisə təqdim edilmə vaxtı qanunla müəyyən olunur. O, hər il oktyabrın 15-nə kimi Milli Məclisə təqdim edilməlidir.

Dövlət büdcəsi və onunla bağlı sənədlər toplusunun Milli Məclisə təqdim olunmasında 5-10 gün gecikdirmələr indi də olur. Bu «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununun müvafiq maddələrinin pozulmasıdır. Büdcənin Milli Məclisə təqdim edilməsində gecikmə heç bir saat, bir gün də olmamalıdır.

Gecikdirmələr dövlət büdcəsi layihəsinin hazırlanması və onun ilkin mərhələlərdə müzakirələri ilə bağlıdır. Dövlət büdcəsinin sonuncu müzakirəsi ölkə Prezidentinin yanında olur. Burada bir qayda olaraq müzakirə operativ keçir, ləngimələrə yol verilmir.

Dövlət büdcəsinin hazırlanması və müzakirələri hər bir mərhələdə qanunla müəyyən edilmiş müddətdə başa çatmalıdır. Qanuna əməl etmək, qanunu pozana qarşı qanun tətbiq etmək hüquqi dövlət quran ölkənin fəaliyyət prinsipinə çevrilməlidir. Biz bu prinsipin reallaşmasına çalışırıq.

1997-ci ildən başlayaraq Azərbaycan Respublikasının dövlət büdcəsi hər il qanunla müəyyən edildiyi müddətdə təsdiq edilmişdir. 2003-cü ilin dövlət büdcəsi də qanunla müəyyən olunmuş vaxtda təsdiq edildi. Azərbaycanda yeni maliyyə ilinə təsdiq edilmiş büdcə ilə başlamaq ənənəsinə bu il də əməl olundu.

Milli Məclis üzvlərinin dövlət büdcəsi layihəsinin müzakirələrində iştirakı o hələ Milli Məclisə təqdim olunmamış başlayır. İqtisadi siyasət komissiyasının üzvləri dövlət büdcəsinin Maliyyə nazirliyində və Nazirlər Kabinetinin geniş iclasındakı müzakirələrində iştirak edir, öz qeyd, irad və təkliflərini bildirirlər.

Dövlət büdcəsi Milli Məclisə daxil olduğu gündən müzakirələrin yeni mərhələsi başlanır. O bütün komissiyalarda müzakirə olunur. 2003-ü ilin dövlət büdcəsini komissiyaların bəzisi birgə, digəri isə ayrılıqda müzakirə etmişlər. Bu müzakirələrin hamısında Maliyyə Nazirliyinin, İqtisadi İnkişaf Nazirliyinin, Vergilər Nazirliyinin, Ədliyyə Nazirliyinin, Milli Bankın, Dövlət Gömrük



Komitəsinin, Dövlət Statistika Komitəsinin və s. mütəxəssisləri iştirak etmişlər. Bütün komissiyalar Qanun layihəsinin Milli Məclisin müzakirəsinə təqdim edilməsi barədə qərar qəbul etmişlər.

Məlum olduğu kimi dövlət büdcəsinin hazırlanması sosial-iqtisadi inkişaf proqnozlarından başlanır. Proqnozların təkmilliyi büdcənin keyfiyyətini əvvəlcədən müəyyən edir.

2003-cü ilin sosial-iqtisadi inkişaf proqnozlarında ölkənin yeni maliyyə ilində makroiqtisadi göstəricilərinin geniş spektri verilmişdi. Orada 2000-2005-ci illərdə sosial-iqtisadi inkişafın həm nəticələri, həm də perspektiv inkişaf meyilləri təhlil olunmuş və illər üzrə iqtisadi artımın dinamikası verilmişdi. Bu sənəddə iqtisadiyyatda baş verən köklü dəyişikliklərin dövlət büdcəsinin formalaşmasına, onun gəlirləri və xərclərinin artmasına təsiri, islahatların nəticəsi olan özəl sektorun iqtisadi artımın həlledici amilinə çevrilməsi faktiki materiallarla əsaslandırılır.

1995-ci ildə ÜDM-in 70 faizi iqtisadiyyatın dövlət bölməsində, 30 faizi isə özəl bölmədə istehsal olunurdu. Bu sahədə vəziyyət ildən-ilə dəyişir. 2003-cü ildə sənayenin 49 faizi, ixracın 53 faizi, əhaliyə göstərilən pullu xidmətlərin 64 faizi, rabitə xidmətinin 65 faizi, nəqliyyat yükdaşımalarının 67 faizi, idxalın 70 faizi, əhalinin məşğulluğunun 70 faizi, tikintinin 77 faizi, sərnişin daşımalarının 85 faizi, kənd təsərrüfatının 99 faizi, əmtəə dövriyyəsinin 99 faizi özəl bölməyə aid olmuşdur.

Ölkənin sosial-iqtisadi inkişafının proqnozları 2003-ü ildə bazar iqtisadiyyatı infrastrukturlarının yaradılması sahəsində işlərin daha da sürətlənəcəyini göstərir.

Büdcə gəlirlərinin artırılması xalqın ehtiyaclarının ödənilməsi üçün həlledici əhəmiyyətə malikdir. Ən azı ona görə ki, gəlirləri artırmadan xərcləri artırmaq mümkün deyildir.

İqtisadiyyatın dinamik inkişafı ÜDM istehsalının artımına, vergi bazasının genişlənməsinə, dövlət büdcəsi gəlirlərinin artımına əhəmiyyətli dərəcədə təsir edir.

Dövlət büdcəsinin gəlirləri eyni səviyyədə qaldığı şəraitdə də

büdcə xərcləri artırıla bilər. Lakin burada büdcənin kəsirini artırmaq zərurəti yharanır.

Büdcədə kəsirin olması qəbahət deyil. Lakin kəsirin yuxarı həddi nəzərə alınmalıdır. Büdcədə kəsir olduqda onun yuxarı həddi və kəsirin örtülmə mənbələri müəyyənləşdirilməli və təsdiq edilməlidir.

İqtisadiyyatın öz qanunauyğunluqları vardır. Büdcə kəsirinin ÜDM-ə nisbəti 6 faizdən yuxarı olmamalıdır. Bu, iqtisadiyyatın qanunauyğunluqlarından biridir. Büdcə kəsiri bu həddən yuxarı olduqda, o ölkədə destabillik yaratmaq mənbəyinə çevrilə bilər.

1992-1993-cü illərdə büdcə kəsirinin ÜDM-ə nisbəti 12-13 faiz olmuşdur. Həmin vaxt dövlət büdcəsinin özü iqtisadiyyatda tənəzzülün sürətlənməsinə, inflyasiya burulğanının dərinləşməsinə, xalqın rifahının daha da pisləşməsinə təsir edən amillərdən biri oldu.

İqtisadiyatdan bixəbərlər və dövlət idarəçiliyində səriştəsizlər özəlləşdirmə aparılmadan, istehsalçılar sərbəstləşdirilmədən 1992-ci il yanvarın 1-də qiymətləri sərbəstləşdirdilər. Bu iqtisadi avanturaçılıq idi və çox çəkmədən öz acı nəticələrini göstərdi. Cəmisi 2-3 ay ərzində müəssisələr dövriyyə vəsaitlərini, əhali isə var-yoxunu itirdi. İqtisadiyyat idarəolunmaz vəziyyətə düşdü.

AXC-Müsavat cütlüyünün başqanları dövlət büdcəsini boşaltmışdılar. Təsərrüfatçılıq başlı-başına buraxılmışdı. Az-çox olan məhsulları yığmaq və dövlətə təhvil vermək yaddan çıxarılmışdı. Taxıl anbarları da boşalmışdı. Xaricdən taxıl almağa və gətirməyə pul yox idi.

AXC-Müsavat cütlüyünün «liderləri» ölkəyə taxıl gətirmək üçün Nazirlər Kabinetinin zəmanəti ilə Beynəlxalq Bankdan kreditlə külli miqdar pul aldılar. Aldılar, qamarlayıb mənimsədilər və xalqı çörəklə imtahana çəkdilər. Bu əməliyyatın iştirakçılarının bəzisi xarici ölkələrə qaça bildi, bir qismi isə cəzasını çəkməkdədir.

Alınmış kreditləri qaytaran olmadı. Beynəlxalq Bank zəmanətçidən, Nazirlər Kabinetindən həmin kreditləri ödənilməsini tələb



etdi. Tələb qanuni olduğu üçün ödənilməli idi. O yalnız dövlət büdcəsindən ödənilə bilərdi.

AXC-Müsavat cütlüyünün «çörək problemini» həll etmək üçün 1992-ci ildə və 1993-cü ilin ortalarına kimi aldıqları, qaytarmalı olduqlarını unutduqları kredit borclarını ödəmək üçün dövlət büdcəsindən 1999-cu ildə 19,9 milyard manat, 2000-ci ildə 66,5 milyard manat, 2001-ci ildə 99,1 milyard manat, 2002-ci ildə 71,4 milyard manat və s. ödənilmişdir. Bu rəqəmlər hansısa statistika məlumatlarından deyil, müvafiq illərdə dövlət büdcəsinin gəlirləri və xərclərinə aid ilkin sənədlərdən götürülmüşdür.

Xalqı çörəklə imtahana çəkənlər, xalqın başına müsibətlər açan AXC-Müsavat cütlüyünün «liderləri» indi sosial-siyasi stabillik, maddi nemətlər bolluğu yaradılandan sonra özlərinə bənzərlərdən bir dəstə düzəldib küçələrə çıxır «xalqa çörək», «xalqa çörək» deyərək qışqırırlar. Çörək əvəzinə, xalqa jımıx yedirənlər, xalqı çörəklə imtahana çəkənlər indi xalqa çörək vəd edirlər?

Biz həmin dövrün ağrılı-acılı günlərini hələ unutmamışıq. Həmin vəziyyətin bir daha təkrar olunmasına, təbii ki, yol verməməliyik.

Büdcə prosesində başlıca məsələ gəlirlərin yığılmasını təmin etmək, mədaxilin artımına nail olmaqdır. 2003-cü ildə dövlət büdcəsi mədaxilinin 4.062 milyard manatı və yaxud 67 faizi Vergilər Nazirliyi, 1.020 milyard manat və ya 16,7 faizi Dövlət Gömrük Komitəsi tərəfindən təmin olunmuşdur. Büdcə gəlirlərinin 1.010 milyard manatı və ya 16,6 faizi isə dövlət rüsumları və birdəfəlik rüsumlarla təmin ediləcəkdir.

2003-cü ildə büdcə gəlirlərinin 2 trilyon manatı ƏDV ilə təmin olunacaqdır. 2003-cü ildə respublikamızda büdcə gəlirlərinin 32-33 faizi ƏDV hesabına formalaşacaqdır.

Rusiya Federasiyasında dövlət büdcəsi gəlirlərinin formalaşmasında ƏDV-nin rolu xüsusilə böyükdür və büdcə gəlirlərinin formalaşmasında ƏDV-nin xüsusi çəkisi artmaqdadır.

«Rusiya Federasiyasının büdcə gəlirlərində ƏDV-nin xüsusi çəkisi 1998-ci ildə 42,3 faiz təşkil etmişdir. 2003-cü ildə isə büdcə

daxilolmalarında ƏDV-nin xüsusi çəkisinin 46,1 faizə yüksəlməsi nəzərdə tutulmuşdur.» (Voprosı Ekonomiki, jur. 2002,№ 10, s.10)

Rusiya dövlət büdcəsi gəlirlərinin təqribən yarısının bir vergi, ƏDV hesabına formalaşdığı aydın olur. Onun müsbət və mənfi cəhətləri təhlil edilməlidir. Bu ayrıca təhlil obyekti ola bilər.

Respublikamızda dövlət büdcəsi gəlirlərinin formalaşmasında ƏDV-nin xüsusi çəkisi, onun artım meyilləri, ümumiyyətlə vergi siyasətinin sosial-iqtisadi inkişafa təsiri təhlil edilir və vergi, gömrük, tarif, qiymət siyasətinin təkmilləşdirilməsi istiqamətində sistemli iş aparılır.

Bir şey həqiqətdir ki, 2003-cü ilin dövlət büdcəsində müəyyən edilmiş 6.092 milyard manat vəsaiti toplamaq asan olmamışdır.

Dövlət büdcəsinin makroiqtisadi göstəriciləri:
(2000-2003-cü illər)

| İllər | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|
| ÜDM mlrd man. | 18.300 | 21.000 | 28.746 | 32.800 |
| ÜDM artımı %-lə | 8,5 | 8,5 | 9,2 | 9,5 |
| Adambaşına ÜDM istehsalı milyon man. | 2,9 | 3,2 | 3,5 | 3,9 |
| Gəlir mlrd man. | 3.561 | 4.175 | 4.780 | 6.092 |
| Gəlirin ÜDM nisbəti %-lə | 19,5 | 19,9 | 16,6 | 18,6 |
| Xərc mlrd man. | 4.040 | 4.595 | 5.130 | 6.423 |
| Xərclərin ÜDM nisbəti %-lə | 22,1 | 21,9 | 17,8 | 19,6 |
| Kəsir | 479 | 420 | 350 | 331 |
| Kəsirin ÜDM nisbəti %-lə | 2.6 | 2 | 2.1 | 1 |

Unutmamalıyıq ki, dövlət büdcəsi gəlirlərini ödəməli olanların heç biri vergi orqanlarının qapısını döyüb onlardan vergi tutulmasını xahiş etmirlər. Ona görə də büdcə gəlirlərini təmin etmək üçün



ən əvvəl Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi əməkdaşlarının fəallıq göstərmələri, gərgin işləmələri tələb olunacaqdır. Həm də bu gərgin işlər Vergilər Nazirliyi işçilərinin 40 faiz ixtisar edildiyi, vergi orqanlarında struktur dəyişiklikləri aparıldığı, rayonların vergi idarələri ləğv edildiyi, 3-4 rayona xidmət edən zona idarələri yaradıldığı şəraitdə yerinə yetirilməlidir. Burada vergi qanunvericiliyi ilə müəyyən olunan prinsiplər, qaydalar və mexanizmlərlə təsdiq olunmuş büdcə daxilolmalarının yerinə yetirilməsini təmin etmək üçün olduqca gərgin fəaliyyət göstərmək lazım gəlmişdir.

2003-cü ilin büdcəsi iqtisadi artımın dinamikası, resursların cəlb edilməsi, bölgüsü və istifadəsinin üsulları və metodlarına görə bir sıra xüsusiyyətlərə malik idi.

**Birinci**, 2003-cü ilin dövlət büdcəsi 32,8 trilyon manatlıq ÜDM bazasında formalaşmışdır. Bu 2002-ci ilə nisbətən 5 trilyon manat çoxdur. Xüsusiyyət ondan ibarətdir ki, 2003-cü ildə ÜDM istehsalının artımı 9,5 faiz nəzərdə tutulduğu halda, dövlət büdcəsi gəlirinin artımı 27-30 faiz müəyyən edilmişdir. Əvvəlki illərdə büdcə gəlirlərinin orta illik artımı 350, ən yaxşı halda 450 milyard manat olmuşdur.

2002-ci ilə nisbətən 2003-cü ildə dövlət büdcəsinin gəlirləri 1.312 milyard manat, yəni orta illik artımdan 2 dəfədən çox təsdiq olunmuşdur. Bu aşağıdakı mənbələr hesabına təmin olunmuşdur:

1. Dövlət Neft Fondundan 500 milyard manat dövlət büdcəsinə cəlb etməklə (Dövlət Neft Fondundan vəsaitlərin dövlət büdcəsinə cəlb edilməsi praktikası dünya dövlətlərində vardır);

2. Dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar daxilolmalarını büdcə gəlirlərinə daxil etməklə. Bu mənbə hesabına büdcə gəlirləri 2003-cü ildə 301 milyard manat artmışdır. Gəlirlərin dövlət büdcəsinə cəlb edilmə praktikası da dünya dövlətlərində mövcuddur. Lakin unutmamalıyıq ki, polliativ metodlarla (büdcə gəlirlərinin digər mənbələr, büdcədən maliyyələşən təşkilatların büdcədənkənar fondları və Dövlət Neft Fondunun vəsaitləri hesabına təmin edilməsi) büdcə gəlirlərinin 2003-cü

ildəki kimi artımını təmin etmək sonrakı illərdə mümkün olmaya bilər.

Büdcədən maliyyələşən idarələrin, təşkilatların, nazirliklərin və s. büdcədənkənar fondları büdcəyə birləşdirilib qurtardıqdan sonra bu metodla büdcə gəlirlərini artırmaq imkanları tükənə bilər.

Biz respublikamızda ÜDM istehsalını artırmağın ən əlverişli yolları və üsullarını aşkarlamalı, onları təsərrüfatçılıq dövriyyəsinə cəlb etməliyik. Azərbaycanda ÜDM istehsalının artırılması imkanları çoxdur. ÜDM istehsalının və dövlət büdcəsi gəlirlərinin 90 faizdən çoxunun Bakıda formalaşdığını, qalan iqtisadi zonalardan isə büdcə gəlirlərinin cəmi 3-7 faizinin toplandığını nəzərə alsaq, onda bu ehtiyatların miqyasının nə dərəcədə geniş olduğu aydın olar.

Respublikanın regionlarında yerli xammal əsasında fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinin yaradılması və inkişafı ÜDM istehsalının artırılması üçün son dərəcə vacibdir. Ölkədə yeridilən iqtisadi siyasət kənd təsərrüfatı məhsulları istehsalının əhəmiyyətli dərəcədə artmasına təsir etmişdir. Statistika məlumatlarından bir sıra kənd təsərrüfatı məhsulları istehsalında rekord göstəricilərə nail olunduğu aydın olur. Lakin regionlarda yeni texnoloji sistemə əsaslanan, rəqabətqabiliyyətli məhsullar istehsal edən emal müəssisələri yaradılmadığından ağır zəhmət bahasına istehsal olunmuş kənd təsərrüfatı məhsullarının xeyli hissəsi mal-qara yeminə çevrilir və yaxud sadəcə olaraq zay olub gedir.

Bu gün regionlarda rəqabətqabiliyyətli emal müəssisələrinin yaradılması həm ÜDM istehsalının əhəmiyyətli dərəcədə artımına, büdcə gəlirlərinin formalaşmasında ayrı-ayrı bölgələrin rolunun yüksəlməsinə, həm də yeni iş yerlərinin yaranmasına, məşğulluq probleminin həllinə, yoxsulluğun azalmasına xidmət edə bilər.

Təkmil antiinhisar siyasəti aparmadan yerli xammal, material və iş qüvvəsi ehtiyatlarından maksimum səmərəli istifadə etmək, rəqabətqabiliyyətli məhsullar istehsal etmək, ÜDM istehsalını artırmaq mümkün deyildir. İqtisadiyyatda antiinhisar siyasəti yeritməli olan qurum İqtisadi İnkişaf Nazirliyinin departamenti olaraq qaldığı şəraitdə onun öz funksiyasını yerinə yetirə



bilməyəcəyinə şübhə edilməməlidir. Fikrimizcə, o ölkə Prezidentinə tabe olan, ayrıca sətirlə büdcədən maliyyələşən müstəqil qurum olmalıdır.

**İkinci**, 2003-cü dövlət büdcəsinin makroiqtisadi göstəricilərinin dinamikası əvvəlki illərlə müqayisədə əhəmiyyətli dərəcədə yüksəkdir. İqtisadi artım illərinə (1997-2002-ci illər) nisbətən 2003-cü ilin dövlət büdcəsində bütün göstəricilər üzrə artım sürətlənmiş, büdcə kəsiri isə xeyli azalmışdır. 2002-ci və 2003-cü ilin büdcəsinin makroiqtisadi göstəricilərinin müqayisəsi deyilənlərin bariz ifadəsidir.

Dövlət büdcəsinin makroiqtisadi göstəriciləri (2002 - 2003-cü illər):

Gəlirlər: 4.780 - 6.092 artım 1.312 milyard manat;
Xərclər: 5.130 - 6.423 artım 1.293 milyard manat;
Kəsir: 350 - 331 azalma 19 milyard manat.

Büdcənin makroiqtisadi göstəricilərinin ÜDM-ə nisbəti: gəlirlərdə - 18,5 faiz, xərclərdə - 19,5 faiz, büdcə kəsirinin yuxarı həddi - 1 faiz təsdiq edilmişdir.

Biz dövlət büdcəsi gəlirlərinin ÜDM-ə nisbətinin yüksəlməsi haqqında tədbirlər görməliyik. Dünya ölkələri ilə müqayisədə bu göstəricinin bizim respublikamızda aşağı olduğunu nəzərə almalıyıq.

Avropa ölkələrində büdcə gəlirlərinin ÜDM-ə nisbəti haqqında sonra bəhs edəcəyik. İndi ən yaxın qonşumuz, 70 il bir dövlət olduğumuz, iqtisadiyyatımızda ümumi cəhətlərin daha çox olduğu ölkə haqqında misal çəkməklə kifayətlənmək istərdik.

Rusiya Federasiyasının dövlət büdcəsi gəlirinin ÜDM-ə nisbəti 2001-ci ildə 29,4 faiz, 2002-ci ildə 29,1 faiz, 2003-cü ildə 27,8 faiz olmuşdur.(Voprosı Ekonomiki, jur. 2002, № 10, s.7)

2000-ci ildə Rusiya Federasiyasının dövlət büdcəsi kəsirsiz olmuşdur. 2002-ci ildə büdcə gəlirlərinin büdcə xərclərini üstələdiyi, yəni profisitli büdcə formalaşmışdı. 2002-ci ilin dövlət büd-

cəsində 178,3 milyard rubl profisit yaranmışdır. 2003-cü ildə bu ölkənin büdcəsində 72,06 milyard rubl profisit (gəliri xərclərdən artıq olan büdcə) yaranacağı təsdiq edilmişdi.

**Üçüncü**, 2003-cü ilin dövlət büdcəsində sosial istiqamətli xərclər əhəmiyyətli dərəcədə artmış və ondan elm, təhsil, mədəniyyət, səhiyyə işçilərinin əmək haqqı və digər sosial ehtiyaclarının ödənilməsi üçün istifadə edilmişdir.

Dövlət büdcəsində sosial istiqamətli xərclərin artım dinamikası (2002 - 2003-cü illər) :

Elmin xərcləri: 61-89, artım 28 milyard manat;
Təhsilin xərcləri: 1.082-1.216, artım 134 milyard manat;
Mədəniyyətin xərcləri: 113 -50, artım 37 milyard manat;
Səhiyyənin xərcləri: 270-300, artım 30 milyard manat;
Sosial müdafiə xərcləri: 685-768, artım 83 milyard manat.

Rəqəmlər sosial istiqamətli xərclərin 2003-cü ilin dövlət büdcəsində də əhəmiyyətli rol oynadığını göstərir. O büdcənin xalqın rifahının yüksəldilməsinə yönəldiyinin bariz ifadəsidir.

Sosial sahəyə böyük fikir verilsə də, müdafiə sahəsinin maliyyələşdirilməsinə lazımi qədər vəsait ayrılması nəzərdə tutulmuşdur. 2003-cü ilin dövlət büdcəsində müdafiə xərcləri 2002-ci ildəki 608 milyard manata qarşı 683 miyard manat, yəni 75 mlrd manat artımla təsdiq edilmişdi.

**Dördüncü**, 2003-cü il dövlət büdcəsinin fərqləndirici cəhətlərindən biri onun sosial istiqamətliliyi ilə investisiya yönümlülüyü arasında tarazlıq yaradılması üçün tədbirlər görülməsindən ibarətdir.

Dövlət investisiya xərcləri 2002-ci ildə 164 mlrd manat olduğu halda 2003-cü ildə 424 mlrd manat, yəni artım 260 mlrd manat olmuşdur. Dövlət investisiya xərclərinin bir ildə 2,5 dəfə artması və bu meyilin sonrakı illərdə davamı büdcənin investisiya istiqamətliliyini əhəmiyyətli dərəcədə artırmışdır.

Qeyd olunanlardan əlavə bir sıra xərc maddələri (kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq xərcləri - 279 milyard manat, habelə iqtisadi fəaliyyətlə bağlı sair xərclər - 64,4 milyard



manat) də həmçinin investisiya təyinatına malikdirlər. Bütün bunlar 2003-cü ilin büdcəsində investisiya yönümlü xərclərin artırılması üçün ciddi addımlar atıldığının bariz ifadəsidir.

**Beşinci**, dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar daxilolmaları indiyə kimi tamamilə avtonom mövcud olmuşdur. Onların formalaşma qaydaları, bölgüsü və istifadəsinin prinsipləri qanunla tənzimlənmirdi.

Büdcədəkənar fondların əksəriyyəti 2003-cü ildən dövlət büdcəsinin gəlirləri və xərclərinə daxil edilmişdir. Bu büdcədən maliyyələşən təşkilatların maraqlarına qətiyyən zidd deyildir. Ən azı ona görə ki, vəsaitlərin toplanması və istifadəsi əvvəl olduğu kimi davam edəcəkdir. Yəni bu vəsaitlər yenidən bölgüyə cəlb edilməyəcəkdir. Lakin vəsaitlərin formalaşması və istifadəsi qanunla müəyyən olunduğu kimi aparılacaqdır. Yəni müvafiq icra hakimiyyəti strukturları dövlət büdcədən maliyyələşən təşkilatların büdcədənkənar daxilolmalarının uçotunu aparmaq, onları proqnozlaşdırmaq, maliyyələşmələrin xəzinədarlıq vasitəsi ilə aparılmasını təmin etmək imkanına malik olacaqdır. Ən başlıcası yığılmış vəsaitlərin istifadəsinin təyinatı dəyişdirilməyəcək, əksinə onların səmərəli istifadəsinə nəzarət güclənəcəkdir.

**Altıncı**, büdcə sistemində ilk dəfə 2003-cü ildən enerji və qaz sektoru üzrə dövlətin aldığı yanacaq üçün ödənilməyən məbləğə görə dövlət büdcəsi hesabına bu sektorlara ediləcək dolayı subsidiyaların limiti müəyyən edilir. Bu limit 2003-cü ildə 1,6 trilyon manat (320 milyon dollar) müəyyən edilmişdir. Mənası ondan ibarətdir ki, əgər istifadə edilmiş elektrik enerjisinin, qazın pulu ödənilmirsə, o, bu limit çərçivəsində büdcəyə çatası vəsait hesabına ödəniləcəkdir.

Respublikamızda 2001-ci ildə fiziki şəxslər tərəfindən istehlak olunmuş elektrik enerjisinin ödəmə əmsalı 11 faiz idi, hazırda bu göstərici 19-20 faizə çatmışdır. Lakin indi də fiziki şəxslər tərəfindən istehlak olunmuş elektrik enerjisinin 80 faizi ödənilmir.

Büdcədən maliyyəşən müəssisə və təşkilatlarda istehlak edilmiş qaz və elektrik enerjisinin ödənilməsi mühasibatda, bir

hesabdan digərinə köçürmələrlə həyata keçirilir. Burada ödəmə əmsalı 80 faizə çatmışdır. Lakin ayrı-ayrı dövlət müəssisələrində istifadə edilmiş qaz və elektrik enerjisində borclar böyük məbləğ təşkil edir. Səhiyyə və Müdafiə nazirliklərinin müəssisə və təşkilatlarında bu borclar xüsusilə çoxdur.

Enerji və qaz sektoru üzrə dövlətin aldığı yanacaq üçün ödənilməyən məbləğə görə dövlət büdcəsi hesabına bu sektorlara ediləcək dolayı subsidiyaların limitini müəyyən etməklə yanaşı, yığım əmsalının yüksəldilməsi üçün radikal tədbirlər görülməlidir. İstifadə edilmiş elektrik enerjisinin və qazın qiymətinin ödənilməyən hissəsinin dövlət büdcəsinin üzərinə yüklənməsi borclardan azad olmağın ən asan yoludur. Bu enerjidən pulsuz istifadə edən hüquqi və fiziki şəxslərin pulunun əhalidən tutulmasıdır. Başqa sözlə, bu bir qrup adamın enerji daşıyıcılarının pulunu 2 dəfə ödəməyə, həm öz yerinə, həm də istifadə etdiyi enerjinin pulunu ödəməyənlərin əvəzinə ödəməyə vadar etmək olardı.

Fikrimizcə, paralel iş aparılmalıdır. Yığım əmsalını yüksəltmək üçün radikal tədbirlər görülməlidir. Bu hamının qanuna əməl etməsini təmin etməklə yüksəldiməlidir. Unutmamalıyıq ki, havayı elektrik enerjisi və qaz yoxdur. Ona görə də enerjinin istehlakı və ödənilməsi üzərində hamının nəzarəti təmin olunmalıdır.

**Yeddinci**, 2003-ü ilin dövlət büdcəsinə banklardan alınan dividentlər (922 milyon manat), Milli Bankın mənfəətindən daxilolmalar (40 milyard manat) cəmi 41 milyard manat az təsdiq edilmişdir. Eyni zamanda 2003-cü ildə banklarla hesablaşma xərci 4,6 milyard manat, BUS Bankın zəruri kapitala və likvidliyə olan tələbini ödəmək üçün buraxılmış istiqraz vərəqələri üzrə 21,2 milyard manat, mərkəzləşdirilmiş kredit resursları üzrə Milli Bankın silinmiş əsas borcunu bağlamaq məqsədilə buraxılan istiqraz vərəqələri üzrə 912 milyon manat, cəmi 26,7 milyard manat büdcə xərcləri nəzərdə tutulur. Bunlardan əlavə qısamüddətli dövlət istiqraz vərəqələri üzrə 40 milyard manat dövlət büdcəsinin xərclərinə daxil edilmişdir. Bu da banklarla bağlı əməliyyatlardır. Məsələ ondan ibarətdir ki, 2003-cü ildə banklardan büdcəyə daxilolmalar 41 milyard manat azaldığı halda, büdcədən banklara xərclər xeyli artacaqdır. Burada sözün həqiqi mənasında fikirləşilməli məsələlər çoxdur.



**Səkkizinci**, dövlət büdcəsində 4 məqsədli proqram - elmin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişaf proqramları nəzərdə tutulmuşdur. Büdcə xərclərinin məqsədli proqramlar əsasında tərtib edilməsi xərclərin səmərəliliyini yüksəltməyin ən vacib vasitələrindən biridir. Lakin məqsədli proqramlar müvafiq sahə mütəxəssisləri ilə birlikdə hazırlanmadığından bu sahələrin problemləri və onların həlli yolları orada lazımi dərəcədə öz əksini tapmamışdır.

Hazırki vəziyyətdə bu proqramlar büdcədən maliyyələşən məqsədli inkişaf proqramlarından çox, zəif işlənmiş elmi-tədqiqat işinə, elmi məqaləyə bənzəyir. Bu göstərir ki, dövlət büdcəsini hazırlayanlar məqsədli proqramlar hazırlanmasına formal yanaşmışlar.

Büdcə zərfindəki məqsədli proqramlar sosial sahələrin mütəxəssislərinin xəbəri olmadan hazırlanmışdır. 2002-ci ilin dövlət büdcəsində də eyni nöqsanlara yol verilmişdi. Həmin vaxt məqsədli proqramların təkmil hazırlanmadığı, bu işə formal yanaşıldığı kəskin tənqid edilmişdi. Lakin təcrübənin göstərdiyi kimi müvafiq icra hakimiyyəti orqanları tənqiddən lazımi nəticə çıxarmamışlar. Tənqiddən nəticə çıxarmayanlara qarşı qanun tətbiq edilməlidir.

Fikrimizcə, bu proqramların keyfiyyəti ciddi sürətdə təkmilləşdirilməlidir. Sosial sahələrin və maliyyəçi mütəxəssislərinin birgə səyi ilə məqsədli proqramlar hazırlanmalıdır. Onların reallaşmasına maliyyə təminatı büdcə vəsaitlərinə əsaslanmalıdır.

2003-cü ildə dövlət bücəsinin kəsiri 331 milyard manat, onun ÜDM-ə nisbəti 1 faiz təşkil edəcəkdir. Büdcənin kəsiri 2002-ci ilə nisbətən 2003-cü ildə 19 milyard manat az təsdiq edilmişdir.

Büdcə kəsirinin 180 milyard manatı daxili mənbələr (130 milyard özəlləşdirmədən, 40 milyard manat qısa müddətli xəzinə öhdəlikləri və 10 milyard manatı isə daxili uduşlu istiqrazlar buraxılışından), 151 milyard manatı xarici maliyyələşdirmə hesa-

bına örtülməsi nəzərdə tutulmuşdur. Bunlar inflyasiya doğurmayan mənbələrdir.

Fikrimizcə, büdcənin kəsirini bir qədər də azaltmaq olardı. Özəlləşdirmədən əldə edilən 130 milyard manat dövlət büdcəsinin gəlirlərinə daxil edilə bilər və dövlət büdcəsinin kəsiri 331 milyard manatdan 201 milyard manata endirilə bilərdi. Bu dövlət büdcəsinin gəlirləri ilə xərclərinin konstruksiyasında dəyişiklik etmədən mümkün olardı.

Əgər müvafiq icra hakimiyyəti orqanları bu üsulla büdcə kəsirini artırmaq və beynəlxalq maliyyə institutlarından əlverişli şərtlərlə kreditlər alınmasını təmin etməyə çalışmışlarsa, onda bu addımı məqsədə müvafiq hesab etmək olar. Çünki ili 0,7 faizlə dünyanın maliyyə institutlarından uzunmüddətli kredit almaq respublikamız üçün sərfəlidir. Azərbaycan dövlətinin bu imkandan istifadə etməsi düzgündür.

## 4.5. Qanunvericiliyin tələblərinə riayət etmək büdcə prosesinin səmərəliliyini yüksəltməyin zəruri şərtidir

Vergi qanunvericiliyinin tələblərinə riayət etməklə vergilərin tam yığılmasına nəzarətin gücləndirilməsi, vergidən yayınmanın qarşısının alınması məqsədilə Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən görülən işlər yüksək nəticələr verir. Onu 2004-cü ilin büdcə gəlirləri proqnozlarının icrası timsalında nəzərdən keçirək.

2004-cü ilin yanvar-sentyabr aylarında Vergilər Nazirliyi tərəfindən büdcəyə 3456,2 milyard manat vəsait cəlb edilməsi proqnozlaşdırılmışdır. Qeyd edilən dövrdə büdcəyə 3603,7 milyard manat vəsaitin daxil olması təmin edilərək proqnoza 104,3 faiz əməl edilmişdir (hesabat dövründə büdcədən 8,6 milyard manat vəsait qaytarılmışdır).

Hesabat dövrü ərzində büdcəyə daxil olmuş vəsaitlərin həcmi 2003-cü ilin müvafiq dövrü ilə müqayisədə (2971,8 milyard



manat) 631,9 milyard manat və ya 21,3 faiz çox olmuşdur. Büdcə daxilolmalarının həcmi 2003-cü ilin müvafiq dövrü ilə müqayisədə Dövlət Neft Şirkəti üzrə 2,6 milyard manat və ya 0,2 faiz azalmış, lakin qeyri-neft sektoru üzrə 634,5 milyard manat və ya 39,8 faiz artmışdır.

Dövlət sektoru üzrə büdcəyə 2003,4 milyard manata qarşı 1776,0 milyard manat vəsait daxil olmaqla, proqnoza 88,7 faiz əməl edilmişdir ki, bu da 2003-cü ilin müvafiq dövrü ilə müqayisədə 44,4 milyard manat və ya 2,6 faiz çoxdur. Qeyri-dövlət sektoru üzrə isə 1452,8 milyard manata qarşı 1827,7 milyard manat vəsait daxil olmaqla icrası 125,8 faiz təşkil etmişdir ki, bu da 2003-cü ilin müvafiq dövrü ilə müqayisədə 587,5 milyard manat və ya 47,4 faiz çoxdur.

Göründüyü kimi, Dövlət Neft Şirkəti üzrə büdcəyə nəzərdə tutulan həcmdə vəsait cəlb edilməsinin təmin olunmamasına baxmayaraq, qeyri-neft sektoru üzrə büdcə daxilolmalarının həcminin artması nəticəsində ümumilikdə proqnoz tapşırığına 104,3 faiz əməl edilmişdir.

Eyni zamanda qeyd etmək lazımdır ki, əgər 2003-cü ilin yanvar-sentyabr aylarında dövlət büdcəsinə daxilolmaların ümumi strukturunda qeyri-dövlət sektorunun xüsusi çəkisi (1240,1 milyard manat) 41,7 faiz təşkil etmişdirsə də, 2004-cü ilin yanvar-sentyabr aylarında bu göstərici (1827,7 milyard manat) artaraq 50,7 faiz təşkil etmişdir.

2004-cü ilin yanvar-sentyabr ayları ərzində tədiyyə növləri üzrə aparılan təhlil 8 vergi və tədiyyə növü üzrə (əlavə dəyər vergisi, aksiz vergisi, mənfəət vergisi, mədən vergisi, torpaq vergisi, əmlak vergisi, fiziki şəxslərin gəlir vergisi və dövlət rüsumu) vergi proqnozlarının yerinə yetirildiyini və daxilolmaların (aksiz vergisi və sair daxilolmalar istisna olmaqla) 2003-cü ilin müvafiq dövrünə nisbətən artdığını göstərir.

Əlavə dəyər vergisi üzrə 1058,2 milyard manat proqnoza qarşı büdcəyə 1059,2 milyard manat vəsait daxil olmuş, proqnoz 100,1 faiz icra edilmişdir. Bu vergi növü üzrə daxil olan vəsait 2003-cü

ilin yanvar-sentyabr aylarına nisbətən 125,9 milyard manat və ya 13,5 faiz çoxdur.

Aksiz vergisi üzrə 214,5 milyard manat proqnoza qarşı büdcəyə 216,2 milyard manat vəsait daxil olmuş, proqnoza 100,8 faiz əməl edilmiş və 2003-cü ilin yanvar-sentyabr aylarına nisbətən 12,7 milyard manat və ya 5,5 faiz azdır.

Mənfəət vergisi üzrə 762,7 milyard manat proqnoza qarşı büdcəyə 801,2 milyard manat vəsait daxil olmuş, proqnoza 105,0 faiz əməl edilmiş və 2003-cü ilin yanvar-sentyabr aylarına nisbətən 192,4 milyard manat və ya 31,6 faiz artmışdır.

Mədən vergisi üzrə 349,6 milyard manat proqnoza qarşı 350,3 milyard manat vəsait daxil olmuş, proqnoz 100,2 faiz icra edilmiş, büdcəyə 2003-cü ilin yanvar-sentyabr aylarına nisbətən 82,9 milyard manat və ya 31,0 faiz çox vəsait daxil olmuşdur.

Torpaq vergisi üzrə 50,1 milyard manat proqnoza qarşı büdcəyə 50,6 milyard manat vəsait daxil olmuşdur ki, bu da proqnozun 101,2 faizi deməkdir və 2003-cü ilin yanvar-sentyabr aylarına nisbətən 9,2 milyard manat və ya 22,2 faiz çoxdur.

Əmlak vergisi üzrə 114,4 milyard manat proqnoza qarşı büdcəyə 115,9 milyard manat vəsait daxil olmuşdur ki, bu da proqnozun 101,3 faizi deməkdir və 2003-cü ilin yanvar-sentyabr aylarına nisbətən 19,6 milyard manat və ya 20,3 faiz çoxdur.

Fiziki şəxslərin gəlir vergisi üzrə 579,5 milyard manat proqnoza qarşı büdcəyə 753,1 milyard manat vəsait daxil olmuşdur ki, bu da proqnozun 129,9 faizi deməkdir və 2003-cü ilin yanvar-sentyabr aylarına nisbətən 228,8 milyard manat və ya 43,6 faiz çoxdur.

Dövlət rüsumu üzrə 85,8 milyard manat proqnoza qarşı 94,4 milyard manat vəsait daxil olmuşdur ki, bu da proqnozun 110,0 faizini təşkil edir və 2003-cü ilin yanvar-sentyabr aylarına nisbətən 8,0 milyard manat və ya 9,2 faiz artmışdır.

Birdəfəlik rüsum üzrə 5,0 milyard manat proqnoza qarşı 4,8 milyard manat vəsait daxil olmuşdur ki, bu da proqnozun 95,1 faizini təşkil edir və 2003-cü ilin yanvar-sentyabr aylarına nisbətən



0,7 milyard manat və ya 16,3 faiz artmışdır.

Sadələşdirilmiş vergi üzrə 66,9 milyard manat proqnoza qarşı büdcəyə 56,3 milyard manat vəsait daxil olmuş, proqnoz 84,2 faiz icra edilmiş, 2003-cü ilin yanvar-sentyabr aylarına nisbətən isə büdcəyə 13,9 milyard manat və ya 32,7 faiz çox vəsait daxil olmuşdur.

Sair daxilolmalar üzrə 169,5 milyard manat proqnoza qarşı 101,9 milyard manat vəsait daxil olmuşdur ki, bu da proqnozun 60,1 faizini təşkil edir və bu məbləğ 2003-cü ilin yanvar-sentyabr aylarına nisbətən 36,6 milyard manat və ya 26,5 faiz azalmışdır.

Vergi nəzarəti işlərinin təşkili sahəsində ciddi iş görülməlidir.

Hesabat dövründə keçirilən yoxlamaların keyfiyyətinin və səmərəliliyinin artırılması, əsassız yoxlamaların qarşısının alınması məqsədilə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər nəzərə alınmaqla «Səyyar vergi yoxlamasının təyin olunmasına dair Tələblər» yenidən hazırlanmış və müvafiq əmrlə təsdiq edilmişdir.

ƏDV-nin əvəzləşdirilməsi üzərində nəzarətin gücləndirilməsi ilə əlaqədar ƏDV tutulan dövriyyələrində kənarlaşmalar olan və vergi hesab-fakturalarının tətbiqi qaydalarını pozan 237 vergi ödəyicisi barədə araşdırmalar aparılmışdır. Aparılmış yoxlamalar (araşdırmalar) zamanı ümumilikdə 138,3 milyard manat məbləğində əlavə vəsait hesablanmış və 28,5 milyard manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir.

ƏDV-ni ödəməkdən yayınması müəyyən edilmiş 147 vergi ödəyicisində aparılmış yoxlamalar zamanı külli miqdarda vergidən yayınma halları aşkar edildiyinə görə yoxlama materialları müvafiq tədbirlərin görülməsi üçün Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə təqdim edilmişdir. Bu yoxlamalar zamanı ümumilikdə 146,4 milyard manat məbləğində əlavə vəsait hesablanmış və 30,5 milyard manat məbləğində maliyyə sanksiyası tətbiq edilmişdir.

Bundan başqa, vergi hesab-fakturalarının tətbiqi qaydalarını pozan daha 2 vergi ödəyicisi barədə toplanmış materiallar da müvafiq

tədbirlərin görülməsi üçün Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə təqdim edilmiş, həmin şəxslərin adından təqdim edilən vergi hesab-fakturaları əsasında digər şəxslər tərəfindən aparılmış əvəzləşdirmələr ləğv edilmişdir.

Qeyd edilən dövr ərzində əvəzləşdirməyə əsas verməyən (saxta, itirilmiş, ləğv edilmiş və s.) vergi hesab-fakturaları əsasında ümumilikdə 72,5 milyard manat məbləğində əvəzləşdirmələrin aparılması aşkar edilmiş və bununla əlaqədar görülmüş tədbirlər nəticəsində həmin əvəzləşdirmələr ləğv edilmişdir (yaxud yoxlamalar zamanı əvəzləşdirmələrin aparılması üçün qəbul edilməmişdir).

Fiziki və hüquqi şəxslərin fəaliyyətlərinə dair daxil olmuş məlumatlar onların hesabat məlumatları ilə müqayisə edilərək araşdırılmış və görülmüş tədbirlər nəticəsində 69 vergi ödəyicisi (36 hüquqi və 33 fiziki şəxs) üzrə ümumilikdə büdcəyə 3,0 milyard manat əlavə vəsait hesablanmış və müvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Aparılan bu yoxlamalarla 4 vergi ödəyicisi üzrə külli miqdarda vergidən yayınma faktı aşkar edildiyinə görə yoxlama materialları muvafiq tədbirlərin görülməsi üçün Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilmişdir.

Respublika üzrə ümumilikdə 2004-cü ilin doqquz ayı ərzində 3137 vergi ödəyicisində səyyar vergi yoxlaması aparılmış, büdcəyə 279,2 milyard manat əlavə vəsait hesablanmış və 57,0 milyard manat maliyyə sanksiyası (faizlə birlikdə) tətbiq edilmiş və müvafiq olaraq 97,9 milyard manatının və 16,6 milyard manatının, ümumilikdə 114,5 milyon manatının və ya 34,1 %-nin hesabat dövründə büdcəyə daxil olunması təmin edilmiş, bu yoxlamaların 70-də və ya 2,2 %-də nöqsan və pozuntular aşkar edilməmişdir.

Bir vergi ödəyicisinə düşən əlavə hesablanmış vergi məbləği 89,0 milyon manat, tətbiq edilmiş maliyyə sanksiyasının (faizlə birlikdə) məbləği isə 18,2 milyon manat təşkil etmiş, ümumilikdə hər vergi ödəyicisi üzrə orta hesabla 107,2 milyon manat əlavə vəsait hesablanmışdır.



Azərbaycan Respublikasının 2001-ci il 04 dekabr tarixli «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli Fərmanının icrası ilə əlaqədar Vergilər Nazirliyi tərəfindən 2004-cü il ərzində Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən diplomatik xidmət orqanlarında dövlət rüsumunun düzgün hesablanmasına və vaxtında dövlət büdcəsinə köçürülməsinə nəzarət işləri üzrə nəzərdə tutulmuş yoxlamaların aparılması üçün iş planı təsdiq edilmiş və iş planına uyğun olaraq cari ilin 9 ayı ərzində Azərbaycan Respublikasının Ukrayna, Rusiya, Gürcüstan, Çin, Belçika, Türkiyə, Özbəkistan səfirliklərində, İstanbul Baş Konsulluğunda, Sankt-Peterburq Fəxri Konsulluğunda müvafiq yoxlamalar başa çatdırılmışdır.

Yoxlamalarla müəyyən edilmişdir ki, göstərilən səfirliklər tərəfindən konsul əməliyyatları üzrə dövlət rüsumu dərəcələrinin düzgün tətbiq edilməməsi nəticəsində dövlət rüsumunun məbləği ümumilikdə 266981,0 min manat, o cümlədən Ukrayna Səfirliyi üzrə 18560,6 min manat, Rusiya Səfirliyi üzrə 152000,8 min manat, Gürcüstan Səfirliyi üzrə 3101,5 min manat, Çin Səfirliyi üzrə 3356,2 min manat, Belçika Səfirliyi üzrə 1225,8 min manat, Özbəkistan Səfirliyi üzrə 37191,0, Türkiyə Səfirliyi və İstanbul Baş konsulluğu üzrə isə 14107,5 min manat, Sankt-Peterburq Fəxri Konsulluğunda 37437,6 min manat az hesablanmışdır (tutulmuşdur). Eyni zamanda tutulmuş dövlət rüsumunun müvəkkil bank vasitəsilə dövlət büdcəsinə ödənilməsi üçün müvafiq tədbirlər görülmüşdür.

2004-cü il 1 yanvar tarixdən Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə uyğun olaraq operativ vergi nəzarətinin təkmilləşdirilməsi və bu işlərin Azərbaycan Respublikası Prezidentinin məlum fərmanlarının tələblərinə müvafiq surətdə qurulması nəticəsində cari ilin 9 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə operativ nəzarət tədbirlərinin sayı və qanun pozuntularına yol verilməsi halları xeyli azalmışdır. Belə ki, 2004-cü ilin 9 ayı ərzində 2003-cü ilin müvafiq dövrünə nisbətən nəğd hesablaş-

maların aparılması qaydalarının pozulmasına yol verilmiş obyektlərin sayı 1750, nəzarət-kassa aparatları tətbiq edilməmiş obyektlərin sayı 1526 ədəd, aksiz markalarının tətbiqi qaydalarının pozulması aşkar edilmiş obyektlərin sayı 848 vahid azalmışdır.

«Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikasının 2003-cü il 20 iyun tarixli Qanununa müvafiq olaraq aksiz markalarının tətbiqinə nəzarət işləri gücləndirilmiş və hesabat dövrü ərzində vergi orqanları tərəfindən 11 vergi ödəyicisinə məxsus obyektdə xeyli miqdarda aksiz markası ilə markalanmamış və ya saxta aksiz markası ilə markalanmış mallar aşkar edilmişdir. Mövcud qanunvericiliyə əsasən bu qanun pozuntuları ilə bağlı müvafiq araşdırmalar aparılmış və tərtib edilmiş sənədlər Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilmişdir.

Vergi ödəyicilərinin real dövriyyələrinin müəyyən edilməsi məqsədilə 2004-cü ilin 9 ayı ərzində vergi orqanları tərəfindən 1201 obyektdə xronometraj metodu ilə müşahidələr aparılmış və bunlardan 1119-u üzrə orta aylıq dövriyyənin 30754,6 mln. manat, hər bir obyekt üzrə isə 27,5 mln. manat artıq olduğu aşkar edilmişdir. Bu xronometrajların nəticələrinə görə qanunamüvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

2004-cü ilin 9 ayı ərzində respublika üzrə nəzarət-kassa aparatları tətbiq edilməli obyektlərin sayı 2199, bu aparatlar tətbiq edilmiş obyektlərin sayı isə 2546 ədəd artaraq, müvafiq olaraq 41230 və 39620 olmuşdur.

2004-cü ilin 9 ayı ərzində vergi orqanları tərəfindən nəzarət-kassa aparatları və ciddi hesabat blankları tətbiq etməklə fəaliyyət göstərməli olan 57834 ticarət, ictimai iaşə, xidmət və digər profilli obyektlərdən 5855-də əhali ilə pul hesablaşmalarının aparılması qaydalarının pozulması aşkar edilərək, günahkar şəxslər barədə 6585 protokol tərtib edilmişdir. Bu qanun pozuntularına görə kəsilmiş və ötən dövrlərdən ödənilməmiş 10410,3 mln. manat məbləğində inzibati cərimə və maliyyə sanksiyalarından 1691,5 mln. manatının ödənilməsi təmin edilmiş, 2004-



cü il 1oktyabr tarixinə 8718,8 mln. manat qalıq qalmışdır.

2004-cü ilin 9 ayında 697 obyektdə aksiz markalarının tətbiqinə operativ vergi nəzarəti həyata keçirilmiş və 159,8 mln. manat məbləğində 322,2 min ədəd aksiz markası ilə markalanmamış və ya saxta markalarla markalanmış tütün məmulatı və alkoqollu içkilər aşkar edilmişdir. Bu qanun pozuntusuna görə 581 şəxs barədə tərtib edilmiş protokollara əsasən kəsilmiş 62,1 mln. manat məbləğində inzibati cərimələrdən və ötən dövrlər üzrə qalıqlardan 40,0 mln. manatının ödənilməsi təmin edilmişdir.

2004-cü ilin 9 ayı ərzində vergi orqanlarında uçota durmadan və lisenziya almadan sahibkarlıq fəaliyyəti ilə qanunsuz məşğul olan şəxslər barədə vergi orqanları tərəfindən 2793 protokol və akt tərtib edilərək, 284,3 mln. manat məbləğində inzibati cərimə və maliyyə sanksiyası kəsilmişdir. Bu qanun pozuntusuna görə kəsilmiş və ötən dövrlərdən qalıqlar nəzərə alınmaqla, 1751,4 mln. manat məbləğində inzibati cərimələr və maliyyə sanksiyasından hesabat dövründə 142,2 mln. manatı ödənilmişdir.

«Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 30 №-li Fərmanının icrası məqsədilə vergi ödəyicilərinin inventarlaşdırılması və onlara yeni VÖEN-lərin verilməsi işləri davam etdirilmiş və 1 oktyabr 2004-cü il vəziyyətinə 6964 hüquqi şəxs və 13899 fiziki şəxs inventarlaşdırmadan keçmiş, onların əvvəlki qeydiyyatı üzrə göstəriciləri dəqiqləşdirilmişdir.

2004-cü ilin yanvar-sentyabr ayları ərzində vergi ödəyicilərinin, o cümlədən əlavə dəyər vergisi ödəyicilərinin reyestrinin aparılması təmin edilmişdir. 2004-cü il 01 oktyabr tarixinə 241633 vergi ödəyicisinə, o cümlədən 63638 hüquqi şəxsə və 177995 fiziki şəxsə VÖEN verilmişdir. Hüquqi şəxslərdən 12542-si, fiziki şəxslərdən isə 3748-si əlavə dəyər vergisi ödəyiciləridir.

Hazırda vergi nəzarəti tədbirləri Vergi Məcəlləsinin tələblərinə müvafiq qaydada davam etdirilməkdədir.

Vergi borclarının ləğv edilməsi sahəsində də xeyli iş görülmüşdür. Vergi borclarının alınması məqsədilə vergi orqanları tərəfindən vergi öhdəliklərini yerinə yetirməmiş 176559 vergi ödəyicisinə xəbərdarlıq və bildiriş təqdim edilmişdir. Respublikanın vergi orqanları tərəfindən 5693 vergi ödəyicisinin 244,3 mlrd. manat məbləğində əmlakı siyahıya alınmışdır. Siyahıya alınmış əmlakın ixtisaslaşdırılmış açıq hərracda satılmasından büdcəyə 263,2 mln. manat daxil olmuşdur.

Vergi ödəyicilərinə xəbərdarlıq təqdim edildikdən sonra onlar tərəfindən 1582,5 mlrd. manat vergi borcları dövlət büdcəsinə ödənilmişdir.

Siyahıya alınmış əmlakın ixtisaslaşdırılmış açıq hərracda satılması üçün 666 vergi ödəyicisinə qarşı İqtisad Məhkəmələrində 68791,1 miliyon manat məbləğində iddia qaldırılmış və 381-nə baxılaraq 34950,2 milyon manat məbləğində təmin edilmişdir.

«Hüquqi şəxslərin dövlət büdcəsinə borclarının güzəştli ödənişi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar 33 hüquqi şəxsə güzəşt verilməklə 712,1 mlrd. manat borc silinmişdir. Güzəşt verilmiş vergi ödəyiciləri tərəfindən güzəştlə əlaqədar olaraq dövlət büdcəsinə 1282,7 mlrd. manat vergi borcu ödənilmişdir.

«Özəlləşdirilən dövlət müəssisələrinin, aqrar islahatları nəticəsində ləğv olunmuş və işğal altında olan rayonların təsərrüfat subyektlərinin dövlət büdcəsinə, büdcədənkənar dövlət fondlarına, qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən məhsul, iş və xidmətlərin istehlakına görə dövlət müəssisələrinə olan borclarının və bu müəssisələrin səhimlərinin nəzarət zərfi dövlətə məxsus banklara olan ödəmə vaxtı ötmüş borcların silinməsi və tənzimlənməsi Qaydaları»nın tətbiqi ilə əlaqədar hüquqi şəxslərdən daxil olmuş 214 müraciətə Vergilər Nazirliyində yaradılmış Komissiya tərəfindən baxılmış və



onların dövlət büdcəsinə yaranmış borclarının (əsas vergi borcu, maliyyə sanksiyaları və faizləri) silinməsi barədə 255,0 mlrd. manat məbləğində müvafiq qərar çıxarılmışdır. Həmin qərarın icrasını təmin etmək məqsədilə hüquqi şəxslərin yerləşdiyi vergi orqanlarına tapşırıqlar verilmişdir. Qərarın icra edildiyi tarixdə vergi orqanları tərəfindən həmin hüquqi şəxslərin 24,8 mlrd. manat faiz məbləği silinmişdir.

Vergi cinayətlərinin ibtidai araşdırılması sahəsində 2004-cü ilin 9 ayı ərzində Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən vergi hüquqpozmalarına qarşı mübarizə sahəsində bir sıra yoxlama tədbirləri həyata keçirilmiş və araşdırmalar aparılmışdır.

Həmin dövrdə Departamentə daxil olmuş audit yoxlama materialları əsasında «İdxal-A» MMC-də 13,7 milyard manat, 3 saylı rayonlararası təmir tikinti quraşdırma idarəsində 2,9 milyard manat, «Oriqinal-Co» MMC-də 2 milyard manat, «Qlobus-2» MMC-də 2 milyard manat, «İnkişaf» MMC-də 1,5 milyard manat, «BMS» İKF-də 1,5 milyard manat, «Adəm» firmasında 1,2 milyard manat, «Zamin-E» MMC-də 1,5 milyard manat, «Maqnium-R» MMC-də 1,9 milyard manat, «Atilqan» MMC-də 1,2 milyard manat, «Val və Nur» şirkətində 1,1 milyard manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayınma, qanunsuz sahibkarlıq və başqa faktlarla bağlı 92 cinayət işi başlanmışdır. Bu işlərin sayı keçən ilin 9 ayı ərzində başlanmış (21) cinayət işlərindən 71 iş və ya 3,3 dəfə çoxdur.

Başlanmış 92 cinayət işi, 2003-cü ildən qalıq qalmış 16, istintaq olunan cinayət işlərindən ayrılmış 44, dayandırılmış işlərdən icraatı təzələnmiş 14, digər hüquq-mühafizə orqanlarından daxil olmuş 2, prokuror tərəfindən qaytarılmış 2, digər işə əvvəllər birləşdirilərək sonradan ayrılmış 6 cinayət işi nəzərə alınmaqla cari ilin 9 ayı ərzində icraatda cəmi 176 cinayət işi olmuşdur.

Bu cinayət işlərindən 76 işin istintaqı tamamlanmış, 3 iş istintaq aidiyyəti üzrə göndərilmiş, 17 iş digər işlərlə bir icraatda birləşdirilmiş, 14 işin, o cümlədən 8 işin Azərbaycan Respublikası CPM-nin 53.1.1., 1 işin 53.1.2. və 5 işin 53.1.3. maddələrinə əsasən icraatları dayandırılmış, 66 iş 2004-cü ilin 2-ci yarısına qalıq qalmışdır.

2003-cü ilin 9 ayı ilə müqayisədə bu ilin 9 ayı ərzində icraatda olmuş işlərin sayı 129 iş, yəni 2,7 dəfə, istintaqı tamamlanmış cinayət işlərinin sayı isə 61 iş və ya 4 dəfədən çox artmışdır.

İstintaqı tamamlanmış cinayət işlərindən «Mehdi», «AMYƏ», «Nizami-2», «Baba», «Rəhman», «Uğur», «Günəş» firmalarının direktoru və faktiki rəhbəri Q.Q.Qasımov CM-nin 213.4, 32.5, 213.4, 313-cü maddələri, «Qarabad-97» firmanın rəhbərləri V.K.Abbasov və qeyrilərinin CM-nin 213.4, 32.5, 213.4 və 320.2-ci maddələri, «MTTB» MMC-nin direktoru V.B.Mirzəyev CM-nin 213.4 və 320.1, 320.2-ci maddələri, «Mirrəsul», «Asif-Ko», «Pərviz» və «Xaqani-M» firmalarının direktoru Q.M.Cəfərov CM-nin 213.4, 313-cü maddələri, «R və N» firmasının direktoru A.T.Qiyasbəyli CM-nin 213.4, 313-cü maddələri, «Elçin» KM-nin direktoru A.M.Rzayev CM-nin 213.4 və 230.2-ci maddələri, «Təchizat-R» MMC-nin direktoru R.Ə.Quliyeva CM-nin 213.4-cü maddəsi, «İkar-servis» firmasının direktoru M.T.Əsgərov CM-nin 213.4-cü maddəsi, 135 №-li TTİ-nin direktoru S.Ə.Ağayev CM-nin 213.3 və 313-cü maddələri, «Maddi Texniki Təchizat-S» MMC-nin direktoru R.C.Əliyev CM-nin 213.4-cü maddəsi, fiziki şəxs N.Z.İbrahimov CM-nin 192.2.1 və 320.1-ci maddələri və digər şəxslər vergiləri ödəməkdən yayınma, qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları ilə bağlı ümumilikdə 63 nəfər barəsində 46 iş məhkəməyə göndərilmişdir.

«RAZ» MMC-nin baş mühasibi H.M.Hüseynovanın 644,5 milyon manat, «Anbur» firmasının direktoru S.Z.Qənbərovun 212,4 milyon manat, «Aypara» və «Altunay-99» firmalarının



direktoru S.Z.Hüseynovun 157,7 milyon manat, «Cənnət-95» firmasının direktoru E.C.Əliyevin 141,6 milyon manat məbləğində və digər şəxslər yayındırdıqları vergiləri ibtidai istintaq zamanı tamamilə ödədiklərinə görə barələrində olan 24 cinayət işinin icraatına Azərbaycan Respublikası CPM-nin 39.1.11-ci maddəsinə, 4 işin icraatına 39.1.12-ci, 2 işin icraatına isə 39.1.5-ci maddəsinə əsasən, ümumilikdə isə 41 nəfər barəsində 30 işin icraatına xitam verilmişdir.

İstintaqı tamamlanmış cinayət işləri üzrə vurulmuş ziyandan 16 milyard 899 milyon manatın ibtidai istintaq zamanı ödənilməsi təmin edilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə (604,0 milyon manat) müqayisədə 16 milyard 294 milyon manat çoxdur.

Bundan başqa istintaqı tamamlanmış cinayət işləri üzrə 142,5 milyon manat məbləğində əmlak üzərinə həbs qoyulması və vergi ödəməkdən yayınma faktlarına dair cinayət işi başlanması rədd edilmiş materiallar üzrə büdcədən yayındırılmış 83,4 milyon manatın ödənilməsi təmin olunmuşdur.

Hazırda Departamentdə «Kurs», «Vahid T» və «Elmas» Məhdud Məsuliyyətli Cəmiyyətlərinin, «Şkiper» firması və digər müəssisələrin faktiki rəhbəri olmuş B.M.Həsənov, C.O.Abbasov və digər şəxslərin 5,4 milyard manat, «Borçalı» assosasiyasında 284 milyon manat vergiləri ödəməkdən yayınma faktları ilə əlaqədar Azərbaycan Respublikası CM-nin 213.4-cü maddəsilə, «Səttarxan adına maşınqayırma zavodu» ATSC-nin vəzifəli şəxslərinin 24 min ABŞ dollarının mənimsəməsi faktı ilə bağlı CM-nin 179.2.4 maddəsi ilə olan və digər cinayət işləri üzrə istintaq yekunlaşmaq üzrədir.

Vergiləri ödəməkdən yayınan və qanunsuz sahibkarlıq fəaliyyətilə məşğul olub dövlətə ziyan vuran şəxslərin müəyyən edilməsi və dövlət büdcəsindən yayındırılmış vəsaitin təyinatı üzrə ödənilməsinin təmin edilməsi üçün Departament tərəfindən digər tədbirlər də görülmüşdür.

Belə ki, əməliyyat məlumatları ilə bağlı həyata keçirilmiş

tədbirlər nəticəsində 18 şəxs barəsində, o cümlədən sərnişinlərə nəqliyyat xidməti göstərən «Sədərək», «Cahandar», «Cinar-Trans», «Gülüstan», «Cahangir-1», «Nicar-N», «Domino» firmalarında və «Bərdə» kiçik müəssisəsinin vergiləri ödəməkdən yayınma, «Huavey texnoloqies» firmasının, Moskva İqtisadiyyat Menecment və hüquq İnstitutu Bakı filialının və digər şəxslərin dövlət qeydiyyatına alınmadan və ya xüsusi razılıq (lisenziya) almadan qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə toplanmış materiallar dövlət büdcəsindən yayındırılmış vəsaitin hesablanması və təyinatı üzrə ödənilməsinin təmin edilməsi üçün müvafiq vergilər idarələrinə təqdim edilmişdir.

Bundan başqa, Vergilər Nazirinin müvafiq əmrlərinə əsasən vergi orqanlarından və digər şəxslərdən daxil olmuş müraciətlər üzrə Departamentin Əməliyyat şöbəsi tərəfindən görülmüş əməli tədbirlər nəticəsində vergi orqanlarına fəaliyyətləri barədə bəyannamə təqdim etmədən və ya digər üsullarla vergiləri ödəməkdən yayınan şəxslərdən 42 nəfəri müəyyən edilərək barələrində toplanmış materiallar audit yoxlamalarına göndərilmişdir.

Vergilər idarələrinə təqdim olunmuş bu və digər materiallar üzrə 2004-cü ilin 9 ayı ərzində icrası başa çatmış vergi yoxlamaları zamanı fiziki və hüquqi şəxslər tərəfindən dövlət büdcəsindən 1,5 milyard manat məbləğində vergilərin yayındırılması aşkar edilmiş və həmin vəsaitin təyinatı üzrə ödənilməsi üçün qanunamüvafiq tədbirlər görülmüşdür.

«Huavey texnoloqies» firmasının, Moskva İqtisadiyyat Menecment və hüquq İnstitutunun Bakı filialının, «Leyla» müəssisəsinin, Tərtər rayonunun ərazisində yerləşən spirtli içkilərin istehsal sexinin rəhbəri T.K.Allahverdiyevin qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları faktları üzrə Azərbaycan Respublikası CM-nin 192-ci maddəsilə, «Aydın» fermer təsərrüfatında və fiziki şəxs Fati Qovaşin Əlirza Xalıqverdi oğlunun vergiləri ödəməkdən yayınma faktları ilə



bağlı CM-nin 213-cu maddəsilə cinayət işləri başlanmışdır.

Vergi hüquqpozmalarına yol vermiş şəxslər barəsində qanunda nəzərdə tutulmuş qaydada mübarizə tədbirləri davam etdirilir.

Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması, vergi ödəyicilərinin qanuni mənafelərinin qorunması sahəsində ciddi tədbirlər hazırlanıb həyata keçirilmişdir.

Məlum olduğu kimi, «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramının (2002-2005-ci illər) təsdiq edilməsi haqqında», «Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında» və «Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanları ilə dövlət vergi orqanlarının qarşısında bir sıra mühüm vəzifələr qoymuşdur. Vergi orqanları iqtisadiyyatın vergi yükünün azaldılması, sahibkarlığın inkişafında süni maneələrin qarşısının alınması, onların fəaliyyətinə lüzumsuz müdaxilələrə son qoyulması ilə bağlı tələbləri əldə rəhbər tutaraq 2004-cü ilin 9 ayı ərzində büdcə tapşırıqlarının yerinə yetirilməsi ilə yanaşı, vergi ödəyicilərinin qanuni mənafelərinin qorunması, onların fəaliyyətinə lüzumsuz müdaxilələrin qarşısının alınması, vergi orqanlarının strukturunun və maddi-texniki bazasının təkmilləşdirilməsi sahəsində məqsədyönlü işlər görülmüşdür.

Vergi siyasətində aparılan islahatların mühüm istiqamətlərindən biri də vergi ödəyicilərinin maarifləndirilməsi, məlumatlandırılması və vergi xidmətlərinin göstərilməsidir. Ölkədə əlverişli vergi mühitinin formalaşması, sahibkarlarla münasibətin bütövlükdə yenidən qurulması strateji hədəf seçilərək bu sahədə ciddi addımlar atılmışdır.

Vergilər Nazirliyində aparılan islahatlar nəticəsində Nazirliyin funksional strukturlarının fəaliyyəti müasir tələblərə cavab verən yeni iş prosesləri əsasında təşkil edilmişdir.

Beynəlxalq Valyuta Fondunun tövsiyələri nəzərə alınmaqla

vergi orqanlarında iş proseslərində bir sıra dəyişikliklər edildi. Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, qanuni maraq və mənafelərinin qorunması, vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətlər sistemində ciddi dəyişikliklər edildi. Vergi orqanları ilə vergi ödəyiciləri arasındakı qarşılıqlı əlaqədə edilən dəyişiklik nəticəsində vergiləri yığmaq funksiyasından vergilərin ödənilməsi prinsipinə keçid təmin edildi.

Yeni iş proseslərinin vergi orqanlarında düzgün tətbiq edilməsi məqsədilə Nazirliyin mütəxəssisləri tərəfindən vergi orqanları əməkdaşları ilə məşğələlərin keçirilməsi təmin edilmişdir.

Qeyd etmək lazımdır ki, yeni iş proseslərinin səmərəliliyinin artırılması, vaxt itkisinə səbəb olan proseslərin təkmilləşdirilməsi üçün tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Vergi ödəyicilərinin məlumatlandırılması və vergi ödəyicilərinə xidmət xarakterli işlər mütəmadi olaraq həyata keçirilir.

Son bir neçə ildə sahibkarlığın inkişafı ilə bağlı imzalanmış fərmanların icrası baxımından vergi ödəyiciləri ilə vergi orqanlarının qarşılıqlı əlaqələrinin təşkili təkmilləşdirildi. Regionlarda vergi qanunvericiliyinin tətbiqi ilə bağlı məsələlərin təbliği və təşviqinə diqqət artırıldı. Sahibkarlara, o cümlədən sadələşmiş sistemli vergi ödəyicisi olanlara vergilərin hesablanması və ödənilməsində köməklik göstərilməsi diqqət mərkəzinə gətirildi.

Vergi orqanları «Vergi Xəbərləri» informasiya bülleteni vasitəsilə Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklər barədə vergi ödəyicilərinə məlumatlar çatdırılmasında mühüm rol oynadı. Bu məqsədlə «Vergi Xəbərləri» informasiya bülletenləri hazırda da çox ciddi iş aparır.

Sahibkarların vergi mədəniyyətinə, düşüncəsinə yiyələnməsi üçün cəmi 5-6 ay ərzində vergi orqanları hər bir vergi növünə dair məlumatlandırma və maarifləndirmə xarakterli 50 min nüsxədən artıq kiçik həcmli müxtəlif çap ləvazimatları



(buklet, yaddaş) hazırlanaraq vergi ödəyicilərinə paylanılmışdır.

«Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)»na əsasən ərazi vergi orqanlarında məşğulluğun təbliği və inkişaf etdirilməsi məqsədilə vergi ödəyiciləri ilə, xüsusilə də gənc sahibkarlarla məlumatlandırma və maarifləndirmə xarakterli görüşlər keçirmişlər. Onlara bukletlərin paylanılması təmin edilmişdir. Nümunəvi vergi ödəyiciləri olan sahibkarların kütləvi informasiya vasitələrində işıqlandırılması ilə əlaqədar yerli vergi orqanlarına müvafiq təkliflər verilmişdir.

Ölkə Prezidentinin Bakı Biznes Mərkəzinin açılışı zamanı Sahibkarlar şurasının üzvlərilə keçirdiyi görüşdə vergi orqanlarının ünvanına səslənən tənqidi fikir və iradlarla əlaqədar mövcud problemlərin həlli üçün 2004-cü il mart ayının 27-də Vergilər Nazirliyinin vəzifəli şəxslərinin yerli və xarici sahibkarlarla görüşü keçirilmişdir. 200-dən çox iş adamının iştirak etdiyi bu görüşdə səslənən fikirlər və iş adamları tərəfindən verilən faydalı təkliflər maraqla dinlənilmişdir.

Sahibkarlarla görüşlər davam etdirilərək Sumqayıt, Mingəçevir, Gəncə, Masallı, Şamaxı, Əli-Bayramlı, Ucar, Göyçay, Ağdaş, Qəbələ şəhərlərində və digər şəhər və rayonlarda da sahibkarların, bələdiyyə orqanlarının, habelə mətbuat nümayəndələrinin iştirakı ilə görüşlər təşkil olunmuşdur. Bu tədbirlərdə vergi sisteminin təkmilləşdirilməsi, kiçik və orta sahibkarlıq üçün əlverişli şəraitin yaradılması, vergi orqanlarının səmərəliliyinin artırılması istiqamətində aparılmış məqsədyönlü tədbirlər, vergi bəyannamələrinin poçt vasitəsilə və fərdi qaydada vergi orqanlarına təqdim olunması, vergilərin bank vasitəsilə ödənilməsi, habelə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər barədə geniş məlumatlar verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 30 nömrəli Fərmanının icrası ilə əlaqədar olaraq vergi ödəyicilərinin inventarlaşdırılması məqsədilə eyniləşdir-

mə nömrələrinin yeni eyniləşdirmə nömrələri ilə əvəz edilməsinin zəruriliyinin vergi ödəyicilərinə çatdırılması üçün vergi orqanlarının məlumat lövhələrində, poçt idarələrindəki vergi guşələrində, yerli kütləvi informasiya vasitələrində müvafiq məlumatlar verilmiş, digər maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

2004-cü ilin doqquz ayı ərzində vergi orqanları tərəfindən vergi ödəyiciləri ilə respublika üzrə ümumilikdə 862 brifinq və seminar, 8090 səyyar məlumatlandırma xidməti tədbirləri təşkil edilmişdir ki, bu tədbirlərdə vergi ödəyicilərinə Vergi Məcəlləsinə edilən dəyişikliklər, vergi qanunvericiliyinin tətbiqi məsələləri barədə məlumatlar verilmişdir.

Bunlardan əlavə vergi ödəyicilərinin bilavasitə fəaliyyət göstərdikləri ərazidə məlumatlandırılması, onların suallarının yerində cavablandırılması, vergi bəyannamələrinin düzgün tərtib edilərək vaxtında təqdim edilməsinə köməklik göstərilməsi məqsədilə hər rayonda orta hesabla ayda iki dəfə olmaqla «Vergi xidməti günü» tədbirləri keçirilir. Cari ilin doqquz aylıq dövründə keçirilən 1037 tədbirdə 17843 vergi ödəyicisi iştirak etmişdir ki, bu da faktiki fəaliyyət göstərən vergi ödəyicilərin 17,4 faizini təşkil edir.

Xüsusi diqqət yetirilən məsələlərdən biri də vergi ödəyicilərinin sorğu və müraciətlərinə baxılmasıdır. Vergi orqanlarının xidmət strukturlarına edilən bütün müraciətlər, istər yazılı, istər şifahi və ya telefon müraciəti vaxtında və qanunvericiliyə uyğun cavablandırılır. Vergi orqanlarında xidmət strukturları iş vaxtının istənilən anında vergi ödəyicilərini qəbul edir, onların suallarına cavab verir, lazımi izahat işləri aparır və müraciətlərinə baxırlar. Cari ilin doqquz aylıq dövründə 80113 vergi ödəyicisi xidmət strukturları tərəfindən qəbul edilmiş, onların 32 mindən çox sorğu və müraciəti, o cümlədən 1158 yazılı müraciəti cavablandırılmışdır.

Qanunvericilikdə baş verən bütün dəyişikliklər, vergilərə dair normativ aktlar operativ qaydada Vergilər Nazirliyinin



internet saytı vasitəsilə vergi ödəyicilərinə çatdırılır. Azərbaycan, rus və ingilis dillərində fəaliyyət göstərən bu sayt vergi ödəyicilərinə vergi orqanına gəlmədən kompüter vasitəsilə vergilərə aid bütün məlumatları əldə etmək və vergi qanunvericiliyinə dair sual və ya təkliflə müraciət etmək imkanı yaradır. Cari ilin doqquz aylıq dövründə vergi ödəyicilərindən internet səhifəsinin «Sual-Cavab» bölməsinə daxil olmuş 405 sual cavablandırılmış və bu prosesə qoşulanların sayı artmaqdadır.

Bundan başqa, vergi ödəyicilərinin öz fəaliyyətləri zamanı vergi sistemi ilə bağlı mövcud problemlərin həllində meydana gələn suallarına cavab tapmadıqda, əsaslandırılmış şikayətlərinə yerli vergi orqanları qane edə biləcək məlumat və ya yardım göstərə bilmədiyi təqdirdə onların internet səhifəsində birbaşa vergilər naziri ilə əlaqə yaratmaları üçün forma hazırlanıb istifadəyə verilmişdir.

Vergi ödəyicilərinin müraciətlərinin müasir tələblərə uyğun cavablandırılması, vergi orqanına gəlmədən vergi qanunvericiliyinə dair düzgün və operativ informasiya almaları üçün Vergilər Nazirliyinin 195 nömrəli məlumat telefon xidməti yaradılmışdır. Hələlik ancaq Bakı şəhərini əhatə edən telefon xidməti ötən ilin sonlarından vergi ödəyicilərinin istifadəsindədir.

Vergilər Nazirliyi tərəfindən yaradılmış telefon xidməti bu sahədə MDB məkanında analoqu olmayan, vergi ödəyiciləri ilə operativ ünsiyyət baxımından çox faydalı və mütərəqqi hadisədir. Vergi ödəyicilərinin böyük marağına səbəb olan bu xidmətin genişləndirilməsi, ona respublikanın digər bölgələrinin qoşulması, habelə telefon xidmətinin funksiyalarının və imkanlarının genişləndirilməsi sahəsində işlər gedir. Habelə müvafiq proqram təminatı yaradıldıqdan sonra vergi ödəyiciləri «195» nömrəli telefon xidməti vasitəsilə öz vergi öhdəlikləri (borcları və ya artıq ödəmələri) barədə birbaşa («on-line» rejimində) məlumat almaq imkanına malik olacaqlar.

Cari ilin doqquz ayı ərzində telefon xidmətinə 166992 (o

cümlədən 33359 canlı) müraciət daxil olmuş və cavablandırılmışdır. Eyni zamanda vergi ödəyicilərinin, ümumiyyətlə vətəndaşların bu nömrəyə zəng edərək vergi qanunvericiliyi hallarının pozulması barədə şikayət etmək və ya məlumat vermək imkanı təmin edilmişdir. Doqquz aylıq dövr ərzində daxil olmuş 40 belə şikayət qanunvericiliyə uyğun araşdırılaraq nəticəsi barədə müraciət edən şəxsə məlumat verilmişdir.

Böyüməkdə olan gənc nəslin, xüsusilə də gələcəyimiz olan uşaqların təsəvvüründə verginin nə demək olduğunu və onların vergiyə dair biliklərini üzə çıxarmaq məqsədilə Bakı və respublikamızın digər şəhərlərində şagird və tələbələr arasında tez-tez «Vergilər» mövzusunda müxtəlif yarışlar, müsabiqələr, intellektual oyunlar təşkil olunur.

Uşaq-Gənclər Yaradıcılıq Sarayının «Uşaq dünyası» qalereyasında 1 iyun - Uşaqların beynəlxalq müdafiə gününə həsr olunmuş «Vergi uşaqların gözü ilə» mövzusunda rəsm müsabiqəsi keçirilmişdir.

Orta məktəb şagirdlərinin vergilər haqda anlayış və biliklərini artırmaq, gələcəyin potensial vergi ödəyicilərinə vergi adətlərini aşılamaq strateji məqsədə xidmət edən başlıca amillərdəndir. Bunu nəzərə alaraq məktəblilər üçün «Verginin əhəmiyyəti və ya yeddi nağıl axşamı» və yuxarı siniflər üçün «Vergilər» kitabları hazırlanmış və Vergilər Nazirliyinin təşəbbüsü ilə çoxminli tirajla çap olunmuşdur.

Vergi qanunvericiliyi sahəsində əhalinin maarifləndirilməsi, vergi ödəyicilərinə məlumatların operativ və kütləvi şəkildə çatdırılması məqsədilə kütləvi informasiya vasitələrindən, o cümlədən mərkəzi və yerli televiziya kanallarından səmərəli istifadə edilmişdir. AzTV, ATV və «Samanyolu» televiziya kanallarında, ANS və «Lider» televiziya və radio kanallarında, yerli vergi orqanlarının əməkdaşları tərəfindən isə Sumqayıt şəhərində «Dünya», Quba şəhərində «Qütb», Zaqatala şəhərində «Aygün», Tovuz şəhərində «Simurq M», Gəncə şəhərində «Kəpəz», «Alternativ», Lənkəran və Mingəçevir şəhərlərindək



televiziya kanallarında vergilərə dair geniş məlumatlar verilmiş, yerli qəzetlərdə məqalələrin verilməsi təmin edilmişdir. Cari ilin doqquz ayı ərzində respublika üzrə 656 dəfə KİV-də, o cümlədən mərkəzi və yerli televiziyalarda çıxış, elan və reklam verilmişdir.

Bundan başqa «525», «Azad Azərbaycan», «Vergilər» qəzetlərində və «Vergi xəbərləri» jurnalında məqalələr dərc edilmişdir.

Dövlət vergi siyasətini təbliğ edən reklam lövhələrinin, vergilərin cəmiyyətin həyatındakı əhəmiyyətini və rolunu özündə əks etdirən müraciət formalarının paytaxtın müxtəlif yerlərində, həmçinin aeroport magistralının kənarında Bakı şəhəri İcra hakimiyyəti tərəfindən ayrılmış xüsusi yerlərdə 5 reklam şiti quraşdırılmışdır.

Vergi qanunvericiliyi sahəsində normativ-hüquqi sənəd layihələrinin hazırlanması və ekspertizadan keçirilməsi, metodoloji bazanın yaradılması, ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin hazırlanması, vergi qanunvericiliyinin ayrı-ayrı müddəalarının tətbiqi sahəsində vergi orqanları işçilərinə, vergi ödəyicilərinə və bələdiyyələrə metodik xarakterli göstərişlərin hazırlanması istiqamətində fəaliyyət göstərilmişdir.

Hesabat dövrü ərzində «Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli Fərmanından və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 20 fevral tarixli 35s nömrəli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı «Dövlət vergi orqanlarında vergi ödəyicilərinin uçotunun aparılmasına dair Metodiki Göstəriş», «Dövlət vergi orqanlarında vergi ödəyicilərinin nəzarət-kassa aparatlarının aparılmasına dair Metodiki Göstəriş», «Vergi ödəyicilərinin vahid dövlət reyestrinin və əlavə dəyər vergisi ödəyicilərinin dövlət reyestrinin aparılması Qaydaları»,

«Vergi ödəyicilərinə yeni VÖEN-nin verilməsi Qaydası» və eyni zamanda, vergi ödəyicilərinin uçota alınması və operativ vergi nəzarətinin həyata keçirilməsi üçün zəruri olan normativ sənəd formaları hazırlanmış və müvafiq qaydada təsdiq edilmişdir. «İri vergi ödəyicilərinin və xüsusi rejimli müəssisələrin müəyyən edilməsi meyarları»nın layihəsi Azərbaycan Respublikasının İqtisadi İnkişaf və Maliyyə Nazirlikləri ilə razılaşdırıldıqdan sonra Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir. Müxtəlif nazirlik və komitələrdən daxil olan çoxsaylı normativ-hüquqi aktların layihələri hüquqi ekspertizadan keçirilərək onlara qanuna müvafiq rəy və təkliflər hazırlanmış və aidiyyəti üzrə təqdim edilmişdir.

Hesabat dövrü ərzində beynəlxalq vergi münasibətləri sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir

Azərbaycan Respublikası artıq «Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında» Strasburq Konvensiyasına qoşulmuşdur.

Litva Daxili İşlər Nazirliyi ilə «Vergidən yayınma hallarına qarşı mübarizədə əməkdaşlıq barədə» müqavilə imzalanmışdır.

İnformasiya mübadiləsinin aparılması, vergi tələblərinin alınması və təsdiqedici sənədlərin təqdim edilməsi məqsədilə digər dövlətlərlə bağlanılması nəzərdə tutulan «Vergi məsələləri barədə qarşılıqlı yardım haqqında» dövlətlərarası beynəlxalq Sazişin nümunəvi modeli hazırlanmışdır.

Bu Sazişin çoxtərəfli qaydada MDB üzvü olan dövlətlər arasında, ikitərəfli qaydada isə ilkin olaraq Türkiyə ilə bağlanması üçün müvafiq prosedurlara başlanılmışdır.

Əlverişli investisiya mühitinin yaradılması məqsədilə «Gəlir və əmlak vergilərinə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında» dövlətlərarası beynəlxalq Sazişlərin bağlanması sahəsində işlər davam etdirilmişdir.

Hindistan, Qırğızıstan, Çin, Yunanıstan və Danimarka ilə danışıqların birinci, Küveyt Dövləti ilə üçüncü mərhələsi keçirilmiş, Niderland, Lüksemburq və Çexiya ilə Saziş layihələri ekspertlər səviyyəsində razılaşdırılmış, Litva, Almaniya, İtaliya, Belçika və Kanada ilə isə Sazişlər dövlət səviyyəsində imzalanmışdır.



Bundan başqa, Rumıniya ilə imzalanmış Saziş qüvvəyə minmişdir.

22-24 sentyabrda ikiqat vergitutmaya dair Qlobal Forumda Vergilər Nazirliyinin nümayəndə heyətinin iştirakı təmin edilmişdir.

ABŞ Xəzinədarlıq Departamenti ilə əməkdaşlıq uğurla həyata keçirilir və bir sıra mühüm sahələr üzrə məsləhətçilərlə aparılan işlər davam etdirilir.

Avropa Birliyi tərəfindən TASİS proqramı çərçivəsində Vergilər Nazirliyinə ayrılmış 1,5 mln. avro məbləğində texniki yardımın göstərilməsi ilə bağlı tədbirlər uğurla həyata keçirilır.

Vergi Administrasiyalarının Avropadaxili Təşkilatı ilə əməkdaşlıq davam etdirilir.

2004-cü il üçün İOTA ilə ümumi iş planına əsasən, işçi qruplarda və seminarlarda fəal iştirak davam etdirilmişdir. Bundan başqa, nazirliyin nümayəndə heyəti Təşkilatın 8-ci Baş Assambleyasında iştirak etmişdir.

MDB üzvü olan dövlətlərin vergi orqanları rəhbərlərinin Koordinasiya Şurasının Minsk şəhərində keçirilən iclasında nazirliyin nümayəndə heyətinin iştirakı təmin edilmişdir.

Azərbaycan tərəfinin təklif etdiyi Saziş layihəsinin müzakirəsi və digər məsələlərlə bağlı Şuranın fəaliyyətində işlər davam etdirilir.

Vergi işçilərinin peşəkar səviyyəsinin artırılması məqsədilə İqtisadi əməkdaşlıq və inkişaf Təşkilatı ilə ötən dövr ərzində olan əməkdaşlıq davam etdirilmiş, Ankara Vergi Mərkəzində keçirilən kurslarda vergi əməkdaşlarının iştirakı təmin edilmişdir.

Vergilər Nazirliyinin İqtisadi əməkdaşlıq və inkişaf Təşkilatının Vergi məsələləri Komitəsində müşahidəçi statusunun

alması üçün təşkilatın rəhbərliyi ilə müvafiq danışıqlar aparılır.

Vergilər Nazirliyi ilə Türkiyə Maliyyə Nazirliyi arasında Əməkdaşlıq Protokoluna əsasən, «Vergi auditi», «Vergi borclarının alınması» və «Vergi bəyannamələrinin qəbulu və işlənməsi» mövzularına dair əsasən ərazi vergi idarələrinin işçilərinin iştirakı ilə Türkiyədə 2, Azərbaycanda 1 xüsusi kurs keçirilmiş, bu kurslarda ümumilikdə 39 nəfər iştirak etmişdir.

Növbəti kursun cari ilin 1-5 noyabr tarixlərində Bakı şəhərində «Əlavə dəyər vergisinin auditi» mövzusunda keçirilməsi nəzərdə tutulur.

GUÖAM, MDB, Qara dəniz təşkilatı, habelə Avropa Birliyi, beynəlxalq maliyyə institutları ilə Azərbaycan Hökuməti tərəfindən aparılan ümumi fəaliyyət çərçivəsində çoxtərəfli və ikitərəfli formatda aparılan işlər, habelə TRASEKA ilə bağlı layihələrdə iştirak davam etdirilir.

Vergitutma sahəsində qabaqcıl xarici təcrübənin öyrənilməsi və gələcəkdə respublikada tətbiqi məqsədi ilə Vergilər Nazirliyinin əməkdaşları müxtəlif beynəlxalq maliyyə qurumlarının xarici dövlətlərdə təşkil etdiyi müxtəlif tədbirlərdə, (seminarlarda, kurslarda), o cümlədən MDB dövlətləri üçün Model Vergi Məcəlləsinin layihəsinin hazırlanmasında fəal iştirak etmişlər.

Dövlət büdcəsi iqtisadi siyasətin mühüm tərkib hissəsi və dövlətin yeritdiyi siyasəti reallaşdırmağın ən güclü alətidir. O müxtəlif səviyyəli, geniş spektrli və sistemli bir prosesdir: büdcənin tərtibi, müzakirələri, təsdiqi, icrası, icraya nəzarətin təşkili və icra olunmuş büdcə haqqında hesabatların hazırlanması, müzakirələri və təsdiq olunması və s. Bu proses, orada yerinə yetirilən işlər Nazirlər Kabinetinin rəhbərliyi altında baş verir.

Dövlət büdcəsində növbəti maliyyə ilində dövlətin qarşıya qoyduğu vəzifələrin həlli, onların icrası və real iqtisadi nəticələr verməsi, xalqın rifahını yüksəltmək üçün görüləcək işlərə maliyyə təminatı yaradılması öz əksini tapır. Bir sözlə, büdcə prosesi ideal olanın reallığa çevrilməsi prosesidir. Orada dövlətin yeritdiyi siyasət praktiki işə çevrilir və real iqtisadi nəticələr verir.



Dövlət büdcəsi, dövlətin bir illik gəlirlər və xərclər balansıdır. Gəlirləri formalaşdıran da, onlardan istifadə edən də xalqdır. Azərbaycanın 8 milyondan artıq olan əhalisinin hər biri onun formalaşması və reallaşmasında maraqlıdır. Ona görə də xalq özünə məxsus olan gəlirlərin necə formalaşdığını, nə cür bölüşdürüldüyünü və hansı məqsədlər üçün istifadə edildiyini, əgər belə demək mümkünsə gəlirlərin hara getdiyini bilməlidir.

«Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu büdcənin formalaşması və reallaşması prosesində şəffaflığın və aşkarlığın təmin olunmasını nəzərdə tutur. Ona görə də büdcə layihəsinin müzakirələrində iştirak edənlərin sayı bu Qanun qəbul olunandan sonra daha da artmışdır.

«Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununda təkcə büdcənin hazırlanmasında deyil, onun gəlirlərinin formalaşmasında, xərclərinin təyinatı üzrə istifadə edilməsində aşkarlığı, xalqın iştirakını təmin edən mexanizmlər nəzərdə tutulmuşdur. Büdcə prosesində şəffaflıq, gəlirlərin və xərclərin ünvanlılığının təmin olunması bu Qanunun mühüm üstünlüklərindən birini təşkil edir.

Qeyd etdiyimiz kimi büdcənin tərtibi, müzakirələri, təsdiqi, icrası və icraya nəzarət «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu ilələ aparılır. Milli Məclisin üzvləri vasitəsilə xalq kütləsi dövlət büdcəsi layihəsinin müzakirələrində fəal iştirak edir. Büdcə layihəsi həmçinin ən böyük tirajı olan dövlət qəzetində - «Azərbaycan» qəzetində çap olunur və ümumxalq müzakirəsinə çıxarılır.

Dövlət büdcəsinin müzakirələri başa çatandan sonra o ölkə Prezidenti tərəfindən imzalanır. Sonra Qanun qəzetdə çap olunur. Bu dəfə dövlət büdcəsi haqqında Qanun yeni keyfiyyət halında çap olunur. Artıq o icrası icbari xarakter daşıyan dövlət sənədi, Qanun kimi çap olunur. Artıq o müzakirə deyil, icrası məcburi olan dövlət sənədi olur.

Məlum olduğu kimi, Nazirlər Kabineti dövlət büdcəsi layihəsi-

nin hazırlanmasında aparıcı rol oynayır. Konstitusiyaya əsasən Nazirlər Kabineti dövlət büdcəsinin layihəsini hazırlayır və Azərbaycan Respublikasının Prezidentinə təqdim edir, dövlət büdcəsinin icrasını təmin edir, büdcə-vergi, dövlət rüsumu və pul-kredit, siyasətinin formalaşması və reallaşmasında iştirak edir, dövlətin iqtisadi proqramlarının hazırlanmasını və həyata keçirilməsini təşkil edir.

Nazirlər Kabineti bu məqsədlə ayrı-ayrı nazirliklərin, Dövlət Komitələrinin fəaliyyətini büdcənin formalaşmasına, sonra isə onun icrasına cəlb edən, ümumiqtisadi prosesləri tənzimləyən koordinator rolunu oynayır.

Məlum olduğu kimi, avqust ayı dövlət büdcəsi layihəsinin hazırlanmasnda ən gərgin işlərin görüldüyü dövrdür. İlham Əliyev cənabları həmin vaxt (04.8.2003) Azərbaycan Respublikasının Baş Naziri vəzifəsinə təyin olunmuşdu. Bu dövr dövlət büdcəsinin konseptual istiqamətlərinin formalaşdırılması, büdcə gəlirlərinin hansı mənbələr hesabına toplanması və xərclərin başlıca istiqamətlərinin müəyyənləşdirilməsinin ən vacib dövrdür.

İlham Əliyev prezident seçkisi marafonuna qatıldıqdan sonra onun irəli sürdüyü müddəalar 2004-cü ilin dövlət büdcəsinin başlıaca istiqamətlərinin formalaşmasında, onun konsepsiyasının müəyyən edilməsində böyük əhəmiyyət kəsb etdi. Xüsusilə onun seçki platformasında Azərbaycan iqtisadiyyatının inkişaf perspektivləri öz əksini tapdı. O, respublikamıza xarici investisiya axınının sürətləndirilməsini, xaricilərlə birgə müəssisələr yaradılmasını, iqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiya olunmasını və s. digər strateji xarakterli problemləri və onların həlli yollarını müəyyən etdi.

İlham Əliyev cənablarının regionlarda kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq, ucqar və dağlıq rayonların, blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının sürətli iqtisadi inkişafını təmin etmək məqsədilə irəli sürdüyü tezislərin çox böyük əhəmiyyəti oldu. Onların mənası təkcə iqtisadiyyatla, onun ayrı-ayrı sahələrinin inkişafı ilə məhdudlaşmadı. Bütün



bunlar respublikamızın sosial-iqtisadi inkişafı üçün strateji əhəmiyyətli, uzun müddətli problemlərin həllinə, xalqın rifahının yüksəlməsinə yönəlmişdir.

İlham Əliyev qarşıdaki 5 ildə respublikamızın regionlarında yüzlərlə yeni istehsal və sosial infrastruktur sahələri yaradılmış yeni iş yerləri açılması, işsizlik probleminin həll edilməsi, yoxsulluğun azaldılması haqqında dövlət proqramlarının icrasını təmin etmək barədə konkret iş planı müəyyən etmişdir.

İlham Əliyev cənablarının neft sektoru və qeyri-neft sektorunun inkişafında balans yaratmaq, regionlarda yerli xammal mənbələri hesabına işləyən, ən yeni texnoloji sistemlərə əsaslanan, rəqabət qabiliyyətli, ixrac yönümlü emal müəssisələri yaratmağı tövsiyə etmişdir. Bu məqsədlə dövlət büdcəsinin vəsaitlərindən də istifadə etməklə yeni iş yerləri yaratmaq nəzərdə tutulmuşdur.

İlham Əliyevin iqtisadi platformasında yoxsulluğun azaldılması, əmək haqqı, təqaüd və pensiyaların yüksəldilməsi ilə bağlı müəyyən edilmiş tədbirlər, həmçinin dövlət büdcəsi vasitəsilə reallaşdırılan sistem xarakterli vəzifələr öz əksini tapmışdır. İlham Əliyevin tövsiyələri yeni maliyyə ilində ölkənin sosial-iqtisadi inkişafının sürətlənməsinə xidmət edir. Bu təcrübənin başlıca istiqamətləri 2004-cü ilin dövlət büdcəsinin ana xəttini təşkil etmişdir.

2004-cü ilin dövlət büdcəsi qanunla müəyyən edildiyi vaxt, 2003-cü il oktyabrın 13-də Milli Məclisə təqdim olunmuşdur. Bu prezident seçkisinə hazırlığın ən qızğın dövrü idi. Həmin vaxt hamının başı seçki kompaniyasına, təbliğat və təşviqat işlərinə qarışdığı şəraitdə ləngimələrə yol verilməməsi, büdcə layihəsinin və onunla bağlı sənədlərin vaxtında Milli Məclisə təqdim edilməsi müvafiq icra hakimiyyəti strukturlarının birgə və koordinasiya olunmuş fəaliyyətinin nəticəsidir.

Məlum olduğu kimi, dövlət büdcəsi hər il özünə məxsus xüsusiyyətlərə malik olur. O qarşıya qoyulmuş vəzifələrin xüsusiyyətləri, onların yerinə yetirilməsi üçün görülən tədbirlərin mahiyyəti ilə bağlı olur. 2004-cü il büdcəsi də bu sahədə istisna təşkil etmir, onun da özünə məxsus xüsusiyyətləri vardır.

**1. 2004-cü ilin büdcə zərfinə daxil olan sənədlər, o cümlədən dövlət büdcəsinin layihəsi «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən tərtib olunmuşdur. Yeni Qanunun dövlət büdcəsinin formalaşması, strukturu və həcmində ciddi dəyişikliklərin aparılmasını nəzərdə tutur.**

**2004-cü ilin büdcə zərfi 4 kitabdan ibarətdir. Dövlət büdcəsi ilk dəfə idi ki, bu strukturda və bu həcmdə hazırlanırdı. Onun ümumi həcmi 1000 səhifədən çoxdur.**

2004-cü ilin dövlət büdcəsi büdcə təsnifatı əsasında hazırlanmış, **xərclər funksional və iqtisadi təsnifata uyğun** tərtib olunmuşdur. Yəni əvvəlki illərdə büdcə xərclərinin təkcə ümumi kəmiyyəti verilirdi. Əvvəlki illərdə təqdim olunmuş dövlət büdcəsindən fərqli olaraq, 2004-cü ilin büdcəsində xərclərin strukturu da verilir. **Misal üçün, təhsil xərclərinin tərkibində: əməyin ödənilməsi fondu, ştatda olan işçilərin əmək haqqı, əmək haqqına üstəlik, Dövlət Sosial Müdafiə Fonduna ayırmalar, malların alınması və xidmətlərin ödənilməsi, dəftərxana ləvazimatlarının alınması, yumşaq inventar və paltarların alınması, ərzaq məhsullarının alınması, ezamiyyələr və xidməti səfərlər, nəqliyyat xidməti haqqının ödənilməsi, rabitə xidməti haqqının ödənilməsi, kommunal xidməti haqqının ödənilməsi və s. bölünür.**

**2004-cü ilin dövlət büdcəsində xərclərin son təyinata kimi ünvanlılığı təmin olunur. Bir sözlə, burada gəlirlərin yaranması, bölgüsü və istifadəsi başlanğıcdan son təyinata kimi öz əksini tapır. İlk dəfədir ki, Azərbaycan Respublikasının dövlət büdcəsi belə tərtib olunurdu.**

Bu, əlbəttə, büdcə prosesində demokratik proseslərin inkişafına, aşkarlığın və şəffaflığın daha da genişlənməsinə xidmət etdi. Büdcənin iqtisadi və funksional təsnifatla tərtibi, onun icrasında, gəlirlərin formalaşmasında, xərclərin bölgüsü və istifadəsində demokratik proseslərin inkişafına şərait yaratdı. O həmçinin dövlət gəlirləri və xərclərinin şəffaflığına və xalqın nəzarəti altında icra olunmasına, büdcə vəsaitlərindən istifadənin səmərəliliyinin yüksəldilməsinə əhəmiyyətli dərəcədə təsir etmişdir.



2. Məlum olduğu kimi, dövlət büdcəsinin əsasını ölkənin sosial-iqtisadi inkişaf proqnozları təşkil edir. Büdcənin reallığı xeyli dərəcədə proqnozların reallığından, onların təkmil hazırlanmasından, texniki, iqtisadi normaların, hesablamaların düzgün aparılmasından asılı olur. Proqnozlar nə dərəcədə dürüst hazırlanarsa dövlət büdcəsi də bir o qədər təkmil olar.

Yeri gəlmişkən qeyd edək ki, 2004-cü ilin bəzi proqnoz göstəricilərinin reallığı inandırıcı deyil. Bunu son bir neçə ildə ÜDM istehsalının proqnoz göstəriciləri ilə onların faktiki icrası arasında milyardlarla deyil, lap trilyonlarla manat kənarlaşmaların olması da təsdiq edir. Misal üçün, 2003-cü ilin sentyabr ayından məlum idi ki, bu il ÜDM istehsalının proqnozları real imkanlardan az müəyyən edilmişdir. Hesablamalar göstərir ki, 2003-cü ildə ÜDM istehsalı 32,8 trilyon manat deyil, 34 trilyon manatdan artıq olacaqdır.

Doğrudur, proqnozla reallıq arasında kənarlaşmalar mümkündür. Lakin bu faktiki icranın proqnoz göstəricilərini üstələməsi formasında olan kənarlaşma olmamalıdır. Çünki proqnoz iqtisadi artımı sürətləndirməyə təsir etməlidir. Proqnoz yalnız o vaxt sosial-iqtisadi inkişafın sürətlənməsində səfərbəredici rol oynaya bilər ki, o inkişafın hələ rüşeym halında olan meyillərini özündə əks etdirsin, büdcənin icrasını təmin edən strukturları proqnoz göstəricilərinin yerinə yetirilməsinə nail olmaq üçün səyləri səfərbər etməyə, qüvvələri qarşıda duran vəzifələrin icrası üçün gərginləşdirməyə, ehtiyatları aşkara çıxarmağa və təsərrüfatçılıq dövriyyəsinə cəlb etməyə vadar etsin.

Proqnozların tərtibində müsbət hal kimi növbəti 3 ilin sosial-iqtisadi inkişaf proqnozlarının tərtib olunması qeyd oluna bilər. Bu, sosial-iqtisadi inkişafın perspektiv mənzərəsini görməyə, maliyyə-büdcə siyasətinin formalaşmasında uzun müddətli dövrü nəzərə almağa şərait yaradar.

**3. Büdcə zərfində müxtəlif məqsədli proqramların olması təqdirə layiqdir.** 2004-cü ilin dövlət büdcəsində **elmin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişaf proqramları verilmişdir.** Büd-

cə sənədlərində belə proqramların olması müsbət hal olsa da, onların hazırlanmasına formal yanaşılmamalıdır.

2004-cü il büdcə sənədlərindəki elm, təhsil, səhiyyə və mədəniyyətin inkişafı haqqında proqramların işlək reallaşma mexanizmləri yoxdur. Onların büdcə xərcləri ilə bağlılığı, büdcə maliyyələşmələri bazasında icrası nəzərdə tutulmamışdır. Büdcə zərfindəki məqsədli proqramlarda təhsilin, elmin, səhiyyənin və s. inkişaf problemlərinin həlli öz əksini tapmamışdır. Ona görə də bu proqramların olması ilə olmaması arasında ciddi bir fərq yoxdur. Yəni bu proqramlar əsasən formal xarakter daşıyır. Bu nəzərə alınmalı və həmin nöqsanların gələcəkdə təkrarlanmasına yol verilməməlidir. Deyilənlərdən aydın olur ki, məqsədli proqramların hazırlanmasına ciddi münasibət bəslənilməlidir.

**4.** 2004-cü ilin büdcə zərfindəki sənədlərdə **büdcə-vergi siyasətinin başlıca istiqamətləri** öz konstruktiv ifadəsini tapmışdır. Burada vergi siyasətinin təkmilləşdirilməsi, Vergi Məcəlləsinə dəyişikliklər və əlavələrin edilməsi nəzərdə tutulur.

Fikrimizcə, vergi siyasətində vergilərin dərəcələrində tez-tez dəyişiklik etmək məqsədəuyğun deyil. Ən azı ona görə ki, iqtisadiyyatın inersiyalılığı nəzərə alınmalıdır. Vergi qanunvericiliyində hər dəfə ciddi dəyişikliklərin edilməsi yeni vergi qaydalarına uyğunlaşmaq üçün sahibkarlardan əlavə vaxt və xeyli əmək tələb edir.

Regionların sosial-iqtisadi inkişafında kəskin fərqlər olduğu hamıya məlumdur. Bu gün işləyən müəssisələrin, sahibkarlıq subyektlərinin, istehsal və sosial infrastruktur sahələrinin, iş yerlərinin 75-80 faizi Bakı şəhərində cəmləşmişdir. Dövlət büdcəsi gəlirlərinin 90-95 faizi Bakı şəhərindən formalaşır. Respublikanın qalan regionlarından isə dövlət büdcəsi gəlirlərinin 5-10 faizi formalaşır. Onun da xeyli hissəsini Bakıdan rayonların təhsil, səhiyyə, mədəniyyət və eləcə də icra strukturlarında işləyənlərə transfer olunan əmək haqqı ödənişindən gəlir vergisi formasında Bakıya, dövlət büdcəsinə qayıdan hissə təşkil edir.

Regionların sosial-iqtisadi inkişafının sürətlənməsi təkcə büdcə gəlirlərinin formalaşmasında onların rolunun artırılması problemləri ilə əlaqədar deyildir. Bu sistem xarakterli qlobal problemlərin həlli ilə bağlı, o cümlədən miqrasiya prosesinin doğurduğu zərərli nəticələrin qarşısının alınması ilə bağlıdır.

Hazırda rayonlardakı əhalinin xeyli hissəsi, başlıca olaraq iş tapmaq üçün Bakı şəhərinə axışırlar. Bakıya o qədər əhali cəmləşib ki, mövcud infrastruktur sahələrinin işi gərgin vəziyyətə düşmüşdür. Bakı şəhərinə əhali axını isə davam etməkdədir. Bu axının qarşısını inzibati yolla almağa çalışmaqdan bir şey çıxmaz. İqtisadi cəhətdən əsaslandırılmış tədbirlər görməklə əhalinin Bakıdan rayonlara axını təmin olunmalıdır. Rayonlarda əmək və yaşayış şəraitini Bakı şəhərinə nisbətən daha əlverişli olmasını təmin etmədən əhali axınının istiqamətini Bakıdan rayonlara yönəltmək mümkün olmayacaqdır. Bunun üçün müxtəlif stimullaşdırıcı alətlərdən, mexanizmlərdən və vasitələrdən istifadə edilməlidir. Bu vasitələrdən biri büdcə-vergi siyasəti ilə regionların inkişafına daha əlverişli şərait yaratmaqdır.

Biz 2003-cü ilin büdcəsində diferensial vergi siyasətinə keçmişik. Həmin vaxt biz onun bir çox üstünlüklərə malik olduğunu, regionların iqtisadi inkişafını stimullaşdırmaq üçün vergi siyasətindən bir alət kimi istifadə etməyin üstünlüklərini qeyd etmişdik.

Aradan heç bir il keçməmiş Nazirlər Kabineti bəyan edir ki, diferensial vergi siyasəti xarabdır. İndi də deyirik ki, gəlin keçək unifikasiya olunmuş vergi siyasətinə və vahid vergi dərəcəsi tətbiq edək. Bakı şəhərində də, Gədəbəydə və Lerikdə də mənfəət vergisini eyni dərəcə ilə hesablamağa və iqtisadi subyektləri vergiyə cəlb etməyə başlayaq.

Bakıda infrastrukturun inkişaf səviyyəsi, enerji ilə təmin olunma dərəcəsi Gədəbəy və Lerikdən qat-qat üstündür. Ona görə də, bu fərqlər olduğu üçün o regionların inkişafına stimullaşdırıcı təsir edən diferensial iqtisadi siyasət – vergi, gömrük, rüsum, investisiya, pul-kredit, tarif siyasəti yeridilməli, bu regionlarda stabil enerji təchizatı, müasir istehsal və sosial infrastruktur sahələrinin yaranmasına üstünlük verilməlidir.

Dövlətin iqtisadi siyasəti müxtəlif səviyyəlidir. Onun yüksək

səviyyəsi **iqtisadi siyasətin strateji xətti hesab olunur.** Onu müəyyən etmək ölkə Prezidentinin səlahiyyətidir.

**Azərbaycan Prezidentinin formalaşdırdığı strateji xəttin mahiyyəti haqqında işin əvvəlində qeyd etmişik. Yalnız onu qeyd edirik ki, bu strateji xətt artıq sınaqdan çıxmış, müsbət nəticələri sübut olunmuşdur. Ona alternativ yoxdur.**

Strateji xəttin reallaşması üçün iqtisadi siyasət alətləri, mexanizmləri, vasitələri, normaları, qaydaları, qadağaları və s. bir sözlə, iqtisadi fəaliyyətin oyun qaydaları müəyyənləşdirilməlidir. Bütün bunlar iqtisadi siyasətin, əgər belə demək mümkünsə, nisbətən aşağı pilləsində, səviyyəsində formalaşdırılmalıdır. Bu səviyyədə formalaşan iqtisadi siyasətə də ciddi yanaşmağın zəruri olduğunu sübut etməyə lüzum yoxdur.

İqtisadi siyasətin aşağı pilləsinin formalaşmasında bəzən pərakəndəlik, sistemsizlik və digər neqativ halların olduğunu desək, yəqin ki, sirr açmarıq. Dövlətin iqtisadi siyasətinin bu səviyyəsində gah bir, gah da digər tərəfə meyil etmək, iqtisadi siyasətdə 180 dərəcə dəyişgənlik edilməsinin, ən azı iqtisadi inkişafa xidmət etmədiyinə biz əmin olmalıyıq.

Biz 2003-cü ildə vergi sahəsində regionlar üçün diferensial siyasət yeritmək haqqında qanun qəbul etdik. Aradan bir il keçməmiş, diferensial vergi siyasətini tətbiqinin nəticələrini ətraflı təhlil etmədən qeyd olundu ki, diferensial vergi siyasəti səmərəli deyil.

Əvvala, iqtisadi siyasətin səmərəliliyi bir istehsal tsiklində aşkara çıxmaya bilər. Onun təhlili üçün ən azı 2-3 illik təcrübə təhlil olunmalı idi. Burada tələsgənliyə yol vermək zərərli nəticələr verər. Ona şübhə edilməməlidir.

İkincisi, diferensial vergiqoymadan imtina edilməsində Beynəlxalq Valyuta Fondunun tövsiyələri əsas götürüldü. Ən azı adı belə qoyuldu. Hərçənd ki, onlar ümumiyyətlə vergiqoymada diferensiallığın heç də əleyhinə deyillər. Lakin onlar qeyd edirdilər ki, regionların inkişafını stimullaşdıran diferensial vergi siyasəti eyni istiqamətli, məqsədli pul-kredit, büdcə, gömrük, investisiya və s. siyasəti ilə yanaşı, tətbiq olunduqda səmərə verə bilər.



Bu siyast regionların sosial-iqtisadi inkişafına regionlarda istehsal və sosial infrastruktur sahələri yaradıldığı və inkişaf etdiyi, yollar abadlaşdırıldığı, stabil enerji təchizatı təmin edildiyi şəraitdə müsbət nəticələr verə bilər. Bir neçə dəfə BVF-nun nümayəndələrini qəbul etdiyim və onlarla ətraflı mübahisələr, təhlillər apardığım üçün bu fikri deyirəm.

Bizim müvafiq icra strukturlarının başçıları iqtisadi siyasətin digər komponentlərindən istifadə etmədən, təkcə vergi siyasətində radikal dəyişikliklər etməklə regionların inkişafını təmin etməyin mümkün olduğunu zənn etdilər. Onların bir qismi isə bu siyasətlə əvvəlcədən razı olmadıqlarından onun iflasa uğramasını təmin etmək üçün nələri etmək mümkünsə onların hamısını etdilər. O cümlədən regionların inkişafına iqtisadi siyasət komponentlərinin sistemli təsirini təmin etməkdən yan keçdilər. Adını da qoydular ki, diferensial vergi siyasəti özünü doğrultmur.

**İqtisadi siyasətin tərkib hissəsi kimi vergi sistemi bütövlükdə diferensiallıq üzərində qurulmuşdur. Fiziki şəxslərin gəlir vergisi, torpaq vergisi, əmlak vergisi, aksiz vergisi və s. buna əyani sübutdur.**

Əgər diferensiallıq olmasaydı, onda verginin iqtisadi funksiyalarını yerinə yetirmək, sadəcə olaraq mümkün olmazdı. Məhz diferensial siyasət yeritməklə, vergidən iqtisadi inkişafı stimullaşdırmaq, iqtisadiyyatın sahələri üzrə tarazlıqları dəyişdirmək, məqsədyönlü səmtə yönəltmək, sahələrarası nisbətləri tənzimləmək üçün istifadə olunur.

İnzibati yollarla mümkün olmayanlar iqtisadi siyasətlə, vergi, gömrük, investisiya, qiymət, tarif və s. siyasəti ilə öz həllini tapır. Yəni iqtisadiyyata, onun öz alətləri ilə - vergi, kredit, qiymət siyasəti ilə təsir etmək ən əlverişli vasitəyə çevrilir. Çox təəssüflə qeyd etməliyik ki, **hazırda «kimin bir fırıldaq tədbiri varsa onu BVF-nun əli ilə edir». Onlar bu ideyaları spesifik formalarla və metodlarla BVF-na ötürürlər. Onu BVF-nun tövsiyələri adlandırırlar. Bu fond isə öz təklifinin icrasını hansısa yeni, sərfəli kredit tranşının açılması ilə əlaqələndirir. Elə vəziyyət**

**yaranır ki, ya BVF-nun təklifini qəbul etmək, ya da kredit tranşının dayandırılacağı ilə qarşılaşırıq.**

BVF-nun öz şərtlərini bizə diktə etməsinə yol verməməliyik. Unutmamalıyıq ki, sahə üzrə vergilərdə diferensiallaşma aparılması iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına təsir etsə də o, regionların üstün və sürətli ikişafını təmin edə bilməz.

Biz vergilərin iqtisadi siyasəti reallaşdırmaq vasitəsi olduğunu unutmamalıyıq. Vergi özü iqtisadi siyasətin komponentlərindən biridir. Onun vasitəsilə iqtisadi inkişafı stimullaşdırmaq, yerli istehsalın artımına yeni impulslar gətirmək və iqtisadi yüksəlişi təmin etmək mümkündür. Dünya ölkələrində vergidən iqtisadi inkişafa təsir etmək üçün güclü alət kimi istifadə edilməsinə dair ABŞ, İngiltərə, Almaniya, Fransa, Çin Xalq Respublikasının iqtisadi təcrübəsinə aid onlarla misallar gətirmək olar.

İqtisadi sistemin transformasiyası dövründə və inkişaf etmiş bazar münasibətləri şəraitində dövlətin rolunda əsaslı fərqlər özünü qabarıq şəkildə büruzə verir. Bazar münasibətlərinə keçid dövründə dövlətin rolu başlıca olaraq yeni mülkiyyət münasibətlərinin formalaşmasına (bu münasibətlərin kortəbii sürətdə formalaşması mümkün deyil), kiçik sahibkarlığın, o cümlədən fermer təsərrüfatlarının (onun dövlət himayəsi olmadan formalaşması mümkün deyil), maliyyə və fond bazarlarının yaranmasına, əmək bazarının, bir sözlə, bazar iqtisadiyyatı infrastrukturlarının formalaşmasına təsir edir. Onların yaranması və inkişafı dövlətin bilavasitə iştirakı olmadan mümkün deyil. Bazar münasibətləri tamam formalaşdıqdan sonra da dövlətin iqtisadiyyatdan tamam getməsi mümkün deyil.

İqtisadiyyatın dövlət tənzimlənməsinin miqyası və metodları müxtəlif ölkələrdə əsaslı surətdə fərqlənir. Bu mövcud ölkənin tarixi ənənələri, həyat tərzi, milli təsərrüfatçılıq vərdişləri, geosiyasi vəziyyəti və s. əlaqədardır. Ona görə də bazar münasibətlərinə keçən ölkənin hazır reseptlərdən istifadə etməsi mümkün deyil.

Bazar münasibətlərini dövlətin tənzimləməsinin zəruriliyi təkcə həmin münasibətlərin qeyri təkmil olmasında axtarmaq düzgün olmazdı. Əlbəttə, dövlət daha fundamental makroiqtisadi münasibətləri tənzimləməklə bazar aqreqatlarının qayda yaratması faktdır. Bunu xüsusilə ekoloji balansın və eləcə də makroiqtisadi tarazlıqların təmin olunması məsələlərinə aid etmək olar.



«Ayrıca müəssisəyə sərfəli olan, həmçinin dövlətə sərfəlidir» fikri hazırki reallığı dolğun əks etdirmir. Dövlətin siyasəti ilə biznes fəaliyəti və onun nəticələri arasında uyğunsuzluqlar ola bilər. Ona görə də dövlətin vəzifəsi yalnız bazar iqtisadiyyatı fəaliyyətinə şərait yaratmaqdan ibarət deyildir. Onun başlıca funksiyası ictimai maraqla və ayrıca biznesin marağı arasında balans yaratmaqdan ibarətdir. Dövlət ölkədə yeridilən daxili və xarici siyasətdə balans yaradılmasını, ümummilli maraqların qorunmasını təmin etməlidir.

Dövlətin tənzimedici rolunun mərkəzi məsələsi - sosial-iqtisadi yenidənqurmanın strategiyasını, onun mərhələlərini, prioritetlərini və son məqsədini müəyyənləşdirməkdir. Onu Azərbaycan dövlətinin başçısı müəyyən edir.

Dövlətin başlıca funksiyasını, eləcə də onun iqtisadiyyata təsirinin təməl daşını qanunların hazırlanması və onların reallaşmasının təmin edilməsi təşkil edir. Bu bazar iqtisadiyyatında dövlətin iqtisadi rolunun əsasıdır. Təbii ki, iqtisadi sistemin transformasiyası dövlətin roluna da təsir etdi, onun əvvəlki funksiyalarının bəzisi aradan qalxdı, bəzi funksiyalarında isə keyfiyyət dəyişiklikləri baş verdi. İnzibati amirlik dövrünə xas olan funksiyalar yeni iqtisadi şəraitə uyğun olmadığından onların fəaliyyəti tükəndi. Bütün bunlar təbiidir. Çünki yeni iqtisadi münasibətləri əvvəlki qanunlar sistemi ilə idarə etmək olmazdı. Bazar münasibətlərini tənzim edən qanunlar qəbul olunmalı idi.

Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunması qanun yaradıcılığı işində sistem yaratdı. Əsas qanun digər qanunların hazırlanması və qəbulu üçün sistemyaradıcı xarakter daşıdı. Konstitusiya qəbul olunduqdan sonra hazırlanmış qanunların keyfiyyətcə fərqlənməsi təkcə onu hazırlayanların xidməti deyil. O habelə yeni hazırlanan qanunların müddəalarını əsas qanunla uzlaşdırmaq imkanının yaranması ilə əlaqədardır.

İndi dövlətin iqtisadi rolunda başlıca məsələlərdən biri qəbul olunmuş qanunların reallaşmasını təmin etməkdir. Məsələnin aktuallığı həm də onunla əlaqədardır ki, iqtisadiyyatın liberallaşması, iqtisadi sərbəstliyin, azadlığın genişlənməsi qanun pozuntularına və korrupsiyaya əlverişli şərait yaradır. Bu meyillərə qarşı mübarizənin çətinliklərlə qarşılaşması qanunların keşiyində durmalı olanların, dövlət çinovniklərinin, hüquq mühafizə orqanları işçilərinin arasında öz vəzifə borclarını tələb olunan səviyyədə yerinə yetirməyənlərin də olduğu, neqativ hallara yol verilməsi ilə əlaqədardır. Neqativ meyillərə qarşı təkcə inzibati metodlarla mübarizə aparılması əlbəttə azdır.

Bütövlükdə cəmiyyətdə qanunların aliliyinə nail olmaq vacibdir. Bunu repressiv metodlarla aparmaq, əvvəlki təcrübədən aydın olduğu kimi səmərəli deyil. Başlıca məsələ qanuna əməl etməyin hamı və hər kəs üçün normaya çevrilməsinə nail olmaqdır. Burada geniş siyasi, təbliğat-təşviqat işlərinin aparılması vacibdir. Lakin unutmamalıyıq ki, vətəndaş cəmiyyəti formalaşması prosesi və demokratik hüquqi dövlətin yaranması uzunmüddətli prosesdir. Onu bir oturumda həll etmək imkan xaricindədir. O, sistem xarakterli tədbirlərin həyata keçirilməsini tələb edir.

Qeyd etməliyik ki, dövlətin iqtisadi funksiyalarında səmərəliliyin lazımi dərəcədə yüksək olmamasının başlıca səbəbi qanunların tələb olunduğu səviyyədə icra olunmamasındadır. Vətəndaşların qanuni hüquqlarına, o cümlədən mülkiyyətə sahiblik hüququna, müqavilələrə əməl edilməməsinə, partnyorlar arasında qarşılıqlı tələbkarlıq mühitinin formalaşmasına əməl edilməsində ciddi nöqsanların olması və s. ilə əlaqədardır.

Dövlət müəyyən sosial funksiyalar yerinə yetirməlidir. Hər şeydən əvvəl təhsil, səhiyyə sahəsində. Bu habelə aztəminatlı əhali qrupuna dövlət himayəsinin təmin olunması problemlərinə aiddir. Dövlətin bu funksiyalarının lazımi dərəcədə yerinə yetirildiyini demək hələ çətindir. Əhalinin müxtəlif qrupları arasında təbəqələşmənin dərinləşməsi, varlılar və yoxsullar arasında uçurumun artması deyilənlərə sübutdur.



Qeyd olunan ziddiyyətlərə baxmayaraq, respublikamızda bazar münasibətləri ardıcıl olaraq genişlənir. Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən struktur dəyişiklikləri aparılır və iqtisadi artım baş verir. İqtisadi inkişafın bu mərhələsində dövlət təkmil struktur, investisiya siyasəti yeritməklə iqtisadi inkişafa fəal təsir etməlidir.

Bazar münasibətlərinə keçidin ölkədə birdən-birə ümumi tarazlıq və iqtisadiyyatda yüksək səmərəlilik yaratması mümkün deyil. İnkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində belə həm ümumi disproporsionallıq, həm də aşağı səmərəlilik mümkündür. Dünya təcrübəsi onu təsdiq edir. Azərbaycan iqtisadiyyatı sərbəst bazarın ideal səviyyəsindən uzaq olduğu üçün burada Qərbi Avropa ölkələrinə nisbətən iqtisadiyyatın dövlət tənzimlənməsinə daha çox zərurət vardır.

Bir neçə illər ölkədə aparılan islahatçılıq təcrübəsi göstərir ki, bazar əgər belə demək mümkünsə, hər şeyi öz qaydasına qoymaq qabiliyyətinə malik deyil. Onun üçün ən azı bazar mexanizmləri yaradılmalı və onların idarə olunması təşkil edilməlidir.

Bu mexanizm təcrübənin göstərdiyi kimi kortəbii surətdə yarana bilməz. Onu cəmiyyət şüurlu surətdə, dövlətin fəal iştirakı ilə yarada bilər. Öz-özünə «ilkin kapital yığımı» nəticəsində feodalizmdən kapitalizmin yaranması mümkündür. Qalan proseslərin formalaşmasında dövlət xüsusi rol oynamalıdır. Burada ilk növbədə nəyi və necə tənzimləmək, habelə orada prioritetləri necə müəyyən etmək və diqqəti onların nizamlanmasına nə cür yönəltmək məsələləri həll edilməlidir. Bu suallara düzgün cavab vermək üçün əvvəl iqtisadiyyatın mövcud vəziyyəti müəyyən edilməli, sonra məqsəd yönlü iqtisadi artıma nail olmaq yolları formalaşdırılmalıdır.

**Dövlətin daxili və xarici borclarının ayrıca sətirlə verilməsi 2004-cü il büdcəsinin müsbət cəhəti kimi qeyd edilməlidir.** Bu dövlətin iqtisadi müstəqilliyini qoruyub saxlamağın, təhlükəsizliyini təmin etməyin çox vacib şərtidir. Ona görə də dövlətin borc yükü ilə həddindən artıq yüklənməsinə yol verməmək, onun optimal həddə olmasını təmin etmək dövlətin iqtisadi təhlükəsizliyini

təmin etmək üçün çox vacibdir.

Statistika materiallarının təhlili Azərbaycanın daxili və xarici borclarının normal həddə olduğunu göstərir. Azərbaycanın xarici borclarının ÜDM-ə nisbəti 20-22 faiz təşkil edir. Bu sahədə Azərbaycanın vəziyyəti MDB ölkələrinin əksəriyyətindən yaxşıdır. Həm də nəzərə alınmalıdır ki, Azərbaycanın strateji valyuta ehtiyatları (2 milyard dollardır) xarici borclarından (1,2 milyard dollar) xeyli çoxdur. Bu xarici borcları istənilən vaxt ödəməyə imkan verir.

Dövlətin daxili və xarici borclarında problem olmasa da, dövlət borclarının səviyyəsi həmişə dövlətin diqqət mərkəzində olmalıdır. Çünki dövlət özünün daxili və xarici borcları ilə onları ödəmə qabiliyyəti arasında nisbətləri tənzimləməlidir. Bu olduqca vacibdir. Həm də ona görə ki, dövlətin ödəmə qabiliyyətliliyi onun iqtisadi müstəqilliyinin vacib şərtidir.

Hər ilin dövlət büdcəsində dövlətin daxili və xarici borclarının limiti müəyyən edilir və təsdiqlənir. O, dövlət büdcəsinin mühüm göstəricilərindən biri kimi təsdiqlənir və büdcənin icrası prosesində ona əməl edilir. 2004-cü ildə ölkəmizin milli və iqtisadi təhlükəsizliyini təmin etməyin vacib şərti olan xarici və daxili borcların limiti aşağıdakı kimi müəyyən edilmişdir. 2004-cü ildə Azərbaycan Respublikasının daxili dövlət borcunun yuxarı həddi 200 milyard manat, xarici dövlət borcunun yuxarı həddi 995 milyard manat təsdiq edilmişdir. Bu o deməkdir ki, dövlətin 2004-cü ilin büdcəsində təsdiq olunandan artıq daxili və xarici borclamaya getməsinə yol verilmir.

2004-cü ilin dövlət büdcəsi ölkənin bütün maliyyə axınlarının büdcə ilə (xəzinədarlıqla) əhatə olunmasını təmin etmək sahəsində irəliyə doğru mühüm addım olmuşdur. Ölkənin maliyyə axınlarının ənənəvi sistemi ilə yanaşı, digər maliyyə axınlarının da məqsədəuyğun istiqamətə yönəldilməsi sahəsində 2004-cü ilin büdcəsində mühüm addımlar atılmışdır.

2004-cü ildə dövlət büdcəsinin ənənəvi gəlirləri ilə yanaşı, bilavasitə büdcəyə cəlb olunmayan dövlət müəssisələrinin mənfəəti (Rabitə Nazirliyi, Xəzər Dəniz Gəmiçiliyi) – 45 milyard manatı, Dövlət Neft Fondundan ayırmalar - 650 milyard manatı, büdcə təşkilatlarının büdcədən kənar gəlirlərinin - 335 milyard manatının bölgüsü və istifadəsinin büdcə, xəzinədarlıq vasitəsilə aparılmasını təmin etmək qərara alınmışdır. Bu ÜDM-in dövlət büdcəsi vasitəsi ilə bölgüyə və yenidən bölgüyə cəlb edilən və ünvanlı istifadə olunan hissəsinin ildən ilə artdığını göstərir. O dövlətin iqtisadi rolunun artmasına, dövlət gəlirlərinin bölgüsü və istifadəsində aşkarlığın genişlənməsinə, dövlətin maliyyə resurslarından istifadənin ünvanlılığının təmin edilməsinə və dövlətin maliyyə resurslarından istifadənin səmərəliliyinin yüksəlməsinə təsir edir.

**2004-cü ilin büdcə zərfində həmçinin icmal büdcəsi verilmişdir. İcmal büdcəsi dövlətin bütün gəlirlərinin məcmusundan ibarətdir. İcmal büdcəsi dövlət büdcəsindən, Dövlət Sosial Müdafiə Fondunun büdcəsindən və Dövlət Neft Fondunun büdcəsindən ibarətdir.** Əgər biz icmal büdcəsinin gəlirləri və xərclərini dövlət büdcəsinin anoloji göstəriciləri ilə müqayisə etsək, onda dövlətin ümumi gəlirləri və xərclərinin əhəmiyyətli dərəcədə çox olduğunu görərik. Çünki dövlətin gəlirləri təkcə dövlət büdcəsində cəmləşənlər deyildir. Ona görədə icmal büdcəsinin təhlili ölkənin məcmu gəlirləri və xərcləri haqqında məlumat əldə etməyə, bütövlükdə ölkə iqtisadiyyatının necə işləməsi haqqında dürüst məlumat toplamağa və onların təhlilini aparmağa şərait yaradır.

## FƏSİL V. İQTİSADİ İNKİŞAFA DİNAMİZM GƏTİRMƏYİN MALİYYƏ VASİTƏLƏRİ

### 5.1. İlham Əliyev büdcə vəsaitlərindən istifadənin səmərəliliyinin yüksəldilməsi yolları

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü il 24 noyabr tarixli Fərmanında dövlət büdcəsi vəsaitlərinin təyinatı üzrə bölgüsü və səmərəli istifadə olunmasına nəzarəti gücləndirməyi və maliyyə intizamını pozanlara qarşı müvafiq tədbirlər görməyi Maliyyə Nazirliyinə tapşırmışdır.**

**Çox spektrli, müxtəlif səviyyəli büdcə prosesində başlıca məsələ əlbəttə gəlirlərin formalaşması və artırılmasıdır. Çünki hər şey gəlirlərdən başlayır. Ən azı ona görə ki, gəlirləri artırmadan xərcləri artırmaq mümkün olmazdı. Büdcə prosesində gəlirlər ilkin, xərclər və onların maliyyələşdirilməsi isə törəmədir. Lakin gəlirlərlə xərclər arasında əlaqənin mahiyyəti nəyin birinci, nəyinsə ikinci olmasından daha dərindir.**

Büdcənin və iqtisadiyyatın taleyi xeyli dərəcədə xərclərin təyinatı üzrə aparılmasından və səmərəli istifadə olunmasından asılıdır. Burada büdcə gəlirləri və xərclərinin sosial-iqtisadi mənası, xərclərin ən əlverişli bölgüsü, səmərəli istifadə olunması və şəffaflığının təmin olunmasından çox şey asılı olacaqdır.

2004-cü ilin büdcəsində xərclər funksional və iqtisadi təsnifat üzrə aparılmışdır. Bu xərclərin şəffaflığını, ünvanlılığını təmin etməyin başlıca şərtini təşkil edir.

2004-cü ildə dövlət büdcəsinin xərcləri 7,3 trilyon manat müəyyən olunmuşdur. Bu 2003-cü ilə nisbətən 894 milyard manat çoxdur.

2004-cü ilin dövlət büdcəsi sosial yönümlüdür. Büdcədə sosial yönümlü xərclərin üstünlüyü saxlanılmaqla yanaşı, 2004-cü ildə iqtisadiyyatın bir sıra sahələrinə dövlət büdcəsindən maliyyə yardımları ayrılmışdır.

Bütövlükdə büdcə xərclərinin 58,0 faizi və ya 4.218,8 milyard



manatı sosialyönümlü xərclərdən ibarətdir. Qeyd olunan xərclər 2003-cü illə müqayisədə (1,1 bənd) 561,4 milyard manat və ya 15,3 faiz çoxdur.

2003-cü illə müqayisədə 2004-cü il dövlət büdcəsi xərclərinin tərkibində təhsil xərclərinin xüsusi çəkisi 1,7 bənd artaraq 20,6 faizə, səhiyyə xərclərinin xüsusi çəkisi 0,1 bənd artaraq 4,8 faizə çatmışdır.

Sosialyönümlü xərclərin tərkib hissəsi olan əmək haqqı və əmək haqqına üstəlik xərclər dövlət büdcəsi xərclərinin 35,4 faizini təşkil etməklə 2003-cü ilə nisbətən 632,7 milyard manat və ya 32,5 faiz çox, dərman və ərzaq xərcləri 5,9 faizini təşkil etməklə cari ilə nisbətən 34,0 milyard manat və ya 8,6 faiz çox, əhaliyə pensiya, müavinət, təqaüd və sair ödənişlər üzrə xərclər 16,7 faizini təşkil etməklə cari ilə nisbətən 119,1 milyard manat və ya 10,9 faiz çox olacaqdır.

Əsas fondlara əsaslı vəsait qoyuluşu üçün büdcədə 776,6 milyard manat və ya xərclərin 10,5 faizi həcmində vəsait nəzərdə tutulmuşdur ki, bu da 2003-cü ilə nisbətən 4,7 milyard manat çoxdur.

Həmin vəsaitin 415,0 mlrd. manatı dövlət investisiya xərclərinin payına düşür.

«Dövlət qulluğu haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq dövlət orqanları işçilərinin əməyinin ödənilməsi sisteminin təkmilləşdirilməsi məqsədilə qanunvericilik, icra və məhkəmə orqanlarında yeni əmək haqqı sisteminin yaradılması üçün 2004-cü ilin dövlət büdcəsində 90,0 milyard manat vəsait nəzərdə tutulmuşdur.

Daxili işlər orqanları əməkdaşlarının (Daxili İşlər Nazirliyi, Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi, Dövlət Feldyeger Xidməti) vəzifə maaşlarının artırılması və hərbi pensiyaların, müavinətlərin yenidən hesablanması üçün 45,4 milyard manat, cari ilin avqust ayının 1-dən daxili işlər orqanları üzrə hərbi pensiyaların və müavinətlərin yenidən hesablanması ilə əlaqədar olaraq 35,0 milyard manat vəsait nəzərdə tutulmuşdur.

Elmlər namizədi və elmlər doktoru elmi dərəcələrinə görə vəzifə maaşlarına əlavələrin orta hesabla 5 dəfə artırılması üçün 6,1 milyard manat vəsait nəzərdə tutulmuşdur.

Bəzi beynəlxalq humanitar təşkilatların xətti ilə məcburi köçkünlərə yardımın dayandırılması nəticəsində onların ərzaq təminatında yaranmış boşluğu aradan qaldırmaq üçün Azərbaycan Respublikası Prezidentinin «Məcburi köçkünlərin ərzaq təminatı haqqında»kı müvafiq Sərəncamının icrasını təmin etmək məqsədilə ilk dəfə olaraq 2004-cü il dövlət büdcəsində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin büdcəsinə 15,9 milyard manat vəsait yönəldilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Elektrik enerjisindən istifadəyə görə bir sıra birinci dərəcəli istehlakçıların, məskunlaşmamış qaçqın və məcburi köçkünlərin istehlak etdikləri elektrik enerjisi dəyərinin ödənilməsinin tənzimlənməsi barədə» müvafiq qərara əsasən adambaşına elektrik enerjisi sərfinin norması 50-kvt-dan 150 kvt-a çatdırılır. Bu məqsədlə 2004-cü ilin dövlət büdcəsindən 16,0 milyard manat vəsait ayrılmışdır.

Azərbaycan Respublikası Prezidentinin **«Azərbaycan Respublikasında dövlət pensiya sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında»** müvafiq Fərmanından irəli gələn tədbirlərin icrası ilə əlaqədar olaraq uşaq müavinətləri üzrə 163,0 milyard manat vəsait Dövlət Sosial Müdafiə Fonduna ödənilən transfertin məbləğindən azaldılaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin büdcəsinə daxil edilmişdir.

**«2003-2005-ci illər üçün Azərbaycan Respublikasında Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nda Azərbaycan Respublikası Səhiyyə, Təhsil və Mədəniyyət** sahələrində çalışanların həyat səviyyəsini dövlət büdcəsinin vəsaiti hesabına daha da yaxşılaşdırmaq üçün tədbirlər nəzərdə tutulmuşdu. O cümlədən ümumtəhsil məktəblərində təhsil alan şagirdlər üçün pulsuz dərsliklərin nəşri, ilkin tibbi yardım sisteminin gücləndirilməsi, uşaq ölümü hallarının azaldılması və uşaq xəstəliklərinin müalicəsinin yaxşılaşdırılması, doğum təhlükəsizliyinin



və yenicə doğulmuş körpələrə qayğının artırılması, yoluxucu xəstəliklərin immunoprofilaktikası və epidemiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, bir sıra kitabxana və muzeylərin modernləşdirilməsi, dövlət sifarişi ilə filmlərin çəkilişinin yaxşılaşdırılması və digər tədbirlərin həyata keçirilməsi üçün əlavə xərclər nəzərdə tutulmuşdur.

Dövlət məktəblərində təhsil alan şagirdlərin tədricən pulsuz dərsliklərlə təmin olunması məqsədilə 2004-cü il dövlət büdcəsində 23,3 milyard manat, təhsil proqramlarının və təhsil standartlarının təkmilləşdirilməsi üçün 68,0 milyon manat, təhsilin maddi-texniki bazasının təkmilləşdirilməsi üçün 49,2 milyard manat, mütərəqqi texnologiyaların tətbiqi ilə əlaqədar yeni təhsil sisteminin formalaşdırılması üçün 50,0 mln. manat və xarici ölkələrdə təhsil alan tələbələrin təhsil, yaşayış, tibbi sığorta, yol və digər xərcləri üçün 4,5 milyard manat vəsait nəzərdə tutulmuşdur.

Səhiyyə xidmətləri üzrə ilkin tibbi yardım sisteminin gücləndirilməsi (10 rayonda başlamaqla) vasitəsilə az təminatlı əhaliyə əsas səhiyyə xidmətləri əldə etmək imkanlarının təmin etmək məqsədilə müvafiq işlər görülmüşdür.

Səhiyyə sisteminin maddi-texniki bazasının təkmilləşdirilməsi, vərəmlə xəstələnmə hallarının azaldılması və epidemiyalara qarşı mübarizə tədbirləri üzrə 36,0 milyard manat vəsait nəzərdə tutulmuşdur.

Milli kitabxananın və Korlar kitabxanasının, o cümlədən Dövlət İncəsənət Muzeyinin modernləşdirilməsi, latın qrafikası ilə «dünya, məktəbli və uşaq» ədəbiyyatı seriyalarının nəşr etdirilməsi üçün 972,0 milyon manat, dövlət sifarişi ilə filmlərin çəkilişi və dublaj işinin təşkili habelə, mədəni-maarif müəssisələri və tədbirləri üzrə 4,2 milyard manat, mədəniyyətin maddi-texniki bazasının təkmilləşdirilməsi üçün 22,4 milyard manat, mədəni irsin qorunması (tarixi abidələrin bərpası) üçün 2,7 milyard manat, teatr, filarmoniya, musiqi kollektivləri, ansamblları və incəsənət tədbirləri üzrə 20,3 milyard manat vəsait nəzərdə tutulmuşdur.

2004-cü il dövlət büdcəsində ilk dəfə olimpiya oyunlarında iş-

tirak etmək üçün vəsait ayrılmışdır. Yay olimpiya oyunlarına hazırlıqla bağlı xərcləri ödəmək üçün yeni maliyyə ilində ilk dəfə olaraq dövlət büdcəsindən 3,5 milyard manat məbləğində vəsait ayrılması nəzərdə tutulmuşdur.

Kommunal xərclərin ödənilməsi üçün büdcədə 398,8 milyard manat və ya 2003-cü ilə nisbətən 18,5 milyard manat (4,9 faiz) çox, o cümlədən elektrik enerjisi, qaz, su və istilik enerjisi haqlarının ödənilməsi üçün 351,5 milyard manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2003-cü illə müqayisədə 12,1 milyard manat və ya 3,6 faiz çoxdur.

İlk dəfə olaraq 2004-cü il dövlət büdcəsinin xərclərində kanalizasiya haqqının ödənilməsi xərci ayrıca sətirlə göstərilməklə bu məqsədə 6,1 milyard manat vəsait nəzərdə tutulmuşdur.

2003-cü ildə müəssisə və təşkilatlar tərəfindən mal (xidmət) satışı zamanı itgilərin bir hissəsinin ödənilməsi üçün (elektrik enerjisi, qaz, su, rabitə, metro, avtomobil nəqliyyatı, hava nəqliyyatı və s.) büdcədə 98,3 milyard manat vəsait proqnozlaşdırılmışdır.

Əmək haqqı, pensiya və müavinət, dərman, ərzaq, ezamiyyə, kommunal xidməti, cari və əsaslı təmir, inventar və mal alışları və digər xərclərin artımı hesabına 2003-cü ilə nisbətən elm xərclərinə 11,9 milyard manat və ya 13,3 faiz, təhsil xərclərinə 281,4 milyard manat və ya 23,1 faiz, səhiyyə xərclərinə 49,9 milyard manat və ya 16,6 faiz, sosial müdafiə xərclərinə 80,0 milyard manat və ya 10,4 faiz, sosial təminat xərclərinə 28,9 milyard manat və ya 9,4 faiz, mədəniyyət, incəsənət və kütləvi informasiya vasitələri xərclərinə 18,4 milyard manat və ya 12,2 faiz, bədən tərbiyyəsi və gənclər siyasəti tədbirlərinin xərclərinə 4,7 milyard manat və ya 29,2 faiz çox vəsait ayrılmışdır.

2003-cü ilə nisbətən 2004-cü ildə qanunvericilik, icra hakimiyyəti və mərkəzi icra orqanlarının saxlanılması xərclərinə 109,2 milyard manat və ya 28,4 faiz çox, müdafiə xərclərinə 48,8 milyard manat və ya 7,1 faiz çox, məhkəmə hakimiyyəti, hüquq mühafizə, təhlükəsizlik orqanlarının və prokurorluğun saxlanılması xərclərinə 159,9 milyard manat və ya 25,4 faiz çox vəsait ayrılmışdır.



Ölkə iqtisadiyyatında xüsusi rolu olan kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq xərclərinə 2003-cü ilə nisbətən 28,8 milyard manat və ya 10,3 faiz çox, nəqliyyat və rabitə xərclərinə 11,5 milyard manat və ya 5,2 faiz çox, mənzil-kommunal təsərrüfatı xərclərinə 4,1 milyard manat və ya 3,3 faiz çox, iqtisadi fəaliyyətlə bağlı xərclərə 78,8 milyard manat və ya 122,0 faiz çox, başqa kateqoriyalara aid edilməyən ümumdövlət xidməti xərclərinə 9,8 milyard manat və ya 42,6 faiz çox, əsas bölmələrə aid edilməyən sair xərclərə 35,6 milyard manat və ya 10,7 faiz çox vəsait nəzərdə tutulmuşdur.

Kiçik və orta sahibkarlığa maliyyə dəstəyinin gücləndirilməsi, onların inkişaf etdirilməsi üçün hazırlanmış proqramların maliyyələşdirilməsində büdcənin rolunun artırılmasına mühüm əhəmiyyət verilmiş və 2004-cü il dövlət büdcəndə bu məqsədə 100,0 milyard manat və ya 2003-cü ilə nisbətən 50,1 milyard manat və ya 2 dəfə çox vəsait yönəldilmişdir.

Sahibkarlığın inkişafında mühüm şərtlərdən biri də dövlət əmlakının özəlləşdirilməsi zamanı müəssisələrin özəlləşdirilmə qabağı onların sağlamlaşdırılmasına diqqət yetirilməklə bu məqsədə büdcədən vəsait ayrılmasıdır. 2004-cü il dövlət büdcəsində bu məqsədə 40,0 milyard manat və ya 2003-cü ilə nisbətən 8,0 dəfə çox vəsait nəzərdə tutulmuşdur.

2004-cü ilin dövlət büdcəsində Bakı metropoliteninin xərclərinin ödənilməsi üçün 33,0 milyard manat, vaqon parkının təzələnməsi üçün 40,0 milyard manat, ölkədə fövqəladə hallarla bağlı xərclər üçün 10,0 milyard manat vəsait nəzərdə tutulmuşdur.

Dövlət xarici borclarının idarə edilməsində son illərdə yaranmış müsbət iş 2004-cü ildə də davam etdiriləcəkdir. Xarici kreditlərin kredit alan təşkilatların öz vəsaitləri hesabına ödənilməsini təmin etmək üçün daha təsirli tədbirlərdən istifadə olunacaqdır.

2004-cü ildə bələdiyyələrə maliyyə köməkliyinin davam etdirilməsi üçün dövlət büdcəsində 10,0 milyard manat vəsait ayrılmışdır.

2004-cü ildən büdcə təşkilatlarının büdcədənkənar vəsaitləri üzrə xərcləri 335,0 milyard manat olacaqdır ki, bu da 2003-cü ilə nisbətən 33,7 milyard manat və ya 11,2 faiz çoxdur.

Təkliflər:

**1. Dövlət büdcəsindəki xərclərin bir qismi ünvansızdır. Onlar hər bir xərc maddəsinin sonunda verilən sair xərclərdən ibarətdir. Bu xərclərin ünvanını və hər birinin kəmiyyətini müəyyən etmək, əlbəttə asan deyil. Xüsusilə dəftərxana ləvazimatları, maşın təmiri üçün hissələr, qonaq qarşılamaq, ziyafət vermək və s. xərclərini əvvəlcədən dürüst müəyyən etmək çətindir.** Əlbəttə, sair xərclər iqtisadi və funksional təsnifata əsasən tərtib olunan büdcədə mümkün qədər olmamalıdır və yaxud onun kəmiyyəti az olmalıdır. Burada, əgər belə demək mümkünsə, ünvansız xərclər milyardlarla manatdır. Buna yol verilməməlidir.

**2.** Xərclərin 22-ci maddəsi, **«enerji, qaz və kimya sektorları üzrə alınan yanacaq üçün ödənilməyən məbləğə görə dövlət büdcəsi hesabına bu sektora ediləcək dolayı subsidiyaların limiti müvafiq olaraq 1.507.420 milyon manat, 266.300 milyon maqnat və 108.250 milyon manat müəyyən olunmaqla icmal büdcəsinin həm gəlir, həm də xərc hissəsinə daxil edilməklə ayrıca sətirlə əks etdirilir»**, bu misal üçün, Dövlət Neft Şirkəti ilə «Azərenerji» Dövlət Şirkəti arasında qarşılıqlı borcların təkrar yaranmasının qarşısını almağa şərait yarada bilər. Lakin bu eyni zamanda ödəniləcəyinə əvvəlcədən zəmanət verildiyindən dövlət müəssisələrini ələbaxımlığa öyrədə bilər. Bu enerji istehlakçılarını qənaətcil olmağa, israfçılığa yol verməməyə, öz xərclərini ödəməyə vadar etmək əvəzinə, israfçılığın artmasına səbəb olar, neqativ iqtisadi və mənəvi nəticələr verə bilər. Dolayı subsidiya israfçılıq edənlərin, xalqın hesabına yaşayanların, dövlətin cibinə girənlərin dolayı gəlir mənbəyinə çevrilməsinə yol verilməməlidir.

Ölkə Prezidentinin 2003-cü il 24 noyabr tarixli Fərmanında Maliyyə Nazirliyinə büdcə xərclərinin strukturunu təkmilləşdirmək, qanunla müəyyən edilmiş növbəliliklə maliyyələşmələri açmaq, maliyyə intizamını gücləndirmək tapşırılmışdır. Burada təbii



ki, büdcənin icrasına ardıcıl olaraq nəzarət olmadan keçinmək mümkün deyil.

Büdcənin icrasına nəzarət qanunverici və icra strukturları tərəfindən aparılır. Parlament nəzarəti 3 formada həyata keçirilir.

1. İlkin nəzarət - növbəti maliyyə ilinə dair sənədlər (büdcə zərfi) Milli Məclisdə nəzərdən keçirildikdə aparılır.
2. Rüblər üzrə dövlət büdcəsinin icrasına nəzarət. Hər rüb tamam olduqdan sonra növbəti ayın 25-nə kimi Milli Məclisə təqdim edilən sənədlərlə nəzarət həyata keçirilir.
3. Büdcə ili başa çatdıqdan sonra icra olunmuş büdcənin Milli Məclisdə müzakirəsi və təsdiq olunması ilə büdcənin icrasına yekun nəzarəti həyata keçirilir. «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən yeni maliyyə ilində mayın 15-nə kimi, keçən il icra olunmuş büdcə sənədləri və büdcənin icrası barədə hesabat Milli Məclisə təqdim olunur.

Hesablama Palatası büdcənin cari icrasına bütün il boyu nəzarət edir, topladığı materialları sistemləşdirir və Milli Məclisə məlumatlar, hesabatlar və təkliflər verir.

Büdcənin icrasına cari nəzarət Maliyyə Nazirliyi tərəfindən aparılır. Büdcədən xərclərin təyinatı üzrə maliyyələşmələrin aparılması və onların səmərəli istifadə olunması bir başa xəzinədarlığın funksiyasıdır.

Xəzinədarlıq təkcə büdcə vəsaitlərindən deyil, habelə Dövlət Neft Fondundan, Dövlə Sosial Müdafiə fondundan, büdcə təşkilatlarının büdcədənkənar fondlarından maliyyələşmələrin aparılmasını təmin edir. Bu nəzarətin başlıca funksiyası israfçılığa, dağıntıya yol verməmək, dövlət vəsaitinin hər manatından maksimum səmərəli istifədə olunmasını təmin etməkdir. Əlbəttə bu sahədə neqativ halların tam aradan qaldırıldığını demək olmaz.

Fərmanda neqativ halların aradan qaldırılması, büdcənin icrasına nəzarətin sistemli təkmilləşdirilməsi Maliyyə Nazirliyinə tapşırılmışdır.

Hesab edirik ki, ölkə Prezidentinin 24 noyabr tarixli Fərmanı Milli Məclis və onun iqtisadi siyasət komissiyası qarşısında ciddi

vəzifələr qoymuşdur. Biz büdcə gəlirlərinin icrasına nəzarətin konstruktiv yollarını tapmalı, xərclərin səmərəliliyini yüksəltmək, büdcənin iqtisadi inkişaf büdcəsinə çevirmək üçün qarşımızda duran vəzifələri və məsuliyyəti tam dolğunluğu ilə dərk edirik.

### 5.2. Dövlət büdcəsi 2004-cü il - makroiqtisadi göstəricilər

**Hər şey ÜDM istehsalından, onun artım tempindən başlayır. Dövlət büdcəsinin bütün makroiqtisadi göstəriciləri ÜDM bazasında formalaşır. O bir növ sistemyaradıcı rol oynayır.**

**Azərbaycan Respublikasının 2004-cü il dövlət büdcəsi 37 trilyon 300 milyard manatlıq ÜDM bazasında hazırlanmışdır. ÜDM istehsalının 12,5 trilyon manatı sənayedən, 5,7 trilyon manatı tikintidən, 5 trilyon manatı kənd təsərrüfatından, 2,8 trilyon manatı ticarətdən, 2,2 trilyon manatı nəqliyyatdan və digər sahələrdən formalaşacaqdır.**

Məlum olduğu kimi büdcə prosesində başlıca məsələ gəlirlərin formalaşmasıdır. **2004-cü ildə dövlət büdcəsinin gəlirləri 7 trilyon 002 milyard manat, xərcləri 7 trilyon 317 milyard manat təsdiq olunmuşdur. Büdcə xərclərinin gəlirlərlə örtülməyən hissəsi 315 milyard manat olacaqdır. Deməli, dövlət büdcəsi kəsirinin yuxarı həddi 315 milyard manat nəzərdə tutulmuşdur.**

**2003-cü ilə nisbətən 2004-cü ildə ÜDM istehsalında artım 4,5 trilyon manat, gəlirlərin artımı 910, xərclərin artımı isə 894 milyard manat müəyyən edilmişdir. Büdcənin kəsiri isə 2003-cü ilə nisbətən 2004-cü ildə 16 milyard manat az təsdiq edilmişdir.**

**2004-cü ildə büdcənin makroiqtisadi göstəricilərinin artım dinamikası ÜDM istehsalında 9,6 faiz, büdcənin gəlirlərində 14,5 faiz və büdcənin xərclərində 13,5 faiz müəyyən edilmişdir. Bu dünya üzrə yüksək göstəricilərdən biridir.**



2004-cü il dövlət büdcəsinin keyfiyyət göstəriciləri: **büdcə gəlirlərinin ÜDM-ə nisbəti 18,7 faiz, xərclərin ÜDM-ə nisbəti 19,6 faiz, büdcə kəsirinin yuxarı həddinin ÜDM-ə nisbəti isə 0,8 faiz nəzərdə tutulmuşdur.**

**Məlum olduğu kimi, dövlət büdcəsinin əsasını sosial-iqtisadi inkişaf proqnozları təşkil edir. Büdcə sistemi haqqında Qanuna uyğun olaraq 2004-cü ildə həm 2004-cü ilin və eləcə də 2004-2007-ci illərin əsas makroiqtisadi inkişaf göstəricilərinin proqnozları tərtib edilmişdir.**

Hökumətin izahatına görə proqnozlar mövcud sosial-iqtisadi vəziyyətin təhlilinə və perspektiv inkişafın texniki-iqtisadi hesablamalarına və normalarına əsaslanan göstəricilərdən ibarətdir. Bununla yanaşı, aparılmış təhlillər ÜDM-in artım proqnozlarının müəyyən edilməsində kifayət qədər dəqiqliyə əməl olunmadığını göstərir. Son illərin təcrübəsi də ona sübutdur. 2001-2003-cü illərin təcrübəsi ÜDM istehsalının faktiki həcminin proqnoz göstəricilərindən çox olduğunu göstərir. Bu proqnoz tərtib edilərkən ölkənin məcmu gəlirlərinin formalaşma mənbələri üzrə potensial imkanlara uyğun olması dürüst müəyyən edilməli, büdcə gəlirləri mövcud imkanlar nəzərə alınmaqla tərtib edilməlidir.

Sosial-iqtisadi inkişaf proqnozları elə tərtib edilməlidir ki, ona çatmaq üçün ciddi cəhdlər göstərilsin. Onun yerinə yetirilməsi gərgin işləmək, iqtisadi artıma təsir edən bütün amillərin rolundan maksimum səmərəli istifadə etmək tələb olunsun. Bu potensial imkanların nəzərə alındığı proqnozlarda belə ola bilər. Ona görə də proqnozlar hazırlanarkən iqtisadi inkişafın hələ rüşeym halında olan meyilləri də nəzərə alınmalıdır.

**2004-cü ilin dövlət büdcəsində büdcə daxilolmalarının 4.680 milyard manatı Vergilər Nazirliyi, 1.120 milyard manatı Gömrük Komitəsi tərəfindən yerinə yetiriləcək, 1.202 milyard manatı isə sair daxilolmalar hesabına formalaşacaqdır.** Büdcə gəlirlərinin əsasını büdcədən maliyyələşən təşkilatların büdcədənkənar gəlirləri (335,0 mlrd. manat) və Dövlət Neft Fondundan transfert (650,0 mlrd. manat), neftin ixrac qiyməti ilə daxili qiyməti

fərqindən daxilolmalar (237 milyard manat) təşkil edir.

Büdcə prosesində başlıca məsələ gəlirlərin təmin olunmasıdır. Çünki büdcə xərclərinin əsasını gəlirlər təşkil edir. Gəlirləri artırmadan büdcə xərclərinin artırılması büdcə kəsirinin artımı ilə nəticələnə bilər. Büdcə kəsirinin yuxarı həddi isə optimal səviyyədən yuxarı ola bilməz. Əks təqdirdə o neqativ nəticələr verə bilər.

2004-cü ildə ayrı-ayrı gəlir (mənbələri) növləri üzrə büdcə daxilolmaları aşağıdakı kimi müəyyən olunmuşdur.

**Fiziki şəxslərdən gəlir vergisi:**

**2004-cü ildə fiziki şəxslərdən gəlir vergisi 742,0 milyard manat proqnozlaşdırılmışdır.** O büdcə gəlirlərinin 10,7 faizini təşkil edir. 2004-cü ildə fiziki şəxslərin gəlir vergisindən büdcəyə daxilolmalar 2003-cü ilə nisbətən 27,9 faiz və ya 162,0 milyard manat çox nəzərdə tutulmuşdur.

Proqnozun tərtibi zamanı 2004-cü ildən işləyənlərin, xüsusən də büdcədən maliyyələşən təşkilatlarda çalışanların əmək haqlarının artırılması, neft sazişləri çərçivəsində xarici şirkətlərdə fəaliyyət göstərən fiziki şəxslərin sayının artacağı nəzərə alınmışdır. Eyni zamanda hesab edirik ki, ölkədə orta aylıq əmək haqqının 40 faiz artımı müqabilində gəlir vergisinin artımı 27,9 faizdən çox olmalı idi. Qeyd olunanlar göstərir ki, 2004-cü ildə fiziki şəxslərin gəlir vergisindən daxilolmalar müəyyən olunduğundan xeyli çox ola bilərdi. Buna vergi uçotundan yayınmaların qarşısını almaq, gəlirlərin vergiyə cəlb edilməsi qaydaları, formaları və sistemlərini təkmilləşdirməklə nail olmaq olardı.

**Mənfəət vergisi:**

**2004-cü ildə müəssisə və təşkilatlardan mənfəət vergisi 950 milyard manat olacaqdır.** O məcmu büdcə gəlirlərinin 13,6 faizini təşkil edir. Mənfəət vergisindən büdcəyə daxilolmalar 2003-cü ilin proqnozuna nisbətən 23,4 faiz çox nəzərdə tutulmuşdur.

**2004-cü ildən mənfəət vergisinin dərəcəsinin 1 faiz aşağı salınacaqdır. Bu 10 milyard manata yaxın vəsait deməkdir.** Qeyd olunana baxmayaraq, mənfəət vergisindən dövlət büdcəsinə daxilolmalar 2003-cü ilə nisbətən 2004-cü ildə 180 milyard manat



çox olacaqdır. Onun başlıca səbəbini əvvəlki illə müqayisədə müəssisə və təşkilatların mənfəətinin, habelə neft sazişləri üzrə podratçılar və subpodratçılar tərəfindən ödəniləcək vergilərin artımı təşkil edəcəkdir. Eyni zamanda nəzərə alsaq ki, makroiqtisadi proqnozlarda 2004-cü ildə müəssisə və təşkilatların sərəncamında qalan sərbəst mənfəətin həcmi 30 faiz artacaq, zərərlə işləyənlərin sayı isə azalacaqdır, belə olan halda, mənfəət vergisinin dövlət büdcəsinin gəlirlərində xüsusi çəkisinin 14,6 faizdən 13,6 faizə enməsinin səbəblərini anlamaq mümkün olmur. Fikrimizcə, mənfəət vergisindən büdcə daxilolmaları 2004-cü ildə 2003-cü ilə nisbətən xeyli yüksək olmalı idi. Sosial iqtisadi inkişaf proqnozlarının təhlili, müəssisə və təşkilatların mənfəətinin artım tempinin müqayisəsi bu mənbə hesabına büdcə gəlirlərini artırmaq üçün hələ istifadə olunmayan ehtiyat mənbələrinin kifayət qədər olduğunu göstərir. Onların büdcə gəlirlərinə qatılması üçün tədbirlər görülməlidir.

**Torpaq və əmlak vergisi:**

**2004-cü ildə büdcə gəlirlərinin 230,0 milyard manatı torpaq və əmlak vergilərindən formalaşması nəzərdə tutulmuşdur.** Bu 2003-cü ilə nisbətən 42,0 milyard manat və ya 14,4 faiz çoxdur. O büdcə daxilolmalarının 3,3 faizini təşkil edəcəkdir.

Torpaq və əmlak vergilərindən büdcə daxilolmalarının artımı hökumətin izahatına görə əsasən respublikamızda tikintinin geniş vüsət alması nəticəsində istifadəyə verilən əmlakın artımı, vergitutma obyekti olan torpaq və əmlakın uçotunun dəqiqləşdirilməsi, uçotdan yayınmaların qarşısının alınması üçün görülən tədbirlər və yığım əmsalının yüksəldilməsi hesabına təmin olunacaqdır. Lakin hesablamalar göstərir ki, hər iki vergi növü üzrə ölkədə daha böyük potensial vardır. Hesablamalar göstərir ki, 2003-cü ildə bu vergilərdən büdcə daxilolmalarının artımı 140 faiz ola bilər. Bu 2004-cü ildə torpaq və əmlak vergilərindən büdcə daxilolmaları proqnozlarının reallıqdan, potensial imkanlardan az müəyyən edildiyini təsdiq edir. Bu hər iki vergi üzrə ehtiyatların kifayət qədər olduğuna sübutdur və onların büdcə gəlirlərində nəzərə alınması unudulmamalıdır.

**Əlavə dəyər vergisi:**

**2004-cü ildə əlavə dəyər vergisindən büdcə daxilolmaları 2244,0 milyard manat və ya cari ildəkindən 13,5 faiz çox nəzərdə tutulmuşdur. O büdcə gəlirlərinin 32 faizini təşkil edəcəkdir.** Büdcə daxilolmalarının təqribən üçdə bir hissəsi əlavə dəyər vergisi hesabına təmin olunacaqdır.

Əlavə dəyər vergisindən büdcəyə daxilolmaların 1435,0 milyard manatını və ya 65,3 faizini vergi orqanları, 764,0 mlrd. manatını və ya 34,7 faizini gömrük orqanları təmin edəcəklər.

Hökumət 2004-cü ildə ÜDM-nin və idxalın artım səviyyəsini ƏDV üzrə proqnozun reallaşmasına zəmin hesab edə bilər. Bu doğrudur. Lakin ƏDV-nin artımı idxal üzrə daha çox gözlənilir. Bu büdcə daxilolmaları hesablanılarkən nəzərə alınmalı idi.

**Aksizlər:**

**2004-cü ildə büdcə daxilolmalarının 350,0 mlyard manatının aksizlər hesabına əldə edilməsi nəzərdə tutulur.** Bu 2003-cü ilə nisbətən 50 milyard manat çoxdur.

Aksizlərdən daxilolmalar büdcə gəlirlərinin 5,0 faizini təşkil edəcəkdir. Aksiz vergisindən büdcəyə daxilolmaların 300,0 mlrd. manatı vergi orqanları, 50,0 mlrd. manatı isə gömrük orqanları tərəfindən təmin ediləcəkdir.

Proqnozun artımı ilk növbədə Dövlət Neft Şirkəti tərəfindən ödəniləcək vergilərin hesabına təmin olunacaqdır.

**Mədən vergisi:**

**2004-cü ildə mədən vergisindən büdcəyə daxilolmalar 489,0 mlrd. manat nəzərdə tutulmuşdur.** Mədən vergisindən daxilolmalar büdcə gəlirlərinin 7,0 faizini təşkil edəcəkdir. Bu da 2003-cü ilə nisbətən 151,0 milyard manat azdır. Hökumət azalmanın səbəbini xam neftin respublikadaxili qiymətlərinin dəyişilməsi ilə izah edir. Bu, fikrimizcə, 2004-cü ildə mədən vergisindən büdcə daxilolmalarının 151 milyard manat az müəyyən edilməsinə əsas ola bilməz.

Fikrimizcə, bu verginin tətbiqi mexanizmlərini təkmilləşdirməklə, təmin etməklə, vergidən yayınmaların qarşısını almaq üçün



daha ciddi tədbirlər görməklə, bir sözlə, potensial imkanların büdcə daxilolmalarında nəzərə alınmasına nail olmaqla büdcə gəlirlərini xeyli artırmaq mümkündür.

**Vergi olmayan sair gəlirlər:**

**Vergi orqanlarının xətti ilə toplanan vergi olmayan sair gəlirlər üzrə büdcə daxilolmaları 2004-cü ildə 237,0 mlrd. manat müəyyən olunmuşdur.** Bu 2003-cü ilə nisbətən 55,0 mlrd. manat çoxdur. Bu gəlirlərin əsas hissəsini Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən malların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) respublikadaxili müəssisələrin topdansatış qiymətləri arasındakı fərqdən dövlət büdcəsinə 25 faiz həcmində ödənişlər ayrılmasından ibarətdir. Bu da ilk növbədə Dövlət Neft Şirkəti üzrə vergilərin artım səviyyəsi ilə bağlıdır.

Eyni zamanda növbəti ildə vergi orqanlarının vergi qanunvericiliyinin icrasında fəallıq göstərmələri, qanunu pozan vergi ödəyicilərinə qarşı daha səmərəli üsullardan istifadə etmələri (borcları əmlaka yönəltmək, maliyyə sankiyaları, peniyalar və s. tətbiq etməklə) büdcə daxilolmalarının artımına təsir etməlidir.

**Sadələşdirilmiş vergi:**

**2004-cü ildə sadələşdirilmiş vergi üzrə büdcə daxilolmaları 125,0 milyard manat müəyyən edilmişdir.** Bu 2003-cü ilə nisbətən 51,0 milyard manat çoxdur.

Proqnozun artımı ilk növbədə vergi orqanlarının bu vergi növünün ödənişlərinə nəzarətinin gücləndirilməsi və yığım əmsalını yüksəltmək, habelə sadələşmiş verginin bazasını 2004-cü ildə əhəmiyyətli dərəcədə genişləndirilməsi hesabına təmin edilməlidir.

**2004-cü ildə yol vergisindən dövlət büdcəsinə daxiolmalar 6 milyard manat təşkil edəcəkdir.** Bu 2003-cü ilə nisbətən 2,0 milyard manat azdır. Proqnozun azalması dövlətlərarası bağlanmış beynəlxalq müqavilələrə əlaqədardır. Bu müqavilələrə əsasən bir sıra ölkələr arasında beynəlxalq daşımalar yol vergisindən qarşılıqlı azad olunmuşlar.

**Gömrük rüsumları:**

**2004-cü ildə gömrük rüsumlarından büdcə daxilolmaları 300,0 mlrd. manat proqnozlaşdırılmışdır.** Bu büdcə daxilolmalarının 4,3 faizini təşkil edəcəkdir və o 2003-cü ildəki səviyyədədir.

**2004-cü ildə büdcə daxilolmalarının birdəfəlik rüsum 7,0 milyard manat nəzərdə tutulur.** Dövlət rüsumu büdcə gəlirlərinin 1,7 faizini təşkil edərək 120,0 milyard manat və ya 2003-cü ilə nisbətən 5,0 milyard manat çox olacaqdır.

Proqnoz tərtib olunarkən xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin azaldılması, ölkəyə gələn xarici vətəndaşlardan vizalara görə alınan rüsumlara nəzarətin gücləndirilməsi və ölkədə iqtisadi aktivliyin artması nəzərə alınmışdır. Eyni zamanda növbəti ildən bir sıra dövlət rüsumlarının tam məbləğdə dövlət büdcəsinə alınması nəzərdə tutulur ki, bu da dövlət rüsumu üzrə daxilolmanı əhəmiyyətli dərəcədə artıracaqdır.

Büdcə gəlirləri və xərcləri üzvi surətdə əlaqədardır. Gəlirlərin artımı büdcədən maliyyələşmələri artırmağa şərait yaradır. Ona görə hər bir dövlət öz büdcəsinə yığılan gəlirlərin artırılması üçün sistemli səy göstərir.

Büdcə gəlirlərini artırmaq imkanları çox səpkilidir, genişdir. Lakin biz büdcə gəlirlərini nəyin bahasına olursa olsun artırmaq siyasəti yeritmirik. Biz yeni vergilər müəyyən etməklə və vergi dərəcələrini yüksəltməklə büdcə gəlirlərini artırmağa çalışmırıq və belə vergi siyasəti yeritmirik. Əksinə, dövlət vergi dərəcələrini aşağı salmaq, vergi bazasını genişləndirmək, yığım əmsalını yüksəltmək siyasəti yeridir. Hər il dövlət büdcəsinin layihəsinə baxılarkən eyni zamanda vergi dərəcələri nəzərdən keçirilir və iqtisadi cəhətdən əsaslandırmaqla vergi dərəcələrinin aşağı salınması haqqında qanun qəbul olunur.

Büdcə gəlirlərinin artırılması iqtisadi inkişafa təsir etmiş, ÜDM istehsalının artımına, xalqın rifahının yüksəlməsinə xidmət etmişdir.

Ölkədə tikinti kompleksinin sabit və dinamik inkişafı yeni istehsal obyektlərinin tikilib işə salınması və yeni iş yerlərinin açılmasına geniş imkanlar yaradır. 2004-cü ildə saatda 300 sərnişinə xidmət edən Naxçıvan Beynəlxalq Aeroportu, 35 KY və ondan yüksək gücü olan aşağı gərginlikli 300 MYA transformator yarımstansiyaları (50 MYA Culfa rayonunda, 250 MYA İmişli rayonunda), Xaçmaz rayonunda ildə 50 milyon şərti banka konserv istehsal edən «Qafqaz» konserv zavodu, Lənkaran rayonunda ildə 12,5 min dekalitr pivə istehsal edən və ildə 1200 ton tomat istehsal edən zavodlar, sutkada 125 min ton un istehsal edən dəyirmanlar, Şəki şəhərində 78,8 min nömrəlik, Sumqayıt şəhərində 3,5 min nömrəlik, Gəncə şəhərində 2,8 min nömrəlik, Əli Bayramlı şəhərində 2,0 min nömrəlik, Ağstafa rayonunda 3,2 min nömrəlik, Tovuz rayonunda 4,5 min nömrəlik, Qəbələ rayonunda 2,7 min nömrəlik, Abşeron rayonunda 3,1 min nömrəlik, Daşkəsən rayonunda 1,6 min nömrəlik, Xaçmaz rayonunda 1,2 min nömrəlik və ölkənin digər bölgələrində 18,2 min nömrəlik telefon şəbəkələri istifadəyə verilmişdir.

2004-cü ildə bütün maliyyə mənbələri hesabına ölkədə ümumi sahəsi bir milyon 156,1 min kvadratmetr olan yeni yaşayış evləri inşa edilmiş və onların 92,5 faizi əhalinin şəxsi vəsaiti hesabına həyata keçirilmişdir. Bundan əlavə 160 çarpayılıq xəstəxana, bir növbədə 278 nəfər qəbul edən ambulatoriya-poliklinika, 20 min 932 şagird yerlik ümumtəhsil məktəbləri, 228 yerlik məktəbəqədər uşaq müəssisələri, Naxçıvan şəhərində 260 oxucu yeri olan kitabxana və s. tikilib istifadəyə verilmişdir.

ÜDM istehsalını artırmaq əhalinin pul gəlirlərinə, büdcə gəlirlərinə təsir etmiş və dövlətin büdcə-vergi siyasətinin reallaşmasına xidmət etmişdir.

### 5.3. 2004-cü ildə dövlət büdcəsi xərclərinin reallaşma istiqamətləri

**2004-cü ildə dövlət büdcəsinin xərcləri 7 trilyon 317 milyard manat həcmində müəyyən olunmuşdur. Bu 2003-cü ilə nisbətən 894 milyard manat çoxdur.**

2004-cü ilin dövlət büdcəsi sosial yönümlüdür. Büdcədə sosialyönümlü xərclərin üstünlüyü saxlanılmaqla iqtisadiyyatın bir sıra sahələrinə dövlət büdcəsindən maliyyə yardımları ayrılmışdır.

**Bütövlükdə büdcə xərclərinin 58,0 faizi və ya 4.218,8 milyard manatı sosialyönümlü xərclərdən ibarətdir. Qeyd olunan xərclər 2003-cü illə müqayisədə 561,4 milyard manat və ya 15,3 faiz çoxdur.**

**2003-cü illə müqayisədə 2004-cü il dövlət büdcəsi xərclərinin tərkibində təhsil xərclərinin xusüsi çəkisi artaraq 20,6 faizə, səhiyyə xərclərinin xusüsi çəkisi artaraq 4,8 faizə çatmışdır.**

Sosialyönümlü xərclərin tərkib hissəsi olan əmək haqqı və əmək haqqına üstəlik xərclər **dövlət büdcəsi xərclərinin 35,4 faizini təşkil etməklə 2003-cü ilə nisbətən 632,7 milyard manat və ya 32,5 faiz çox, dərman və ərzaq xərcləri 5,9 faizini təşkil etməklə cari ilə nisbətən 34,0 milyard manat və ya 8,6 faiz çox, əhaliyə pensiya, müavinət, təqaüd və sair ödənişlər üzrə xərclər 16,7 faizini təşkil etməklə cari ilə nisbətən 119,1 milyard manat və ya 10,9 faiz çox olacaqdır.**

Əsas fondlara əsaslı vəsait qoyuluşu üçün büdcədə 776,6 milyard manat və ya xərclərin 10,5 faizi həcmində vəsait nəzərdə tutulmuşdur ki, bu da 2003-cü ilə nisbətən 4,7 milyard manat çoxdur.

**Həmin vəsaitin 415,0 mlrd. manatı dövlət investisiya xərclərinin payına düşür.**

**«Dövlət qulluğu haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq dövlət orqanları işçilərinin əməyinin ödənilməsi sisteminin təkmilləşdirilməsi məqsədilə qanunvericilik, icra və məhkəmə orqanlarında yeni əmək haqqı sisteminin formalaşması üçün 2004-cü ilin dövlət büdcəsində 90,0 milyard manat vəsait nəzərdə tutulmuşdur.**

**Daxili işlər orqanları əməkdaşlarının (Daxili İşlər Nazirliyi, Baş Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi, Dövlət Feldyeger Xidməti) vəzifə maaşlarının artırılması və hərbi pensiyaların,**



**müavinətlərin yenidən hesablanması üçün 45,4 milyard manat, cari ilin avqust ayının 1-dən daxili işlər orqanları üzrə hərbi pensiyaların və müavinətlərin yenidən hesablanması ilə əlaqədar olaraq 35,0 milyard manat vəsait nəzərdə tutulmuşdur.**

2003-cü ilin əvvəlindən Azərbaycan Respublikası Prezidenti əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə bir sıra sərəncam və fərmanlar imzalamışdır. Belə ki, elm, təhsil, səhiyyə, mədəniyyət, incəsənət və kütləvi informasiya vasitələri, kənd, meşə, balıqçılıq, meliorasiya və su təsərrüfatları, ekologiya və hidrometeorologiya, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və s. işçilərinin vəzifə maaşları, vəzifə maaşlarına əlavələrin məbləği, pensiyaçıların pensiya və müavinətlərinin ümumi məbləği artırılmışdır. **Bu artımlar 1700,0 min nəfərə şamil edilmiş və 2004-cü il dövlət büdcəsində tələb olunan miqdarda vəsait nəzərdə tutulmuşdur.** Qeyd olunanlarla yanaşı, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə Azərbaycanın elm, təhsil, mədəniyyət və incəsənət, iqtisadiyyat və dövlət idarəçiliyi sahələrində böyük xidmətləri olan bir sıra şəxslərə fərdi təqaüdlərin, habelə səhnə fəaliyyəti ilə bağlı bir qrup aparıcı incəsənət xadimlərinə mükafatların verilməsinə başlanılmış, bu məqsədlə 2004-cü il dövlət büdcəsində 5,1 milyard manat vəsait nəzərdə tutulmuşdur.

Büdcədən maliyyələşən təşkilatlarda çalışan işçilərin əmək haqlarının mərhələlərlə artırılması, onların orta aylıq əmək haqları ilə ölkədə mövcud olan orta aylıq əmək haqqı arasındaki fərqin azalması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

«Minimum əmək haqqının artırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə ölkədə minimum aylıq əmək haqqının məbləği artaraq mövcud 27500 manatdan 2003-cü ilin sentyabrın 1-dən 45000 manata çatdırılmış, 2004-cü ilin yanvarın 1-dən isə 60000 manata çatdırıl ılmış, sonradan o 120 min manata çatdırılmışdır. **Bu məqsəd üçün ayrı-ayrı sahələrdə çalışan 217,0 min nəfərdən artıq işçinin əmək haqqı artırılmışdır. 2004-cü ilin dövlət büdcəsində bu məqsəd üçün 44,0 milyard**

**manata yaxın vəsait ayrılmışdır.**

**2004-cü ildən dövlət hesabına ali təhsil müəssisələrində oxuyan tələbələrə və aspirantlara təqaüdün 50 faiz artımı ilə əlaqədar büdcədə 6,9 milyard manat vəsait müəyyən edilmişdir.**

**Elmlər namizədi və elmlər doktoru elmi dərəcələrinə görə vəzifə maaşlarına əlavələrin orta hesabla 5 dəfə artırılması məqsədilə 6,1 milyard manat vəsait ayrılmışdır.**

**Bəzi beynəlxalq humanitar təşkilatların xətti ilə məcburi köçkünlərə yardımın dayandırılması nəticəsində onların ərzaq təminatında yaranmış boşluğu aradan qaldırmaq üçün Azərbaycan Respublikası Prezidentinin «Məcburi köçkünlərin ərzaq təminatı haqqında» Sərəncamının icrasını təmin etmək məqsədilə ilk dəfə olaraq 2004-cü il dövlət büdcəsində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin büdcəsinə 15,9 milyard manat vəsait yönəldilmişdir.**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Elektrik enerjisindən istifadəyə görə bir sıra birinci dərəcəli istehlakçıların, məskunlaşmamış qaçqın və məcburi köçkünlərin istehlak etdikləri elektrik enerjisi dəyərinin ödənilməsinin tənzimlənməsi barədə» Qərarının icrası olaraq adambaşına elektrik enerjisi sərfinin norması 50-kvt-dan 150 kvt-a çatdırılmışdır. Bu məqsədlə 2004-cü ilin dövlət büdcəsində əlavə 16,0 milyard manat vəsait proqnozlaşdırılmışdır.**

Azərbaycan Respublikası Prezidentinin **«Azərbaycan Respublikasında dövlət pensiya sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında»** Fərmanından irəli gələn tədbirlərin icrası ilə əlaqədar olaraq uşaq müavinətləri üzrə 163,0 milyard manat vəsait Dövlət Sosial Müdafiə Fonduna ödənilən transfertin məbləğindən azaldılaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin büdcəsinə daxil edilmişdir.

**«2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nda Azərbaycan Respublikası səhiyyə, təhsil və mədəniyyət**



sahələrində çalışanların həyat səviyyəsini dövlət büdcəsinin vəsaiti hesabına daha da yaxşılaşdırmaq üçün tədbirlər nəzərdə tutulmuşdur. O cümlədən ümumtəhsil məktəblərində təhsil alan şagirdlər üçün pulsuz dərsliklərin nəşri, ilkin tibbi yardım sisteminin gücləndirilməsi, uşaq ölümü hallarının azaldılması və uşaq xəstəliklərinin müalicəsinin yaxşılaşdırılması, doğum təhlükəsizliyinin və yenicə doğulmuş körpələrə qayğının artırılması, yoluxucu xəstəliklərin immunoprofilaktikası və epidemiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, bir sıra kitabxana və muzeylərin modernləşdirilməsi, dövlət sifarişi ilə filmlərin çəkilişinin yaxşılaşdırılması və digər məsələlərin həyata keçirilməsi üçün əlavə xərclər proqnozlaşdırılmışdır.

**Dövlət məktəblərində təhsil alan şagirdlərin tədricən pulsuz dərsliklərlə təmin olunması məqsədilə 2004-cü il dövlət büdcəsində 23,3 milyard manat, təhsil proqramlarının və təhsil standartlarının təkmilləşdirilməsi üçün 68,0 milyon manat, təhsilin maddi-texniki bazasının təkmilləşdirilməsi üçün 49,2 milyard manat, mütərəqqi texnologiyaların tətbiqi ilə əlaqədar yeni təhsil sisteminin formalaşdırılması üçün 50,0 mln manat və xarici ölkələrdə təhsil alan tələbələrin təhsil, yaşayış, tibbi sığorta, yol və digər xərcləri üçün 4,5 milyard manat vəsait nəzərdə tutulmuşdur.**

**Səhiyyə xidmətləri üzrə ilkin tibbi yardım sisteminin gücləndirilməsi** (10 rayonda başlamaqla) vasitəsilə əsas səhiyyə xidmətləri əldə etmək imkanlarının təmin edilməsi, maddi-texniki bazasının təkmilləşdirilməsi, vərəmlə xəstələnmə hallarının azaldılması və epidemiyalara qarşı mübarizə tədbirləri üçün **36,0 milyard manat vəsait nəzərdə tutulmuşdur.**

Milli kitabxananın və Korlar üçün kitabxananın və Dövlət İncəsənət Muzeyinin modernləşdirilməsi, latın qrafikası ilə «dünya, məktəbli və uşaq» ədəbiyyatı seriyalarının nəşr etdirilməsi üçün 972,0 milyon manat, dövlət sifarişi ilə filmlərin çəkilişi və dublaj işinin təşkili habelə, mədəni-maarif müəssisələri və tədbirləri üzrə 4,2 milyard manat, mədəniyyətin maddi-texniki bazasının təkmil-

ləşdirilməsi üçün 22,4 milyard manat, mədəni irsin qorunması (tarixi abidələrin bərpası) üçün 2,7 milyard manat, teatr, filarmoniya, musiqi kollektivləri, ansamblları və incəsənət tədbirləri üzrə 20,3 milyard manat vəsait nəzərdə tutulmuşdur.

**Yeri gəlmişkən qeyd edilməlidir ki, dövlət büdcəsindəki xərclərin bir qismində şəffaflıq kifayət qədər təmin olunmamışdır. Onların konkret xərc maddələrinin sonunda demək olar ki, bütün xərc maddələrində sair xərclər verilmişdir. Bu vəsaitlərin ünvanı bəlli deyildir. Doğrudur, elə xərclər vardır ki, onların kəmiyyətini əvvəlcədən müəyyən etmək (dəftərxana ləvazimatları, maşın təmiri üçün hissələr, qonaq qarşılamaq, ziyafət vermək və s.) bir sıra çətinliklərlə bağlıdır.**

Fikrimizcə, sair xərclər iqtisadi və funksional təsnifatla tərtib olunan büdcədə olmamalıdır. Burada isə ünvanı qabaqcadan müəyyən edilməyən xərclər milyardlarla manatdır.

**2.** Xərclərin 22-ci maddəsində, **«enerji, qaz və kimya sektorları üzrə alınan yanacaq üçün ödənilməyən məbləğə görə dövlət büdcəsi hesabına bu sektora ediləcək dolayı subsidiyaların limiti müvafiq olaraq 1.507.420 milyon manat, 266.300 milyon manat və 108.250 milyon manat müəyyən olunmaqla icmal büdcəsinin həm gəlir, həm də xərc hissəsinə daxil edilməklə ayrıca sətirlə əks etdirilir»**, bu misal üçün, Dövlət Neft Şirkəti ilə «Azərenerji» Dövlət Şirkəti arasında qarşılıqlı borcların təkrar yaranmasının qarşısını almağa şərait yarada bilər. Lakin bunun dövlət tərəfindən ödəniləcəyinə dövlət büdcəsində əvvəlcədən zəmanət verildiyini əsas götürüb neqativ hərəkətlərə yol verilə bilər. Yəni dövlət müəssisələrinin bəzi işçiləri enerji xərclərini dövlət büdcəsi hesabına ödəniləcəyini əsas götürərək israfçılığa və ya digər neqativ hallara yol verə bilərlər. Qeyd olunanlar elektrik enerjisi istehlakçılarını öz xərclərini ödəməyə vadar etmək əvəzinə, bu sektora ediləcək dolayı subsidiyaların artımına səbəb ola bilər.

**Enerji daşıyıcılarının qiymətinin yüksəldiyi şəraitdə bu sektora dolayı subsidiyalar dayandırılmalıdır.** Hazırda oluğu kimi, enerji daşıyıcılarının həm qiymətlərini qaldırmaq, həm də



onlara 2005-ci ilin dövlət büdcəsində qeyd olunduğu kimi 1,5 trilyon manat dolayı subsidiyaları saxlamaq iqtisadi və eləcə də mənəvi cəhətdən çox zərərli meyillərin meydana gəlməsinə səbəb ola bilər. Bu müəssisələr istifadə etdikləri enerjinin dəyərinin ödəniləcəyinə əvvəlcədən əmin olduqları üçün israfçılığa yol verə bilər, digər müəssisə və təşkilatlara və eləcə də dövlətə çətinliklər yarada bilərlər. Fikrimizcə, dolayı subsidiya adı altında işinə məsuliyyətsiz yanaşan, israfçılığa yol verənlərin xalqın hesabına, dövlətin cibinə girməklə rahat yaşamasına yol verilməməlidir.

Dövlət büdcəsində kiçik və orta sahibkarlığa maliyyə dəstəyinin gücləndirilməsinə, onların artımı və istifadəsinin səmərəliliyinə diqqət artırılmışdır. Bu barədə hazırlanmış məqsədli proqramların maliyyələşdirilməsində büdcənin rolunun artırılmasına mühüm əhəmiyyət verilmişdir. 2004-cü il dövlət büdcəndə bu məqsədlə 100,0 milyard manat və ya 2003-cü ilə nisbətən 50,1 milyard manat və ya 2 dəfə çox vəsait yönəldilmişdir. 2005-ci ildə isə bu məqsədlə yaranan vəsaitin ümumi məbləği yenidən 2 dəfə artırılmışdır.

Sahibkarlığın inkişafında mühüm şərtlərdən biri də dövlət əmlakının özəlləşdirilməsi zamanı müəssisələrin özəlləşdirilmə qabağı onların sağlamlaşdırılmasına diqqətin artırılmasından ibarətdir.

**2004-cü ilin dövlət büdcəsində bu məqsədə 40,0 milyard manat və ya 2003-cü ilə nisbətən 8,0 dəfə çox vəsait nəzərdə tutulmuşdu.**

**Bakı Metropoliteninin zərərinin ödənilməsi üçün 2004-cü ilin dövlət büdcəsində 33,0 milyard manat, vaqon parkının yeniləşdirilməsi üçün 40,0 milyard manat vəsait dövlət büdcəsindən verilmişdir.**

Dövlətin xarici borclarının idarə edilməsində son illər yaranmış müsbət meyillərinin 2004-cü ildə və 2005-ci ildə də davam etdirilməsi nəzərdə tutulmuşdur.

Xarici kreditlərin kredit alan təşkilatların öz vəsaitləri hesabına ödənilməsini təmin etmək üçün daha təsirli tədbirlərdən istifadə olunacaqdır. Bu, həmin müəssisə və təşkilatların işinin səmərəlilik əmsalını yüksəltməyə təsir edə bilər.

**2004-cü ildə bələdiyyələrə maliyyə köməkliyinin davam etdirilməsi üçün dövlət büdcəsində 10,0 milyard manat vəsait ayrılmışdı. Bu vəsaitin məbləği ildən-ilə azaldılaraq, bələdiyyələrin öz vəsaitləri hesabına yaşamağa öyrətməlidir.**

**2004-cü ildən büdcə təşkilatlarının büdcədənkənar vəsaitləri üzrə xərcləri 335,0 milyard manat olacaqdır ki, bu da 2003-cü ilə nisbətən 33,7 milyard manat və ya 11,2 faiz çoxdur.**

**2004-cü ildə dövlət büdcəsinin tərkib hissəsi olan yerli xərclərə (büdcədənkənar vəsaitsiz) 1956,5 milyard manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2003-cü ilə nisbətən 311,5 milyard manat və ya 18,9 faiz çoxdur.**

**2004-cü il dövlət büdcəsinin kəsiri 315 milyard manat təsdiq olunmuşdur. Onun ÜDM-ə nisbəti 0,8 faizdir. O, 2003-cü ildə büdcə kəsirinin ÜDM-ə nisbətindən 0,2 bənd azdır.**

**Dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi üçün 315,0 milyard manat və ya ÜDM-in 0,8 faizi həcmində vəsait tələb olunur.**

**1990-cı illərin ortalarında büdcə kəsirinin ÜDM-ə nisbəti 12-14 faiz təşkil etdiyi halda, hazırda 0,07-0,08 faiz təşkil etməsi yaxın illərdə Azərbaycanın kəsirsiz büdcə tərtib olunmasına keçidə yaxınlaşdığını göstərir.**

Büdcə kəsirinin 215,5 milyard manatı və ya 68,4 faizi daxili mənbələr hesabına (Beynəlxalq Səhmdar Kommersiya Bankının özəlləşdirilməsindən daxil olacaq 60,0 milyard manat, qısa müddətli xəzinə öhdəldikləri hesabına ödəniləcək), 99,5 milyard manatı və ya 31,6 faizi xarici maliyyələşmə mənbələri hesabına örtülməsi nəzərdə tutulur.

**Azərbaycan Respublikasının 2004-cü il icmal büdcəsinin gəlirləri 9965,6 milyard manat, xərcləri 10071,8 milyard manat, kəsiri 106,2 milyard manat, Dövlət Neft Fondunun gəlirləri nəzərə alınmadan icmal büdcənin kəsiri 1035,0 milyard manat müəyyən edilmişdir.**

İqtisadi inkişafa təsir etməyin ən güclü aləti kimi büdcə-vergi siyasətinin təkmilləşdirilməsi günün vacib məsələlərindən biridir.



Hər il büdcə zərfi ilə Milli Məclisə göndərilən sənədlərin mühüm bloklarından birini məhz büdcə-vergi siyasətinin təkmilləşdirilməsinin başlıca istiqamətləri təşkil edir. Bu dəyişikliklərin başlıca məqsədi dövlətin 2004-cü ildə büdcə gəlirlərini artırmaq, xərclərin səmərəliliyini yüksəltmək üçün qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsini təmin etmək idi. Bu siyasət dövlət büdcəsində hökumətin öhdəsinə götürdüyü vəzifələrin uğurla yerinə yetirilməsinə, büdcənin bütün parametrlərinin icrasına şərait yaratmalıdır.

2004-cü ilin büdcə zərfində Milli Məclisə göndərilən sənədlərdən biri də Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi haqqında Qanun layihəsindən ibarətdir. Bu dəyişikliklər mahiyyətcə büdcə gəlirlərinin reallığını təmin etməyə yönəlmişdir.

Vergi Məcəlləsinə əlavə və dəyişikliklər 70-dən çoxdur. Lakin onların çoxu qaydalardan və redaktə xarakterli dəyişikliklərdən ibarətdir. Bu dəyişikliklərin daha aydın başa düşülməsi üçün onların qruplaşdırılması zəruridir. Fikrimizcə, bu dəyişiklikləri 7 qrupa bölmək olar:

**1. Ölkə Prezidenti Vergi Məcəlləsinin tətbiqi ilə əlaqədar fərmanında Nazirlər Kabinetinə oradakı müddəaların icrası üçün qaydalar hazırlamaq haqqında tapşırıqlar vermişdi.** Bu qaydalar 30-dan çoxdur (39 qaydadır). Onlar çoxdan hazırlanmışdır və bəzisi artıq üç ildir ki, dövriyyədədir. Onlara heç bir dəyişiklik və əlavələr etmədən Vergi Məcəlləsinin müvafiq maddələrinə əlavə etmək tövsiyə olunur.

Məqsəd ondan ibarətdir ki, vergi qanunvericiliyinə aid bütün materiallar bir sənəddə, Vergi Məcəlləsində olsun. Vergi Məcəlləsinə təklif olunan dəyişikliklərin əsasını Nazirlər Kabineti tərəfindən hazırlanmış bu qaydalar təşkil edir. Ona görə də bu dəyişikliklər məqbul hesab edilməlidir.

**2. Redaktə xarakterli dəyişikliklər:**

Vergi Məcəlləsinin bir sıra maddələrində bir ay, bir rüb, bir aydan 3 aya kimi (Misal üçün 13-cü, 57-ci, 85-ci, 89-cu, 102-ci və s. maddələrdə) sözləri yazılmışdır. Təklif olunur ki, bir ay, bir rüb, bir aydan 3 aya kimi və s. sözləri Vergi Məcəlləsində 30 gün, 90

gün, 30 gündən 90 günə kimi yazılsın. Qanunun müddəalarının daha dəqiq ifadə olunmasına xidmət etdiyi üçün redaktə xarakterli dəyişiklikləri məqbul hesab etmək olar. Burada, fikrimizcə, sadəcə olaraq, 30 gün deyil, 30 iş günü, ən vacibi isə 30 bank günü yazmaq daha düzgün olardı. Çünki bu əməliyyatların xeyli hissəsi bank vasitəsilə icra olunur. Ona görə də peniyaların, cərimələrin, maliyyə sanksiyalarının bank günü ilə aparılması daha dəqiq olardı.

Qanundakı müddəaların bir mənalı ifadəsini təmin etmək, fikirlərin lokanikliyinə nail olmaq üçün «Vergi Məcəlləsində» bir sıra digər redaktə xarakterli dəyişikliklər edilmişdir.

**3. Vergi qanunvericiliyində terminoloji nöqteyi nəzərdən unifikasiya aparılması təklif olunur:**

a) **Vergi qanunvericiliyində maliyyə sanksiyalarının, cərimə və peniyaların minimum əmək haqqının misli ilə yazıldığı yerlər çoxdur.** Bu indi olmasa da, sonrakı illərdə gərginlik yaradacağına şübhə edilməməlidir.

Məlum olduğu kimi, minimum əmək haqqı sabit deyil. Ölkə iqtisadiyyatının inkişafı imkan yaratdıqca dövlət başçısının sərəncamı ilə o artırılır. Minimum əmək haqqı, əvvəllər əvvəl 5.500 manat idi. 2005-ci il yanvarın 1-dən 120 min manat məbləğində olmuşdur və bunun özü də son hədd deyildir. Dövlət büdcəsinin gəlirləri imkan verdikcə əmək haqqının minimum səviyyəsinin yüksələcəyinə şübhə edilməməlidir. Ölkəmizin iqtisadi qüdrəti artdıqca minimum əmək haqqının minimum istehlak səbəti səviyyəsinə yüksəldiləcəyinə də şübhə edilməməlidir.

v) Vergi Məcəlləsinin bir sıra maddələrində vergidən azadolmalar, cərimələr və peniyalar **aylıq gəlirin vergi tutulmayan minimum məbləğinin misli ilə müəyyən olunur. Aylıq gəlirin vergi tutulmayan minimum məbləği əvvəl 60 min manat idi, sonra 100 min manata qaldırıldı, hazırkı dəyişikliklə aylıq gəlirin vergi tutulmayan minimum məbləğini 150 min manata çatdırmaq təklif olunur. Göründüyü kimi, bu meyar dəyişgəndir. Ona görə də azadolmalar, cərimələr və peniyaların aylıq gəlirin vergi tutulmayan minimum məbləğinin misli ilə müəyyən olunması mümkün deyil;**

**q) bir sıra qanunvericilik aktlarında isə əməyin ödənişinin məbləğinə, vergidən azadolmalara, cərimələrə və maliyyə sanksiyalarına şərti maliyyə vahidinin nisbətindən istifadə olunur.**

**Şərti maliyyə vahidi haqqında qanun qəbul olunmuşdur. Onun kəmiyyəti sabitdir - 5. 500.**

Qanun layihəsində Vergi Məcəlləsində azadolmalar, maliyyə sanksiyaları, peniyalar və cərimələrin məbləğinin yalnız bir meyarla - şərti maliyyə vahidi ilə müəyyən edilməsi təklif olunur. Biz əməyin ödəniş məbləğinin, vergidən azadolmaların, cərimələrin və maliyyə sanksiyalarının şərti maliyyə vahidinin nisbəti ilə müəyyən olunmasını məqsədəuyğun hesab edirk. İqtisadi qanunvericilikdə bu münasibətləri ifadə etməyin, fikrimizcə, ən münasib forması şərti maliyyə vahidi ola bilər.

**4. Vergi Məcəlləsində vergi dərəcələri ilə bağlı dəyişikliklər edilməsi nəzərdə tutulur:**

**a)** fiziki şəxslərin gəlir vergisi;

1) indiyə kimi vergi tutulmayan gəlir 100 min manata kimi idi isə, hazırda bu qanunla vergi tutulmayan aylıq gəlir 150 min manata çatdırılır;

**2) Gəlir vergisi 3 şkaladan 2 şkalaya endirilir. Aylıq gəlir 151 min manatdan 3 milyon manatadək olanlar 14 faizlə, 3 milyon manatdan artıq olanların aylıq gəliri isə 35 faizlə vergiyə cəlb olunur;**

**3) fiziki şəxslərə əmək haqqına verilən aylaq əlavə (yardım) şərti maliyyə vahidinin 1000 mislinədək, xaricdə müalicə olunmaq üçün verilən vəsait şərti maliyyə vahidinin 2000 mislinədək, dəyəri şərti maliyyə vahidinin 20.000 misli məbləğində olan vərəsə vergiyə cəlb olunmur.**

**Lotereya və istiqraz uduşları, habelə bank əmanətlərinə görə alınan divident vergiyə cəlb olunmurlar.**

v) İndiyə kimi Vergi Məcəlləsində (192.2 maddə) **«aksizlərin**

**dərəcəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir»** yazılırdı. Vergi Məcəlləsinə təklif olunan dəyişikliklərdə neft məhsullarına aksiz dərəcələrinin müəyyən edilməsi istisna olmaqla, qalan aksizli mallara aksiz dərəcələrinin qanunla müəyyən edilməsi təklif edilir.

Biz hüquqi dövlət qururuq. **Konstitusiya müddəalarına uyğun olaraq, vergi dərəcələri qanunla müəyyən olunmalıdır. Aksizlər vergi növlərindən biridir. Ona görə də vergi dərəcələrinin qanunla müəyyən edilməsi vergi qanunvericiliyinin təkmilləşdirilməsində irəliyə doğru müsbət addım hesab olunmalıdır.**

**q) Vergi Məcəlləsinə dəyişikliklərdə hüquqi şəxslərin mənfəət vergisinin** dərəcəsinin 25 faizdən 24 faizə endirilməsi təklif olunur. Bu, büdcə daxilolmalarına 10-12 milyard manat məbləğində təsir edəcəkdir;

d) Azərbaycanın müxtəlif regionlarının inkişaf səviyyəsində kəskin fərqlər olduğunu, büdcə gəlirlərinin 90-95 faizinin Bakı şəhərində formalaşdığını, regionlarda işsizlik və yoxsulluq probleminin daha kəskin xarakter daşıdığını nəzərə alaraq bir il əvvəl hüquqi şəxslərin mənfəət vergsinin diferensial qaydada ödənilməsinə keçmişdik.

Mənfəət vergisinin dərəcəsi Bakıda 25 faiz, Əli Bayramlı, Mingəçevir, Gəncə və Mingəçevir şəhərlərində 20 faiz, qalan rayonlarda 15 faiz, dağlıq rayonlarda və blokadada yaşayan Naxçıvan Muxtar Respublikasında 10 faiz müəyyən edilmişdir. Diferensial vergi siyasəti çox vacib vəzifələri qarşıya qoymuşdur. Dünya təcrübəsində geridə qalmış regionların daha sürətli inkişafını təmin etmək üçün vergidən bir vasitə kimi istifadə edilir.

Bu vergidən imtina etmək, fikrimizcə, iqtisadi inkişafa, Azərbaycan Prezidenti İlham Əliyev cənablarının regionların inkişafının sürətləndirilməsi, yoxsulluğun azaldılması barədə dövlət proqramının yerinə yetirilməsi, yeni iş yerlərinin yaradılması haqqında göstərişlərinə zidd olardı.

5. Hazırda iqtisadiyyatın sahələri üzrə diferensial vergi tətbiqindən bəhs olunur. Bu, sahələr üzrə istehsalın inkişafına əlavə stimulların yaradılmasını nəzərdə tutur. Misal üçün, hansı regionda olmasına fərq qoymadan emal sənayesinə vergi kanikulu verilməsi tövsiyə olunur.

6. Vergi sahəsində yeniliklərdən biri də avtomobillə yük və sərnişin daşımalarının sadələşdirilmiş sistemli vergiyə cəlb edilməsinin tövsiyə olunmasıdır. Bu məsələ Milli Məclisdə müzakirə olunarkən müxtəlif fikirlər meydana gəldi və problemin araşdırılması və dəqiqləşdirilməsi Nazirlər Kabinetinə tövsiyə olundu.

Təklif olunan dəyişikliklərdən biri də Vergi Məcəlləsinin 199.4.5-ci maddəsinədir. **O, əmlak vergisi üzrə güzəşt və azadolmalara aiddir. Orada maşınlar, avadanlıqlar və hesablama texnikasının əmlak vergisindən azad edilməsi nəzərdə tutulur. Bu maddənin Vergi Məcəlləsindən çıxarılması vergi ödəyicilərinin, ilk növbədə istehsalçıların vergi yükünün artmasına səbəb ola bilər. Bu dəyişikliyin edilməsinin əsaslılığı müəyyən edilməli və iqtisadi inkişafa, istehsal proseslərinə neqativ təsir göstərməməsi üçün analitik təhlillərin nəticəsindən irəli gələn tədbirlər görülməsi nəzərə alındı.**

Büdcə-vergi siyasətinin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər bir dəfəlik proses deyildir. O, müntəzəm və ardıcıl həyata keçirilməli olan sistemli bir prosesdir.

**2004-cü il dövlət büdcəsinin xüsusiyyətləri:** məlum olduğu kimi, dövlət büdcəsi hər il özünə məxsus xüsusiyyətlərə malik olur. Ona görə də hər il yeni dövlət büdcəsi hazırlanır və qəbul olunur. 2004-cü il büdcəsi də bu sahədə istisna təşkil etmirdi, onun da özünə məxsus xüsusiyyətləri vardı.

**1. 2004-cü ilə qədər dövlət büdcəsinin layihəsi «Dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanununun əsasında tərtib olunurdu. 2004-cü ilin büdcə zərfinə daxil olan sənədlər, o cümlədən dövlət büdcəsinin layihəsi «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən tərtib olunmuşdur. Yeni qanun dövlət büdcəsinin formalaşması, strukturu və həcmində ciddi dəyişikliklərin aparılmasını nəzər-**

**də tutur.**

**2004-cü ilin büdcə zərfi 4 kitabdan ibarətdir. Dövlət büdcəsi ilk dəfə idi ki, bu strukturda və bu təsnifatla hazırlanırdı. Onun ümumi həcmi 1000 səhifədən çoxdur.**

2004-cü ilin dövlət büdcəsi büdcə təsnifatı əsasında hazırlanmış, **xərclər funksional və iqtisadi təsnifata uyğun** tərtib olunmuşdur. Yəni əvvəlki illərdə büdcə xərclərinin təkcə ümumi kəmiyyəti verilirdi. Əvvəlki illərdə təqdim olunmuş dövlət büdcəsindən fərqli olaraq, 2004-cü ilin büdcəsində xərclərin strukturu da verilir. **Misal üçün, təhsil xərclərinin tərkibində: əməyin ödənilməsi fondu, ştatda olan işçilərin əmək haqqı, əmək haqqına üstəlik, Dövlət Sosial Müdafiə Fonduna ayırmalar, malların, dəftərxana ləvazimatlarının, yumşaq inventar, paltarlar və ərzaq məhsullarının alınması və xidmətlərin, ezamiyyələr və xidməti səfərlərin, nəqliyyat, rabitə və kommunal xidmətləri haqlarının ödənilməsi və s. bölünür.**

**2004-cü ilin dövlət büdcəsində xərclərin son təyinata kimi ünvanlılığı təmin olunur. Bir sözlə, burada gəlirlərin yaranması, bölgüsü və istifadəsi başlanğıcdan son təyinata kimi öz əksini tapır. İlk dəfədir ki, Azərbaycan Respublikasının dövlət büdcəsi belə tərtib olunurdu.**

Bu, əlbəttə, büdcə prosesində demokratik ənənələrin inkişafına, aşkarlığın və şəffaflığın daha da genişlənməsinə xidmət etdi. Büdcənin iqtisadi və funksional təsnifatla tərtibi onun icrasında, gəlirlərin formalaşmasında, xərclərin bölgüsü və istifadəsində demokratik proseslərin inkişafına şərait yaratdı. O həmçinin dövlət gəlirləri və xərclərinin şəffaflığına və xalqın nəzarəti altında icra olunmasına, büdcə vəsaitlərindən istifadənin səmərəliliyinin yüksəldilməsinə əhəmiyyətli dərəcədə təsir etmişdir.

**2.** Məlum olduğu kimi, dövlət büdcəsinin əsasını ölkənin sosial-iqtisadi inkişaf proqnozları təşkil edir. Büdcənin reallığı xeyli dərəcədə proqnozların reallığından, onların təkmil hazırlanmasından, texniki, iqtisadi normaların, hesablamaların düzgün aparılmasından asılı olur. Proqnozlar nə dərəcədə dürüst hazırlanarsa dövlət büdcəsi də, bir o qədər təkmil olar.



Yeri gəlmişkən qeyd edək ki, 2004-cü ilin bəzi proqnoz göstəricilərinin reallığı inandırıcı deyil. Bunu son bir neçə ildə ÜDM istehsalının proqnoz göstəriciləri ilə onların faktiki icrası arasında milyardlarla deyil, lap trilyonlarla manat kənarlaşmaların olması da təsdiq edir. Misal üçün, 2003-cü ilin sentyabr ayından məlum idi ki, bu il ÜDM istehsalının proqnozları real imkanlardan az müəyyən edilmişdir. Hesablamalar göstərir ki, 2003-cü ildə ÜDM istehsalı 32,8 trilyon manat deyil 34 trilyon manatdan artıq olacaqdır.

Doğrudur, proqnozla reallıq arasında kənarlaşmalar mümkündür. Lakin bu faktiki icranın proqnoz göstəricilərini üstələməsi formasında olan kənarlaşma olmamalıdır. Çünki proqnoz iqtisadi artımı sürətləndirməyə təsir etməlidir. Proqnoz yalnız o vaxt sosial-iqtisadi inkişafın sürətlənməsində səfərbəredici rol oynaya bilər ki, o, inkişafın hələ rüşeym halında olan meyillərini özündə əks etdirsin, büdcənin icrasını təmin edən strukturları proqnoz göstəricilərinin yerinə yetirilməsinə nail olmaq üçün səyləri səfərbər etməyə, qüvvələri qarşıda duran vəzifələrin icrası üçün gərginləşdirməyə, ehtiyatları aşkara çıxarmağa və təsərrüfatçılıq dövriyyəsinə cəlb etməyə vadar etsin.

Proqnozların tərtibində müsbət hal kimi növbəti 3 ilin sosial-iqtisadi inkişaf proqnozlarının tərtib olunması qeyd oluna bilər. Bu, sosial-iqtisadi inkişafın perspektiv mənzərəsini görməyə, maliyyə-büdcə siyasətinin formalaşmasında uzun müddətli dövrü nəzərə almağa şərait yaradar.

**3. Büdcə zərfində müxtəlif məqsədli proqramların olması təqdirə layiqdir.** 2004-cü ilin dövlət büdcəsində **elmin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişaf proqramları verilmişdir.** Büdcə sənədlərində belə proqramların olması müsbət hal olsa da, onların hazırlanmasına formal yanaşılmamalıdır.

2004-cü il büdcə sənədlərindəki elm, təhsil, səhiyyə və mədəniyyətin inkişafı haqqında proqramların işlək reallaşma

mexanizmləri yoxdur. Onların büdcə xərcləri ilə bağlılığı, büdcə maliyyələşmələri bazasında icrası nəzərdə tutulmamışdır. Büdcə zərfindəki məqsədli proqramlarda təhsilin, elmin, səhiyyənin və s. inkişaf problemlərinin həlli öz əksini tapmamışdır. Ona görə də bu proqramların olması ilə olmaması arasında ciddi bir fərq yoxdur. Yəni bu proqramlar əsasən formal xarakter daşıyır. Bu nəzərə alınmalı və həmin nöqsanların gələcəkdə təkrarlanmasına yol verilməməlidir. Deyilənlərdən aydın olur ki, məqsədli proqramların hazırlanmasına ciddi münasibət bəslənilməlidir.

**4.** 2004-cü ilin büdcə zərfindəki sənədlərdə **büdcə-vergi siyasətinin başlıca istiqamətləri** öz konstruktiv ifadəsini tapmışdır. Burada vergi siyasətinin təkmilləşdirilməsi, Vergi Məcəlləsinə dəyişikliklər və əlavələrin edilməsi nəzərdə tutulurdu.

Fikrimizcə, vergi siyasətində, vergilərin dərəcələrində tez-tez dəyişiklik etmək məqsədəuyğun deyil. Ən azı ona görə ki, iqtisadiyyatın inersiyalılığı nəzərə alınmalıdır. Vergi qanunvericiliyində hər dəfə ciddi dəyişikliklərin edilməsi, yeni vergi qaydalarına uyğunlaşmaq üçün sahibkarlardan əlavə vaxt və xeyli əmək tələb edir.

Regionların sosial-iqtisadi inkişafında kəskin fərqlər olduğu hamıya məlumdur. Bu gün işləyən müəssisələrin, sahibkarlıq subyektlərinin, istehsal və sosial infrastruktur sahələrinin, iş yerlərinin 75-80 faizi Bakı şəhərində cəmləşmişdir. Dövlət büdcəsi gəlirlərinin 90-95 faizi Bakı şəhərindən formalaşır. Respublikanın qalan regionlarından isə dövlət büdcəsi gəlirlərinin 5-10 faizi formalaşır. Onun da xeyli hissəsi Bakıdan rayonların təhsil, səhiyyə, mədəniyyət və eləcə də icra strukturlarında işləyənlərə transfer olunan əmək haqqı ödənişindən gəlir vergisi formasında Bakıya, dövlət büdcəsinə qayıdan hissə təşkil edir.

Regionların sosial-iqtisadi inkişafının sürətlənməsi təkcə büdcə gəlirlərinin formalaşmasında onların rolunun artırılması problemləri ilə əlaqədar deyildir. Bu sistem xarakterli qlobal problemlərin həlli ilə bağlı, o cümlədən miqrasiya prosesinin doğurduğu zərərli nəticələrin qarşısının alınması ilə bağlıdır.

Hazırda rayonlardakı əhalinin xeyli hissəsi, başlıca olaraq iş



tapmaq üçün Bakı şəhərinə axışırlar. Bakıya o qədər əhali cəmləşib ki, mövcud infrastruktur sahələrinin işi gərgin vəziyyətə düşmüşdür. Bakı şəhərinə əhali axını isə davam etməkdədir. Bu axının qarşısını inzibati yolla almağa çalışmaqdan bir şey çıxmaz. İqtisadi cəhətdən əsaslandırılmış tədbirlər görməklə əhalinin Bakıdan rayonlara axını təmin olunmalıdır. Rayonlarda əmək və yaşayış şəraitini Bakı şəhərinə nisbətən daha əlverişli olmasını təmin etmədən əhali axınının istiqamətini Bakıdan rayonlara yönəltmək mümkün olmayacaqdır. Bunun üçün müxtəlif stimullaşdırıcı alətlərdən, mexanizmlərdən və vasitələrdən istifadə edilməlidir. Bu vasitələrdən biri büdcə-vergi siyasəti ilə regionların inkişafına daha əlverişli şərait yaratmaqdır.

Biz 2003-cü ilin büdcəsində diferensial vergi siyasətinə keçmişik. Həmin vaxt biz onun bir çox üstünlüklərə malik olduğunu, regionların iqtisadi inkişafını stimullaşdırmaq üçün vergi siyasətindən bir alət kimi istifadə etməyin üstünlüklərini qeyd etmişdik.

Aradan heç bir il keçməmiş deyirik ki, diferensial vergi siyasəti xarabdır. Bu iqtisadi siyasətdə pərakəndəlikdir. Bakı şəhərində də, Gədəbəydə və Lerikdə də mənfəət vergisini eyni dərəcə ilə hesablamağa və iqtisadi subyektləri vergiyə cəlb etməyə başlamaq neqativ nəticələr verə bilər.

Dövlətin iqtisadi siyasəti müxtəlif səviyyəlidir. Onun yüksək səviyyəsi **iqtisadi siyasətin strateji xətti hesab olunur.** Onu müəyyən etmək ölkə Prezidentinin səlahiyyətidir.

**Azərbaycan Prezidenti inkişaf etmiş dünya ölkələrinin çoxillik təcrübəsində sınaqdan çıxmış, müsbət nəticələri sübut olunmuş konsepsiyanı öyrənmək əsasında respublikamızın gerçəkliyinə, təsərrüfatçılıq adət-ənənəsinə adekvat iqtisadi inkişafın strateji kursunu müəyyən etmişdir. Bu, bazar iqtisadiyyatına keçid, liberallaşdırma, mülkiyyət və təsərrüfatçılıqda inhisarçılığın aradan qaldırılması, çoxformalı mülkiyyət və təsərrüfatçılığın yaradılması, sərbəst rəqabətə meydan açılması, dünya iqtisadi inteqrasiyasına qoşulmaq və s. yoludur. Bu strateji xəttə alternativ yoxdur.**

Strateji xəttin reallaşması üçün iqtisadi siyasət alətləri, mexanizmləri, vasitələri, normaları, qaydalar, qadağalar və s. bir sözlə iqtisadi fəaliyyətin oyun qaydaları müəyyənləşdirilməlidir. Bütün bunlar iqtisadi siyasətin, əgər belə demək mümkünsə, nisbətən aşağı pilləsində, səviyyəsində formalaşdırılmalıdır. Təəssüflə qeyd etməliyik ki, bu səviyyədə formalaşan iqtisadi siyasətdə bir çox hallarda sistemsizlik mövcud olur.

İqtisadi siyasətin aşağı pilləsinin formalaşmasında bəzən pərakəndəlik, sistemsizlik və digər neqativ halların olduğunu desək, yəqin ki, sirr açmarıq. Dövlətin iqtisadi siyasətinin bu səviyyəsində gah bir, gah da digər tərəfə meyil etməsinin, iqtisadi siyasətdə 180 dərəcə dəyişgənliyinin ən azı iqtisadi inkişafa xidmət etmədiyinə biz əmin olmalıyıq.

Biz 2003-cü ildə vergi sahəsində regionlar üçün diferensial siyasət yeritmək haqqında qanun qəbul etdik. Aradan bir il keçməmiş diferensial vergi siyasətini tətbiqinin nəticələrini ətraflı təhlil etmədən, qeyd olundu ki, diferensial vergi siyasəti səmərəli deyil.

Əvvəla, iqtisadi siyasətin səmərəliliyi bir istehsal tsiklində aşkara çıxmaya bilər. Onun təhlili üçün ən azı 2-3 illik təcrübə təhlil olunmalı idi.

İkincisi, diferensial vergiqoymadan imtina edilməsində Beynəlxalq Valyuta Fondunun tövsiyələri əsas götürüldü. Ən azı adı belə qoyuldu. Hərçənd ki, onlar ümumiyyətlə vergiqoymada diferensiallığın heç də əleyhinə deyillər. Lakin onlar qeyd edirdilər ki, regionların inkişafını stimullaşdıran diferensial vergi siyasəti eyni istiqamətli, məqsədli pul-kredit, büdcə, gömrük, investisiya və s. siyasəti ilə yanaşı, tətbiq olunduqda səmərə verə bilər.

Bu siyasət regionların sosial-iqtisadi inkişafına regionlarda istehsal və sosial infrastruktur sahələri yaradıldığı və inkişaf etdiyi, yollar abadlaşdırıldığı, stabil enerji təchizatı təmin edildiyi şəraitdə müsbət nəticələr verə bilər. Bir neçə dəfə BVF-nun nümayəndələrini qəbul etdiyim və onlarla ətraflı mübahisələr, təhlillər apardığım üçün bu fikri deyirəm.

Bizim müvafiq icra strukturlarının başçıları iqtisadi siyasətin



digər komponentlərindən istifadə etmədən, təkcə vergi siyasətində radikal dəyişikliklər etməklə regionların inkişafını təmin etməyin mümkün olduğunu zənn etdilər. Onların bir qismi isə bu siyasətlə əvvəlcədən razı olmadıqlarından onun iflasa uğramasını təmin etmək üçün nələri etmək mümkünsə onların hamısını etdilər. O cümlədən regionların inkişafına iqtisadi siyasət komponentlərinin sistemli təsirini təmin etməkdən yan keçdilər. Adını da qoydular ki, diferensial vergi siyasəti özünü doğrultmur.

**İqtisadi siyasətin tərkib hissəsi kimi vergi sistemi bütövlükdə diferensiallıq üzərində qurulmuşdur. Fiziki şəxslərin gəlir vergisi, torpaq vergisi, əmlak vergisi, aksiz vergisi və s. Buna əyani sübutdur.**

Əgər diferensiallıq olmasaydı, onda verginin iqtisadi funksiyalarını yerinə yetirmək sadəcə olaraq, mümkün olmazdı. Məhz diferensial siyasət yeritməklə vergidən iqtisadi inkişafı stimullaşdırmaq, iqtisadiyyatın sahələri üzrə tarazlıqları bərpa etmək, sahələr arası nisbətləri tənzimləmək mümkün olar.

İnzibati yollarla mümkün olmayanlar iqtisadi siyasətlə, vergi, gömrük, investisiya, qiymət, tarif və s. siyasəti ilə öz həllini tapır. Yəni iqtisadiyyata onun öz alətləri ilə - vergi, kredit, qiymət siyasəti ilə təsir etmək ən əlverişli vasitəyə çevrilir. Çox təəssüflə qeyd etməliyik ki, **hazırda «kimin bir fırıldaq tədbiri varsa onu BVF-nun əli ilə edir». Onlar bu ideyaları spesifik formalarla və metodlarla BVF-na ötürürlər. Onu BVF-nun tövsiyələri adlandırırlar. Bu fond isə öz təklifinin icrasını hansısa yeni, sərfəli kredit tranşının açılması ilə əlaqələndirir. Elə vəziyyət yaranır ki, ya BVF-nun təklifini qəbul etmək, ya da kredit tranşının dayandırılacağı ilə qarşılaşırıq.**

BVF-nun öz şərtlərini bizə diktə etməsinə yol verməməliyik. Unutmamalıyıq ki, sahə üzrə vergilərdə diferensiallaşma aparılması iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına təsir etsə də, o, regionların üstün və sürətli inkişafını təmin edə bilməz.

Biz vergilərin iqtisadi siyasəti reallaşdırmaq vasitəsi olduğunu unutmamalıyıq. Vergi özü iqtisadi siyasətin komponentlərindən

biridir. Onun vasitəsilə iqtisadi inkişafı stimullaşdırmaq, yerli istehsalın artımına yeni impulslar gətirmək və iqtisadi yüksəlişi təmin etmək mümkündür. Dünya ölkələrində vergidən iqtisadi inkişafa təsir etmək üçün güclü alət kimi istifadə edilməsinə dair ABŞ, İngiltərə, Almaniya, Fransa, Çin Xalq Respublikasının iqtisadi təcrübəsinə aid onlarla misallar gətirmək olar.

İqtisadi sistemin transformasiyası dövründə və inkişaf etmiş bazar münasibətləri şəraitində dövlətin rolunda əsaslı fərqlər özünü qabarıq şəkildə birüzə verir. Bazar münasibətlərinə keçid dövründə dövlətin rolu başlıca olaraq yeni mülkiyyət münasibətlərinin formalaşmasına (bu münasibətlərin kortəbii sürətdə formalaşması mümkün deyil), kiçik sahibkarlığın, o cümlədən fermer təsərrüfatlarının yaranmasına (onun dövlət himayəsi olmadan formalaşması mümkün deyil), maliyyə və fond bazarlarının yaranmasına, əmək bazarının, bir sözlə bazar iqtisadiyyatı infrastrukturlarının formalaşmasına təsir etməkdi. Onların yaranması və inkişafı dövlətin bilavasitə iştirakı olmadan mümkün deyil. Bazar münasibətləri tamam formalaşdıqdan sonra da dövlətin iqtisadiyyatdan tamam getməsi mümkün deyil.

İqtisadiyyatın dövlət tənzimlənməsinin miqyası və metodları müxtəlif ölkələrdə əsaslı surətdə fərqlənir. Bu, mövcud ölkənin tarixi ənənələri, həyat tərzi, milli təsərrüfatçılıq tərzi, geosiyasi vəziyyəti və s. əlaqədardır. Ona görə də bazar münasibətlərinə keçən ölkənin hazır reseptlərdən istifadə etməsi mümkün deyil.

Bazar münasibətlərini dövlətin tənzimləməsinin zəruriliyi təkcə həmin münasibətlərin qeyri təkmil olmasında axtarmaq düzgün olmazdı. Əlbəttə, dövlət daha fundamental makroiqtisadi münasibətləri tənzimləməklə bazar aqreqatlarının qayda yaratması faktdır. Bunu xüsusilə ekoloji balansın və eləcə də makroiqtisadi tarazlıqların təmin olunması məsələlərinə aid etmək olar.

Dövlətin tənzimedici rolunun mərkəzi məsələsi - sosial-iqtisadi yenidənqurmanın strategiyasını, onun mərhələlərini, prioritetlərini və son məqsədini müəyyənləşdirməkdir. Onu Azərbaycan dövlətinin başçısı müəyyən edir.



Dövlətin başlıca funksiyasını, eləcə də onun iqtisadiyyata təsirinin təməl daşını qanunların hazırlanması və onların reallaşmasının təmin edilməsi təşkil edir. Bu, bazar iqtisadiyyatında dövlətin iqtisadi rolunun əsasıdır. Təbii ki, iqtisadi sistemin transformasiyası dövlətin roluna da təsir etdi, onun əvvəlki funksiyalarının bəzisi aradan qalxdı, bəzi funksiyalarında isə keyfiyyət dəyişiklikləri baş verdi. İnzibati amirlik dövrünə xas olan funksiyalar yeni iqtisadi şəraitə uyğun olmadığından onların fəaliyyəti tükəndi. Bütün bunlar təbiidir. Çünki yeni iqtisadi münasibətləri əvvəlki qanunlar sistemi ilə idarə etmək olmazdı. Bazar münasibətlərini tənzim edən qanunlar qəbul olunmalı idi.

Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunması qanunyaradıcılığı işində sistem yaratdı. Əsas qanun digər qanunların hazırlanması və qəbulu üçün sistemyaradıcı xarakter daşıdı. Konstitusiya qəbul olunduqdan sonra hazırlanmış qanunların keyfiyyətcə fərqlənməsi təkcə onu hazırlayanların xidməti deyil. O habelə yeni hazırlanan qanunların müddəalarını əsas qanunla uzlaşdırmaq imkanının yaranması ilə əlaqədardır.

İndi dövlətin iqtisadi rolunda başlıca məsələlərdən biri qəbul olunmuş qanunların reallaşmasını təmin etməkdir. Məsələnin aktuallığı həm də onunla əlaqədardır ki, iqtisadiyyatın liberallaşması, iqtisadi sərbəstliyin, azadlığın genişlənməsi, qanun pozuntularına və korrupsiyaya əlverişli şərait yaradır. Bu meyillərə qarşı mübarizənin çətinliklərlə qarşılaşması qanunların keşiyində durmalı olanların, dövlət çinovniklərinin, hüquq mühafizə orqanları işçilərinin arasında öz vəzifə borclarını tələb olunan səviyyədə yerinə yetirməyənlərin də olması, neqativ hallara yol verilməsi ilə əlaqədardır. Neqativ meyillərə qarşı təkcə inzibati metodlarla mübarizə aparılması, əlbəttə azdır.

Bütövlükdə cəmiyyətdə qanunların aliliyinə nail olmaq vacibdir. Bunu repressiv metodlarla aparmaq, əvvəlki təcrübədən aydın olduğu kimi, səmərəli deyil. Başlıca məsələ qanunçuluğa əməl etməyin hamı və hər kəs üçün normaya çevrilməsinə nail olmaqdır. Burada geniş siyasi, təbliğat-təşviqat işlərinin aparılması vacibdir.

Lakin unutmamalıyıq ki, vətəndaş cəmiyyəti formalaşması prosesi və demokratik hüquqi dövlətin yaranması uzunmüddətli prosesdir. Onu bir oturumda həll etmək imkan xaricindədir. O, sistem xarakterli tədbirlərin həyata keçirilməsini tələb edir.

Qeyd etməliyik ki, dövlətin iqtisadi funksiyalarında səmərəliliyin lazımi dərəcədə yüksək olmamasının başlıca səbəbi qanunların tələb olunduğu səviyyədə icra olunmamasındadır. Vətəndaşların qanuni hüquqlarında, o cümlədən mülkiyyətə sahiblik hüququnda, müqavilələrə əməl edilməməsində, partnyorlar arasında qarşılıqlı tələbkarlıq mühitinin formalaşmasına əməl edilməsində ciddi nöqsanların olması və s. ilə əlaqədardır.

Dövlət müəyyən sosial funksiyalar yerinə yetirməlidir. Hər şeydən əvvəl təhsil, səhiyyə sahəsində. Bu habelə az təminatlı əhali qrupuna dövlət himayəsinin təmin olunması problemlərinə aiddir. Dövlətin bu funksiyalarının lazımi dərəcədə yerinə yetirildiyini demək hələ çətindir. Əhalinin müxtəlif qrupları arasında təbəqələşmənin dərinləşməsi, varlılar və yoxsullar arasında uçurumun artması deyilənlərə sübutdur.

Qeyd olunan ziddiyyətlərə baxmayaraq, respublikamızda bazar münasibətləri ardıcıl olaraq genişlənir. Azərbaycan iqtisadiyyatında struktur dəyişiklikləri aparılır və iqtisadi artım baş verir. İqtisadi inkişafın bu mərhələsində dövlət təkmil struktur, investisiya siyasəti yeritməklə iqtisadi inkişafa fəal təsir etməlidir.

Bazar münasibətlərinə keçidin ölkədə birdən-birə ümumi tarazlıq və iqtisadiyyatda yüksək səmərəlilik yaratması mümkün deyil. İnkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində belə, həm ümumi disproporsionallıq, həm də aşağı səmərəlilik mümkündür. Dünya təcrübəsi onu təsdiq edir. Azərbaycan iqtisadiyyatı sərbəst bazarın ideal səviyyəsindən uzaq olduğu üçün burada Qərbi Avropa ölkələrinə nisbətən iqtisadiyyatın dövlət tənzimlənməsinə daha çox zərurət vardır.

Bir neçə illər ölkədə aparılan islahatçılıq təcrübəsi göstərir ki, bazar əgər belə demək mümkünsə, hər şeyi öz qaydasına qoymaq qabiliyyətinə malik deyil. Onun üçün ən azı bazar mexanizmi yaradılmalıdır.



Bu mexanizm təcrübənin göstərdiyi kimi, kortəbii surətdə yarana bilməz. Onu cəmiyyət şüurlu surətdə, dövlətin fəal iştirakı ilə yaratmalıdır. Öz-özünə «ilkin kapital yığımı» nəticəsində feodalizmdən kapitalizmin yaranması mümkündür. Qalan proseslərin formalaşmasında dövlət xüsusi rol oynamalıdır. Burada ilk növbədə nəyi və necə tənzimləmək, habelə orada prioritetləri necə müəyyən etmək və diqqəti onların nizamlanmasına nə cür yönəltmək məsələləri həll edilməlidir. Bu suallara düzgün cavab vermək üçün əvvəl iqtisadiyyatın mövcud vəziyyəti müəyyən edilməli, sonra məqsədyönlü iqtisadi artıma nail olmaq yolları formalaşdırılmalıdır.

**Dövlətin daxili və xarici borclarının ayrıca sətirlə verilməsi 2004-cü il büdcəsinin müsbət cəhəti kimi qeyd edilməlidir.** Bu, dövlətin iqtisadi müstəqilliyini qoruyub saxlamaq, təhlükəsizliyini təmin etməyin çox vacib şərtidir. Ona görə də dövlətin borc yükü ilə həddindən artıq yüklənməsinə yol verməmək, onun optimal həddə olmasını təmin etmək dövlətin iqtisadi təhlükəsizliyini təmin etmək üçün çox vacibdir.

Statistika materiallarının təhlili Azərbaycanın daxili və xarici borclarının normal həddə olduğunu göstərir. Azərbaycanın xarici **borclarının** ÜDM-ə nisbətdə 20-22 faiz təşkil edir. Bu sahədə Azərbaycanın vəziyyəti MDB ölkələrinin əksəriyyətindən yaxşıdır. Həm də nəzərə alınmalıdır ki, Azərbaycanın strateji valyuta ehtiyatları (1,5 milyard dollar) xarici borclarından (1,2 milyard dollar) xeyli çoxdur. Bu xarici borcları istənilən vaxt ödəməyə imkan verir.

Dövlətin daxili və xarici borclarında problem olmasa da, dövlət borclarının səviyyəsi həmişə dövlətin diqqət mərkəzində olmalıdır. Çünki dövlət özünün daxili və xarici borcları ilə onları ödəmə qabiliyyəti arasında nisbətləri tənzimləməlidir. Bu olduqca vacibdir. Həm də ona görə ki, dövlətin ödəmə qabiliyyətliliyi onun iqtisadi müstəqilliyinin vacib şərtidir.

Hər ilin dövlət büdcəsində dövlətin daxili və xarici borclarının limiti müəyyən edilir. O, dövlət büdcəsinin mühüm göstəricilərindən biri kimi təsdiqlənir və büdcənin icrası prosesində ona əməl

edilir. 2004-cü ildə ölkəmizin milli və iqtisadi təhlükəsizliyini təmin etməyin vacib şərti olan xarici və daxili borcların limiti aşağıdakı kimi müəyyən edilmişdir. 2004-cü ildə Azərbaycan Respublikasının daxili dövlət borcunun yuxarı həddi 200 milyard manat, xarici dövlət borcunun yuxarı həddi 995 milyard manat təsdiq edilmişdir. Bu o deməkdir ki, dövlət 2004-cü ilin büdcəsində təsdiq olunandan artıq daxili və xarici borclamaya getməsinə yol verilmir.

**2004-cü ilin dövlət büdcəsi** ölkənin bütün maliyyə axınlarının büdcə ilə (xəzinədarlıqla) əhatə olunmasını təmin etmək sahəsində irəliyə doğru mühüm addım olmuşdur. Ölkənin maliyyə axınlarının ənənəvi sistemi ilə yanaşı, digər maliyyə axınlarının da məqsədəuyğun istiqamətə yönəldilməsi sahəsində 2004-cü ilin büdcəsində mühüm addımlar atılmışdır.

2004-cü ildə dövlət büdcəsinin ənənəvi gəlirləri ilə yanaşı, bilavasitə büdcəyə cəlb olunmayan dövlət müəssisələrinin mənfəəti (Rabitə Nazirliyi, Xəzər Dəniz Gəmiçiliyi) – 45 milyard manatı, Dövlət Neft Fondundan ayırmalar - 650 milyard manatı, büdcə təşkilatlarının büdcədən kənar gəlirlərinin - 335 milyard manatının bölgüsü və istifadəsinin büdcə, xəzinədarlıq vasitəsilə aparılmasını təmin etmək qərara alınmışdır. Bu ÜDM-in dövlət büdcəsi vasitəsi ilə bölgüyə və yenidən bölgüyə cəlb edilən və ünvanlı istifadə olunan hissəsinin ildən ilə artdığını göstərir. O, dövlətin iqtisadi rolunun artmasına, dövlət gəlirlərinin bölgüsü və istifadəsində aşkarlığın genişlənməsinə, dövlətin maliyyə resurslarından istifadənin ünvanlılığının təmin edilməsinə və dövlətin maliyyə resurslarından istifadənin səmərəliliyinin yüksəlməsinə təsir edir.

**2004-cü ilin büdcə zərfində, həmçinin icmal büdcəsi verilmişdir. İcmal büdcəsi dövlətin bütün gəlirlərinin məcmusundan ibarətdir. İcmal büdcəsi dövlət büdcəsindən, Dövlət Sosial Müdafiə Fondunun büdcəsindən və Dövlət Neft Fondunun büdcəsindən ibarətdir.** Əgər biz icmal büdcəsinin gəlirləri və xərclərini dövlət büdcəsinin analoji göstəriciləri ilə müqayisə etsək, onda dövlətin ümumi gəlirləri və xərclərinin əhəmiyyətli



dərəcədə çox olduğunu görərik. Çünki dövlətin gəlirləri təkcə dövlət büdcəsində cəmləşənlər deyildir. Ona görə də icmal büdcəsinin təhlili ölkənin məcmu gəlirləri və xərcləri haqqında məlumat əldə etməyə, bütövlükdə ölkə iqtisadiyyatının necə işləməsi haqqında dürüst məlumat toplamağa və onların təhlilini aparmağa şərait yaradır.

Büdcənin keyfiyyətinin yaxşılaşdırılması üçün aşağıdakıları qeyd etmək istərdik:

**1. Büdcə iqtisadiyyatdan formalaşır. İqtisadiyyat ilkin büdcə isə törəmədir.** Bu hamıya məlum həqiqətdir.

Büdcə gəlirlərini artırmaq üçün iqtisadiyyatın dinamik inkişafı təmin edilməlidir. Ölkə Prezidenti iqtisadi idarəetmə sisteminin bütün strukturlarından onu tələb edir. İlham Əliyev cənablarının rəhbərliyi ilə Nazirlər Kabinetinin noyabrın 17-də keçirilən iclasında iqtisadi inkişafa dinamizm gətirmək, regionların iqtisadi inkişafı, yeni iş yerləri yaradılmasını təmin etmək, yoxsulluğun azaldılmasına nail olmaq mərkəzi məsələ olmuşdur.

**İlham Əliyev cənabları aktiv iqtisadi fəaliyyəti genişləndirməyi, maliyyə intizamını möhkəmlətməyi, idarəçiliyin bütün mərhələlərində və pillələrində tələbkarlıq mühitinin formalaşdırılmasını, hər bir məsul işçinin fəaliyyətinə, gördüyü işlərin nəticələrinə görə qiymət veriləcəyini bildirmişdir. Axırıncı tezis 2003-cü il noyabrın 17-də keçirilmiş iclasın leytimotivini təşkil etmişdir.**

İqtisadi artımı sürətləndirmək üçün Azərbaycanda ehtiyatlar kifayət qədərdir. Ən əvvəl regionların iqtisadi inkişafını sürətləndirmək üçün tədbirlər görülməlidir. Aydın məsələdir ki, ona təkcə inzibati metodlarla nail olmaq mümkün deyil. Burada iqtisadi metodlardan, iqtisadi siyasət alətlərindən istifadə edilməlidir.

Dövlət təkmil büdcə-vergi, pul-kredit, gömrük siyasəti yeritməklə, xüsusi iqtisadi zonalar yaratmaqla regionların inkişafını stimullaşdıra bilər. Dünya ölkələrində iqtisadi inkişafa təsir etmək üçün bu alətlərdən istifadə edilməsi təcrübəsi geniş yayılmışdır. Bu

barədə ABŞ, İngiltərə, Almaniya, Fransa, Çin Xalq Respublikasının təcrübəsindən onlarla misallar gətirmək olar.

**İki halda dövlətin yeritdiyi siyasət iqtisadi artıma güclü təsir edən faktora çevrilə bilər:**

**- birincisi, iqtisadi siyasətin bütün komponentləri – büdcə, vergi, pul, kredit və s. siyasəti hər biri öz orbitində deyil, müəyyən bir istiqamətə yönəldikdə, yəni onların koordinasiya olunmuş fəaliyyəti və təsiri təmin edildikdə;**

**- ikincisi, bu siyasət heç olmasa bir neçə il (3-5 il) stabil qaldıqda iqtisadi inkişafın güclü faktoruna çevrilə bilər.**

Vergi siyasətində, vergilərin dərəcələrində, onun konstruksiyasında tez-tez dəyişiklik etmək məqsədəuyğun olmazdı. Ən azı ona görə ki, iqtisadiyyatın inersiyalılığı nəzərə alınmalı, vergi dərəcəsinin dəyişilməsinə sahibkarların cavab reaksiyası təmin olunmalıdır. Onların yeni vergi şəraitinə adaptasiyası üçün vaxt itkisi nəzərə alınmalıdır.

Vergi qanunvericiliyində hər dəfə dəyişikliklər aparılması, yeni vergi qaydaları müəyyən edilməsi ona uyğunlaşmaq üçün sahibkarlardan xeyli əmək və əlavə vaxt sərfi tələb etdiyi unudulmamalıdır.

Biz 2003-cü ildə mənfəət vergisinin respublikanın regionları və bir sıra istehsal sahələri üçün diferensial qaydalar tətbiq etməyə başlamışıq. Həmin vaxt diferensial vergi siyasətinin bir sıra üstünlüklərə malik olduğunu qeyd etmişdik. Bu regionların iqtisadi inkişafını stimullaşdırmaq üçün vergi siyasətindən bir alət kimi istifadə edilməsinin mühüm üstünlüklərə malik olması haqqında fikirlər idi.

**Aradan bir il keçməmiş fikrimizi dəyişdik.** Aydın məsələdir ki, təkcə diferensial vergi siyasəti ilə regionların iqtisadi inkişafını təmin etmək mümkün olmazdı. Vergi sahəsində radikal addımlar atıldı. Lakin vergi siyasəti ilə yanaşı, büdcə, kredit, investisiya və s. siyasətinin eyniistiqamətli fəaliyyəti təmin edilmədi. Regionlarda istehsal və sosial infrastruktur sahələrinin yaradılması, fasiləsiz elektrik enerjisi ilə təchizatı, yolların abadlaşdırılması ilə lazımi



dərəcədə məşğul olan olmadı. Bir sözlə, regionların iqtisadi inkişafına iqtisadi siyasət komponentlərinin sistemli, koordinasiya olunmuş təsiri təmin edilmədi.

**İndi də deyirik ki, gəlin keçək unifikasiya olunmuş vergi siyasətinə və vahid vergi dərəcəsi tətbiq edək.** Siyasətdə qeyri-stabillik, əvvəlcədən proqnozlaşdırılan siyasətin olmaması, tez-tez aparılan dəyişgənlik iqtisadi inkişafın tormozuna çevrilə bilər. Bunu unutmamalıyıq.

**Vaxtilə sadələşmiş sistem üzrə vergilərə aid eyni sözlər deyilirdi. Nəticəsi o oldu ki, biz onu məqbul hesab etmədik və qanunvericilik təşəbbüsünün subyektinə haqlı olduğumuzu inandırdıq.** Qanunda dəyişiklik edilsə də, biz sadələşmiş vergini çıxarmağa qoymadıq. Həmin vergi hazırda da mövcuddur. Onun əhatə dairəsi xeyli genişlənmiş və rolu əhəmiyyətli dərəcədə artmışdır.

**Vergi siyasətində növbəti məsələlərdən biri regionlarda, xüsusilə ucqar və dağlıq rayonlarda kənd təsərrüfatı xammalı bazasında işləyən emal müəssisələrinə vergi kanikulu verilməsi ola bilər. Bu regionlarda işsizlik problemini həll etməyə, xalqın rifahını yüksəltməyə ciddi təsir edəcəyini ümid etməyə əsas vardır.**

**Sosial-iqtisadi inkişaf proqnozları iqtisadi inkişafın stimullaşdırılmasında səfərbəredici rol oynamalıdır. Bu iki istiqamətdə baş verməlidir:**

**1) Sosial-iqtisadi inkişafın proqnoz göstəriciləri reallığa əsaslanmalı, iqtisadi inkişafın hələ rüşeym halında olan meyillərini özündə əks etdirməlidir. Proqnozlar ölkənin potensial imkanlardan tam istifadə olunmasına əsaslanmalı, iqtisadi artıma yeni impulslar, yeni alətlər, mexanizmlər gətirməlidir.**

**2) Proqnoz rəqəmləri ilə büdcə mədaxilinin ayrı-ayrı vergilər üzrə potensial imkanlara uyğun müəyyən edilməlidir. Təhlil göstərir ki, ayrı-ayrı vergilərdən büdcə daxilolmaları potensial imkanların 25-30 faizini əhatə edir. Bu təqribən, bir**

**neçə trilyon manatlıq gəlirlərin büdcədən kənarda qalması deməkdir. Bu cür hallara yol verilməməlidir.**

**3. Dövlət Neft Fondundan büdcəyə transferlər 2003-cü ildə 500 milyard manat, 2004-cü ildə 650 milyard manat olmuşdur. Dövlət Neft Fondundan dövlət büdcəsinə qatılan məbləğin artmasının müsbət və mənfi cəhətlərinə dair analitik təhlil aparılmalıdır.**

**Neft Fondunun vəsaitlərindən büdcənin sosialyönümlülüyünü yüksəltmək üçün müxtəlif formalarda istifadə oluna bilər. Fondun vəsaitindən əmək haqqının, pensiya və müavinatın artırılması üçün istifadə olunması deyil, investisiya formasında istifadə olunması, yeni iş yerləri yaradılması ilə sosial vəziyyətin yaxşılaşdırılmasına təsirinin yüksəldilməsini gücləndirə bilər.**

**Dövlət Neft Fondunun vəsaitləri illik 2 faizlə divident verən dünyanın etibarlı banklarında saxlanılır. Halbuki həmin vəsaitin bir hissəsi Azərbaycandakı etibarlı banklara qoyula bilər və ildə 10 faiz divident əldə etmək mümkün olardı.**

**Regionlarda Dövlət Neft Fondunun vəsaitləri hesabına rəqabətqabiliyyətli məhsullar emal edən kiçik həcmli zavodların yaradılması bank dividentinə nisbətən daha çox gəlir əldə etməyə şərait yarada bilər. Bu müəssisələrin rentabelliyinin iqtisadiyyatın orta rentabelliyindən (14 faizdən) yüksək olacağına şübhə edilməməlidir.**

**Daxili investisiya aktivliyini yüksəltmək üçün Dövlət Neft Fondunun vəsaitlərindən istifadə edilməsi, Azərbaycanda yaranan pulların ölkə iqtisadiyyatının inkişafı, yeni iş yerlərinin yaradılmasına, yoxsulluğun azaldılması üçün istifadə edilməsinə şərait yarada bilər.**

**Uzunmüddətli iqtisadi inkişafı təmin edən sektorlara Dövlət Neft Fondunun vəsaitlərinin məqsədli proqramlar əsasında investisiya qoyuluşlarına yönəldilməsi stimullaşdırılmalıdır.**

**4. 2004-cü ilin dövlət büdcəsi əvvəlki illərin büdcəsinə nisbətən daha şəffafdı.** Xüsusilə büdcənin xərc maddələri funksional və iqtisadi təsnifat üzrə verilmişdir. Orada xərclər təsnifləşdirilir, sahə xərcləri təyinatı üzrə bölünür, xərclərin strukturu açılır, onların son təyinatı göstərilir. Bu, müsbət cəhətdir. Lakin dövlət investisiyasının – 415 milyard manatlıq büdcə vəsaitinin konkret obyektlər arasında bölgüsü, ənənəvi olaraq, ölkə Prezidentinin tapşırığı ilə Nazirlər Kabineti tərəfindən aparılır. Bu, bir aya başa çatmalı olduğu halda, bəzən 7-8 ay gecikdirilir, 2003-cü ildə olduğu kimi. O bir sıra neqativ halların yaranmasına – kapital qoyuluşunun səpələnməsinə, tikintilərin müddətinin uzanmasına, itkilərə, israfçılıq hallarının artmasına səbəb olur, dövlət vəsaitinin və əmlakının oğurlanması, mənimsənilməsi və s. ilə nəticələnir. Bütün bunlar investisiya qoyuluşunun sosial-iqtisadi səmərəliliyini azaldır. Fikrimizcə, dövlət investisiyasının indiyə kimi aparılan bölgüsü səmərəli deyil.

**Biz dövlət investisiyasının regionlar üzrə məqsədli proqramlar əsasında bölgüsü və istifadə olunmasını məqsədəuyğun hesab edirik.**

**Dövlət investisiyasının bölgüsü və istifadəsinin səmərəliliyini yüksəltmək məqsədilə onun layihəsi büdcə zərfində Milli Məclisə təqdim olunması və təsdiqlənməsi məqsədəuyğun olardı. Büdcə iqtisadi inkişaf büdcəsinə çevrilməlidir**

İqtisadi inkişafı sürətləndirmək, yeni iş yerləri yaratmaq, regionların iqtisadi dirçəlişinə nail olmaq, büdcəni iqtisadi inkişaf büdcəsinə çevirmək vacib vəzifələrdən biri olmalıdır.

Büdcənin sosial yönümlülüyü ilə investisiya istiqamətliliyi arasında balans yaratmaq günün vacib məsələsidir. Bu məqsədlə dövlət büdcəsindən kiçik və orta sahibkarlığa güzəştli şərtlərlə verilən kreditlərin məbləğini (100 milyard manat) artırmaq və sahibkarlara kredit verilməsi prosesini sadələşdirmək və onun regionlar üzrə məqsədli proqramların reallaşması üçün istifadə olunmasını təmin etmək məqsədəuyğun olardı.

Regionlarda infrastruktur sahələrinin, yolların, su, elektrik, istilik, rabitə problemlərini həll etməklə, əlverişli investisiya mühiti yaratmaqla iqtisadi artıma təsir etmək imkanları kifayət qədərdir.

İnkişafa dinamizm gətirmək üçün iqtisadiyyata xarici investorlar cəlb edilməli, həmçinin birgə müəssisələr yaradılmalıdır. Dövlət ölkə iqtisadiyyatına xarici investorlar cəlb etməklə, yerli xammal əsasında fəaliyyət göstərən birgə müəssisələr yaradılmasına əlverişli şərait yaratmaqla iqtisadi inkişafa stimullaşdırıcı təsir edə bilər.

**6. Büdcə təşkilatlarının büdcədənkənar fondları haqqında vahid dövlət siyasəti yeridilməlidir. Onların bir qismini dövlət büdcəsinə birləşdirmək digərinə isə toxunmamaq, ikili standart siyasət yeritmək məqsədəuyğun hesab olunmamalıdır. Unudulmamalıdır ki, dövlət büdcəsinə qatılan vəsait formal olmamalı, o yenidən bölgünün predmetinə çevrilməlidir.**

**7. Ucdantutma bütün rayonlara subsidiyalar verilməsi təcrübəsi təhlil edilməli,** istehlakçılıq psixologiyasının insanların şüurunda məskən salmasına yol verilməməlidir. Rayonların iqtisadi cəhətdən əsaslandırılmış şəkildə özünümaliyyələşdirmə prinsipinə keçməsinə şərait yaradan büdcə-vergi siyasəti yeridilməlidir.

**8. Büdcə-vergi siyasəti və pul-kredit siyasəti: onların hər birinin öz orbitində fəaliyyət göstərməsi ilə** iqtisadi inkişafa dinamizm gətirmək mümkün deyil. Milli Məclis 6-7 ildir ki, növbəti il üçün **pul-kredit siyasətinin başlıca istiqamətlərini** görmür. Milli Bank haqqında Qanunda bu barədə birbaşa göstərişin olmaması əsas götürülərək həmin sənəd Milli Məclisin müzakirəsi və təsdiqinə verilmir. **Bununla Milli Məclis büdcənin icrası ilə bağlı bir sıra proseslərdən – iqtisadiyyatın pul kütləsinə tələbatının müəyyən edilməsindən və ödənilməsindən, kredit qoyuluşunun ÜDM-ə nisbəti, faiz siyasəti, manatın kursu, alıcılıq qabiliyyəti, dönərli valyutalara nisbəti, inflyasiya tempi, bank aktivlərinin, əhalinin əmanətlərinin, məcmu bank kapitalının ÜDM-ə nisəbəti və s.** mühüm alətlərdən, sosial-iqtisadi proseslərə təsirini gücləndirmək imkanlarından kənarda saxlanılmışdır.

Həm də Milli Bankın rəhbərliyi bu vəziyyəti dəyişməz saxlamaq niyyətindədir. Yeni Qanunun layihəsində yenə də



növbəti il üçün pul-kredit siyasətinin başlıca istiqamətlərinin Milli Məclisə təqdim olunması nəzərdə tutulmamışdır. Biz Milli Bankın həm müstəqilliyini, həm də şəffaflığını müdafiə edirik. Lakin müstəqilliyi eksteritoriallığa çevirmək zərərli nəticələr verə bilər.

Ölkə iqtisadiyyatında bankların rolunun ən mühüm göstəricilərindən biri kredit qoyuluşunun ÜDM-ə nisbətidir. Respublikamızda bu nisbət 2005-ci ildə 9-15 faiz təşkil edir. Xatırladırıq ki, iqtisadiyyata kredit qoyuluşunun ÜDM-ə nisbəti ABŞ-da 130, Yaponiyada 190, Avropa ölkələrinin əksəriyyətində 100 faizdən çoxdur.

Əhalinin banklara inamının ən mühüm göstəricilərindən biri banklara qoyulmuş əmanətlərin ÜDM-ə nisbətidir. Bu nisbət Azərbaycanda 3 faizdir. Avropa ölkələrində isə bu göstərici bizdən 10 dəfələrlə yüksəkdir.

Məlum olduğu kimi, kreditlər bankın öz resursları və büdcə vəsaitlərindən ibarətdir. İnflyasiya tempi 5-6 faiz olduğu halda, banklar öz resurslarını 18-21 faizlə, bəziləri isə 25 faizlə kredit verirlər. Dövlət büdcəsindən ayrılan resursları isə banklar 7 faizlə kredit verməlidirlər. Sonuncu bəzi banklar üçün əlavə gəlir mənbəyinə çevrilir və neqativ hallar meydana gəlir. Bütün bunlar xeyli dərəcədə pul-kredit siyasətinin başlıca istiqamətlərinin Milli Məclisdə müzakirə olunmaması ilə əlaqədardır. Əgər o Milli Məclisdə müzakirə olunarsa onda manatın alıcılıq qabiliyyəti, pul kütləsinin iqtisadiyyatın tələbatına uyğunluğu, bank kreditlərinə faizin səviyyəsi, onun inflyasiya tempi və iqtisadiyyatın orta rentabellik səviyyəsi ilə əlaqəsi təhlil olunar və ölkənin sosial-iqtisadi inkişafına, kredit qoyuluşunun səmərəliliyinin yüksəldilməsinə xidmət edən əməli təkliflər verilə bilər.

**Biz növbəti ilin dövlət büdcəsi ilə birlikdə büdcənin icrası üçün zəruri olan pul kütləsi və onunla bağlı pul aqreqatlarının vəziyyətinin müəyyən olunduğu pul-kredit siyasətinin başlıca istiqamətlərinin Milli Məclisə təqdim edilməsini, onun müzakirə və təsdiq olunmasını təklif edirik.**

**9. Dövlət büdcəsinin gəlirləri və xərclərinin rüblər üzrə**

**bölgüsü, habelə büdcənin gəlirləri və xərclərinin rüblər üzrə icrası haqqında məlumatların müvafiq icra hakimiyyəti orqanlarına göndərildiyi zaman eyni vaxtda onların Milli Məclisin müvafiq komissiyasına göndərilməsi təmin edilməlidir. Onsuz büdcənin icrasına vaxtında və sistemli nəzarətin mümkün olmadığı nəzərə alınmalıdır.**

**10.** Büdcə prosesinin daha da təkmilləşməsi, büdcənin iqtisadi inkişaf büdcəsinə çevrilməsi üçün aşağıdakı qanunların hazırlanması və Milli Məclisə təqdim edilməsi sürətləndirilməlidir: **«Büdcə Məcəlləsi haqqında», «Büdcə təsnifatı haqqında», «Əmanətlərin və depozitlərin sığortalanması haqqında» Azərbaycan Respublikasının Qanunları.**

**11. Deputatların əksəriyyəti 1992-ci il yanvarın 1-dək Dövlət Əmanət Banklarına qoyulmuş əmanətlərin bərpası və ödənilməsi məsələsini qaldırdılar. Əmanətlərlə bağlı məsələ 6-7 ildir ki, Milli Məclisdə müntəzəm olaraq qaldırılır. Bu barədə təkcə iqtisadi siyasət komissiyasına yüzlərlə ərizə daxil olmuşdur.**

**Biz MDB ölkələrinin təcrübəsini öyrənmişik. Ziddiyyətli məlumatlar da vardır. Lakin o da faktdır ki, bir sıra MDB ölkələrində əmanətlərin bərpası və ödənilməsi haqqında qanunlar vardır.**

**İndiyə kimi problemin həll olunmamasının başlıca səbəbi: əmanətləri ödəmək üçün 2 milyard dollar vəsait tələb olunduğu haqqında məlumat verilməsi olmuşdur. Bizim hesablamalara görə ildə 70 milyard, 10 ildə isə 700 milyard manat əmanətlərin bərpası və ödənilməsi üçün kifayətdir. Fikrimizcə, büdcənin bu məbləği ödəməyə imkanı vardır. Nəzərə almalıyıq ki, hər il enerji alınmasına 300-320 milyon dollar sərf olunur. İldə orta hesabla 14-16 milyon dollar vəsaitlə 1992-ci il yanvarın 1-nə kimi dövlət əmanət banklarına qoyulmuş və hazırda da orada qalan əmanətlərin bərpası və ödənilməsi mümkündür.**

**Unutmamalıyıq ki, əhaliyə veriləsi bu vəsait əmtəələrin alınması və xidmətlərdən istifadə olunmasına sərf olunacaqdır.**



**Ona görə də həmin vəsaitin xeyli hissəsi vergilər vasitəsilə yenidən dövlət büdcəsinə qayıdacaqdır.**

**Bu, sosial ədalət prinsipinin bərpasına, əhalinin banklara inamının artmasına, əmanət yığımı tempinin yüksəlməsinə və həmin vəsaitdən iqtisadiyyata investisiya qoyuluşu üçün istifadə olunmasına şərait yarada bilər.**

**12. Prezidentin yanında iqtisadi məsələlər üzrə daimi fəaliyyət göstərən Şura yaradılması məqsədəuyğun olardı.**

**Şuranın cəmi 3 işçisi ştatda, qalanları isə ictimai əsaslarla fəaliyyət göstərə bilər.** Onlar qərar, fərman və sərəncam layihələrinin analitik təhlilini aparar. Ölkə Prezidentinin imzaladığı sənədin keyfiyyətinin daha da yüksəlməsinə, onların sosial-iqtisadi nəticələrinə təsir edərdi. Bu həmçinin ölkə əhalisi ilə prezident aparatı arasında əlaqələrin daha da genişlənməsinə təsir edə bilər.

## 5.4. Büdcə 2005-ci il: xüsusiyyətlər və dinamika

Dövlət büdcəsi ilin ən ali maliyyə sənədi, dövlətin bir illik gəlirlər və xərclər balansıdır. Dövlətin növbəti ildə nə etmək istədiyi, hansı vəzifələri qarşıya məqsəd qoyduğu və onların reallaşmasına maliyyə təminatını necə yaradacağı bu sənəddə öz ifadəsini tapır.

**Azərbaycan Respublikası Prezidenti «Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə 2004-cü il 27 dekabr tarixli Fərman vermişdir. Bu 2005-ci maliyyə ilinə təsdiq olunmuş dövlət büdcəsi ilə başlamaq üçün görülən yekun tədbiri idi. Azərbaycan 1997-ci ildən yeni maliyyə ilinə təsdiq olunmuş büdcə ilə başlayır. Dünyanın sivil dövlətlərində olduğu kimi, Milli Məclis 2005-ci ildə də ənənəsinə sadiq oldu.**

**«Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanunu və Azərbaycan**

**Respublikası Prezidentinin bu qanunun tətbiq edilməsi barədə fərmanı da üç aya yaxındır ki, icra olunur.**

**Azərbaycan Respublikası Prezidentinin Fərmanında «Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı Nazirlər Kabinetinə, İqtisadi İnkişaf Nazirliyinə, Maliyyə Nazirliyinə, Sənaye və Energetika nazirliyinə, Xarici İşlər Nazirliyinə, Səhiyyə Nazirliyinə, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə, Kənd Təsərrüfatı Nazirliyinə, Milli Elmlər Akademiyasına, Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar Komitəsinə, Milli Banka, Hesablama Palatasına, Statistika Komitəsinə və s. digər nazirliklərə, Dövlət Komitələrinə, Dövlət Şirkətləri və Konsernlərinə konkret tapşırıqlar vermişdir.**

Azərbaycan Respublikası Prezidentinin ölkənin sosial-iqtisadi inkişafını sürətləndirmək, xalqın rifahını yüksəltmək siyasəti dövlət büdcəsi vasitəsilə konkret rəqəmlərə, hökumətin iş planına çevrilir. Burada dövlətin yeritdiyi siyasətin iqtisadiyyata transformasiyası baş verir, siyasət iqtisadiyyata çevrilir.

Dövlət büdcəsi ilin ən ali maliyyə sənədi, dövlətin bir illik gəlirlər və xərclər balansı kimi ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Bu sənəd dövlətin birillik iş planıdır. Yəni dövlətin növbəti maliyyə ilində nə iş görəcəyi, hansı vəzifələri yerinə yetirəcəyi, bir sözlə qarşıya qoyduğu məqsəd və onun reallaşmasının konkret istiqamətləri dövlət büdcəsinin məzmununu təşkil edir. Dövlət büdcəsi növbəti ildə ölkədə iqtisadi proseslərin necə baş verəcəyini, müəyyən olunmuş vəzifələrin icrasına maliyyə təminatının necə yaradılacağını özündə əks etdirir.

Dövlətin bir illik fəaliyyət proqramı olan dövlət büdcəsində ölkənin sosial-iqtisadi inkişafı texniki-iqtisadi hesablamalar və normalar əsasında müəyyən olunmuş konkret tapşırıqlardan ibarət olur. Yeni ildə ölkənin sosial-iqtisadi inkişafını sürətləndirmək, ümumi daxili məhsul istehsalını artırmaq və xalqın rifahını yüksəltmək üçün görüləsi işlərin başlıca istiqamətləri dövlət büdcəsində öz əksini tapır.



Ənənəvi olaraq dövlət büdcəsi sosial-iqtisadi inkişaf proqnozlarının hazırlanmasından başlayır. Proqnozlar ölkənin iqtisadi və sosial inkişafının modelini formalaşdırır. Ona görə də dövlət büdcəsinin iqtisadi inkişaf büdcəsinə çevrilməsinin ilkin əsasları növbəti ildə və sonrakı üç ildə ölkənin sosial-iqtisadi inkişaf modeli olan proqnozlarda öz əksini tapır.

Məlum olduğu kimi dövlət büdcəsi layihəsini hazırlamaq üçün əvvəl qarşıdakı il və sonrakı üç ildə ölkənin sosial-iqtisadi inkişafının proqnoz göstəriciləri müəyyənləşdirilməlidir. Ona görə də sosial-iqtisadi inkişaf proqnozlarının hazırlanması dövlət büdcəsi layihəsinin tərtib olunmasının çox vacib mərhələsini təşkil edir. Həm də ona görə ki, dövlət büdcəsinin keyfiyyəti də, onun reallığı da, büdcənin icrası da ən əvvəl proqnozların təkmil hazırlanmasından asılıdır.

**2005-ci ildə ölkənin sosial-iqtisadi inkişafının proqnozları və dövlət büdcəsi İlham Əliyev cənablarının rəhbərliyi altında hazırlanmışdır. Ölkə Prezidenti möhtərəm İlham Əliyev cənablarının Nazirlər Kabinetinin 2003-cü il 17 noyabr tarixli iclasındakı nitqində, 2003-cü il 24 noyabr və 2003-cü il 26 dekabr tarixli Fərmanlarında, eləcə də 2004-cü il fevralın 11-də qəbul olunmuş «Azərbaycan Respublikası regionlarının sosial - iqtisadi inkişafı Dövlət Proqramı»nda (2004-2008),** həmçinin 2004-cü il 24 oktyabr tarixli Sərəncamında ölkənin **sosial-iqtisadi inkişaf strategiyasını reallaşdırmağın uzun müddətli proqramı verilmişdir.**

**Dövlət başçısı regionların sosial-iqtisadi inkişafı bazasında respublikamızda zəncirvarı reaksiya yaradan geniş spektrli vəzifələrin həllini təmin etməyi qarşıya məqsəd qoyur. Bu ÜDM istehsalında regionların xüsusi çəkisinin artımına, qeyri-neft sektorunun iqtisadiyyatın aparıcı sahəsinə çevrilməsinə, işsizlik, yoxsulluq, miqrasiya problemlərinin həllinə, regionların hərtərəfli və dinamik inkişafına, xalqın rifahının yüksəldilməsinə yönəlmiş proqram xarakterli vəzifələrdir.**

Ölkə Prezidentinin reallaşdırdığı strateji xətt 2005-ci ilin sosial-iqtisadi inkişaf proqnozlarının və dövlət büdcəsinin başlıca istiqamətlərini müəyyən etmişdir. Orada regionların sosial-iqtisadi inkişafının sürətlənməsi, milli istehsalın stimullaşdırılması, struktur və idarəetmə sahəsində islahatlar, investisiya siyasəti, antiinhisar, məşğulluq problemlərinə aid növbəti ildə yerinə yetiriləcək işlərin əsas parametrləri və s. öz əksini tapmışdır. Bu proqnozlarda infrastruktur sahələrinin dinamik inkişafına, beynəlxalq iqtisadi əməkdaşlığın genişlənməsinə geniş yer verilir.

Proqnozlar çoxsəpkili hazırlanmışdır. **Onlar istehsal, istehlak, dəyər, natural və s.** göstəriciləri daxil olmaqla ölkənin geniş spektrli sosial-iqtisadi inkişaf istiqamətlərini özündə əks etdirir. O, əhalinin həyat səviyyəsi və məşğulluq göstəricilərini, təbii ehtiyatlardan istifadənin səmərəliyini və eləcə də ətraf mühitin qorunması ilə bağlı prosesləri də əhatə edir.

**Ölkə Prezidentinin rəhbərliyi ilə hazırlanmış ölkənin sosial-iqtisadi inkişaf proqnozları və dövlət büdcəsinin ən mühüm xüsusiyyətləri yüksək inkişaf tempinin müəyyən olunmasıdır. Dövlətin başçısı indiyə kimi Azərbaycan iqtisadiyyatında görünməmiş, yüksək sürətli inkişaf tempi müəyyən etmişdir.**

**Sosial-iqtisadi inkişafın ən ümumiləşmiş göstəricisi olan ÜDM istehsalı 2005-ci ildə 14,1 faiz, 2006-cı ildə 24,9 faiz, 2007-ci ildə 30 faiz artım sürəti nəzərdə tutulur. Azərbaycan iqtisadiyyatında belə artım tempi indiyə kimi nə olmayıb, nə də nəzərdə tutulmayıb.**

Əgər 90-cı illərin əvvəllərində ÜDM istehsalında orta illik tənəzzül 24-25 faiz təşkil edirdisə, indi tamam əksinədir. Bütün bunlar nəticədir. Ölkədə sistemli aparılmış gərgin işlərin nəticəsidir.

Ölkə Prezidentinin müəyyənləşdirdiyi iqtisadi artımın yüksək tempi ilə ayaqlaşmaq ən əvvəl icra strukturlarının bütün səviyyələrində, istehsal və qeyri-istehsal sahələrinin hər bir müəssisə və təşkilatlarında iqtisadi fallığı gücləndirməyi, maksimum səmərəli fəaliyyət göstərməyi tələb edir.



2005-ci ilin sosial-iqtisadi inkişaf proqnozlarında və dövlət büdcəsinin göstəricilərində ÜDM istehsalının 47,8 trilyon manata, büdcə gəlirlərinin 9.422 trilyon manata yüksəltmək, büdcə xərclərini isə 10 trilyon manatdan yuxarı qaldırmaq nəzərdə tutulur.

2005-ci ildə büdcə xərclərinin gəlirlərlə örtülməyən hissəsi (büdcənin kəsiri) 579 milyard manat olacaqdır. Büdcə gəlirlərinin ÜDM-ə nisbəti 19,7 faiz, xərclərin ÜDM-ə nisbəti 20,8 faiz, büdcə kəsirinin ÜDM-ə nisbəti 1,2 faiz təşkil edəcəkdir.

2005-ci ildə Vergilər Nazirliyi büdcə gəlirlərinin 6.632 milyard manatını və ya 70,4 faizini təmin edəcəkdir. Bu dövlət büdcəsinə vergilərdən daxilolmaların 2004-cü ilə nisbətən 2005-ci ildə 35 faiz və ya 2 trilyon manata yaxın artım olacağını göstərir.

Dövlət Gömrük Komitəsi büdcə gəlirlərinin 1.450 milyard manatını və ya 14,4 faizini ödəyəcək. Yəni 2004-cü ilə nisbətən 2005-ci ildə Dövlət Gömrük Komitəsindən büdcə daxilolmaları 20,8 faiz və ya 250 milyard manatdan artıq olacaqdır.

Sair mənbələrdən büdcə daxilolmaları 2005-ci ildə 1.340 milyard manat olacaq. Büdcə daxilolmalarında onların xüsusi çəkisi 14 faiz olacaqdır. Bu 2004-cü ilin proqnoz göstəricilərinə nisbətən 78 milyard manat çoxdur.

2005-ci ildə büdcədən maliyyələşən (bu vəsaitlər hələlik təkrar bölgüyə aid deyil. Lakin bu vəsaitlərin istifadəsi maliyyə nəzarəti dairəsinə aid olub, xəzinədarlıq vasitəsilə həyata keçirilir) təşkilatların büdcədənkənar fondlarından daxilolmalar 366 milyard manat, Dövlət Neft Fondundan dövlət büdcəsinə transferlər isə 750 milyard manat olacaqdır.

2005-ci ildə dövlət büdcəsi gəlirlərinin 61,3 faizi qeyri-neft sektoru hesabına formalaşacaq (bu 2004-cü ilə nisbətən 0,4 faiz çoxdur).

**Fiziki şəxslərin gəlir vergisi** 2004-cü ilin proqnoz göstəricilərinə nisbətən 2005-ci ildə 318 milyard manat artacaq və 1 trilyon 60 milyard manat təşkil edəcəkdir.

**Hüquqi şəxslərin mənfəət vergisi** 2004-cü ilin proqnoz göstəricilərinə nisbətən 2005-ci ild 445 milyard manat artacaq, 1 tril-

yon 395 milyard manat təşkil edəcəkdir.

**Əlavə dəyər vergisi (ƏDV)** 2004-cü ilin proqnoz göstəricilərinə nisbətən 2005-ci ilin proqnoz göstəricilərində 591 milyard manat artacaq və 2 trilyon 794 milyard manat təşkil edəcəkdir. Büdcə daxilolmalarının 30 faizindən çoxu ƏDV vasitəsilə təmin olunacaqdır.

**Aksiz vergisi** 2004-cü ilin proqnoz göstəricilərinə nisbətən 2005-ci ildə 505 milyard manat artacaq, 855 milyard manat təşkil edəcəkdir.

**Hüquqi şəxslərin əmlak vergisi** 2004-cü ilin proqnoz göstəricilərinə nisbətən 2005-ci ildə 40 milyard manat artacaq, 200 milyard manat təşkil edəcəkdir.

**Gəlirlərlə əlaqədar olan fikirləri ümumiləşdirsək, onda** 2005-ci ildə bütün növ büdcə daxilolmalarında artım nəzərdə tutulduğu aydın olar.

Büdcə prosesində başlıca məsələ gəlirlərin yığılması olduğundan gəlirlərlə bağlı aşağıdakıları qeyd etmək istərdik:

**1. ARDNŞ-ın proqnoz göstəricilərində 2004, 2005, 2006, 2007 və 2008-ci illərin hər birində neft istehsalının 8 milyon 750 min ton olaraq qalacağı göstərilmişdir.** Yəni bu sahədə istehsalın artımı nəzərdə tutulmur.

Dörd il eyni vəziyyətdə qalmaq, nə artım nə də azalmanın olmaması, fikrimizcə, bu sahədə tərtib olunmuş proqnozun reallıqdan uzaq olduğunu deməyə əsas verir. Biz bilirik ki, bu barədə müvafiq icra hakimiyyəti strukturlarının başçıları izahat verə bilərlər. Lakin fakt faktlığında qalır ki, uzun müddət iqtisadiyyatın mühüm sahələrindən birinin staqnasiya vəziyyətində qalması mümkün deyil.

Cənablar! Siz stabilliklə staqnasiyanı qarışdırmamalısınız. Stabillik əsla staqnasiya deyildir. Staqnasiya, adi qaydada desək, inkişafın tamam dayanmasıdır. Neft sektorunu isə inkişafı tamam dayanmış sahə hesab etmək sadəcə olaraq mümkün deyildir. Stabillik isə iqtisadiyyatda pərakəndəliyin aradan qaldırılması, aramlı və dönməz inkişaf xəttinin təsərrüfatın aparıcı sahələrində



reallaşmasıdır. Bu mənada stabillik dinamik inkişafa istiqamətlənmədir.

İqtisadiyyatın bu mühüm sahəsinin inkişafı üçün olduqca radikal tədbirlər görülür, neft sektorunun dünya təsərrüfatına inteqrasiyası dərinləşir. Bütün bunlar enerji sektorunun daha da inkişafı üçün əlavə tədbirlər görülməsinin zəruriliyini əsla istisna etmir. Ən azı alternativ, tükənməyən enerji mənbələrinin təsərrüfatçılıq dövriyyəsinə cəlb edilməsi üçün radikal addımlar atılmalıdır.

Proqnozlara gəldikdə, onlar səfərbəredici, stimullaşdırıcı olmalıdır. Sosial-iqtisadi inkişaf proqnozları inkişafın hələ rüşeym halında olan meyillərini aşkarlamağa və təsərrüfatçılıq dövriyyəsinə cəlb etməyə istiqamətlənmişdir. Əgər belə deyilsə onda o heç proqnoz da deyil.

Gərək yüksələn artım tempini nəzərdə tutasan və onun reallaşmasına çalışasan ki, irəli getməsən belə öz yerində dayana biləsən. Fikrimizcə, ARDNŞ-ın proqnoz göstəriciləri bir daha nəzərdən keçirilməli və onun reallığa uyğunlaşdırılması təmin olunmalıdır.

**2. Mədən vergisində də demək olar ki, artım yoxdur. 2005-ci ildə mədən vergisinin 2004-cü ilə nisbətən cəmisi 1 milyard manat artımı nəzərdə tutulmuşdur.** Respublikamızda indiyə qədər görünməmiş templə tikinti işləri aparılır. Azərbaycan geniş tikinti meydanını xatırladır. Bu təkcə Bakı şəhərində deyil, eləcə də respublikanın digər regionlarında da belədir.

Tikintinin artım dinamikası ilə mədən vergisindən büdcə daxilolmalarının artımı arasında belə kəskin fərq yaranmasını necə izah etmək olar?

Heç kimə sirr deyildir ki, respublikamızda tikinti materiallarına tələbatın əsas hissəsi yerli imkanlar hesabına ödənilir. Mişar daşı, çınqıl, qum, kərpic və s. xaricdən gətirilmir. Bu tikinti materiallarının istehsalı artır, onların qiymətləri də son 7 ildə 2-4 dəfədən çox artmışdır və indi də artmaqda davam edir. Bu şəraitdə mədən vergisindən dövlət büdcəsinə daxilolmalarda artımın olmaması şübhə doğurmaya bilmir.

Mişar daşları, qum, çınqıl, gil, əhəng, duz, mineral su, yerin təkindən çıxarılan digər təbii sərvətlər və s mədən vergisinin predmetləridir. Qeyd etdiyimiz kimi onların istehsalı da, qiymətləri də artır, lakin mədən vergisi isə artmır.

Biz əlbəttə yerli əhəmiyyətli tikinti materialları istehsalını nəzərdə tutmuruq. Bu qanunvericiliyə əsasən bələdiyyə büdcələrinin gəlirlərinə aiddir. Söhbət dövlət büdcəsinə mədən vergisindən qanunla müəyyən edilmiş daxilolmalardan gedir.

Biz müvafiq icra hakimiyyəti orqanının işi olan daş karxanalarında uçot, hesabat və vergidən yayınma hallarını təhlil etmişik. Vergi yükü potensial imkanların 50 faizini təşkil etdiyi bizə aydın olub. Hesab edirik ki, mədən vergisindən büdcəyə daxilolmaların potensial imkanlara uyğunlaşdırılması təmin olunmalıdır.

**3. 2005-ci ilin büdcə layihəsində göstərilən «Azərbaycan Respublikasının Dövlət Zəmanəti ilə Beynəlxalq Bankdan alınmış kreditlər üzrə (3 milyard 958 milyon manatlıq) daxilolmalar», onların strukturu, əmələ gəlmə səbəbləri və ödənilmə mənbələrinə aydınlıq gətirilməlidir.**

**4. 2005-ci ilin büdcə layihəsində göstərilən «Aqrokredit» Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatından problemli kreditlər üzrə daxilolmalar, 1,5 milyard manat müəyyən olunmuşdur.** Bu problemli kreditlər yenilik deyildir. Onlar 1999-cu ildə də, 2000-ci, 2001-ci, 2002-ci və 2003-cü illərdə də olmuşdur. Bu vaxtı ötmüş kreditlərin yığılması başa çatmadığı üçün onlar ildən-ilə keçir. Nədənsə 2004-cü ilin dövlət büdcəsinnin sənədlərində «Aqrokredit»in problemli kreditləri haqqında bənd olmamışdır. Biz o vaxt elə bildik ki, «Aqrokredit»in problemli kreditlərinin toplanması başa çatmışdır. 2005-ci ilin dövlət büdcəsi layihəsində «Aqrokredit» borclarını gördükdə istər-istəməz sual yarandı. Hazırda «Aqrokredit»in rəhbərliyi borcu qalmadığını iddia edir, layihədə isə 1,5 milyard borcun olduğu və onun büdcəyə daxil olması göstərilmişdir. Məsələyə aydınlıq gətirilməlidir.



Fikrimizcə, «Aqrokredit»in vəziyyəti ətraflı təhlil olunmalıdır. Ölkə Prezidenti tərəfindən təsdiq edilmiş **«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda (2004-2008-ci illər)** müəyyənləşdirilmiş vəzifələrin və tədbirlərin reallaşması regionların sosial-iqtisadi inkişafında dönüş yaradacaqdır. Hesab edirik ki, Dövlət Proqramının müəyyən olunduğu səviyyədə və keyfiyyətdə yerinə yetirilməsini təmin etmək üçün «Aqrokredit»in müstəqil bank kimi fəaliyyət göstərməsi məsələsinə yenidən baxılması məqsədəuyğun olardı.

Bizdə olan məlumata görə «Aqrokredit»də Nizamnamə Kapitalının minimum məbləğinin təmin edilməsində problem yoxdur. Fikrimizcə, regionların dinamik inkişafına maliyyə təminatı yaratmaq üçün «Aqrokredit»in çoxillik təcrübəsindən istifadə olunması sosial-iqtisadi inkişafın sürətlənməsinə xidmət edərdi.

Ölkə Prezidentinin aqrar bölmədə idarəetməni təkmilləşdirmək üçün gördüyü tədbirlər və eləcə də aqroservizlər, aqrolizinqlər yaradılması haqqında sərəncamları sosial-iqtisadi inkişafın sürətlənməsində mühüm rol oynayacaqdır.

**1. Qeyri-neft sektorunun inkişafı və büdcə gəlirlərinin formalaşmasında onların rolu.**

Ölkə Prenzidenti dövlət büdcəsi gəlirlərinin neft faktorundan asılılığının aradan qaldırılması üçün sistemli iş aparır. 1996-cı ildə büdcə gəlirlərinin 55-60 faizi neft amili hesabına formalaşırdı. Dövlət büdcəsi gəlirlərinin bir mənbədən asılılığı ölkə üçün ciddi problemlər yarada bilər. Bu cür problemin yarandığı vaxt olmuşdur, 1998-ci ildə.

Neftin dünya bazarında qiyməti OPK-in və digər iri neft ixracatçısı olan ölkələrin fəaliyyəti ilə formalaşır. Azərbaycanın neft ixracatından əldə etdiyi gəlirlər, ixrac etdiyimiz neft məhsullarının qiymətindən asılı olur. Dövlət büdcəsinə neft məhsullarının reallaşmasından daxilolmalar onun dünya bazarındakı qiymətlərinə düz mütənasib olaraq dəyişilir.

1998-ci ilin dövlət büdcəsində neftin bir barelinin qiyməti 19,5 dollar təsdiq edilmiş və büdcə gəlirləri bu qiymətlə hesablanmışdı.

İlin başlanğıcından neftin dünya bazarlarında qiyməti tədricən aşağı enməyə başlandı və ilin ortalarında onun qiyməti 8-9 dollara düşdü. Bu səbəbdən və eləcə də digər səbəblərdən 1998-ci ilin dövlət büdcəsində müəyyən olunduğundan 744 milyard manat çox kəsir əmələ gəldi. Bu vəziyyətdən dövlət gərginliklə olsa belə çıxa bildi. Lakin onun bir daha təkrarlanmayacağına heç kim təminat verə bilməz. Ona görə Ümummilli Liderimiz Heydər Əliyev dövlət büdcəsinin bir mənbədən asılılığını aradan qaldırmaq üçün tədbirlər müəyyən etmişdir.

Dövlət büdcəsi gəlirlərinin bir mənbədən asılılığının azaldılması istiqamətində tədbirlər indi yeni keyfiyyət halında İlham Əliyev cənabları tərəfindən davam etdirilir.

Görülən işlərin nəticəsi olaraq dövlət büdcəsi gəlirlərinin formalaşmasında neft məhsulları satışından daxilolmalar 2004-cü ildə 32-33 faizə enmişdir.

İlham Əliyev cənablarının imzaladığı **«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»** ilə **(2004-2008-ci illər)** müəyyən edilmiş vəzifələr bir başa qeyri-neft sektorunun inkişafına, büdcə gəlirlərinin bir mənbədən, habelə xarici bazarda neft məhsulları qiymətinin dəyişilməsindən asılılığının aradan qaldırılmasına istiqamətlənmişdir. Sistemli həyata keçirilən tədbirlər müxalifətin çox sevdiyi «holland sindromu» təhlükəsini aradan qaldırmağa şərait yaradır.

Məlum olduğu kimi, qeyri-neft bölməsində həlledici yerlərdən biri aqrar sektora aiddir. Azərbaycan Respublikasında son illər aparılan islahatlar nəticəsində aqrar bölmədə yeni iqtisadi münasibətlər formalaşmış, bu sahənin inkişafını tənzimləyən normativ hüquqi baza təkmilləşdirilmiş və regionlarda sahibkarlığın inkişafı üçün əlverişli şərait yaranmış, kənd təsərrüfatı məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artmışdır. Qazanılmış uğurlar dövlətin aqrar siyasətinin həyata keçirilməsinin məntiqi nəticəsidir. Bu həmçinin ölkə Prezidentinin müəyyənləşdirdiyi siyasətin reallaşmasını sürətləndirməyə, kənd rayonlarında mövcud potensialı aşkarlamağa, yerli istehsalı inkişaf etdirməyə və kənd əhalisinin



rifahını daha da yaxşılaşdırmağa xidmət etmişdir.

Azərbaycan Respublikasının Prezidenti aqrar bölmənin idarə edilməsində mövcud pərakəndəliyi aradan qaldırmaq, bu sahənin dinamik inkişafını təmin edən idarəetmə sistemini yaratmaq məqsədi ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyini yenidən təşkil etmək haqqında 2004-cü ilin oktyabr ayında Sərəncam vermişdir.

Kənd Təsərrüfatı Nazirliyinin funksiyalarında ciddi dəyişikliklər aparılmış, bu nazirlik kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, istehsalçılara zəruri xidmətlərin göstərilməsi, meliorasiya və su təsərrüfatı, baytarlıq, bitki karantini, torpaqların səmərəli istifadəsi də daxil olmaqla aqrar bölmədə dövlət siyasətini və iqtisadi münasibətlərin tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanına çevrilmişdir.

Kənd Təsərrüfatı Nazirliyi yanında aşağıdakı qurumlar yaradılmışdır:

- Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi;
- Dövlət Baytarlıq Xidməti;
- Dövlət Fitosanitar Nəzarəti Xidməti;
- Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi.

Kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, yerli xammal bazasında işləyən emal müəssisələri yaratmaq üçün tədbirlər görülür. Dövlət başçısı sahibkarlığın inkişafını sürətləndirmək məqsədi ilə kənd təsərrüfatı məhsullarının istehsalçıları 2009-cu il yanvarın 1-dək torpaq vergisindən başqa, bütün vergilərdən azad edilməsinin təşəbbüskarı olmuşdur.

Hazırki mərhələdə aqrar sahədə qarşıda duran başlıca vəzifələrdən biri istehsalçının zəruri kənd təsərrüfatı texnikası ilə təchizatını yaxşılaşdırmaqdan, keyfiyyətli məhsul yetişdirmələrinə aqrotexniki xidmətlər göstərilməsinə şərait yaratmaqdan və onun itkisiz yığılmasını təmin etməkdən ibarətdir. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş **«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında» (2004-2008-ci illər)**

iqtisadi artıma dinamizm gətirmək üçün müvafiq tədbirlər nəzərdə tutulmuşdur.

Aqrar bölmənin müasir texnika ilə təchizatı məsələlərinin çevik şəkildə və bazar iqtisadiyyatı prosesləri ilə həllini təmin etmək və Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrasını sürətləndirmək məqsədi ilə Azərbaycan Prezidenti İqtisadi İnkişaf Nazirliyinə səhmlərinin nəzarət zərfi 100 faiz dövlətə məxsus olan «Aqrolizinq» Açıq Tipli Səhmdar Cəmiyyəti yaratmağı tapşırmışdır. «Aqrolizinq» Açıq Tipli Səhmdar Cəmiyyəti dövlət büdcəsindən bu məqsəd üçün ayrılan vəsait hesabına alınan kənd təsərrüfatı texnikasının lizinq yolu ilə hüquqi və fiziki şəxslərə icarəyə verilməsini və ya satışını həyata keçirəcək, onlara mühəndis-texniki xidmətlər göstərilməsində fəal iştirak edəcəkdir.

Ölkə Prezidenti Maliyyə Nazirliyinə «Aqrolizinq»in fəaliyyətinə maliyyə təminatı yaratmaq üçün 2005-ci və 2006-cı illərin dövlət büdcəsi layihələrinə 100,0 milyard və 150,0 milyard manat vəsait nəzərdə tutmaq haqqında tapşırıq vermişdir.

**5. Dövlət büdcəsinin layihəsində** qeyri-maliyyə **dövlət müəssisələrindən alınan dividentlər 2004-cü ildə 45 milyard manat olduğu halda, 2005-ci ildə 20 milyard manat azalmış, 25 milyard manat məbləğində müəyyənləşdirilməsi nəzərdə tutulmuşdur. Ən əvvəl bu mənbədən büdcədaxilolmalarının artmaq əvəzinə azalmasının səbəbləri izah olunmalıdır. Bizcə, onun azaldılmasına yol verilməməlidir. Fikrimizcə, Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin oradan çıxarılmasının mənası başa düşülmür. Gəmiçilik İdarəsinin fəaliyyətində hansı dəyişikliklər baş vermişdir ki, 2004-cü ildə 20 milyard manat nəzərdə tutulan vəsait 2005-ci ildə artmaq əvəzinə tamam aradan götürülmüşdür. Fikrimizcə, buna heç bir lüzum olmamışdır.**

**Biz onu da demək istəyirik ki, müəssisənin sərəncamında qalan mənfəətin bölgüsü müxtəlif formada aparıla bilər. Onu elə aparmaq olar ki, dövlət büdcəsinə ödəmək üçün heç bir manat da olsa mənfəət qalmaz. Bunu iqtisadiyyatdan az-çox başı çıxanların hamısı bilirlər.**




















STAR
29"
COLOUR TV




UniBank











Fikrimizcə, mənfəətin bir hissəsinin divident adlandırılaraq müəssisədən götürülməsi qeyri-maliyyə dövlət müəssisələrinin hamısına şamil olunmalıdır. Orada ayrıseçkilik edilməməlidir. Burada iri vergi ödəyiciləri olan dövlət müəssisələri nəzərdə tutulur və o təkcə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyindən ibarət deyil. Orada qalan iri vergi ödəyiciləri də öz əksini tapmalıdır.

Büdcə daxilolmalarının bu formasında problemlər çoxdur. Hazırki vaxta kimi heç kim Vergilər Nazirliyinin qapısını döyüb ödəməli olduğu vergini hesablamağı və ya vergi tutmağı ondan xahiş etməmişdir. Deməli, qanun tətbiq olunmalıdır. Qanunsa o vaxt qanundur ki, o hər bir iqtisadi subyektə eyni cür şamil olunur.

İri vergi ödəyicisi olan dövlət müəssisələrində ən sadə maliyyə əməliyyatı aparılmalıdır. Yəni onların bir illik gəlirlər və xərclər balansı tərtib edilməlidir. Orada müəssisə gəlirlərinin mənbələri və məbləği, eləcə də xərclərin təsnifatı və kəmiyyəti müəyyən olunmalıdır. Əlbəttə bu müvafiq normalar, qaydalar və prinsiplər əsasında aparılmalıdır. Onda dövlət büdcəsinə, Sosial Müdafiə Fonduna və s. qanunla müəyyən edilmiş ödənişlərdən yayınmaların qarşısı alına bilər və maliyyə intizamına əməl olunmasını təmin etmək mümkün olar. Digər tərəfdən bütün ödənişlərdən sonra dövlət müəssisəsinin sərəncamında qalan xalis gəlirin yenidən bölgüsü aparıla bilər. Bu çox vacib məsələdir.

Özəl müəssisənin sahibi xalis gəliri öz istədiyi kimi istifadə edir. Çünki özünündür. Dövlət müəssisəsinin xalis gəliri oradakı müdirin öz şəxsi vəsaiti deyil. Müdir icraçıdır. O, rəhbərlik etdiyi müəssisənin işini təşkil edir, təsərrüfatçılıq proseslərini idarə edir və dövlətin müəyyən etdiyi məvacibi və digər ödənişləri alır. Ona görə də dövlət müəssisəsində yaranan xalis gəlirin sahibi dövlətdir.

Dövlət müəssisəsini (söhbət iri vergi ödəyiciləri olan Azərbaycan Respublikasının Dövlət Neft Şirkətindən, «Azərenerji» Səhmdar cəmiyyətindən, «Azərsu» Səhmdar Cəmiyyətindən, Azərbaycan Dövlət Dəmiryolundan, Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyindən, «Azəriqaz» Səhmdar Cəmiyyətindən və s. gedir)

dövlət başçısının sərəncamı ilə təyin edilən sədr, direktor və s. idarə edir. Əgər o tələb olunan səviyyədə işinin öhdəsindən gələ bilməsə, dövlət onu başqası ilə əvəzləyə bilər. Dövlət müəssisəsi olduğu üçün orada gəlirlər və xərclərin dürüst uçotu aparılmalı, həmin vəsaitlərin maksimum səmərəli istifadə olunmasına maliyyə nəzarəti təmin olunmalıdır.

Hazırda bu nəzarət yox dərəcəsindədir. Ona görə də iri vergi ödəyicilərində gəlirlərin uçotdan yayınması, ikili mühasibatın aparılması, ayrı-ayrı dövlətlərin müəssisə və təşkilatlarından alınmış kreditlərdən səmərəli istifadə olunmaması, onların vaxtında qaytarılmaması, dövlət büdcəsinə və digər ödənişlərdə maliyyə pozuntularına yol verilməsi adi hala çevrilmişdir. Burada maliyyə əyintilərini vaxtında aşkara çıxara bilməyən, qabaqlayıcı tədbirlər görməyən maliyyə orqanlarının da ciddi qüsurları vardır.

Fikrimizcə, Nazirlər Kabineti bu iri vergi ödəyiciləri olan dövlət müəssisəsində yaranan xalis gəlirin bölgüsü və istifadəsinin səmərəli təşkili üçün əsasnamə hazırlanmasını, rübdə bir dəfə onların gəlirləri və xərclər balansını təhlil etməlidir, onların hesabatları dinlənilməlidir. Bir sözlə, bu təşkilatların maliyyə-təsərrüfat fəaliyyəti təhlil edilməlidir.

**«Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanında «Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi sisteminə daxil olan müəssisələrin, Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin, «Azərenerji» Səhmdar cəmiyyətinin, «Azərsu» Səhmdar Cəmiyyətinin, Azərbaycan Dövlət Dəmiryolunun, Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin, «Azəriqaz» Səhmdar Cəmiyyətinin, «Azərkimya» Dövlət Şirkətinin, «Azərbaycan Hava Yolları» Dövlət Konserninin və Bakı Metropoliteninin 2005-ci il üçün gəlir və xərclər smetalarının rüblər üzrə bölgüsünü aparmaqla bir ay müddətində təsdiq» edilməsi tapşırığı verilmişdir.** Məmnunluqla qeyd edirik ki, Milli Məclisdə bizim təkliflərimizə, etdiyimiz



qeydlərə yuxarı icra hakimiyyəti orqanları ciddi münasibət bəsləmiş və maliyyə intizamına əməl olunmasını təmin etmək üçün bir sıra ciddi tədbirlər görmüşlər.

İri vergi ödəyicilərinin bəzisinin xalis gəlirinin bir hissəsi «divident» adlandırılaraq dövlət büdcəsinə cəlb olunur. Dövlət büdcəsinə bu ödənişin «divident» adlandırılması məsələnin texniki cəhətidir. Əlbəttə, burada onun mahiyyətə uyğun dürüst ifadə olunması zəruridir.

Divident səhm sahibinin müəssisə mənfəətində iştirak payıdır. Səhm qiymətli kağızdır. Onun emissiyası və dövriyyəsinin öz qanunları vardır. Bu iri vergi ödəyiciləri olan Dövlət Xəzər Dəniz Gəmiçiliyi İdarəsi, «Azəriqaz» Dövlət Şirkəti, «Azərkimya» Dövlət Şirkəti, «Azərbaycan Hava Yolları» Dövlət Konserni, Bakı Metropoliteni və s. səhmdar cəmiyyəti deyildir. Bu idarə və təşkilatlarda səhmlər və səhmdarlar yoxdur.

Dövlət müəssisəsinin xalis mənfəətinin bir hissəsinə divident adı qoyub, qanunla müəyyən edilmiş norma və prinsiplə deyil, subyektiv iradi göstərişlə onu müəssisədən götürməyin özü, fikrimizcə, düzgün deyil. Ən azı ona görə ki, divident, banka, səhmdar cəmiyyətlərinə aid kateqoriyadır. Yəni səhm sahibinin müəssisənin, səhmdar cəmiyyətinin mənfəətində iştirak payıdır. Divident, şəxsin səhmdar cəmiyyətinin yaranmasına qoyduğu paya müqabil cəmiyyətin xalis gəlirində iştirak payıdır.

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində yaranan mənfəətin bir hissəsini divident adlandırılaraq dövlət büdcəsinə köçürülməsi, mahiyyətcə uyğunsuzluq yaradır. Bu nazirlikdir, bank və ya səhmdar cəmiyyəti deyildir. Dövlət müəssisəsində yaradılan xalis gəlirin «divident» adlandırılaraq dövlət büdcəsinə cəlb edilən hissəsinə onun mahiyyətinə uyğun ad verilməlidir. Divident barədə fikirləşib, onun mahiyyətinə uyğun ad müəyyən etmək olar.

**6. Layihədə Milli Bankın mənfəətindən dövlət büdcəsinə daxilolmalar 30 milyard manat nəzərdə tutulmuşdur. (Bu 2001-ci ildə 120 milyard manat, 2002-ci ildə 140 milyard**

**manat planlaşdırıldığı halda 2004 və 2005-ci illərin hər birində 30 milyard manat müəyyən olunmuşdur)** Biz bu vəziyyəti araşdırdıq. Dövlət borclarına xidmət etmək Milli Bankın funksiyalarından biridir. Məlum oldu ki, Milli Bank 2004-cü ildə 65 milyon dollar məbləğində BVF-na vəsait ödəmişdir.

Həmin vəsaitin 63,7 milyon dolları vaxtilə BVF-dan alınan borcdan ibarətdir. Ödənilən vəsaitin 1,7 milyon dolları isə borc üçün hesablanmış faizdir. Onu Milli Bankın öz mənfəətindən ödədiyini nəzərə alsaq, onda büdcəyə ödənilən məbləğ cüzi də olsa artacaqdır. 2005-ci ildə də Milli Bank dövlət borclarına xidmət etməlidir. Lakin bütün bunlara baxmayaraq, Milli Bankın dövlət büdcəsinin formalaşmasında rolunu artırmaq üçün ehtiyatlar vardır. Onlardan istifadə edilməli və Milli Bankın dövlət büdcəsinə ödənişləri artırılmalıdır.

Milli Bank xarici banklarda saxlanılan strateji valyuta ehtiyatlarına faizin azalaraq 1,6 -2 faizə düşdüyünü və ona görə də mənfəətin azaldığını əsaslandırır. Fikrimizcə, bunu ciddi əsas hesab etmək olmaz. Ona görə ki, depozitlərə faizin dərəcəsi aşağı düşdüyü halda, qoyulan depozitlərin məbləği əhəmiyyətli dərəcədə artmışdır. Digər tərəfdən kim bizi məcbur edir ki, valyuta ehtiyatlarını təkcə depozitə qoyaq? Gəlirlilik səviyyəsi yüksək olan sahələr hələ çoxdur. Yüksək gəlirliliyə malik müəssisələrin səhmlərini alıb onun mənfəətində iştirak etmək daha çox gəlir gətirə bilər. Strateji valyuta ehtiyatlarının idarə olunmasını, onların faydalılıq əmsalını yüksəltmək, onların idarə olunmasında fəallıq göstərmək tələb olunur. Bu həmçinin Dövlət Neft Fondunun vəsaitlərinə aiddir. Bu Fondun vəsaitləri dünyanın nüfuzlu banklarında saxlanılır. Lakin faizin dərəcəsi aşağıdır.

Biz xaricdən kredit alır və eləcə də Azərbaycan dövlətinə məxsus vəsaitləri xarici banklarda depozitə qoyuruq. Xaricdən alınan kreditlərin bəzisinin 2,5 faiz olduğunu, xarici banklara depozitə qoyduğumuz vəsaitə isə 1,6-1,7 faiz verildiyini nəzərə alsaq, onda işimizin faydalılıq əmsalı haqqında düşünməyə dəyərmi? Bizcə bəzi hallarda öz vəsaitlərimizi xarici banklara



depozitə qoymaqdansa özümüzdə istifadə olunmasını təmin etmək daha sərfəli olardı. Əlbəttə, həmin vəsaitlərin bir hissəsini qısa müddətə işə salınması mümkün olan emal müəssisələri yaradılmasına yönəltmək daha sərfəli olardı. Ən azı ona görə ki, faiz mənfəətin bir hissəsi olduğundan eyni kəmiyyətli vəsait investisiya təyinatlı istifadə olunduqda daha çox səmərə verə bilər. Əlbəttə, 30-40 il müddətinə beynəlxalq maliyyə institutlarından 0,7 faizlə kredit alınması və istifadə olunmasının sərfəli olduğu nəzərə alınmalıdır.

**2. Büdcə gəlirlərini artırmaq və xərclərin səmərəliliyini yüksəltmək.**

Dövlət büdcəsinin gəlirlərini artırmaq büdcə prosesinin ən vacib məsələlərindən biridir. Dövlət büdcəsi gəlirlərinin bir neçə il üzrə təhlili onun artırılması üçün böyük imkanlar olduğunu sübut edir. Ərazisi, əhalisi Azərbaycanla bərabər olan, təbii sərvətləri isə Azərbaycandan xeyli az olan Avstriyanın dövlət büdcəsi ilə deyil, hətta Pribaltika respublikalarının dövlət büdcələri ilə müqayisə Azərbaycanın dövlət büdcəsinin gəlirlərini artırmaq üçün geniş imkanlar olduğunu göstərir. Bizim büdcəmiz Avstriyanın büdcəsindən 50-55 dəfə, Pribaltika respublikalarının hər birinin büdcəsindən isə 2-3 dəfə azdır.

Azərbaycan dövləti qarşısında duran vacib vəzifələrdən biri büdcə gəlirlərini artırmaqla yanaşı, büdcə xərclərinin təyinatı üzrə və maksimum səmərəli istifadə olunmasını təmin etməkdən ibarətdir. Biz əvvəl yazdıqlarımıza əlavə olaraq aşağıdakıları qeyd etmək istərdik.

**1. Dövlət büdcəsinin layihəsində dövlət büdcəsindən verilmiş kreditlər üzrə daxilolmaların 969 milyon manat olduğu göstərilmişdir.** Onun tərkibi açıqlanmalı, hər bir iqtisadi subyektin kredit borcunun məbləği dəqiq müəyyən edilməli və göstərilməlidir. Bizdə olan məlumatlara görə bu göstərilənlər dövlət büdcəsinə borcların bir hissəsini təşkil edir.

Dövlət büdcəsinə borcların məbləğinin əslində olduğundan az müəyyən edilməsinin səbəbləri izah olunmalıdır. Bu borcların

hamısı göstərilməlidir. Həm ödəmə vaxtı keçməmiş, həm də ödəmə vaxtı ötmüş borclar təsnifləşdirilməli və dürüst göstərilməlidir. Bu sənəddə 1996-cı ildə Avropa otelinə dövlət büdcəsindən 2,7 milyard manat məbləğində verilmiş, lakin indiyə kimi qaytarılmamış borcun oturmamasının səbəbi məlum deyil. Bu borcların ödənilməsində dövlətin maliyyə orqanlarının, ən əvvəl Maliyyə Nazirliyinin və Hesablama Palatasının passivlik göstərmələri təəccüb doğurur.

Maliyyə Nazirliyi 1997-ci ildə, heç olmasa 1998-ci ildə kreditin geri qaytarılmasını təmin etmək üçün ciddi tədbirlər görməli idi. Maliyyə Nazirliyi nəinki bu işləri görməmiş, heç kreditin təyinatı üzrə istifadə olunmasına nəzarət etməmişdir. Halbuki krediti verən təşkilat öz vəsaitinin təyinatı üzrə istifadə olunmasına nəzarət etməli idi. Bunların heç biri edilməmişdir.

Büdcə vəsaitlərinin qeyri-qanuni mənimsənilməsinə qarşı ciddi tədbirlər görmək və büdcəyə borcların qaytarılması təmin etmək haqqında Azərbaycan Respublikasının Baş Prokuroru cənab Z. Qaralova, Ədliyyə Naziri cənab Fikrət Məmmədova müraciətlərimizə başdansovdu cavab verildiyini onların diqqətinə çatdırırıq. İqtisad məhkəməsinin borcu əmlaka yönəltmək haqqında qərarının icra olunmamasının səbəblərini Ədliyyə Nazirinin müavininin aydınlaşdıra bilməməsi təəccüb doğurur. Ümumiyyətlə, dövlət mülkiyyətinin keşiyində durmalı olan, dövlət büdcəsi hesabına yaşayan bu nüfuzlu təşkilatlar, dövlət mülkiyyətinin qorunması, dövlətin iqtisadi təhlükəsizliyinin təmin olunması üçün tədbirlər görmək vəzifə borcu olanların öz yaxalarını kənara çəkmələri burada bizə məlum olmayan əlavə nələrinsə olduğundan xəbər verir. Biz, əlbəttə, onu öyrənməyə və aydınlaşdırmağa çalışacağıq.

**8. Layihədə göstərilən təkrar borc sazişləri üzrə daxilolmalar 52 milyard 106 milyon manatdır. Bu borcların tərkibi açıqlanmalı, onların yaranma səbəbləri və ödənilmə mənbələri dürüst göstərilməlidir.**

**9. Büdcə layihəsinin 3-cü maddəsindəki «Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) respublikadaxili topdansatış qiyməti arasındakı fərqdən dövlət büdcəsinə 25 faiz həcmində ödəniş müəyyən edilir». Bu** müddəada aydın olmayan məsələlər çoxdur. Onların hər biri aydınlaşdırılmalıdır.

**10.** Dövlət büdcəsinin kəsirinin yuxarı həddi 579 milyard manat nəzərdə tutulmuşdur. Büdcə kəsirinin ÜDM-ə nisbəti 1,2 faizdir. Bu normal həddir.

Büdcə kəsirinin 480,6 milyard manatı daxili, 98.4 milyard manatı xarici mənbələr hesabına ödəniləcəyi göstərilir. Büdcə kəsirinin 300 milyard manatı xəzinədə olan sərbəst büdcə qalığı hesabına ödəniləcəyi nəzərdə tutulur. Daxili mənbə hesabına ödənilməli olan 180,6 milyard manatın ünvanı göstərilmir. Dövlət büdcəsi kəsirinin qeyd olunan məbləğinin hansı mənbə hesabına ödəniləcəyi göstərilməlidir. Eləcə də büdcə kəsirini örtmək üçün 98.4 milyard manatın hansı xarici mənbələr hesabına ödəniləcəyi də məlum deyildir. Onlar dürüst göstərilməlidir.

«Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən dövlət büdcəsi kəsirinin örtülmə mənbələri dürüst müəyyən edilməli və təsdiq olunmalıdır. Ona görə də büdcə kəsirinin örtülmə mənbələrinin tam aşkarlanmalı, hər bir maddənin şəffaflığı təmin olunmalıdır.

**11.** Ölkə Prezidentinin səyi ilə son illər respublikamızda turizmin inkişafı üçün infrastruktur sahələrinin yaradılması əhəmiyyətli dərəcədə sürətlənmişdir. Ölkənin Şimal, Cənub və eləcə də Qərb regionlarında müasir idman və turizm kompleksləri yaradılmışdır. Bu sahədə çalışanların sayı və oradan dövlət büdcəsinə daxilolmaların məbləği əhəmiyyətli dərəcədə artmışdır.

Dövlət büdcəsində bir və ya 1,5 milyardlıq manatlıq daxilolmanın ayrıca sətirlə yazılması mövcuddur. Turizmdən dövlət büdcəsinə milyardlarla manat daxilolmalar vardır. Fikrimizcə, turizmdən daxilolmaların dövlət büdcəsində ayrıca sətirlə göstərilməsi məqsədəuyğun olardı. Bu turizm sahəsində gəlirlərin və xərclərin uçot və hesabat işlərini dəqiq aparmağa şərait yaradardı.

Bu, habelə ehtiyatları aşkara çıxarmağa və onları büdcə gəlirlərinin artırılmasına, bu gəlirlərin illər üzrə müqayisəli təhlilini aparmağa və bu mənbə hesabına büdcədaxilolmalarının artımını stimullaşdırmağa təsir edə bilərdi.

**12. 22-ci maddədə enerji sektoru üzrə alınan yanacaq üçün ödənilməyən məbləğə görə dövlət büdcəsi hesabına bu sektora ediləcək dolayı subsidiyanın limiti müəyyən edilir. Bu limit 2004-cü ildə 1 trilyon 507 milyard manat, 2005-ci ildə isə 1 trilyon 470 milyard manat, yəni 37 milyard manat az nəzərdə tutulur.**

**Sual olunur: Cənablar əgər enerji daşıyıcılarının qiymətində baş verəcək dəyişikliklər dövlət büdcəsindən subsidiyanın cəmisi 37 milyard manat azalması ilə nəticələnəcəkdisə və qiymətlərin qalxmasından az təminatlılara (qaz satışında qiymətlərin artımından dəyən zərərdən qorunmaq üçün 34 milyard manat) və büdcə təşkilatlarına yanacaq və sürtgü materiallarının qiymətinin artımı ilə bağlı büdcədən 51,5 milyard manat vəsait verilməsini nəzərdə tutmaqla nə etmək istədiyinizi müəyyən etməmisinizmi?**

**Ümumiyyətlə, respublikamızda elektrik enerjisi üzrə ödəmə əmsalı 42 faiz, qaz satışı üzrə isə 72 faiz olduğu şəraitdə qiymətləri qaldırmaqdansa yığım əmsalını artırmağın sosial-iqtisadi səmərəliliyinin müqayisəli təhlili aparılmalı idi. Belə müqayisəli təhlil aparıldıqdan sonra qərar qəbul olunması düzgün olardı. Vəziyyətin araşdırılması göstərir ki, belə təhlil aparılmadan enerji daşıyıcılarının qiyməti qaldırılmışdır.**

**Elektrik enerjisində ödəmə əmsalının bir faiz artımı 13,2 milyard manata bərabərdir. Yığım əmsalının 100 faizə çatması üçün hələ çox iş görülməlidir. Yığımın strukturunda kommersiya və eləcə də irimiqyaslı büdcədən maliyyələşən təşkilatların rolu xüsusilə böyükdür. İstehlak olunan elektrik enerjisinin orta hesabla 58 faizi yığılmamış qalır. Yığım əmsalının 100 faizə çatdırılması 58 X 13,2 = 765,6 milyard manat əlavə büdcədaxilolmaları təmin edə bilər.**



**Təbii qaz satışı sahəsində isə yığımın 100 faizə yüksəldilməsi 28 X 2,5 = 70 milyard manat edir. Deməli, qiymətlərin sabit qaldığı şəraitdə təkcə yığım əmsalını 100 faizə yüksəltməklə elektrik enerjisindən və qazdan dövlət büdcəsinə daxilolmalar birlikdə 835,5 milyard manat əlavə gəlir əldə etməyə imkan verər.**

**Müqayisə üçün xatırladaq ki, qazın, yanacaq və sürtgü materiallarının qiymətlərinin qaldırılmasından büdcə daxilolmalarının 505 milyard manat artımı gözlənilirsə, qiymətlərin sabit qaldığı şəraitdə yığım əmsalının 100 faizə yüksəldilməsi 835,5 milyard manat gəlir gətirə bilər. Beləliklə, qiymətlərin artımı 505 milyard manat gətirirsə (onun da 85 milyard manatı kompensasiyaya sərf olunar), yığım əmsalının yüksəldilməsi isə 835,5 milyard manat gətirə bilərsə, onda bunların hansını etmək daha sərfəli olardı? Bu sualı biz müvafiq icra hakimiyyəti orqanlarına ünvanlayırıq. Cənablar, işin ən asanı qiymətləri qaldırmaq haqqında qərar qəbul etməkdir. Qiymətləri qaldırmadan gəlirləri artırmaq imkanı olduğu halda, hələlik qiymətləri sabit saxlamaq düzgün olardı.**

**Biz enerji daşıyıcılarının istehsal xərcləri (maya dəyəri) və pərakəndə satış qiymətləri arasındakı fərqi başa düşürük. Qiymətlər hökmən və tədricən yüksəldilməlidir. Lakin bu yığım əmsalını 100 faizə qaldırdıqdan sonra etmək lazım idi. Hər halda bir şeyi unudulmamalıdır: əhalinin alıcılıq qabiliyyətindən yüksək qiymət qoymaq olmaz.**

**Sizin qiyməti yüksəltmək haqqında qərarınız, yığım əmsalının aşağı düşməsi ilə nəticələnəcək və çox ehtimal ki, qiymətin yüksəldilməsindən əldə edilməli olan yığım əmsalının aşağı düşməsini ancaq kompensasiya edəcəkdir.**

**İqtisadiyyatın cari vəziyyəti və operativ idarə olunmasına məsul olan orqanların bu elementar hesablamaları aparmadan, qiymətləri artırmağa meyillənmələrini başa düşmək olmur.**

**Biz enerji daşıyıcılarının qiymətinin yüksəlməsinə qarşı deyilik. Doğrudan da respublikamızda enerjidaşıyıcıları maya**

**dəyərindən aşağı qiymətlə satılır. Xarici ölkədən satın aldığı qazı əhaliyə və bütün istehlakçıları 7 dəfə ucuz qiymətə satan ölkə yoxdur. Biz istəsək də, istəməsək də enerjidaşıyıcılarının qiyməti yüksələcəkdir. Lakin, fikrimizcə, ödəmə əmsalının maksimum səviyyəyə yüksəlməsini təmin etmədən qiyməti yüksəltmək düzgün deyil. Axı başlıca məsələ qiymətləri artırmaq deyildir. Əsas məsələ istehlakçılara satılmış enerjinin ödənişini təmin etməkdir. Bu sahədə isə problemlər qeyd etdiyimiz kimi çoxdur.**

**Həm də enerji daşıyıcılarının qiymətində əmələ gələn dəyişikliyin iqtisadiyyatın digər sahələrinə də təsir edəcəyini, 2005-ci ildə inflyasiyanın 5 faiz həddində saxlanılmasını çətinləşdirəcəyini də nəzərə almalı idik.**

**Biz yanacaq və sürtgü materiallarının qiymətinin yüksəlməsinin zəncirvarı reaksiya yaradacağını, milli məhsulların maya dəyəri və qiymətlərinin yüksəlməsinə və rəqabət qabiliyyətinin aşağı düşməsinə təsir edəcəyini, ümumən inflyasiyanın artımına və ondan irəli gələn digər neqativ nəticələrə səbəb olacağını da nəzərə alsaq, onda yığım əmsalının yüksəldilməsinin qazın, yanacaq və sürtgü materiallarının qiymətlərinin artırılmasına nisbətən daha sərfəli olduğu aydın olar.**

**İstehsalda və idxalda inhisarçılığa qarşı mübarizənin gücləndirilməsi vacibdir. Bununla yanaşı, inhisarçılığın ideoloji sahədə də neqativ nəticələri nəzərə alınmalı və haqsız rəqabətin qarşısını almaq üçün tədbirlər görməli, bərabər şəraitli rəqabətə meydan açılması təmin edilməlidir. Fikrimizcə, tənzimlənən qiymət siyasətində müqayisəli fikirlər təhlil olunmalı idi. Bu müvafiq icra hakimiyyəti orqanlarına daha əlverişli qərarlar qəbul etmək imkanları yaradardı.**

**13. 2005-ci ildə dövlət büdcəsi gəlirlərinin 750 milyard manatı Dövlət Neft Fondundan, 366 milyard manatı büdcə təşkilatlarının büdcədənkənar fondlarının büdcəyə daxil olunmasından formalaşdığı nəzərə alınmalıdır.**

**2005-ci ildə büdcə gəlirləri artımının 1 trilyon 116 milyard**



**manatının transferlər hesabına formalaşdığı barədə düşünməliyik. Büdcə gəlirlərini bu mənbə hesabına artırmağın ömrünün gödək olduğu nəzərə alınmalıdır. Ona görə də büdcə daxilolmalarının müstəqil mənbələr hesabına artımına nail olmaq üçün daha əlverişli yollar tapılmalıdır.**

**14. 2005-ci il dövlət büdcəsində sosial xərclərin xüsusi çəkisi 54,8 faiz təşkil edir.** Əmək haqqı və sosial ödənişlərin artdığı şəraitdə sosial xərclərin nisbi azalması investisiya xərclərinin çoxalması ilə müşayiət olunur. O müsbət hal kimi qeyd edilməlidir. Biz dövlət büdcəsini iqtisadi inkişaf büdcəsinə çevirmək üçün büdcənin sosial istiqamətini investisiya yönümlülüyü artırmaq hesabına nail olmağa çalışırıq.

2005-ci ildə bütün maliyyə mənbələri hesabına iqtisadiyyata investisiya qoyuluşunun ümumi məbləği 5 milyard dollara yaxın olmuşdur. Unutmamalıyıq ki, dövlət büdcəsinin sosial yönümlülüyü ilə investisiya istiqamətliliyi arasında ciddi sədd qoymaq özü düzgün deyil. Dövlət büdcəsinin investisiya yönümlülüyü, onun sosial yönümlü olmasını qətiyyən inkar etmir. Çünki investisiya yönümlülük yeni iş yerləri yaratmaqla xalqın rifahının yüksəlməsinə təsir edir.

Mahiyyətcə bu yol daha sərfəlidir. O yeni iş yerlərinin yaradılması, işləyənlərin sayının artması hesabına sosial səmərə verir. Əhalimizi ələbaxımlığa öyrətmək deyil, onlara yeni iş yerləri yaratmaq və öz alın təri ilə özünün və ailəsinin tələbatını ödəmələrinə şərait yaratmaq daha vacibdir.

İnvestisiya qoyuluşlarını artırmaqla yeni iş yerləri yaratmaq, əmək haqqı xərclərinin artımına təsir etməklə xalqın rifahını yüksəltmək daha sərfəli yoldur. Xalqımızın öz mentaliteti də ələ baxımlığa deyil, alın təri ilə bir parça çörək qazanmağa üstünlük verir. Bu, həm dövlətçilik nöqteyi nəzərindən, həm də insani baxımdan sərfəlidir. Elə 2005-ci ilin dövlət büdcəsinin xüsusiyyətlərindən biri investisiya xərclərinin artımı vasitəsilə dövlət büdcəsinin sosial yönümlülüyünün reallaşmasına nail olmaqdan ibarətdir.

2005-ci ilin dövlət büdcəsində kənd təsərrüfatı xərcləri və onunla bağlı digər xərclər artırılaraq 490 milyard manata çatdırılmış, nəqliyyat-kommunal təsərrüfatı xərcləri 176 milyard manatdan çox, sənaye və tikinti xərcləri 665 milyard manatdan çox, nəqliyyat və rabitə xərcləri 477 milyard manatdan çox təsdiq edilmişdir. Bura bütün maliyyə mənbələrindən Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə 2005-ci ildə qoyulacaq 5 milyard dollardan çox investisiya aid edilərsə onda iqtisadiyyatın inkişafına maliyyə təminatı yaratmaq üçün nə qədər gərgin iş aparıldığı aydın olar.

Əvvəlki illərdən fərqli olaraq Hesablama Palatası 2005-ci ilin dövlət büdcəsinin layihəsinə rəy vermişdir. Doğrudur bu rəyin keyfiyyəti hələ tələb olunan səviyyədə deyildir. O büdcənin gəlirləri və xərclərinin ətraflı təhlilini əhatə edə bilmir. Onun yalnız sonluğunda bir neçə ən ümumi formada təklif verilmişdir. Lakin bu təkliflərin də konstruktivliyi, elmi-texniki hesablamalara əsaslanma dərəcəsi büdcənin təkmilləşdirilməsinə lazımi dərəcədə xidmət edə bilmir.

Rəydə diqqət dövlət büdcəsinin layihəsində öz əksini tapmış, elm, təhsil, səhiyyə və mədəniyyət üzrə məqsədli proqramların professionallıqla təhlili aparılmır. Bu Proqramların dövlət büdcəsinin xərcləri əsasında, büdcə maliyyələşmələri bazasında yerinə yetirilməsi təhlil edilməmişdir. Aydındır ki, məqsədli proqramlar büdcə vəsaitlərindən istifadənin keyfiyyətinə, xərclərin ünvanlılığına, onun təyinatının aşkar ifadə olunmasına əsaslanmalı, büdcə xərclərinin səmərəliliyinin yüksəlməsinə xidmət etməlidir. Təəssüflə qeyd etməliyik ki, 2005-ci ilin dövlət büdcəsində də məqsədli proqramların büdcə xərcləri ilə bağlılığı təmin edilməmişdir. O büdcənin hazırlanması prosesində yol verilmiş ciddi nöqsanlarındandır. Bu barədə Hesablama Palatasının hesabatında bir kəlmə olsa belə yazılmamışdır. Fikrimizcə, bu ciddi nöqsandır.

2005-ci ilin dövlət büdcəsinin təhlilini ümumiləşdirərək qeyd etməliyik ki, o, nöqsansız deyildir. Lakin əvvəlki illərə nisbətən daha təkmil hazırlanmışdır. O bütövlükdə «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun



olaraq tərtib edilmiş və qanunla müəyyən edildiyi vaxt Milli Məclisə göndərilmişdir.

2005-ci ilin dövlət büdcəsi bir aydan artıq Milli Məclisdə müzakirə olunmuşdur. Onu Milli Məclisin bütün komissiyaları ayrılıqda və ya birlikdə müzakirə etmişlər. Hesab edirik ki, dövlət büdcəsinin müzakirələrində tələsikliyə yol verməməkdə Milli Məclis düzgün hərəkət etmişdir.

Biz tələsmədən ilin ən ali maliyyə sənədini, dövlət büdcəsini ətraflı müzakirə etmişik. Əsas məsələ sadəcə olaraq büdcə müzakirələrinin uzun müddətli olmasında deyildir. Başlıca məqsəd konstruktiv təkliflər verilməsindən, 2005-ci il dövlət büdcəsinin daha da təkmilləşdirilməsindən ibarətdir.

Çox şey Milli Məclisdə dövlət büdcəsi layihəsinin müzakirələrinin necə aparılmasından asılıdır. Müzakirələrdə operativlik çatışmadığı açıq-aydın görünürdü. Dövlət büdcəsinə aid olmayan məsələlərdən uzun-uzadı danışıqların müzakirə mövzusuna istiqamətləndirilməsi təmin olunmurdu.

Müzakirələrdə büdcənin təhlilini dərinləşdirmək, konstruktiv təkliflər verilməsinə nail olmaq üçün kifayət qədər istiqamətləndirici səylər göstərmək mümkün idi. Bütün bunlar təbii ki, müzakirələrin faydalılıq əmsalını xeyli yüksəltməli idi.

Deputatlardan bəziləri emosional çıxışlara geniş yer verdilər. Fikrimizcə, onların çıxışlarını məqsədyönlü səmtə istiqamətləndirilməsi təmin olunmalı idi. Ən vacibi, deputatların bəzisinin etik normaları aşmasına yol verməmək üçün əvvəlcədən fəal iş görülməli idi. Milli Məclisin aşağıdan, iclas zalından idarə olunması yolverilməzdir. Əvvəlcədən işi elə qurmaq lazım idi ki, etik normalardan kənar, əsəb gərginliyi doğuran çıxışlara yer qalmasın. Məsələ orasındadır ki, Milli Məclisin iclaslarına təkcə respublika vətəndaşları deyil, dünyanın müxtəlif yerlərində yaşayan, Azərbaycan dilini bilənlər, bizi istəyən və eləcə də bizə düşmən olan qüvvələr baxırlar.

Parlament ölkənin ən nüfuzlu təşkilatlarından, dövlət hakimiyyətinin mühüm qollarından biridir. Burada ədəbsiz danışıqlara yol

verilməsi, ölkəmizin imicinə xələl gətirə bilər. Biz bunu unutmamalıyıq. Bu qeyd olunanlar istisna olmaqla müzakirələr bütövlükdə konstruktiv hesab oluna bilər. Lakin dövlət büdcəsinin müzakirələrinin mübahisəsiz ötüşməsi özü də mümkün deyildir. Belə çıxışların, konstruktiv mübahisələrin özü də lazımdır. Dünyanın bütün ölkələrində dövlət büdcəsinin müzakirələri mübahisəsiz keçmir.

Əbəs yerə deyil ki, Türkiyədə büdcə müzakirələri prosesinə büdcə **«dartışmaları»** deyirlər. Türkiyədə dövlət büdcəsinin müzakirələri hər il çox qızğın keçir. «Dartışmalar» başlıca olaraq büdcə xərclərinin başlıca istiqamətlərinə, sairlər, iqtisadi subyektlər üzrə bölgüsünə aid olur. Orada Böyük Millət Məclisinin payız sessiyası demək olar ki, yalnız dövlət büdcəsi və onunla bağlı məsələlərin müzakirələrinə həsr olunur.

Azərbaycanda da dövlət büdcəsinin müzakirələri prosesi ildən ilə təkmilləşir. Bütövlükdə 2005-ci il dövlət büdcəsinin müzakirələri işgüzar şəraitdə keçmişdir. Onun səmərəli keçməsinin başlıca səbəbi dövlət büdcəsinin təkmil hazırlanmasıdır. Həqiqətən 2005-ci ilin dövlət büdcəsi əvvəlki illərlə müqayisədə daha təkmil hazırlanmışdır. Bu da təbiidir. Çünki hər il dövlət büdcəsinin hazırlanmasında təkmilləşmə baş verir. Bu müsbət cəhət kimi qeyd edilməlidir.

**3. 2005-ci iln dövlət büdcəsi demokratiya – yüksək inkişaf tempinə və şəffaflığa əsaslanır.**

İlham Əliyev cənablarının rəhbərliyi ilə 2005-ci il dövlət büdcəsinin layihəsinin tərtibi, müzakirələri, konstruktiv təkliflərin nəzərə alınması və təsdiqi aparılmışdır. 2005-ci ilin dövlət büdcəsinin makroiqtisadi göstəriciləri onun dinamik inkişaf tempinə istiqamətləndiyini göstərir. Bu həm sözü gedən büdcənin iqtisadi inkişafı stimullaşdırmağa istiqamətlənməsi, həm də onun iqtisadi artımdan bəhrələnməsi ilə izah olunur.

Dövlət büdcəsinin müzakirələri dövlət başçısının müəyyən etdiyi sosial-iqtisadi inkişaf kursunun uğurlu olduğunu və xalq tərəfindən müdafiə olunduğunu göstərir. Bu əsası Heydər Əliyev



tərəfindən qoyulmuş iqtisadi siyasət strategiyasının yeni keyfiyyət halında inkişafından ibarətdir. Bu ən əvvəl yüksək inkişaf tempinin müəyyən olunmasıdır.

2005-ci il dövlət büdcəsinin müzakirələri təkcə məclisdəki müzakirələrdən ibarət olmamışdır. Büdcənin layihəsi qəzetlərdə, ən əvvəl «Azərbaycan» qəzetində verildiyi üçün o, ümumxalq müzakirəsində olmuşdur. Milli Məclisə və eləcə də iqtisadi siyasət daimi komissiyasına respublikanın müxtəlif regionlarından 30-dan çox təklif daxil olmuşdur. Onlar dövlət büdcəsi ilə bilavasitə bağlı olan, istehsal, bölgü, pul-kredit, vergi, tarif, rüsum, qiymət və s. məsələlərinə aid suallar və təkliflərdən ibarət idi. Bu təkliflər işçi qrupu tərəfindən öyrənilməli, sistemləşdirilməli və dövlət büdcəsinin ayrı-ayrı maddələrində dəyişikliklər etmək üçün qanunvericilik təşəbbüsünün subyekti ilə müzakirələr aparılmalı idi. Bunun üçün dövlət büdcəsinin müzakirələri 10 gün dayandırıldı, işçi qrupuna suallar, təkliflərlə işləmək üçün şərait yaradıldı. Milli Məclis büdcə zərfinə daxil olan digər məsələlərin müzakirəsinə başlamalı oldu.

Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Vergilər Nazirliyi, Gömrük Komitəsi və s. icra strukturları ilə işçi qrupu təkliflərin müzakirəsi və təhlilinə başladılar. Biz nəzərə aldıq ki, büdcə balansdır. Gəlirlərdə dəyişiklik edilmədən xərclərdə aparılan dəyişikliklər büdcə kəsirinin artması ilə nəticələnə bilər. Elə edilməlidir ki, balans pozulmasın.

Büdcənin gəlirləri və xərclərinin formalaşması ilə bağlı sənədlərin hamısını nəzərdən keçirdik. Maliyyə Nazirinə şərait yaratdıq ki, o, bizim razılaşdığımız təkliflərin nəzərə alınması ilə bağlı Nazirlər Kabinetinin sədri və nəhayət Ölkə Prezidenti ilə məsləhətləşsin və bizə məlumat versin. Çünki Azərbaycan Respublikasının Konstitusiyasına əsasən qanunvericilik təşəbbüsü ilə Milli Məclisə daxil olmuş sənədə dəyişikliklər və əlavələr həmin təşəbbüs subyektinin razılığı ilə edilə bilər.

2005-ci ilin dövlət büdcəsi Milli Məclisdə müzakirə olunarkən deputatların təklifi ilə 20-yə yaxın dəyişikliklər və əlavələr

edilmişdir. Dəyişikliklərin ən başlıcası büdcə gəlirlərinə aid olmuşdur.

Layihədə büdcə daxilolmaları, fiziki şəxslərin gəlir vergisi – (1060 milyard manat) bir trilyon 60 milyard manat, hüquqi şəxslərin mənfəət vergisindən daxilolmalar (1.395 milyard manat) bir trilyon 395 milyard manat nəzərdə tutulmuşdu. Dövlət büdcəsinin Milli Məclisdə müzakirələri zamanı edilmiş təkliflər nəzərə alınaraq fiziki şəxslərin gəlir vergisi 146 milyard manat artırılaraq, (1.206 milyard manat)bir trilyon ik yüz altı milyard manata çatdırıldı.

Hüquqi şəxslərin mənfəət vergisindən büdcə daxilolmaları isə 100 milyard manat artırılaraq, (1.495 milyard manat) bir trilyon dörd yüz doxsan beş milyard manata çatdırılmışdır. Dövlət büdcəsi gəlirlərinin digər maddələrində də müvafiq dəyişikliklər edilmişdir.

Büdcənin gəlirlərini formalaşdıran maddələrdə olduğu kimi xərc maddələrində də müvafiq dəyişikliklər aparılmışdır.

Deputatlar, turizmdən və lotereyadan daxilolmaların dövlət büdcəsində ayrıca sətirlə verilməsini təklif etmişdilər. Təklif qəbul olundu. 2006-cı ilin dövlət büdcəsində turizmdən və lotereyadan daxilolmaların ayrıca sətirlə verilməsi qərara alındı.

Deputatlar dövlət büdcəsi kəsirinin örtülmə mənbələrində dəqiqləşdirmə aparılmasını təklif etmişdilər. Bu təklif də nəzərə alındı, büdcə kəsirinin örtülməsinə müvafiq dəqiqləşdirmələr aparıldı.

2005-ci ilin dövlət büdcəsinə digər dəyişikliklər də edilmişdir. Fikrimizcə, ona əlavə dəyişikliklərin edilməsi də mümkündür. Maliyyə Naziri və İqtisadi İnkişaf Naziri bir sıra təkliflərin 2006-cı ilin dövlət büdcəsi layihəsinin hazırlanmasında nəzərə alınacağını bildirdilər.

Dövlət büdcəsi haqqında fikirləri yekunlaşdırarkən aşağıdakıları dübarə qeyd etmək istərdik:

**1. Dövlət büdcəsi icra və qanunverici orqanın görüşdüyü, birgə müzakirə etdiyi yeganə sənəddir. Ona görə də büdcənin Milli Məclisdə müzakirələri Nazirlər Kabineti rəhbərlərinin,**



**nazirlərin, komitə sədrlərinin, şirkət və konsern prezidentlərinin iştirakı ilə aparılmışdır.**

**İcra strukturları rəhbərlərinin iclaslarda iştirakı möhtərəm Prezidentimizin tapşırığı ilə təmin olunmuşdur. Bildiyiniz kimi bu çox vacibdir. Çünki qanunverici və icraedici orqanların hər biri öz orbitində fəaliyyət göstərməməlidir. Ən azı ona görə ki, onlar eyni işin müxtəlif cəhətlərini yerinə yetirirlər. Bizim birgə işləməyimiz ümumi işin xeyirinədir və müsbət nəticələr verə bilər.**

**Xatırladırıq ki, 2004-cü ildə icra olunmuş büdcənin müzakirəsi və təsdiqi 2005-ci il may ayında olacaqdır. Onun müzakirələrində də icra strukturları rəhbərlərinin bu tərkibdə iştirakı təmin olunmalıdır. Çünki orada büdcənin necə icra olunduğu haqqında hökumətin hesabatı dinlənilir, onun müzakirəsi və təsdiqi baş verir. Mahiyyətcə bu daha məsul işdir. Orada meydana çıxan suallara müvafiq icra strukturlarının rəhbərləri aydınlıq gətirməli, konkret rəqəmlər və faktiki materiallarla suallara cavab verilməlidir.**

**2.** 2005-ci il dövlət büdcəsinin müzakirələri təkcə Milli Məclisdə getməmişdir. Müzakirələrin dairəsi xeyli genişlənmiş, respublikanın regionlarında yaşayanların da bir qismi müzakirələrə fəal qoşulmuşdular. Dövlət büdcəsinin müzakirələri həmçinin respublikanın regionlarında, müxtəlif təşkilatlarında aparılmış müzakirələrdə praktiki təkliflər hazırlanmış və Milli Məclisə təqdim olunmuşdur. Büdcə layihəsi qəzetlərdə verildiyi üçün o ümumxalq müzakirəsi obyektinə çevrilmişdir.

Nəticədə respublikamızın müxtəlif regionlarından, ayrı-ayrı hüquqi və fiziki şəxslərdən komissiyaya 30 dan çox təklif daxil olmuşdur. Bu təkliflər regionların sosial-iqtisadi inkişafının, investisiya qoyuluşlarının səmərəliliyinin yüksəldilməsinə təsirini gücləndirə bilər.

Dövlət büdcəsində heç bir marağı olmayan Azərbaycan Respublikasının vətəndaşı yoxdur. Əhalinin bir qrupu gəlirlərin formalaşmasında, digərləri isə büdcə vəsaitlərindən istifadə olunmasında

iştirak edir. Eyni zamanda gəlirlərdə və xərclərdə iştirak edənlər üstünlük təşkil edirlər. Ona görə də dövlət büdcəsinin müzakirələrində daha geniş əhali kütləsinin iştirakı təmin olunmalıdır. Xalq kütləsinin büdcə gəlirlərinin necə formalaşması, onun bölgüsü və istifadəsinin əsas istiqamətləri haqqında məlumatları olmalıdır.

Dövlət gəlirlərinin yaranması və bu gəlirlərin hara getməsində şəffaflığın genişlənməsi dövlətin idarə olunmasında geniş xalq kütləsinin iştirakının göstəricisidir. Bu həm büdcə gəlirlərinin artmasına, həm də büdcə xərclərinin səmərəliliyinin yüksəlməsinə müsbət təsir edə bilər.

Biz dövlət büdcəsinin müzakirələri prosesində daxil olmuş təkliflərin hamısını diqqətlə nəzərdən keçirmiş və Maliyyə, İqtisadi İnkişaf, Vergilər Nazirlikləri və Gömrük Komitəsi ilə müzakirələr aparmışıq. Bu təkliflərdə regionların sosial-iqtisadi inkişafını sürətləndirmək, iqtisadiyyata investisiya qoyuluşlarının artımını təmin etmək və xərclərin səmərəliliyini yüksəltmək nəzərdə tutulur. Əgər qısa desək büdcə müzakirələrində bu sahədə səriştəsi olan Azərbaycan əhalisinin daha geniş təbəqəsinin iştirakını məqsədəuyğun hesab edirik.

Fikrimizcə, büdcənin müzakirələri prosesi daha da təkmilləşdirilməlidir. Dövlət büdcəsi gəlirlərinin artırılması imkanlarına, ehtiyatlarına və eləcə də büdcə xərclərinin səmərəliliyinin yüksəldilməsi yollarına aid xüsusi seminarların və konfransların keçirilməsi, bu tədbirlərin yekununda praktiki təkliflərin hazırlanması büdcə prosesinin təkmilləşdirilməsinə xidmət edə bilər.

Dövlət büdcəsi bütün xalq kütləsinə məxsusdur. Ona görə də dövlət büdcəsinin formalaşması, müzakirələri prosesində bütün xalq kütləsinin iştirakına şərait yaradılmalıdır. Büdcənin sahibi olan xalq kütləsi onun gəlirlərinin necə formalaşdığını, gəlirlərin hara getməsi və istifadə olunmasını əvvəlcədən bilməlidirlər. Yəni dövlətin gəlirlərinin yaranması və istifadə olunmasında tam şəffaflıq olmalıdır. «Gəlirlər hara gedir misalında olduğu kimi».



Tam aşkarlığın olması büdcə gəlirlərinin artımına, xərclərin səmərəliliyinin yüksəlməsinə təsir edə bilər.

**3.** Dövlət büdcəsinin müzakirələrində deputatların bəzisinin emosional çıxışları istisna olmaqla müzakirələr işgüzar şəraitdə keçmişdir. Onun başlıca **səbəbi dövlət büdcəsi layihəsinin təkmil hazırlanmasıdır. Burada ildən-ilə təkmilləşmə baş verdiyi şübhəsizdir. Bu müsbət cəhət kimi qeyd edilməlidir. Müzakirələr dövlət başçısı tərəfindən müəyyən edilmiş sosial-iqtisadi inkişaf kursunun uğurlu olduğunu və xalq tərəfindən müdafiə olunduğunu göstərir.**

**Əsası Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi siyasət strategiyasının yeni keyfiyyət halında inkişafı davam edir. Onun ən çox fərqləndirici xüsusiyyəti indiyə kimi görünməmiş yüksək inkişaf tempinin müəyyən edilməsidir. ÜDM istehsalının artım tempinin 25-30 faiz olması indiyə kimi Azərbaycan iqtisadiyyatında nə nəzərdə tutulub, nə də icra olunub. Belə yüksək sürətli inkişaf dünyanın bəzi regionlarında, yalnız «xüsusi iqtisadi zonalar»da mümkün olmuşdur. Azərbaycanda ÜDM-in 25-30 faizlik artım tempini təmin etmək iqtisadi idarəçiliyin bütün sahələrində radikal addımlar atmağı tələb edir.**

**5. Bütün maliyyə mənbələri hesabına iqtisadiyyata 2005-ci ildə 4,6 milyard dollar (büdcə mədaxili 2 milyard dollar, investisiya qoyuluşu isə 2 dəfədən çox) məbləğində investisiya qoyulması, ən başlıcası yerli investisiya qoyuluşlarının 40 faiz artımı, respublikamızda iqtisadi fəallığın yüksəlməsi, yerli sahibkarların işgüzar fəallığının artması milli istehsalın inkişaf meyillərinin göstəricisidir. İnvestisiya qoyuluşlarının səpələnməsinə yol verməmək, onlardan istifadənin səmərəliliyini yüksəltmək, iqtisadi artıma və xalqın rifahının yüksəlməsinə təsirini gücləndirmək başlıca vəzifədir. Bu 2006-cı ilin büdcəsində prioritet istiqamət olacaqdır.**

6. Milli Məclisdə büdcənin müzakirələri zamanı ən çox suallar Dağlıq Qarabağ, işğal olunmuş torpaqların azad olunması, qaçqın və köçkünlərin öz el-obasına qayıtması, elektrik və qaz çatışma-

mazlığı problemlərinə aid olmuşdur. Bu problemlər, həqiqətən, vardır və bir-biri ilə üzvü surətdə əlaqədardır. Ölkənin ərazi bütövlüyü təmin olunmadan, qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasını təmin etmədən hər il dövlət büdcəsindən bu məqsədə sərf edilən vəsaitləri iqtisadi inkişafa yönəltmək mümkün deyil. Bizim seçicilər müvafiq icra hakimiyyəti nümayəndələrinin fəaliyyətinə onların işinin nəticəsinə görə qiymət verirlər. Milli Məclisin üzvləri iclasda iştirak edən müvafiq icra hakimiyyəti orqanının rəhbərlərinə **«Siz nə qədər desəniz ki, elektrik enerjisi və təbii qaz istehsalında nə qədər nailiyyətlərə nail olubsunuz, bunların heç birinə əhali məhəl qoyan deyil. Əgər evləri soyuq, işıqları isə yanmırsa, bu sizin işinizə qiymətin əsasını təşkil edəcəkdir»** deyib respublikanın bir sıra bölgələrində vəziyyətin həqiqətən belə olduğunu göstərmişlər.

Bir şey həqiqətdir ki, qaz təchizatı sahəsində vəziyyəti normal hala salmadan elektrik enerjisi təchizatında problemləri həll etməyin mümkün olunmayacağını unutmamalıyıq. Bəzi rayonların İcra Hakimiyyəti Başçıları və mütəxəssisləri bildirirlər ki, əhali **«soyuqdan qorunmaq üçün elektrik naqillərini dəmir çarpayılara birləşdirirlər. Bu vəziyyətə nə elektrik sayğacları, nə transformatorlar, nə də elektrik naqilləri dözə bilmir»**. Bütün bunlar faktdır.

Qəribə vəziyyətdir, qazı istiliyə çevirir, onu da elektrik enerjisinə çeviririk. Sonra o elektrik enejisi kimi regionlara göndərilir. Regionlarda isə yenidən elektrik enerjisi istilik enerjisinə çevrilir. Çünki regionlarda elektrik enerjisinin əsas hissəsi, xüsusilə qış aylarında istilik üçün istifadə olunur. Bütün bu çevrilmələrin enerji istehsalı və istehlakı sahəsində faydalılıq əmsalını neçə dəfə aşağı saldığı müəyyən edilməlidir. Bütün bu deyilənlər regionların qazla təchizatı sahəsində problemin həllində radikal addımlar atmağı zərurətə çevirir.

Məgər elektrik enerjisi istehsalına sərf olunan təbii qazın bir hissəsini regionlara göndərmək daha sərfəli olmazdımı? Bu barədə təklif olunan variantın müqayisəli təhlili (elektrik istehsalı sərf



olunan təbii qazın bir hissəsini regionlara göndərmək) aparılıbmı? Elmi-texniki hesablamalara əsaslanmadan problemin əlverişli həlli yollarını tapmağın qeyri-mümkün olduğunu hamımız dərk etməliyik. Onu birinci növbədə müvafiq icra hakimiyyəti orqanları aparmalı, nöqsanların təkrarlanmasına, üst-üstə yığılıb qalmasına, münaqişə obyektinə çevrilməsinə, qeyri-stabillik hallarının yaranmasına yol verməməlidirlər.

2005-ci il dövlət büdcəsi layihəsinin müzakirələrində deputatların ən çox qaldırdıqları problemlərdən biri əmanətlərlə bağlıdır - 1992-ci il yanvarın 1-nə kimi Əmanət Banklarına qoyulmuş əmanətlərin bərpası və ödənilməsi məsələsi Milli Məclisin əksər iclaslarında qaldırılır. Bizim, fikrimizcə, dövlət 1992-ci il yanvarın 01-nədək Əmanət Banklarına qoyulmuş əmanətlərin bərpası və ödənilməsini təmin etməlidir. Bu milliyyətindən asılı olmadan, Azərbaycan ərazisində qeydiyyatda olan və yaşayanlara şamil olunmalıdır. Çox təəssüflər olsun ki, dəfələrlə ciddi cəhdlər göstərməyimizə baxmayaraq, biz bu problemin həllinə nail ola bilmədik.

Sualların bir qismi turizmlə bağlı idi. Deputatlar turizm və lotereya sahələri üzrə büdcə daxilolmalarının ayrıca sətirlə göstərilməsini təklif edirdilər. Fikrimizcə, bu təklifin reallaşmasına mane olan obyektiv səbəb olmamalıdır.

Fikrimizcə, turizm və lotereyadan büdcə daxilolmalarının ayrıca sətirlə göstərilməsinin mümkünsüzlüyünü yığılan vəsait az olması ilə əlaqələndirənlər bərk yanılırlar. Xatırlatmaq istəyərdik ki, **2005-ci il büdcəsində gəlir mənbələri sırasında bir milyarda qədər, 1,5, 3,9 milyard manatlıq daxilolmaların ayrıca sətirlə qeyd olunması vardır. Bu faktdır.**

İlham Əliyev cənabları hələ ölkə Prezidenti olmamışdan əvvəl Azərbaycanda idmanın, turizmin inkişafı, onların infrastrukturlarının yaradılması sahəsində böyük işlər gözləyir. İndi bu sahədə yeni keyfiyyət halında yüksəliş baş verir.

Fikrimizcə, turizmin bazası genişlənir, gəlirləri artır. **Respublikamıza gələn turistlər 2001-ci ildə 767 min, 2002-ci ildə 793,3**

**min, 2003-cü ildə 1 milyon 66 min, 2004-cü ilin 9 ayında isə 846 min nəfər olmuşlar. Bu turizmdən əldə edilən gəlirlərin 2001-ci ildə 42,5 milyon ABŞ dolları, 2002-ci ildə 51 milyon ABŞ dolları, 2003-cü ildə 57,7 milyon ABŞ dollarına çatması ilə nəticələnmişdir.** Bu, təbii ki, turizmdən büdcə daxilolmalarının artımına də təsir etmişdir. Turizmdən büdcə daxilolmalarının ayrıca sətirlə göstərilməsi bu sahədə uçot və hesabatların daha dəqiq aparılmasına, maliyyə intizamına əməl olunmasına, şəffaflığın təmin olunmasına xidmət etmiş olar.

**Lotereya sahəsində də gəlirlərin artım dinamikası yüksəkdir.** Yəqin ki, bir neçə il əvvəl lotereyalardan büdcə daxilolmalarının ayrıca sətirlə göstərildiyini çoxlarınızın xatirindədir. 1999-cu və 2000-ci illərin hər birində dövlət büdcəsinə pul-şey lotereyaları üzrə daxilolmalar 5 milyard manat, 2001-ci ildə isə 3 milyard manat nəzərdə tutulmuşdu. Lakin büdcənin icrası zamanı bu mənbələrdən daxilolmalar göstərilməmişdir. Həmin vaxt bizim sorğularımıza cavab olaraq bildirildi ki, gəlirlərin məbləği az olduğu üçün hesabata salınmayıb.

Bu gün vəziyyət dəyişilib. Azərlotereyanın fəaliyyətinin genişlənməsi lotereyaların dövriyyəsindən onlarla milyard manat əldə edildiyi şəraitdə büdcə gəlirlərində pul-şey lotereyaları üzrə daxilolmaların ayrıca sətirlə göstərilməsini konkret faktlarla büdcə layihəsini tərtib edənlərin nəzərinə çatdırdıq.

Deputatların təklifləri əsaslı olduğu üçün qərara alındı ki, 2006-cı ilin büdcəsində turizmdən daxilolmaların və pul-şey lotereyaları üzrə daxilolmaların ayrıca sətirlə göstərilməsi qərara alındı. Daha doğrusu bu dəyişikliyi 2005-ci ilin büdcəsinə salmaq istədilər. Lakin büdcədə onun gəlirlər və xərclər bölməsində çoxlu dəyişikliklər etməyi tələb etdiyindən, orada balansı pozacaq nöqsanlara yol verilə biləcəyi ehtimalı nəzərə alınaraq biz razılaşdıq ki, 2006-cı ilin büdcəsində o nəzərə alınsın. 2006-cı ilin büdcəsinin tərtibinə, qanunvericiliyə əsasən 2005-ci ilin fevral ayından başlanılır. Ona görə də əlavə mübahisə etməyi lüzumsuz hesab edib, bizə edilmiş təkliflə razılaşdıq.



Bütövlükdə hesab edirik ki, 2005-ci ilin dövlət büdcəsi məcmu halda dinamik iqtisadi inkişafa istiqamətlənmiş büdcədir. 2005-ci ildə ÜDM istehsalının 14 faizlik artım tempini nəzərdə tutan büdcəni başqa cür adlandırmaq mümkün deyil. Onun gəlirlərinin yerinə yetirilməsi Azərbaycan hökumətini gərgin işləməyə vadar etməlidir. Dövlət büdcəsi gərgin olsa da onun yerinə yetirilməsi mümkündür.

2005-ci ilin dövlət büdcəsinin icrası Azərbaycanın sosial-iqtisadi inkişafında və xalqın rifahının yüksəldilməsində mühüm mərhələ ola bilər.

### 5.5. Dövlət Sosial Müdafiə Fondunun 2004 və 2005-ci il büdcəsi aztəminatlılara dövlət qayğısının artımı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» 24 noyabr 2003-cü il tarixli Fərmanı, həmçinin Dövlət Sosial Müdafiə Fondunun gəlirləri və xərclərinin formalaşmasını, xərclərinin bölgüsünü və istifadəsini daha da təkmilləşdirməyi nəzərdə tutur.

Dövlət Sosial Müdafiə Fondu büdcədənkənar dövlət fondudur, Dövlət Neft Fondu kimi. Lakin büdcədənkənar fondun büdcəsi və dövlət büdcəsi bir-biri ilə üzvi surətdə əlaqədardır. Hər şeydən əvvəl onun özü də büdcədir. Həm gəlirlərinin formalaşması, bölgüsü, həm də xərclərinin aparılması prinsipləri və qaydalarına görə ümumi cəhətlərə malikdir.

Yəqin ki, yaxın illərdə Dövlət Neft Fondunun büdcəsinin müzakirəsi və təsdiqi də Dövlət Sosial Müdafiə Fondunun büdcəsi kimi Milli Məclisdə aparılacaqdır.

Dövlət Sosial Müdafiə Fondunun büdcəsi 2 trilyon manat, Dövlət Neft Fondunun büdcəsi isə ondan bir neçə dəfə çoxdur, bir milyard dollardan artıqdır.

**Dövlət Sosial Müdafiə Fondunun 2004-cü il büdcəsi haqqında qanun layihəsi 12 maddədən ibarətdir. Birinci maddədə Fondun makroiqtisadi göstəriciləri, ikinci maddədə Fondun gəlirləri, üçüncü maddədə Fondun xərcləri, dördüncü maddədə məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi qaydaları (əmək haqqı ilə birlikdə ödənilməsi) və s. maddələr verilmişdir.**

Qanunda Fondun büdcəsinin gəlirlərinin formalaşması və onun tərkibi açılır. Sonra fondun xərclərinin funksional və iqtisadi təsnifata uyğun olaraq bölgüsü və onların daxili strukturlara görə təsnifatı verilir.

Dövlət Sosial Müdafiə Fondunun başlıca vəzifəsi xalqın, xüsusilə az təminatlı hissəsinin həyat şəraitini yaxşılaşdırmaqdır. Fondun işi bu sahədə dövlət siyasətinin yeridilməsinə xidmət etməkdir.

Ölkəmizin ümumi iqtisadi inkişafı zəminində axırıncı altı-yeddi ildə işləyənlərin aylıq əmək haqqı və pensiyaları respublikamızda 4-5 dəfə artırılmışdır.

Əhalinin sosial vəziyyətini yüksəltmək dövlətin fəaliyyətinin prioritet sahəsini təşkil edir. Son illər qəbul olunmuş bir sıra Fərmanlar, **«Azərbaycan Respublikasında dövlət pensiya sisteminin təkmilləşdirilməsi tədbirləri haqqında»** və **«Pensiyaların artırılması haqqında»** 04 avqust 2003-cü il tarixli Fərmanları, dövlət müəssisələrində işləyənlərin əmək haqqı səviyyəsinin yüksəldilməsi haqqında Sərəncamlar, Dövlət proqramları, o cümlədən **«Yoxsulluğun azaldılması haqqında»** Dövlət Proqramı əhalinin rifahının yüksəldilməsinə yönəlmişdir.

Görülmüş tədbirlərlə yanaşı əmək haqqı və pensiyaların orta aylıq məbləği hələlik əhalinin ən zəruri tələbatını tam həcmdə ödəyə bilmir. Ona görə də əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün sistemli tədbirlər görülməlidir.

**Hazırda Azərbaycanda 1 milyon 300 min nəfərdən çox yaxın pensiyaçı vardır, bu əhalinin 15-16 faizini təşkil edir.** Məcburi sığorta haqları və büdcə vəsaitləri hesabına xalqın rifahını



yüksəltmək Dövlət Sosial Müdafiə Fondunun başlıca vəzifəsidir. Bu vəzifələri Dövlət Sosial Müdafiə Fondu mövcud büdcənin imkanları çərçivəsində yerinə yetirə bilir.

**1. Dövlət Sosial Müdafiə Fondunun 2004-cü il büdcəsinin gəlirləri 1.970.520 milyon manat təsdiq edilmişdir. Fondun gəlirlərinin ÜDM-ə nisbəti 5,2 faiz təşkil edir.**

**Dövlət Sosial Müdafiə Fondu** büdcəsinin gəlirləri iki mənbə hesabına formalaşır:

**- məcburi sosial sığorta haqlarından daxilolmalar;**

**- dövlət büdcəsindən ayırmalar.**

Məcburi sosial sığorta haqları büdcədən maliyyələşən qurumlardan 437.641 milyon manat və digər təşkilatlardan isə 527.879 milyon manat, özəl sektordan 320,7 milyard manat daxilolmalar təşkil edir. Bu mənbələr hesabına Dövlət Sosial Müdafiə Fondunun büdcəsinə daxilolmaları isə 1.285.520 milyon manat olacaqdır.

Dövlət Sosial Müdafiə Fondu büdcəsi gəlirlərinin qalan hissəsi dövlət büdcəsindən ora köçürülən vəsait təşkil edəcəkdir. 2004-cü ilin dövlət büdcəsi haqqında qanun layihəsinin 21-ci maddəsində göstərildiyi kimi **məcburi sosial sığorta haqları üzrə vəsaitlər Dövlət Sosial Müdafiə Fondunun orqanlarına tam məbləğdə daxil olmazsa, vəsaitin çatışmayan hissəsi dövlət büdcəsindən Dövlət Sosial Müdafiə Fonduna köçürülür. Bu məbləğ 2004-cü ildə 685 milyard manat müəyyən edilmişdi.** Bu sosial pensiyalar, müavinatlar və onlara bərabər tutulan ödənişlərin həyata keçirilməsi üçündür.

**Dövlət Sosial Müdafiə Fondunun gəlirləri 2003-cü ilə nisbətən 2004-cü ildə 162,5 milyard manat artmışdır. Artım tempi 9 faiz təşkil etmişdir.**

Əlamətdar cəhət ondan ibarətdir ki, məcburi dövlət sosial sığorta haqqının artım tempi Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin artımının aparıcı amilinə çevrilmişdir. **Məcburi dövlət sosial sığorta fonduna yığılmır, 2003-cü ildəki 1.040 milyard manata qarşı 2004-cü ildə 1.285,5 milyard manat olmuşdur.**

**Bu 2003-cü ilə nisbətən 245,5 milyard manat çoxdur.**

**2004-cü ildə Dövlət Sosial Müdafiə Fondunun gəlirləri 9 faiz artdığı halda, məcburi dövlət sosial sığorta fonduna yığımları isə 23,6 faiz artmışdır.**

Məcburi dövlət sosial yığımları üstün sürətlə artdığından dövlət büdcəsindən **Dövlət Sosial Müdafiə Fonduna transferlər 2003-cü ilə nisbətən 2004-cü ildə 80 milyard manatdan çox azalmışdır.** Deməli, 2004-cü ildə Dövlət Sosial Müdafiə Fondu büdcəsinin artımı əsasən məcburi dövlət sosial sığorta yığımlarının hesabına təmin olunmuşdur. Bu Dövlət Sosial Müdafiə Fondunun işində müsbət dəyişikliklərin keyfiyyət göstəricilərindən birini təşkil edir.

Qeyd olunanlar Fondun rəhbərliyinin məcburi Dövlət Sosial Sığorta yığımlarının artırılması üçün 2004-cü ildə yığım əmsalını yüksəltmək məqsədilə radikal addımlar atmasından xəbər verir. Bu ən əvvəl:

**1.** Yığım əmsalını artırmaq üçün təşkilatçılığı və tələbkarlığı yüksəldən tədbirlərdən geniş istifadə olunur. Məcburi sosial sığorta borclarının ödənilməsini təmin etmək məqsədilə stimullaşdırıcı güzəştlər sistemi tətbiq edilir. O nəticə vermədikdə borcu əmlaka yönəltmək kimi radikal tədbirlər görülməsi proseduru başlanır. O yığımın təmin olunması üçün son variant kimi istifadə olunur və müsbət nəticələr verir.

**2.** Fondun rəhbərliyi iri sığorta ödəyiciləri ilə iş üzrə xüsusi qurum yaratmışdır. 2003-cü ildə bu qurumun fəaliyyəti nəticəsində debitor borcların yığılmasında (89,6 milyard manat) və cari sığorta yığımlarının təşkilində (proqnozdan 75,5 milyard manat çox yığım təmin edilmişdir) ciddi irəliləyişlərə nail olunmuşdur.

**3. Dövlət Sosial Müdafiə Fonduna yığımların artırılması üçün əlavə ehtiyatların olduğunu heç kim inkar etmir.**

**Mütəxəssislərin fikrincə, 2004-cü ildə Respublikamızda məşğul əhali 3.743 min nəfər təşkil edir. Sosial sığortaya cəlb olunanlar isə 1.303 min nəfərdir. Deməli, 2.440 min nəfər məcburi dövlət sosial sığorta yığımına cəlb olunmamış qalır.**



**Məcburi dövlət sosial sığorta yığımına cəlb olunanlar məşğul olanların, işləyənlərin 34,8 faizini təşkil edir. Bu yığımı artırmaq üçün ehtiyatlar çox olduğunu göstərir.**

**4. Fikrimizcə,** Dövlət **Sosial Müdafiə Fondunun** rəhbərliyi **məcburi dövlət sosial sığortasının dərəcəsinin (29 faiz) aşağı salınması, sığorta yığımı bazasının genişləndirilməsi, yığım əmsalının yüksəldilməsi üçün daha təsirli tədbirlər görməklə öz büdcəsinin gəlirlərini xeyli artıra bilər.**

**Xərclər:**

2004-cü ildə Dövlət Sosial Müdafiə Fondunun xərcləri 1.970.520 milyon manat məbləğində təsdiq olunmuşdur.

1. Dövlət Sosial Müdafiə Fondunun büdcəsində xərclərin maliyyələşdirilməsi təsnifatla – funksional və iqtisadi təsnifatla aparılır. Bu Fondun 2004-cü il büdcəsinin fərqləndirici xüsusiyyətlərindən birini təşkil etmişdir.

2. Xərclərin təyinatı üzrə istifadəsi və şəffaflığının təmin olunması 2004-cü il Dövlət Sosial Müdafiə Fondu büdcəsinin fərqləndirici cəhətlərindən biri olmuşdur.

3. 2004-cü ildə əhaliyə pensiyaların və müavinatların kart sistemi ilə ödənişinə keçid bir sıra neqativ halların aradan qaldırılmasına şərait yaradır.

4. 2004-cü ildə sığorta olunanların fərdi uçot sisteminin tətbiqinə keçidi təmin etmək üçün ciddi tədbirlər görülür.

5. Məcburi dövlət sosial sığorta sistemində islahatların daha da dərinləşməsi, yığım əmsalının yüksəldilməsi, fondun vəsaitlərinin bölgüsü və istifadəsində, xərclərin maliyyələşdirilməsində aşkarlıq və şəffaflıq genişləndirilir.

6. Poçta və Bank əlaqələrinin təkmilləşdirilməsi üçün tədbirlər görülür. 2004-cü ilin büdcəsində pensiya və müavinatların əhaliyə çatdırılması üzrə xidmət haqlarının 0,85 faizdən yuxarı olmamaqla müəyyənləşdirilməsi nəzərdə tutulmuşdur.

**Fikrimizcə,** Dövlət Sosial Müdafiə Fondunun büdcəsində təkmilləşdirilməsi zəruri olan cəhətlər, əlbəttə, mövcuddur: ən başlıcası, **Dövlət Sosial Müdafiə Fondu büdcəsinin konstruksi-**

**yasında dəyişiklik edilməsi məqsədəuyğun olardı.**

Dövlət Sosial Müdafiə Fondunun büdcəsi dövlət büdcəsində olduğu kimi 3 başlıca hissədən, bölmədən:

1) Dövlət Sosial Müdafiə Fondunun gəlirləri;

2) Dövlət Sosial Müdafiə Fondunun xərcləri;

3) Dövlət Sosial Müdafiə Fondu büdcəsinin kəsirləri olmalıdır.

Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin kəsiri onun xərclərinin öz gəlirləri ilə örtülməyən hissəsidir. Bu kəsir «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət büdcəsindən ödənilir və nəticədə Fondun gəlirləri ilə xərcləri arasında balans təmin olunur. Məcburi sosial sığorta haqları (1.285.520 milyon manat) + dövlət büdcəsindən Dövlət Sosial Müdafiə Fondunun büdcəsinə ayırmalar (685.000 milyon manait) = 1970520

Qeyd olunanlar Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin formalaşmasında daha çox şəffaflıq gətirər.

Dövlət Sosial Müdafiə Fondunun 2005-ci ildəki büdcəsi həm kəmiyyət, həm də keyfiyyət göstəriciləri cəhətdən fərqləndirici xüsusiyyətlərə malikdir. Biz Dövlət Sosial Müdafiə Fondunun büdcəsini hər il müzakirə edir və təsdiq edirik. Yəqin ki, yaxın illərdə Dövlət Neft Fondunun büdcəsinin müzakirəsi və təsdiqi də Milli Məclisdə aparılacaqdır.

Dövlət Sosial Müdafiə Fondunun büdcəsi 2,5 trilyon manat, Dövlət Neft Fondunun büdcəsi isə ondan bir neçə dəfə çoxdur, bir milyard dollardan artıqdır.

Dövlət Sosial Müdafiə Fondunun başlıca vəzifəsi xalqın, xüsusilə az təminatlı hissəsinin həyat şəraitini yaxşılaşdırmaqdır. Fondun işi bu sahədə dövlət siyasətinin yeridilməsinə xidmət etməkdir.

**Ölkə Prezidenti xalqın rifahının yüksəldilməsi üçün verdiyi Fərmanların, Sərəncamların icrasına, onların hər bir regionda necə yerinə yetirilməsinə birbaşa nəzarət edir. Cənab Prezident üçüncü şəxslər vasitəsi ilə deyil regionlara səfəri zamanı birbaşa xalqla təmasa girir, onların güzəranı, problemləri ilə şəxsən tanış olur, bu problemlərin həlli istiqamətində göstərişlər verir və tədbirlər görür.**



Ölkəmizin ümumi iqtisadi inkişafı zəminində son illər işləyənlərin aylıq əmək haqqı və pensiyaları 50 faizdən başlamış, bir neçə dəfəyə qədər artırmışdır.

Əhalinin sosial vəziyyətini yüksəltmək dövlətin fəaliyyətinin prioritet sahəsini təşkil edir. Son illər qəbul olunmuş bir sıra fərmanlar dövlət müəssisələrində işləyənlərin əmək haqqı səviyyəsinin yüksəldilməsi haqqında sərəncamlar, o cümlədən Dövlət Proqramları əhalinin rifahının yüksəldilməsinə yönəlmişdir.

**2005-ci ildə Dövlət Sosial Müdafiə Fondunun gəlirləri 2 trilyon 478 milyard 500 milyon manat, xərcləri də 2 trilyon 478 milyard 500 milyon manat nəzərdə tutulur. DSMF büdcəsinin gəlirləri və xərcləri 2004-cü ilə nisbətən 2005-ci ildə 507,9 milyard manat artacaqdır.**

**Dövlət büdcəsində olduğu kimi DSMF büdcəsində də başlıca məsələ Fondun gəlirlərinin artırılmasıdır. O 3 mənbədən formalaşır:**

**1. Məcburi dövlət sosial sığorta haqları təşkil edir. 2005-ci ildə o 1 trilyon 561 milyard manat olacaqdır. Sosial sığorta ödənişlərinin dərəcəsi 27 faizdən 22 faizə salındığı, birdən-birə 5 bənd aşağı salındığı şəraitdə məcburi dövlət sosial sığorta haqları 2004-cü ilə (1 trilyon 285,5 milyard manat) nisbətən 2005-ci ildə 275,5 milyard manat artımını təmin etmək nəzərdə tutulmuşdur.**

**2. Sair gəlirlər, o cümlədən: sanatoriya-kurort ödənişlərindən daxilolmalar – 2 milyard 500 milyon manat. Bu sanatoriyalara və istirahət evlərinə güzəştli şərtlərlə putyovkalar verilməsindən əldə edilən daxilolmalardır.**

**3. Dövlət büdcəsindən DSMF-na transferlər 2004-ü ildə 848 milyard manat, 2005-ci ildə isə 67 milyard manat artaraq 915 milyard manat təşkil edəcəkdir.**

**Büdcə ili ərzində dövlət büdcəsindən maliyyələşən təşkilatlara nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları**

**üzrə vəsaitlər Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun orqanlarına tam məbləğdə daxil olmadıqda nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər mərkəzləşdirilmiş xərclərdən Dövlət Sosial Müdafiə Fonduna yönəldilən transfertin məbləği artırılmaqla köçürülür.**

**Hazırda Azərbaycanda 1 milyon 300 min nəfərə yaxın pensiyaçı vardır, bu əhalinin 15,6 faizini təşkil edir.** Məcburi sığorta haqları və büdcə vəsaitləri hesabına xalqın rifahını yüksəltmək Dövlət Sosial Müdafiə Fondunun başlıca vəzifəsidir. Bu vəzifələri Dövlət Sosial Müdafiə Fondu öz büdcəsinin gəlirləri ilə yerinə yetirə bilir.

DSMF gəlirlərini artırmaq imkanları:

**1.** 2004-cü ilin noyabr ayında Fondun debitor borcları bir trilyondan artıqdır. Bu borcları restrukturlaşmalı, ümidsiz borclar ləğv edilməli və real borcların isə yığılması üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görülməlidir. Məcburi sosial sığorta borclarının ödənilməsini təmin etmək məqsədilə ödənişləri stimullaşdıran güzəştlər sistemi tətbiq edilməli, borcun əmlaka yönəldilməsi təmin olunmalıdır;

**2.** Fondun rəhbərliyi iri sığorta ödəyiciləri ilə iş üzrə xüsusi qurum yaratmışdır. 2004-cü ildə bu qurumun fəaliyyəti nəticəsində debitor borcların və cari sığorta yığımlarının təmin edilməsində ciddi irəliləyişlərə nail olunmuşdur.

3. **Mütəxəssislərin fikrincə, Respublikamızda məşğul əhali 3.743 min nəfərdir. Sosial sığortaya cəlb olunanlar isə 1.303 min nəfərdir. Deməli 2.440 min nəfər məcburi dövlət sosial sığorta yığımına cəlb olunmamışlar qalır. Məcburi dövlət sosial sığorta yığımına cəlb olunanlar məşğul olanların, işləyənlərin 34,8 faizini təşkil edir. Bu yığımı artırmaq üçün xeyli ehtiyatlar olduğunu göstərir.**

4. **Yığım əmsalını artırmaq imkanlarından maksimum istifadə olunmalıdır.** Hüquqi-normativ aktların tələblərinə uyğun olaraq sığorta edənlərin tam uçota alınması üçün daha fəal tədbirlər görülməsi təmin edilməlidir.



Bakı şəhərində 400-ə yaxın şadlıq evi vardır. Onların uçota alınan işçiləri ilə, hər şadlıq evində çalışanların sayı arasında dəfələrlə fərq mövcuddur. Əgər bir şadlıq evində 100 nəfər çalışırsa onun 10-15 nəfəri qeydə alınır. Tikinti təşkilatlarında da vəziyyət eyni cürdür. Faktiki iş yerlərinin (tikinti, ticarət müəssisələri, şadlıq evləri və s.) aşkara çıxarılması və uçota alınması məqsədilə Fond tərəfindən müvafiq əsasnamələr tərtib olunmalı və qanunvericiliklə rəsmiləşdirilməsi təmin edilməlidir.

4. Sənədin gəlirlər hissəsində tətbiq olunmuş peniya və maliyyə sanksiyaları üzrə daxilolmaların ayrıca sətirlə göstərilməsi, fikrimizcə, məqsədəuyğun olardı. Bu həmin daxilolmaların uçotunun dəqiq aparılmasına, maliyyə intizamının yüksəlməsinə, yığım əmsalının artımına təsir edə bilər.

5. Fondun gəlir hissəsinin ayrı-ayrı ödəyici qrupları üzrə tarif dərəcələrinə görə təsnifləşdirilməsi, onların ardıcıl və sistemlə verilməsi məqsədəuyğun olardı. Yəni vergilərdə edildiyi kimi, mənfəət vergisi, gəlir vergisi, ƏDV və s. Bu ayrı-ayrı ödəyici qrupları üzrə tarif dərəcələrinə görə büdcə daxilolmalarında şəffaflıq yaradar, uçot və hesabat işlərini dəqiq aparmağa, gəlirlərin səviyyəsini yüksəltməyə əhəmiyyətli dərəcədə təsir edə bilərdi.

6. Haqqında bəhs etdiyimiz sənədin 7-ci Maddəsinin 1-ci abzasında yazılır: **«Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2005-ci il büdcəsinin icrası zamanı iqtisadi təsnifata uyğun olaraq məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən pensiya və müavinatlər, habelə digər xərc maddələri üzrə qənaət yarandığı halda digər maddələrə yönəldilə bilər»**.

Fondun və onun yerli orqanlarının hesablarında ilin sonuna qalan vəsaitlərin və Fondun keçən il üçün büdcəsinin xərc maddələrinin icra olunmamış hissəsinin ayrıca sətirdə göstərilməsi məqsədə uyğun olardı.

Həmin maddənin 2-ci abzasında yazılır: **«Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2005-ci il büdcəsinin icrası zamanı iqtisadi təsnifata uyğun olaraq dövlət büdcəsindən ayırmalar (transfert) hesabına ödənilən pensiya və müa-**

**vinatlar, habelə digər xərc maddələri üzrə qənaət yarandığı halda, bu vəsait yalnız dövlət büdcəsindən ayırmalar (transfert) hesabına ödənilməli olan digər maddələrə yönəldilə bilər».**

**Məlum olduğu kimi, Fondun büdcəsində gəlirlərin xeyli hissəsi Dövlət büdcəsindən transferlərlə formalaşır. 2005-ci ildə o 915 milyard manat olacaqdır.**

**Dövlət büdcəsindən ayırmalar (transfert) üzrə ilin sonuna istifadə olunmamış qalıq məbləğlərin dövlət büdcəsinə qaytarılması təmin olunmalıdır. Çünki bu dövlətin vəsaitidir. Büdcə sistemi haqqında Qanuna əsasən büdcədən verilmiş vəsaitlərin ilin sonuna istifadə olunmayan məbləği dövlət büdcəsinə qaytarılır. Söhbət qanunvericiliyə uyğun olaraq DSMF Dövlət büdcəsindən ayrılmış transfertlərdən gedir.**

Doğrudur, 7-ci maddənin birinci və ikinci abzasları mahiyyətcə fərqlidir və bu belə də olmalıdır. Lakin bu sərbəstlik müəyyən məhdudiyyətlə tamamlanmalıdır. Burada göstərilən ifadənin sonuna ən azı **«pensiya və müavinətlər üzrə»** sözləri əlavə olunmalıdır. Bu səlahiyyətlə məsuliyyət arasında balans yaratmağa xidmət edə bilər.

7. Layihədə 8-ci maddənin çıxarılması məqsədə müvafiqdir. Belə ki, «Sosial sığorta haqqında» Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə görə əmək qabiliyyətinin müvəqqəti itirilməsi sosial sığorta hadisəsidir və onun baş verməsi ilə sığorta olunanın sığorta təşkilatlarından sığorta ödənişi almaq hüququ yaranır.

2005-ci ildə Dövlət Sosial Müdafiə Fondunun xərcləri 2.478.500 milyon manat məbləğində təsdiq olunması təklif olunur. Fondun büdcəsində nəzərdə tutulmuş xərclər nisbətən ətraflı yazılmışdır. Lakin orada da təkmilləşdirmək üçün imkanlar vardır:

1. Dövlət Sosial Müdafiə Fondunun büdcəsindən xərclər – funksional və iqtisadi təsnifatla aparılır. Bu Fondun 2004-cü il büdcəsinin fərqləndirici xüsusiyyətlərindən birini təşkil edir.

2. Təbii qazın əhaliyə satış qiymətinin artımı ilə əlaqədar imtiyazlı kontingentə kompensasiya verilməsi yazılır. Burada bir



qədər mücərrədlik vardır. Təklif edirik ki, bu kompensasiya ayrı-ayrı sosial qruplara şamil olunduğu dürüst göstərilsin. Bu həm şəffaflığı artırar, ünvanlılığı təmin edər, həm də uçot-hesabat işlərini dürüst aparmağa şərait yaradardı.

3. Xərclərin 11-ci bəndində **«tətbiq olunmuş maliyyə sanksiyalarından daxil olan vəsaitlər üzrə xərclərin»** ünvanlılığı qeyri-müəyyəndir.

4. 2004-cü ildə əhaliyə pensiyaların və müavinatların kart sistemi ilə ödənişinə keçmək nəzərdə tutulmuşdu.

5. 2004-cü ildə sığorta olunanların fərdi uçot sisteminin tətbiqinə keçidi təmin edilməli idi.

6. Məcburi dövlət sosial sığorta sistemində islahatlar aparılmalı, o cümlədən **sığorta olunanların fərdi uçot sisteminin tətbiq** olunması xərcləri də 2004-cü il büdcəsində öz əksini tapmışdır.

7. Pensiya və müavinatların əhaliyə çatdırılması üzrə xidmət haqları 0,85 faizdən yuxarı olmamaqla müəyyənləşdirilməsi büdcə layihəsində öz əksini tapmışdır.

Qeyd olunanlar Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin formalaşmasına daha çox şəffaflıq gətirər, işçilərin onun artımına marağının yüksəlməsinə təsir edə bilər.

Heç kəsə sirr deyil ki, Azərbaycanda bugünkü sosial-siyasi və makromaliyyə sabitliyini ölkəni hiperinflyasiyadan, total böhrandan, xaosdan xilas edən ümummilli liderimiz Heydər Əliyev yaratmışdır. Məhz ulu öndərimizin qətiyyəti və uzaqgörənliyi sayəsində hazırda ölkəmiz həm regionda, həm də dünyada ən dinamik inkişaf edən ölkələrdən birinə çevrilib. Amma bu dinamik inkişafın hazırkı mərhələsi, o cümlədən ölkədə və dünyada baş verən proseslər pul təklifi ilə və pula tələbat arasında tarazlığın tənzimlənməsini, inflyasiyanın idarə olunan həddən yuxarı qalxmasına yol verməməyi tələb edir.

Elə cənab Prezident İlham Əliyevin «Azərbaycan Respublikasında anti-inflyasiya tədbirlərinin gücləndirilməsi haqqında» 31 may tarixli fərmanı da bu sahədə qarşıda duran vəzifələri, onların reallaşma istiqamətlərini müəyyənləşdirir.

Bazar iqtisadiyyatı sisteminin ilkin əsası və bünövrəsi puldur. Pulsuz iqtisadiyyatın formalaşması və inkişafı mümkün deyil. Ona görə pul sisteminin stabilliyi, onun alıcılıq qabiliyyəti, dövranı və dövriyyəsinin səmərəli təşkili ölkə iqtisadiyyatının dinamik inkişafının zəruri şərtidir.

İnflyasiya isə pulun alıcılıq qabiliyyətini itirməsi, qiymətlərin qalxmasıdır. Pul tədavülü prosesinin pozulmasından ibarət olan inflyasiya bazar mexanizmlərinin fəaliyyətinə mənfi təsir göstərir, iqtisadiyyatın dinamik inkişafına maneələr yaradır, xalq üçün ağır vergi yükünə çevrilir. İnflyasiya olduqca müxtəlif daxili və xarici səbəblərdən yarana bilər.

Dövlət başçısı cənab İlham Əliyev Heydər Əliyev siyasətini keyfiyyətcə yeni mərhələyə yüksəltməklə iqtisadiyyata investisiya qoyuluşu həcminin əhəmiyyətli dərəcədə artımını təmin etmiş, ölkənin ayrı-ayrı regionlarının sosial-iqtisadi inkişafına dinamizm gətirmişdir. Eləcə də cənab İlham Əliyevin yeritdiyi siyasət nəticəsində qeyri-dövlət bölməsi ölkə iqtisadiyyatında aparıcı sahəyə çevrilmişdir.

Regionların sosial-iqtisadi inkişafı təmin olunduqca isə neft sektoruna alternativ, həm də tükənməyən iqtisadi artım mənbələrinin formalaşmasına şərait yaranmışdır.

Bununla yanaşı, ölkədə iqtisadi sahədə əldə olunmuş nailiyyətlərin möhkəmlənməsinə və əhalinin alıcılıq qabiliyyətinə mənfi təsir edən istehlak qiymətlərinin artımı baş vermişdir. 2005-ci ilin dövlət büdcəsində inflyasiyanın səviyyəsi 5-7 faiz nəzərdə tutulduğu və ölkənin digər makroiqtisadi göstəriciləri bu nisbətlə hesablandığı halda, faktiki olaraq inflyasiya nəzərdə tutulandan 2 dəfə yüksəyə qalxmışdır. Düzdür, bunun səbəbləri çoxdur. Əvvəla, dünya bazarlarında xam neftin qiymətinin artması istehsal xərclərinə təsir etmiş, idxal malları bahalaşmışdır. Bundan əlavə, dövlətin həyata keçirdiyi siyasət əməkhaqqı və pensiyaların səviyyəsinin xeyli yüksəlməsinə, sahibkarlıq fəaliyyətindən əldə edilən pul gəlirlərinin artımına təsir etmişdir. Nəticədə dövriyyədə olan pul kütləsinin həcmi, əhalinin alıcılıq qabiliyyəti qalxmış, tələb-təklif nisbətləri qiymətlərin yüksəlməsinə təsir göstərmişdir. Amma iqtisadiyyatın cari vəziyyəti və operativ idarə olunması ilə məşğul olan qurumlar artan pul kütləsinin anti-inflyasiya istiqamətli xərclərə yönəldilməsini təmin edə bilməmişlər. Halbuki onlar ÜDM istehsalının son illərdə 10-10,5, əhalinin pul gəlirlərininsə 20-25 faiz artımının verəcəyi nəticələri əvvəlcədən görməli, artıq pul kütləsinin anti-inflyasiya istiqamətli idarə olunması üçün fəal iş aparmalı idilər. Eyni zamanda müvafiq icra hakimiyyəti orqanları istehsalda, ticarətdə və idxal-ixrac əməliyyatlarında inhisarçılığa qarşı fəal mübarizə aparılmasını təmin etməmişlər. Baxmayaraq ki, bu dövlət orqanları iqtisadiyyatda baş verən ciddi sosial-iqtisadi proseslərin idarə olunmasını təmin etməli idilər. Bəzi dövlət strukturlarının hüquqi və fiziki şəxslərdən enerji daşıyıcılarının satışından yığım əmsalını yüksəltmək əvəzinə, onun qiymətini dəfələrlə qaldırmağa çalışmaları və buna nail olmaları da inflyasiyanın səbəblərindən birini təşkil etmişdir. Təəssüf ki, bu hərəkətlərin ölkə Prezidentinin yeritdiyi siyasətə, dövlət proqramlarının reallaşmasına daban-dabana zidd odluğunu onların bəzisi hələ də anlamır. Odur ki, hazırda sosial-iqtisadi inkişafın sürətlənməsi, pula tələbatla onun təklifi arasında nisbətlərin tənzimlənməsi zərurətə çevrilmişdir.

İnflyasiyanın qarşısının alınma üsulları və metodları hər bir ölkədə fərqli ola bilər. Bu, onun yaranma səbəblərindən, ölkənin iqtisadi vəziyyətindən, milli təsərrüfatçılıq ənənələrindən irəli gəlir.

Milli Bank pul tədavülünün dövlət tənzimlənməsində mühüm rol oynayır. O, açıq bazarda əməliyyatlar aparmaqla, bankların likvidlik səviyyəsini dəyişdirməklə, pul emissiyası ilə, faiz dərəcəsini müəyyən etməklə, kommersiya banklarının Milli Bankda saxladığı məcburi ehtiyatların normasını artırmaqla anti-inflyasiya tədbirləri görə bilər. Bu gün inflyasiya səviyyəsini artıran amillərin sosial-iqtisadi həyata mənfi təsirini məhdudlaşdırmaq üçün dövriyyədəki «artıq» pul kütləsi götürülməlidir. Amma bu, dövlət büdcəsi xərclərinin anti-inflyasiya xarakterli olmasına nəzarəti gücləndirməyi

tələb edir.

Dövriyyədəki pul kütləsini azaltmaq, manatın kursunu artırmaq ən asan vasitə olsa da, o heç də əlverişli anti-inflyasiya tədbiri deyil. Dünya təcrübəsi sübut edir ki, inflyasiyanı aşağı salmağın daha səmərəli yolları mövcuddur. Məsələn, daha əlverişli investisiya mühiti yaratmaqla iqtisadi artıma təsir etmək, tələb-təklif nisbətlərini dəyişmək mümkündür. Habelə uğurla həyata keçirilən neft strategiyası nəticəsində ölkənin ildən-ilə artan maliyyə ehtiyatlarının daha səmərəli idarə olunması da daxili investisiya qoyuluşlarını artırmağa, sağlam rəqabətə meydan açmağa, iqtisadiyyatın dinamik inkişafına şərait yarada bilər.

Məlumdur ki, Azərbaycan iqtisadi inkişafın yeni mərhələsinə daxil olmuşdur. Bu mərhələnin xüsusiyyətləri fəal iqtisadi siyasətin yeridilməsi, daxili maliyyələşmə mənbələrinin güclənməsi, ölkədə investisiya fəallığının artımı, iqtisadi inkşafın xarici mənbələrdən asılığının azalması, dünya dövlətləri arasında ənənəvi ticarət-kommersiya əlaqələrinin, istehsal inteqrasiyasına transformasiyasının baş verməsi və ölkənin sürətli sosial-iqtisadi inkişafının təmin olunmasıdır.

Ölkənin maliyyə ehtiyatlarını dinamik inkişafın vacib amilinə çevirmək, əhalinin gəlirlərini inflyasiya təzyiqindən qorumaq üçün vacib işlər görülməlidir. Həmçinin müvafiq icra hakimiyyəti orqanları ölkənin potensial imkanlarının iqtisadi inkişafa transformasiyanı təmin etmək, islahatların sosial əhəmiyyətini artırmaq yollarını müəyyən etməlidirlər. Bütün bunlar Prezidentin sözügedən fərmanında da öz əksini tapmışdır. Məsələn, fərmanda Maliyyə Nazirliyinə 2005-ci ilin sonunadək dövlət qiymətli kağızlarının əhəmiyyətli dərəcədə artırılması ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək, 2006-cı il və növbəti illər üçün dövlət büdcəsinin tərtibi zamanı xərclərin strukturunun təkmilləşdirilməsinə, inzibati xərclərin azaldılmasına və icmal büdcədə qeyri-neft kəsirinin artırılmasına yönəldilmiş tədbirlər həyata keçirməsi haqqında tapşırıqlar verilmişdir. Bu nazirlik, habelə 2006-cı il və sonrakı 3 il



üçün dövlət büdcəsi layihəsində istehsal infrastrukturu layihələrinin maliyyələşdirilməsini, Sahibkarlığa Kömək Milli Fondunun maliyyə resurslarının və aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilən vəsaitin həcminin artırılmasını da təmin etməlidir.

Milli Bankın idarə heyətinə isə dövriyyədə olan pul kütləsinin həcmini tənzimləmək, qiymətli kağızlar bazarını genişləndirmək və ona məxsus notların satışını artırmaq məqsədi ilə əlavə tədbirlər görmək, manatın xarici dönərli valyutalara nisbətən məzənnəsinin müəyyənləşdirilməsi mexanizminin təkmilləşdirilməsi üzrə müvafiq tədbirlər həyata keçirmək haqqında tapşırıqlar verilmişdir. Fərmana əsasən, Milli Bank əhalinin mənzil şəraitini yaxşılaşdırmaq və sərbəst pul kütləsini daşınmaz əmlak bazarına yönəltmək məqsədi ilə ipoteka krediti sisteminin yaradılması və inkişafı üzrə Dövlət Proqramının layihəsini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tövsiyə olunmuşdur.

Bunlardan əlavə, fərmanda Milli Banka Vergilər Nazirliyi ilə birlikdə ölkədə həyata keçirilən alqı-satqı əməliyyatlarında manatın yeganə ödəniş vasitəsi kimi istifadəsini təmin etmək, ticarət şəbəkələrində, mənzil, avtomobil alverinin xarici valyuta ilə aparılmasının qarşısını almaq üçün zəruri təşkilati və inzibati tədbirlər görülməsi barədə təkliflərini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək, eləcə də İqtisadi İnkişaf Nazirliyinə ölkədə inhisarçılığa qarşı mübarizə və sağlam rəqabət mühitinin formalaşması ilə bağlı fəaliyyətini gücləndirmək, bu sahədə qanunvericiliyi pozanlara qarşı ciddi tədbirlər hazırlayıb həyata keçirmək haqqında tapşırıqlar verilmişdir.

Sənəddə İqtisadi İnkişaf Nazirliyinə əhalinin tələbatının yerli istehsal hesabına daha dolğun ödənilməsini təmin etmək məqsədi ilə Kənd Təsərrüfatı, Sənaye və Energetika nazirlikləri və yerli icra hakimiyyəti orqanları ilə birlikdə «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» çərçivəsində rəqabət qabiliyyətli kənd təsərrüfatı və sənaye

məhsulları istehsalını və emalını stimullaşdıran tədbirlər həyata keçirmək və bu barədə mütəmadi olaraq Prezidentə məlumat vermək də tövsiyə olunur. İstehlak bazarında qiymətlərin artmasına təsir göstərən inhisarlaşma, bazarların bölüşdürülməsi, inhisar qiymətlərinin tətbiq edilməsi hallarının (kartel bağlaşmalarının) qarşısını almaq üçün hər bir əmtəə bazarı üzrə monitorinqlər aparmaq, qanunvericiliyə uyğun olaraq ciddi tədbirlər görmək haqqında da Kənd Təsərrüfatı və Sənaye və Energetika nazirliklərinə tapşırıqlar verilmişdir. Vergilər Nazirliyi və Dövlət Statistika Komitəsi isə ölkəyə gətirilən istehlak mallarının idxal, topdansatış və pərakəndə satış qiymətlərinin monitorinqini aparmaq və onun nəticələrini ümumiləşdirərək rübdə bir dəfə mətbuatda dərc etdirmək tapşırığı almışlar.

Fərmanda özəlləşdirmə prosesində dövlət əmlakının bazar prinsipləri əsasında obyektiv qiymətləndirilməsini təmin etmək və bu sahədən dövlət büdcəsinə daxilolmaları daha da artırmaq üçün müvafiq tədbirlər görmək haqqında aidiyyəti dövlət orqanlarına konkret tapşırıqlar verilmişdir. Nazirlər Kabinetinə ölkədə sahibkarlığın inkişafını sürətləndirmək məqsədi ilə bu fəaliyyəti həyata keçirmək üçün yaradılan hüquqi şəxslərin dövlət qeydiyyatının sadələşdirilməsi və bunun üçün tələb olunan müddətin qısaldılması ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliyin edilməsi barədə təkliflərini iki həftə müddətində hazırlamaq, Milli Bank ilə birlikdə iqtisadiyyatın bütün sahələrində həyata keçirilən alqı-satqı əməliyyatlarının banklar vasitəsilə aparılmasını təmin etmək üçün zəruri tədbirlər görmək, gömrük vergilərinin, rüsumlarının və digər gömrük ödənişlərinin hüquqi və fiziki şəxslər tərəfindən yalnız bank strukturları vasitəsilə ödənilməsini təmin etmək məqsədi ilə müvafiq qaydaları bir ay müddətində hazırlayıb təsdiq etmək və bu barədə dövlət başçısına məlumat vermək tapşırılmışdır. Eləcə də Nazirlər Kabineti idxal mallarına münasibətdə gömrük-tarif mexanizminin təkmilləşdirilməsi məqsədi ilə lüzumsuz tarif güzəştlərinin ləğvini, güzəştlərin konkret sahəni və dövrü əhatə etməklə



verilməsini təmin etmək üçün təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

Bir sözlə, Prezidentin imzaladığı bu fərman günün tələblərinə cavab verən təkmil dövlət sənədidir. Lakin ən təkmil sənədin belə «avtomatik» reallaşma xassəsinə malik olmadığını unutmamalıyıq. Ölkə Prezidentinin fərmanında qarşıya qoyulmuş vəzifələr müvafiq icra hakimiyyəti orqanlarının koordinasiya olunmuş fəaliyyətlərinin təşkil edildiyi, orada müəyyənləşmiş vəzifələrin vaxtında və tələb olunan səviyyədə icrasının təmin edildiyi halda yerinə yetiriləcək və öz səmərəsini verəcəkdir.

### 5.6. İlham Əliyev Azərbaycanı dünyanın ən dinamik inkişaf edən ölkəsinə çevirir

**Azərbaycan Respublikasının dinamik inkişafının əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Heydər Əliyevin başladığı iqtisadi islahatları Prezident İlham Əliyev uğurla reallaşdırır. Bütün bunlar Azərbaycanı dünyada ən sürətlə inkişaf edən ölkələrdən birinə çevrir.**

**Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə 2005-ci ilin birinci yarısında respublikamızın sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş müşavirənin materialları, məruzələr və çıxışlar iqtisadiyyatın bütün sahələrində ciddi uğurlar qazanıldığına sübutdur.**

**Ölkə Prezidentinin yeritdiyi fəal siyasət sosial-iqtisadi həyatın bütün sahələrində uğurlar qazanılmasının əsasını təşkil etmişdir.** Bu siyasət respublikamıza xarici investisiya axınının sürətlənməsinə, onun qeyri-neft sektoruna istiqamətinin artmasına, bir sıra ölkələrin dövlət zəmanəti olmadan Azərbaycanın ayrı-ayrı iqtisadi subyektlərinə uzunmüddətli və əlverişli şərtlərlə kredit vermələrinə, digər iqtisadi əməkdaşlıq formalarının inkişafına şərait yaratmışdır. O respublikamızda əhalinin işgüzar fəallığının

yüksəlməsinə, regionların iqtisadi potensialının təsərrüfatçılıq dövriyyəsinə cəlb olunmasına, yerli istehsalın inkişafının sürətlənməsinə təsir etmişdir.

Respublikamızda yeridilən siyasət bir-birinin ardınca yeni-yeni müəssisələrin işə salınması, 2003-cü ilin oktyabrından indiyə kimi 250 minə qədər yeni iş yerlərinin yaradılması, yoxsulluğun 49 faizdən 39 faizə enməsi ilə nəticələnmişdir. Bu daxili ehtiyatlardan fəal istifadə olunmasının, qeyri-neft sektoru üzrə müəssisələrin gözlənildiyindən daha çox fəal işləməsi və gəlir gətirməsi ilə mümkün olmuşdur.

**2005-ci ilin birinci yarısının iqtisadi nəticələrinin təhlili ÜDM istehsalının əvvəlcədən müəyyən olunduğu 47,8 trilyon manata qarşı 51 trilyon manata çatacağını göstərir. Bu təkcə Azərbaycan iqtisadçılarının gəldiyi nəticə deyildir. Dünya bankı və Beynəlxalq Valyuta Fondu ekspertləri bizimkilərdən əvvəl Azərbaycanda dinamik inkişafın nəticəsi olaraq ÜDM istehsalında 2005-ci ildə 14,1 faiz deyil 19 faiz artım baş verəcəyi nəticəsinə gəlmişlər.**

Sürətli inkişafın səbəbini ən əvvəl respublikamızda əsası ümummilli liderimiz Heydər Əliyevin yaratdığı sosial-siyasi stabilliyin qorunub saxlanması, onun dinamik inkişafa transformasiyası təşkil edir. Bu həmçinin regionlarda yerli istehsalın canlanması, neft sektoruna alternativ olan sahələrdə istehsal obyektlərinin istifadəyə verilməsi ilə bağlıdır.

Uzun illərdən bəri dayanmış maşınqayırma və kimya sənayesi müəssisələrinin son vaxtlar işə başlaması, onunla əlaqəli olan digər yeni müəssisələrin işə salınmasına iqtisadiyyatda zəncirvarı inkişaf reaksiyası yaranmasına səbəb olmuşdur.

2005-ci ilin birinci yarısında vergi orqanları tərəfindən dövlət büdcəsinə nəzərdə tutulandan əlavə 300 milyard manatdan çox daxilolmalar təmin edilmişdir. Təhlil ilin sonuna təkcə vergi orqanlarından 700-750 milyard manata yaxın büdcə daxilolmalarının təmin olunacağını göstərir.

Dövlət Gömrük Komitəsi 2005-ci ilin birinci yarısında dövlət



büdcəsi qarşısındakı öhdəliklərinə 110,2 faiz əməl etmişdir. Gömrük Komitəsi 2005-ci ilin birinci yarısında büdcə daxilolmalarını müəyyən olunduğundan 80 milyard manatdan artıq icra etmişdir.

Aparılan təhlillər 2005-ci ilin dövlət büdcəsinin gəlirləri təsdiq olunandan ən azı 900-950 milyard manat artıq olacağını göstərir.

Dövlət başçısı, möhtərəm Prezidentimiz 2005-ci ildə ölkədə daxili iqtisadi fəallığın yüksəlməsi, iqtisadi artımın sürətlənməsi nəticəsində büdcə daxilolmalarının təsdiq olunandan xeyli artıq olduğunu və onun artım meyillərinin daha da güclənməkdə olduğunu nəzərə alaraq Milli Məclisə **«Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanunun layihəsini göndərmişdi.**

**«Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanununda dövlət büdcəsinin gəlirləri 9.422 milyard manat təsdiq edilmişdi. Hazırki dəyişikliklər və əlavələrdən sonra o 10.222 milyard manata çatdırılmış, yəni 800 milyard manat artırılmışdır. Bu artımın reallığını texniki iqtisadi hesablamalar təsdiq edir.**

2005-ci il dövlət büdcəsinin gəlirlərinin artımı onun xərclərini də artırmağa şərait yaratmışdır. 2005-ci ildə dövlət büdcəsinin xərcləri 10.001 milyard manat təsdiq olunmuşdu. 2005-ci ilin iyun ayında edilən dəyişikliklərlə dövlət büdcəsinin xərcləri 11.016 milyard manata çatdırılmış, yəni 1.015 milyard manat artırılmışdır.

Büdcənin xərcləri elmin, təhsilin, səhiyyənin inkişafına, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsinə yönəldilmişdir. Xərclər həmçinin sosial müdafiə, sosial təminat, bədən tərbiyəsi və idmanın inkişafına, dövlətin əsaslı vəsait qoyuluşlarını artırması üçün ayrılmışdır.

İlham Əliyev cənablarının məqsədyönlü tədbirləri 2005-ci ilin birinci yarısında sənaye istehsalının 20,1 faiz, ümumi daxili məhsul istehsalının 16,5 faiz artımı ilə nəticələnmişdir. İlin sonuna iqtisadi dinamikanın daha da sürətlənəcəyi gözlənilir.

2005-ci ilin ortalarında Dövlət Neft Fondu da daxil olmaqla

valyuta ehtiyatları 2 milyard dollardan çox olmuşdur. Bu Azərbaycanın maliyyə imkanlarının daha da güclənməsindən, daxili investisiya qoyuluşlarını artırmaq imkanlarından xəbər verir.

**Hesablamalara görə, 2006-cı ildə ümumi daxili məhsulun real artımı 30,5 faiz, qeyri-dövlət sektorunun ümumi daxili məhsuldakı xüsusi çəkisi isə 79,5 faiz təşkil edəcəkdir.**

Dünyada bir ildə ümumi daxili məhsul istehsalının 19-20 faiz, sənaye istehsalının 20,1 faiz artdığı ölkə yoxdur. Bu həqiqətən olduqca yüksək artım tempidir. Onun səbəblərini təkcə neft amilində axtaranlar bərk yanılırlar. Elə götürək 2005-ci ilin büdcəsində 800 milyard manat profisitin yaranmasını. **O bir başa ölkə Prezidentinin yeritdiyi fəal iqtisadi siyasətin nəticəsidir. Bu siyasət ölkədə işgüzar fəallığın artımına, daxili investisiya qoyuluşlarının sürətli yüksəlişinə, yerli istehsalın canlanmasına, rəqabət qabiliyyətli, ixracyönümlü milli məhsullar istehsalının sürətlənməsinə, bir sözlə, dinamik inkişafa təsir etmiş və praktiki nəticələr vermişdir.**

**2005-ci ilin birinci yarısında mənfəət vergisindən 695 milyard manata qarşı 806,4 milyard manat, yəni 111,5 milyard manat artıq büdcə daxilolmaları təmin edilmişdir.**

**2005-ci ilin altı ayı ərzində fiziki şəxslərin gəlir vergisi 560,7 milyard manata qarşı 753,6 milyard manat, yəni 192,9 milyard manat artıq icra olunmuşdur.**

**2005-ci ilin birinci yarısında dövlət rüsumu 60,4 milyard manat əvəzinə 83,1 milyard manat, yəni 22.1 milyard manat artıq yığılmışdır. Yalnız 3 vergi növündən 2005-ci ilin birinci yarısında nəzərdə tutulduğundan 326,5 milyard manat çox büdcə daxilolmaları təmin olunmuşdur.**

Qalan vergilərin bir qrupu müəyyən olunandan az, digərlərinin isə təsdiq olunandan çox yığılması bir-birini qarşılıqlı sürətdə bağlamış, ümumi balansın yaranmasını təmin etmişlər.

Gəlirlərin proqnozlaşdırıldığından çox olmasının səbəbi bəzilərinin qeyd etdikləri kimi, heç də dünya bazarında neft məhsullarının qiymətində baş verən dəyişikliklərin nəticəsi deyildir.



Fikrimizin doğruluğunu istənilən səviyyədə polemikaya girməklə əsaslandıra bilərik.

Vergi və rüsumların hesablanma və ödənilməsinin mahiyyətini və qaydalarını kamil bilənlər hazırki profisitin yaranma səbəbləri və mənbələrini daha dürüst anlaya, izah edə və təsdiqləyə bilərlər. 2005-ci ilin dövlət büdcəsində profisitin yaranması aşağıdakı səbəblərlə əlaqədardır:

**1.** Məlum olduğu kimi fiziki şəxslərin gəlir vergisi aylıq gəlirin vergiyə cəlb olunan hissəsindən tutulur. Onun əsasını əmək haqqı təşkil edir. Heç olmasa büdcə təşkilatlarında belədir.

Dövlət başçısının əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq üçün verdiyi sərəncamlarla ayrı-ayrı sahələrdə çalışanların əmək haqqı səviyyəsini 40-50 faiz və daha çox yüksəltmişdir. Bu büdcə təşkilatlarına aiddir. Özəl sektorda isə əmək haqqının daha sürətlə artımı təmin olunmuşdur.

Əhalinin pul gəliri 2005-ci ilin birinci yarısında orta hesabla 26 faiz artmışdır. Bu dövrdə 100 minə yaxın yeni iş yerləri yaradılmışdır.

Əmək haqqının səviyyəsi dünya bazarında neft məhsullarının qiymətindən asılı olaraq dəyişməsi mümkün deyildir. Müəllimin, həkimin aylıq əmək haqqını neftin qiyməti dünya bazarında artanda artırmaq, azalanda isə azaltmaq qeyri-mümkün olduğu kimi. Onun səbəbi yeni iş yerlərinin yaradılması və əmək haqqının səviyyəsinin sistemlə yüksəldilməsidir. Əmək haqqının və işləyənlərin sayının artımı gəlir vergisinin dərəcəsi sabit qaldığı şəraitdə ondan tutulan verginin də artımına təsir edir. Bu səbəbdən də gəlir vergisindən büdcə daxilolmaları təsdiq olunandan çox olmuşdur.

**2.** Mənfəət vergisinin tutulma mexanizmi iqtisadçılara məlumdur. Müəssisə gəlirlərindən xərclər çıxılandan sonra qalan hissəsi mənfəət adlanır. O vergitutma obyektidir.

Məlum olduğu kimi neft istehsalı və ixracatında əsas rol beynəlxalq şirkətlərə aiddir. Orada artım dinamikasının üstün olduğu hamıya məlumdur. Lakin beynəlxalq şirkətlər hələ mənfəətə çıxa bilməyiblər. Onların ən yaxşı halda 2006-cı ildə, əgər çatdırma-

salar 2007-ci ildə mənfəətə çıxacaqları gözlənilir. Deməli, həmin vaxtdan sonra onların mənfəəti yaranacaq və o vergiyə cəlb olunacaqdır. Hələlik isə onlar bu verginin ödəyicisi deyillər.

ARDNŞ-ə gəldikdə isə Vergi Məcəlləsinə əsasən hüquqi şəxslər vergi bəyannaməsini büdcə ili qurtardıqdan sonrakı ilin birinci rübünün sonuna kimi verirlər. Misal üçün 2005-ci ilin sonunadək həmin ilin vergisi hesablanılır, bəyannamə isə rübdə bir dəfə deyil ildə bir dəfə doldurulur. 2005-ci ildə ödənilən vergi 2004-cü ilin bəyannaməsində göstərilən vergi tutulan gəlirdən vergilərin 2005-ci ilin dörd rübünə proporsional olaraq bölünən hissəsidir. Deməli, 2005-ci ildə mənfəət vergisindən büdcə daxilolmalarında profisitin yaranması dünya bazarında neft məhsulları qiymətlərinin yüksəlməsi ilə əlaqələndirmək düzgün olmazdı.

Əlbəttə biz neftin Azərbaycan iqtisadiyyatında rolu və əhəmiyyətini dərk edirik. Neft sektoru hələ uzun müddət Azərbaycan iqtisadiyyatının aparıcı sahəsi olaraq qalacaqdır.

Xatırladırıq ki, 90-cı illərin ortalarında dövlət büdcəsi gəlirlərinin 50-60 faizi neft faktorundan asılı idi. O zaman dövlət büdcəsi gəlirlərinin xarici faktorlardan asılılığı çox, «holland sindromu» deyilən problem isə güclü idi. Hazırda büdcə daxilolmalarında neft sektorunun payı 33 faizə qədər təşkil edir.

Burada söhbət profisitin yaranma səbəblərindən gedir və onun ixrac olunan neftin dünya bazarında qiymətinin yüksək olması ilə əlaqəsi yoxdur.

**3.** Dövlət rüsumunun proqnozlaşdırılandan artıq yığılmasının dünya bazarında neft məhsulları qiymətinin yüksəlməsi ilə heç bir əlaqəsi yoxdur. Lisenziya almaq üçün sahibkarın ödədiyi, mənzil, maşın alqı-satqısının və yaxud diplomun sürətini notariusda təsdiqlənməsi üçün ödənilən rüsumun dünya bazarında neftin qiymətinin qalxması ilə əlaqəsi olmadığını sübut etməyə ehtiyac görmürük.

4. Profisitin xeyli hissəsini gömrük vergi və rüsumlarından büdcə daxilolmaları təşkil edir. Onların dünya bazarında neft məhsullarının qiyməti ilə əlaqəsi demək olar ki, yoxdur.



Məlum olduğu kimi, büdcə iqtisadiyyatdan formalaşır. İqtisadiyyat ilkin, büdcə isə törəmədir. 2005-ci ilin dövlət büdcəsində bir trilyon manata yaxın profisitin əmələ gəlməsi dinamik inkişafın nəticəsidir. Görülmüş işlərin təhlili, həqiqətən, müvəffəqiyyətlərin çox olduğunu göstərir. Lakin problemlər də vardır, qarşıda duran vəzifələr də - yoxsulluq, işsizlik, enerji, qaz, su təchizatı və s.

Şəxsi inancımıza görə ilin birinci yarısının yekunları müzakirə olunarkən işin ağırlıq mərkəzini qarşıda duran vəzifələrə, onların həlli yollarına, ehtiyatların aşkara çıxarılması və təsərrüfatçılıq dövriyyəsinə cəlb olunmasına istiqamətləndirmək məqsədəuyğun olardı. Orada iqtisadiyyatın cari vəziyyəti və operativ idarə olunmasına cavabdeh olanların məsuliyyətini yüksəltmək, dinamik inkişafa yeni impulslar gətirmək daha vacib olardı. Vacib hesab etdiklərimizdən bəzilərini xatırlatmaq istərdik:

**1. 2005-ci ilin birinci yarısında sənaye istehsalı 20,1 faiz artdığı halda, kənd təsərrüfatı məhsulları istehsalı isə ondan 4 dəfə az, yəni 4,8 faiz artmışdır. Bu iki sahənin artım dinamikasında kəskin fərqin səbəbi nədir? Axı kənd təsərrüfatı istehsalı 99 faiz özəldir. Bu təsərrüfatların inkişafını stimullaşdırmaq, maliyyə vəziyyətini sağlamlaşdırmaq məqsədi ilə onlardan vergi tutulmur.**

**Kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla, qalan vergilərdən azaddırlar. Qanunvericilklə müəyyən olunduğu kimi, onların vergi kanikulu hələ xeyli müddət davam edəcəkdir. Onların inkişafını stimullaşdırmaq üçün digər güzəştlər də müəyyən edilmişdir. Bu stimullaşdırıcı tədbirlər hər il 100 milyard manatdan çox büdcə daxilolmalarının azaldılması hesabına edilir. Bu qədər stimullaşdırıcı tədbirlər qarşısında kənd təsərrüfatı məhsulları istehsalının sənaye istehsalı artımından 4 dəfə geri qalmasına səbəb nədir? Burada düşünməyə, qarşıda duran vəzifələri müəyyən etməyə dəyər.**

**Nəzərə almalıyıq ki, Azərbaycana Braziliyadan üzüm, Argentinadan alma, armud, qonşu ölkələrdən kartof və s. gətirilir. Bu məhsullara tələbatın yerli istehsal hesabına ödənilməsi-**

**nin mümkünlüyü hamımıza məlumdur. Məlum olduğu kimi, 1993-2001-ci illərdə, yəni 8 il ərzində sahibkarlığın inkişafı üçün dövlət büdcəsindən cəmi 66,2 mil-yard manat vəsait ayrılmış, onun da yalnız 5,4 milyard manatı istifadə edilmişdi. Sonra bu vəsait 2003-cü ildə 57 milyard manata çatdırıldı və onun 100 faizlik istifadəsi təmin edildi.**

**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə 2005-cü ildə sahibkarlığın inkişafı üçün ayrılan vəsaitin məbləği 200 milyard manata çatdırılmış (o 2006-cı ildə 400 milyard manata çatdırılacaqdır), güzəştli kreditlərin verilmə mexanizmi sadələşdirilmiş və onun yuxarı həddi 1 milyon ABŞ dolları müəyyən edilmişdir.**

**2005-ci ilin altı ayı ərzində Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına müvəkkil kredit təşkilatları vasitəsilə ölkənin 53 şəhər və rayonu üzrə 1226 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 105 milyard manat güzəştli şərtlərlə kredit verilmişdir.**

**Maliyyələşdirilmiş layihələrin 90 faizindən çoxu regionların payına düşür və bu layihələrin 94 faizi istehsal və emal yönümlüdür.** Nəzərə almalıyıq ki, regionlarda kənd təsərrüfatı məhsulları emalı üzrə rəqabətqabiliyyətli, ixracyönümlü müəssisələrin, istehsal və sosial infrastruktur sahələrinin kifayət qədər olmaması ucbatından ağır zəhmətlə istehsal olunmuş kənd təsərrüfatı məhsullarını keyfiyyətlə saxlamaq, alıcılara çatdırmaq heç də həmişə mümkün olmur. Ona görə də böyük zəhmətlə istehsal olunmuş məhsulların xeyli hissəsi mal-qara yeminə çevrilir, yaxud tamam zay olub gedir. Bu vəziyyət istehsalçının marağını öldürür, onun istehsalı artırmasına antistimul yaradır.

**Dünya təcrübəsi və təhlillər göstərir ki, hazırda və eləcə də yaxın illərdə ölkənin, o cümlədən iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı infrastruktur təminatından birbaşa asılı olacaqdır. Əgər regionlarda təkmil infrastruktur təminatı yaradılmış olsaydı, onda kənd təsərrüfatı istehsalında artım tempi 4,8 deyil, ən azı 2 dəfə yüksək olardı.**



**Bu asılılığı nəzərə alan cənab Prezidentin tapşırığı ilə 2006-2009-cu illərdə həyata keçiriləcək mühüm infrastruktur və digər layihələri özündə əks etdirən Dövlət İnvestisiya Proqramının layihəsi hazırlanır. Burada əsas məqsəd özəl sektorun daha sürətli inkişafı, yeni iş yerlərinin açılması, regionlarla şəhərlər arasındakı fərqin azaldılması, rayon əhalisinin şəhərə axınının iqtisadi yollar və metodlarla qarşısının alınmasıdır.**

**Xatırladırıq ki, bu yalnız iqtisadi məsələ deyildir. Ucqar regionlarda, sərhəd bölgələrində infrastruktur obyektlərinin olmaması və işsizlik ucbatından bəzi kəndlərin boşalmasının verə biləcəyi neqativ nəticələri əvvəlcədən görmək və müvafiq tədbirlər həyata keçirməyin vacibliyi unudulmamalıdır.**

**2. Ümumi daxili məhsulun yaradılmasında, dövlət büdcəsinin formalaşmasında, regionların rolunun artırılması üçün radikal tədbirlər görülməlidir.** İqtisadiyyatın tarazlı şəkildə inkişafını təmin etmək, qeyri-neft sektorunda rəqabətqabiliyyətli müəssisələrin yaradılması və fəaliyyət göstərməsinə, yeni iş yerlərinin açılmasına, sosial-mədəni xidmətlərin həcminin genişləndirilməsinə, keyfiyyətinin yüksəldilməsinə, güzəşt və kompensasiyaların ünvanlılığına, təyinatı üzrə istifadəsinə nail olmaq sosial-iqtisadi inkişafa dinamizm gətirməyin vacib şərtidir.

**ÜDM istehsalının artırılması və dövlət büdcəsi gəlirlərinin formalaşmasında regionlarla Bakı şəhəri arasında kəskin fərqlərin (Bakıda 90-92 faiz, regionlarda isə 7-10 faiz təşkil etməsi) azaldılması üçün təsirli tədbirlər görülməlidir.**

Rayonların gəlirləri ilə xərcləri arasında tarazlıq yaranmasını təmin etmək üçün məqsədli və sistemli iş aparılmalıdır.Tədricən rayonların xərclərinin öz gəlirləri ilə ödənilməsinə keçidi təmin edilməlidir.

**3. Sahibkarlıq sektoruna sərf edilmiş büdcə vəsaitlərindən istifadənin ünvanlılığına nəzarəti gücləndirmək və səmərəliliyini yüksəltmək haqqında düşünmək vacibdir. Bu sahədə həlli vacib vəzifələr istənilən qədərdir.**

**Ölkənin uzun müddətə inkişaf perspektivləri müəyyənləş-**

**dirilərkən, sosial-iqtisadi inkişaf strategiyası hazırlanarkən hər-hansı obyektə sərf olunan dövlət vəsaitinin səmərəliliyinin yüksəldilməsi qarşıda duran vəzifələrin başlıca istiqamətini təşkil etməlidir.**

**4.** Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramının icrası ilə bağlı keçirilən konfranslarda, müzakirələrdə **hər bir rayonun, konkret bir dövrü əhatə edən sosial-iqtisadi inkişaf proqramının olması, onun başlıca istiqamətləri, qarşıya qoyulan vəzifələrin reallığı, onların texniki-iqtisadi əsaslandırmaları və səmərəliliyi görülən işlərin meyarına çevrilməlidir.**

**5. İstehsal və sosial infrastruktur sahələri, alternativ enerji mənbələrindən istifadə edilməsində, kiçikhəcmli su elektrik stansiyaları, emal müəssisələri yaradılmasında regionların birgə iştirakı, onların imkanlarından daha səmərəli istifadə olunmasına şərait yarada bilər.**

**6. Regionların sosial-iqtisadi inkişafında multiplikativ səmərə verə bilən xüsusi iqtisadi zonalar, sənaye şəhərcikləri yaradılması sahəsində işlər sürətləndirilməlidir. Qeyd olunan sahələrdə problemlər, yəqin ki, vardır.** Bu problemlər müzakirə olunmalı, onların həllinin optimal variantları müəyyən edilməli idi. Axı keçirilən çoxsaylı konfransların əsas işi elə bunlardan ibarət olmalıdır.

**7.** 2004-cü ilin sonundan başlanan inflyasiyanın idarə olunan həddən yuxarı qalxması səbəbləri, onu normal səviyyəyə endirməyin ən əlverişli yolları, üsulları hərtərəfli təhlil edilməli və konstruktiv tədbirlər görülməlidir. İnflyasiyanın 13-15 faizdən 11-12 faizə düşməsi iqtisadiyyatın cari vəziyyəti və operativ idarə olunmasına məsul orqanlarda arxayınçılıq yaratmamalıdır. Orada mövsümi xarakterli amillərin də rolu nəzərə alınmalıdır.

Sentyabr-oktyabr aylarında tələb-təklif nisbətlərində mövsümi xarakterli dəyişikliklər yenidən inflyasiya yaranması ilə nəticələnə bilər. Ona görə də möhtərəm cənab Prezidentin **«Azərbaycan Respublikasında anti-inflyasiya tədbirlərinin gücləndirilməsi haqqında» 31 may tarixli Fərmanında** irəli gələn vəzifələr aidiyyatı orqanlar tərəfindən sistemlə yerinə yetirilməlidir.



Adətən hadisələr bizi qabaqlayır, biz gec reaksiya veririk. 2005-ci ildə inflyasiyanın yüksələn səviyyəsi ekstremal vəziyyət yaranmasına səbəb olduğu kimi. Unutmamalıyıq ki, inflyasiyanın səviyyəsi müəyyən həddən yüksəyə qalxdıqda onun qarşısını almaq üçün görülən tədbirlər əks nəticələr verir. Yəni inflyasiyanın qarşısını almaq üçün görülən tədbirlər inflyasiya burulğanı yaratmağa xidmət edir. Buna yol vermək olmaz.

**8.** Xeyli müddətdir ki, Milli Bankın müdaxiləsi ilə manatın alıcılıq qabiliyyəti, məzənnəsi dollara nisbətdə qalxır. Məlum olduğu kimi, manatın kursunu inzibati metodla uzun müddət qoruyub saxlamaq mümkün deyil. Bu yol heç sərfəli də deyildir. İnflyasiyanın qarşısını almağa hər ay, hər gün xeyli miqdar vəsait sərf olunduğunu unutmamalıyıq.

Möhtərəm cənab Prezidentin **«Azərbaycan Respublikasında anti-inflyasiya tədbirlərinin gücləndirilməsi haqqında» 31 may tarixli Fərmanında** uyğun olaraq, nazirliklər, Dövlət Komitələri və Milli Bank öz işlərini sistemlə və koordinasiya olunmuş halda aparmasalar, 2005-ci ilin sentyabr-oktyabr aylarından başlayaraq makromaliyyə stabilliyini qoruyub saxlamaq çətinliklərlə qarşılaşa bilər.

**9. Milli Məclisə seçkilərlə bağlı siyasi atmosferin qızışdığı şəraitdə müxtəlif dövlətlərdən və təşkilatlardan rəsmi və qeyri-rəsmi yollarla demokratiya bayrağı altında öz maraqlarını reallaşdırmaq üçün Azərbaycana heç bir əmtəə təminatı olmayan külli miqdar valyuta gətirilməsi nəzərə alınmalıdır. Nəzərə alınmalıdır ki, bu pullar inflyasiya törətməyən məqsədlərə, investisiya qoyuluşlarına sərf olunmur. Siyasi məqsədlər üçün gətirilmiş bu pullar ekstremist, aqressiv ünsürlərin pozuculuq fəaliyyətinə maliyyə təminatı yaratmağa xidmət edir.**

**Mütəxəssislərin hesablamalarına görə miqyasından asılı olaraq bir nümayişin hazırlanması və keçirilməsinə, həmçinin muzdlu nümayişçilər toplanmasına və s. 0,5-1 milyon dollar**

vəsait sərf olunur. **Bu pullar xeyli hissəsi siyasi nümayişlərdə açıq və gizli yollarla paylanılır. Bu pullar birbaşa əmtəə bazarına istiqamətlənir. Tələb-təklif nisbətlərinə pul kütləsinin təzyiqini gücləndirir.**

**Bu pullar uçotdan, idarəetmədən kənar olduğu üçün valyuta nəzarəti haqqında qanunvericiliyin müddəalarını onlara şamil etmək mümkün olmur. Ona görə də bu pullar, yeni inflyasiya burulğanı yaratmağa meyillənir. Beləliklə, siyasi təxribatçılığın ölkədə formalaşmış makromaliyyə stabilliyinin pozulmasına transformasiyası təşkil edilir. Anti-inflyasiya tədbirlərində bu faktorun rolu hökmən nəzərə alınmalı, valyuta sərvətlərinin respublikamıza gətirilmə proseduru ölkənin iqtisadi və milli təhlükəsizliyinin təmin edilməsinin tələb etdiyi dərəcədə sərtləşdirilməlidir.**

10. İstehsal və sosial infrastruktur sahələrinin inkişafı, sağlam rəqabətə meydanın genişləndirilməsi, səmərəli antiinhisar siyasəti yeridilməsi, bir sözlə, pula tələbatın genişlənməsi üçün sistemli iş aparılması, inflyasiyanın qarşısının alınmasında böyük rol oynaya bilər. İpoteka banklarının yaradılması və mənzil tikintisinə kreditlərin verilməsi tikinti prosesini daha da sürətləndirə bilər. Mənzil tikintisinin daha da artımı pula tələbatı artırdığından o anti-inflyasiya rolunu oynaya bilər.

11. **Milli dövlət quruculuğu prosesi sürətləndikcə ictimai, hüquqi, psixoloji mühit dəyişdikcə, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası dərinləşdikcə, sosial-iqtisadi inkişafın prioritetləri yeniləşir, yeni keyfiyyət halı alır.** Müstəqilliyin ilk illərində başlıca məqsəd makroiqtisadi və makromaliyyə sabitliyi təmin etmək və onun möhkəmləndirilməsinə nail olmaq, ümumi iqtisadi göstəricilərin dinamik artımını təmin etməkdən ibarət idisə, **bu gün vəzifə kəmiyyət dəyişikliklərindən keyfiyyətə keçidi təmin etməkdən, yəni hər bir Azərbaycan vətəndaşı üçün bu iqtisadi uğurlardan bəhrələnmək imkanı əldə etmələrinə şərait yaratmaqdan ibarətdir.**

**İlham Əliyev cənabları Prezident seçildiyi vaxtdan iqtisadi**



**artım dinamikasını xalqın həyat səviyyəsi ilə bağlamaq, hər bir vətəndaşın iqtisadi artımdan qanun çərçivəsində bəhrələnməsini təmin etməyə səy göstərir. O, Prezident seçildiyi zaman minimum əmək haqqı 60 min manat idi. İndi minimum əmək haqqı 125 min manatdır.**

**Prezident İlham Əliyev 2005-ci il oktyabrın 1-dən minimum əmək haqqının 150 min manat qaldıracağını bəyan etmişdir. Bu artım bir başa 538 min nəfərə, dolayısı ilə isə (əməyinin ödənişi minimum əmək haqqı ilə bağlı olanlar) daha çox əhaliyə şamil olunacaqdır. Minimum əmək haqqının 150 min manata qaldırılması, təbii ki, son hədd olmayacaqdır. Minimum əmək haqqının insanın minimum yaşayış tələbatını ödəyəcək səviyyəyə qaldırılması təmin olunmalıdır.** İqtisadi imkanlar yarandıqca əmək haqqının minimum səviyyəsi müntəzəm olaraq artırılacaqdır.

Azərbaycanda aylıq orta əmək haqqı son illər iki dəfə artmışdır. **2005-ci ildə Respublikamızda aylıq orta əmək haqqı 560 min manat və ya 120 dollardır.** Bu MDB ölkələrinin əksəriyyətindən yüksək olsa da ölkə Prezidenti iqtisadi imkanlar yarandıqca onun da yüksəldilməsi üçün tədbirlər müəyyən edir.

Son illər əhalinin pul gəlirlərinin artımı əhəmiyyətli dərəcədə yüksəlmişdir. **2005-ci ilin birinci yarısında əhalinin banklardakı əmanətləri 39,1 faiz artmışdır.**

**2006-cı ilin dövlət büdcəsi gəlirlərinin ən azı 15 trilyon manata çatacağı (3 milyard ABŞ dolları) gözlənilir. Bu isə öz növbəsində əhalinin rifahının daha da yüksəldilməsində böyük rol oynaya bilər.**

Sosial-iqtisadi siyasətin əsas istiqaməti əhalinin həyat səviyyəsini yüksəltməkdən ibarətdir. 2005-ci ilin birinci yarısında bu istiqamətdə müəyyən işlər görülsə də, qarşıda duran vəzifələr çoxdur. İlk növbədə, **yoxsulluğun azaldılması proqramı üzrə tədbirlər davam etdiriləcək və ölkə başçısının fərmanı ilə yaradılan komissiya tərəfindən 2015-ci ilədək olan müddət üçün Yoxsulluğun Azaldılması və Davamlı İnkişaf Proqramının ha-**

**zırlanması işi başa çatdırılacaqdır.**

İşləməyən əmək pensiyaçılarının pensiya və müavinətlərinin minimum həddi də 2005-ci ildə 125 min manata çatmış, yəni 233 min nəfərin pensiyası artırılmışdır.

Məcburi köçkünlərə, yəni 520 min nəfərə yemək xərci kimi verilən aylıq müavinətlər 25 min manatdan 30 min manata çatdırılmışdır.

İncəsənət xadimlərinə Prezident mükafatlarının təsis edilməsi, Azərbaycan Milli Elmlər Akademiyasının yüksək vəzifəli işçilərinin əmək haqlarının artırılması, dövlətin Konstitusiya quruluşunun müdafiəsi zamanı müharibə veteranı statusu almış şəxslərə müavinətlərin verilməsi, (bu şəxslərin sayı 86 min nəfərdir). 1941-1945-ci illər müharibəsi veteranlarına Qələbənin 60 illiyi ilə əlaqədar birdəfəlik yardımların edilməsi (bu, 63 min nəfərə şamildir), fəxri adlara görə təqaüdlərin verilməsi, Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi üçün dövlət büdcəsindən tələb olunan miqdarda vəsait nəzərdə tutulmuşdur.

12. Biz gələcəyə baxır və onun daha firavan olması üçün tədbirlər görməliyik. Xalqın bu günkü güzəranına diqqəti azaltmadan vəsaitin müəyyən hissəsini investisiyaya yönəltməliyik. 2005-ci ilin altı ayı ərzində dövlət investisiya xərclərinə büdcə çərçivəsində 371 milyard manat vəsait sərf edilmişdir. Bu ötən ilin eyni dövrü ilə müqayisədə 1,6 dəfə çoxdur. Həmin vəsaitdən 83 sosial-mədəni və məişət təyinatlı obyektlərin tikintisinə və yenidən qurulmasına 56 milyard manat, 50 layihə üzrə ayrı-ayrı infrastrukturların, o cümlədən Vayxır hidroqovşağının tikintisinə, regionların içməli su təchizatına, suvarma-drenaj infrastrukturunun bərpasına 77 milyard manat, respublika əhəmiyyətli avtomobil yollarının tikintisinə xərclərə 26 milyard manat vəsait yönəldilmişdir. Yolların əsaslı tikintisinə və yenidən qurulmasına digər mənbələr hesabına da vəsaitlər, yəni zəmanətli kreditlər şəklində də 100 milyardlarla manat vəsaitlər cəlb edilmişdir.

Ötən dövr ərzində dövlət büdcəsində nəzərdə tutulmayan bir



sıra xərclərin maliyyələşdirilməsinə, yəni ehtiyat fondu hesabına Elmi Onkoloji Mərkəzin tibb avadanlığı ilə təchiz edilməsinə, məcburi köçkünlərin ərzaqla fasiləsiz təmin olunmasına, Böyük Vətən müharibəsində Qələbənin 60 illik yubileyi münasibətilə müharibə əlillərinə pulsuz minik avtomobillərinin verilməsinə, İctimai Televiziya və Radio Yayımları Şirkəti üçün tələb olunan texniki avadanlığın alınmasına və digər vacib tədbirlərə ehtiyat fondundan 40 milyard manat vəsait yönəldilmişdir.

Biz ümumi daxili məhsulun strukturuna və sahə quruluşuna uyğun büdcə gəlirlərinin artımını təmin etməli, potensial gəlirlərin, yəni vergi və rüsumların büdcəyə daxilolma əmsalını artırmalı, büdcə prosesində perspektiv maliyyə planının tərtibinə diqqəti yüksəltməli, yoxsulluğun azaldılması və regionların inkişafı ilə bağlı büdcədən lazım olan xərclərin maliyyələşməsini həyata keçirməli, minimum əmək haqqının artırılmasını təmin etməli, əlillərə, qaçqınlara və məcburi köçkünlərə verilən müavinətlərin və pensiyaların artırılmasını ön plana çəkməli, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə inkişaf proqramları əsasında maliyyələşməni stimullaşdırmalıyıq. Bütün bunlar prioritetlərdir və dövlət onların reallaşmasını sistemlə həyata keçirir.

# FƏSİL VI. İQTİSADİ VƏ SOSİAL İNKİŞAFIN YENİ KEYFİYYƏT HALI

## 6.1. Büdcə gəlirlərini artırmaq imkanları

**Büdcə gəlirləri və xərcləri üzvi surətdə əlaqədardır. Gəlirlərin artımı büdcədən maliyyələşmələri artırmağa şərait yaradır. Ona görə hər bir dövlət öz büdcəsinə yığılan vəsaitlərin artırılması üçün müntəzəm olaraq səy göstərir.**

**Büdcə gəlirlərini artırmaq imkanları çox səpkili, müxtəlif səviyyəli, prosedurlu tədbirlər sisteminin həyata keçirilməsini nəzərdə tutur. Əvvəla, biz büdcə gəlirlərini nəyin bahasına olursa olsun artırmaq siyasəti yeritmirik. Biz yeni vergilər müəyyən etməklə və vergi dərəcələrini yüksəltməklə büdcə gəlirlərinin artırmağa çalışmırıq və belə vergi siyasəti yeritmirik.**

Azərbaycan Respublikasının Konstitusiyası Qanunlarımızın ən alisidir. Ən ali Qanuna əsasən vergilər yalnız qanunla müəyyən edilməlidir. Konstitusiyanın 73-cü maddəsində yazılır: **«Heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunda göstərilmiş həcmdən əlavə vergilər və başqa dövlət ödənişləri ödəməyə məcbur edilə bilməz».**

**«Vergi Məcəlləsi» vergilər üzrə əsas qanundur. Orada bir başa göstərilir ki, Məcəllədə göstərilən vergi dərəcələri, vergi dərəcələrinin ən yüksək həddidir. Ondan yüksək vergi dərəcəsi müəyyən etmək olmaz. Bu iqtisadiyyatın vergi yükünün optimal səviyyəsini təmin etmək, vergilərin büdcə gəlirlərini formalaşdırmaq və iqtisadi artımı stimullaşdırmaq funksiyalarının tarazlılığını təmin etmək üçün zəruridir.**

**Bələdiyyələr bələdiyyə vergilərinin dərəcəsinin müəyyən edilməsində sərbəstdirlər. Lakin onlar da «Vergi Məcəlləsində» göstərilənlərdən yuxarı vergi dərəcələri müəyyən edə bilməzlər. Bələdiyyələr fəaliyyət göstərdikləri regionun xüsusiyyətlərini nəzərə alaraq, «Vergi Məcəlləsin»də müəyyən ediləndən aşağı vergi dərəcəsi müəyyən etmək hüququna malikdirlər.**



**Dövlət vergi dərəcələrini iqtisadi cəhətdən əsaslandırmaqla aşağı salmaq, vergi bazasını genişləndirmək, yığım əmsalını yüksəltmək, iqtisadi inkişafa, xalqın rifahının daha da yüksəldilməsinə təsir edən siyasət yeridir. Hər il dövlət büdcəsinin layihəsinə baxılarkən eyni zamanda vergi dərəcələri nəzərdən keçirilir və iqtisadi cəhətdən əsaslandırmaqla vergi dərəcələrinin aşağı salınması haqqında qanun qəbul olunur.**

**Büdcə gəlirlərinin artırılması iqtisadi inkişafa əsaslanmalı, ÜDM istehsalının, əhalinin pul gəlirlərinin artımı büdcə gəlirlərinin səviyyəsinə təsir etməlidir. Bu dövlətin büdcə-vergi siyasətinin başlıca istiqamətlərini, onun əsas müddəalarını təşkil edir.**

**Ölkə Prezidenti İlham Əliyev cənabları 24 noyabr tarixli Fərmanında Nazirlər Kabinetinə regionların yerli resursları və digər amilləri nəzərə alınmaqla onların sosial-iqtisadi inkişafına dinamizm gətirməyə xidmət edən dövlət proqramlarını hazırlamaq və ölkə Prezidentinə təqdim etmək haqqında tapşırıq vermişdir.**

Respublikanın hər bir regionunun öz xüsusiyyətləri, təsərrüfatçılıq dövriyyəsinə cəlb etmək üçün təbii-coğrafi əmək ehtiyatları və s. sahələrində spesifik cəhətləri vardır. Burada təkcə mərkəzi icra hakimiyyəti orqanları deyil, həmçinin yerli orqanlar, o cümlədən bələdiyyələr fəal rol oynamalıdırlar.

İstehsalın rentabelliyini təmin etmək ən əvvəl müəssisələrin işidir. Onlar texnoloji sistemləri təkmilləşdirməli, istehsal xərclərini aşağı salmalı, daxili və xarici bazara rəqabətqabiliyyətli məhsullar çıxarmalı, tələb-təklif nisbətlərini ehtiva edən siyasət yeritməlidirlər. Burada marketinq xidmətinin rolu və məsuliyyəti xüsusilə nəzərə alınmalıdır. Bütün bunlar iqtisadiyyatın maliyyə və real sektorları arasında koordinasiyanın təmin edildiyi şəraitdə müsbət nəticələr verə bilər.

Ölkədə daxili bazarın idxaldan asılılığının ağır sosial-iqtisadi nəticələr verə biləcəyi dərk olunur, bu asılılığı aradan qaldırmaq üçün sistemli iş aparılması zərurətə çevrilir. Ölkəmizin iqtisadi təh-

lükəsizliyinin təmin olunmasına məsuliyyətimizi anlamalıyıq.

İqtisadi (alətlərdən) vasitələrdən - büdcə-vergi, qiymət, tarif, pul-kredit alətlərindən maksimum səmərəli istifadə etməli, yeridilən siyasətin ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasına təsirini gücləndirməliyik.

Qiymətlərin stabilliyi iqtisadiyyatın inkişafı və xalqın rifahı üçün olduqca vacibdir. Əgər o nəzarətdən qaçarsa, onda əhalinin aldığı əmək haqqının xeyli hissəsi inflyasiyaya yemə çevrilə bilər. Qiymətlərin stabilliyini təmin etmək üçün müntəzəm olaraq səy göstərilməlidir. Lakin onu məqsədə çevirmək düzgün olmazdı. Burada məqsəd iqtisadiyyatın dinamik inkişafını təmin etmək, yeni iş yerləri yaratmaq, rəqabətqabiliyyətli məhsullar istehsalını, bütövlükdə məşğulluq, yoxsulluq probleminin həllinə nail olmaq və xalqın rifahının müntəzəm olaraq yüksəldilməsini təmin etməkdir.

**Dünya ölkələrinin təcrübəsi sübut edir ki, stabil makromaliyyə və qiymətlər həyat səviyyəsinin yüksəlməsinin maddi əsasını təşkil edən iqtisadi inkişafla, yüksək əmək haqqı verilən yeni iş yerlərinin yaradılması ilə yanaşı baş verdikdə müsbət nəticələr verir.**

Ölkəmizdə işsizliyin və yoxsulluğun azaldılması haqqında Dövlət proqramları mövcuddur. İşsizlərin sayının rəsmi göstərilənlərdən dəfələrlə çox olması iqtisadi idarəetmənin düzgün təşkil edilməməsinə sübutdur. Bu əmək qabiliyyətli əhalinin xeyli hissəsinin yeni iqtisadi sistemə inteqrasiyasının təmin olunmadığının göstəricisidir.

Respublikamızda rəqabətqabiliyyətli məhsullar istehsal edən müəssisələrin, istehsal və sosial infrastruktur sahələrinin yaradılması, işsizlərin sayının azaldılması üçün iqtisadi idarəetmə orqanları radikal tədbirlər görməlidirlər. Bu iqtisadi tədbirlərlə yanaşı pul-kredit, büdcə-vergi, qiymət, tarif siyasətinin koordinasiyasını təmin etməyi, iqtisadi inkişafa təsir edən alətlərin gücünün müəyyən səmtə yönəldilməsi zəruridir.

Bizim hamımıza aydın olmalıdır ki, iqtisadi siyasətin bütün



komponentlərini əlaqələndirmədən təkcə Milli Bankın valyuta bazarına dollarla müdaxiləsi hesabına inflyasiyanı sıfıra endirməklə iqtisadi inkişafa dinamizm gətirmək mümkün deyil.

İqtisadiyyata dinamizm gətirilməsində banklar mühüm rol oynayırlar. Dünya təcrübəsi etibarlı bank sistemi və əlverişli faizlərlə kreditlər verilməsini təmin etmədən iqtisadiyyata dinamizm gətirməyin qeyri-mümkün olduğuna sübutdur. Ona görə də dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrində real iqtisadiyyatla bank sektoru arasında ən əlverişli nisbətlər yaradılmasına üstünlük verilir. Orada bank kreditlərinin investisiyaya transformasiyasını təmin etmək sosial-iqtisadi inkişafın zəruri şərtinə çevrilir.

Yerli xammal əsasında işləyən, rəqabətqabiliyyətli və ixrac yönümlü müxtəlif məişət, tikinti materialları və avadanlıqlar, yüngül və yeyinti məhsulları istehsal edən kicik və orta müəssisələrin yaradılmasına üstünlük verilməsi məqsədəuyğun olardı. Bu regionların sosial-iqtisadi inkişafının sürətlənməsinə, işsizlik və yoxsulluq problemlərinin həlinə xidmət edər və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə təsir edə bilərdi.

Ölkəmiz geniş tikinti meydanını xatırladır. Hazırda inşaat sektorunda artım tempi 57-60 faizdir. Bu cür yüksək temp iqtisadiyyatın digər sahələrində yoxdur. Yaşayış binaları, mədəni-məişət obyektlərinin tikintisi üçün zəruri olan əksər material və avadanlıqlar yerli istehsal sahələrində hazırlanır.

Bu isə iqtisadi artıma yeni dinamika gətirir, onun sürətlənməsinə şərait yaradır.

AXC-Müsavat cütlüyünün hakimiyyəti illərində islahatçıların «strateqləri» dövləti iqtisadiyyatdan tamam kənarlaşdırmağı, iqtisadiyyatı tamamilə bazarın, kortəbii fəaliyyət göstərən qüvvələrin öhdəsinə buraxmağı məqsədə çevirmişdilər. Onlar dövləti zəiflədib kriminal qüvvələrə təhvil verməklə onu qayda, qanun yaratmaq alətindən hərcmərclik formalaşdıran alətə çevirirdilər.

Dövlət iqtisadiyyatın fəaliyyət prinsiplərini, normalarını, iqtisadi subyektlərin fəaliyyəti üçün «oyun qaydalarını» müəyyən

etməklə müəssisə və təşkilatların inkişafını məqsədyönlü səmtə yönəldə, koordinasiya olunmuş fəaliyyəti təmin edə və iqtisadi artımın sürətlənməsinə şərait yarada bilər.

Dövlət Azərbaycan iqtisadiyyatının prioritet sahələrini müəyyən edə bilər. Bazar münasibətləri şəraitində mövcud və gələcəkdə yaradılacaq müəssisələrin profilinin ölkənin maraqlarına uyğun istiqamətlərini formalaşdıra bilər. Bu öz növbəsində Azərbaycan iqtisadiyyatına dinamizm gətirməyin qlobal istiqamətlərini, dünya iqtisadi inteqrasiyasına qoşulma yolları və üsullarını müəyyən edə bilər. Bu məqsədlə:

**- birincisi, hazırda istehsal və istehlak üçün daxili bazarda mövqeyi möhkəm, güclü dinamik inkişaf imkanına malik, lakin dövriyyə vəsaiti çatışmadığından, digər səbəblər üzündən potensialını reallaşdıra bilməyən müəssisələr;**

**- ikincisi, yerli xammal ehtiyatlarına əsaslanan, başlıca olaraq daxili bazar üçün işləyən, rəqabətqabiliyyətli və yüksək sürətli dövriyyə kapitalına malik müəssisələr;**

**- üçüncüsü, iqtisadi artım potensialı yüksək, hazır məhsullarını daxili və xarici bazarda reallaşdırmaq imkanı olan müəssisələr müəyyən edilməlidir.**

**Dünya təcrübəsi maliyyə-sənaye qruplarının iqtisadiyyata dinamizm gətirilməsində prioritet xarakterə malik olduğuna sübutdur. Yüngül, yeyinti, tikinti və s. sahələrində maliyyə-sənaye qrupları yaradılması nisbətən az vəsaitlə və qısa müddət ərzində yüksək səmərə verə bilər.**

Dövlət iqtisadi, hüquqi, siyasi və s. amillərlə, pul, kredit, vergi, büdcə, tarif alətlər ilə, ilk növbədə maliyyə-bank sferasının bazar iqtisadiyyatına adekvat prinsiplərlə inkişafına şərait yaratmalıdır. İndi bank sisteminin yüksək inflyasiya dövründən tamamilə fərqli modellə, ən əvvəl maliyyə-sənaye qrupları (MSQ) və Holdinqlər formasında inkişafı təmin edilməlidir.

Biz respublikamızın malik olduğu iqtisadi, elmi-texniki və intellektual potensialı nəzərə almaqla dövlət büdcəsi gəlirlərinin daha da artırılması imkanlarının mövcud olduğu və onların



təsərrüfatçılıq dövriyyəsinə cəlb etməyin mümkün olduğunu qeyd edirik.

**Fikrimizcə, büdcə təşkilatlarında əmək haqqı sürətlə artırıldığı, özəl sektorda əmək haqqının daha sürətlə yüksəldiyi, işləyənlərin orta aylıq əmək haqqı 40-60 faiz artdığı şəraitdə fiziki şəxslərin gəlir vergisindən büdcə daxilolmalarının 2004-cü ildə 27,9 faiz artımı qənaətbəxş hesab edilə bilməz. Hesab edirik ki, fiziki şəxslərin gəlir vergisinin artım tempi əmək haqqının artım sürətindən ləng artmamalı idi. 2003-cü ildə əmək haqqı 50 faiz artdığı və həmin artımın əsas hissəsinin 2004-cü ildə baş verdiyini nəzərə alsaq onda gəlir vergisindən büdcə daxiolmalarının daha sürətli artımı təmin olunmalı idi. Hər halda bu iki göstərici arasındakı nisbətlərdə tarazlıq təmin edilməli idi.**

İnşaat işlərinin, hüquqi və fiziki şəxslərə məxsus əmlakın sürətlə artdığı şəraitdə 2004-cü ildə əmlak vergisindən büdcə daxilolmalarında artım, demək olar ki, olmamışdır.

Dövlət büdcəsinin gəlirlərini artırmaq imkanları çoxdur. Ən başlıcası, ölkədə istehsal olunan ÜDM-də istehsal və istehlak üzrə kəmiyyəti və keyfiyyətinin müqayisəli təhlili onların arasındakı fərqin 10 trilyon manatadək olduğunu göstərir. Onun xeyli hissəsi «Vergi məcəlləsinin» prinsipləri və qaydalarında müəyyən olunduğu kimi vergitutma obyektləridir. Orada vergiyə cəlb olunmayan vəsaitlərin ümumi məbləği mütəxəssislərin hesablamalarına görə ən azı dövlət büdcəsi gəlirlərinin 15-20 faizinə bərabərdir.

Son illər dövlət büdcəsi gəlirlərinin təsdiq olunmuş göstəriciləri yerinə yetiriləndən əlavə, həmin il üçün hesablanmış, lakin ödənilməmiş qalan vergi borclarının ümumi məbləği trilyonlarla manata bərabər olur. Doğrudur, onların bir hissəsi qarşılıqlı borclar problemi ilə əlaqədardır. Lakin bu borclarla əlaqəsi olmayan vergi ödəməmələrinin özü hər il orta hesabla 1-2 trilyon manata bərabər olur.

Qeyd olunanlar bir tərəfdən növbəti ilin büdcə gəlirləri formalaşdırılarkən onun gəlir hissəsinə aid rəqəmlərin ölkənin potensial

imkanlarından aşağı səviyyədə müəyyən olunduğunu göstərir. Bu ölkənin sosial-iqtisadi inkişaf proqnozlarının reallığı ifadə etməsinə diqqəti artırmağı tələb edir. Digər tərəfdən qeyd olunanlar, hesablanmış vergiləri ödəməkdən boyun qaçıran hüquqi və fiziki şəxslərə qarşı daha sərt tədbirlərin həyata keçirilməsini tələb edir. Vergi borclarının əmlaka yönəldilməsi qaydalarının tətbiq edilməsindən geniş istifadə edilməlidir. Burada dövlət büdcəsinin gəlirlərini artırmaq üçün kifayət qədər geniş imkanlar vardır.

Dövlət ikili mühasibat aparma meyillərinin qarşısını iqtisadi və inzibati metodlarla almağa, aradan qaldırmağa çalışmalıdır. Ən əvvəl, bəzi vergi dərəcələrinin həddindən ziyadə yüksək olduğu nəzərə alınmalı və onların iqtisadi cəhətdən əsaslandırılmış qaydada aşağı salınması üçün tədbirlər görməlidir. Misal üçün, fiziki şəxslərin aylıq gəlirinin 3 milyon manatdan yuxarı olan hissəsinin 35 faizlə vergiyə cəlb olunması ciddi narazılıqlar yaradır. Özəl sektora məxsus müəssisə və təşkilatlarda, həmçinin xarici kapitallı və 100 faiz xaricilərə məxsus təşkilatlarda ikili mühasibat aparılması əksər müəssisə və təşkilatlarda adi hala çevrilmişdir.

Dövlət daxili və xarici biznesin inkişafına maksimum şərait yaratmalı, yerli istehsalın inkişafına himayədarlığı artırmaqla yanaşı, ölkəyə xarici investisiyaların cəlb edilməsi üçün görülən tədbirlər arasında balans yaradan iqtisadi siyasət yeritməlidir. Unudulmamalıdır ki, xarici investorları cəlb etmək hazırki dövrdə dünya rəqabət mübarizəsinin mühüm sahəsinə çevrilmişdir. Ona görə də iqtisadiyyatın müxtəlif sahələrinə, qeyri-neft sektoruna, respublikamızın rayonlarına, xüsusilə ucqar və dağlıq rayonlara investisiya qoyuluşlarının stimullaşdırılması üçün sistemli tədbirlər görülməlidir. İnvestisiyanın, xüsusilə xarici investisiyaların təşviqi sahəsində radikal tədbirlər hazırlanıb həyata keçirilməlidir.

Ümummilli liderimiz Heydər Əliyev dövlətimizin bütün istiqamətləri üzrə inkişaf konsepsiyasının strateji və taktiki əsaslarını müəyyən etmişdir. Müstəqil dövlətimizin tərəqqisi və inkişafı naminə öz əməyini sərf edən böyük öndər qısa zaman ərzində müsbət nəticələrə nail oldu. Hazırda Heydər Əliyevin



müstəqil Azərbaycanın qurulması və inkişafı üçün müəyyən etdiyi proqram uğurla həyata keçirilir.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında bütün sahələrdə aparılan genişmiqyaslı işlər buna əyani misaldır. Prezident seçkiləri kampaniyasında ölkə əhalisi ilə keçirilən görüşlərdə cənab İlham Əliyev regionların sosial-iqtsiadi inkişafı və yeni iş yerlərinin açılması proqramı ilə çıxış etmişdir.

Ölkə başçısı 2003-cü ilin noyabrında imzaladığı **«Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında»** Fərman və 2004-cü ilin fevralında təsdiq etdiyi Azərbaycan Respublikası regionlarının inkişafı ilə bağlı Dövlət Proqramı fundamental əhəmiyyətə malik sənədlər olmaqla Azərbaycanın hərtərəfli inkişafına böyük təkan verdi. Proqramdan irəli gələn vəzifələrin həyata keçirilməsi nəticəsində ötən müddət ərzində əhalinin məşğulluğu təmin edilmiş, yeni emal müəssisələri istifadəyə verilmiş, xalqın rifahı xeyli yüksəldilmişdir. Respublikamızın müxtəlif bölgələrində 170 mindən artıq yeni iş yerlərinin açılması da iqtisadi siyasətin düzgün olduğunu bir daha təsdiqlədi.

İqtisadiyyatın inkişafında əldə olunmuş nailiyyətlər və qarşıya qoyulan vəzifələrin ardıcıl həyata keçirilməsi müsbət nəticələrə gətirib çıxarmışdır. Aparılan iqtisadi və sosial siyasət Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə və əhalinin vəziyyətinin yaxşılaşdırılmasına müsbət təsirini göstərmişdir.

Nazirlər Kabinetinin 2004-cü ilin yekunlarına həsr olunmuş hesabatında da iqtisadi tərəqqini əldə olunmuş bir sıra nəticələri göstərmişdir. Hesabat ilində ümumi daxili məhsul 10,2 faiz artmış, qeyri-neft sektorunda artım 13,9 faiz təşkil etmişdir.

Makroiqtisadi sabitlik təmin edilmiş, dövlət büdcəsinin gəlirləri 24,6 faiz artmışdır. Büdcə xərclərinin 56,4 faizi sosial təyinatlı tədbirlərə yönəlmişdir. Ölkə iqtisadiyyatının dinamik inkişafı əhalinin pul gəlirlərinin artmasına müsbət təsirini göstərmişdir. Orta aylıq əməkhaqqı 26,2 faiz artaraq 483 min manatdan artıq olmuşdur. Bu müddət ərzində sosial-iqtisadi sahədə, bazar iqtisadiyyatı infrastrukturunun yaradılmasında əhəmiyyətli nəticələr əldə olun-

muşdur.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyev Azərbaycanın inkişafını yalnız bu siyasi kursun davam etdirilməsində görür. **Cənab İlham Əliyev YAP-ın 3-cü qurultayında bir daha bildirmişdir: «Heydər Əliyev siyasəti yaşamalıdır. Bu, zəmanənin tələbidir. Bu yeganə siyasətdir ki, Azərbaycanı daha da gücləndirəcək, Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcəkdir. Mən çox şadam ki, Azərbaycan xalqı 2003-ci ildə öz seçimini düzgün etdi. Heydər Əliyev siyasətinə öz səsini verdi və beləliklə, bu gün də biz hamımız, Azərbaycan xalqı, Yeni Azərbaycan Partiyası Heydər Əliyevin siyasətinə sadiq qalaraq onu davam etdiririk və çox uğurla davam etdiririk».**

2003-cü il Prezident seçkilərində xalqımız müdriklik göstərdi ümummilli liderimizin layiqli davamçısı cənab İlham Əliyevə səs verdi. Seçkilərdən keçən müddət ərzində xalq öz seçimində yanılmadığının bir daha şahidi oldu. Ölkə iqtisadiyyatının dinamik inkişafı əhalinin maddi rifah halının da yaxşılaşmasına imkanlar yaratmışdır. Cənab Prezident ölkədə yoxsulluğun azaldılması, məcburi köçkünlərin və qaçqınların həyat şəraitinin yaxşılaşdırılması sahəsində də geniş işlər həyata keçirmişdir.

ÜDM-in artım göstəricisi dünyanın iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərinin əksəriyyətindən yüksəkdir. 2004-cü il üçün müxtəlif beynəlxalq maliyyə və kredit təşkilatları ilə, eləcə də donor ölkələri ilə respublikamıza investisiyanın cəlb olunması sahəsində əməkdaşlığın genişləndirilməsi üçün bir sıra işlər görülmüşdür. Həmin dövr ərzində respublikamızın iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edən müxtəlif layihələri maliyyələşdirmək məqsədi ilə 123,7 milyon ABŞ dolları məbləğində 7 kredit sazişi imzalanmışdır. Aparılmış məqsədyönlü işin nəticəsində alınan kreditlərin çox hissəsi güzəştli olmuşdur.

Azərbaycanın dövlət büdcəsi ildən-ilə artmaqdadır. 2005-ci ildə 2 milyard ABŞ dollarını ötüb keçmişdir. Bu 1995-ci ildəki büdcə gəlirlərindən 18 dəfədən çox artıqdır.



Dövlət büdcəsi ölkə iqtisadiyyatından formalaşır. O nəticədir. Əgər sürətli iqtisadi inkişaf baş verməzsə, dövlət büdcəsinin bu qədər artımını təmin etmək mümkün olmazdı. Gətirilən misallar Azərbaycan iqtisadiyyatının son on ildə dinamik inkişafına əyani sübutdur.

**Azərbaycan Prezidenti cənab İlham Əliyev bildirmişdir: «Azərbaycanın iqtisadi inkişafı uğurla davam edir. Seçkilərdən əvvəl verilmiş bütün vədlər həyatda öz əksini tapır. Biz demişdik ki, iqtisadi islahatları davam etdirəcəyik, bunu da edirik. Həm struktur islahatları aparılır, həm də ölkəmizin iqtisadi inkişafı üçün çox mühüm əhəmiyyət kəsb edən sosial-iqtisadi, regional inkişaf proqramları qəbul edilib və uğurla icra edilir. Biz demişdik ki, 600 min iş yeri yaradılacaqdır. Cəmi bir ildən bir qədər artıq dövr ərzində yaranan iş yerlərinin sayı 170 mindən çoxdur. Biz demişdik ki, sahibkarlara kömək göstərəcəyik. Dövlət büdcəsindən 2005-ci ildə sahibkarlara kömək etmək üçün nəzərdə tutulan vəsait iki dəfə qaldırılıbdır. Biz demişdik ki, büdcəmiz artacaq. İlk növbədə maliyyə nizam-intizamının güclənməsi nəticəsində 2005-ci ilin büdcəsi təxminən 25-30 faiz artırılıbdır. Mən hesab edirəm ki, bütün istiqamətlərdə nəzərdə tutulan proqramlar öz həllini tapıb, Azərbaycanı hərtərəfli inkişaf edəcək».**

Azərbaycan Prezidentinin söylədiyi bu fikirlər tam reallığı əks etdirir və ölkənin iqtisadi inkişaf yolunda olduğunu təsdiqləyir. İqtisadi sahədə əldə edilmiş nailiyyətlər yaxın gələcək üçün Azərbaycanın inkişaf perspektivləri haqqında nikbin proqnozlar verməyə əsas yaradır. Ölkəmizin iqtisadi qüdrətinin artması Azərbaycanı regionun lider dövlətinə çevirmişdir.

Respublikamızda ildə orta hesabla bir milyard dollardan çox, 2003-cü ildə 2 milyard dollardan çox investisiya qoyulmuşdur. 2004-cü ildə isə investisiya qoyuluşunun məbləği 4,6 milyard dollara bərabər olmuşdur.

Büdcə gəlirlərinin artırılması iqtisadi inkişafla yanaşı, əlverişli vergi siyasətinin yeridilməsini tələb edir. Fikrimizcə, ölkəmizdə

quruculuq və yaradıcılıq işlərinin sürətlənməsi, tikintidə isə artım sürətinin indiyə qədər görünməyən səviyyəyə yüksəlməsi - artım tempinin 57-60 faizə çatması öz növbəsində əmlak vergisindən büdcə daxilolmalarının sürətli yüksəlişi ilə nəticələnməli idi.

Ölkədə «tikinti bumu» baş verdiyi, iqtisadiyyatına investisiya qoyuluşu isə 2004-cü ildə 2003-cü ilə nisbətən 2,7 dəfə artdığı halda əmlak vergisinin cəmisi 28 milyard manat artımı, fikrimizcə, heç cür qənaətbəxş hesab oluna bilməz.

**Fikrimizcə, respublikamızda hüquqi şəxslərin torpaq vergisinin proqnozları potensial imkanlardan az müəyyən edilmişdir.** Mütəxəssislərin fikrincə, təkcə iri vergi ödəyicilərinə məxsus torpaq sahələrindən büdcəyə daxilolmalar 2004-cü ildə 60 milyard manat təşkil etməlidir. Yeri gəlmişkən onu da qeyd edək ki, mütəxəssislər hüquqi şəxslərin əmlak vergisinin də potensial imkanlardan çox aşağı səviyyədə proqnozlaşdırıldığını qeyd edirlər.

**Respublika üzrə torpaq vergisindən büdcə daxilolmaları 2004-cü ildə cəmi 70 milyard manat nəzərdə tutulmuşdur. Xatırladırıq ki, respublikada cəmi 9-10 iri vergi ödəyicisi vardır. 2004-cü ildə hüquqi şəxslərin 90 faizinin torpaq vergisindən büdcə daxilolmaları cəmi 10 faiz təşkil edəcəkdir. Fikrimizcə, bu potensial imkanlardan çox azdır.**

**Maliyyə, İqtisadi İnkişaf və Vergilər nazirliklərinin bu sahədə praktiki iş aparmaları və torpaq vergisindən büdcə daxilolmalarının reallığa uyğun olmasını təmin etməlidirlər.**

Mədən vergisi sahəsində büdcə daxilolmaları proqnozlarının vəziyyəti xüsusi diqqət yetirilməsini tələb edir. **Mütəxəssislərin hesablamalarına görə 2004-cü ildə mədən vergisi 2003-cü ilə nisbətən əsassız olaraq 151 milyard manat azaldılmış və 489 milyard manat təşkil etmişdir.**

**2004-cü ilin büdcə daxilolmaları proqnozlarında mədən vergisindən daxilolmaların daha da artımı əvəzinə, onun azaldılması səbəbləri aydınlaşdırılmalıdır. Onun əsassız olaraq azaldılmasının qarşısını almaq üçün radikal tədbirlər görülməlidir.**



Vergi olmayan gəlirlərdən büdcə daxilolmalarının artım dinamikası (Dövlət Neft Fondu - 650 milyard manat, büdcə təşkilatlarının büdcədənkənar fondları – 335 milyard manat, qeyri-maliyyə dövlət müəssisələrindən alınan divident 45 milyard manat – Rabitə Nazirliyi, Xəzər Dəniz Gəmiçiliyi) vergidən dövlət büdcəsinə daxilolmaları qabaqlayır. Bu mənbə hesabına büdcə daxilolmalarını artırmaq imkanlarının olduqca məhdud olduğu nəzərə alınmalıdır.

Dövlət büdcəsi gəlirlərinin artırılmasında vergi bazasını genişləndirmək, yığım əmsalını artırmaq, iqtisadi qurumların fəaliyyətinin prioritet sahəsinə çevrilməlidir.

**Sadələşmiş verginin 2003-cü ilə nisbətən 2004-cü ildə 41 milyard manat artımı nəzərdə tutulur.** Lakin bu artımın hansı mənbələr hesabına təmin olunmasında lazımi dərəcədə aydınlıq yaradılmamışdır.

Analitik təhlil aparılmalı, potensial imkanlar dəqiqləşdirilməlidir. Kiçik və orta sahibkarlara dövlət büdcəsindən 2004-cü ildə 100 milyard manat güzəştli şərtlərlə kredit verildiyi, özəl sektora müxtəlif agentliklər, fondlar və kredit təşkilatları tərəfindən də xeyli məbləğdə kreditlər verilməsinin iqtisadi inkişafa təsiri nəzərə alınmalı bu vergilərdən büdcə daxilolmalarının artımı təmin edilməlidir.

**Milli Bankdan dövlət büdcəsinə daxilolmalar 2002-ci ildə 140 milyard manat, 2003-cü ildə 100 milyard manat, 2004-cü ildə isə 30 milyard manat nəzərdə tutulmuşdur. Yəni cəmisi 2 il ərzində Milli Bank büdcə daxilolmalarını 4,6 dəfə azaltmışdır.**

**Burada dünyanın etibarlı banklarına qoyulmuş depozitlərə ödənişin 4 faizdən 1,7 - 2 faizə enməsini əsas götürmək, fikrimizcə, düzgün olmazdı. Belə izahatların elmi əsasa malik olmadığı göz qabağındadır.**

**Ən azı ona görə ki, Milli Bank strateji valyuta ehtiyatlarını idarəetmənin səmərəliliyini yüksəltmək sahəsində geniş imkanlara malikdir. Bu vəsaitin hamısını banka qoymaq (həm də**

**təkcə bir banka qoymaq, Azərbaycandakı banklarda faizin səviyyəsi məlumdur, vəsaitin bir hissəsini reytinqi yüksək olan bizim banklara qoymaq, yüksək divident verən qiymətli kağızlar almaq, yüksək gəlir gətirmək imkanına malik investisiya layihələrində iştirak etmək və s.) nəinki vacib deyil, heç düzgün də olmazdı.**

**Strateji valyuta ehtiyatlarının idarə olunmasında fəallıq göstərmək, onların idarə olunmasının səmərəliliyini yüksəltmək, gəlirləri artırmaq üçün gərgin işləmək əvəzinə, Milli Bankın yol verdiyi passivliyi büdcə gəlirlərini azaltmaq hesabına kompensasiya etmək heç bir vəchlə gəlirlərin azalmasına arqument hesab oluna bilməz.**

**Digər tərəfdən dünyanın etibarlı banklarında əmanətlərə və depozitlərə faizin səviyyəsi aşağı düşdüyü halda, ora qoyulan strateji valyuta ehtiyatları məbləğinin, əmanətlərin və depozitlərin artımı əldə edilən gəlirlərin ümumi məbləğinin yüksəlməsinə təsir etməlidir. Bütün bu deyilənlər Milli Bankın dövlət büdcəsinə daxilolmalarını 2 ildə 4,6 dəfə azaltmasını obyektiv səbəblərlə izah edilməsinə bəraət qazandırmağa əsas vermir.**

**Fikrimizcə, vəziyyət ətraflı təhlil edilməli Milli Bankın** büdcə daxilolmalarını ildən ilə azaltmasına yox, artırmasına istiqamətlənən tədbirlər görməsi təmin edilməlidir. Bir sözlə dövlət büdcəsi gəlirlərinin artırılması üçün sistemli tədbirlər görülməlidir.

Büdcə gəlirlərinin artımı ölkənin iqtisadi inkişafından asılı olduğu kimi, ölkənin sosial-iqtisadi inkişafı da xeyli dərəcədə büdcə gəlirlərinin səviyyəsindən asılıdır.

Nəzərə alınmalıdır ki, büdcə bilavasitə və dolayısı ilə ölkənin iqtisadi və sosial inkişafına təsir etmək imkanlarına malikdir.

Dövlətin iqtisadi idarəetmə orqanlarının fəaliyyətinə maliyyə təminatı büdcə vəsaiti hesabına təmin olunduğu üçün iqtisadi inkişaf xeyli dərəcədə büdcə vəsaitindən asılı olur.

Digər tərəfdən dövlət büdcəsində kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq xərcləri, sənaye və tikinti xərcləri, nəqliyyat və rabitə xərcləri, iqtisadi fəaliyyətlə bağlı xərclər və s. nəzərdə tutulmuşdur.



2004-cü ildə dövlət büdcəsindən kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq xərclərinə 307,8 milyard manatdan çox, sənaye və tikinti xərclərinə 438,6 milyard manatdan artıq, nəqliyyat və rabitə xərclərinə 234,6 milyard manatdan çox, iqtisadi fəaliyyətlə bağlı xərclərə isə 143,3 milyard manatdan artıq və s. vəsait sərf olunması nəzərdə tutulmuşdur.

Büdcə gəlirlərinin artımı ölkədə sosial-siyasi proseslərə də əhəmiyyətli dərəcədə təsir edir. Kifayət qədər büdcə gəlirlərinin toplanmasını təmin etmədən dövlət müəssisə və təşkilatlarında, ən əvvəl büdcə təşkilatlarında çalışanların əmək haqlarını, müavinatlarını, qismən də pensiyalarını ödəmək çətinliklərlə qarşılaşa bilər. Ona görə də dövlət büdcəsinin gəlirlərinin artırılmasının mənası daha genişdir. O həm iqtisadi, həm də siyasi əhəmiyyətə malikdir.

Ölkə Prezidentinin yeritdiyi fəal iqtisadi siyasət dinamik inkişafın təmin olunmasına xidmət edir. Yeridilən siyasət ölkədə iqtisadi fəallığın artımına, yerli istehsalın canlanmasına, daxili investisiya qoyuluşlarının sürətli yüksəlişinə səbəb olmuşdur.

Milli Məclis 2004-cü ildə icra olunmuş dövlət büdcəsini müzakirə etmişdir. Dövlət büdcəsinin gəlir hissəsi 2004-cü ildə təsdiq olunandan artıq yerinə yetirilmiş və sərbəst büdcə qalığı 2005-ci il yanvarın 1-nə 300 milyard manat oldmuşdur. 2004-cü ildə görülmüş işlər 2005-ci ildə daha sürətli inkişafı təmin etməyə şərait yaratmışdır.

2005-ci ilin yanvar-may ayları ərzində mənfəət vergisindən 560,6 milyard manata qarşı 719 milyard manat, yəni **158,3 milyard manat** artıq büdcə daxilolmaları təmin edilmişdir.

2005-ci ilin beş ay ərzində fiziki şəxslərin gəlir vergisi 452,2 milyard manata qarşı 604,5 milyard manat, **yəni 152,3 milyard manat** artıq icra olunmuşdur.

2005-ci ilin beş ay ərzində dövlət rüsumu 48,7 milyard manat əvəzinə 67,3 milyard manat, **yəni 18,5 milyard** manat artıq yığılmışdır.

**Yalnız 3 vergi növündən 2005-ci ilin 5 ayında nəzərdə tu-**

**tulduğundan 329,1 milyard manat çox büdcə daxilolmaları təmin olunmuşdur.**

Əlavə dəyər vergisi təsdiq olunandan az, bəzi vergilərin isə təsdiq olunandan çox yığılması bir-birini demək olar ki, əvəzləmişdir.

**2005-ci il dövlət büdcəsinin gəlirlərinin artımı onun xərclərini də artırmağa şərait yaradır.** 2005-ci ildə dövlət büdcəsininin xərcləri 10.001 milyard manat təsdiq olunmuşdu. Hazırki dəyişikliklərdə dövlət büdcəsi xərclərinin 11.016 milyard manata çatdırılmasını, yəni 1.015 milyard manat artırılmasını nəzərdə tutur.

Xərclər:

1. Elmlər Akademiyasının xərcləri 5,6 milyard manat (inventar və avadanlıqlar alınması, təmiri xərclərinin ödənilməsi);
2. Müdafiə Nazirliyi—275 milyard manat;
3. DİN Daxili Qoşunları Baş İdarəsi 6,4 milyard manat;
4. Təhsil xərcləri 17 midlyard manat (tələbələrin təqaüdünün artırılmasına)
5. Səhiyyə xərclərinin 11,5 milyard manat (böyrək xəstələri üçün 10 milyard manat dava-dərman alınmasına), təcili yardım Nəqliyyat xidmətləri haqqının ödənilməsi 1,5 milyard;
6. Sosial müdafiə xərcləri (60 illik qələbə üzrə 11 milyard manat), dövlət sosial müdafiə fonduna verilən transfertlər (təbii qazın qiymətinin yüksəlməsinə görə kompensasiya -15 milyard manat);
7. Sosial təminat xərcləri – 10 milyard manat (təbii qazın qiymətinin yüksəldilməsinə görə verilən kompensasiya), fərdi təqaüdlərin ödənilməsi 4 milyard manat;
8. Azərbaycan İctimai Televiziyası və Radio Yayımları Şirkətinə 5 milyard manat;
9. Bədən tərbiyəsi və gənclər siyasəti tədbirlərinə 5,1 milyard manat;
10. **Dövlət əsaslı vəsait qoyuluşu (dövlət investisiya qoyuluşuna) 170 milyard manat;**



11. Bakı Metropoliteninə zərərin ödənilməsi üçün 10 milyard manat;
12. Dövlət daxili borcunun ödənilməsinə 30 milyard manat;
13. **Əmək haqqının artımı 122,4 milard manat (minimum əmək haqqı 150 min manata qaldırılacaq və bu büdcə təşkilatlarında çalışan 537 min nəfərə şamil olunacaqdır).**
14. Xalq və Əməkdar Elm Xadimləri üçün əlavələr 1,9 milyard manat
15. Sair xərclər 0,8 milyard manat;

**Bundan əlavə Vergilər Nazirliyinin əmək haqqı xərcləri 5,7 milyard manat azaldılacaqdır. Bu məbləğin Nazirliyin «Maddi həvəsləndirmə və inkişaf fondu»nun vəsaitləri hesabına ödənilməsi nəzərdə tutulur.**

**Milli Məclisə «Dövlət qulluqçularının pensiya təminatı haqqında» Azərbaycan Respublikası Qanununa dəyişikliklər və əlavələr edilməsi haqqında müraciətlər daxil olmuşdur. Bu qəbildən olanlar cəmisi 200-300 nəfərdir. Onların nəzərə alınması məqsədəuyğun hesab edirik.**

**Dövlət büdcəsi kəsiri:**

**2005-ci il dövlət büdcəsi kəsirinin yuxarı həddi 579 milyard manat təsdiq edildiyi halda, dəyişikliklərdə kəsirin yuxarı həddini əlavə olaraq 215 milyard manat artırmaq təklif olunur. Beləliklə, 2005-ci ilin dövlət büdcəsində kəsirin yuxarı həddinin 794 milyard manata yüksəldilməsi nəzərdə tutulur.**

**Kəsirin örtülmə mənbələri:**

**Özəlləşdirmədən daxilolmalar – 190 milyard manat;**

**Qısamüddətli xəzinə öhdəlikləri buraxılışından – 200 milyard manat;**

**Dövlət daxili uduşlu istiqrazları buraxılışından -5,6 milyard manat;**

**2005-ci il yanvarın 1-nə sərbəst büdcə qalığı -300 milyard manat; Daxili mənbələr 695,6 milyard manat + xarici mənbə - SAK krediti – 98,4 milyard manat= 794 milyard manat.**

### 6.2. Yerli istehsalın stimullaşdırılması: problemlər və perspektivlər

Yerli istehsalın inkişafı təkcə iqtisadi məsələ deyildir. O həmçinin ciddi sosial, siyasi və strateji əhəmiyyətə malik, ölkənin milli və iqtisadi təhlükəsizliyini təmin etməyin vacib şərtidir.

Qeyd edilməlidir ki, 2001-ci ildə ixracın 91,4 faizi mineral məhsullar, o cümlədən 90,8 faizini neft və neft emalı məhsulları təşkil etmişdir. 2005-ci il yanvarın 1-nə olan məlumata görə uzaq xarici dövlətlərə ixrac olunan malların 92,3 faizi mineral məhsullar, 3,1 faizi az qiymətli metallar və onlardan hazırlanmış məmulatlar, 1,7 faizi polimetal materiallar, 0,9 faizi ərzaq məhsulları, 0,7 faizi toxuculuq materialları və məmulatları, 0,6 faizi kimya sənayesi məhsulları, 0,4 faizi maşın və mexanizmlər, elektrotexniki avadanlıqlar təşkil etmişdir. Müqayisə göstərir ki, biz xammal ixracatçısıyıq. İxracatımızın 90-95 faizə qədərini xammal təşkil edir. Bunun nə demək olduğunu iqtisadçılar yaxşı bilirlər. Nə etməli? Hər bir regionun resursları təsərrüfatçılıq dövriyyəsinə cəlb edilməlidir. Rəqabət qabiliyyətli, ixrac yönümlü yerli istehsalın inkişafı üçün təxirəsalınmaz tədbirlər görülməlidir.

Hər bir rayonda emal sənayesinin inkişafına stimullaşdırıcı tədbirlər görülməlidir. Bütün bunların dövlət tərəfindən ediləcəyini gözləmək yanlışlıq olardı.

Dövlətin işi sosial-siyasi stabilliyi təmin etmək, istehsal və sosial infrastruktur sahələrinin inkişafını təmin etmək, iqtisadi subyektlərin fəaliyyət qaydaları, prinsipləri və normalarını müəyyən etmək bir sözlə obyektiv arbitr rolunu oynamaqdır. Dövlət həmçinin iqtisadi siyasət komponentləri sistemi ilə - vergi siyasətilə, kredit, faiz, qiymət, tarif, gömrük və s. siyasətilə investisiya qoyuluşlarını stimullaşdırmalıdır.

Müstəqillik illərində bu sahədə xeyli iş görülmüşdür. Lakin görüləsi işlər daha çoxdur.

Keçid dövrünün əvvəllərində idarəetmə orqanlarının strukturu qoşalaşırdı. Dövlət idarəetmə strukturları və bazar münasibətlərini



ehtiva edən strukturlar yanaşı mövcud idi. Bir tərəfdən iqtisadi inkişaf idarəetmənin demokratik prinsiplərinə əsaslanır, digər tərəfdən isə bazar iqtisadiyyatı kortəbiiliyi dövlət tənzimlənməsi ilə tamamlanırdı. Dövlətin başlıca funksiyası bazar iqtisadiyyatının mahiyyətindən irəli gələn iqtisadi sərbəstliyin hədlərini müəyyən etmək, bütün iqtisadi subyektlər üçün icbari olan «oyun qaydalarını» formalaşdırmaqdan ibarət idi. Hamının iqtisadi fəaliyyəti üçün ümumi qaydalar, prinsiplər yalnız dövlət tərəfindən müəyyən edilə bilərdi.

Dövlətin funksiyası təkcə bu prinsipləri və qaydaları müəyyən etməklə bitməməlidir. Prinsiplər və qaydalar dövlətin qəbul etdiyi qanunlarda öz əksini tapır. Lakin ən mükəmməl qanun belə avtomat reallaşma xassəsinə malik deyildir. Qanunlardakı müddəaların icrası təmin olunmalıdır. İcra olunmayan qanunlar qəbul etməkdənsə, onu qəbul etməmək daha sərfəlidir. Əməl olunmayan qanunlar qəbul etmək xeyirdən çox zərər gətirir, cəmiyyətdə neqativ münasibətlər formalaşdırır. O, əhali kütləsində inamsızlıq, qanunlara etinasızlıq əhval-ruhiyyəsi formalaşdırır.

İqtisadi həyatın bütün sahələrində qanunlara əməl olunmalıdır. Bu qanunlarda müəyyən olunmuş prinsiplərə və qaydalara əməl olunduqda baş verir. Qanunların aliliyi təmin olunmalıdır. Yəni qanun çərçivəsində işləmək, qanunlara əməl etmək, hər bir iqtisadi subyektin, hər bir iş adamının, ayrılıqda götürülmüş hər bir vətəndaşın gündəlik fəaliyyətinin normasına çevrilməlidir. Dövlət burada obyektiv arbitr rolunu oynamalıdır.

Bazar iqtisadiyyatı münasibətləri ilə dövlət tənzimlənməsi arasında balans təmin olunmalıdır. Burada sahə maraqları prinsipinin ümumi maraqlarla uzlaşmasını təmin edən sistemli tədbirlər həyata keçirilməlidir.

Bazar iqtisadiyyatının perspektivini, həmin münasibətlərin əsaslandığı özünü tənzimetmə alətlərinin roluna deyil dövlətin iqtisadi tənzimçilik funksiyalarının güclənməsi bazasında təmin edilməlidir. Bizi sosial-iqtisadi həyatın müxtəlif sahələrində və proseslərində baş verən liberallaşdırmalar və demokratikləşmələr

deyil, biz həmin prosesləri idarə etməliyik.

Yerli istehsalın inkişafına nail olmadan işsizlik problemini həll etmək, kreditlərə faiz dərəcəsini aşağı salmaq, vergilərin, gömrük rüsumlarının müəyyən olunduğu səviyyədə yığılmasını təmin etmək, dövlət büdcəsinin gəlirlərində radikal artımı, büdcədə profisit yaranmasını təmin etmək mümkün deyil. Ona görə də ləngimədən yerli istehsalın inkişafını stimullaşdıran radikal tədbirlər görülməlidir.

**Konstruktiv struktur siyasəti yeridilməsi və onun icrasının təmin olunması, daxili investisiya fəallığının, xarici investisiya qoyuluşu təşviqinin stimullaşdırılması, vergi və gömrük tənzimlənməsinin gücləndirilməsi, sağlam rəqabətə meydan açılması, haqsız rəqabətin qarşısının alınması, təbii inhisar subyektləri məhsullarının qiymətlərinə və onların göstərdikləri xidmətlərin tariflərinə iqtisadi metodlarla nəzarətin təmin edilməsi üçün radikal tədbirlər görülməlidir.**

Real iqtisadiyyatın bütün sahələri möhkəm milli valyutaya möhtacdır. Manatın kursu maliyyə alverçilərinin tələbatının ödənilməsinə deyil, real iqtisadiyyatın inkişafının stimullaşdırılmasına yönəlməlidir. Bu vəzifə ciddi bank islahatları aparmadan, hesablaşma sistemini təkmilləşdirmədən, əmanətlərinn və depozitlərin sığortalanmasını təmin etmədən mümkün deyil.

Vergi Məcəlləsində göstərilən müddəalar və prinsiplər, vergilərin dərəcələrinin sistemlə aşağı salınmasını davam etdirmək, müəssisələrin maliyyə vəziyyətinin daha da sağlamlaşmasına və ölkədə tədiyyə qabiliyyətli tələbatın yüksəlməsinə təsir edir.

Dövlət siyasətinin ağırlıq mərkəzini maliyyə sektorundan real iqtisadiyyat sahələrinin inkişafına keçirməklə yanaşı, bu sektorda radikal struktur islahatlarının aparılması sürətləndirilməlidir. Ölkədə struktur islahatları aparıldıqca onun aktuallığı daha da artacaqdır. Burada ixracat sahələrinin, istehlak malları istehsalının, elmi-texniki tərəqqinin son nailiyyətlərinə əsaslanan yüksək texnoloji sistemə malik sahələrin inkişafı üçün tədbirlər görülməsi müstəsna əhəmiyyətə malik olacaqdır.



Yaponiyanın, Çinin, Cənubi Koreyanın, Sinqapurun təcrübəsi ixracatı artırmağı ümummilli vəzifələrin prioritetinə çevirmiş, iqtisadi möcüzə yaratmağın əsasını təşkil etmişdir. Bu artıq təcrübədə sübut olunmuş yoldur.

İstehsalın inkişafında ən çətin problemlərdən biri maliyyə vəsaitinin olmaması və ya çatışmamasıdır. Burada Milli Bank real iqtisadiyyatın kreditə ehtiyacının ödənilməsində müstəsna rol oynaya bilər. O kommersiya banklarına real iqtisadiyyat üçün məqsədli kreditlər verə bilər və onların təyinatı üzrə istifadəsini təmin etmək üçün nəzarəti həyata keçirə bilər.

Bu günkü reallıq göstərir ki, xammal, onun ilkin və təkrar emalı məhsullarının ixracını artırmaq iqtisadi yüksəlişi təmin etməyin ən vacib vasitəsidir. Dünyanın bir sıra ölkələri - Norveç, Böyük Britaniya, Kanada, - ÜDM istehsalı artımını əsasən xammal (neft) ixracı hesabına təmin edir.

Müəssisələrin rəqabət aparma qabiliyyətini artırmağın vacib şərtlərindən biri istehsal xərclərini azaltmaqdır. Azərbaycan müəssisələrinin əksəriyyətinə azacıq əməliyyat strukturu, lakin idarəçilik və inzibatçılıq xərclərinin yüksək səviyyəsi səciyyəvidir. Ən ağrılı problemlərdən biri 30-50 faizə çatan zəruri həddən çox olan işçilərin ixtisarıdır. Burada müəssisənin rəqabət qabiliyyətliliyi, məşğulluğun təmin edilməsi dilemmasının həlli çox vacibdir.

İşsizlik problemi yaranmasının qarşısı yalnız istehsalın inkişafı, yeni istehsal sahələrinin yaradılması hesabına həll edilə bilər. Burada iri miqyaslı dövlət köməyi olmadan keçinmək, sadəcə olaraq, mümkün deyildir.

İstehsalı stimullaşdırmaqla tədiyyə qabiliyyətli tələbatın birgə artımı təmin edilməlidir. Maliyyə bölməsini spekulyativ əməliyyatlardan azad etmək, real iqtisadiyyata xidmətə istiqamətləndirməklə praktiki əhəmiyyətli nailiyyət qazanmaq mümkündür.

Azərbaycan banklarının və eləcə də Azərbaycanda fəaliyyət göstərən xarici və müştərək bankların fəaliyyətini real iqtisadiyyatın problemlərinin həllinə yönəltmək, milli istehsala himayədarlığı gücləndirməyin prioritet sahəsinə çevirməyi tələb edir.

Bazar iqtisadiyyatında dövlətin tənzimçiliyinin gücləndirilməsi, bu münasibətlərdən irəli gələn «oyun qaydalarına» hamının riayət etməsini təmin edən arbitr rolunu oynaması.

Bazar münasibətləri ilə dövlət tənzimlənməsi arasında balansın, sahə maraqları prinsipinin ümumi maraqlarla uzlaşmasının təmin edilməsi. Liberal-monetarist metodla bazar iqtisadiyyatı yaratmağın qeyri-mümkünlüyünü hamımız dərk etməliyik. Pul, əmtəə, iş qüvvəsi bazarının təkcə liberal-monetarist metodla formalaşdırmaq cəhdlərinin real iqtisadiyyatı bazar münasibətlərinin autsayderinə çevirdiyinə dünya təcrübəsi sübutdur. Bu siyasətin nəticəsi - iqtisadiyyatın maliyyə və real sektorlarının təcrid olunmuş fəaliyyətini şərtləndirir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanın tərəqqisi, hərtərəfli inkişafı naminə həyata keçirdiyi siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan iqtisadiyyatının sürətli inkişafı ölkə vətəndaşlarının sosial rifah halının daha da yaxşılaşdırılması, regionların sosial-iqtisadi cəhətdən inkişaf etdirilməsinə yönəlmiş Dövlət Proqramının qəbul edilməsi də bu siyasi kursun əsasını təşkil edir. Dövlət Proqramının qəbul edilməsindən ötən bir il ərzində respublika ərazisində aparılan ardıcıl işlər müsbət nəticələr vermişdir.

Azərbaycan Prezidentinin təsdiq etdiyi regionların sosial-iqtisiadi inkişafına dair Dövlət Proqramı fundamental əhəmiyyətə malik mükəmməl sənəd olmaqla regionların bərabər inkişafını təmin edir. Bu mühüm sənəd nəinki ölkə ictimaiyyəti , eləcə də beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Proqramın qəbul edilməsindən keçən müddət ərzində regionların inkişafında nəzərəçarpacaq meyillər müşahidə olunur. Rayonlarda yeni istehsal müəssisələri açılması, infrastruktur təminatının və kommunal xidmətlərin yaxşılaşdırlıması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı mühüm tədbirlər görülmüşdür. Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı müasir mərhələdə ölkənin sosial-iqtisadi inkişafının bütöv bir konsepsiyasını təşkil edir. Təsadüfi deyil ki, qısa müddət ərzində iqtisadiyyatımızda əldə edilən yüksək nəticələr Azərbaycanın inkişaf etməkdə olan ölkələrin ön sırasına keçməsinə şərait yaradıb. Bunu 2004-cü ilin makroiqtisadi inkişaf parametrləri bir daha sübut edir.



Ötən il ÜDM-in artımı 10,2 faizə çatmışdır ki, bu da MDB regionunda ən yüksək inkişaf tempidir. Əhalinin pul gəlirləri də 20,7 faiz artmışdır. Məhz bu parametrlər və onların növbəti ildə nəzərdə tutulan daha sürətli artımı ölkənin əhalisinin aztəminatlı təbəqəsinin sosial müdafiəsinin daha da gücləndirilməsinə imkanlar yaradır.

**Azərbaycan Prezidenti cənab İlham Əliyev bildirib: «Hesab edirəm ki, 2005-ci il Azərbaycanın ümumiyyətlə inkişafı üçün çox vacib və önəmli il olacaqdır. Heydər Əliyevin neft strategiyasının əsasını təşkil edən 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri işə düşəcəkdir. Bu, bütövlükdə regionda həm iqtisadi, həm siyasi, həm də bütün başqa məsələlərə çox ciddi təsir göstərəcəkdir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasının uğurla davam etdirilməsi bizim qarşımızda duran ən başlıca məsələlərdən biridir. Çox şadam ki, Azərbaycanın rəhbərliyi xarici dövlətlərlə, xarici investorlarla birlikdə öz üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirib və layihə uğurla icra edilir.**

**2005-ci ildə iqtisadiyyatımızın inkişaf istiqamətində çox vacib addımlar atılmalıdır. Regional inkişaf proqramının icrası davam etdirilməlidir, digər proqramlar öz həllini tapmalıdır. İnfrastruktur layihələri daha da sürətlə həyata keçiriləcəkdir. Azərbaycanı hərtərəfli, dinamik şəkildə inkişaf etdirmək üçün bütün amillərdən maksimum səmərəli istifadə olunmalıdır. İlk növbədə, istehsal və sosial infrastruktur sahələrinin inkişafı təmin etməlidir. Bu baxımdan 2005-ci ildə görüləcək işlər bizə infrastrukturu inkişaf etdirmək imkanı verəcəkdir: yollar çəkilməli, yeni elektrik stansiyaların tikintisinə başlanmalı, digər infrastruktur layihələri öz həllini tapmalıdır.**

**2004-cü ildə iqtisadiyyatda baş verən müsbət meyillər daha da güclənmişdir. Aparılan məqsədyönlü tədbirlər nəticəsində**

**150 mindən artıq yeni iş yeri açıldı.**

Artıq əminliklə qeyd etmək olar ki, beş il ərzində Dövlət Proqramının belə uğurla həyata keçirilməsi 600 mindən də artıq yeni iş yerlərinin yaradılmasına gətirib çıxaracaqdır. Regionlarda sahibkarlığın inkişaf etdirilməsi və dövlətimizin bu sahəyə xüsusi diqqətinin nəticəsidir. Bununla yanaşı, yeni istehsal və sosial infrastruktur sahələri gündən-günə artmaqdadır. Sahibkarlığın daha da inkişaf etdirilməsi, iş adamları üçün əlverişli şəraitin mövcudluğu ötən bir ildə bölgələrdə çoxsaylı müəssisələrin istifadəyə verilməsinə gətirib çıxarmışdır.

Bölgələrdə çoxdan fəaliyyətini dayandırmış bir sıra müəssisələr öz işlərini bərpa etmişdir. Yeni istifadəyə verilən müəssisələrdə əsasən yüngül, yeyinti və sənaye məhsulları istehsal olunur.

## 6.3. Vergi siyasətinin təkmilləşdirilməsinin əsas istiqamətləri

Ümummilli liderimiz Heydər Əliyevin strateji xəttinin ardıcıl olaraq yerinə yetirilməsi öz müsbət nəticələrini verir. Bu gün iqtisadiyyatın bütün sahələrində yaranmış dinamik inkişaf, makroiqtisadi göstəricilərin ildən-ilə yüksəlməsi, əlverişli biznes mühitinin yaradılması, kiçik və orta sahibkarlıq zümrəsinin sürətli inkişafının başlanması, dövlət büdcəsinə daxilolmaların ildən-ilə artması dahi öndərin rəhbərliyi altında başlanmış iqtisadi islahatların bəhrəsidir.

İslahatların tərkib hissəsi olan Azərbaycanın vergi sistemində son 5 il çox mühüm bir dövr olmuşdur. 1990-cı illərin əvvəllərində formalaşmış təşkilat-idarəetmə mexanizmləri uzun müddət işləyə bilməzdi. Çünki o vaxt profesionallıqdan kənar formalaşmış vergi xidməti əvvəlki sistemin təkrarı idi. Yeni iqtisadi sistem əvvəlki, köhnəlmiş təsərrüfatçılıq metodları ilə idarə oluna bilməzdi.

Respublikamızın vergi xidməti sistemində 1999-cu ildən başlayaraq əsaslı islahatlar həyata keçirilməyə başlanmışdır. Son bir neçə ildə vergi xidmətinin yenidən qurulması daha miqyaslı, radikal və fəal şəkildə aparılmaqdadır.



Bu islahatlar ümummilli liderin tövsiyələri əsasında hazırlanmış vergi xidmətinin kompleks islahatlarının müfəssəl strateji planına əsaslanır. Hələ 1999-cu ildə bu strategiyanı qəbul edərkən biz dünya standartlarına cavab verən yeni qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi, vergi inzibatçılığının modernləşdirilməsi, təkmil kadr siyasətinin yeridilməsi, vergilərin dövlət büdcəsinə tam və vaxtında köçürülməsi sahəsində tədbirlər proqramının həyata keçirilməsini nəzərdə tuturduq.

Vergi xidmətində əsaslı dəyişikliklərə gətirə biləcək bu islahatlar proqramı müvafiq siyasi dəstək olmadan reallaşdırıla bilməzdi.

Ümummilli liderimiz Heydər Əliyevin 11 fevral 2000-ci il tarixli fərmanı ilə bu dəstək yarandı. Heydər Əliyev 11 fevral 2000-ci ildə Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Vergilər Nazirliyinin yaradılması haqqında fərman verdi. Beləliklə dövlətin vergi siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı - Vergilər Nazirliyi yarandı.

Vergilər Nazirliyinin yaradılması vergi xidmətinin elmi-texniki və metodiki səviyyəsini yüksəltmək, vergi ödəyicilərinin qanuni hüquqları və mənafelərini qorumaq, büdcə daxilolmalarının hesablanması və ödənilməsində daha operativ fəaliyyət göstərmək imkanları yaratdı.

İndi inamla demək olar ki, Vergilər Nazirliyi yaranandan keçən 5 il ərzində məhz bu dəstəyə arxalanaraq vergi xidmətində miqyaslarına görə qlobal hesab edilə biləcək əsaslı dəyişikliklər yaradılması təmin edildi.

Milli Məclisin müvafiq komissiyaları və Vergilər Nazirliyinin, beynəlxalq maliyyə qurumları, yerli və xarici iş adamları, mütəxəssislərin iki illik gərgin zəhməti nəticəsində ölkədə vahid vergi qanunvericiliyi - Vergi Məcəlləsi hazırlandı. O, müvafiq müzakirələrdən sonra 2001-ci ildən qəbul olundu. Bu, çox mühüm

məsələ idi. Çünki islahatların uğurunu təmin etmək üçün ilk növbədə qanunvericilikdəki pərakəndəlik və ziddiyyətlər aradan qalxmalıydı. Vahid qanunvericilik həm də sabit vergi planlaşmasında mühüm rol oynayırdı. Beləliklə, Vergi Məcəlləsinin qəbul edilməsi ölkənin həyatında tarixi bir hadisə olaraq vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış ən başlıca addım oldu.

Vergi Məcəlləsi 221 maddəni və 4000-dək müddəanı özündə birləşdirir. O sadəcə olaraq, ayrı-ayrı vergilərə aid qanunların bir yerə toplanmasından, əgər belə demək mümkünsə bir sancaqla birləşdirilməsindən ibarət deyildir.

Vergi Məcəlləsində indiyədək dörd dəfə dəyişikliklər edilib. Bu dəyişikliklərdən biri haqqında daha ətraflı bəhs etmək istərdik.

Hər il Milli Məclisə təqdim edilmiş büdcə zərfində növbəti ildə yeridiləcək büdcə-vergi siyasətinin əsas istiqamətlərinə aid sənəd təqdim olunur. 2005-ci ildə büdcə-vergi siyasətinin əsas istiqamətləri dövlətin müəyyən etdiyi vəzifələrin yerinə yetirilməsinə yönəlmişdir. **O «2003-2005-ci illər üçün Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı», «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı (2004-2008)» və s. proqramlarının yerinə yetirilməsinə yönəlmişdir.**

Dövlət başçısının müəyyənləşdirdiyi iqtisadi siyasəti, 1) sahibkarlıq fəaliyyətinə əlverişli şərait yaratmaqla, 2) sosial və istehsal infrastruktur sahələrinin inkişafı və daha da genişlənməsinə, 3) yoxsulluğun azaldılmasına, 4) regionların dinamik inkişafının sürətlənməsinə, 5) dövlət gəlirləri və xərclərində şəffaflığın daha da artımına nail olmaqla, 6) maliyyə intizamının daha da möhkəmlənməsinə təsiri gücləndirməklə reallaşması təmin olunacaqdır.

**Ölkə Prezidenti büdcə gəlirlərinin artırılmasını başlıca şərt hesab edir. Çünki gəlirlər ilkin, xərclərsə törəmədir. Gəlirləri artırmaq üçün dövlət iqtisadiyyatın vergi yükünü artırmağa deyil, iqtisadi artım tempini sürətləndirməyə çalışır. Fikrimizcə, bu doğru prinsipdir.**



**Vergi, təkcə büdcə gəlirlərini mexaniki olaraq təmin etmək və artırmaq vasitəsi deyildir. Vergi dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissəsidir.**

**Vergi siyasəti ilə dövlət ən azı 3 funksiyanın yerinə yetirilməsinə təsir edir:**

**1. yerli istehsalın inkişafını stimullaşdırmaq;**

**2. dövlət büdcəsinin gəlirlərini təmin etmək;**

**3. iqtisadi inkişafın sahələrarası tarazlaşmasını təmin etmək (müəyyən sahənin inkişafına antistimul yaratmaq, digər sahənin isə üstün inkişafına nail olmaq).**

**Hər ilin büdcə zərfində Milli Məclisə göndərilən sənədlər arasında, dövlət büdcəsi ilə yanaşı, növbəti maliyyə ilində büdcə-vergi siyasətinin başlıca istiqamətləri barədə də sənəd olur. Orada vergi sahəsində yeni maliyyə ilində həyata keçiriləcək tədbirlər öz əksini tapır.**

**2003-cü ilin büdcə zərfində vergi siyasətinin təkmilləşdirilməsi istiqamətində ciddi tədbirlər nəzərdə tutulmuşdur. Bu tədbirlər regionların iqtisadi inkişafını sürətləndirmək və gələcəkdə vergi bazasını əhəmiyyətli dərəcədə artırmağı nəzərdə tutur.**

**2003-cü ildə vergi siyasətində dəyişikliklərin üç istiqamətdə aparılması məqsədəmüvafiq hesab olunmuşdur:**

**1) vergi dərəcəsini aşağı salmaq;**

**2) regionlar üzrə diferensial vergi dərəcələrini tətbiq etmək;**

**3) sahələr üzrə diferensial vergi dərəcələrini tətbiq etmək.**

**1) 2003-cü ildən mənfəət vergisinin dərəcəsi 2 faiz aşağı salınaraq 25 faizə endirilir. Bu, büdcə gəlirlərinin bir başa 60 milyard manatdan çox azalmasına səbəb olsa da dövlət bu addımı atmağı məqsədəuyğun hesab edir. Məsələ təkcə mənfəət vergisinin dərəcəsinin azalması ilə bitmir. Başlıca cəhətlərdən biri mənfəət vergisinin dərəcələrinin respublikanın regionları üzrə diferensial müəyyən edilməsidir. Həm istehsal sahələri, həm də regionlar üzrə mənfəət vergisinin dərəcəsini diferensial müəyyən etmək nəzərdə tutulur.**

Respublikanın dağlıq rayonlarında mənfəət vergisi 25 faizlə deyil 10 faizlə hesablanacaqdır. Dağ rayonlarının siyahısı isə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Mənfəət vergisi turizm fəaliyyətində 20 faizlə, misgərlik, bağçılıq-bostançılıq və xalq sənətkarlığı, əllə xalça toxunması, ağac materiallarından məişət alətlərinin hazırlanması sahəsində fəaliyyət isə 10 faizlə ödəniləcəkdir.

Bu vergi güzəştlərindən vergi ödəyiciləri o vaxt istifadə edə bilər ki, onların birinci istehsal sahələri, ikinci daşınmaz əmlakı və üçüncü istifadə etdiyi işçi qüvvəsi güzəşt verilən ərazilərdə fəaliyyət göstərmiş olsun.

Güzəşt hüququ olan müəssisənin güzəşt şamil edilən mənfəətdən başqa digər fəaliyyəti də olduqda onun güzəştə düşən və güzəşt hüququ olmayan fəaliyyət növləri üzrə vergi uçotu ayrı-ayrılıqda aparılacaqdır. Əks halda, güzəşt tətbiq olunmayacaqdır.

2. 2002-ci ildə Qanunvericilik təşəbbüsünün subyektləri sadələşdirilmiş sistem üzrə vergiləri tamam çıxarmağa cəhd göstərdilər. Daha doğrusu 2002-ci ilin büdcə zərfindəki sənədlərdə sadələşdirlmiş sistem üzrə vergilər tamam çıxarılmışdı.

Milli Məclisdə müzakirə aparılarkən biz ona yol vermədik. Qanunvericilik təşəbbüsünün subyektlərini inandırdıq ki, bu vergi sisteminin qalması kiçik və orta sahibkarlığın inkişafı, regionlarda iqtisadi fəaliyyətin stimullaşdırılması, cəmiyyətdə orta təbəqənin formalaşması və s. üçün vacibdir.

Ölkə Prezidentinin 2002-ci ildə respublikamızda fəaliyyət göstərən xarici sahibkarlar və eləcə də yerli iş adamları ilə keçirdikləri görüşlərdən sonra vəziyyət xeyli dəyişildi. Ölkə Prezidentinin imzaladığı fərmanlar, xüsusilə «Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı dövlətin kiçik və orta sahibkarlığın inkişafına kömək göstərməsi üçün əlverişli zəmin yaratdı.



Sonra sadələşdirilmiş sistem üzrə vergidə yeni dəyişikliklərin edilməsi, bu verginin keyfiyyətcə bazar iqtisadiyyatı tələblərinə uyğunlaşdırılması üçün tədbirlər görüldü.

2002-ci ildə sadələşdirilmiş sistem üzrə vergilərdə rüblük dövriyyə 30 milyon manata endirilmişdi. Rüblük dövriyyəsi 30 milyon manatdan çox olduğundan kiçik və orta sahibkarların böyük əksəriyyəti sadələşdirilmiş sistemə aid olunmadı.

2003-cü ildə sadələşdirilmiş sistem üzrə vergilərin və onların dərəcəsinin müəyyən edilməsində xeyli dəyişikliklər edilməsi nəzərdə tutulmuşdur.

Birincisi, 2003-cü ildən sadələşdirilmiş sistem üzrə vergilərin tətbiq dairəsi genişləndirilir. O təkcə hüquqi şəxslərə deyil, eləcə də fiziki şəxslərə aid edilir.

İkincisi, rüblük dövriyyənin həcmi 30 milyon manatdan, 125 milyon manata çatdırmaq nəzərdə tutulur. Bu sadələşdirilmiş sistem üzrə vergi ödəyicilərinin sayının dəfələrlə artımına səbəb olacaqdır. Hesablamalara görə 2003-cü ildə vergi ödəyicilərinin 90 faizə qədəri sadələşdirilmiş sistemlə vergi ödəyənlər olacaqdır.

Üçüncüsü, sadələşdirilmiş sistem üzrə vergilərin diferensiallığı təmin edildi. Bakı şəhəri üzrə dövriyyədən 4 faizlə, respublikanın digər şəhər və regionları, o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə isə - 2 faizlə vergiyə cəlb etmək məqsədəuyğun hesab olundu.

Dördüncüsü, yük və sərnişin nəqliyyatında sadələşdirilmiş sistem üzrə vergilər 10 faiz dərəcəsi ilə ödənilməsi qərara alındı. Bu verginin ödəyiciləri rayonlarda qeydiyyatdan keçib Bakı şəhərində fəaliyyət göstərərlərsə, onda onlar Bakı şəhəri üzrə müəyyən olunmuş dərəcə ilə vergi ödəməli olacaqlar.

3. Sosial sığorta vergi deyil. Lakin o da sahibkarın, iş adamının ümumi gəlirindən tutulur. 2003-cü ilin büdcə zərfində sosial sığorta ödənişlərinin 29 faizdən 27 faizə endirilməsi nəzərdə tutulurdu. Milli Məclis bu dəyişiklikləri məqsədəuyğun hesab etdi. Onlar təbii ki, sosial sığorta ödənişlərindən daxilol-

maların müəyyən qədər azalmasına təsir edəcəkdir. Hesablamalar göstərir ki, 2 dərəcə azalma sosial sığorta ayırmalarından daxilolmaların 60 milyard manatdan çox azalması ilə nəticələnəcəkdir. Lakin o sosial sığorta ödəyicilərinin maliyyə vəziyyətinin bir qədər sağlamlaşmasına, sosial sığorta ödənişlərindən yayınmaların azalmasına, bu ödənişlərdən yığım əmsalının müəyyən qədər artmasına və müəssisələrin rəqabət qabiliyyətinin yüksəlməsinə təsir edə bilər.

Fikrimizcə, vergi siyasətində edilən dəyişikliklər sahibkarlıqla məşğul olanların fəaliyyət dairəsinin genişlənməsinə və vergi ödəyicilərinin sayının artmasına (vergi bazasının böyüməsinə), vergidən yayınma hallarının azalmasına, məşğulluq probleminin həllinə, ÜDM istehsalının artımına və xalqın rifahının yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir edə bilər.

İqtisadiyyatın vergi yükü (ən ümumi formada) büdcə gəlirlərinin ÜDM-ə nisbəti ilə müəyyən edilir. Bu səviyyə 2003-cü ilin dövlət büdcəsində 18,6 faizdir. Avropa ölkələrində bu nisbət 30-35 faiz təşkil edir. MDB ölkələrində də bu nisbətin respublikamızdan yüksək olduğu dövlətlər çoxdur. Gəlirlərin hesablama metodunda fərqlər olsa da, həqiqətən büdcə gəlirlərinin ÜDM-ə nisbət Avropa ölkələrində Azərbaycandan çox yüksəkdir.

Respublikamızda vergi bazasını genişləndirmək imkanlarından səmərəli istifadə edilməlidir. Burada ən əvvəl Maliyyə Nazirliyi fəallıq göstərməlidir.

Büdcənin icrasına cari nəzarəti Maliyyə Nazirliyi həyata keçirilir. Bu eyni dərəcədə gəlirlərə və xərclərə aiddir. Təcrübənin göstərdiyi kimi bir çox hallarda bu nazirlik büdcə gəlirlərinin formalaşmasına, büdcədən xərclərin aparılmasında problemlər, gərginliklər yarandıqda fikir verir. Bu onunla əsaslandırılır ki, Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi büdcə gəlirlərinin 80 faizindən çoxunu təmin edir. Büdcə gəlirlərini təmin etmək Vergilər Nazirliyinin və qismən də Dövlət Gömrük Komitəsinin birbaşa işi olsa da Maliyyə Nazirliyi



dövlət büdcəsi gəlirlərinin formalaşmasında fəallıq göstərməlidir.

Zəruri xərcləri maliyyələşdirmək üçün dövlət büdcəsində vəsait çatışmadıqda Maliyyə Nazirliyi qanunun ona verdiyi hüquqdan istifadə edərək qısa müddətli xəzinə öhdəlikləri buraxıb banklardan «borc» almaqla problemi həll edir. Bu dövlət büdcəsinin gəlirlərində yaranan problemləri həll etməyin ən asan yoludur. Həm də o təkcə asan yol deyil, orda başqa proseslər də olur. 2003-cü ildə bu məqsəd üçün dövlət büdcəsindən 40 milyard manat xərcləmək nəzərdə tutulmuşdur.

Xərclərin maliyyələşdirilməsi çətin deyildir. Büdcə gəlirlərinin bölüşdürülməsi, paylaşdırılması və maliyyələşdirmələrin aparılması, bu işin ən asanıdır. Başlıcası büdcə gəlirlərinin toplanmasını təmin etməkdir.

Fikrimizcə, dövlət büdcəsinin cari icrasına nəzarət edən Maliyyə Nazirliyi gəlirlərin formalaşmasını öz fəaliyyətində prioritet sahəyə çevirməlidir. Buna banklardan qısa müddətli xəzinə öhdəlikləri ilə 14-16 faizlə borc almaqla yox, gəlirlərin formalaşmasına ardıcıl və sistemli nəzarəti təmin etməklə nail olmaq lazımdır. Ən əvvəl ölkənin gəlirləri, büdcə daxilolmaları potensialı dürüst müəyyən edilməlidir.

Sosial-iqtisadi inkişaf proqnozları tərtib olunarkən ölkənin vergi və rüsum potensialı dürüst müəyyən edilməlidir. Bu dövlət büdcəsi gəlirlərinin dəqiq uçotunu aparmaq və onları büdcəyə cəlb etməyin ilkin və zəruri şərtidir.

Vergi bazasını genişləndirmək, yığım əmsalını artırmaq hesabına büdcə gəlirlərini əhəmiyyətli dərəcədə artırmaq mümkündür. Bu sahədə istifadə olunmalı ehtiyatlar kifayət qədərdir.

Biz regionlar və istehsal sahələri üzrə vergiqoymada iqtisadi cəhətdən əsaslandırılmış diferensiallaşmanı təmin etməyə, hər bir regionun vergi bazasını dürüst müəyyən etməyə, yığım əmsalını artırmağa çalışmalıyıq. Bunların xeyli hissəsi 2003-cü ilin dövlət büdcəsində öz əksini tapmışdır.

2003-cü ilin büdcə zərfində «Vergi Məcəlləsi»nə dəyişikliklər

və əlavələrə aid qanun layihəsi göndərilmişdi. Orada regionlar və sahələr üzrə mənfəət vergisinin, sadələşmiş verginin dərəcəsini diferensial müəyyən etmək təklif olunmuşdu.

**İqtisadi inkişafa təsir etməyin ən təsirli vasitələrindən biri olan vergidən bir alət kimi istifadə etmək qanunun mahiyyətini təşkil edir. Milli Məclis qanun layihəsini ətraflı müzakirə etdi və orada 45-dən çox düzəlişlər apardıqdan sonra onu qəbul etdi.**

**«Vergi Məcəlləsi»nə edilmiş bu dəyişikliklər və əlavələrin regionların iqtisadi inkişafını stimullaşdırmağa müsbət təsir edəcəyinə əminik. Biz eyni zamanda ona əminik ki, təkcə diferensial vergi dərəcələri tətbiq edib yalnız qanun qəbul etməklə avtomatik olaraq regionların inkişafına nail olmaq mümkün deyil.**

**Fikrimizcə, regionlarda paralel olaraq sosial və istehsal infrastruktur sahələrinin yaradıldığı, enerji daşıyıcıları ilə regionların fasiləsiz və davamlı təchiz edildiyi, kiçik və orta sahibkarların fəaliyyətinin pul-kredit siyasəti ilə dəstəkləndiyi şəraitdə, diferensial vergi siyasəti iqtisadi artıma təsir edə bilər.** Əks təqdirdə regionlar və sahələr üzrə vergi dərəcələrindəki fərqlər büdcə daxilolmaları potensialının bir hissəsinin havaya sovrulması olacaqdır. Ona görə dövlət diferensial vergi siyasətinə iqtisadi siyasətin digər komponentlərinin birgə, paralel təsirini təmin etmək imkanlarını götür-qoy etməlidir. Burada müvafiq icra hakimiyyəti strukturlarının, ən əvvəl iqtisadiyyatın cari vəziyyəti və operativ idarə olunmasına məsul orqanların sistemli, koordinasiya olunmuş fəaliyyəti gərəkdir.

Biz bu strukturların nəzərinə çatdırırıq ki, əgər qeyd olunan tədbirlərin paralel, sistemli tətbiqini təmin etmək mümkün olmasa, onda diferensial vergi siyasətinin iflasa uğrayacağına şübhə edilməməlidir.

**2005-ci ilin büdcə-vergi siyasəti, vergi dərəcələrini aşağı salmaq, iqtisadiyyatın vergi yükünü daha da azaltmaqla yığım əmsalını artırmağı nəzərdə tutur. Vergi bazasını genişləndirməklə**



**büdcə gəlirlərini artırmaq bu siyasətin məğzini təşkil edir. Növbəti ildə büdcə-vergi siyasəti büdcə xərclərinin şəffaflığını və səmərəliliyini yüksəltməyə, onun sosial və investisiya yönümlülüyü arasında optimal nisbəti təmin etməyə, yeni iş yerlərinin yaradılmasına, yoxsulluğun azaldılmasına, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair proqramların reallaşmasına maliyyə təminat yaratmağa yönəlmişdir.**

Büdcə-vergi siyasətinin mühüm cəhətlərindən biri büdcə kəsirinin ildən-ilə azaldılması, onun inflyasiya doğurmayan mənbələr hesabına örtülməsi üçün tədbirlər görməyi nəzərdə tutur.

**2005-ci ildə Vergi Məcəlləsinə 75 əlavə və dəyişikliklər təklif olunmuşdu. Onların yarısı (30-u) redaktə xarakterli dəyişikliklərdən ibarətdir. Əvvəlcə onu qeyd edək ki,** redaktə xarakterli düzəlişlər vergilərin hesablanması və ödənilməsi mexanizminə təsir etməyəcəkdir. Qeyd olunduğu kimi, bu düzəlişlər əsasən qanunvericilikdə dəqiqlik yaradılması, gələcəkdə Məcəllənin müddəalarının mütəxəssislər, o cümlədən vergi orqanlarının işçiləri və vergi ödəyiciləri tərəfindən müxtəlif mənalarda izah olunmasının qarşısının alınması məqsədini daşıyır.

Redaktə xarakterli dəyişikliklərin xeyli hissəsi anlayışlarla bağlıdır. Məcəllənin 14-cü maddəsi anlayışlara aiddir Bu maddənin 1, 4, 10, 15-ci bəndlərində redaktə xarakterli dəyişikliklər anlayışların dürüstləşdirilməsinə, onların mənasının dəqiqləşdirilməsinə yönəlmişdir.

**Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin 13-ü vergi ödəyicilərinin hüquqları və mənafeyinin qorunması məqsədi ilə aparılmışdır. Onlara aşağıdakı dəyişiklikləri aid etmək olar:**

**1. 34.2-ci maddəyə edilən dəyişiklik vergi ödəyicilərinin vergi uçotuna durmağı sadələşdirmək məqsədi ilə edilmişdir.** Hazırda vergi ödəyicisinin uçota alınması müvafiq ərizə vergi orqanına təqdim olunduqdan sonrakı 10 gün müddətində həyata keçirilir. **Bu müddətin 3 gün azaldılması təklif olunur.** Digər tərəfdən vergi ödəyicilərinin uçota alınma prosedurunun sadələşdirilməsi nəzərdə tutulur. Bu, vergi orqanlarında yaradılması nəzərdə

tutulan yeni informasiya texnologiyaları sayəsində mümkün olacaqdır.

**2. Vergi Məcəlləsinin 34.3-cü maddəsinə edilən dəyişikliklə vergi ödəyicilərinin işi asanlaşdırılır.** Əgər indiyə kimi vergi ödəyicisinin iş və yaşayış yerinin ünvanı dəyişilirdisə o 15 gün ərzində yenidən uçota durmalı idi. Bu dəyişiklik qəbul olunandan sonra vergi ödəyicisi öz ünvanlarında olan dəyişiklik haqqında vergi orqanına 15 gün ərzində məlumat verməklə kifayətlənir. Bu vergi inzibatçılığının səmərəliliyinin artırılması istiqamətində atılan addımlardan biridir.

**3. Məcəllənin 63.1-ci maddəsində vergi ödəyicisinin şikayətinə 30 gün müddətinə baxılması və qəbul edilmiş qərar barəsində 10 gün ərzində cavab verilməsi nəzərdə tutulduğu halda, təklif olunan dəyişikliklərdə vergi ödəyicisinin şikayətinə dərhal cavab verilməsi nəzərdə tutulmuşdur.**

**4.** Vergi Məcəlləsinin qüvvədə olan 87.2-ci maddəsinə əsasən vergilər, faizlər və maliyyə sanksiyaları üzrə artıq ödəmələrin digər vergilər, faizlər və maliyyə sanksiyaları üzrə olan borcları hesabına aid edilməsi və 3 gün müddətində vergi ödəyicisinə bildiriş göndərilməsi nəzərdə tutulmuşdur. Təklif olunan layihədə isə vergilər, faizlər və maliyyə sanksiyaları üzrə artıq ödəmələrin digər vergilər, faizlər və maliyyə sanksiyaları üzrə olan borclar hesabına aid edildiyi halda, istənilən vaxt vergi ödəyicisinin tələbi ilə ona şəxsi vərəqədən çıxarış və üzləşmə aktının verilməsi və rübdə bir dəfə rüb başa çatdıqdan sonra 20 gün müddətində vergi ödəyicisinə bildiriş göndərilməsi nəzərdə tutulmuşdur.

**5.** Vergi Məcəlləsinin qüvvədə olan 99.3.8-ci maddəsində vergi ödəyicisi olan fiziki şəxslərin aktivlərinin ilkin dəyərinin artan hissəsinin onun vergi tutulan gəlirinə aid edilməsi nəzərdə tutulmuşdur. Bu maddəyə təklif olunan dəyişiklikdə isə fiziki şəxslərin aktivlərinin ilkin dəyərinin artan hissəsinin yalnız bu aktivlər təqdim edildikdə və ya vergitutma məqsədləri üçün onlara amortizasiya hesablandığı halda, gəlirə aid edilməsini nəzərdə tutur.

**6.** Vergi Məcəlləsinin qüvvədə olan 101-ci maddəsində fiziki şəxslərin muzdlu işdən alınan aylıq əmək haqqı və sahibkarlıq fəaliyyətindən illik gəlirlərindən tutulan verginin dərəcələri müəyyən edilmişdir. Hazırda qüvvədə olan Vergi Məcəlləsində iki və ya daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən və vergi orqanlarında uçota alınmayan fiziki şəxslərə edilən hər hansı ödəmələrdən verginin tutulması qaydası müəyyən edilməmişdir.

Vergi Məcəlləsinin 101-ci maddəsinə təklif olunan dəyişiklik isə bu gəlirlərdən və ödəmələrdən Vergi Məcəlləsinin 101-ci maddəsi ilə müəyyən edilmiş dərəcələrlə verginin tutulmasını müəyyənləşdirir. Yəni **iki və daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanır və dövlət büdcəsinə ödənilir»** yazılmaqla iki və daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisinin hesablanması və büdcəyə köçürülməsində aydınlıq yaratmışdır. Bu təkcə aydınlıq deyildir. Burada 2 və daha çox yerdə muzdla işləyənlərin aylıq gəlirlərinin toplusuna deyil, hər bir iş yerindən aldığı gəlir ayrıca hesablanması və həmin məbləğə görə qanunda müəyyən olunmuş vergi dərəcəsi ilə vergiyə cəlb olunması qaydasına aydınlıq gətirilir.

Bu dəyişikliyin mənası dərindir. Məlum olduğu kimi aylıq gəlirin 150 min manata qədər olan hissəsi 0 faiz dərəcəsi ilə, 151 min manatdan 3 milyon manata qədər olan hissəsi 14 faiz dərəcəsi ilə, 3 milyon manat və ondan yuxarı olduqda 35 faiz dərəcəsi ilə vergiyə cəlb olunur. Aylıq toplam gəlirin vergiyə cəlb olunma dərəcəsi ilə aylıq gəlirin ayrı-ayrı hissələrinin vergiyə cəlb olunma dərəcələri bir-birindən fərqlənir. Ona görə də Vergi Məcəlləsinə edilən dəyişiklik vergi ödəyicilərinin xeyirinə olduğunu izah etməyə, fikrimizcə, lüzum yoxdur.

**Vergi Məcəlləsinə dəyişikliklərin 26-sı vergi inzibatçılığının səmərəliliyinin artırılması, 5-i vergidən yayınmaların qarşısının alınması, 1-i isə digər qanunvericilik aktlarında dəyişikliklərdən ibarətdir. Onlara misal:**

**1.** Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə, hasilatın pay bölgüsü, əsas ixrac boru kəməri haq-

qında və bu qəbildən olan digər sazişlər çərçivəsində fəaliyyət göstərən vergi ödəyiciləri tərəfindən vergi qanunvericiliyinin pozulması zamanı onların məsuliyyətə cəlb edilməsi bu sazişlərdə və Vergi Məcəlləsində nəzərdə tutulmadığından Vergi Məcəlləsinə 53.8-ci maddəsi əlavə edilmiş və göstərilən vergi ödəyiciləri tərəfindən hesabatların müəyyən edilmiş müddətlərdə təqdim edilməməsinə görə onların Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə müvafiq olaraq məsuliyyətə cəlb edilməsi nəzərdə tutulmuşdur.

**2.** Vergi Məcəlləsinin 99.3.8-ci və 124.2-ci maddələrinə edilən dəyişikliklə əlaqədar Məcəllənin 33.4-cü maddəsinə də müvafiq dəyişikliyin edilməsi təklif olunur. Bu dəyişikliklə əmlakın icarəyə verilməsindən gəlir əldə edən fiziki şəxslərin vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınmaması nəzərdə tutulmuşdur. Eyni zamanda Vergi Məcəlləsinin 149.1.4-cü maddəsinə ediləcək dəyişikliyə görə əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edən fiziki şəxslərin vergi orqanlarına bəyannamə təqdim etmələri nəzərdə tutulur. Bu barədə bir qədər sonra ətraflı məlumat veriləcək.

**3.** Vergidən yayınmanın qarşısının alınmasına yönələn dəyişiklər əsasən Vergi Məcəlləsinin vergi ödəyicilərinin uçotu, operativ vergi nəzarəti, ödəmə mənbəyində verginin tutulması qaydası və müəssisənin təqdim edilməsi ilə bağlı maddələrində edilmişdir.

Vergi Məcəlləsinin qüvvədə olan 160-cı maddəsinə əsasən müəssisədə müstəqil fəaliyyət göstərən bölmənin bütün aktivləri bir əməliyyat çərçivəsində təqdim edildikdə əlavə dəyər vergisi tutulan əməliyyat sayılmır. Təcrübədə vergi ödəyiciləri öz aktivlərini digər vergi ödəyicilərinə təqdim edir və bu əməliyyatlardan əlavə dəyər vergisini hesablamırlar. Təklif olunan layihədə Vergi Məcəlləsinin 160-cı maddəsindən **«müəssisədə müstəqil fəaliyyət göstərən bölmənin bütün aktivlərinin»** sözlərinin çıxarılması nəzərdə tutulmuşdur. Sözügedən dəyişiklik bu tipli vergidən yayınma hallarının qarşısını almağa şərait yaradacağı əsas götürülür.



Məlumdur ki, vergidən yayınmanın geniş yayılmış formalarından biri qanunvericilikdə olan boşluq və ziddiyyətlərdən istifadə etməklə vergidən yayınmadır. Belə halların qarşısının alınması üçün vergi qanunvericiliyinin tətbiqi prosesində vergi orqanları ilə vergi ödəyiciləri arasında mübahisəli məsələlər, məhkəmə işləri təhlil edilir. Vergi idarəçiliyinin mütəmadi olaraq təkmilləşdirilməsi də vergidən yayınmanın qarşısının alınması, vergi nəzarətinin səmərəliliyinin artırılmasında mühüm rol oynayır.

**4.** Hazırda vergi nəzarətinin səmərəliliyinin artırılması baxımından vergi orqanlarının qarşılaşdığı ən mühüm problemlərdən biri saxta vergi hesab-fakturalarının tətbiqi və hesablanmış ƏDV-nin büdcədən yayındırılmasıdır. İstər vergi qanunvericiliyində, istərsə də texniki baxımdan bir çox tədbirlər görülməsinə, təkmilləşdirilmələr aparılmasına baxmayaraq, təəssüflə qeyd etməliyəm ki, göstərilən qanun pozuntularına hələ də rast gəlinir.

Bununla əlaqədar olaraq əlavə və dəyişikliklərdə bank vasitəsilə hesablaşmaların ƏDV-nin ödənilməsini təsdiq edən sənədlər təqdim olunduqdan sonra aparılması nəzərdə tutulmuşdur.

**Məcəllədə edilmiş dəyişikliklərin bəzisinə komissiya düzəlişlər etmişdir. Onlar aşağıdakılardır:**

**1. 90. 3. 2-ci və 90 . 3. 3-cü maddələrində «məhkəmə icraçılarının» sözlərini «vergi orqanlarının» sözləri ilə əvəzlənməsi təklif olunurdu. Bu təklif Azərbaycan Respublikası Konstitusiyasının müddəaları ilə uzlaşmadığından biz bu dəyişikliyi məqbul hesab etmədik.**

**2. Məlum olduğu kimi, Vergi Məcəlləsinin qüvvədə olan 124.2-ci maddəsinə əsasən icarə haqqı və royalti formasında gəlir əldə edən fiziki şəxslərdən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur və onlar ilin yekununa görə bəyannamə təqdim etdikləri zaman mənbədən tutulan vergilər nəzərə alınmaqla onların ümumi gəlirlərinə yenidən vergi hesablanır. Təklif olunan layihədə isə Vergi Məcəlləsinin 124.2-ci maddəsi yeni redaksiyada verilməklə icarə haqqı və royaltidən gəlir əldə edən fiziki şəxslərdən ödəmə mənbəyində 14 faiz dərəcə ilə**

**vergi tutulduqdan sonra onların ümumi gəlirlərindən bir daha verginin tutulmaması göstərilir. Məcəllədə bu istiqamətdə dəyişiklik edilməsi vergi ödəyicilərinin xeyrinədir. O, digər tərəfdən vergilərin hesablanması və büdcəyə köçürülməsi prosesini xeyli sadələşdirir. Qeyd olunanları nəzərə alaraq, biz bu dəyişikliyi də məqbul hesab etdik.**

**3. «152.3.2 Maddəyə əsasən rüb başa çatdıqdan sonra 20 gün ərzində ödəmə mənbəyində tutulan vergilər barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada bəyannaməni vergi orqanına verməyə borcludurlar» maddəsindəki «rüb» sözünü «ay» sözü ilə əvəz etməyi komissiya məqbul hesab etmədi. Biz hesab edirik ki, hər aydan sonra bəyannamə doldurub vergi orqanına təqdim etmək kağız çoxluğu yaradar. Vergi ödəyiciləri hər ay bəyannaməni doldurmağa məcbur etmək çətinliklər yaradır. Bəyannamə gecikdirildikdə maliyyə sanksiyaları tətbiq olunur, bu isə vergi ödəyicilərinin yükünü ağırlaşdıra bilər. Bu uçot-hesabat işlərində də gərginlik yaradar. Ona görə də biz hazırki variantı müdafiə edir, dəyişiklik aparılmasını məqsədəuyğun hesab etmirik.**

**4. «154.1-ci maddədə «şəxs» sözündən sonra «(büdcə təşkilatları istisna olmaqla)» sözləri əlavə edilsin» təklifini də biz qəbul etmirik. Çünki bu müddəa Azərbaycan Respublikasının Konstitusiyasına ziddir. Konstitusiyaya əsasən dövlət, xüsusi və bələdiyyə mülkiyyəti bərabərdir, onların hamısı dövlət tərəfindən qorunur. Büdcə təşkilatlarını əlavə dəyər vergisindən azad etməyin özü də ƏDV-nin prinsiplərinə ziddir. O zəncirvarı sistemdən bir dairənin çıxarılmasıdır. Fikrimizcə, ona yol vermək olmaz.**

**Bu dəyişikliklərin hamısı qanunvericilik təşəbbüsünün subyekti ilə razılaşdırılmışdır.**

**Məcəllənin bəzi müddəalarında mübahisəli fikirlər qanunvericilik təşəbbüsünün subyekti ilə müzakirə olunmuş, lakin məcəllədə verilmiş variantı saxlamaq məqsədəuyğun hesab olunmuşdur.**



**1.** Vergi Məcəlləsinin qüvvədə olan bir sıra (197.1.2-ci, 198.3-cü, 199.6-cı, 200.7-ci və 201.8-ci) maddələri fiziki və hüquqi şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələrinə əmlak vergisinin hesablanmasını və ödənilməsini tənzimləyir. Təklif olunan layihədə sözügedən maddələr Vergi Məcəlləsindən çıxarılmış və mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan fiziki və hüquqi şəxslər əmlak vergisindən azad edilmişdir. Bunun əvəzində Vergi Məcəlləsinin 209-cu maddəsinə dəyişikliklər edilərək mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan fiziki və hüquqi şəxslərin yol vergisinə cəlb edilməsi nəzərdə tutulmuşdur.

Bu dəyişikliklə əlaqədar Ədliyyə Nazirliyindən Bələdiyyələrlə iş və bələdiyyələrə metodoloji yardım mərkəzinin rəisi Mehdi Səlimzadəninin imzası ilə məktub daxil olmuşdur. O, bu dəyişikliyin bələdiyyələrin büdcəsinə mənfi təsir edəcəyini və onların maliyyə vəziyyətinin pisləşməsinə səbəb olacağını nəzərə almağı xahiş edir. Bizim fikrimizdə belə olduğu üçün təklifi qəbul etmədik.

**2.** Vergi Məcəlləsinin 218.2-ci maddəsinə dəyişikliklə mülkiyyətində və ya istifadəsində olan, avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər sadələşdirilmiş vergi ödəyicilərinə aid edilmiş və təklif olunan 220-ci maddə ilə bu şəxslərə sadələşdirilmiş verginin hesablanması və ödənilməsi qaydası müəyyən edilmişdir.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan Respublikasının yeni inkişaf mərhələsinə keçidi təmin edilmiş, ölkəmizin demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatı yolu ilə irəliləməsinə geniş yol açılmışdır. Artıq əminliklə söyləmək olar ki, Azərbaycanda aparılan uğurlu iqtisadi islahatlar nəticəsində ölkə iqtisadiyyatının dinamik inkişafı təmin edilmiş və bu inkişaf özünü ölkəyə cəlb olunan investisiyaların həcmində, ümumi daxili məhsulun artım tempində, büdcə gəlirlərinin artmasında göstərir.

Dahi şəxsiyyət, müdrik siyasətçi Heydər Əliyevin layiqli da-

vamçısı cənab Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət ilk növbədə, ölkədə sosial-iqtisadi inkişafın və regional siyasətin gücləndirilməsi, sahibkarlığın dövlət himayəsinə götürülməsi, iş adamları üçün əlverişli şəraitin yaradılması, yeni iş yerlərinin açılması kimi mühüm həlqələri əhatə etməklə qlobal məqsədlərə xidmət edən iqtisadi strategiyanın reallaşdırılmasına zəmin yaratmışdır.

Bu iqtisadi strategiyanın tərkib hissəsi kimi vergi siyasəti vergi yükünün aşağı salınması hesabına vergitutma bazasının genişləndirilməsinə, iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılmasına, hüquqi şəxslərlə fərdi sahibkarlar, rezident və qeyri-rezident vergi ödəyiciləri arasında vergi yükünün bərabərləşdirilməsinə, sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli şəraitin yaradılmasına, son nəticədə mövcud iqtisadi potensialın səmərəli istifadəsinə və əhalinin maddi rifahının yüksəldilməsinə yönəldilmişdir.

Vergi ödəyicilərində vergi mədəniyyətini yüksəltmək məqsədilə vergi ödəyicilərinə xidmət yüksək səviyyədə təşkili olunur, məlumatlandırma və maarifləndirilmə tədbirlərinin keçirilməsi intensivləşdirilir.

Vergi ödəyicilərinin müraciətlərinin operativ cavablandırılması, vergi orqanlarına gəlmədən informasiya ala bilmələri üçün Vergilər Nazirliyi tərəfindən «195» nömrəli vahid telefon-məlumat xidməti yaradılmışdır. Bu telefon xidmətinin yaradılması MDB-də analoqu olmayan, vergi ödəyiciləri ilə operativ ünsiyyət baxımından çox faydalı və mütərəqqi hadisədir.

Bundan başqa, istənilən şəxs Vergilər Nazirliyinin rəsmi internet saytına daxil olaraq burada açılmış xüsusi bölmədə vergitutma ilə bağlı sualını, ona aydın olmayan məsələləri soruşmaq imkanına malikdir.

Vergi ödəyiciləri tərəfindən mövcud bəyannamələrin və vergi ödəyicilərinin uçotuna dair sənəd formalarının əldə edilməsi imkanlarını genişləndirmək məqsədilə onların elektron formaları hazırlanmış və internet saytında yerləşdirilmişdir.

Qeyd etmək lazımdır ki, Vergilər Nazirliyinin internet saytında vergi ödəyicilərinin Vergilər Naziri ilə birbaşa əlaqəsi üçün şərait



yaradılmışdır. Məqsəd vergi xidməti ilə bağlı yaranan problemləri həll edə bilməyən və əsaslandırılmış şikayətləri ilə yerli vergi orqanlarından qaneedici yardım və məlumat ala bilməyən vergi ödəyicilərinə birbaşa vergilər nazirinə müraciət etmək imkanının verilməsidir.

Vergi maarifləndirilməsi tədbirlərinin tərkib hissəsi kimi respublikanın orta ümumtəhsil məktəblərində istifadə üçün «Vergilərin əhəmiyyəti və 7 nağıl axşamı», həmçinin «Vergilər» adlı dərsliklər yenidən işlənilmiş və ümumilikdə 40 min tirajla nəşr olunmuşdur. Artıq dərsliklərin əksər hissəsi şəhər və rayon məktəblərinə pulsuz paylanmışdır.

Ötən dövr ərzində vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi, vergi nəzarətinin gücləndirilməsi, kadrların peşəkarlığının artırılması da daim diqqət mərkəzində saxlanılmışdır.

Ölkə Prezidenti İlham Əliyevin 12 fevral 2004-cü il tarixli fərmanının icrasını təmin etmək məqsədilə vergi ödəyicilərinin inventarlaşdırılması, onlara yeni eyniləşdirmə nömrələrinin verilməsi üçün ən yeni informasiya texnologiyalarının tətbiqi bu sahədə atılan mühüm addımlardandır.

Hazırda ölkə üzrə VÖEN-lərin verilməsi internet səhifəsində «on-layn» rejimində aparılır. Məlumat üçün bildiririk ki, 2004-cü il 1 oktyabr tarixinə yeni proqram təminatı vasitəsilə uçota alınan vergi ödəyicilərinin sayı 33,8 mindən çoxdur. Bunlardan 20,9 mini və ya 61,8 %-i inventarlaşmadan keçməklə yeni VÖEN alan vergi ödəyiciləridir. 2004-cü il 1 aprel tarixinə faktiki fəaliyyət göstərən 88,9 min vergi ödəyicisindən bu gün ki tarixə kimi 20,9 mini və ya 23,5%-i inventarlaşmadan keçmişdir.

Bununla yanaşı, Vergilər Nazirliyinin «Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi»nin yaradılması layihəsi üzrə müvafiq tender elan edilmiş və artıq tenderin qalibi məlum olmuşdur. Qalib şirkət nazirliyin vəzifəli şəxslərinin daxil olduğu işçi qrupu ilə birlikdə vergi inzibatçılığı, o cümlədən vergi nəzarəti sahəsində müasir tələblərə cavab verən avtomatlaşdırılmış informasiya sisteminin yaradılmasını təmin edəcək.

Beynəlxalq vergi münasibətlərinin inkişaf etdirilməsi, digər dövlətlərin analoji qurumları ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində də müəyyən işlər görülmüşdür. Belə ki, hazırda Avropa Birliyi tərəfindən maliyyələşdirilən TASİS proqramı çərçivəsində «Vergi sisteminin müasirləşdirilməsi» layihəsi daxilində bir sıra uğurlu tədbirlər həyata keçirilməkdədir. Adıçəkilən layihə üzrə Vergi Məcəlləsinin tətbiqinə dair tövsiyələrin ilkin variantının hazırlanması 2005-ci ilin sonuna kimi başa çatdırılacaq. Bu tövsiyələr həm vergi ödəyiciləri, həm də vergi əməkdaşları üçün çox faydalı olacaqdır. Nəzərdə tutulur ki, tövsiyələrin internet variantı işlənilsin və burada müasir informasiya texnologiyalarının geniş imkanlarından maksimum istifadə olunsun. Həmçinin «Vergi sisteminin müasirləşdirilməsi» layihəsi çərçivəsində Vergilər Nazirliyinin Tədris Mərkəzinin tədris-metodiki təminatının hazırlanması və Bakı şəhərində vergi orqanlarının korporativ informasiya şəbəkəsinin qurulması ilə bağlı texniki tapşırıqlar da hazırdır.

ABŞ Xəzinədarlıq Departamenti, Vergi Administrasiyalarının Avropadaxili Təşkilatı, İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı ilə uğurlu əməkdaşlıq davam etdirilir. Təsadüfi deyil ki, İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının rəyinə əsasən, Azərbaycan vergi sahəsində MDB ölkələri arasında lider mövqedə dayanır və bu təşkilatla ikitərəfli əlaqələr məhz bu təməlin üzərində qurulmuşdur. Əlbəttə, bütün bunlar Azərbaycan hökumətinin, ilk növbədə ölkə Prezidenti cənab İlham Əliyevin gərgin əməyinin nəticəsidir.

Son illər vergi xidmətində həyata keçirilən kompleks islahatlar nəticəsində əldə olunan nailiyyətlər də məhz respublikada həyata keçirilən düzgün iqtisadi siyasətin və onun tərkib hissəsi olan vergi siyasətinin sayəsində mümkün olmuşdur. Belə ki, vergi qanunvericiliyinin təkmilləşdirilməsi, bir-birini təkrarlayan nəzarət strukturlarının ləğv edilməsi, vergi nəzarətinin səmərəliliyinin yüksəldilməsi istiqamətində mütəmadi olaraq görülən tədbirlər büdcə daxilolmalarının artırılması ilə yanaşı, ölkədə sahibkarlığın inkişafına əlverişli şərait yaratmışdır.

Vergi ödəyicilərinin hüquqlarının qorunması məqsədilə vergi



orqanlarında yeni iş prosesləri tətbiq edilmişdir ki, bu da vergi ödəyicilərilə vergi orqanları arasında münasibətlərin qarşılıqlı əməkdaşlıq formasında təşkil edilməsinə və nəticə etibarilə vergilərin məcburi yığılmasından vergilərin könüllü ödənilməsi prinsipinə keçilməsinə xidmət edir.

Bununla yanaşı, son illər vergi orqanları tərəfindən aparılan səyyar vergi yoxlamalarının sayı azaldılmış və keyfiyyəti artırılmış, yoxlamaların müasir və sivil metodlarla aparılmasına nail olunmuşdur. 2005-ci ilin yanvar-sentyabr ayları ərzində cəmi 3137 vergi ödəyicisində səyyar vergi yoxlaması aparılıb ki, bu da faktiki fəaliyyət göstərən vergi ödəyicilərinin 3,5%-ni təşkil edir (faktiki 88,9 min vergi ödəyicisi fəaliyyət göstərir). Bu ilin doqquz ayı ərzində aparılan səyyar vergi yoxlamaları nəticəsində əlavə hesblanmış vəsait 279,2 milyard manat təşkil etməklə 2003-cü ilin müvafiq göstəricisilə müqayisədə 87,0 faiz və ya 129,9 milyard manat çox olmuşdur.

Hazırda vergi orqanları kameral yoxlamaların səmərəliliyinin artırılmasına da xüsusi fikir verirlər. Məlumat üçün qeyd edim ki, 2004-cü ilin doqquz ayı ərzində 25,5 min vergi ödəyicisinə kameral yoxlamalarla 496,6 milyard manat əlavə vəsait hesablanmış və bu göstərici 2003-cü illə müqayisədə 70,7 faiz artmışdır.

Vergi daxilolmalarına gəldikdə isə 2004-cü ilin 9 ayı ərzində Vergilər Nazirliyi tərəfindən dövlət büdcəsinə 3603,7 milyard manat vəsait cəlb edilmişdir ki, bu da nəzərdə tutulduğundan 4,3 faiz çoxdur.

2004-cü ilin 9 ayı ərzində büdcəyə cəlb edilmiş vəsaitlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 631,9 milyard manat və ya 21,3 faiz çoxdur. Bu kifayət qədər böyük rəqəmdir və təbii ki, ilk növbədə, ölkədə biznes mühitinin və sahibkarlığın inkişafı ilə bağlıdır. Təkcə qeyri-neft sektorunun vergi daxilolmaları ötən ilin eyni dövrü ilə müqayisədə 634,5 milyard manat və ya 39,8 faiz artmışdır.

2004-cü ilin üç rübündə qeyri-dövlət sektoru üzrə daxilolmalar 125,8 faiz səviyyəsində və ya ötən ilə nisbətən 47,4 faiz çox yerinə

yetirilmişdir.

Vergi daxilolmalarında artımın təmin edilməsi və ən əsası sahibkarlığın inkişafının stimullaşdırılması ilk növbədə vergi qanunvericiliyinin təkmilləşdirilməsini zəruri edir. Hesab edirəm ki, çevik iqtisadi siyasət, o cümlədən vergi siyasətinin aparılması, qanunvericiliyin iqtisadi inkişaf səviyyəsinə, habelə beynəlxalq normalara uyğunlaşdırılması, il ərzində vergi qanunvericiliyinin tətbiqində qarşıya çıxan mübahisəli məsələlərin qanunvericilikdə birmənalı şəkildə əks etdirilməsi baxımından bu tədbirin çox böyük əhəmiyyəti vardır.

Vergidən yayınmanın qarşısının alınmasına yönələn dəyişiklər əsasən Vergi Məcəlləsinin vergi ödəyicilərinin uçotu, operativ vergi nəzarəti, ödəmə mənbəyində verginin tutulması qaydası və müəssisənin təqdim edilməsi ilə bağlı maddələrində edilmişdir.

Vergi Məcəlləsinin qüvvədə olan 160-cı maddəsinə əsasən müəssisədə müstəqil fəaliyyət göstərən bölmənin bütün aktivləri bir əməliyyat çərçivəsində təqdim edildikdə əlavə dəyər vergisi tutulan əməliyyat sayılmır. Təcrübədə vergi ödəyiciləri öz aktivlərini digər vergi ödəyicilərinə təqdim edir və bu əməliyyatlardan əlavə dəyər vergisini hesablamırlar. Təklif olunan layihədə Vergi Məcəlləsinin 160-cı maddəsindən «müəssisədə müstəqil fəaliyyət göstərən bölmənin bütün aktivlərinin» sözlərinin çıxarılması nəzərdə tutulmuşdur. Sözügedən dəyişiklik bu tipli vergidən yayınma hallarının qarşısını almağa şərait yaradacaq.

Məlumdur ki, vergidən yayınmanın geniş yayılmış formalarından biri qanunvericilikdə olan boşluq və ziddiyyətlərdən istifadə etməklə vergidən yayınmadır. Belə halların qarşısının alınması üçün vergi qanunvericiliyinin tətbiqi prosesində vergi orqanları ilə vergi ödəyiciləri arasında mübahisəli məsələlər, məhkəmə işləri təhlil edilir. Vergi idarəçiliyinin mütəmadi olaraq təkmilləşdirilməsi də vergidən yayınmanın qarşısının alınması, vergi nəzarətinin səmərəliliyinin artırılmasında mühüm rol oynayır.

Hazırda vergi nəzarətinin səmərəliliyinin artırılması baxımından vergi orqanlarının qarşılaşdığı ən mühüm problemlərdən biri



































saxta vergi hesab-fakturalarının tətbiqi və hesablanmış ƏDV-nin büdcədən yayındırılmasıdır. İstər vergi qanunvericiliyində, istərsə də texniki baxımdan bir çox tədbirlər görülməsinə, təkmilləşdirilmələr aparılmasına baxmayaraq, təəssüflə qeyd etməliyəm ki, göstərilən qanun pozuntularına hələ də rast gəlinir.

Bununla əlaqədar olaraq əlavə və dəyişikliklərdə bank vasitəsilə hesablaşmaların ƏDV-nin ödənilməsini təsdiq edən sənədlər təqdim olunduqdan sonra aparılması nəzərdə tutulmuşdur.

Bu dəyişikliklər vergi sisteminin sadələşdirilməsi, vergi ödəyicilərinin mənafelərinin qorunması, vergi inzibatçılığının yaxşılaşdırılması və vergidən yayınma hallarının qarşısının alınmasını nəzərdə tutmaqla qanunvericiliyin ildən-ilə daha da təkmilləşməsinə gətirmişdir. Hazırda Azərbaycanda tətbiq olunan vergi qanunvericiliyi Avropa Birliyinin 6-cı Konvensiyası ilə uzlaşdırılmış qanunvericilikdir və beynəlxalq standartlara tam cavab verir.

Azərbaycan hökuməti ümummilli liderin **«Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik»** prinsipini əsas tutaraq vergi siyasətindən ölkədə sahibkarlığın inkişafı üçün çevik bir alət olaraq istifadə edir. Əgər 5 il əvvəllə müqayisə etsək, görmək olar ki, ölkədə vergilərin sayı 14-dən 9-a endirilib, son 4 ildə mənfəət vergisinin dərəcəsi 8, ƏDV-nin səviyyəsi 2, gəlir vergisinin maksimal dərəcəsi 10 faiz aşağı salınıb. Hazırda ölkəmiz sosialyönümlü iqtisadiyyatın yaradılması istiqamətində məqsədyönlü işlər aparır. Vergi sistemində aparılan islahatların da əsas məqsədlərindən biri ölkə iqtisadiyyatının bütün sahələrinin potensial imkanlarından istifadənin səmərəliyini artırmaq, onların dinamik inkişafını təmin etmək, kiçik və orta sahibkarlığın formalaşması, ümumən iqtisadi sistemdə işgüzarlığı, çevikliyi, təşəbbüskarlığı stimullaşdırmaqdır. Buna görə də vergi yükünü aşağı salmaqla yanaşı, hökumət vergi siyasətinin məhz bu aspektlərindən geniş istifadə edir. Məsələn, 1999-cu ildən kənd təsərrüfatı istehsalçılarının torpaq vergisi istisna olmaqla, demək olar ki, bütün vergilərdən azad edilməsi bu sahədə işgüzar fəaliyyəti nəzərəçarpacaq dərəcədə fəallaşdırmışdır. Tətbiq olunan vergi tətilinin müsbət nəticələri göz önündədir. Məhz buna görə də həmin vergi tətili 2004-cü ildə daha 5 il uzadıldı.

Vergi ödənişlərinin sadələşdirilməsi və asanlaşdırılması üçün 2001-ci ildən tətbiq olunan sadələşdirilmiş vergi kiçik və orta sahibkarlığın inkişafı üçün əhəmiyyətli rol oynayır. Lakin hökumət bu verginin tətbiqi prosesində də regional güzəştlər müəyyənləşdirib. Belə ki, paytaxtda fəaliyyət göstərən vergi ödəyiciləri bu vergini dövriyyədən 4 faizlə ödədikləri halda, regionda fəaliyyət göstərən sahibkarlıq subyektləri 2 faiz ödəyirlər. Nəticədə regionlarda sahibkarlığın vergi yükü, demək olar ki, cüzidir və inkişaf üçün əhəmiyyətli stimul yaradır. Hökumət həmçinin köhnə vergi borclarının silinməsi yolu ilə regionlarda yerləşən müəssisələrin maliyyə cəhətdən sağlamlaşdırılması siyasətini həyata keçirir. «Hüquqi şəxslərin dövlət büdcəsinə borclarının güzəştli ödənişi haqqında» və «Özəlləşdirilən dövlət müəssisələrinin, aqrar islahatları nəticəsində ləğv olunmuş və işğal altında olan rayonların təsərrüfat subyektlərinin borcları haqqında» qanunlarla bir çox müəssisələrin dövlət büdcəsinə və büdcədənkənar fondlara vaxtı keçmiş vergi borcları silinib. Bu addım özəlləşdirmə prosesinə təkan vermək, eləcə də özəlləşdirilən müəssisələrin investisiya cəlbediciliyini artırmağa və müəssisələrin borc yükündən azad edilməsinə xidmət edir.

Vergi siyasətinin bu iqtisadi funksiyalarının daha da genişləndirilməsi, vergi dərəcələrinin optimal həddədək azaldılması, vergi tətillərinin tətbiqi imkanlarının araşdırılması kimi müddəalar «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» Fərmanda və «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı»nda da öz əksini tapıb. Bu qanunvericilik aktları vergi siyasətinin tənzimləyici, stimullaşdırıcı və yaranmış iqtisadi situasiyalara daha fəal müdaxilə vasitəsinə çevrilməsini şərtləndirən proqram sənədlərdir və bir daha vergi siyasətinin dövlətin regionların inkişaf prioritetlərini tənzimləyən tədbirlər kompleksinin tərkib hissəsi olduğuna dəlalət edir.

Vergilər dövlət büdcəsinin əsas mədaxil mənbələrindən biri olmaqla yanaşı, həm də iqtisadiyyatın inkişafını, hökumətinsə iqtisadi siyasətinin nəticələrini əks etdirən güzgüsüdür. Bu baxımdan son 5 ildə vergi daxilolmalarının statistik təhlilinə diqqət yetirsək,



həmin siyasətin nə dərəcədə uğurlu olması daha aydın görünər. Belə ki, 2004-cü ilin yekunlarına əsasən, büdcəyə nəzərdə tutulan 4 trilyon 900 milyard manat əvəzinə, 5 trilyon 26 milyard manat vəsaitin daxil olması təmin edilib.

Ötən il büdcəyə cəlb edilmiş vəsaitlərin həcmi 2003-cü illə müqayisədə 909,2 milyard manat və ya 22,1 faiz çox olub. 1999-cu illə müqayisədə isə vergi daxilolmaları 2,6 dəfə artıb. Bu əhəmiyyətli artımın əsaslı bir hissəsi qeyri-dövlət sektorunda canlanma ilə əlaqədardır. Məsələn, 2004-cü ilin nəticələrinə görə, qeyri-dövlət sektorunun vergi daxilolmalarında xüsusi çəkisi 51,6 faiz təşkil edib ki, bu da 2003-cü illə müqayisədə 859,1 milyard manat, yaxud 49,6 faiz çox olur. Ümumiyyətlə, 1999-cu illə müqayisədə keçən il qeyri-dövlət sektorundan daxilolmalar 3,2 dəfə artaraq ÜDM-də payı 4,2 faizdən 6,2 faizə qalxıb. Özəl sektorun inkişaf göstəriciləri xüsusilə nəzərəçarpandır. Bu bölmədə canlanma sahənin vergi daxilolmalarındakı payının 1999-cu ildəki 17,9 faizdən 2004-cü ildə 34 faizə, yaxud 5 dəfə yüksəlməsinə səbəb olub. Əgər daxilolma mənbələri qeyri-neft sektorunun payı üzrə təhlil edilərsə, yenə də eyni tendensiyanı görmək olar. Qeyri-neft sektoru üzrə daxilolmalar 2003-cü illə müqayisədə 885,6 milyard manat və ya 39,9 faiz çoxalıb. Burada bir məqamı qeyd edək: neft sektorunun ümumi vergi daxilolmalarının xüsusi çəkisi azalmaqdadır və ötən ilin nəticələrinə görə, bu göstərici 38,2 faiz təşkil edib. Yenə də 2004-cü ilin nəticələrinə istinad etsək görərik ki, təkcə qeyri-neft sektorundan daxilolmaların həcmi 2001-ci ilin ümumi vergi daxilolmalarının həcmindən artıqdır. Bu bir daha onu sübut edir ki, ölkənin özəl sektorunda aşkar canlanma var və o, əsasən iqtisadi fəallığın güclənməsi, sahibkarlıqla məşğul olan təsərrüfat subyektlərinin və fiziki şəxslərin çoxalması, yeni iş yerlərinin yaradılması və eyni zamanda vergi inzibatçılığının yaxşılaşdırılmasının nəticəsidir.

Son beş ili təhlil edərkən vergi xidmətində aparılan islahatların mühüm bir hissəsini təşkil etmiş vergi inzibatçılığı sahəsində həyata keçirilmiş islahatları qeyd etməmək mümkün deyil. Vergilər Nazirliyi yaranandan bəri bu sahədə çox böyük işlər görülüb.

Vergi inzibatçılığının təkmilləşdirilməsi prosesində mühüm istiqamətlərdən biri vergi xidmətinin strukturunun təkmilləşdirilməsidir. Nazirlik yaranandan bəri başlanan bu proses ötən üç ildə çox fəal şəkildə davam edib. Ümumiyyətlə, Vergilər Nazirliyi inzibati idarəetmə strukturunu və vergi ödəyiciləri ilə iş prosesini təkmilləşdirməklə sahibkarlıq subyektlərinin işinə maksimum az müdaxilə etmək, vergi ödənişlərinin həyata keçirilməsində şəffaflıq və könüllülük yaratmağa çalışır.

2002-ci ildə ümummilli lider Heydər Əliyevin birbaşa tövsiyələrinə əsaslanaraq çox radikal bir addım atıldı. Regionlarda yerləşən 60-dək yerli vergi orqanı ləğv edildi və onların əvəzinə 12 ərazi vergilər idarəsi yaradıldı. Paytaxtda isə Bakı Şəhər Baş Vergilər İdarəsi və 11 rayon idarəsi ləğv olunaraq yeni vergi orqanı - Bakı Şəhər Vergilər Departamenti və onun tərkibində 3 filial təşkil edildi. İşçilərin böyük bir hissəsi, təxminən 40 faizi ixtisar olundu ki, regionlarda çalışan 1700-dək vergi işçisinin sayı 800-ə endirildi.

Struktur islahatlarından sonra əsas diqqət vergi xidmətinin iş prinsiplərinə yönəldildi. Fəaliyyətimizi daha şəffaf, daha aydın etməyə və vergi ödəyiciləri ilə kontaktsız qarşılıqlı münasibətə keçmək üçün vergi xidmətində yeni iş prosesləri tətbiq edildi. Bu gün hər bir sahibkar etiraf edər ki, vergi xidmətinin fəaliyyəti bir neçə il əvvəlki dövrlə müqayisədə xeyli dəyişib. Vergi orqanları ilə işləmək prosesi sadələşib, vergi ödəyiciləri hətta vergi orqanına gəlmədən belə poçt vasitəsilə hesabatlarını təqdim edə bilirlər. Həyata keçirdiyimiz layihələr reallaşdıqdan sonra bəyannamələrin elektron formatda qəbulu imkanı da yaranacaq. Hər bir vergi ödəyicisi sərbəst şəkildə öz ofisindən, evindən internetlə vergi xidmətinin saytına daxil olaraq öz şəxsi vərəqəsinə baxa biləcək və vergi orqanına gəlmədən ödədiyi vergilər, borcu barədə məlumat ala biləcək. Yaxud da bank hesabı açmaq, ya da uçota durmaq istəyirsə müvafiq sənədləri elektron formada əldə edəcək və bu prosesləri real vaxt rejimində, yəni «on-layn»la həyata keçirə biləcək. Müvafiq qanunvericilik məsələləri həll edildikdən sonra isə yaxın gələcəkdə vergi ödəyicisi birbaşa real vaxt rejimində bəyannamələri də vergi orqanına göndərə bilər. Yəni vergi ödəyicisi vaxt itirmədən, vergi orqanı əməkdaşları ilə kontakta girmədən tam şəffaf şəkildə öz bəyannaməsini təqdim etmək imkanı qazanacaq. Bu, inkişaf etmiş ölkələrin bir çoxunda hazırda tətbiq edilən elektron bəyannamə sisteminin qurulması deməkdir.



Vergi islahatlarının ana xətlərindən biri də vergi ödəyiciləri üçün xidmətin təşkilidir. Bu sahədə işlərimizi qurmaq üçün nazirlikdə vergi ödəyiciləri ilə iş üzrə ayrıca idarə yaratmışıq. Apardığımız araşdırmalar təsdiq edir ki, çox hallarda qanun pozuntuları qanunvericiliyin yaxşı öyrənilməməsi səbəbindən baş verir. Buna görə də diqqət ilk növbədə vergi ödəyicilərinin informasiya təminatının yaxşılaşdırılmasına yönəldilib.

Statistik göstəricilərə nəzər salsaq, bu fikir öz təsdiqini tapar. Təkcə 2004-cü il ərzində xidmət strukturları tərəfindən 123 mindən çox vergi ödəyicisi qəbul edilib, 203 mindən artıq sorğu və müraciət cavablandırılıb. Müraciətlərin tam əksəriyyətini məhz qanunvericiliyin şərhi və vergilərin ödənilməsi ilə bağlı sorğular təşkil edir. Yəni vergi ödəyicisi ilk növbədə tam məlumat və informasiya almağa ehtiyac duyur. Bu ehtiyacları ödəmək üçün də vergi ödəyiciləri ilə çoxsaylı brifinqlər, görüşlər, vergi həftəliyi və s. tədbirlər həyata keçirilir. Lakin təbii ki, bu kifayət deyil. Odur ki, Vergilər Nazirliyi ötən il Bakıda pulsuz məlumat-telefon xidmətini yaratdı. Ötən il ərzində bu telefon xidməti vasitəsilə 200 mindən artıq sorğu cavablandırılıb.

Qeyd edilməlidir ki, 195 saylı vahid telefon məlumat xidməti MDB ölkələrində ilk olaraq Azərbaycanın vergi xidmətində yaradılıb və hələlik analoqu yoxdur. Bu xidmət hələlik paytaxtda tətbiq edilsə də onun tezliklə bütün ölkə üzrə tətbiqi gözlənilir.

Vergi inzibatçılığında çox mühüm məqamlardan biri də vergi nəzarətinin təşkilidir. Vergi xidmətində aparılan dəyişikliklər məqsəd etibarilə sistemin sadələşməsinə, vergi ödəyiciləri üzərində nəzarətin azaldılmasına xidmət etsə də, inzibatçılığın yaxşılaşdırılması və daha müasir üsulların tətbiqi vasitəsilə vergi nəzarəti bir qədər də təkmilləşib. Vergi yoxlamalarının sayı azalıb, lakin onların keyfiyyət göstəriciləri xeyli yaxşılaşıb.

Səyyar vergi yoxlamalarının statistikasına diqqət yetirsək, görmək olar ki, 1998-ci ildə səyyar vergi yoxlamalarının sayı 17

minə çatırdı. 2000-ci ildə bu rəqəm 2 dəfə, 2004-cü ildə isə daha 2 dəfə aşağı salınıb. Yoxlamaqabağı prosedurların və səyyar vergi yoxlamasının təyin edilməsi üçün əsasların olması hallarına dair ilkin araşdırmalar prosesinin təkmilləşdirilməsi nəticəsində bu gün vergi orqanının təyin etdiyi səyyar yoxlamanın heç biri nəticəsiz qalmır. Yəni vergi orqanı müəssisəyə yalnız burada qanun pozuntusunun olması faktının mövcudluğuna əmin olduqdan sonra yoxlama təyin edir. 2004-cü ilin nəticələrinə əsasən, yoxlama təyin edilmiş təsərrüfat subyektlərinin 98 faizində qanun pozuntusu halları aşkarlanıb. Qalan 2 faiz yoxlama müəssisələrin bağlanması hallarında vergi öhdəliklərinin olub-olmamasını müəyyənləşdirmək məqsədilə aparılıb ki, bu da əslində yoxlama yox, qanunvericilik prosedurudur. Yoxlamaların keyfiyyət göstəricilərinə gəldikdə, qeyd etmək lazımdır ki, kütləvi yoxlama prosedurlarının ünvanlı təyinetmə üsullarına keçid, həmçinin qanun pozuntularının yoxlamaqabağı prosedurlar nəticəsində əldə edilməsi mahiyyət etibarilə yoxlamaların sayını azaltsa da, büdcəyə hesablanan vəsaitlərin həcmini artırıb. 2004-cü ilin nəticələrinə görə, hər bir yoxlamaya düşən əlavə hesablanmış vəsait və tətbiq olunan maliyyə sanksiyalarının həcmi 112 milyon manat təşkil edib ki, bu da 2003-cü ilə nisbətən 75,5 faiz, 2000-ci ilə nisbətənsə 2,3 dəfə çoxdur.

Ümumiyyətlə, Vergilər Nazirliyi öz fəaliyyət sistemini sahibkarlar üzərində kütləvi nəzarətlə deyil, səmərəli nəzarət mexanizmləri tətbiq etməklə qurmaq istəyir. Son üç ildə biz vergi nəzarətinin bütün spektrlərində informasiya texnologiyaları tətbiq etmişik. Hazırda nazirliyin avtomatlaşdırılmış vergi informasiya sisteminin yaradılması layihəsi üzərində iş gedir. Müasir informasiya sistemlərinin tətbiqi nəticəsində bu gün mükəmməl bir nəzarət sistemi formalaşdırılıb. Lakin biz yenə də nəzarət mexanizmlərinin təkmilləşdirilməsi üzərində işləyirik.

Əlbəttə, sahibkarın öz vergi öhdəliklərinə məsuliyyətlə yanaşması vergi xidmətinin də işini asanlaşdırır, vergi nəzarətinin daha yumşaq qurulmasını şərtləndirir. Bundan sui-istifadə edənlər də olur. Belə halların qarşısını almaq məqsədilə 2001-ci ildə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti yaradılıb. Departamentin vəzifəsi vergi hüquqpozmalarına və bu sahədə törədilən cinayətlərə qarşı mübarizə aparmaq, dövlət büdcəsindən yayındırılan vəsaitlərin büdcəyə ödənilməsini təmin etməkdən ibarətdir.



Təkcə 2004-cü il ərzində departamentin xətti ilə istintaqı tamamlanmış cinayət işləri üzrə vurulmuş ziyandan 19,2 milyard manatının ibtidai istintaq zamanı dövlət büdcəsinə ödənilməsi təmin edilib ki, bu da əvvəlki ilə nisbətən 10,5 dəfə çoxdur. Burada Azərbaycanın vergi sistemini digər ölkələrin vergi sistemindən fərqləndirən bir xüsusiyyəti qeyd etmək istərdim. Mövcud qanunvericiliyə görə, vergi cinayətinə yol vermiş şəxslər dövlət büdcəsinə dəymiş ziyanı tam ödədikləri halda, onlara dair cinayət işi xitam edilir. Lakin bu, Azərbaycanın vergi xidmətinin yeganə fərqləndirici cəhəti deyil.

Azərbaycanın vergi sistemini tez-tez xarici ölkələrlə müqayisə edirlər. Ölkəmizin vergi sisteminin müəyyən spesifikliyi var.

Birincisi, Azərbaycanda vergi ödəyiciləri ilə münasibət partnyorluq əsasında qurulur. Bu, uzun illər dünya təcrübəsində formalaşmış və vergi ödəyiciləri ilə qanunların sərt dilində aparılan ənənəvi yanaşmadan fərqlənir.

İkincisi, ölkəmizin vergi orqanlarının strukturunun dünyada analoqu yoxdur. Bizim tətbiq etdiyimiz idarəetmə strukturu hazırda kifayət qədər ciddi müzakirə obyektinə çevrilib.

Nəhayət, üçüncüsü, Azərbaycan bir çox inkişaf etmiş ölkələrdən fərqli olaraq, kifayət qədər liberal və mürəkkəb olmayan vergi qanunvericiliyinə malikdir.

Bizim vergi islahatları sahəsində əldə etdiyimiz uğurlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də birmənalı tanınmaqdadır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) hökumətimizə ünvanladığı rəsmi müraciətdə Azərbaycanın vergi xidmətinin MDB ölkələri arasında lider mövqedə olması vurğulanmışdır. Əlbəttə, bu, bizim işimizə verilən yüksək qiymətdir.

Vergilər Nazirliyi öz strukturunu, vergi inzibatçılığını, vergi ödəyicilərinə xidmət sahəsini təkmilləşdirmək üçün bu gün də müxtəlif layihələr həyata keçirir. Hazırda Avropa Birliyinin TACİS proqramı ilə birlikdə dəyəri 1,5 milyon avro olan texniki yardım layihəsi reallaşdırılır. Yardım vergi işçilərinin və vergi

ödəyicilərinin tədrisinə, xidmət strukturunun genişlənməsinə, daxili kommunikasiya texnologiyasının tətbiqinə yönəlib. Bundan başqa, ABŞ Xəzinədarlıq Departamentinin bir qrup məsləhətçisi və daimi rezident-koordinatoru vergi sisteminin inkişafına texniki yardım göstərir. Biz bu təşkilatların köməyi ilə həm xarici ölkələrdə, həm də nazirliyin tədris mərkəzində kadrlarımızın peşəkarlıq səviyyəsini qaldırmağa çalışırıq. Azərbaycanda vergi siyasətinin təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri də onun beynəlxalq vergi sisteminə tam inteqrasiya olunmasıdır. **Ölkəmiz 2004-cü ildə «Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında» Strasburq Konvensiyasına qoşulub. Bu konvensiya Avropa Şurasına daxil olan ölkələrin vergi orqanları arasında vergi məsələlərinə dair informasiya mübadiləsinin çərçivəsini müəyyən etməklə ölkəmizin belə bir mübadilə sisteminə qoşulmasına hüquqi imkan yaradıb. Bundan başqa, 2002-ci ildə Vergilər Nazirliyi Vergi Administrasiyalarının Avropadaxili Təşkilatına (VAAT) tamhüquqlu üzv olub. Azərbaycan həmçinin MDB vergi orqanları rəhbərlərinin Koordinasiya Şurasının işində də fəal iştirak edir. 2003-cü ildə bu təşkilatın növbəti toplantılarından biri Bakıda keçirilmişdir. Hazırda ölkəmiz bu sahədə ikitərəfli münasibətlərin formalaşmasına çalışır və bir sıra dövlətlərlə qarşılıqlı inzibati yardım haqqında müvafiq sazişlər də imzalamağa nail olub.**

Vergitutma sahəsində xarici ölkələrlə aparılan danışıqların mühüm bir qolu **«Gəlir və əmlak vergilərinə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında»** dövlətlərarası beynəlxalq sazişlərin imzalanması ilə bağlıdır. Əlverişli investisiya mühitinin yaradılması məqsədini güdən bu sazişlərin hazırlanması və tətbiqi mexanizmi uzun çəkən prosesdir. 2004-cü il bu baxımdan daha məhsuldar olub. Bir sıra ölkələrlə, o cümlədən Litva, Almaniya, İtaliya, Belçika və Kanada ilə analoji sazişlər dövlət səviyyəsində imzalanıb, Niderland, Lüksemburq və Çexiya ilə saziş layihələri ekspertlər səviyyəsində razılaşdırılıb. Ümumiyyətlə, indiyə kimi Azərbaycan tərəfi ikiqat vergitutmanın aradan qaldırılması haqqında dövlətlərarası sazişlər üzrə 35 ölkə ilə danışıqlar aparıb. Onlardan 20-si ilə müvafiq sazişlər bağlanıb, daha 15-i üzrə danışıqlar davam etdirilir.



Qeyd etmək lazımdır ki, vergi islahatlarının həyata keçirilməsi zamanı vergi ödəyicilərinin və dövlətin maraqlarının maksimal tarazlığına nail olunması mühüm amildir. Dövlət sahibkarın hüquq və mənafelərini qoruduğu kimi sahibkar da, öz növbəsində, büdcə qarşısında öhdəliklərinə məsuliyyətlə yanaşmalıdır.

Sahibkar vergiləri məcburən ödəməməli, bunun dövlətin inkişafına, xalqının daha yaxşı yaşamasına və ən əsası, işlədiyi mühitin yaxşılaşdırılmasına xidmət etdiyini anlamalıdır. Etiraf etmək lazımdır ki, uzun illər özəl mülkiyyət sahibliyindən ayrı düşmüş bir ölkədə vergi mədəniyyətinin dərhal formalaşacağına inanmaq sadəlövhlük olardı. Lakin biz əminik ki, bu istiqamətdə aparılan güclü təbliğat-təşviqat prosesinin, vergi sisteminin sadələşməsinin, vergi inzibatçılığının müasirləşdirilməsi işlərinin birgə nəticəsi olaraq təkcə sahibkarların və iş adamlarının deyil, sıravi vətəndaşların da vergilərin ödənilməsinə münasibəti dəyişəcək. Bu, ümummilli liderin bizə verdiyi tövsiyəsinə və bizim strateji məqsədimizə - vergilərin könüllü ödənilməsinə keçidi təmin etməyə xidmət etməlidir.

## 6.4. Qanunun aliliyi, stabil sosial-iqtisadi inkişafın əsası

Əhalinin pul gəlirinin xərclərini üstələməsi, banklara qoyduqları əmanət və depozitlərin orta illik artım tempinin 60-62 faiz təşkil etməsi, onun ümumi məbləğinin iki trilyon manata çatması, Azərbaycanda tikinti «bumu»nun baş verməsi ölkəmizdə 1993-cü ildən sonra görülmüş işlərin məntiqi nəticəsidir.

Ölkəmizdə heç vaxt bu səviyyədə inkişaf tempi olmamışdır. Ümumi Daxili Məhsul istehsalının 2005-ci ildə 14 faiz, 2006 -cı ildə 24,9 faiz, 2007-ci ildə 30 faiz, 2008-ci ildə isə 20 faiz olacağı proqnozlaşdırılmışdır.

2005-ci ildə ÜDM-də artımı 14 faiz, dövlət büdcəsinin gəlirləri 24,8 faiz, dövlət büdcəsi xərclərinin artımı isə 28,4 faiz olacağı nəzərdə tutulmuşdur.

Ölkə gücləndikcə, vəziyyət də dəyişir. Azərbaycanda narahat-

lıq doğuran məsələlər öz həllini tapır. İqtisadiyyatımız inkişaf edir, insanların yaşayış səviyyəsi gün-gündən yaxşılaşır, regionların hərtərəfli inkişafı baş verir. Azərbaycan vətəndaşlarının həyat səviyyəsi ildən-ilə yaxşılaşır.

Müxalifətin istifadə etdiyi iqtisadi və sosial çətinliklər mövzusu tükənməkdədir. Onlar yaxşı başa düşürlər ki, ölkəmizdə həyata keçirilən nəhəng layihələr, o cümlədən enerji və nəqliyyat layihələri, çox güclü iqtisadi inkişaf. Azərbaycan xalqına firavanlıq gətirəcəkdir. Ölkə nə qədər dinamik inkişaf edərsə, obyektiv olaraq müxalifət bir o qədər çox zəifləyər.

Bu gün müxalifətin bir qrupu Azərbaycan hökumətinə qarşı deyil, Azərbaycanın xoşbəxt gələcəyinə qarşı mübarizə aparırlar. Onlar ölkədəki vəziyyətin pisləşməsini istəyirlər. Vəziyyət nə qədər pis olsa, onlar üçün bir o qədər yaxşı olar. Bulanıq suda balıq tutmaq asan olduğu kimi. Xalq bunu bilir və müvafiq nəticələr çıxarır.

Bu gün müxalifətin zəifliyi onun öz səhvi ucbatından baş verir. İndiyə kimi heç bir konstruktiv təklif irəli sürə bilməyən müxalifət dəyişməlidir. Hakimiyyət strukturları müxalifətin qanunlar çərçivəsində fəaliyyət göstərmələrinə problemlər yaratmaq fikrində deyil. İqtidarda olanlar yaxşı bilirlər ki, cəmiyyətə sağlam, qərəzsiz, konstruktiv təkliflər irəli sürən müxalifət lazımdır. Əllərinə metal parçaları götürüb avtomaşınlara, vitrinlərə hücum edən, qarətçiliklə məşğul olan, cibinə daş yığıb polisə hücumlanan müxalifəti, konstruktiv hesab etmək olarmı? Beynəlxalq təcrübə vardır. Məğlubiyyətə uğrayan müxalifət liderləri istefa verir. Bu təkcə inkişaf etmiş ölkələrdə deyil, lap qonşu dövlətlərdə də belədir.

Bizim ölkəmizdəki müxalifət daim uduzmaqda davam edir, siyasətdən isə getmək istəmir. Onlar müxtəlif bəhanələrlə uduzduqlarını ört-basdır etməyə çalışır, öz həqiqi simalarını gizlətməyə cəhd göstərirlər. Əgər onlar etiraf etsələr ki, bəli uduzmuşuq, onda siyasətdən getməlidirlər. Onların ömrü qısa hakimiyyətləri dövründə sosial-siyasi gərginliyi o həddə çatdırdılar ki, xalq onları hakimiyyətdən uzaqlaşdırdı.

Onlar 1993-cü ildə prezident seçkilərini, 1995-ci ildə parlament seçkilərini, 1998-ci ildə yenidən prezident seçkilərini, 2000-ci ildə yenidən parlament seçkilərini, 2003-cü ildə yenidən prezident seçkilərini uduzdular. Lakin onlar yenə də çirkin niyyətlərini həyata keçirmək üçün Vətənimizə qarşı təxribatçılıqla məşğul olan qüvvələrlə əməkdaşlıq edirlər. **Belə yerdə deyirlər: mərifətin, hünərin varsa, buyur, gəl. Yoxsa, bu həyat aləminə olma bir əngəl.**

**Uzun illər «müxalifət ştatına, vəzifəsinə» sahib olan, okeanın o tayı və bu tayından maliyyələşdirilən, başdan ayağa üfunət olan bələləri heç vaxt konstruktiv müxalifət olmayıb və ola da bilməzlər. Şəxsi ambisiyaları qabiliyyətlərindən dəfələrlə üstün olan, adını siyasətçi qoyub, beyni mədəsinə calaq olmuş qovun-qarpız, fındıq alverçiləri olan müxalifətçilərdən xalqımız yalnız xəyanətkarlıq, satqınlıq gözləyə bilər.**

Əlbəttə biz müxalifətin hamısına terrorçu, hər şeyi inkar edən adamlar toplusu kimi baxmırıq. Müxalifətdə onlar arasında konstruktiv mövqelilər də vardır. Onların bəzisi elə Milli Məclisdə də vardır. Milli Məclisin üzvləri, hörmətli deputat yoldaşlarım Həsənquliyev Qüdrət, Aslanov Rüfət, Əhmədov Ramiz, Sabir Rüstəmxanlı, Səfərli Mayıs, Həsənli Cəmil, Əyyubov Şirzad, İbrahimli Fəzail, Quliyev Nizami, Əliyev Qulamhüseyn, Nuriyev Əlməmməd və başqalarını misal çəkə bilərəm. Səmimi olduğuma inanın, bu adlarını çəkdiyim deputat yoldaşlarım çox ciddi tənqidi qeydlərlə çıxışlar etsələr də, onların çıxışlarında konstruktiv cəhətlər üstünlük təşkil edir.

Vətənimizə yeni iqtisadi düşüncəyə, müasir təfəkkürə malik, dünyada qəbul olunmuş sivil metodlarla, ciddi arqumentlərə, təhlillərə və ən başlıcası konstruktiv təkliflərə əsaslanan müxalifət lazımdır. Elə müxalifət ki, respublikamızın qarşısında duran problemlərin, texniki iqtisadi hesablamalara, elmi təhlillərə və sübutlara əsaslanan həllinin alternativ variantlarını təklif edənlər olsunlar.

Yalnız özünü sevən, «özünə vurğun müxalifət», öz primitiv şərtlərini diktə edən (Milli Məclisin yaxınlığında hündür yerə dırmaşıb boğazına kəfən dolamaqla Qarabağı «azad edən») müxalifət yox, praktiki təklifləri ilə öz üstünlüyünü sübut etməyi bacaran, iqtidarla qanunlarımız çərçivəsində, konstruktiv təklifləri, dialoqları ilə yarışmağı bacaran, debata girməyə qadir olan müxalifət Azərbaycana gərəkdir.

**Küçələrdə «Qarabağ bizimdir, Qarabağ bizimdir deyib.....**

**qışqırıq qoparmaq tamaşaları» göstərmək nostalgiyasında olanlar deyil, Azərbaycana, misal üçün ABŞ-da olduğu kimi respublikaçı və demokratların liderlərinin debatına bənzər müxalifət iqtidar münasibətləri olmasından xalqımız qazana bilər.** Onda sosial-siyasi stabilliyin təmin olunması ilə yanaşı, problemlərimizin həllində də ən səmərəli yolları tapa bilərik.

Deputatlıq təcrübəsi olmayanların, deputatın səlahiyyətləri və funksiyalarını dürüst bilməməsi mümkündür. Xatırladırıq, Milli Məclis dövlət hakimiyyətinin mühüm qollarından biridir. O, xalqın seçdiyi deputatlardan formalaşır və əsas vəzifəsi ölkənin sosial-iqtisadi inkişaf proseslərini tənzimləyən qanunlar, qaydalar, normalar, prinsiplər, bir sözlə iqtisadi fəaliyyətin oyun qaydalarını müəyyən etməkdən ibarətdir. Deputat, Milli Məclisin üzvüdür. Deməli qanunvericilik fəaliyyəti deputatın işinin əsasını təşkil edir.

Biz bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstəririk. Bazar, cəmiyyətdə baş verən bütün sosial-iqtisadi prosesləri avtomat tənzimləmə xassəsinə malik deyildir. Kortəbii qüvvələrin, o cümlədən rəqabətin təsiri altında olan bazarın özü tənzimlənməyə möhtacdır. Dünya təcrübəsi onu təsdiq edir.

Ölkədə baş verən sosial-iqtisadi proseslər iradi göstərişlərlə, tapşırıqlarla deyil qanunla idarə olunmalı və tənzimlənməlidir. Hüquqi dövlət quran ölkələrin hamısında belədir. Qanunun aliliyi təmin olunmuş ölkələrdə isə bu ideal səviyyədədir.

Qanun, ölkə ərazisindəki təşkilat-hüquqi formasından asılı olmadan bütün iqtisadi subyektlərin əməl etməli olduqları icbari normaları, prinsipləri və qaydaları müəyyən edir. Milli Məclisin qəbul etdiyi qanunlar başqa normativ aktlara - qərarlara, təlimatlara, əsasnamələrə, sərəncamlara və s. nisbətən yüksək hüquqi qüvvəyə malik, icrası icbari xarakter daşıyan dövlət sənədidir. Qanunun əsas funksiyası sosial-iqtisadi proseslərin idarə olunmasının ümumi prinsiplərini və qaydalarını müəyyən etməkdir.

Qanun dövlətin yeritdiyi iqtisadi siyasəti reallaşdırmaq vasitəsidir. Dövlət qanunlar vasitəsilə ölkədə baş verən sosial-iqtisadi proseslərin məqsədyönlülüyünü təmin edir, onların müəyyən səmtə, istiqamətə doğru inkişafına nail olur. Qanunlarda başlıca məqsəd xalqın rifahını yüksəltmək üçün dövlətin müəyyənləşdirdiyi



strateji kursun reallaşmasına xidmət etməkdir.

Biz burada dövlət hakimiyyəti orqanlarının qərarlarından, göstərişlərindən, sərəncamlarından asılı olmadan fəaliyyət göstərən obyektiv iqtisadi qanunlardan deyil, Milli Məclisin qəbul etdiyi hüquqi qüvvəyə malik qanunlardan bəhs edirik. Əlbəttə obyektiv iqtisadi qanunlarla Milli Məclisin qəbul etdiyi qanunlar arasında qarşılıqlı əlaqə hökmən nəzərə alınmalıdır.

Dövlətin qəbul etdiyi qanunlar, obyektiv iqtisadi qanunların mahiyyətinə əks olarsa o, iqtisadi inkişafın ləngiməsinə, tənəzzülün baş verməsinə səbəb olar. Ona görə də qanunyaradıcılığı prosesində obyektiv iqtisadi qanunların mahiyyəti, onların «tələbləri» əsas götürülməlidir.

Milli Məclisin qəbul etdiyi qanunlar obyektiv iqtisadi qanunların «tələblərinin» reallaşmasına xidmət etdikdə iqtisadi inkişaf sürətlənir. Qanunyaradıcılığı prosesində obyektiv iqtisadi qanunların reallaşmasına xidmət edən alətlərin, mexanizmlərin dürüst müəyyən edilməsi və nəzərə alınması olduqca vacibdir.

İqtisadi sistemin transformasiyası dövründə qanunyaradıcılığı prosesinin əhəmiyyəti daha da artır. Yeni qanunların hazırlanması və bəzi qanunlara dəyişikliklər və əlavələr edilməsi sahəsində daha intensiv fəaliyyət göstərilməsi tələb olunur. Bu təbiidir.

Biz bir iqtisadi sistemdən digərinə keçid dövrünü yaşayırıq. Əvvəlki sistemin qanunları ilə yeni sistemin iqtisadiyyatını idarə etmək mümkün deyil. Bazar iqtisadiyyatına adekvat münasibətləri tənzimləyən, onun prinsipləri və qaydalarını müəyyən edən yeni qanunlar sistemi hazırlanmalı, ölkədə aparılan islahatlara hüquqi baza yaradılması təmin edilməli idi. Bu yeni iqtisadi sistemə keçən ölkələrin hamısında baş verən qanunauyğun prosesdir.

Qanunların ən alisi Konstitusiyadır. Orada mövcud cəmiyyətin fəaliyyət göstərməsi və inkişafının ən ümumi prinsipləri və qaydaları müəyyən edilir. Digər qanunlarda isə Konstitusiya müddəalarından irəli gələn və onların reallaşmasını təmin edən prinsiplər və qaydalar müəyyən olunur.

Konstitusiya qəbul olunmadan ölkənin sosial-iqtisadi həyatının ayrı-ayrı sahələrinə dair təkmil qanunlar hazırlamaq mümkün deyildir.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci ilin noyabrında, ümumxalq referendumu ilə qəbul olunmuşdur. Azərbaycan istiqlaliyyət əldə etdikdən sonra hazırlanmış və qəbul olunmuş qanunlarda Konstitusiya müddəalarından irəli gələn dəyişikliklər, əlavələr və düzəlişlər edilməsi zərurətə çevrildi. Bununla yanaşı, Konstitusiya müddəalarından irəli gələn, bazar iqtisadiyyatına adekvat yeni qanunlar hazırlanmalı və qəbul edilməli idi.

Qanun yaradıcılığı prosesi ölkə Prezidenti ilə Milli Məclisin birgə fəaliyyətinə əsaslanır. Qanunları Milli Məclis qəbul edir. Onlar ölkə Prezidenti tərəfindən imzalandıqda və dərc edildikdə qüvvəyə minir. Bu ölkə Prezidenti ilə Milli Məclisin işgüzar əlaqəsinə sübutdur.

Azərbaycan Respublikasının Prezidenti ölkədə yeridilən sosial-iqtisadi siyasətin strateji xəttini, onun başlıca konturlarını, reallaşmasının başlıca istiqamətlərini müəyyən edir. Bu strateji kursun Azərbaycanın bu günü və perspektivi üçün müstəsna əhəmiyyəti vardır. O sosial-iqtisadi inkişafın başlıca istiqamətlərini, konturlarını müəyyənləşdirir, ona məqsəd aydınlığı gətirir.

Heydər Əliyev cənablarının müəyyənləşdirdiyi strateji kurs, dünya sivil dövlətlərinin tarixi təcrübəsində sınaqdan çıxmış, müsbət nəticələri sübut olunmuş və Azərbaycan gerçəkliyinə əsaslanan yoldur. Bu strateji xəttə, fikrimizcə, alternativ yoxdur. Lakin ən təkmil strateji kursun özü də avtomat reallaşma xassəsinə malik deyildir. Onun reallaşmasının təkmil iqtisadi mexanizmləri, alətləri və vasitələri müəyyənləşdirilməlidir. Bu alətlər, mexanizmlər, normalar, prinsiplər və qaydalar qanunlarda öz ifadəsini tapır.

Milli Məclis qanunvericilik üzrə iş planını müəyyən edərkən, dövlətin iqtisadi siyasət strategiyasından irəli gələn, onun reallaşmasına xidmət edən qanunlar hazırlanmasına üstünlük verir. Bu ən əvvəl:

- çoxformalı mülkiyyət və təsərrüfatçılığa keçidin təmin olunması, onlara bərabər rəqabət mühitinin yaradılmasını;
- təsərrüfatçılıq və idarəetmə sistemində üfüqi və şaquli islahatlar aparılmasını, sahə prinsipli idarəçilikdən funksional idarəçiliyə keçidin təmin olunmasını;
- bazar münasibətlərinə adekvat istehsal, bölgü, mübadilə və istehlak prinsipləri və qaydalarının müəyyən edilməsini;
- sahibkarlıq fəaliyyətinin inkişafına meydan açılmasını;
- dünya iqtisadi inteqrasiyasına qoşulmağı;
- əsaslı struktur islahatların aparılmasını, bir sözlə islahatlaşdırma, liberallaşdırma, iqtisadi idarəçilikdə demokratik prinsiplərin inkişafı və xalqın rifahının daha da yüksəlməsi əsasında sosial yönümlü bazar iqtisadiyyatına keçidi təmin edən qanunlar hazırlanması və qəbul olunmasıdır.

Olduqca gərgin iş tələb edən qanun yaradıcılığı prosesində Milli Məclisin komissiyaları mühüm rol oynayırlar.

Qanunlar müvafiq komissiyalarda hazırlanır, dəfələrlə müzakirə olunur və Milli Məclisin müzakirəsinə təqdim olunurlar. Fikrimizi yığcam ifadə etsək, deməliyik ki, qanunyaradıcılığı sistem xarakterli, müxtəlif mərhələli, uzun müddətli mürəkkəb prosesdir.

İqtisadi siyasət daimi komissiyasının 12 üzvü vardır. Onların dördü elmlər doktoru, professor, bir nəfəri elmlər namizədidir.

İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyət müddəti başa çatmaq üzrədir. 2005-ci ilin noyabrında üçüncü çağırış üzrə Milli Məclis üzvlərinin seçkiləri keçiriləcəkdir.

Milli Məclisin işində komissiyalar çox əhəmiyyətli iş görürlər. Komissiyanın üzvləri ilə beş il qarşılıqlı anlaşma şəraitində işləmişik. Təbii ki, aramızda fikir ayrılıqları, mübahisələr də olmuşdur. Mən qanunların hazırlanması və müzakirələri prosesində, ayrı-ayrı müddəalara aid müxtəlif fikirlərin olmasına təbii yanaşmışam. Fərqli fikirlərin olması, onları müqayisə etməyə, optimal variantları seçməyə, qanunların keyfiyyətini yüksəltməyə şərait yarada bilər. Əlbəttə, təkliflər konstruktiv olduqda, onların əhəmiyyəti daha çox olur.

Komissiya üzvlərindən qanunvericilik fəaliyyəti sahəsində daha səriştəli, daha məhsuldar işləyənlər olsa da, onların hamısının fəallıq göstərmələri vacibdir. Açığını deyim ki, deputatların bəzisi qanun hazırlamaqla nəinki kifayət qədər məşğul olmur, onların bir qismi sadəcə olaraq bu işi bacarmır. Burada da işin ağırlığı komissiya sədrinin üzərinə düşür. Çünki son nəticədə qanunu Milli Məclisə o, təqdim etməli, suallara, iradlara, qeyd və təkliflərə o cavab verməli olur. Bu dərin bilik, yüksək professionallıq tələb edir.

İqtisadiyyatın maliyyə blokuna aid - büdcə, vergi, gömrük, bank, sığorta sahələrinə dair ən vacib qanunları hazırlamaq və qəbul olunmasını təmin etmək mümkün oldu. «Milli Bank haqqında», «Banklar haqqında», «Maliyyə-sənaye qrupları haqqında», «Büdcə sistemi haqqında», «İnvestisiya fondları haqqında», «Gömrük Məcəlləsi», «Qiymətli kağızlar bazarında investorların hüquqlarının qorunması haqqında», «Kredit ittifaqları haqqında», «Hesablama Palatası haqqında», «Vergi Məcəlləsi»,»Gəmiçilik Məcəlləsi», «Aviasiya haqqında, « İnşaat fəaliyyəti haqqında», «İnvestisiya fəaliyyəti haqqında», «İpoteka haqqında», «Qiymətli metallar və qiymətli daşlar bazarı haqqında», «Poçta rabitəsi haqqında»və s. digər qanunların qəbul olunmasını, çox saylı qanunlara dəyişikliklər və əlavələr edilməsini təmin etmişik. Hamısı birlikdə təkcə bizim komissiyanın təqdimatı ilə beş il ərzində 200-dən çox qanun Milli Məclisdə qəbul olunmuşdur.

Müstəqil Azərbaycan Respublikasının ilk parlamenti 5 illik fəaliyyəti dövründə 700-dən çox qanun, qanunlara dəyişikliklər, əlavələr və s. qəbul etmişdir. Bu, bütövlükdə hazırki deputat korpusunun yüksək intellektual potensiala malik olduğuna və məhsuldar işlədiyinə sübutdur. Təbii ki, parlamentdə fəal olmayan deputatların olduğu da danılmazdır.

Milli Məclisin qəbul etdiyi qanunların bir qismini qanunvericilik təşəbbüsü ilə göndərilən qanunlar təşkil edirlər. Bu qanunlar da müvafiq komissiyalarda müzakirə olunur və Milli Məclisin müzakirəsinə təqdim edilirlər.

Bir çoxları, ən əvvəl müxalifət nümayəndələri, ölkə Prezidentinin təqdimatı ilə Milli Məclisə göndərilmiş qanunlara heç bir dəyişiklik edilmədən, mexaniki olaraq səsverməyə qoyulduğu və qəbul olunduğunu iddia edirlər. Bu iddianın tamamilə əsassız olduğunu, gətirəcəyimiz iki konkret fakt təsdiq edir.

**Qanunvericilik təşəbbüsü ilə ölkə Prezidenti, möhtərəm Heydər Əliyevin Milli Məclisə göndərdiyi «Vergi Məcəlləsi»nə 159, «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununa isə 19, «İpoteka haqqında» Azərbaycan Respublikasının Qanununa 60-a yaxın, «Banklar haqqında» Azərbaycan Respublikasının Qanununa 30-dan çox və s. dəyişiklik və əlavələr etmişik. Qanunvericilik təşəbbüsü ilə göndərilmiş digər qanunlara da biz müvafiq əlavələr və dəyişikliklər edə bilirik. Bütün bunlar faktdır.**

Milli Məclisdə hazırlanan qanunlardan fərqli olaraq, bu qanunlara dəyişikliklər və əlavələr. Konstitusiyaya uyğun olaraq qanunvericilik təşəbbüsü subyektinin razılığı ilə edilə bilər. Biz həmin qanunlara dəyişiklik və əlavələr etmək barədə təkliflərimizi qanunvericilik təşəbbüsünün subyekti ilə müzakirə edir, əsaslandıra bildiklərimiz müddəaları qanuna əlavə edirik.

«Vergi Məcəlləsi»ndə bizim 20-yə yaxın təklifimiz qəbul olunmadı. Biz mənfəət vergisinin dərəcəsini 27 deyil 25 faizə endirilməsini, münaqişə zonası sərhəd rayonlarında mənfəət vergisinin ödənilməsinə 3-4 il kanikul verilməsini, yeni yaradılmış istehsal təyinatlı müəssisələrə məhsul buraxılışına başladığı andan 2 il müddətinə mənfəət vergisindən azad olunmalarını, əmlak vergisində diferensiallığın gücləndirilməsini, əlavə dəyər vergisinin 18 faiz deyil 15 faizə endirilməsini, gəlirlərinin 90 faizini investorlara divident verən investisiya fondlarının vergidən azad olunmasını və s. təklif etmişdik. Onların qəbul olunmasına nail ola bilmədik. Səbəbi lazımi dərəcədə əsaslandırılmış arqumentlər gətirə bilməməyimiz, qanunvericilik təşəbbüsü subyektinə təklif etdiyimiz əlavələri inandıra bilməməyimiz oldu.

**Hələ vaxtilə ümummilli liderimiz Heydər Əliyev cənabları dəfələrlə bizə demişdir ki, «mən qanunları sizin müzakirənizə göndərirəm. Müzakirə edin, məqsədəuyğun dəyişikliklər barədə təkliflərinizi verin. Əgər bu təkliflər qanunun keyfiyyətinin daha da yaxşılaşmasına, sosial-iqtisadi inkişafa xidmət edirsə, onlar, albəttə, qəbul olunmalıdır».**

**«Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında» Azərbaycan Respublikasının Qanununun** layihəsi Milli Məclisdə müzakirə olunanda deputatların xeyli hissəsi qanunun bəzi müddəaları ilə razılaşmadılar və biz bir sıra təkliflərimizin qanunda öz əksini tapmasını təmin etdik. Burada heç bir qeyri-adilik yoxdur.

**Bütün bunlar Milli Məclisin öz işini Konstitusiyanın ona verdiyi səlahiyyətlər çərçivəsində, müstəqil yerinə yetirdiyinə sübutdur.**

Qanunları qəbul etmək Milli Məclisin, onların icrasını təmin etmək isə müvafiq icra hakimiyyəti orqanlarının işidir. Açığını deyək ki, kifayət qədər təkmil hazırlanmış qanunların bəzisinin reallaşması çətinliklərlə qarşılaşır.

Ayrı-ayrı müddəaları icra olunmayan qanunlara aid çoxlu misallar gətirə bilərik. Misal üçün, **«Səhmdar cəmiyyətləri haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən «Maliyyə-təftiş komissiyasının rəyi olmadan səhmdarların ümumi yığıncağı illik balansı təsdiq edə bilməz» (maddə 24:3).**

**«Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən «qanunvericiliyə görə öz maliyyə hesabatını dərc etdirməli olan təsərrüfat subyektləri» məcburi auditdən keçməlidirlər (maddə 2).**

**«Sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda göstərilir: «Sığortaçılar illik balanslarda, gəlir və xərc hesablarında olan məlumatların düzgünlüyünü auditora təsdiq etdirdikdən sonra bunları mətbuatda dərc etdirirlər» (maddə 28).**

**«Azərbaycan Respublikasının Mülki Məcəlləsi»ndə isə səhmdar cəmiyyətlərində məcburi audit keçirilməsi daha konkret göstərilir (maddə 107 və 177).** Respublikamızda 1300-dən çox səhmdar cəmiyyətləri mövcuddur. Onların 90-95 faizində maliyyə-auditor yoxlamaları aparılmır, səhmdar cəmiyyətlərinin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri bitərəf mütəxəssislər, auditorlar tərəfindən təhlil edilmir, işləyən cəmiyyətlərdə gəlirin bölgüsündə səhmdarların hüquqlarının pozulması halları kütləvi xarakter almışdır.

İqtisadçılar bilirlər, müəssisələrin, səhmdar cəmiyyətlərinin gəlirini elə bölmək olar ki, bir manat olsa belə mənfəət qalmaz, deməli səhmdarlara divident vermək mümkün olmaz. Məhz ona görə də səhmdar cəmiyyətlərinin işində neqativ hallar yaranır. Səhmdarlar dividenti, dövlət büdcəsi vergiləri, sosial müdafiə fondları qanunla müəyyən edilmiş icbari ödənişləri ala bilmir. Bu haqlı narazılıqlara səbəb olur. Səhmdarların müxtəlif instansiyalara müraciətləri başlayır. Əlbəttə, bu problem həll olunmalıdır.

Qanunların hər bir iqtisadi subyektdə icrası təmin olunmalıdır. Unutmamalıyıq ki, qanun yalnız icra olunduqda işləyir, dövlətin müəyyənləşdirdiyi iqtisadi siyasətin reallaşmasına xidmət edir. İcra olunmayan qanun isə sadəcə olaraq kağız parçasına çevrilir. İcrası təmin olunmayan qanunları qəbul etməkdənsə, onları qəbul etməmək daha sərfəli olardı.

İcrasının təkmil iqtisadi mexanizmləri olan qanunlar qəbul etməyin əhəmiyyəti böyükdür. Lakin ən təkmil qanunların belə avtomat reallaşma xassəsinə malik olmadıqlarını unutmamalıyıq. Ona görə də qanunların icrasına nəzarət mexanizmi müəyyən olunmalıdır.

Milli Məclisin icrasına nəzarət etdiyi yeganə qanun «Dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanunudur. Dövlət büdcəsinin icrasına nəzarət, müəyyən mənada ölkədə baş verən bütün sosial-iqtisadi proseslərə nəzarət etməkdir.

Bu üç formada həyata keçirilir: **növbəti ilin büdcə gəlirləri və xərclərinin reallığına nəzarət, büdcənin cari icrasına nəzarət və sonuncu, icra olunmuş büdcənin nəticələrinə nəzarət, yəni yekun nəzarəti.**

Büdcənin icrasına nəzarətin hər bir formasının özünəməxsus cəhətləri, məna yükü və əhəmiyyəti vardır.

**Büdcənin icrasına nəzarət müəyyən mənada icra strukturlarının parlament qarşısında hesabatıdır.** Orada icra strukturlarının bir illik fəaliyyəti təhlil edilir və görülmüş işlərə qiymət verilir.

İstiqlaliyyət əldə etdikdən sonra növbəti il üçün **«Azərbaycan Respublikasının Dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanunun**un qəbul olunmasında hər il ləngimələrə yol verilirdi.

**AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə dövlət büdcəsinin təsdiqində ləngimə «rekord səviyyəyə» çatmışdı. 1992-ci ilin dövlət büdcəsi, 1992-ci ilin noyabr ayında təsdiq edilmişdi. Yəni o, nə az, nə çox, düz 10 aydan çox gecikdiriləndən sonra təsdiq olunmuşdu.**

Hər bir qanunun Milli Məclisdə müzakirəsi və təsdiqinin aktuallıq dövrü vardır. O subyektiv iradi göstəriş və tapşırıqla deyil, qanunla müəyyən olunur.

**«Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qa-**

**nununa** əsasən büdcənin bütün səviyyələrdə müzakirələri dekabr ayının ortalarına kimi başa çatmalı və Milli Məclis həmin qanunu qəbul etməlidir. Yəni, ölkə yeni maliyyə ilinə təsdiq olunmuş dövlət büdcəsi ilə başlamalıdır.

İlin sonuna kimi yeni maliyyə ilinin dövlət büdcəsi qəbul olunmazsa, o təsdiq olunana qədərki ayların büdcə göstəriciləri, keçən ilki dövlət büdcəsinin həmin aylara aid göstəriciləri əsasında icra olunmalıdır. Lakin bu barədə də xüsusi qanun və ya qərar qəbul olunmalıdır.

**İndi qanunun aliliyindən dəm vuran, o vaxt da, indi də dövlət idarəçiliyində səriştəsi olmayan AXC-Müsavat cütlüyü bunların heç birini etməmiş, yeni maliyyə ili başa çatmaq ərəfəsində «1992-ci ilin dövlət büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanununu qəbul etmişdilər. Elə vaxt ki, onun qəbul olunması artıq öz məna yükünü itirmişdi. Bu maliyyə sahəsində başdan-ayağa qanunsuzluq, özbaşınalıq demək idi. 1992-ci ilin noyabrında 1992-ci ilin deyil, 1993-cü ilin dövlət büdcəsi müzakirə olunmalı və sonra təsdiq edilməli idi.**

1993-cü ildən sonra növbəti ilin dövlət büdcəsinin təsdiq olunmasında vəziyyət bir qədər dəyişilsə də, yenə də ləngimələrə yol verilirdi. Hər il, yeni maliyyə ili başlayandan 2-3 və bəzən də 4 ay sonra həmin ilin ən alili maliyyə qanunu Milli Məclisdə qəbul olunurdu. Bunun özü də ciddi nöqsan idi.

Reallaşması büdcə vəsaitlərindən istifadəyə əsaslanan proqramları **Dövlət müvafiq il üçün büdcəsi haqqında** qanun qəbul olunmamış təsdiq etmək mümkün deyil. Deməli dövlət büdcəsinin təsdiqində gecikmələr zəncirvarı reaksiya yaradır, sosial-iqtisadi inkişafın digər sahələrində də işlərin ahəngini pozur, ləngimələrə səbəb olurdu. Ona görə də yeni maliyyə ilinə təsdiq olunmuş büdcə ilə keçmək üçün radikal tədbirlər görülməli idi.

**Ölkə Prezidenti, möhtərəm Heydər Əliyevin sistemlə həyata keçirdiyi tədbirlər sayəsində 1997-ci ildə yeni maliyyə ilinə təsdiq olunmuş dövlət büdcəsi ilə başlamaq mümkün oldu. Azərbaycan istiqlaliyyət aldığı vaxtdan ilk dəfə idi ki, dövlət büdcəsi qanunla müəyyən edildiyi müddətdə təsdiq olundu. Həmin vaxtdan sonra bu ənənəyə çevrildi. Yəni 1997-2005-ci illərin dövlət büdcəsi qanunla müəyyən edilmiş vaxt təsdiq olundu. Burada İqtisadi siyasət komissiyasının da əməyi danılmazdır.**



Təbiətcə bir şeydən razıyam ki, mən həmişə özümdən narazıyam. Hesab edirəm ki, daha məhsuldar işləyə, daha yüksək keyfiyyətli və icrasının daha təkmil iqtisadi mexanizmləri olan, xalqımıza, Vətənimizə daha çox gərəkli qanunlar hazırlayıb qəbul olunmaq üçün Milli Məclisin müzakirəsinə təqdim edə bilərdim.

Açığını deyim ki, kifayət qədər ciddi cəhdlər göstərməyimizə baxmayaraq bəzi qanunların qəbul olunmasını təmin edə bilmədik. Hazırlanmasına böyük vaxt və əmək sərf etdiyimiz **«Azərbaycan Respublikası vətəndaşlarının əmanətlərinə kompensasiyaların hesablanması və ödənilməsi haqqında», «Qarşılıqlı borclar üzrə hesablaşmaların tənzimlənməsi haqqında», «Büdcə təsnifatı haqqında», «Büdcə Məcəlləsi», «Veksellər haqqında»** və s. bir sıra digər qanunların qəbul olunmasına nail ola bilmədik. Burada bizdən asılı olmayan səbəblər üstünlük təşkil etmişdir.

Yeni seçiləcək Milli Məclis, xüsusilə onun İqtisadi siyasət komissiyası bu qanunlarla bağlı işi başa çatdırmalı olacaqdır.

Bu deyilənlərin nəticəsi ondan ibarətdir ki, deputat seçilməyə iddiaçı olan hər bir namizəd əvvəlcədən hansı yükü öz üzərinə götürmək istədiyini bilməli və özünün ona hazır olduğu haqqında ətraflı fikirləşməlidirlər.

Hər bir deputatlığa namizəd yüksək ixtisas, gərgin işləmək tələb edən qanun yaradıcılığı prosesinə hazır olduğu haqqında yaxşıca düşünməlidir.

Milli Məclisə seçkilərin ölkənin siyasi, sosial-iqtisadi həyatında ən məsul dövrlərdən biri olduğunu sübut etməyə lüzum görmürük. Ölkənin daxili işi olsa da seçkilərin keçirilməsinə marağın dairəsi respublikamızın hüdudlarını aşır. Beynəlxalq təşkilatlar, dünyanın demokratiya sahəsində məşhur institutları seçkilərin azad, ədalətli keçirilməsi, ölkədəki bütün ictimai-siyasi qrupların bu prosesə qatılması ilə maraqlanırlar.

Həmişə olduğu kimi, Milli Məclisə seçkilər ərəfəsində respublikamıza beynəlxalq təşkilatların və bir sıra dövlətlərin nümayəndələri gələcəklər. Onlar seçki prosesini müşahidə edəcək

və seçkinin nəticələrinə dair öz rəylərini təqdim edəcəklər.

Təbii ki, seçkilərin demokratik prinsiplərə əsaslanması, bu prosesdə qanun pozuntusuna yol verilməməsi ölkənin beynəlxalq aləmdə nüfuzuna, imicinə əhəmiyyətli dərəcədə təsir edəcəkdir. Bütün bunlar Milli Məclisə seçkilərin qanunla müəyyən olunduğu kimi demokratik prinsiplər əsasında, azad, ədalətli keçirilməsinin nə dərəcədə böyük əhəmiyyətə malik olduğuna sübutdur.

Hər dəfə Milli Məclisə seçkilər ərəfəsində ölkədə siyasi fəallıq artır, respublikanın sosial-iqtisadi vəziyyəti fonunda mübahisələr qızışır, bir sıra müxalifət partiyalarında və ictimai təşkilatlarda isə ehtiraslar kulminasiya nöqtəsinə çatır.

**«Mərkəzi Seçki Komissiyası haqqında» və «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında»** qanunların qəbulu ərəfəsində başlayan bu proses həmin qanunlar qəbul olunandan sonra daha da qızışdı. Müxalifət siyasi mübarizəni siyasi oyuna çevirmək üçün nələrə qadir olduğunu bir daha göstərdi.

Müxalifət **«Mərkəzi Seçki Komissiyası haqqında» Azərbaycan Respublikasının Qanununa** seçki prosesinə öz şərtlərini diktə etməsini təmin edəcək dərəcədə liberal müddəalar daxil edilməsinə nail olmuşdu.

Biz qanun layihəsi Milli Məclisdə müzakirə olunarkən bu müddəalardan müxalifətin məkrli məqsədlər üçün istifadə edəcəyini dəfələrlə desək də, onların dəyişdirilməsində lazımi dərəcədə israrlı olmadıq və hesab edirəm ki, səhv etdik. Hadisələrin sonrakı gedişi bizim narahatçılığımıza əsas olduğunu sübut etdi.

Müxalifət MSK fəaliyyətə başlayarkən yetərsay yaranmasına qəsdən imkan vermədi. MSK-nın ilk iclasları müxalifətin pozuculuq fəaliyyəti nəticəsində baş tutmadı. Bununla onlar seçki prosesini pozmaq və onun təqsirini iqtidarın üzərinə yıxmaq üçün cəhdlər göstərdilər. Seçkilərin hazırlanması və ölkə Prezidentinin fərmanı ilə müəyyən edilmiş vaxtda keçirilməsi real təhlükə ilə qarşılaşdı.

Müxalifətin öz ambisiyalarını cəmiyyətə diktə etmək cəhdləri seçkilərin keçirilməsinə məsuliyyət daşıyan Milli Məclisi radikal addım atmağa vadar etdi.

**«Mərkəzi Seçki Komissiyası haqqında» Azərbaycan Respublikasının Qanununda** dəyişiklik edildi. Bitərəflərdən formalaşan MSK üzvlərinin Milli Məclisdə həm çoxluğu, həm də azlığı təşkil edən partiyalarla razılaşdırmaq barədə müddəası qanundan çıxarıldı. Beləliklə, müxalifətin siyasi mübarizəni siyasi oyuna çevirmək cəhdinin qarşısı alındı.

Müxalifətin acgözlüklə **«öz qabını doldurmağa göstərdiyi qızğın cəhdi onların büdrəmələrinə, qabın içərisindəkini tökmələrinə»** səbəb oldu. Sonra xaricdəki ağalarının yanına müxalifətin «qastrolları» başlandı. Okeanın o tayında da və bu tayında da 8 ildən çox yurd-yuvalarından didərgin salınmış bir milyonluq qaçqın və köçkünlərin insan kimi yaşamaq hüquqları haqqında deyil, bir ovuc müxalifətin ambisiyalarını təmin etməyə yönəlmiş «bəyanatları» eşidildi.

**ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu və ABŞ Dövlət Departamentinin işğal olunmuş ərazilərimizin azad olunması, qaçqın və köçkünlərimizin öz el-obalarına qayıtmaları haqqında deyil, müxalifətin ambisiyalarının reallaşmasına qayğı göstərmələri təəccüb doğurur. Bu, təcavüzə, terrorçuluğa, işğala məruz qalmış Azərbaycanın «demokratiyanın beşiyi olan ölkə» ABŞ Konqresi tərəfindən 907-ci düzəlişi qəbul etməklə cəzalandırması kimidir.**

Ermənistan silahlı qüvvələri ərazimizin 20 faizini işğal etdikləri üçün bir milyon qaçqın 10 ildən artıqdır ki, çadır düşərgələrində qalmağa məcbur olduqları halda, ABŞ Konqresi Ermənistanın **«blokadasını dayandırana və işğalçı qüvvə tətbiqinə son qoyanadək» Azərbaycana «bütün köməyi, o cümlədən humanitar yardımları dayandırmaq»** haqqında qərar qəbul etmişdir. Bu ABŞ konqresmenlərinin bir hissəsinin ya Cənubi Qafqazın xəritəsini bilməmələrinə və yaxud, erməni lobbisinin əlində Ermənistanın eksponsionist siyasətini reallaşdırmaq alətinə çevrildiklərinə sübutdur.

**Xatırladırıq ki, Azərbaycan lap istəsəydi də Ermənistanı blokadaya ala bilməzdi. Çünki Ermənistan təkcə Azərbaycanla deyil, habelə İranla, Gürcüstanla və Türkiyə ilə həmsərhəddir.**

Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunduğu halda, Azərbaycanı «işğalçı qüvvə tətbiqində» ittiham edən ABŞ konqresmenlərinin hansı prinsiplərə, hansı demokrati-

yaya xidmət etdiklərini bilmək üçün baş sındırmaq lüzumsuzdur.

Müxalifətin ekstremist ünsürləri siyasi mübarizəni siyasi ekstremizmə çevirdikdə, idarəolunmaz ictimai-təhlükəli əməllərə, yüzlərlə insanın həyatını real təhlükə altına salan terrorçuluğa keçdikdə dövlət öz əhalisinin təhlükəsizliyini təmin etmək üçün təcili tədbirlər görməlidir.

Qaraya ağ demək bu partiyaya və onun başqanlarına heç vaxt istisna təşkil etməmişdir. Bu partiyanın 1994 və 1995-ci ildəki dövlət çevrilişi cəhdlərində də mövqeyi çoxlarına aydın idi. Lakin onların hər dəfə, əgər belə demək mümkünsə **«sudan quru çıxmaları»**, cəzasız qalmaları daha ağır təxribatlara əl atmalarına şərait yaratmışdır.

Milli Məclisdə dəfələrlə bu tipdən olan partiyaların maliyyələşmə mənbələrinin müəyyən edilməsi, onların kimlərə, hansı dövlətlərə «xidmət etmələri», «qulluq göstərmələrinin» aşkarlanması barədə təkliflər, sorğular olmuşdur. Onların iqamətgahları və qərargahlarının saxlanılma xərcləri, öz işçilərinə, qəzetlərinin muxbirlərinə dövlət ali məktəblərində çalışan professorlardan üstün «məvacib» verə bilmələri, kurortdan yenicə gələnlərə bənzəyən öz «liderlərinin» və cangüdənlərinin vəsaitləri haradandır? Bütün bunlar aşkarlanmalıdır. **«Kimin kim olduğu» aşkarlanmadıqda, təqsirkar cəzasız qaldıqda, bu onların neqativ əməllərinə stimullaşdırıcı təsir edir.**

Siyasi tələblərinin reallaşmasına terror aktı ilə nail olmağa cəhd göstərən Müsavat partiyası divanının üzvü və onun tərəfdarları qanuni cəzalarını alacaqlar. Lakin bizim hamımıza, bütövlükdə Azərbaycan xalqına «öz partiyalarını», özlərini idarə edə bilməyənlərin, öz xalqına qarşı terrorçuluğu siyasi məqsədlərini reallaşdırmaq alətinə çevirən ekstremistlərin, ölkəni, xalqı uçuruma aparanların kimlər olduğu bir daha aydın olmalıdır.

Qəzetlər Milli Məclisə seçkilər ərəfəsində qonşu ölkələrin xüsusi xidmət orqanlarının AXC-Müsavat cütlüyündən və bir sıra digər müxalifət partiyalarından olanları, əvvəllər olduğu kimi öz **«marionetkalarına çevirərək bizə sırımaq üçün Azərbaycana göndərdiklərin»**dən də yazırlar. Bu, xarici dövlətlərin əlində onların siyasi məqsədlərini reallaşdırmaq alətinə çevrilməkdir.



Azərbaycana qarşı belə əməllərin sahiblərinin yalnız bir adı vardır: **Vətənə, Xalqa, dövlətçiliyə xəyanət!**

**Biz suverenliyimizi çöldən tapmamışıq. Ona görə də ağlı başında olan hər bir kəs bütün bunları nəzərə almalı və ölkənin ali qanunverici orqanına - Milli Məclisə Azərbaycanın müstəqilliyi və suverenliyini göz bəbəyi kimi qorumağa hazır olanların seçilməsini təmin etməlidirlər.**

Hamını, o cümlədən müxalifəti və onların xarici «ağalarını», habelə ölkəmizə qarşı ikili standart siyasət yeridən beynəlxalq təşkilatların nümayəndələrini başa salmalıyıq ki, Milli Məclisə seçkilər keçirilməsi Azərbaycanın daxili işidir və başqa dövlətlərin tövsiyələrini diktə edə bilməzlər.

Müxalifətin bir qismi Milli Məclisə seçkilər marafonuna «mitinqlər», «küçə yürüşləri», «küçə qaçışları», digər qismi isə seçkiləri boykot etmək çağırışları ilə başlamağı qərara almışlar. Müxalifətin başqa bir qrupu, AXC-Müsavat cütlüyü öz aralarında **«monolit birlik»** yaratmaq haqqında **«saziş»** bağlamışlar. Bu «monolit birliyin» ömrünün gödək olacağına şübhə edilməməlidir. Çünki bu «birliyin» əsasını ümummilli maraqlar deyil, ayrı-ayrı «liderlərin» şəxsi maraqlarından irəli gələn ambisiyalar təşkil edir.

Müxalifət partiyaları «inteqrasiya» olunmaqla özlərinin dedikləri kimi «hakimiyyəti geri çəkilməyə məcbur etmək» istəyirlər. Müxalifətin digər qrupu isə həm partiya daxili problemlərlə qarşılaşır, həm də iqtidar əleyhinə təxribatla məşğul olurlar.

Törətdiklərinə görə cəzasız qalacaqlarına immunitetləri olduğunu zənn edən bu başqanlar 2003-ü il 15-16 oktyabr hadisələrinin aparıcı qüvvəsini təşkil etdilər.

### 6.5. Fəaliyyətimizə qiymətin meyarı: biznesmen və yaxud yüksək vəzifəli dövlət məmuru

Müstəqil Azərbaycan Respublikası ikinci çağırış Milli Məclis deputatlarının səlahiyyət müddətləri başa çatmaq üzrədir. Sözün açığı bu illərin necə başa çatdığını, necə keçdiyini hiss edə bilmədim.

Milli Məclisin deputatı seçilmək də, orada işləmək də asan deyildir. Keçən seçkilərdə hər seçki dairəsində bir yerə orta hesabla 10-11 namizəd sənədlərini təqdim etmiş və onların əksəriyyəti seçkilərə buraxılmışdı.

Namizədlər arasında gərgin rəqabət mübarizəsi gedirdi, qəbul olunmuş və qəbul olunmamış metodlarla. Real namizədi seçki marafonundan kənarlaşdırmaq üçün müxtəlif «kombinasiyalar» qurmaq ona təkliflər etməkdən başlamışdı, hədə-qorxular və digər əcaib üsullardan da istifadə istisna təşkil etmirdi. Lakin heç nəyə məhəl qoymadan düzgünlüyünə əmin olduğun işi başa çatdırmaq uğrunda inamla mübarizə aparanlar da az deyildi. Milli Məclisə seçki marafonunda bu mənim və başqa deputat yoldaşlarımın da prinsipi olmuşdur.

Ağdaş seçki dairəsində olan müəssisə və təşkilatlarda, məktəblərdə, xəstəxana və poliklinikalarda, müxtəlif kəndlərdə seçicilərlə çoxsaylı görüşlərimiz olmuş, çıxışlar etmiş, sorğu və suallara cavablar vermişik. Bu seçicilərdə hər bir namizəd haqqında obyektiv fikir formalaşmasına da, seçkinin nəticələrinə də əhəmiyyətli dərəcədə təsir etmişdir.

Seçicilərin əksəriyyəti ölkənin, rayonun sosial-iqtisadi inkişaf problemləri, yeni iş yerlərinin yaradılması, xalqın rifahının yüksəldilməsi məsələləri ilə maraqlanır və həmin sahələrə aid suallar verirdilər.

Ağdaş seçki dairəsində namizədliyini irəli sürənlər arasında yeganə iqtisadçı olsam da, digər namizədlər içərisində də kifayət qədər həyat təcrübəsi və idarəetmə vərdişi olanlar, iqtisadi məsələləri mükəmməl bilənlər var idi. Təbii ki, hər bir namizəd öz bacardığı səviyyədə, malik olduğu iqtisadi düşüncə tərzində seçicilərin suallarına cavab verirdilər.

Bir çox məntəqələrdə seçicilərin deputatlığa namizədlərə şəxsi münasibəti görüşün başlanğıcı ilə müqayisədə görüşün sonunda, sual-cavablardan sonra əhəmiyyətli dərəcədə dəyişirdi.

Səmimiliyimə inanın ki, seçicilər arasında namizədin real həyat hadisələrinə obyektiv qiymət vermə qabiliyyətini, biliyini, təcrübəsini, sosial-iqtisadi problemlərin həlli yollarına dair fikirlərini müqayisə etmək, daha dürüst və reallıqdan çıxış edən namizədi fərqləndirmək bacarığı olanlar üstünlüyü təşkil edir.



Tam səmimiyyətlə deyirəm, Ağdaş rayonunun əhalisinin əksəriyyəti çox insanpərvər adamlardır. Öz xasiyyətlərində, haqqı nahaqdan seçməkdə, qonaqpərvərlikdə yüksək keyfiyyətlərə malikdirlər.

Seçki marafonu günlərində əvvəllər tanımadığım ağdaşlılardan məni evinə dəvət edənlər də oldu. Duz-çörəyini kəsdiyim adamların təmənnasız olduqlarını deputat seçiləndən sonra daha aydın hiss etdim.

Mən Ağdaş rayonunu, onun kəndlərini, xüsusilə Ağdaşın dağətəyi kəndlərini pis tanımıram. Uşaqlıq və gənclik illərimi qoynunda keçirdiyim kəndlər.

Yaşadığımız Qolqəti kəndi dağətəyi kəndlərin mərkəzindədir. Dəhnə, Ağcıazı, Qoşaqovaq, Şəkili, Pirkəkə, Ərəbocağı, Qəsil, Kükəl və s. kəndlərdə və Ağdaşın Ləki qəsəbəsindən kürqırağına tərəf olan kəndlərinin hamısında uşaq vaxtı, 50-ci illərdə olmuşam. Ağdaşın Göyçay rayonu istiqamətində olan kəndlərində də çox olmuşam. Bu kəndlərin bir çoxunda qohumlarım yaşayırlar.

O vaxtki uşaqlar indi ailə sahibi, nəvələri və bəzisinin də nəticələri olan oturuşmuş kişilərdir. Onların hamısı məni tanıyır. Mən də onların xeyli hissəsini.

Qohumlarımdan vəzifəsi olanlar yoxdur. Hamısı əkin, biçinlə məşğul olanlardır. Onlar ayaqqabıları çirkli, paltarları nimdaş, ürəkləri, qəlbi təmiz, böyük siyasətdən kənar insanlardılar. **Onların içərisində mənə ən yaxın olanı doğma bacım idi. Səfərova Güllü İsmayıl qızı. O, mənə həm ana, həm də bacı idi. Bacım Güllü Səfərova 2005-ci il martın 22-də uzun sürən xəstəlikdən sonra vəfat etdi. Bacımın vəfatı ailəmiz, xüsusilə mənim üçün çox böyük itki idi. Anam Sarabəyimin nəfəsini ondan alırdım. Elə bil, anamın özü idi.**

**Yaxşı yadımdadır, böyük qardaşlarım Nəbi və Bəhman 1941-1945-ci illər müharibəsində cəbhədə idilər. 1942-1943-cü**

**illərdə bərk aclıq idi. Qış sərt, olduqca soyuq idi. Bəlkə aclıq olduğundan soyuqu daha çox hiss edirdik.**

**Çörək deyib ağlayanları, acından taqətdən düşən, yıxılıb ölənləri özüm görmüşəm. Mən və məndən iki yaş böyük olan qardaşım İbrahim acından ölmədik. Anam Sarəbəyim, bacım Şirin və Güllü bizi acından ölməyə qoymadılar.**

**Yaz gələndə sevinc evimizi bürüyürdü. Ot-orman əmələ gəlir, tut yetişəndə isə lap bayram olurdu. Sevinirdik ki, acından ölmədik. Bu vəziyyətdə olan tək biz deyildik. Əksəriyyət bu gündə idi. O adamların bəzisi ilə görüşəndə o günlərimizi də xatırlayırıq.**

Seçkiqabağı görüşlərimdə hörmətli seçicilərimə yalnız reallaşması mümkün olan vədlər verməyə və onları həll etmək üçün var gücümlə çalışacağıma söz vermişəm.

Məni deputat seçənlərin böyük etimad yükünü həmişə kürəyimdə hiss edir, çiynimdə gəzdirirəm. Bu mənəvi borcu deputatlıq fəaliyyətimin 5 ilində heç vaxt unutmamış, özümü həmişə seçicilərim qarşısında borclu hiss etmişəm.

Deputatlıq dövründə yüzlərlə seçicilərimlə görüşlərim olmuşdur. Öz səlahiyyətlərim daxilində var gücümlə, namusla seçicilərimin etimadını doğrultmağa səy göstərmişəm, onların xeyrinə-şərinə yaramağa çalışmışam. Əlbəttə, mən yalnız bacardıqlarımı edə bilərdim və onları da etməyə çalışmışam.

Ölkə rəhbərliyi və Milli Məclis tərəfindən mənə deputat seçiləndən sonra da yüksək etimad göstərildi. Milli Məclisin ən mühüm komissiyalarından birinə - İqtisadi siyasət daimi komissiyasına sədr seçildim. Büdcə, vergi, bank, gömrük, sığorta qanunvericiliyi, nəqliyyat və s. iqtisadi fəaliyyətin müxtəlif sahələrinə dair qanunlar hazırlanması üzrə aparıcı rol bizim komissiyaya məxsus olduğu üçün səlahiyyətim başqa deputatlara nisbətən daha geniş, məsuliyyətim isə daha çox oldu.

Qanunvericilik hakimiyyətinin maliyyə məsələləri ilə məşğul olan komissiyasına rəhbərlik etmək asan iş deyil. Ölkənin sosial-iqtisadi həyatının bütün sahələrini əhatə edən, 8 milyonluq



Azərbaycan əhalisinin hər birinin maraqlı olduğu dövlət büdcəsi haqqında ildə ən azı 2-3 dəfə Milli Məclisə dərin elmi təhlilə əsaslanan məruzə etmək, hörmətli deputatların suallarına cavab vermək heç də asan deyildir. Həm də ona görə ki, dövlət büdcəsinin müzakirələri və təsdiqi prosesi Azərbaycan hökumətinin sosial-iqtisadi sahədə bir illik fəaliyyətini təhlil etmək, görülmüş işlərin nəticələrinə qiymət verməkdir. İnanın ki, dərin elmi biliyə, professionallığa malik olmadan, nə hökumətin sosial-iqtisadi proseslərdə rolunu, fəaliyyətini təhlil etmək, nə də onun daha da təkmilləşdirilməsi üzrə konstruktiv təkliflər vermək mümkün deyil. Burada iqtisadiyyat sahəsində 39 ilə yaxın öyrəndiklərim işimin səmərəliliyinə xidmət etdi.

İqtisadi siyasət komissiyası faktiki olaraq iki komissiyanın birləşməsi ilə yaradılmışdır. Ona görə də əvvəllər iki komissiya tərəfindən yerinə yetirilən iş indi bir komissiyanın öhdəsində qalır. Ona görə də Milli Məclisin elə iclası olmur ki, orada bizim komissiyanın təqdim etdiyi məsələ olmasın. İqtisadi siyasət komissiyasının işi həqiqətən ağırdır.

Digər komissiyalarda olduğu kimi komissiyaya aid işlərin əsasını onun sədri görməli olur. Bu Milli Məclisin ən azı bir neçə komissiyasında belədir. Hər gün səhər saat 9-da işə gəlib axşam saat 11-12-ə kimi işləmişəm. Gecə saat 2-də işdən getdiyim vaxtlar da az olmamışdır. Əksər bazar günləri və bayram günlərini də işdə olmuşam. Milli Məclisə buraxılış yerində işləyənlər kimin nə vaxt işə gəldiyi və işdən getdiyini hamıdan yaxşı bilirlər.

Dövlətin maliyyə siyasətinin reallaşmasına hüquqi baza yaradılmasında bilavasitə iştirak etməklə seçildiyim rayonun da maliyyə problemlərini təhlil etməyə və onların həllinə nail olmağa çalışmaq imkanım olmuşdur.

Ağdaş rayonunda pensiyaların, büdcə təşkilatlarında çalışanların əmək haqlarının ilk olaraq ödənilməsinin təmin olunmasına təsir etməyə imkanım olmuşdur. Əlbəttə, burada söhbət ayrıseçkiliyə yol verilməsindən deyil, rayondakı problemləri başqalarından yaxşı bildiyim üçün onların nəzərə alınmasından gedir.

Ağzıbir kənd orta məktəbinin binası uçuq daxmalarda yerləşirdi. Sinif otaqları çatışmırdı. Bu orta məktəbin iki mərtəbəli binası-

nın tikintisi dövlət büdcəsinin vəsaiti hesabına başa çatdırılmasını təmin etdik. İndi orta məktəbin şagirdləri geniş və işıqlı sinif otaqlarında, müasir ləvazimatlarla dərs keçirlər.

Kükəl məktəbinin yarısı zəlzələdən uçmuş, bir hissəsində isə təhlükəli çatlar əmələ gəlmişdi. Sinif otağının divarlarında yaranmış çatlardan bayır çox yaxşı görünürdü. Məktəbin müdirindin və kənd icra nümayəndəsindən qəza vəziyyətində olan siniflərdə dərs keçilməməsini, müvəqqəti olaraq mümkün olan digər yerlərdə dərslərin keçirilməsini xahiş etdim.

Nazirlər Komitəsinin komissiyasının göndərilməsini təmin etdik və onların rəyi əsasında təcili olaraq orada işin başlanmasını, dövlət büdcəsinin vəsaiti hesabına binanın yenidən tikilməsini təmin etmək üçün tədbirlər gördük. Hazırda şagirdlər rahat şəraiti olan sinif otaqlarında dərs keçirlər.

Ağdaş şəhərində 5 sinif otağının tikintisi dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirildi.

Deputat seçildiyim zaman rayon miqyaslı iclası keçirməyə yer tapılmırdı. Rayon miqyaslı iclaslar orta məktəblərin akt zalında keçirilirdi. Bu məqsəd üçün nəzərdə tutulmuş Mədəniyyət sarayını üfunət bürümüş və ora dağıntı, çöküntü içərisində idi. Onu Nazirlər Kabinetinin Tikinti Proqramına saldırmaq lazım idi. Mədəniyyət Naziri Polad Bülbüloğluna müraciətim mənasız oldu. Baş Nazirlə görüşdüm, vəziyyəti ətraflı izah etdim.

Mədəniyyət sarayı rayona yaraşıq verən binaya çevrilmişdir. Bütün tədbirlər geniş, yaraşıqlı zalda, ayrı-ayrı tədbirləri isə kiçik zallarda keçirmək mümkündür.

Mən seçki marafonunda olan zaman Rayon İcra Hakimiyyətinin Başçısı Şahmuradov İsmixan idi. Yaxşı adam idi, mən onun atasını və qardaşlarını da tanıyıram. İsmixan müəllimlə biz çörək kəsmişik. O, uzun sürən ağır xəstəlikdən sonra vəfat etdi. Allah rəhmət etsin.

O, seçki ərəfəsində mənə demişdi ki, bəzi adamlar özbaşınalıq edir. Lap Rayon İcra Hakimiyyətinin həyətini, qonaq evini, maşın saxlamaq üçün qarajların binasını və s. özəlləşdirmişlər.

Qarabağ müharibəsinin əlilləri yaşayış evləri olmadığından, rayonda tikintisi yarımçıq qalmış (bünövrəsi qoyulmuş, qalan işləri



10-12 il yarımçıq qalmış, yan-yörəsi sökülmüş) binanın tikintisini başa çatdırmağı və onların mənzil şəraitinin yaxşılaşmasına kömək etməyi xahiş etmişdilər. Bu obyekti də Rayon İcra Hakimiyyətinin həyəti və qonaq evini özəlləşdirən öz əlinə keçirmiş, özəlləşmə sənədlərini almışdı.

Ağdaş əhalisi məni Milli Məclisə üzv seçəndən sonra İqtisadi İnkişaf Naziri və eləcə də bu nazirliyin departamentləri ilə gərgin danışıqlar aparası oldum. Uzun mübahisələrdən sonra onların hamısının özəlləşdirilməsi haqqında qərarı ləğv etdirdim.

Ağdaş şəhərində bünövrəsi qoyulmuş, lakin on ildən çox yarımçıq qalmış yaşayış evini də su qiymətinə özəlləşdirmişdilər. Orada da vəziyyəti tamam dəyişdirdik. Orada 48 mənzilli yaşayış evinin 24-ü bu il, 2005-ci ildə istifadəyə veriləcəkdir. Qalan 24 mənzilin isə maliyyələşmə mənbəyini müəyyən etmişik. O, 2006-cı ildə istifadəyə veriləcəkdir. Oradakı mənzillər dövlət büdcəsinin vəsaiti hesabına tikilir və Qarabağ uğrunda müharibədə əlil olmuş ağdaşlılara veriləcəkdir.

Ümummilli liderimiz Heydər Əliyevin Sərəncamı ilə Rafiq Niftəliyev Ağdaş rayon İcra Hakimiyyətinin Başçısı təyin edildi. Ağdaş rayon əhalisi bu təyinatdan bir-iki ay sonra ümummilli liderimizə minnətdarlıq teleqramları göndərməyə başladılar. Rafiq müəllim qısa müddət ərzində rayon əhalisinin rəğbətini qazandı.

Rayonun abadlaşdırılmasında çox böyük əmək sərf etdi. Rayon iş adamlarının, dövlət idarələrində çalışanların daxili imkanlarının səfərbərliyə alınması və bütün vəsaitlərin rayonun abadlaşdırılmasına yönəldilməsi üçün tədbirlər görülməsini təmin etdi.

Rayonda görülən işlərin bir qismi dövlət büdcəsinin vəsaitləri hesabına, digər hissəsi isə Rafiq müəllimin işgüzarlığı, təşkilatçılığı hesabına həyata keçirilir. Rafiq müəllim rayon əhalisinin, imkanlı adamlarının fəallığının ümumi işlərin yerinə yetirilməsinə yönəldilməsini təmin etməklə həqiqətən çox iş görmüşdür və bu işlər davam edir.

Rafiq Niftəliyev Rayon İcra Hakimiyyətinin həyətində qonaq otağını xüsusi zövqlə təmir etdirmiş, İcra Hakimiyyətinin həyətini səliqə-sahmana salmış, rayonun mərkəzi parkını gözəl bir xiyabana çevirmişdir.

Rayonun Qaradağlı və Zeynəddin kəndləri və qismən də Qolqəti kəndi Ağdaşa bitişməkdədir. Onların qazla təchiz olunması barədə seçicilərimin müraciətlərini Nazirlər Kabinetinin Sədri A.Rəsizadə cənabları ilə bir neçə dəfə müzakirə etmişik. Mənim təkidli tələblərimdən sonra Baş nazir «Azəriqaz» Dövlət Şirkətinə yuxarıda qeyd etdiyim kəndlərin qazla təchizatına dair tapşırıq verdi. Zeynəddin və Qaradağlı kəndinə aid problem həll edilmiş, Qolqəti kəndinin probleminin yaxın vaxtlarda həll olunacaqdır.

Ağdaş rayonunun ən ağrılı problemi elektrik enerjisi ilə əlaqədardır. Bu problem respublikamız üçün ümumi problemdir. Lakin Ağdaş rayonunda bunun spesifik cəhətləri vardır.

Ağdaş rayonunun özünə məxsus yarımstansiyası olmamışdır. Rayonun dağətəyi kəndlərinə Yevlax rayonundan, Kürqırağı kəndləri isə Ucar rayonundan elektrik enerjisi verilirdi. Gücü çatmadıqda, xüsusilə qış aylarında qəza baş verməməsi üçün elektrik xətlərini açmaq lazım gəlirdi. Təbii ki, elektrik enerjisi açılan Ağdaş rayonunun kəndləri olurdu. Elektrik problemləri ilə əlaqədar rayonda stabilliyin pozulması halları olmuşdur.

Qəsildə, Ləki qəsəbəsində magistral yolun əhali tərəfindən kəsilməsi halları da olmuşdur. Rayon İcra Hakimiyyəti Başçısının (Bu İsmixan müəllimin vaxtında olmuşdur) və eləcə də rayon deputatının səyi ilə problem həll olundu, yol qısa müddətdən sonra açıldı.

Problemin əsaslı həlli Ağdaş rayonunda müstəqil yarımstansiyanın yaradılması ilə həll edilə bilərdi. Gərgin əmək və təkidli səylərdən sonra 2005-ci il martın 24-də yarımstansiyanın açılışı oldu. Bununla Ağdaş rayonu tarixində özünün müstəqil yarımstansiyası oldu. İndi Ucardan və Yevlaxdan asılılıq aradan qaldırılıb. Rayona verilən enerjidən rayonun sistemli və ədalətli istifadəsini təmin etmək imkanı əldə etdi.

Ağdaş elektrik yarımstansiyasında 4-5 meqavat ehtiyat imkanlar vardır. Bu rayonun perspektiv inkişaf tələbatını nəzərə alaraq edilmişdir.

**Ölkə Prezidenti İlham Əliyev cənablarının imzaladığı «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda müəyyən olunmuş vəzifələrin reallaşmasına Ağdaş rayonunda yarımstansiyanın tikilib istifadəyə verilməsi bir töhfə oldu.**

**2005-ci il martın 24-də yarımstansiyanın açılışı zamanı çıxış edənlərin hamısı ölkə Prezidentinə minnətdarlığını bildirdilər. Onlar qeyd etdilər ki, Ağdaş rayonunda enerji təchizatının yaxşılaşması rayonun sosial-iqtisadi inkişafına təkan verəcək, yeni iş yerləri yaranmasına, xalqın rifahının yüksəlməsinə xidmət edəcəkdir.**

Əlamətdar cəhət ondan ibarətdir ki, yarımstansiyanın gücü rayonun hazırki maksimal tələbatından xeyli yüksəkdir. Yeni yaradılan müəssisələrin elektrik enerjisindən istifadə etmələri üçün imkanlar nəzərdə tutulmuşdur.

Ağdaşın su-kanalizasiya sisteminin müasir tələblər səviyyəsinə yüksəltmək ən ağrılı problemlərdən biridir. Bura xarici investor cəlb etmədən keçinmək mümkün deyil. Çoxlu danışıqlardan sonra Ağdaşın su-kanalizasiya sisteminin müasir tələblər səviyyəsində yenidən qurulmasını təmin etmək üçün beynəlxalq maliyyə təşkilatlarından 12,5 milyon dollar vəsait ayrılması haqqında qərar qəbul olunması təmin edildi. Bu yaxınlarda rayonda işləri başlamaq nəzərdə tutulur.

Rayonda bir neçə artezian quyusu qazılmış, Arılıbir kəndində isə yaxın vaxtlardə artezian quyusu vurulacaqdır. Bu barədə əhali bizə müraciət etmişdi. Biz seçicilərimizin sözünə etinasız qala bilməzdik.

Ərəbocağı kəndində içməli suya tələbatı ödəmək üçün artezian quyusu qazılacağına söz vermişdim. Seçicilərimin bu tapşırığını yerinə yetirə bilmədim. Səbəbi Ekologiya nazirliyi mütəxəssislərinin Ərəbocağında içməli yeraltı suların olmasını inkar edən rəyləri oldu. İndi ekologiya naziri Hüseyin müəllimlə danışığımız olmuşdur. Ərəbocağı kəndinə yaxın yerdə yeraltı içməli su ehtiyatlarının olduğunu nazirliyin mütəxəssisləri aşkar etməyə çalışırlar. Əgər bu axtarış müsbət nəticə versə, onda mənə yeni rəy verəcəklər. Müs-

bət rəy olsa, onda problemin həlli ilə yenidən məşğul olacağam.

Bu kəndə, onun əhalisinə məndə hələ gənclik vaxtından çox isti münasibətlər vardır. Mən həmin kəndin seçiciləri ilə görüşə gedəndə mənə xəbərdarlıq eləmişdilər ki, orada çox ehtiyatlı ol, müxalifət, filan orada çoxdur. Görüşlərimdə tamam əksinə oldu. Mənim orta məktəbdə oxuyarkən sinif yoldaşlarımdan Ərəbocağından olanlar olmuşdur.

Sağlıq olsun, imkan tapan kimi sözümü yerinə yetirəcəyəm. Bu tapşırığı mən çoxdan yerinə yetirərdim. Lakin müsbət ekspert rəyi olmadan onun icrası praktiki olaraq mümkün deyildir.

Ağdaş rayonunda xeyli iş görülmüşdür. Onu Rayon İcra Hakimiyyətinin Başçısı Rafiq müəllimlə birgə yerinə yetirmişik. Bizim aramızda çox səmimi münasibətlər vardır. Əl-ələ verib möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının tapşırıqlarını yerinə yetiririk.

Açığını deyim ki, **möhtərəm Prezidentimiz Heydər Əliyevin, onun strateji kursunun ləyaqətlə və ardıcıl olaraq yerinə yetirən İlham Əliyev cənablarının qayğısı olmadan bu göstərilən işlərin dövlət büdcəsinin vəsaiti hesabına yerinə yetirmək qeyri-mümkün idi.** Axı qanunvericiliyə əsasən dövlət büdcəsinin sərəncamçısı ölkə Prezidentidir. Onun tapşırığı, sərəncamı ilə büdcənin icrası təmin edilir. Ona görə də ölkə Prezidentinin qayğısı sayəsində bu orta məktəblərin tikintisini başa çatdırmaq və istifadəyə vermək mümkün oldu.

**Hazırda Ağdaş rayonunun Kotavan kənd orta məktəbinin tikintisini dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir. Bu yenə də möhtərəm Prezidentimizin köməyi ilə mümkündür. Bütün bu qayğılara və köməkliklərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarına Ağdaş rayonundan olan seçicilərim adından minnətdarlığımı bildirirəm.**

**Beş ildə bu qədər tikinti və abadlıq işlərinin aparılması minlərlə adamın sevincinə səbəb oldu. Məktəblərin açılışlarında ölkə Prezidentinin ünvanına deyilən xoş sözlər və arzular köksümü fərəh hissi ilə doldurur və məni daha fəal işləməyə ruhlandırırdı.**



Beş ildə Ağdaş rayonunun sosial-iqtisadi həyatının müxtəlif sahələrinə aid bir sıra digər işlərin həyata keçirilməsində də fəal iştirak etməyə çalışmışam. Səmimiliyimə inanın, özünün və ailəsinin şəxsi problemləri ilə əlaqədar Prezident Aparatı və Nazirlər Kabineti rəhbərliyinə xahişlə müraciət edən deputatlardan olmamışam. Ehtiyacımsa o müraciət edənlərdən heç də az olmamışdır.

Seçildiyim rayonların sosial-iqtisadi problemlərinin həllinə nail olmaq mənim üçün şəxsi problemlərimin həllindən üstün olmuşdur. Bunu Prezident Aparatında da, Nazirlər Kabinetində də bilirlər. Ona görə də **deputat seçildiyim rayonun problemlərinə dair müraciətlərimə Prezident Aparatında və Nazirlər Kabinetində həmişə qayğı ilə yanaşmış və onların həllinə kömək etmişlər. Bütün bunlara görə ölkə Prezidentinə, Prezidentin İcra Aparatı və Nazirlər Kabineti rəhbərliyinə seçicilərim adından dərin minnətdarlığımı bildirirəm.**

Deputatlıq illərində nələri edə bildiyim haqqında fikri, təbii ki, hörmətli seçicilərim deyə və fəaliyyətimə qiymət verə bilərlər.

Ağdaş rayonunda görüləsi işlər çoxdur. Problemlərin hamısının birdən həlli mümkün deyil. Onların ən vacibləri müəyyənləşdirilməli və ardıcıl olaraq həlli təmin edilməlidir.

Hər bir rayonun problemləri mümkün qədər həmin rayonun daxili imkanları hesabına həll edilməlidir. Bütün problemlərin mərkəzdən həlli, sadəcə olaraq mümkün deyil.

Bu gün hər bir rayonun zəruri xərclərinin öz gəlirləri ilə təmin olunmayan hissəsi dövlət büdcəsindən subsidiya formasında ödənilir. Bu başlıca olaraq büdcə təşkilatları xərclərinin ödənilməsinə, ən əvvəl müəllimlərə, həkimlərə, mədəniyyət işçilərinə əmək haqqı verilməsinə sərf olunur.

Dövlət rayonun sosial-iqtisadi problemlərinin həllinə büdcənin imkanları daxilində kömək edə bilər. Edir də. Nəzərə alınmalıdır ki, dövlət büdcəsinin 57-58 faizi sosial istiqamətlərə sərf edilir. Ölkədə bir milyon qaçqın və köçkün, bir milyon iki yüz min pensiyaçı vardır. Bunlardan əlavə respublikamız müharibə vəziyyətindədir.

Ölkə Prezidenti möhtərəm İlham Əliyevin gərgin səyi ilə atəşkəs rejimi qorunur. Lakin hələlik işğal olunmuş ərazilərimizi geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, Böyük Sülh sazişi bağlamaq mümkün olmamışdır.

Azərbaycan Dövlətinin başçısı Böyük Sülh sazişinin imzalanması üçün nə mümkünsə hamısını etmişdir və edir. Məsələ ondan ibarətdir ki, problemin həlli beynəlxalq xarakter almışdır. O beynəlxalq təşkilatlar səviyyəsində, onların vasitəçiliyi sayəsində sülh yolu ilə həll edilə bilər. Hazırda bu sahədə gərgin iş gedir.

Dövlət başçısı öz nüfuzundan istifadə edərək bir sıra diplomatik müvəffəqiyyətlərə nail olmuşdur. ATƏT-in yaratdığı «Minsk qrupu» bu problemin sülh yolu ilə həlli üçün variantlar axtarır, münaqişə tərəflərinə problemin dinc yolla həll olunması üçün təkliflər verir. Lakin «Minsk qrupu» üzvləri - ABŞ, Rusiya və Fransa tərəfindən problemin həlli üçün göstərilən cəhdlər hələlik real nəticə verməmişdir. Səbəbləri çoxdur. Başlıcası bu dövlətlərin problemin həllində maraq və mənafe ümumiliyinin olmamasıdır.

Ermənistanın problemin həllində qeyri-konstruktiv mövqeyi hamıya məlumdur. Fikrimizcə, bu başlıca şərt deyildir. «Minsk qrupu» dövlətlərinin Azərbaycana qarşı ikili standarta əsaslanan siyasəti olmasaydı, problem çoxdan həllini tapardı.

Azərbaycan öz torpaqlarını sülh yolu ilə azad etməyə cəhd göstərmiş və indi də göstərir. Lakin sülh yolu ilə problem həll olunmadıqda hərbi yolla ərazi bütövlüyümüzü təmin etməliyik.

**Nə müharibə, nə də sülh şəraitində uzun müddət yaşamağın qeyri-mümkünlüyünü hamımız dərk etməliyik. Ona görə də Azərbaycanın müdafiə qabiliyyətinin tələb olunan səviyyəsi təmin edilməlidir. Bütün bunların hamısı külli miqdar büdcə vəsaitinin müdafiə ehtiyaclarına yönəldilməsini tələb edir. Büdcə vəsaitlərindən istifadə edilməsində bunlar nəzərə alınmalıdır. Ona görə də hər bir rayonun potensial imkanlarından həmin rayonun sosial-iqtisadi inkişafı üçün maksimum səmərəli istifadə edilməlidir.**

Hər bir rayonda lazımi dərəcədə istifadə olunmayan, təsərrüfatçılıq dövriyyəsinə cəlb edilməli olan ehtiyatlar vardır. Onların istifadəsi üçün təşəbbüskarlıq, çeviklik, bazar münasibətlərinə adekvat fəaliyyət göstərilməsi təmin edilməlidir.

Bələdiyyələrin yaradılması ilə əvvəllər dövlət büdcəsinə yığılan vergilərin bir qismi: **fiziki şəxslərin torpaq vergisi, fiziki şəxslərin əmlak vergisi, yerli əhəmiyyətli tikinti materiallarının istismarından mədən vergisi, bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi** yerli özünüidarə orqanlarının sərəncamında qalır. Həmin imkanlardan səmərəli istifadə olunması yerli sosial-iqtisadi problemlərin həllinə maliyyə təminatı yaradılmasında mühüm rol oynamalıdır. Əlbəttə, bu imkanlar tədricən yaranacaqdır.

Hələliksə bələdiyyələrə dövlət büdcəsindən vəsait verilir. 2005-ci ilin dövlət büdcəsindən 10 milyard manat bələdiyyələrə verilmişdir. Əlbəttə, gələcəkdə bələdiyyələrin maliyyə imkanları indikinə nisbətən müqayisə edilməz dərəcədə artacaqdır. Onda bələdiyyələr öz ərazilərindən formalaşan maliyyə mənbələri hesabına yerli sosial-iqtisadi problemlərin həllində aparıcı rol oynayacaqlar.

Təbii ki, həll edilməsi rayonun imkanları hesabına mümkün olmayan problemlər də olacaqdır. Onda dövlət büdcəsinin vəsaitindən istifadə etməyə çalışmaq lazım gələcəkdir.

Bu gün ölkənin ali qanunverici orqanına kimlərin seçiləcəyi, yeni parlamentin kimlərdən formalaşacağı müxtəlif auditoriyalarda müzakirələrin ən aktual mövzularına çevrilmişdir. Bu həm deputatlığa iddiaçıları, həm də seçiciləri ən çox düşündürən, hamının nəzər nöqtəsinə çevrilən problemdir.

Cəmiyyətin müxtəlif siyasi qütblərində seçkilərlə bağlı yığıncaqlar, məşvərətlər, açıq və qapalı iclaslar keçirilir, strateji məqsədlər və onların reallaşmasına yönəlmiş taktiki gedişlər müəyyənləşdirilir.

Təkcə özlərini «**Azərbaycanın bu günü və gələcəyini düşünənlər**» hesab edən cəbhə-müsavat cütlüyünün «liderləri» çoxlu müzakirələrdən, məsləhət və məşvərətlərdən sonra qərara gəlmişlər ki, **«hər iki təşkilatın bu rejimə qarşı birgə mübarizəsi»** tə-

min edilməlidir. Onlar özlərinin çoxsaylı müşavirələrindən sonra **«qanunverici hakimiyyətin xalqın problemlərini bilən və onları həll etməyə qadir olan insanlardan təşkil olunması»**na nail olmağı hazırki dövrün başlıca vəzifəsi hesab etmişlər.

Müsavat başqanı İsa Qəmbərin və cəbhə «liderlərindən» biri olan Əli Kərimovun fikrincə, **«xalqın problemlərini bilən»**lər də, **«onları həll etməyə qadir olan»**lar da məhz cəbhə-müsavat cütlüyündə olanlardır. Bu nəticə ən azı onların «məntiqindən» hasil olur.

Onların xalqın problemlərini necə həll etdiyi 15-16 oktyabr 2003-cü il hadisələri bir daha göstərdi. Onlar, özlərinin partiya daxili problemlərini həll edə bilməyənlər ölkənin problemlərinin həllində israrlıdırlar. «Cənab bəylər», deyəsən hər birinizin bir «mahalın padşahı» olduğunuz dövrlər yadınıza düşüb. «Bəylər», yadınızdadırmı, hər birinizin birinci şəxs olmaq iddiası siyasi partiyalarınızda «həmsədr institutu» icad etməklə nəticələndi.

Azərbaycanda 40-a yaxın siyasi partiya vardır. Burada biz nəinki ABŞ-a çatmışıq, onu hələ ötüb keçmişik də. Buna baxmayaraq yeni partiyalar yaranması bu gün də davam edir. Unutmamalıyıq ki, **ölkədə danışanların sayı artdıqca işləyənlərin sayı azalır.**

Milli Məclis, seçkilərlə bağlı görməli olduğu işlərin hamısını həll etmişdir və edir. Seçkilərin keçirilməsinə hüquqi baza yaradılmış, onun reallaşmasını təmin edəcək təlimatlar, əsasnamələr, qaydalar və s. hazırlanması başa çatmaqdadır.

**«Mərkəzi Seçki Komissiyası haqqında» və «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında»** qanunlar seçkilərin demokratik prinsiplər və qaydalarla, azad, könüllü, aşkarlıq və bərabərlik mühitində keçirilməsini təmin etməyə şərait yaradır. Bunu müxalifətin bəzi «liderləri»də təsdiq edirlər. Pənah Hüseynovun fikrincə: **«ideal yox, mövcud qanun çərçivəsində seçkilər keçirilsə, birləşmiş müxalifət bu vəziyyətdə yerlərin ən azı 50 faizinə qədər iddia edə bilər.»**

Cənab bəyciklər, siz çox iddialar irəli sürə bilərsiniz. Bilirsiniz, sizin iddialarınızın və ambisiyalarınızın hamısı bizə məlumdur. İddialarınızla imkanlarınızı, qabiliyyət və bacarığınızı müqayisə edin, obyektiv olaraq neçə səs toplamaq imkanlarına malik olduğunuzu müqayisə edin, çalışın özünüzə kənardan baxmağı öyrənəsiniz. Onda ölkənin sosial-iqtisadi həyatında öz yerinizi, bəlkə də, müəyyən edə bilərsiniz.



Hər yerdə, o cümlədən siyasi mübarizədə də qanunlara riayət etmək, qanunun aliliyini gözləmək vacibdir. Lakin ən təkmil qanunun belə avtomat reallaşma xassəsinə malik olmadığını unutmamalıyıq. Başlıca məsələ qanunun yaratdığı şəraitdən səmərəli istifadə etməkdir. Bu hər bir seçicinin ali qanunvericilik orqanının mahiyyəti və funksiyalarını dürüst anlamalarından, onların siyasi fəallığından, Milli Məclisin formalaşmasında partiya, tayfa, məhəllə, ailə maraqlarından deyil, ümumxalq, ümummilli mənafedən çıxış etmələrindən asılı olacaqdır.

Təcrübənin göstərdiyi kimi deputatlığa namizədliyini irəli sürənlərin heç də hamısı qanun yaradıcılığında iştirak etməyi qarşıya məqsəd qoyanlar deyillər. Onların bir qismi müxtəlif yollarla, o cümlədən kriminal üsullarla yaratdıqları var-dövlətinə immunitet qazanmaq, özlərinə toxunulmazlıq hüququ əldə etmək arzusunda olanlardırlar. Onların bir çoxu bizneslə məşğul olanlar, xarici ölkələrdən «qrantlar» almaqla fəaliyyət göstərənlərdilər.

Əvvəlcədən onu deyək ki, deputat seçilməyi öz biznes maraqlarını qorumaq, özünün idarə etdiyi və ya himayədarlıq göstərdiyi sahibkarlıq subyektlərinin fəaliyyətinə **«sehrli örtük»** yaratmaq vasitəsi hesab edənlər və belələrinə səs verənlər bərk yanılırlar. Əvvəla, bu qanunlarımıza ziddir.

Konstitusiyamıza əsasən **«elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər ... Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilə bilməzlər».** Bu birmənalıdır.

**«Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında» Azərbaycan Respublikasının Qanununa** əsasən namizədliyini irəli sürənlər gəlirləri və əmlakı haqqında, əgər belə demək mümkünsə, bəyannamə doldurması tələb olunur. Qanunun 42-ci maddəsində namizədin dairə seçki komissiyasına təqdim etməli olduğu sənədlərin tərkibində aşağıdakılar da nəzərdə tutulur:

**- namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumat;**

**- mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə məlumat;**

**- namizədin illik maliyyə hesabatı (seçici imzaları toplanmasının təşkilinə sərf edilən vəsaitlər haqqında məlumatlar göstərilməklə).**

Aydın məsələdir ki, dairə seçki komissiyalarına və eləcə də digər seçki orqanlarına yanlış, qeyri-dürüst məlumat vermək və ya sənəd təqdim etmək saxtakarlıqdır və onu təqdim edən şəxs qanunvericiliklə müəyyən olunmuş məsuliyyətə cəlb oluna bilər. Olunur da.

Öz biznes maraqlarını güdənlərin, xalqın, dövlətin əmlakını qamarlayıb mənimsəyənlərin, qaçaqmalçılıqla məşğul olanların, dövlət büdcəsinə icbari ödənişlərdən yayınmaqla, deməli, xalqın cibinə girməklə külli var-dövlət sahibi olanların Milli Məclisin üzvü seçilməsinə yol vermək olarmı?

Həm deputatlığa namizədlər, həm də seçicilər bələlərinin ali qanunverici orqanda təmsil olunmalarına yol verməməlidirlər. Ən azı ona görə ki, qanunlarımızı pozanların, saxtakarlıqla məşğul olanların, kriminal xarakterli var-dövlətini qorumaq məqsədilə qanunverici orqanın üzvü olmağa cəhd göstərənlərin orada yeri olmamalıdır. Çünki bələlərinin deputat mandatının onlara verdiyi səlahiyyətləri ümumxalq, ümummilli problemlərin həllinə deyil, özlərinin kommersiya qurumlarının, mağazalarının, şadlıq evlərinin və digər strukturlarının qanunlarımızı pozaraq fəaliyyət göstərmələri, deməli daha çox var-dövlət qazanmaları üçün istifadə edəcəklərinə şübhə edilməməlidir.

Milli Məclis deputatlarının bir hissəsinin müxtəlif yollarla bizneslə məşğul olmaları, «güclü qazanc mənbələri»nə yiyələnmələri danılmazdır. Onların lap qanunlardan danışanda belə öz strukturları haqqında düşündüklərinə, öz gəlirlərinin artırılmasına lobbilik etdiklərinə şübhə edilməməlidir. Bələlərinin deputatlığından dövlət, xalq deyil, yalnız ayrıca bir fərd, ailə, tayfa qazana bilər. Hörmətli seçici, belə deputat sizə lazımdırmı?

Vaxtilə qardaş Türkiyə Respublikasının parlamentinə bankirlərin, tacirlərin, komersantların, bir sözlə **«iri pul sahiblərinin»** seçilməsinə imkan verilmişdi. Türk xalqı həmin parlamenti - **«akula parlamenti»** adlandırmışdı. Xatırladırıq ki, «akula parlamentinin» ömrü gödək olmuşdur.



Milli Məclisin üzvü həmişə **«tərəzidədir»**, xalqın gözü qarşısındadır. Ali qanunverici orqanın üzvü hər bir sahədə müsbət keyfiyyətləri ilə başqalarına nümunə olmalıdır. Ən əvvəl, qanunun aliliyi prinsipinə əməl etməkdə. Başqalarını qanunun aliliyi prinsipinə əməl etməyə çağıran deputat buna əvvəlcə özündən başlamalıdır. Bu aksiomdur. Sual olunur, qanunlarımızı pozanın ali qanunvericilik orqanının - Milli Məclisin üzvü olmağa, qanun hazırlamağa və qəbul etməyə mənəvi haqqı varmı?

Hazırda özlərini «xalqın mənafeyi uğrunda fəda edənlər» kimi qələmə verənlər - müxalifətdən olan bəzi «millət vəkilləri» **Milli Məclisin iclaslarına, eləcə də digər iclaslara və tədbirlərə çoxsaylı cangüdənlərinin müşayiəti ilə, ən bahalı şəxsi maşınlarda gəlirlər. Milli Məclisdən verilən əmək haqqı ilə belə yaşamaq qətiyyən mümkün deyil. Bu həqiqətdir.**

Müəmmalı mənbələrdən, o cümlədən xarici ölkələrdən maliyyələşən deputat Azərbaycan xalqı, dövlətçiliyi üçün gərəkli qanunlar hazırlaya bilərmi? Bələlərinin Milli Məclisdə oturmağa haqqı varmı?

Unutmamalıyıq ki, deputat, yalnız qanunvericilik fəaliyyəti ilə məşğul olan siyasətçi deyildir. O habelə müxtəlif beynəlxalq təşkilatlarda Azərbaycan dövlətini təmsil edən, respublikamızın maraqlarını qoruyan şəxsdir.

Hörmətli seçicilər, **«qonorarı» okeanın o tayından gələn, təsisçisi olduğu partiya, qəzet, jurnal və s. kütləvi informasiya vasitələri xarici ölkələrdən maliyyələşən «deputat», sizcə, beynəlxalq forumlarda hansı dövlətin maraqlarını qoruya bilər?**

Məlum olduğu kimi, okeanın o tayında və bu tayında olanlar pullarını havaya sovurmurlar. «Kim pulu verir, sifarişi də o verir» deyirlər. İndi bəzi dövlətlərin külli miqdar vəsait sərf edib kəşfiyyatçılar ordusu saxlamalarındansa müxtəlif siyasi partiyalar və qeyri hökumət təşkilatları yaratmaları və onları maliyyələşdirmələri daha sərfəlidir. Ölkə vətəndaşını öz ölkəsinə qarşı işləməyə vadar etmək, hazırda ən geniş yayılmış təxribatçılıq formalarındandır.

Xarici ölkələrə qastrola dəvət almış, okeanın o tayında və bu tayında Azərbaycan həqiqətlərinə qara yaxmaqda ermənilərlə «yarışa girən siyasətçilərin» fəallığını biz heç də təsadüfi hesab etmirik. Beləl əri **«hakimiyyətin zorla ələ keçirilməsinə, konstitusiya quruluşunun zorla dəyişdirilməsinə»** və qanunla qadağan olunmuş digər sərsəm çağırışlara da yol verirlər desək, yəqin ki, sirr açmarıq. Onların Milli Məclisə deputat «seçiləndə də», parlamentdə «fəaliyyət göstərəndə də» xarici ağalarına qulluq etməyəcəklərinə kim təminat verə bilər?

Hörmətli seçicilər! Belələrini Milli Məclisə deputat seçmək olarmı? Bizim hamımız bu barədə düşünməliyik. Həm də vaxtında!

Deputatlığa iddiaçılardan bəzisinin seçki marafonunda öz biliyinə, bacarığına, ağlı, zəkası və qabiliyyətinə deyil, əyri yollarla topladığı var-dövlətinə, puluna güc verməsi halları olur desək, yəqin ki, sirr açmarıq.

Hörmətli seçici! Belələrinin Milli Məclisə seçkiləri biznes fəaliyyətinə pul qoyub, pul qazanmaq alətinə çevirməyə cəhd göstərdiklərini hiss edirsinizmi?

Qanun hazırlamaqla xeyriyyəçilik, ianəçilik və biznes fəaliyyəti eyniləşdirilməməlidir. Bunlar tamam başqa-başqa fəaliyyət sahəsidir. Qanun hazırlayan hər hansı bir fəaliyyətin Konstitusiyamızdan irəli gələn prinsiplərini və qaydalarını müəyyən edir. Misal üçün, dövlət büdcəsinə vergilərin, icbari ödənişlərin dərəcələrini, normalarını və s. müəyyən edir. Burada xeyriyyəçilik deyil, dövlətçilik mövqeyində dayanmaq, prinsipiallıq göstərmək tələb olunur.

**Öncə xalqdır, öncə Vətəndir!** Bu Milli Məclisə seçkilərdə iştirak edənlərin, həm iddiaçıların, həm də seçicilərin əsaslandığı meyar olmalıdır. Burada ali qanunvericilik orqanına üzv seçilənlərin Konstitusiyamızla müəyyən edilmiş prinsiplərə əməl etməsi gərəkdir.

Hamı bilməlidir ki, seçiciləri ələ almaq üçün pul paylamaq, hədiyyələr vermək, müxtəlif ərzaq və qeyri-ərzaq mallarını sovqat vermək və ya gələcəkdə, seçkidə qalib gələrsə, onları edəcəyini vəd etmək, bir sözlə, rüşvətlə səs toplamağa çalışmaq qanunvericiliklə qadağan olunmuşdur. Bəzi iddiaçıların seçkiqabağı bu cür «fəallıq» göstərmələri qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**«Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında» Azərbaycan Respublikasının Qanunun**un 57-ci maddəsinə əsasən, deputatlığa **qeydə alınmış namizədin seçiciləri pul, qiymətli materiallar, ərzaq və qeyri-ərzaq malları paylamaqla, pulsuz xidmətlər göstərilməsini təşkil etməklə və bunlara bənzər digər üsullarla ələ almaları qadağandır.**

Bu qanunda göstərildiyi kimi, **«seçkiqabağı təşviqat aparılarkən sui-istifadə hallarına yol verilmə»**si deməkdir. Seçkiqabağı təşviqat kompaniyasında sui-istifadə halları və başqa digər hüquq pozuntuları ilə bağlı mübahisələrə məhkəmədə baxıla və hüquqi qiymət verilə bilər. Bu seçki qabağı proseslərdə qeyri-qanuni yollardan istifadə etmək istəyənlərə xəbərdarlıqdır. Belə üsullardan istifadə edənlər təcrübənin göstərdiyi kimi pis vəziyyətə düşürlər.

**«Ən böyük biclik düzlükdür»,** deyiblər. Bu Milli Məclisə seçkilər marafonunda hər bir namizədin fəaliyyət prinsipi olmalıdır.

Əvvəl qeyd edildiyi kimi deputatların xarici ölkələrə işgüzar ezamiyyətləri olur. Xarici səfərlərə ekskursiya kimi baxmaq sadəlövhlük olardı. Təcrübənin göstərdiyi kimi bəzən beynəlxalq forumlarda elə prinsipial məsələlər meydana çıxır ki, onlara professional cavab vermək, dünya parlamentçilərinə Azərbaycan həqiqətlərini olduğu kimi çatdırmaq, haqq işimizə onlarda inam, müsbət cavab reaksiyası yaratmaq üçün gecə səhərə kimi hazırlaşmaq, yuxusuz qalmaq tələb olunur.

Misal üçün, dünyanın 55 dövlətinin təmsil olunduğu (8 dövlətin parlamentçilərinin isə məşvərətçi səslə iştirak etdikləri) ATƏT-in iclaslarında, eləcə də Avropa Şurasının sessiyalarında dünya parlamentçilərinin, dövlət başçılarının, beynəlxalq təşkilatların prezidentlərinin qarşısında çıxış etmək, Azərbaycan dövlətinin layiqli təmsilçisi olmaq, heç də asan məsələ deyildir.

Deputatın dərin elmi biliklərə malik olması, çıxışlarına, məruzələrinə tutarlı arqument olan faktları, rəqəmləri toplaması, onları

sistemləşdirməsi, təhlil etməsi, müstəqil məntiqi mühakimə və natiqlik qabiliyyəti, beynəlxalq təşkilatların sessiyalarında auditoriyanı ələ almaq bacarığı müstəsna əhəmiyyətə malikdir.

**Burada deputatın malik olduğu toyxanaları, taksi parkları, maqazinləri deyil, dərin elmi bilikləri, yüksək intellektual potensialı, məntiqi mühakimə qabiliyyəti, professionallığı gərək olur.** Bütün bunlar, təbii ki, bir gündə qazanılan keyfiyyətlər deyildir. Ona görə də məsləhət görərdik ki, deputatlığa namizədliyini irəli sürən şəxs bu məsuliyyət yükünün ağırlığını əvvəlcədən dərk etsin və ətraflı düşünsün.

Özünüreklam deputata şərəf gətirmir. Milli Məclisin tribunasını özü üçün ucuz «xal qazanmaq» meydanına çevirməyə cəhd göstərənlərin adı var - **populist.** Cümləsinin mübtədası və xəbəri xalq olan, lakin yeganə məqsədi xalqın adından istifadə etməklə özünə var-dövlət toplamaq olanları deputat hesab etmək olarmı? Təəssüflər olsun ki, hazırki Milli Məclisdə də belələri vardır.

Sosial vəziyyəti çətin olan qaçqın və köçkünlərdən siyasi məqsədləri üçün istifadə edənləri, siyasi əxlaqsızları, deputat hesab etmək olarmı? Belələri də az deyildir.

Arzulayardıq ki, namizədlərin seçki marafonunda fəallığı, deputat seçildikdən sonra, parlamentdəki fəaliyyətləri dövründə də davam etsin. Deputatlıq dövründə vaxtını öz şəxsi biznesinə «yaşıl işıq yandırmağa» deyil, üzv olduğu komissiyada qanunyaradıcılığı ilə məşğul olmağa sərf etsin. Təbii ki, şəxsi biznesi olanın Milli Məclisdə də öz biznes maraqlarına xidmət edəcəyinə şübhə edilməməlidir.

Qanun hazırlamaq gərgin zehni əmək tələb edən yaradıcılıq sahəsidir. O, dərin elmi biliklərə, yüksək intellektual potensiala malik olmağı, yaradıcılıq qabiliyyəti, peşəkarlıq tələb edir. Peşəkarlığı alverçilik olan xalqımız, dövlətimiz üçün gərəkli qanunlar hazırlaya bilərmi?

**Deputat səlahiyyətlərindən yalnız öz şəxsi biznesinə, var-dövlətinə toxunulmazlıq immuniteti qazanan, xalqın verdiyi səlahiyyət mandatını şəxsi məqsədləri üçün istifadə edən, təmsil olunduğu komissiyanın işində iştirak etməyən, bir qanuna olsa belə konstruktiv təklif, düzəliş apara bilməyən və nəhayət beş ilik fəaliyyətində bir dəfə olsa belə Milli Məclisdə çıxış etməyən deputatı deputat hesab etmək olarmı?**

Deputat xalqın adından çıxış etmək səlahiyyəti olandır. Əgər o xalqın adından danışmaq qabiliyyətinə malik deyilsə, xalqın ona verdiyi səlahiyyətlər səviyyəsində fəaliyyət göstərə bilmirsə, onun deputatlığının mənası varmı?

**Yeni seçiləcək deputat korpusu siyasi sürüşkənlərdən, buqələmun kimi cildini dəyişənlərdən, bu gün bir partiyaya, müəyyən şəxsə, sabah isə başqa birisinə xidmət edənlərdən formalaşmasına yol verməməyi tələb edir.**

Yeni seçiləcək parlamentə dövlətçiliyə, ölkədə formalaşmış sosial-iqtisadi kursa, onun yeni şəraitdə təkmilləşməsi və inkişafına daha çox sədaqətlilik, daha yüksək professionallıq, işgüzarlıq, dünya standartlarına cavab verən qanunvericilik fəaliyyəti gərəkdir.

Ölkə Prezidentinin sistemlə yeritdiyi siyasət və sosial-iqtisadi proseslərin idarə edilməsində demokratik prinsiplərə əsaslanmaq üçün həyata keçirdiyi qətiyyətli tədbirlər Azərbaycanın Avropa Şurasına üzv seçilməsi ilə nəticələndi. Bu, şəksiz nailiyyətimizdir. Bu, həmçinin öz üzərimizə götürdüyümüz məsuliyyətdir.

Biz inamla dünya iqtisadi inteqrasiyasına qoşuluruq. Avropa «ailəsinə» qəbul olunan Azərbaycan dünya qanunvericiliyinə yiyələnməli və tədricən milli qanunvericiliyini ona uyğunlaşdırmalıdır. Bu sahədə xeyli iş görülsə də, qarşıda duran işlərimiz daha çoxdur. Bütün bunlara görə yeni seçiləcək Milli Məclisə dərin bilik, yüksək siyasi əqidəlilik və peşəkarlıq gərək olacaqdır.

Deputat korpusunun tərkibi, yeni seçiləcək parlamentin işinin səmərəliliyinin ən vacib şərtidir.

**Arzu edərdik ki, yeni seçiləcək parlamentdə dövlətçilik prinsiplərinə, ənənələrinə sadiq, dərin biliyə, təcrübəyə malik hüquqşünaslar və iqtisadçılar üstünlük təşkil etsinlər, dünya parlamentlərində olduğu kimi.**

Azərbaycanın sosial-iqtisadi inkişafı üçün son illər çox işlər görülmüşdür. İqtisadi inkişafa dinamizm gətirmək, xalqın rifahının daha da yüksəlməsinə nail olmaq üçün görüləsi işlərimiz isə daha çoxdur.

**Arzu edərdik ki, yeni seçilən parlamentin üzvləri, ölkə Prezidentinin gərgin əməyi sayəsində respublikamızda formalaşmış siyasi stabilliyin qorunması və daha da möhkəmlənməsinə, Azərbaycan dövlətçiliyinin uğurlarının daha da artmasına, İlham Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyasının inamla reallaşmasına hüquqi baza yaradılmasını təmin edə bilsinlər.**

Ölkə Prezidenti, möhtərəm İlham Əliyev Milli Məclisə seçkilərin Azərbaycan xalqı və dövlətçiliyinin maraqlarına əsaslanması, azad, ədalətli keçirilməsi üçün nə lazımsa etmişdir və edir. İndi hörmətli seçicilər söz sizindir. Özünüzə, ölkənizə, dövlətimizə layiq olanların Milli Məclisə seçkilərdə qalib gəlməsi sizdən asılıdır.

Okeanın o tayından idarə olunan AXC-Müsavat cütlüyü və onlara qoşulanların məkrli niyyətləri və əməllərinə baxmayaraq, xalqımız Milli Məclisə seçkilərdə öz taleyini kimlərə etibar edəcəyini özü müəyyən edəcəkdir.

Biz qarşıdakı seçkilərdə də zəka və ağılın üstün gələcəyinə, xalqımızın müdriklik göstərəcəyinə, ölkəsinə, xalqına ən layiqli, dövlətçiliyinə ən sədaqətli oğul və qızlarını Milli Məclisə deputat seçilməsini təmin edəcəyinə əminik.

## 6.6. Beynəlxalq iqtisadi inteqrasiyanın daha da dərinləşməsi iqtisadiyyata dinamizm gətirməyin vacib şərtidir

Ümummilli liderimiz Heydər Əliyevin daxili və xarici siyasətini uğurla davam etdirən və yeni keyfiyyət halına yüksəldən İlham Əliyev cənablarının xarici səfərləri Azərbaycanla dünya ölkələri arasındakı qarşılıqlı münasibətlərin daha da inkişafı və dərinləşməsi, siyasi, sosial-iqtisadi və mədəni əlaqələrin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi ilə nəticələnir.

İlham Əliyev cənablarının dekabrın 12-14-də Londona səfəri də eyni cür oldu. Bu səfər respublikamızın dünya iqtisadiyyatına inteqrasiyasına qovuşması və sosial-iqtisadi inkişafı, beynəlxalq



aləmdə ölkəmizin nüfuzunun daha da möhkəmlənməsi üçün çox mühüm əhəmiyyət kəsb etdi. Səfərdə ölkə Prezidentini Baş Nazirin Müavini, Nazirlər, Komitə, Şirkət sədrləri və s. müşayiət edirdilər.

Ölkə Prezidentinin iş qrafiki, ümummilli liderimiz Heydər Əliyevin xarici səfərlərində olduğu kimi çox gərgin idi. Prezident sübh tezdən gecədən xeyli keçənədək, bir-birini əvəzləyən məruzələr, çıxışlır edir, görüşlər keçirir, sazişlərin imzalanma mərasimlərində olur, müsahibələr verir, mətbuat konfransları keçirir, bir sözlə, azacıq olsa belə sərbəst vaxtı qalmırdı. Heydər Əliyevin xarici səfərlərində olduğu kimi.

Ümummilli liderimiz Heydər Əliyev xarici səfərlərində orada imzalanacaq sənədlərin, müzakirə olunacaq məsələlərin xarakterindən asılı olaraq Milli Məclis üzvlərindən də özü ilə aparırdı. Ölkə Prezidentinin 1996-cı ildə Almaniya Federativ Respublikasına səfəri olmuşdu. O vaxt Bonn Almaniya Federativ Respublikasının paytaxt idi.

Biz Bonnda, Dyuseldorfda, Kölndə və başqa şəhərlərdə olduq. Qaldığımız yer isə Bonn şəhərində, Reyn çayının sağ sahilində, dağın üstündə, gözəl mənzərəsi olan qəsrə bənzər, qeyri-adi qonaq evi idi. Deputat yoldaşım Səfyar Musayevlə (dövlətçiliyə, xalqa çox sadiq, bir sifəti olanlardan idi. Allah ona rəhmət etsin) otağımız yanaşı idi. Möhtərəm Prezidentimizin bütün tədbirlərində iştirak edirdik. Çünki rəsmi nümayəndə heyətinin üzvləri idik.

Ümummilli liderimiz çox gərgin qrafiklə işləyirdi, yorulmaq nə olduğunu bilmirdi. Daha doğrusu, özünə, öz səhhətinə qəsd etməkdə əvəzsiz idi. Xalqın, dövlətin, ölkənin işləri, güzəranı üçün.

Möhtərəm Prezidentimiz Almaniyadan, Hollandiyadan, İsveçrədən və digər qonşu ölkələrdən gələn, Azərbaycanla əməkdaşlıq etmək istəyən rəsmiləri və iş adamlarını qəbul edir, danışıqlar aparırdı. Gecə yarıdan keçəndən sonra da işləyirdi. Bizlər də onun yanında olurduq.

Almaniya vaxtı ilə gecə saat 3 idi. Gözümüzdən yuxu tökülürdü. Axırda Səfyar dözmədi. Cənab Prezidentə işarə edərək, yarı za-

rafat, yarı gerçək pıçıltı ilə deyindi: **«Özü yorulmaq nə olduğunu bilmir. Elə bilir ki, biz də onun kimiyik.»** Xəfifcə güldük.

Dövlət idarəçiliyində də genetik varislik olurmuş. Prezident İlham Əliyev cənabları möhtərəm Prezidentimiz Heydər Əliyev kimi yorulmaq bilən deyil. Onun Londondakı iş qrafiki bunu bir daha göstərdi.

Möhtərəm Prezidentimizin Böyük Britaniya və Şimali İrlandiya Krallığına rəsmi səfəri dünyanın bu aparıcı ölkəsinin Azərbaycanla əlaqələrə nə dərəcədə böyük əhəmiyyət verdiyinə sübut idi. Hər görüş özünəməxsus qaydada hazırlanmış və təşkil olunmuşdu. Bir-birinə yaraşan, Prezidentimizi və onun xanımını, Azərbaycanın birinci Ledisini (bizim Ledi onların ledilərindən ən azı öz füsünkarlığı, öz yerini bilməsi, geyimi və davranışı ilə üstün idi) hər yerdə ən səmimi mehribançılıqla, xüsusi diqqət və rəğbətlə qarşılayırdılar.

Böyük Britaniyanın ən nüfuzlu nəşrlərindən olan hökumət rəsmiləri, iş adamları, diplomatik korpus nümayəndələri və siyasətçilər arasında yayılan «First» jurnalı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Böyük Britaniyaya səfərinə həsr olunan xüsusi buraxılış dərc etmişdi.

Dünyanın bu aparıcı dövlətinin Baş Naziri Toni Bleyer «First» jurnalının xüsusi buraxılışında yazır: **«Azərbaycan Respublikasının Prezidenti ən çox alqışlanan qonaqdır və onun ölkəmizə səfəri Birləşmiş Krallıqla Azərbaycan arasında əlaqələrin daha da möhkəmlənməsi və genişlənməsi üçün imkan yaradır. Mən Azərbaycan Respublikasının Prezidenti ilə bizim müzakirələrimizi səbirsizliklə gözləyirəm».**

Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin Böyük Britaniyaya səfəri zamanı keçirdiyi ən əhəmiyyətli görüşlərdən biri dekabrın 14-də baş nazir Toni Bleyerlə oldu. Onunla aparılan danışıqlarda Azərbaycan-Böyük Britaniya arasında iqtisadi, elmi-texniki, ticarət və mədəni əlaqələrin inkişaf perspektivləri, ölkəmizin Avropa Birliyinə inteqrasiyası, Azərbaycan torpaqlarının erməni silahlı qüvvələrinin işğalından azad edilməsi, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edildi.

Cənab İlham Əliyevin Böyük Britaniyaya qısa müddətli işgüzar səfəri zamanı Böyük Britaniya kraliçasının nümayəndəsi, baronessa Sekombe, müdafiə naziri Ceff Hunla görüşlərində Azərbaycan-Böyük Britaniya əlaqələrinin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparıldı, Azərbaycanın Avroatlantik strukturlarına inteqrasiyası sahəsində qarşıda duran vəzifələr müzakirə olundu.

Mühüm əhəmiyyət kəsb edən görüşlərdən biri də İngiltərənin məşhur siyasi xadimləri, diplomatları, mətbuat nümayəndələri, Avropanın tanınmış publisistləri və ictimai xadimlərinin üzv olduqları «Chatham House» klubunda keçirildi. Bu klub Böyük Britaniya və Şimali İrlandiya Krallığında ictimai fikrin formalaşmasında çox mühüm rol oynayır. Ölkəmizin rəhbəri burada çıxış edərək müstəqilliyin ilk illərində xalqın tələbi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi və Azərbaycanı parçalanıb məhv olmaqdan xilas etməsi, Azərbaycanın sürətlə inkişaf edən ölkəyə çevrilməsi barədə məlumat verdi. O qeyd etdi ki, Azərbaycan Respublikası hazırda regionun ən sabit və dinamik inkişaf edən ölkəsidir.

Ölkə Prezidentinin bütün çıxışlarının leytmotivini işğal altında olan torpaqlarımızın azad olunması, qaçqın və məcburi köçkünlərimizin vəziyyəti, onların öz doğma el-obalarına qayıtmaları təşkil edirdi. «Chatham House» klubunda keçirilən görüş istisna təşkil etmədi. İlham Əliyev cənabları bu görüşdə də Vətənimizin üzləşdiyi ən ağrılı problemdən, ərazilərimizin işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün təmin olunması sahəsində qarşıda duran vəzifələrdən ətraflı bəhs etdi. Sonra sual cavablar başlandı. Hardansa Ermənistanın İngiltərədəki səfiri də iştirakçılar arasında göründü. O, birincisi, Prezident İlham Əliyevin Ermənistanı işğalçı dövlət adlandırdığına görə incidiyini bildirdi. İkincisi, isə möhtərəm Prezidentimizin «Azərbaycanın səbri həddsiz deyildir», ifadəsinə hərbi əməliyyata başlamaq mənası verildiyindən narahat olduğunu bildirdi və provokasion suallar verdi. Möhtərəm

Prezidentimiz təmkinlə Ermənistan səfirini başa saldı: **«Ermənistan tərəfi bu danışıqları yalnız vaxt udmaq, vaxtı uzatmaq xatirinə aparır», «biz danışıqlar xatirinə danışıqlar aparmayacağıq», «250 min azərbaycanlı Ermənistandan qovuldu, Dağlıq Qarabağa qonşu 7 rayon ...etnik təmizləməyə məruz qaldı. 7 rayon mərkəzi yerlə-yeksan edildi», «Bizim heç bir ölkəyə ərazi iddiamız yoxdur. (Hərçənd ki, keçən əsrin ortalarında indi Ermənistan adlanan yerin əhalisinin 50 faizdən çoxu azərbaycanlılar olmuşdur) ... Bizə ölkəmizin ərazi bütövlüyünün bərpası lazımdır. Ermənistan bunu sülh yolu ilə eləsə, lap yaxşı, sülh yolu ilə eləməsə, biz özümüz ərazimizi geri qaytaracağıq».**

**Azərbaycan Prezidenti dayandığı yerdə suyu süzülən Ermənistanın səfirinə bildirdi ki, «Biz torpaqlarımızın işğal altında qalması ilə heç vaxt barışmayacağıq və həmin ərazilər işğaldan azad olunmalıdır. BMT, Avropa Birliyi, Avropa Şurası və digər beynəlxalq təşkilatların bu istiqamətdə səylərini gücləndirmələri münaqişənin ədalətli həllinə kömək edərdi».** Doğru deyirlər: tarix təkrarlanır 1996-cı ildə Almaniyada, məşhur Siemens şirkətlər qrupunun (Maliyyə-sənaye qrupu) iclas zalında idik. Ümummilli liderimiz Heydər Əliyev cənabları mətbuat konfransı keçirirdi. Zalda boş yer qalmamışdı. Diplomatlar, siyasətçilər, jurnalistlər əvvəlki görüşlərdən də çox idi. Orada Ermənistanın Almaniyadakı səfiri və səfirliyin bir neçə işçisi iştirak edirdi. Səfir adətkərdə olduğu provokasion sualını verdi. 2004-cü il dekabr ayında Londonda olduğu kimi. Eyni suallar idi. Ermənistan işğalçı dövlət deyil. Azərbaycandan gələn qaçqın seli Ermənistanı basmışdır. Azərbaycan yazıq erməniləri blokadaya alıb və s. Eyni sözlər Londonda da deyildi. Plastinkası xarab olmuş patefon kimi erməni diplomatları eyni mahnını təkrarlayırlar. Bütün bunlar ənənəvi erməni xislətidir. Məzlum ermənilər göz yaşı töküb dünyaya yayılmış diasporundan pul yığmaq kompaniyası keçirdikləri kimi. Dağlıq Qarabağdan Los Anjelesə gedən və orada televiziyada göz yaşı tökən Qukasyana ermənilər 5 milyon dollar və daha çox pul yığmalarıdır.



Heydər Əliyev təmkinlə, konkret faktlar, misallar gətirməklə erməni ekstremizminin, aqressiv separatçılığının, terrorçuluğunun iç üzünü açıb, ifşa etdi. Erməni diplomatı pis vəziyyətə düşdü. Londonda 2004-cü ildə erməni səfiri ayaqlarını sürüyə-sürüyə zalı tərk etməli olduğu kimi.

İlham Əliyev cənablarının dekabrın 12-14-də Londona səfəri də eyni cür oldu. Bu səfər respublikamızın dünya iqtisadiyyatına inteqrasiyasına qoşulması və sosial-iqtisadi inkişafı, habelə beynəlxalq aləmdə ölkəmizin nüfuzunun daha da möhkəmlənməsi üçün çox mühüm əhəmiyyət kəsb etdi. Səfərdə ölkə Prezidentini Baş Nazirin Müavini, Nazirlər, Komitə, Şirkət sədrləri və s. müşayiət edirdilər.

İlham Əliyev cənablarının başçılıq etdiyi yüksək səviyyəli dövlət rəsmilərindən ibarət nümayəndə heyəti ilə birlikdə konfransda Azərbaycanın və İngiltərənin aparıcı iş adamları, potensial investorlar iştirak edirdilər.

Konfransda 13 ölkədən 300-ə yaxın nümayəndə iştirak edirdi. Konfransın yüksək səviyyədə təşkili orada Avropa Yenidənqurma və İnkişaf Bankının, BMT-nin İnkişaf Proqramının, İTE Qrup Şirkətinin və Anqlo-Azəri cəmiyyətinin birgə səy göstərmələri nəticəsində mümkün olmuşdur.

Konfransda Azərbaycanla İngiltərə arasında elmi-texniki, istehsal və s. əlaqələrin genişlənməsi, ticarət dövriyyəsinin və investisiya qoyuluşlarının artımı, onların səmərəliliyinin yüksəldilməsi problemləri müzakirə olundu.

Azərbaycanın Birinci Ledisi Mehriban xanım Əliyevanın, habelə İngiltərə rəsmilərinin, Avropa Yenidənqurma və İnkişaf Bankı rəhbərlərinin və s. iştirak etdikləri «Ticarət və İnvestisiya» konfransında Azərbaycan Prezidenti İlham Əliyevin dərin məzmunlu nitqi oldu. Bu nitq sonrakı məruzələrin başlıca istiqamətini müəyyən etdi. Azərbaycanın sosial-iqtisadi inkişafında əldə edilmiş nailiyyətlər, qarşısında duran vəzifələr, onların reallaşması, iqtisadi əlaqələrin genişlənməsinə maliyyə təminatı yaradılması, investisiya qoyuluşlarının artımı konfransın leytmotivini təşkil etdi.

Müstəqilliyin ilk illərində Azərbaycan iqtisadiyyatına xarici

investisiya qoyan olmamışdır. Ölkəni ümummilli xaos, hərcmərclik bürüdüyü, hiperinflyasiyanın tüğyan etdiyi, ən başlıcası sosial-siyasi qeyri-stabilliyin hökm sürdüyü, vətəndaş müharibəsi şəraitində ölkə iqtisadiyyatına investisiya qoyuluşu haqqında nə fikirləşən, nə də Azərbaycanla əməkdaşlıq etmək istəyən var idi.

Ümummilli liderimiz Heydər Əliyev xalqın təkidli tələbi ilə Azərbaycan hakimiyyətinə qayıtdıqdan, respublikada əminamanlıq yaratdıqdan sonra iqtisadi inkişaf və investisiya cəlb olunması haqqında tədbirlər görmək günün vacib məsələsinə çevrildi.

Ölkə qarşısında duran problemlər çox idi. Onların hamısını bir oturumda həll etmək mümkün deyildi. Ölkənin sosial-iqtisadi inkişafına təsərrüfatçılığın hansı sahəsindən başlamağın zəruri olduğu müəyyən edilməli idi. İqtisadiyyatın digər sahələrini öz ardınca apara bilən prioritet sahələr dürüst müəyyən edilməli idi. Bu, Azərbaycan iqtisadiyyatının baza sahəsini təşkil edən neft sektoru idi. Heydər Əliyev ölkə əhalisinin diqqətini öncə neft sahəsinin inkişafına yönəltdi. Neft sektoru ənənəvi olaraq Azərbaycan iqtisadiyyatının baza sahəsini təşkil edir, bu sahədə istifadə olunmamış ehtiyat mənbələri hələ çox idi. Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarını təsərrüfatçılıq dövriyyəsinə cəlb etmək ən vacib vəzifələrdən biri idi.

Neft sektoru üzrə problemləri dövlət büdcəsinin vəsaitləri hesabına həll etmək (həmin vaxt belə təklifləri irəli sürənlər, dırnaq arasında xalqı özündən çox sevənlər də var idi) ən azı 50-60 il vaxt itirməklə nəticələnə bilərdi. Buna yol vermək olmazdı. Çünki vaxtı itirmək nəticə etibarilə hər şeyi itirmək olardı.

Heydər Əliyev Azərbaycanın karbohidrogen ehtiyatlarının kəşfi və təsərrüfatçılıq dövriyyəsinə cəlb olunması üçün xarici investorlar dəvət etməyə güc vurdu. Heydər Əliyev ilk dəfə 1994-cü ildə «Əsrin Kontraktı» kimi tarixə çevrilmiş sazişlərin hazırlanması və investisiya qoyuluşlarına dair çox ciddi əhəmiyyət kəsb edən sənədlərin imzalanmasının təşkilatçısı olmuşdur. Bu Kontraktlar dünyanın ən məşhur konsorsiumları ilə bağlanmışdı. O,



Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşlarında dönüşün başlanğıcını təşkil etdi.

1994-cü ildən 2003-cü ilə qədərki dövrdə ölkə iqtisadiyyatına hər il orta hesabla 1-1,2 milyard dollar xarici investisiya qoyulmuşdur. Bütün maliyyələşmə mənbələri üzrə Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşları 2005-ci ildə 4,6 milyard dollara çatacağı gözlənilir. Onun 80 faizi xarici investorların vəsaiti hesabına formalaşacaqdır. Bu 2005-ci ilin dövlət büdcəsi gəlirlərindən 2 dəfə çoxdur. Qeyd olunanlar Azərbaycanda investisiya mühitinin yaxşılaşmasının məntiqi nəticəsidir. Əlamətdar cəhətlərdən biri azərbaycanlı iş adamları arasında investisiya fəallığının artmışdır. 2004-cü ildə yerli investisiya qoyuluşlarının artımı 40 faiz təşkil etmişdir.

Hazırda dünya ölkələri arasında investisiyalar cəlb etmək uğrunda ciddi rəqabət mübarizəsi gedir. Bu mübarizədə investisiya qoyuluşlarına daha əlverişli şərait yaradanlar qalib gəlirlər və onlar daha çox investor cəlb edə bilirlər.

İşlərin mahiyyəti elə buradan, dövlətin yeritdiyi siyasətdən başlayır. Azərbaycan Prezidenti İlham Əliyev cənablarının iştirakı ilə 2004-cü il dekabrın 14-də Londonda keçirilən «Ticarət və İnvestisiya» konfransı respublikamıza investisiya axınının sürətlənməsində mühüm rol oynamalıdır. Konfransda çıxış edənlərdən biri də mən idim. Mən investisiya qoyuluşlarına hüquqi baza yaratmaq sahəsində görülən işlər və qarşıda duran vəzifələrdən bəhs etdim.

Xüsusilə xarici investor ən əvvəl ölkədəki vəziyyəti öyrənir. Hər bir investor sosial-siyasi, makroiqtisadi, makromaliyyə vəziyyətini, vergi, rüsum və digər ödənişlərin dərəcələrini, bir sözlə ölkənin sosial-siyasi vəziyyəti və iqtisadiyyatın vergi yükünü aydınlaşdırdıqdan sonra qərar qəbul edir.

İnvestisiya qoyuluşu üçün ən vacib şərt Azərbaycanda davamlı sosial-siyasi və makromaliyyə stabilliyinin mövcudluğudur. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş sosial-siyasi stabilliyin hazırda daha da möhkəmlənməsi üçün ciddi addımlar atılır.

Vergi və digər icbari ödənişlərin dərəcələri, iqtisadiyyatın vergi yükünün səviyyəsi investisiya qoyuluşları üçün vacib şərtdir. Dövlət iqtisadi cəhətdən əsaslandırmaqla vergi dərəcələrini aşağı salmaq, vergi bazasını genişləndirmək, yığım əmsalını artırmaq siyasəti yeridir. Son 10 ildə yeridilən bu siyasət öz müsbət nəticələrini verir. Misal üçün mənfəət vergisinin dərəcəsi 1996-cı ildə banklar və kommersiya strukturları üçün 45 faiz, sənaye müəssisələri üçün isə 35 faiz idi. Hazırda bu vergi formasında sahə diferensiallığı aradan qaldırılmış, unifikasiya olunmuş vergi tətbiq olunmağa başlanmışdır. Mənfəət vergisi vahid dərəcə ilə 24 faizlə hesablanır və dövlət büdcəsinə köçürülür. Müqayisə olunan dövrdə digər vergilərin də dərəcələri əhəmiyyətli dərəcədə aşağı salınmışdır. Vergi dərəcələrinin aşağı endirilməsindən dövlət büdcəsinə daxilolmaların azalması yığım əmsalının yüksəldilməsi ilə kompensasiya olunmuş və digər tədbirlər görülmüşdür.

İqtisadiyyatın məcmu vergi yükü, ən ümumi formada ÜDM-in büdcə gəlirlərinə nisbəti ilə müəyyən olunur. Bu nisbət 2000-2004-cü illərdə 16-18 faiz təşkil etmişdir. İqtisadiyyatın vergi yükünün daha dəqiq göstəricisi dövlət büdcəsinə vergilərdən daxilolmaların ÜDM-ə nisbəti ilə müəyyən edilir. Bu nisbət 2000-2004-cü illərdə 10-13 faiz təşkil etmişdir.

Avropa ölkələrinin əksəriyyətində bu göstəricilər, yəni büdcə gəlirlərinin ÜDM-ə nisbəti 35 faiz, vergilərdən daxilolmaların ümumi daxili məhsula nisbəti isə 30 faiz təşkil edir.

Respublikamızda son aylar inflyasiya tempi bir qədər yüksəlsə də, dövlətin gördüyü tədbirlər inflyasiyanın investisiya qoyuluşu üçün təhlükə yaradacaq həddə qalxmasına imkan verilməmişdir. İnflyasiya tempi hazırda orta hesabla 5-6 faiz təşkil edir və ölkə Prezidenti onun normal həddə saxlanılması üçün bütün alətlərdən istifadə etməyi müvafiq icra hakimiyyəti orqanlarına tapşırmışdır.

Ölkədə sahibkarlıq fəaliyyətinin məmurların bürokratik əngəllərindən azad olunması üçün xeyli iş görülmüş, lakin görüləsi işlər hələ də çoxdur. İqtisadi cəhətdən əsaslandırılmış özəlləşdirmə həyata keçirildikcə, idarəetmə sistemində islahatlar aparıldıqca,



demokratikləşmə prosesləri dərinləşdikcə, qanunun aliliyi prinsipi sosial-iqtisadi həyatın bütün sahələrinə hakim kəsildikcə əsassız yoxlamalar, bürokratik əngəllər, məmur özbaşınalıqları da aradan qaldırılacaqdır. Hazırda dövlətin başlıca vəzifələrindən biri iqtisadi islahatlara təkmil hüquqi baza yaradılmasından ibarətdir.

Azərbaycanda 1992-ci ildə qəbul olunmuş «Xarici investisiyaların qorunması haqqında» və 1995-ci ildə qüvvəyə minmiş «İnvestisiya fəaliyyəti haqqında» qanunlar hazırkı reallığa cavab vermir. Ona görə də qanunvericilik təşəbbüsü ilə ölkə Prezidenti **«İnvestisiya fəaliyyəti haqqında»** yeni qanun layihəsini Milli Məclisə təqdim etmişdir.

Əvvəlki qanun Ümumxalq Referendumu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasından əvvəl qəbul olunmuşdu. Təbii ki, həmin qanunda yeni iqtisadi sistemin ümumi qaydaları və prinsiplərini ehtiva edən müddəalar öz əksini tapa bilməzdi.

Məlum olduğu kimi, Konstitusiya bütün qanunların əsasını təşkil edir. O qanunlar arasında sistemyaradıcı funksiyaları yerinə yetirir. Digər qanunlar Konstitusiya müddəalarının yerinə yetirilməsinə xidmət edir. Bu mənada yeni iqtisadi sistemin mahiyyətini ehtiva edən hazırki dövrün tələblərinə cavab verən investisiya fəaliyyəti haqqında qanun qəbul olunmalı idi.

Yeni qanun, investisiya qoyuluşunun artımı üçün daha münbit şərait yaradılmasını nəzərdə tutur. Qanun investorların hüquqları və səlahiyyətlərinin genişlənməsini nəzərdə tutur. Ön əvvəl mənfəətin yaranması, bölgüsü və istifadə olunma qaydaları investorların öz iradəsinə uyğun aparılması təmin olunur.

Xarici investorların hüquqları qanunla qorunur. Azərbaycan qanunvericiliyinə uyğun olaraq xarici investorların fəaliyyətinə dövlət və yerli özünüidarə orqanlarının qeyri-qanuni hərəkətləri ucbatından dəymiş zərərin ödənilməsini tələb etmək hüququ vardır. Xarici investisiyalı müəssisənin əmlakını qeyri-qanuni özəlləşdirməsinə yol verilmir.

Onlar qoyduqları investisiyadan əldə etdikləri gəlirin müəssi-

sənin sərəncamında qalan hissəsini, xalis mənfəəti sərbəst istifadə etmək hüququna malikdirlər. Onu dönərli valyutaya çevirib ölkədən çıxara və yaxud reinvestisiyaya yönəldə və ya sərbəst istifadə edə bilərlər. Bu xarici investorlara Azərbaycan Respublikasının ərazisində qanuni yolla əldə etdikləri pul vəsaitinin ölkə ərazisində istifadə etmələrinə və ölkədən kənara çıxarmalarına təminat verilməsidir.

Qanun investora kapital qoyuluşunun həcmini, istiqamətini müəyyən etmək səlahiyyəti verir. Xarici investorlar investisiya layihələrinin müzakirəsində iştirak edir, öz kapitalının investisiyaya yönəldilmiş hissəsinin məqsədəuyğun istifadə olunmasına nəzarət edirlər. Onlar məhkəmələrdə, icra orqanlarında, dövlət təşkilatlarında öz hüquqlarının müdafiəsini başqa şəxslərə həvalə edə bilərlər.

İnvestisiya müqaviləsi bağlandıqdan, iş başlandıqdan sonra yeni qanunlar və normativ hüquqi aktlar qüvvəyə minərsə və bu hallar idxal gömrük rüsumlarının, vergilərin, büdcədənkənar dövlət fondlarına ödənişlərin dərəcələrinin dəyişilməsinə təsir edərsə, yaxud yeni qadağalar və məhdudiyyətlər tətbiq olunarsa, bütün bunlar xarici investorlarla bağlanmış müqavilənin davam etdiyi müddət ərzində onlara şamil edilmir. Bu müddəa nizamnamə kapitalında xarici investorun payı 25 faizdən çox olan bütün xarici investisiyalı müəssisələrə də şamil edilir.

«İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən investorlar müqavilə əsasında daha uzun müddətə işləyə bilərlər.

Azərbaycan Respublikası Konstitusiyasının müddəaları istisna olmaqla Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrin bu qanunla uzlaşmayan müddəalarında beynəlxalq müqavilələr üstünlüyə malikdir.

Ölkənin iqtisadi və makromaliyyə stabilliyi, siyasi sabitliyi, regionların rolunun artması, əlverişli coğrafi şəraiti nəqliyyat infrastrukturunun inkişafı üçün geniş imkanlar yaradır. Bu gün Azərbaycan Böyük İpək yolu, Şərq-Qərb nəqliyyat dəhlizi layihələrinin reallaşması üzərində işləyir. Azərbaycan Şimal-Cənub dəhlizi



layihəsinə də qoşulubdur. Regiondakı bütün yollar Azərbaycandan keçir. Bunların hamısı sərmayəçilər üçün vacib amillərdir.

Azərbaycan hökuməti sərmayələri qorumağı öz öhdəsinə götürür. O yerli və xarici sərmayədarlara bərabər şərait yaradır. Hökumət sərmayədarların fəaliyyətinə təkmil hüquqi baza yaratmağı öz üzərinə götürür. Bütün sərmayədarlara bərabər oyun qaydaları müəyyən edir. Ölkədə görülən tədbirlər xarici sərmayəçilərdə respublikamızın bu günü və sabahına, onun gələcəyinə inamı daha da möhkəmləndirir. Xarici investorlarda Azərbaycan dövlətinə inamı artırır. Dövlət xarici sərmayəçilər üçün əlavə stimullar yaratmaqla dünyanın müxtəlif ölkələrindən olan iş adamlarına, onların potensial investorlarına Azərbaycana gəlməyə və investisiya qoymağa, respublikamızla sıx iqtisadi əlaqə şəraitində fəaliyyət göstərməyə sövq edir.

Ölkə Prezidentinin Azərbaycanın xarici investorlarla uzun müddətli birgə əməkdaşlıq etmək təcrübəsinin olduğunu nəzərə almağın vacibliyini qeyd etdi. Azərbaycan Prezidentinin Londonda «Ticarət və İnvestisiya» konfransında neft və qaz sahəsində 1994-cü ildə başlanmış uğurlu əməkdaşlığın 10 ili ərzində Azərbaycan tərəfinin və yaxud qarşı tərəfin hansısa bir şərti yenidən müzakirə etmək və dəyişmək zərurəti ilə qarşılaşmadıqlarını bildirdi. O qeyd etdi: **«Biz yaxşı anlayırıq ki, xarici sərmayəçilərin inamını, etibarını qazanmaqdan ötrü illərlə, bəzən isə on illərlə çalışmalıyıq. Amma düzgün atılmayan bircə addım hər şeyi korlaya bilərdi. Xoşbəxtlikdən, biz səhv addım atmadıq və əminəm ki, bundan sonra da səhvə yol verməyəcəyik...Azərbaycana gəlin, şəraiti öyrənin, iqtisadi, sosial, siyasi vəziyyətlə tanış olun. Ölkəmiz xaricilərin yaşaması üçün də rahat bir ölkədir. Digər millətlərin, digər dini icmaların nümayəndələrinə bizim ölkədə böyük dözümlülük göstərilir. Bu nöqteyi-nəzərdən düşünürəm ki, Azərbaycan aparıcı mövqedədir. Bəlkə də bu, iqtisadi inkişafdan da vacib bir elementdir. Sülh, təhlükəsizlik, cəmiyyətdə müxtəlif millətlər, müxtəlif etnik dini icmalar arasında qarşılıqlı inam bizim ən çox dəyərləndirdiyimiz bir nemətdir. Biz bu ne-**

**məti qoruyuruq, bunun olması ölkədə xüsusi ab-hava yaradır. Ona görə də bir daha sizi, bütün potensial sərmayəçiləri Azərbaycan iqtisadiyyatının bütün sahələrinə sərmayə yatırmağa dəvət edirəm... bizim ölkəyə gəlin və birlikdə çalışaq!»**

Hazırda Milli Məclisin müzakirəsində olan «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu xarici investorlar üçün daha əlverişli şərait yaradılmasını nəzərdə tutur. Qanun xarici investorlara güzəştlər tətbiq olunmasını istisna etmir. Fikrimizcə, Azərbaycanın müxtəlif regionlarında investisiya qoyuluşu üçün şərait eyni deyildir. Regionlarda, xüsusilə ucqar və dağlıq rayonlarda istehsal və sosial infrastruktur obyektlərinin kəmiyyəti və keyfiyyətinin lazımı dərəcədə olmaması nəzərə alınmalıdır. Respublikamızın ucqar rayonlarında investisiya qoyuluşlarına daha əlverişli şərait yaradılmalı, əlavə stimullaşdırıcı tədbirlər görülməlidir. Həmdə ona görə ki, «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən heç kim investoru harada və iqtisadiyyatın hansı sahəsində investisya qoymağa məcbur edə bilməz. Bu prinsipin düzgün olduğu şübhəsizdir. İnvestor sahibkardır və öz vəsaitini hansı rayonun iqtisadiyyatına və təsərrüfatçılığın hansı sahəsinə qoymaq onun öz işidir. Dövlət investisiya qoyuluşlarına məqsədyönlü istiqamət vermək üçün investisiyaların regionlara, ucqar və dağlıq rayonlara qoyuluşunu stimullaşdırmalıdır Hansı stimullaşdırma üsulları, formaları və metodlarından istifadə etmək barədə düşünülmüş müddəalar qanunun müvafiq maddələrinə əlavə edilməlidir.

Azərbaycanda bir-birinin ardınca çox yüksək templə istehsal və sosial infrastruktur sahələrinin yaradılması, yeni elektrik stansiyalarının tikilməsi, alternativ enerji mənbələrindən istifadə olunması barədə tədbirlər görülməsi, yolların salınması, su və qaz təchizatı sisteminin təkmilləşdirilməsi həm xarici, həm də yerli sərmayəçilərin iqtisadiyyata investisiya qoyuluşunu artırmalarına əlverişli şərait yaradır. Lakin bu investisiya qoyuluşlarının stimullaşdırılmasına diferensial yanaşmanın aktuallığını heç də aradan qaldırmır.



Möhtərəm Prezidentimizin 2004-2008-ci illərdə regionların sosial-iqtisadi inkişafı ilə bağlı imzaladığı Dövlət Proqramının reallaşması investisiya qoyuluşlarında regionlara daha əlverişli şərait yaradılması ilə təsir göstərilə bilər. Bu Qanunun daha da təkmilləşdirilməsi ilə məşğul olan işçi qrupunun vəzifələrindən biri olmalıdır.

Azərbaycan Hökuməti özəl sektora yalnız sözlə deyil, əməli işlə daim qayğı göstərir, maliyyə vəsaitləri və təşkilat-idarəçilik sahəsində kömək edir. Dövlət növbəti illərdə özəl sektora yardımı daha da artıracaqdır və bu, özünü konkret rəqəmlərdə göstərəcəkdir. Özəl sektorun ən çox yayıldığı sahə kənd təsərrüfatıdır. Orada yeni infrastrukturların, o cümlədən aqrokredit, aqrolizinq strukturlarının yaradılması və fəaliyyət göstərməsi üçün ciddi tədbirlər görülməsi nəzərdə tutulmuşdur.

Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının böyük bir sahəsini təşkil edir. Bu sahə güclü və çox səpkili potensiala malikdir. Orada xarici investorların fəaliyyəti üçün geniş meydan açmaq günün tələblərindən biri olmalıdır.

Azərbaycan torpaqlarında dünyada tələbatın sürətlə artdığı, ən çox gəlirli sahə hesab olunan ekoloji cəhətdən təmiz ərzaq məhsulları istehsal etmək üçün əlverişli şərait vardır. Bu şəraitdən Azərbaycanın regionlarına xarici investisiya qoyuluşlarının artımını stimullaşdırmaq üçün fəal istifadə olunmalıdır. Hər bir kapital öz yoluna müəyyən məbləğ pul şəklində başladığı kimi, həm şəhər, həm də rayon yerlərində biznes fəaliyyətinə başlamaq üçün ən əvvəl ilkin kapital lazımdır.

İlkin kapitalı olan biznesmenlər, iş adamları vardır. Lakin əhalinin xeyli hissəsi sahibkarlıq fəaliyyətinə başlamaq üçün zəruri məbləğdə kapitala malik deyillər. Ona görə də dövlət sahibkarları ilkin kapitalla təmin etməyə çalışır. Bu məqsədlə dövlət büdcəsindən ayrılan xərclər də ildən-ilə artırılır. Lakin hökumətin bunu təkbaşına etməsi çətinliklərlə qarşılaşır və sadəcə olaraq mümkün deyildir. Burada beynəlxalq maliyyə qurumlarının iştirakı, onların maliyyə vəsaitlərindən istifadə edilməsi, kredit təşkilatlarının im-

kanlarından maksimum səmərəli istifadə olunması zəruridir.

Azərbaycan Prezidenti ölkəmizdə yeridilən iqtisadi siyasətin strateji məqsədlərini və qarşıda duran vəzifələrini bəyan etdi. O, Londonda konfrans iştirakçılarına bildirdi ki, Azərbaycan iqtisadiyyatında güclü özəl sektor formalaşır. Bu gün ümumi daxili məhsulda özəl sektorun payı 74-77 faizdir. İqtisadiyyatın əsasını təşkil edən neft və qaz sənayesinin dövlət inhisarında olduğunu nəzərə alsaq, bu rəqəmlərin ölkə iqtisadiyyatında rolu və miqyasının nə qədər böyük olduğu aydın olar.

Ölkə Prezidenti konfransda aparılan müzakirələrə konstruktiv xarakter gətirmək məqsədi ilə bildirdi: **«Mən bu müzakirələrin praktiki nəticələrini görmək ümidindəyəm. Kənd təsərrüfatı, telekommunikasiya, turizm, neft kimyası sənayesi, xidmətlər, bank və sığorta sektoru - bu sahələrin hamısı bizim iqtisadiyyat üçün əhəmiyyət daşımaqla bərabər, xarici sərmayəçilər üçün də cəlbedicidir. Nəzərə alsaq ki, adı çəkilən sahələr hələ tammiqyaslı işlənməyib, onda fəaliyyət üçün geniş imkanlar vardır».**

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 14-də Londonda, Avropa Yenidənqurma və İnkişaf Bankında «Şahdəniz» Kredit Sazişinin imzalanma mərasimində iştirak etdi. 170 milyon dollarlıq Kredit Sazişinə dair sənədləri Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov, ARDNŞ-in prezidenti Natiq Əliyev və AYİB-in biznes qrupunun direktoru Piter Rayninger imzaladılar. Bu vəsaitin 110 milyon dolları Şahdəniz, 60 milyon dolları isə boru kəmərinin çəkilişi üçün nəzərdə tutulmuşdur.

Konfransda maliyyə və iqtisadi məsələlər mərkəzi problem olsa da, orada təhlükəsizlik məsələləri həmişə ön planda olmuşdur. Bu heç də təsadüfi deyildi. Çünki bu mövzu Azərbaycan Prezidenti kimi İlham Əliyev cənablarının daim gündəliyindədir. İngiltərə Parlamentində və eləcə də digər görüşlərdə, o cümlədən «Chatham House»dəki görüşlərdə də bu məsələ məruzənin əsas istiqamətini təşkil edirdi. Bu, Azərbaycan Prezidentinin qaçqın və məcburi köçkünlərin problemlərinə nə dərəcədə həssas olduğuna, torpaqlarımızın azad olunmasına, ölkəmizin ərazi bütövlüyünün



təmin olunmasına nə dərəcədə əzmlə çalışdığına dəlalət edir. Bu təkcə Azərbaycan üçün deyil, bütün region üçün təhlükəsizlik baxımından çox vacibdir Heç kim yaddan çıxarmamalıdır ki, Azərbaycan torpaqlarının 20 faizinin işğal altında qalmaqda davam etməsi və eləcə də 1 milyon qaçqın-köçkünün mövcudluğu regionda daimi siyasi, iqtisadi, sosial və mənəvi gərginlik mənbəyinə çevrilir.

Azərbaycan beynəlxalq hüquq normaları və prinsiplərinə sadiqdir. Bu, o deməkdir ki, hər bir ölkənin ərazi bütövlüyü toxunulmazdır və xarici ölkələrlə sərhədləri pozulmazdır. Buna görə də xalqımız tələb edir ki, Ermənistanın işğalçı qüvvələri bizim ərazilərdən geri çəkilsin. Biz ümid edirik ki, danışıqlar nəticə verəcəkdir, regionda sülh və təhlükəsizlik təmin olunacaqdır. Amma Azərbaycan Prezidenti eyni zamanda İngiltərə iş adamları və potensial investorlarının nəzərinə çatdırdı ki, bu faktlara baxmayaraq, Azərbaycanda əminamanlıq, iqtisadi əsaslara malik sosial-siyasi stabillik mövcuddur.

Müharibə vəziyyətində olmağımıza baxmayaraq - indiki vəziyyətdə atəşkəs razılığı olsa da, sülh vəziyyəti deyil. Amma bu potensial investorları qorxutmamalıdır. Bu çətinliklərə baxmayaraq, Azərbaycanda ciddi sərmayəçi marağı mövcuddur. Bu gələcəkdə investisiya potensialının daha da artmasına şərait yaradacaqdır.

2005-ci ildə müxtəlif maliyyələşmə mənbələri hesabına Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşunun dövlət büdcəsi gəlirlərini 2 dəfədən çox üstələməsi respublikamıza investisiya qoyuluşuna meyilin nə dərəcədə güclü olduğunu təsdiq edir. Bütün bunlarla yanaşı, Cənubi Qafqaza sülh və təhlükəsizlik gəlməli, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Ümid edirik ki, bu, sülh yolu ilə baş verəcəkdir.

Azərbaycan həyatın bütün sahələrində inkişafa can atır. Elə bilirik ki, bizim neft və qaz sənayesində şəffaflığa yönəlmiş səylərimiz və həyata keçirdiyimiz tədbirlər bu sahədə əldə etmək istədiyimiz tərəqqiyə işarədir.

Azərbaycanda bu yaxınlarda korrupsiyaya qarşı mübarizə ilə bağlı qanun qəbul edilmiş və onun reallaşma mexanizmlərinin formalaşması üçün sistemli tədbirlər görülür. Qeyd olunanlar korrupsiya ilə mübarizəni daha da sürətləndirəcəkdir. Amma bu mövzu yalnız bizim ölkəyə aid deyil, ümumiyyətlə, regionu da, bütün dünyanı da narahat edən mövzudur.

Fikrimizcə, iqtisadiyyatın liberallaşması, genişmiqyaslı özəlləşdirmə, güclü müstəqil orta sinfin yaranması bu məsələnin həlli üçün ən yaxşı çıxış yoludur. Təəssüflər olsun ki, bu sahədə görülmüş inzibati tədbirlər uğur gətirmir, vəziyyəti çox dəyişmir. Ona görə də struktur dəyişiklikləri, cəmiyyətin demokratikləşdirilməsi, iqtisadi və siyasi azadlıqlar korrupsiya xəstəliyindən xilas olmağın ən yaxşı dərmanlarıdır.

Dağlıq Qarabağla bağlı problemlərin həlli üçün Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin görüşləri mütəmadi xarakter almışdır. Amma bir daha təkrar etmək istəyirik ki, **Dağlıq Qarabağ mövzusu barədə istənilən razılıq yalnız və yalnız beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipi əsasında ola bilər. Bunu hamı bilməlidir. Azərbaycanın ərazi bütövlüyü güzəştli danışıqların mövzusu ola bilməz.**

Möhtərəm Prezidentimiz məruzələrdə və mətbuat konfranslarında bəyan etdi ki, Ermənistanla aparılan danışıqların digər mövzularında, məsələn təhlükəsizlik təminatları, Dağlıq Qarabağın gələcək muxtariyyət statusu mövzularında güzəşt ola bilər. Amma ərazi bütövlüyü məsələsində heç cür güzəşt ola bilməz. Ona görə də Azərbaycan Prezidenti çıxışlarında bəyan etdi ki, bu mövzu danışıqlarda müzakirə olunmur və heç zaman da müzakirə obyektinə çevrilməyəcəkdir. Bu Azərbaycan xalqının mövqeyidir. Azərbaycan Prezidenti bu mövqeyin beynəlxalq hüquq normaları və prinsiplərinə əsaslandığını Londonda keçirdiyi görüşlərdə dəfələrlə bəyan etdi. O, çıxışlarında hər bir ölkəni bu prinsiplərə hörmətlə yanaşmağa çağırdı.

«Şahdəniz» layihəsi Azərbaycan üçün çox mühüm bir layihə-



dir. Məlum olduğu kimi, «Şahdəniz» yatağında böyük qaz ehtiyatları aşkar olunmuşdur. Hazırda yataqda iş gedir və bu işlərin maliyyələşdirilməsindən çox şey asılıdır. Bu layihədə Azərbaycan Dövlət Neft Şirkətinin payı 10 faiz təşkil edir. Şirkətə aid olan hissə bizim öz maliyyə ehtiyatlarımız hesabına ödənilirdi. Bu məqsədlə «Azəri-Çıraq-Günəşli» yataqlarının işlənilməsindən alınan gəlirdən istifadə olunurdu, maliyyə vəsaiti bunun hesabına ödənilirdi. İndi isə «Şahdəniz» yatağının işlənilməsində yeni mərhələyə qədəm qoyuruq. Ona görə də bir qədər əvvəl yatağın işlənilməsinə dair maliyyə vəsaiti ayrılması ilə bağlı Avropa Yenidənqurma və İnkişaf Bankı ilə saziş imzalandı. Gələn il Cənubi Qafqaz boru kəməri ilə bağlı tikinti işləri davam etdiriləcək və artıq 2006-cı ildə ilk qazı Türkiyəyə ixrac edəcəyik. Bu layihə 30 il üçün nəzərdə tutulubdur.

İndiyədək layihəni maliyyələşdirməklə bağlı problem olmayıbdır. Bu layihələrin banklar tərəfindən maliyyələşdirilməsinə xüsusi diqqət yetirilir. İndiyədək beynəlxalq maliyyə qurumları ilə aparılan işlərdə ciddi çətinliklər yaranmayıb və gələcəkdə də problemin olmaması üçün tədbirlər görülür.

Boru xəttinin tikintisi demək olar ki, tamamlanmaqdadır. Ən azı, Azərbaycan ərazisində işlər başa çatıb və ümid edirik ki, digər ölkələrdə - Gürcüstan və Türkiyədə də tezliklə başa çatacaqdır. Ona görə də biz bunu əsas problem kimi görmürük. Belə layihələrdə bü cür hallar baş verir və elə bilirəm ki, Bakı-Tbilisi-Ceyhan layihəsinin payçılarının hamısı öz töhfələrini verməyə hazırdırlar ki, planlaşdırdığımız, nəzərdə tutduğumuz kimi, ümumi məqsədə vaxtında çataq. İşlərin vaxtında başa çatması Ceyhan terminalından ilk nefti gələn ilin ortalarında yola salmağa imkan verəcəkdir.

Londonda baxılan sənədlərdən biri də Dəmiryolbankın və Rabitəbankın inteqrasiyası və onların səhmlərinin 20 faizinin Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən alınması haqqında Sazişin imzalanmasıdır. Bu iki bankın və onların isə AYİB ilə inteqrasiyası Azərbaycan bank sisteminin inkişafına,

onların kapitalının artmasına, rəqabət qabiliyyətinin güclənməsinə xidmət edəcəkdir. Bu inteqrasiya Azərbaycan banklarının dünya dairəsinə çıxmasına şərait yaradacaq, nüfuzu və imicinin yüksəlməsinə təsir edəcəkdir. Əgər Azərbaycan müəssisəsi və ya bankının nüfuzu beynəlxalq aləmdə yüksəlirsə, o eyni zamanda Azərbaycanın nüfuzu və reytinqinin yüksəlməsi, ölkəmizə investisiya qoyuluşlarının artımına, respublikamızın sosial-iqtisadi tərəqqisinə və xalqımızın rifahının yüksəlməsinə xidmət edəcəkdir. Biz buna əminik.



## SON SÖZ ƏVƏZİ

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı uzunmüddətli və çoxsəpkili vəzifələrin sistemlə yerinə yetirilməsini tələb edir. Bu ən əvvəl Azərbaycan iqtisadiyyatında son illər qazanılmış nailiyyətlərin qorunması və daha da inkişafına, iqtisadi proseslərə dinamizm gətirən fəallığın daha da artırılması ilə təmin oluna bilər.

Azərbaycan iqtisadiyyatı son 10 ildə sürətli inkişaf yolu keçmişdir. ÜDM istehsalı, dövlət büdcəsinin gəlirləri, sənaye və kənd təsərrüfatı məhsulları istehsalında, tikinti və rabitə sahələrində 2-7 dəfə artım təmin olunmuşdur. İqtisadiyyatda struktur dəyişiklikləri baş vermiş, ÜDM 72-75 faizi qeyri dövlət sektorunda istehsal olunmuşdur.

Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası dərinləşmiş, elmin, texnikanın, texnoloji sistemlərin, rabitə vasitələrinin, idarəetmə sahələrinin dinamik inkişafında ciddi irəliləyişlər olmuşdur.

ÜDM-in strukturunda neft və qeyri-neft sektorları arasında nisbətlər dəyişilmişdir. Dövlət büdcəsi gəlirlərinin 90-cı illərin ortalarında 55-60 faizi neft, 40-45 faizi qeyri-neft sektorunda formalaşdığı halda 2004-cü ildə 30-32 faizi neft, 68-70 faizi isə qeyri-neft sektorundan yaranmışdır. Həm də bu nisbət dəyişikliyi neft sektorunun dinamik inkişaf etdiyi şəraitdə baş vermişdir. Bu büdcə gəlirlərinin neft faktorundan asılılığının daha da azalmasına, müxalifətin tez-tez təkrarladığı «holland sindromu» təhlükəsindən uzaqlaşmağımıza şərait yaratmışdır.

**İqtisadiyyatın dinamik inkişafı nəticəsində dövlət büdcəsinin gəlirləri 1994-cü ildə 504,8 milyard manat olmuşdur. 2005-ci ildə isə dövlət büdcəsinin gəlirlərinin 9.422 milyard manatdan artıq olacağı gözlənilir. Ölkənin idxal ixrac balansında müsbət saldo yaranmış, strateji valyuta ehtiyatları 10 trilyon manatı ötüb keçmişdir. Əhalinin pul gəlirləri xərclərini üstələmiş, əmanətlərin və depozitlərin artım tempi 2005-ci ildə də sürətlə artmaqdadır. Bu ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi və hazırda reallaşmasını ölkə Pre-**

**zidenti İlham Əliyevin təmin etdiyi iqtisadi siyasətin nəticəsidir.** Bu siyasətin bəhrələrindən istifadə edən ölkə Prezidenti büdcə təşkilatında çalışanların aylıq əmək haqqını 2003 və 2004-cü ildə artırmaq haqqında bir neçə dəfə sərəncam verilmiş, pensiyaların, müavinatların, təqaüdlərin artımı sahəsində ciddi tədbirlər görmüşdür.

**Ölkə Prezidenti möhtərəm İlham Əliyev cənabları qazanılmış nailliyyətləri qoruyub saxlamaq və sosial-iqtisadi inkişafın daha da sürətlənməsini təmin etmək məqsədilə bir sıra fərmanlar vermişdir.** Həmin fərmanlarda icra müddəti göstərilən və işin nəticələri barədə məlumat verməyi tələb edən onlarla tapşırıqlar verilmişdir. Onlar istehsal, qeyri-istehsal, maliyyə, kredit, sosial-infrastruktur, idarəetmə sahələrini, insan faktorunu, onun həyatını, məişətini, sağlamlığını daha da yaxşılaşdırmaq və s. sahələrini əhatə edir. Fərmanda irəli sürülmüş istiqamətlərin seqmenti çoxdur. Onlardan biri haqqında qısaca bəhs edəcəyik.

**Fərmanların bəzisində «Azərbaycan Respublikasının Milli Bankı bank sistemində islahatların sürətlənməsinə və bank xidmətinin yaxşılaşdırılmasına dair təkliflərini 1 ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim» etmək tapşırığı verilmişdir.**

Bu bir həqiqətdir ki, büdcə-vergi və pul-kredit siyasətinin hər birinin öz orbitində fəaliyyət göstərməsi ilə iqtisadi inkişafa dinamizm gətirmək mümkün deyil. Növbəti ilin pul-kredit siyasətinin başlıca istiqamətlərini Milli Məclis 1997-ci ildən bəri görmür. Milli Bank haqqında qanunda bu barədə bir başa göstərişin olmaması əsas götürülərək həmin sənəd Milli Məclisin müzakirəsi və təsdiqinə verilmir. Bununla Milli Məclis büdcənin icrası ilə bağlı bir sıra proseslərdən – iqtisadiyyatın pul kütləsinə tələbatı, kredit qoyuluşunun məbləği, onun ÜDM-ə nisbəti, kreditlərə faiz siyasəti, manatın kursu, alıcılıq qabiliyyəti, dönərli valyutalara nisbəti, inflyasiya tempi, bank aktivlərinin, əhalinin əmanətlərinin, məcmu bank kapitalının ÜDM-ə nisbəti və s. Mühüm alətlərin sosial-iqtisadi proseslərə təsirini gücləndirən



müddəaların müzakirəsi və təhlilindən kənarda qalır.

Milli Məclisin üzvləri bu məsələlərdə konstruktiv təkliflər vermək, bu mühüm sənədə zəruri dəyişikliklər etmək, onun keyfiyyətinin yaxşılaşdırılması, iqtisadi inkişafa, xalqın rifahının yüksəlməsinə təsirini gücləndirmək üçün təkliflər vermək imkanları olmur. Növbəti ildə ümumi daxili məhsulun dövranı və dövriyyəsi üçün zəruri olan pul kütləsinin, kredit qoyuluşlarının, bütövlükdə pul-kredit siyasətinin başlıca istiqamətlərinin formalaşması və icrasında Milli Məclis müşahidəçi vəziyyətinə salınmışdır.

Hakimiyyətin qolları, onların səlahiyyətləri və məsuliyyətləri arasında balans olmalıdır. Biz Milli Bankın həm müstəqilliyini istəyir, həm də bank əməliyyatlarında şəffaflığı (bank sirri istisna olmaqla), obyektivliyi, orada qəbul olunan sənədlərin iqtisadi inkişafa, xalqın rifahının yüksəlməsinə təsirini gücləndirməyi müdafiə edirik. Lakin Milli Bankın müstəqilliyi, onun eksteritoriallığı demək deyil.

Son 8-9 ildə ölkədə yeridilən pul-kredit siyasətinin hüquqi bazası varmı? Bu illərdə müəyyən edilən pul-kredit siyasətinin başlıca istiqamətləri harada təsdiq olunub?

Bu sənəd heç bir yerdə təsdiq olunmayıb. O Milli Məclisə tanış olmaq üçün olsa belə göndərilməyib. Milli Məclis ilin ən ali maliyyə sənədini – dövlət büdcəsini müzakirə edərkən ən mübahisəli məsələlərdən biri bankların işində nöqsanlar, iqtisadiyyatın pula tələbatının ödənilməməsi, kreditlərin verilməsində neqativ hallara yol verilməsi olur. Bank fəaliyyətindəki nöqsanlar iqtisadi inkişafın tormozuna çevrilir. Onun səbəblərini müəyyən etmək və aradan qaldırılması haqqında konstruktiv təkliflər verməkdən Milli Məclisin üzvləri kənarda qalır.

Növbəti ilin dövlət büdcəsinin icrasına maliyyə təminatı yaratmalı olan pul-kredit siyasətinin başlıca istiqamətlərinin müzakirə olunmaması və təsdiq edilməməsi ilə Milli Məclis sosial-iqtisadi inkişafa, xalqın rifahının yüksəlməsinə lazımi dərəcədə təsir edə bilmir.

Həqiqətən, qeyri-müəyyən pul-kredit siyasəti iqtisadiyyatda

neqativ halların yaranmasına, pula tələbatla pul təklifi arasında nisbətlərin pozulmasına, iqtisadiyyatda pul aclığının yaranmasına səbəb olur. Pul çatışmamazlığına iqtisadi dövriyyənin reaksiyası kimi qarşılıqlı borclar, ödəməmələr, nisyələşmələr və iqtisadiyyatın dollarlaşması baş verə bilər. Respublikamızda kredit qoyuluşunun tələbatdan az, kreditlərə faizin səviyyəsi isə neqativ nəticələr verəcək dərəcədə yüksək olması deyilənlərə sübutdur.

Hazırda respublikamızda kredit qoyuluşunun ÜDM-ə nisbəti 9-10 faizdir. Bu nisbət dünya inkişaf etmiş ölkələrindən 10-15 dəfə aşağıdır. Qeyd olunanlar bank sektorunun Azərbaycan iqtisadiyyatının pula tələbatının ödənilməsində passiv rol oynadığını göstərir.

Son illər bank resurslarının artımına təsir edən meyillər xeyli güclənmişdir. Banklara qoyulan əmanətlər və depozitlər əhəmiyyətli dərəcədə artmışdır. Bank əmanətlərinin orta illik artım tempi 2000-2003-cü illərdə 35-40 faiz təşkil etmişdir. 2005-ci ilin martında əmanətlərin və depozitlərin ümumi məbləği 2 trilyon manata yaxın olmuşdur.

Büdcə təşkilatlarında çalışanların və dövlət qulluqçularının aylıq əmək haqqı son illər sürətli yüksəlişi özəl sektorda əmək haqqının artımına təsir etmişdir. Xarici firmalarda çalışan, yüksək əmək haqqı alan Azərbaycan vətəndaşlarının sayı da artmışdır.

Ölkədə dayanıqlı sosial-siyasi və iqtisadi stabilliyin mövcud olması, əhalinin pul gəlirlərinin inflyasiya tempini (2004-cü ildə inflyasiya tempi 6-7 faiz olmuşdur) qabaqlaması, əhalinin banklara qoyduğu əmanətlərə görə aldıqları dividentin vergiyə cəlb olunmaması əmanətlərin sürətli artımına stimullaşdırıcı təsir göstərdi.

Mütəxəssislərin hesablamalarına görə həmin vəsaitlər bankların məcmu kredit qoyuluşlarının 38,3 faizini təşkil edir. Onların iqtisadiyyata kredit qoyuluşu üçün istifadə edilməsi ölkədə yeni iş yerlərinin yaradılmasına, işsizlik və yoxsulluq probleminin həllinə, ÜDM istehsalının, əmtəə dövriyyəsinin, dövlət büdcəsi gəlirlərinin artımına xidmət edə bilər.

Hazırki dövrdə bank sektorunun fəal iştirakı olmadan iqtisadiyyata dinamizm gətirmək, ölkə qarşısında duran problemləri həll etmək mümkün deyil. Ölkə iqtisadiyyatının bank kreditinə ehtiyacının ödənilməsini təmin etmək üçün radikal addımlar atılmalıdır. Bu bankın öz resursları, büdcə vəsaitləri və eləcə də digər cəlb edilmiş resurslar hesabına təmin olunur. İnflyasiya tempi 7 faiz olduğu halda banklar öz resurslarını 18-21 faizlə kredit verirlər. Mikromaliyyə kreditləri isə bir ayı 3-5 faizlə, illik 36-60 faizlə verilir.

Pul-kredit siyasəti Milli Məclisdə müzakirə olunarsa, onda manatın alıcılıq qabiliyyəti, pul kütləsi ilə iqtisadiyyatın pula tələbatı arasında nisbətləri, bank kreditlərinə faiz siyasəti, onun inflyasiya tempi və iqtisadiyyatın orta rentabellik səviyyəsi ilə əlaqəsi və s. təhlil olunar, işin səmərəliliyinin yüksəldilməsinə xidmət edən əməli təkliflər verilə bilər.

Bank sisteminin inkişafı kəmiyyət dəyişmələrindən keyfiyyət dəyişmələrinə doğru getməlidir. Hazırki dövrdə bank sektorunun fəal iştirakı olmadan real iqtisadiyyata dinamizm gətirmək mümkün deyil.

Müstəqilliyimizin ilk illərində Azərbaycanda 220-dən çox bank olmuşdur. Bu bankların bəzisi müflisləşmiş, digəri nizamnamə kapitalının minimum məbləği haqqında normanı təmin edə bilmədikləri və yaxud maliyyə-təsərrüfat fəaliyyətində əyintilərə yol verdikləri üçün sıradan çıxmışlar.

2005-ci ildə Azərbaycanda 43 bank fəaliyyət göstərir. Onların 15-i xarici kapitallı banklardır. Yüz faiz xaricilərə məxsus olan 4 bank vardır. Bankların nizamnamə kapitalının minimum məbləği yeni yaradılan banklar üçün 5 milyon dollar, fəaliyyətdə olan banklar üçün isə 2,5 milyon dollardır və onlar tədricən nizamnamə kapitalının minimum məbləğini 5 milyon dollara çatdırılmalıdırlar.

Qazaxıstanda 38, Çexiyada 20, Polşada 20, ABŞ-da 2 minə yaxın, Rusiyada 3 minə yaxın bank vardır. Bankların sayı və bank aktivlərinin məbləği ilə iqtisadiyyatın onlara tələbatı arasında əlverişli nisbətlər olmalıdır. Əgər banklar həddindən çox azalarsa, bank inhisarçılığı yaranmasına, bankların iqtisadiyyata öz şərtlərini

diktə etməsinə şərait yarana bilər. Burada bankların sayından çox onların aktivlərinin ümumi məbləği, kredit vermə qabiliyyəti daha vacibdir. Kredit resursları cüzi məbləğ təşkil edən çoxlu bankların olması, yalnız neqativ hallara səbəb ola bilər.

Bankların inkişafı və onların sosial-iqtisadi proseslərdə fəallığını artırmaq üçün ən azı 3 şərt olmalıdır.

1. Əhalinin gəlirlərinə amnistiya verilməsi.

Ümummilli liderimiz Heydər Əliyev gəlirlərin leqallaşdırılmasının, xaricdən valyuta sərvətlərinin Azərbaycana gətirilməsinin sosial-iqtisadi inkişafa yönəldilməsinə tam sərbəstlik vermişdir. Sahibkar sərbəst olaraq öz qanuni valyuta sərvətlərini Azərbaycana gətirə, fəaliyyət göstərə və qazanc əldə edə bilər. Bu barədə onları sorğu-suala tutan yoxdur.

2. Bank sirrinin qorunması. Respublikamızda bank sirrinin qorunması inkişaf etmiş dünya ölkələrindəki standartlara uyğundur. Azərbaycanda yalnız məhkəmənin qüvvəyə minmiş qətnaməsi olduqdan sonra bank sirrinə müvafiq vəzifəli şəxslər girə bilərlər. Bu dünyanın sivil ölkələrində də belədir.

3. Əmanətlərin sığortalanması. Bu, Azərbaycanda indiyə kimi olmayıb. Bank sektorunun inkişafına mane olan mühüm amillərdən biri məhz budur. Doğrudur, ayrı-ayrı banklar özlərindəki əmanətlərin və depozitlərin sığortalanmasını apara bilərlər. Lakin bu bütövlükdə bank sistemini əhatə edə bilmir. Ona görə də əmanətlərin və depozitlərin sığortalanması haqqında qanuna ehtiyac vardır. Azərbaycan üçün bu qanun daha çox vacibdir. Azərbaycan əhalisinin xeyli hissəsi bir neçə dəfə aldanmış, var-yoxunu itirmişdir. Biz əslində bank olmayan, lakin Vahidbank kimi tanınan (bəzi bank funksiyalarını yerinə yetirdiyi üçün ona Vahidbank deyilirdi) cəmiyyətin, bir qrup quldur dəstəsindən olan işçilərinin xalqın külli miqdar varidatını mənimsəmələrini nəzərdə tuturuq. Bu cəmiyyət öz «fəaliyyətini» dövlət içərisində dövlətə çevrilən (Vahid bank pul nişanları, surroqatları buraxmağa başlamışdı) dərəcədə genişləndirmişdi. Ümummilli liderimiz Heydər Əliyev qarışandan sonra bu quldur dəstəsinin fəaliyyətinə son qoyuldu.



Lakin xalqın mənimsənilmiş pullarının əksər hissəsini geri qaytarmaq mümkün olmadı.

Mütəşəkkil cinayətkar qrupların, quldur dəstələrinin qarşısını almaq üçün vaxtında lazımi tədbirləri görməyən müvafiq icra hakimiyyəti orqanlarının başçılarından isə onların gözü qarşısında baş verən cinayətlərə məsuliyyət tələb edənlər olmadı. Çox təəssüf. Əgər həmin quldur dəstəsinə və o cümlədən bu qəbildən olan digərlərinə qarşı ciddi tədbirlər görülsəydi, onda belə vəziyyətin bir daha təkrar olunmamasına müəyyən qədər zəmanət yaranmış olardı.

Bu gün bank sektorunun iqtisadi inkişafı stimullaşdıran siyasət yeritdiyini demək çətindir. Buna təkcə sahə maraqlarını əsas götürən bankların kreditlərə faiz siyasəti misal ola bilər. Bu gün Azərbaycanda iqtisadiyyatın orta rentabellik səviyyəsi 13-14 faizdir. Bank kreditlərinin faizi ortalama 18-19 faizdir. Krediti 24-30 faizlə verən banklar da vardır.

Bazar iqtisadiyyatında kredit faizinin səviyyəsi pula tələbatla pul təklifi arasında nisbətdən asılı olaraq formalaşır. Lakin burada da qanunauyğunluq vardır. İqtisadiyyatın orta rentabellik səviyyəsi ilə bank kreditlərinə faizin səviyyəsi arasında optimal nisbət olmalıdır. Kreditə tələbat nə qədər yüksək olsa belə faizin səviyyəsi heç vaxt orta mənfəət normasına bərabər ola bilməz.

Respublikamızda kredit faizinin səviyyəsi mənfəət normasını 5-10 faiz üstələyir. Bu bankların real iqtisadiyyatın inkişafı ilə uzlaşmayan siyasət yeritdiyinə sübutdur.

Bankların və istehsalın hər birinin öz orbitində fəaliyyəti ilə iqtisadiyyata dinamizm gətirmək olmaz. Kreditlərə faiz dərəcəsinin iqtisadiyyatın orta rentabellik səviyyəsindən yüksək müəyyən edən banklar inkişafın tormozuna çevrilirlər.

2004-cü ilin ortalarında iqtisadiyyata qoyulmuş bank kreditlərinin ümumi məbləği 3 trilyon manatdan yuxarı olmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin hesabatına görə 2004-cü il üzrə iqtisadiyyata kredit qoyuluşunun ÜDM-ə nisbəti 8,3 faizdən 10,8 faizə yüksəlmişdir. (Azərbaycan Respublikası Nazirlər Kabi-

netinin 2004-cü ildə fəaliyyəti haqqında Hesabat. Bakı 2005. səh.38)

Azərbaycanda bu nisbət Avropa ölkələrinə nisbətən 10, 15 dəfə çoxdur. Doğrudur burada bizim bankların yaşının az (10 il), oradakı bankların isə 100-150 və daha çox olduğunu unutmamalıyıq. Lakin bankların və kredit təşkilatlarının iqtisadiyyata öz şərtlərini diktə etməsi nə gənc, nə də bir əsrlik tarixi olan banklara xeyir gətirə bilməz.

Azərbaycanda kredit qoyuluşunun 25-29 faizi uzun müddətli, 70-75 faizi isə qısa müddətli kreditlərdən ibarətdir. İqtisadiyyata, istehsala uzun müddətli kredit qoyuluşu özəl banklarda ən aşağıdır. Energetika sahəsinə bu bankların kredit qoyuluşu yox dərəcəsindədir. Risk çox, qarşılıqlı borclar çox, satışdan daxilolmalar, yığım əmsalı isə aşağı olduğundan özəl banklar iqtisadiyyatın bu sahəsi ilə demək olar ki, işləmirlər. Həmin sahə ilə işləyən yalnız səhmlərinə nəzarət zərfi dövlətə məxsus banklardır. Bu Beynəlxalq Bank və Kapital (BUS Bank)bankdır.

Tikinti, rabitə sahələrində rentabellik səviyyəsi 40-50 faiz və daha çox olduğundan özəl banklar onlarla fəal işləyirlər.

Sərfəli olmadığından real iqtisadiyyata kredit qoyuluşu cüzi məbləğ təşkil edir. Həm də 2003-cü il oktyabrın 1-nə kimi ödəmə vaxtı ötmüş kreditlər 549 milyard manat və ya ümumi kredit qoyuluşunun 25 faizini təşkil etmişlər.

Pul-kredit siyasəti Milli Məclisdə müzakirə olunmursa və təsdiq edilmirsə, onda dövlət büdcəsinin icrasına nəzarət etməli olan orqan, iqtisadiyyatın pula tələbatının ödənilməməsi ucbatından yaranan gərginliyin aradan qaldırılmasına necə təsir edə bilər? Bilməliyik ki, yalnız pul çatışmamazlığı üzündən istehsal tsiklləri pozula bilər, iqtisadiyyatda tənəzzül baş verə bilər.

**Fikrimizcə, dövlət büdcəsinin və pul-kredit siyasətinin hər birinin öz orbitində, bir-biri ilə əlaqəli fəaliyyət göstərməməsi iqtisadi inkişafa xidmət edə bilməz.**

**Milli Bankın mərkəzləşdirilmiş kredit resurslarına faizin dərəcəsini 10 faizdən 7 faizə salması respublikamızda kredit**



**faizinin aşağı salınmasını təmin edə bilmədiyindən əlavə tədbirlər görülməsinə ehtiyac yaranmışdır.**

Kredit faizinin formalaşmasına inzibati metodlarla deyil, iqtisadi üsullarla təsir edilməlidir. Pul təklifi artırılmalı, tələb-təklif nisbətlərində optimal tarazlıq yaradılmalı, faizin səviyyəsi aşağı salınmalıdır. Bu bütövlükdə pul-kredit siyasətinin formalaşma və reallaşma qaydalarında, metodlarında dəyişikliklər etməklə həll edilə bilər.

İqtisadi tənzimləmə prosesində pul-kredit aləti xüsusi rol oynayır. Dünya təcrübəsi göstərir ki, tədavüldə olan pul kütləsinin ÜDM-ə nisbəti 80 faiz təşkil etdikdə, iqtisadiyyatın pula tələbatı ödənilir. Dünya ölkələrinin əksəriyyətində iqtisadiyyatın pula tələbatını ödəmək üçün bu nisbətlərin optimallığı gözlənilir. Tələb-təklif nisbətlərində optimallıq, təsərrüfatçılıq subyekti kimi iqtisadiyyatın həm maliyyə (bank), həm də real (istehsal) sektorlarının inkişafına bərabər şərait yaradır, iqtisadi artımın sürətlənməsinə təsir edir.

İqtisadiyyatda tələbatdan artıq pul kütləsinin yaranması inflyasiya ilə, pul «aclığının» yaranması isə tənəzzüllə nəticələnə bilər. Onların hər ikisinin iqtisadiyyatda və real həyatda neqativ nəticələr verdiyi hamıya məlumdur. Ən əlverişlisi iqtisadiyyatın pula tələbatı ilə pul təklifi arasında optimal nisbətin yaradılmasıdır.

Əgər pul-kredit alətləri öz əsaslarından, real iqtisadiyyatdan ayrı salınarsa, o iqtisadi şəraitə pozucu təsir göstərən, destabilləşdirici amilə çevrilə bilər. Digər tərəfdən borc faizinin norması, istehsal dairəsində mənfəət normasını əhəmiyyətli dərəcədə üstələyərsə, onda borc kapitalının tədavül dairəsinə sahələrarası axımının baş verməsi, real iqtisadiyyatda isə kredit qoyuluşunun azalması ilə nəticələnə bilər. Qeyd olunanlar bu siyasətin dəyişdirilməsini zərurətə çevirir.

Respublikada pul-kredit siyasətinin məqsədi ilə, ona nail olma vasitələri və alətlərinin koordinasiyası təmin edilməlidir. ÜDM-in dövranı və dövriyyəsi, dövlət büdcəsinin icrası üçün çox vacib amil olan pul kütləsi ilə iqtisadiyyatın pula tələbatı arasında opti-

mal nisbət yaradılmalıdır.

Bank sahibkarlıq subyektidir. Mənfəət götürmək bank fəaliyyətinin vacib şərtidir. Lakin bankların real iqtisadiyyatın zərərinə öz mənfəətini artırmağa cəhd göstərmələri, neqativ halların yaranması ilə nəticələnir.

Təcrübə göstərir ki, regionlarda istehsalın inkişafına vergi dərəcələrinin, gömrük tariflərinin təsirinin gücləndirilməsi, pul-kredit siyasəti ilə kifayət qədər dəstəklənmədikdə iqtisadi artıma dinamizm gətirə bilmir. Həmçinin pul-kredit siyasəti iqtisadiyyatda aparılan struktur dəyişikliklərindən dəstək aldığı halda iqtisadi artıma səmərəli təsir edə bilər.

İqtisadi İnkişaf Nazirliyi yerli istehsalın inkişafının stimullaşdırılması, istehsal və sosial infrastruktur sahələrinin yaradılması, ölkəmizə investisiya axınının sürətlənməsi üçün daha fəal siyasət yeritməlidir. O, respublikamızda tələbatın strukturu, yerli istehsal və istehlakın nisbətləri və onların tənzimlənməsi sahəsində qarşıda duran vəzifələri dürüst müəyyən etməli, daxili bazara daha çox rəqabət qabiliyyətli məhsullar çıxarılması üçün fəallıq göstərməlidir.

Hazırda Qaradağ sementinin qiyməti bir neçə il bundan əvvəlkinə nisbətən 2 dəfədən çox artmışdır. Səbəbi ən sadədir. Qaradağ sement zavodu respublikanın sementə olan ehtiyacının 50 faizə qədərini ödəyir. Bir neçə kiçik həcmli mini sement zavodları isə azacıq miqdar istehsalla bazara təsir edə bilmir.

Qaradağ sement zavodu bu məhsul istehsalında respublikamızda demək olar ki, yeganədir. Bu zavod öz istehsalında inhisarçıdır. Ona görə də öz şərtlərini iqtisadiyyata diktə edə bilir. Açıq-aydın görünür ki, yeni sement zavodları yaradılmalıdır. Bu sement istehsalında rəqabətə meydan açar, qiymətlərin aşağı düşməsinə təsir edə bilər. Lakin bu bir gündə həll edilən məsələ deyildir. İnvestorlar tapılmalı və yeni sement zavodunu inşa edib işə salmaq üçün digər zəruri işlər görülməlidir. Bu xeyli vaxt və vəsait tələb edən mürəkkəb işdir.

Tezliklə nəticə əldə etmək mümkündür. Daxildə rəqabət olmadığına görə Qaradağ sement zavodunun məhsulları ilə xarici ölkələrdəki sement zavodlarının rəqabət aparmalarına şərait yaradılmalıdır. Yəni İrandan, Rusiyadan və s. respublikamıza sement idxalına şərait yaradılmalıdır. Bunun qısa müddət ərzində qiymətlərin əhəmiyyətli dərəcədə aşağı düşməsinə təsir edəcəyinə şübhə edilməməlidir. Əlbəttə bu həlledici məsələ deyildir. Başlıca məsələ daxildə istehsala rəqabət mühitinin yaradılmasıdır.

Bir tərəfdən milli istehsal xarici rəqabətdən qorunmalı, digər tərəfdən yerli istehsalın öz şərtlərini əhalimizə diktə etməsinə imkan verilməməli, qiymətlərin yüksəlməsinə yol verilməməlidir.

Ölkənin iqtisadi təhlükəsizliyini təmin edən Dövlət Gömrük Komitəsi idxal-ixrac nisbətlərinin daxili və xarici rəqabət mühitinin tənzimlənməsində, daxili bazarda idxalın xüsusi çəkisinin formalaşmasında mühüm rol oynaya bilər. Bu komitə iqtisadi (gömrük rüsumlarının dərəcəsini müəyyən etməklə, dərəcəni dəyişdirməklə, yüksəltməklə) və qeyri-iqtisadi (müəyyən mal qruplarına idxal kvotaları müəyyən etməklə) metodlarla istehsala və eləcə də qiymətlərin səviyyəsinə əhəmiyyətli dərəcədə təsir etmək imkanına malikdir.

Vergilər Nazirliyi rəsmi dövriyyədən yayınmaların qarşısını almaqla, bütün hüquqi və fiziki şəxslərin vergi qanunvericiliyinə əməl etməsini təmin etməklə dövlət büdcəsinə daxilolmaları əhəmiyyətli dərəcədə artıra bilər. Vergidən yayınmaların ÜDM-ə nisbəti mütəxəssislərin hesablamalarına görə 20 faizə bərabərdir. Bu 2005-ci ilin ÜDM göstəriciləri müqabilində 9-10 trilyon manatlıq dövriyyəyə bərabərdir.

Hazırda şadlıq evlərinin, tikinti təşkilatlarının vergidən yayınmaları kütləvi xarakter almışdır. Mütəxəssislərlə birlikdə apardığımız təhlil göstərir ki, bəzi şadlıq evlərinin il ərzində ödədikləri vergi 2-3 günlük qanunla ödəməli olduğu vergiyə bərabərdir. Misal üçün Günay şadlıq evi 2003-cü il ərzində 22.200 min manat vergi ödəmişdir. Bu şadlıq evində ən azı 400 oturacaq yeri istifadə olunur. Bir oturacaq yerinin qiyməti orta hesabla 25 dollardan ibarətdir. Biz 400-ü 25-ə vurub, onu da ƏDV-yə, 18 faizə

vurmaqla bir gündə təkcə bir vergi üzrə ödəməli olduğu məbləği müəyyən edə bilərik. 400X25X18= 1.800 dolar. Bu məbləğ 3 gün üzrə 5.400 dollar edir. Bu onu göstərir ki, şadlıq evlərinin bəzisi ilin cəmisi 2-3 gününü vergi qanunlarına əməl etməklə, ilin qalan günlərini isə tamam qeyri-qanuni fəaliyyət göstərirlər.

Ayrı-ayrılıqda İqtisadi İnkişaf Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Milli Bank və s. onlara həvalə olunmuş işləri, öz vəzifələrini inamla yerinə yetirirlər. Onların hər biri dövlət büdcəsi qarşısında öhdəliklərini lap artıqlaması ilə yerinə yetirirlər. Elə 2005-ci ilin birinci rübü üzrə dövlət büdcəsinə daxilolmalara dair proqnoz göstəricilərini Vergilər Nazirliyi 105 milyard manat, Dövlət Gömrük Komitəsi 20 milyard manatdan çox, İqtisadi İnkişaf Nazirliyi isə 700 milyon manatdan artıq yerinə yetirmişlər. Bu nazirliklər və Dövlət Gömrük Komitəsi başlıca olaraq sahə maraqları prinsipi ilə fəaliyyət göstərmiş və mükafata layiq göstəricilərə nail olmuşlar. Lakin bütün bunlara baxmayaraq ölkədə inflyasiya prosesi artmaqda davam edir. Bu xeyli dərəcədə iqtisadi idarəetmə ilə məşğul olan, göstərilən dövlət qurumlarının hər birinin öz orbitində fəaliyyət göstərmələrinin, sahə maraqları prinsipi ilə işləmələrinin məntiqi nəticəsidir.

İnflyasiyanın yüksəlməsinə yol verilməməlidir. Bu iqtisadiyyata investisiya qoyuluşlarının artımına, sosial-iqtisadi inkişafa, məşğulluq probleminin həllinə, yoxsulluğun azaldılması proqramının reallaşmasına manеələr yarada bilər.

**Vaxtilə bir qocaman iqtisadçı deyərdi ki, bir yerə yığışmış çalğıçıların hər biri öz istədiyi havanı çalarsa onda «kakafoniya» (qarmaqarışıq səs yığını) yaranar. Əgər onların hamısı dirijorun müşayiəti ilə bir havanı çalarsa onda simfoniya alınar.**

İqtisadiyyatda da belədir. İqtisadiyyatla məşğul olan müxtəlif nazirliklərin, komitələrin, şirkətlərin koordinasiya olunmuş fəaliyyəti olmadan dinamik inkişafı təmin etmək mümkün deyildir.

Deyilənlərdən iqtisadiyyata dinamizm gətirən alətlərin sahə maraqları prinsipi ilə deyil, onların sistem halında, qarşılıqlı əlaqə şəraitində fəaliyyəti ilə iqtisadiyyata dinamizm gətirməyin mümkün



olduğu aydın olur.

**Ölkə Prezidenti İlham Əliyev cənabları 24 noyabr tarixli 2003-cü tarixli Fərmanında Nazirlər Kabinetinə regionların yerli resurslarını təsərrüfatçılıq dövriyyəsinə cəlb etməklə sosial-iqtisadi inkişafa təsirini gücləndirmək tövsiyə olunur.**

Respublikanın hər bir regionunun öz xüsusiyyətləri, təsərrüfatçılıq dövriyyəsinə cəlb etmək üçün təbii-coğrafi, əmək ehtiyatları və s. sahələrdə spesifik cəhətləri vardır. Burada təkcə mərkəzi icra hakimiyyəti orqanları deyil, həmçinin yerli orqanlar, o cümlədən bələdiyyələr fəal rol oynamalıdırlar.

Bir məsələ aydındır ki, regionların inkişafı üçün hazırlanmış proqramların həyata keçirilməsi xeyli dərəcədə ölkədə yeridilən pul-kredit siyasətinin səmərəliliyindən asılı olacaqdır.

Milli valyutanın məzənnəsinin süni yollarla sabit saxlanılması və bəzən istehsalın tənəzzülü şəraitində manatın dönərli valyutaya (dollara) nisbətən məzənnəsinin yüksəldilməsi (manatın revalvasiyası) idxal mallarının rəqabət qabiliyyətinin yüksəlməsinə, milli məhsulların daxili və xarici bazarda rəqabət qabiliyyətini itirməsinə səbəb olur.

Bu gün və eləcə də yaxın perspektivdə cari əməliyyatlar üzrə aktiv tədiyyə və ticarət balansı formalaşmasına nail olmaq, iqtisadi siyasət strategiyasının mühüm istiqamətlərindən birini təşkil etməlidir. Bu faktiki olaraq Azərbaycanda məhsul istehsalının, daxildə və xaricdə reallaşmasının idxalın artımını qabaqlamasına nail olmağı tələb edir.

İstehsalın rentabelliyini təmin etmək, ən əvvəl müəssisələrin işidir. Onlar texnoloji sistemləri təkmilləşdirməli, istehsal xərclərini aşağı salmalı, daxili və xarici bazara rəqabətqabiliyyətli məhsullar çıxarmalı, marketinq fəaliyyətini bazar münasibətlərinə adekvat səviyyəyə qaldırmalıdırlar. Bütün bunlar iqtisadiyyatın maliyyə və real sektorlarının koordinasiyası təmin edildiyi şəraitdə müsbət nəticələr verə bilər.

Bir tərəfdən ixracı stimullaşdırmaq, digər tərəfdən yeridilən pul-kredit siyasəti ilə ona antistimul yaratmaqla idxal-ixrac balan-

sında respublikanın mənafeyinə uyğun meyillərin formalaşmasına nail olmaq mümkün deyil. Bu iqtisadi siyasətin müxtəlif komponentlərinin, ən əvvəl pul-kredit siyasəti ilə büdcə-vergi, qiymət, tarif siyasətinin ən əlverişli koordinasiyasını təmin etməyi tələb edir.

Daxili bazarın idxaldan asılılığının hansı sosial-iqtisadi nəticələr verdiyi məlumdur. Ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin olunmasına məsuliyyətimizi anlamalıyıq. Biz ölkəmizin sosial-iqtisadi inkişafını təmin etməli olan iqtisadi vasitələrdən - büdcə-vergi, qiymət, tarif, pul-kredit alətlərindən maksimum səmərəli istifadə etməli, yeridilən siyasətin ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasına təsirini gücləndirməliyik.

Fikrimizcə, biz **məcmu tələbin artımını stimullaşdıran pul-kredit siyasətinə keçməliyik**. Həm də bu, inflyasiyanın artımına, qonşu ölkələri bürümüş maliyyə böhranının respublikamıza təsirinə yol vermədən edilməlidir. Bu idarə olunan, ölkənin makroiqtisadi və makromaliyyə sisteminin inkişafına xidmət edən, sosial-iqtisadi inkişafa dinamizm gətirən pul-kredit siyasəti olardı.

Ədalət naminə qeyd etməliyik ki, iqtisadiyyatda olan problemlərin hamısını pul-kredit siyasətinin «ayağına yazmaq» olmaz. Başlıca vəzifəsi manatın stabilliyini təmin etmək olan Milli Bank öz vəzifəsini yerinə yetirdikcə makromaliyyə sabitliyinin yaratdığı əlverişli şəraitdən hökumət fəal istifadə etməli, iqtisadi siyasətin digər komponentlərinin inkişafa təsirini gücləndirməlidir. Konkret olaraq iqtisadi islahatların dərinləşməsi təmin edilməli, real iqtisadiyyatla maliyyə sektorunun koordinasiya olunmuş fəaliyyəti təmin edilməlidir.

Respublikamızın hazırki reallığına adekvat pul-kredit siyasəti formalaşdırmağı dövlətin, xalqın mənafeyi tələb edir. İqtisadi siyasətin tərkib hissəsi kimi pul-kredit siyasətinin formalaşmasında sahə maraqları, ayrı-ayrı çinovniklərin biznes maraqları deyil, dövlətin, xalqın marağı əsas götürülməlidir.

**Heç bir biznesin marağı dövlətin, xalqın marağından üstün ola bilməz. Öncə Vətəndir, öncə dövlətdir, öncə xalqımızdır.** Bu şüar deyil, fəaliyyətimizin başlıca prinsipinə çevrilməlidir.



Məlum olduğu kimi milli valyutanın kursunun stabilliyi, əgər belə demək mümkünsə, dollarla satın alınır. Bu MDB ölkələrinin demək olar ki, hamısında belədir.

Respublikamızda da manatın məzənnəsinin stabil saxlanmasına hər il xeyli miqdar vəsait sərf edilir. Manatın məzənnəsinin stabil saxlanmasına göstərilən cəhdlər, müəyyən həddən sonra neqativ nəticələr verə bilər. İxrac olunan malların qiyməti yüksələr, idxal mallarınınsa qiymətləri aşağı düşər.

Milli məhsullarımızın əksəriyyətinin maya dəyəri idxal olunmuş eyni məhsulların bazar qiymətini 1,5-2 dəfə üstələyir. İdxal mallarının qiymətləri ucuz olduğundan rəqabət qabiliyyəti yüksəlir və milli istehsal məhsullarının daxili bazarda reallaşması çətinləşir, yerli istehsalın inkişafına göstərilən cəhdlər maneələrlə qarşılaşır.

Müvafiq icra hakimiyyəti strukturlarının həyata keçirdikləri pərakəndə tədbirlər inflyasiya tempinə, milli məhsulların qiymətinə, rəqabət qabiliyyətinə, yerli istehsalın inkişafına mənfi təsir göstərdiyi nəzərə alınmalıdır.

Respublikamızda elektrik enerjisinin xeyli hissəsi təbii qazdan istifadə etməklə yaradılır. Təbii qazın pərakəndə satış qiyməti 2004-cü ilin sonu 2005-ci ilin əvvəlində 3 dəfədən çox artırıldı.

İcra strukturları ağır zəhmət, sistemli iş aparmağı tələb edən yığım əmsalını yüksəltməklə məşğul olmaq əvəzinə, asan yol seçdilər. Qazın qiymətini 3 dəfə qaldırmaq inflyasiya ilə nəticələndi. Bu zəncirvari reaksiya yaratdı – istehsal olunan məhsulların maya dəyəri və qiyməti yüksəldi, rəqabət qabiliyyəti aşağı düşdü, reallaşma problemləri yarandı və s. Bu yerli istehsalı ağır zərbə oldu. Bəzi istehsal sahələrinin maliyyə-təsərrüfat vəziyyəti kəskin şəkildə pisləşdi.

Manatın stabilliyi təkcə valyuta müdaxiləsi ilə deyil, həmçinin ölkənin daxili imkanlarını işə salmaq hesabına təmin olunmalıdır.

Qiymətlərin stabilliyi iqtisadiyyatın inkişafı və xalqın rifahı üçün olduqca vacibdir. Lakin o məqsədə çevrilməməlidir. Məqsəd iqtisadiyyatın inkişafı və xalqın rifahının yüksəldilməsidir.

**Fikrimizcə, iqtisadiyyatın inkişafını, qiymətlərin stabil sax-**

**lanmasına qurban vermək olmaz. Çünki qiymətlərin stabilliyi ilə yanaşı, xalqa iş yerləri, vaxtında və müntəzəm ödənilən əmək haqqı da lazımdır. Başqa sözlə stabil qiymətlər həyat səviyyəsinin yüksəlməsinin maddi əsasını təşkil edən iqtisadi inkişafla, məşğulluğun artması, daha yüksək əmək haqqı verilən yeni iş yerlərinin yaradılması ilə müşayiət olunmalıdır.**

2005-ci il fevralın 1-də respublikamızdakı əhalinin 46,5 faizi və yaxud 3.823 min 700 nəfəri iqtisadi fəal əhalini təşkil edir. İqtisadi fəal əhalinin 56 min nəfəri məşğulluq xidmətində işsiz statusu almış şəxslərdir. İşsizlərin sayının rəsmi qeydə alınanlardan xeyli çox olduğuna şübhə edilməməlidir.

İşsizliyin səviyyəsi iqtisadiyyatın düzgün fəaliyyət göstərmədiyinə, əmək qabiliyyətli əhalinin xeyli hissəsinin yeni iqtisadi sistemə inteqrasiyasının təmin olunmadığına sübutdur. İşsizlərin sayının azaldılması iqtisadi idarəetmə orqanlarının başlıca vəzifəsidir. Bu vəzifə pul-kredit, büdcə-vergi, qiymət, tarif siyasətinin koordinasiyasının təmin olunduğu şəraitdə yerinə yetirilə bilər.

İqtisadi siyasətin bütün komponentlərinin koordinasiya olunmuş təsirini təmin etmədən təkcə valyuta bazarına Milli Bankın dollarla müdaxiləsi hesabına inflyasiyanı sıfıra endirməklə iqtisadi inkişafa dinamizm gətirməyin mümkün olmadığını dərk etməliyik.

Manatın real məzənnəsinin müəyyən olunmasında lazımi dərəcədə çevik siyasətin yeridilməməsi ixracatın səmərəliliyini aşağı salır, ölkənin külli miqdarda valyuta ehtiyatlarını manatın məzənnəsinin süni sürətdə yüksək səviyyədə saxlanılmasına sərf edilir. Nəyin bahasına olursa-olsun manatın kursunun stabil saxlanmasına göstərilən cəhd, pul kütləsinin həcminə və dinamikasına təsir edir, pula tələbatla pul təklifi arasında nisbətlərin iqtisadi reallıqdan və məqsədəuyğunluqdan kənarlaşmasına səbəb olur.

Fikrimizcə, manatın kursunu müəyyənləşdirən bütün faktorlar nəzərə alınmalıdır. Öncə rəqabət qabiliyyətli milli istehsalın inkişafı, iqtisadi cəhətdən özünü doğruldan üsullarla daxili bazarda yerli istehsalçıların müdafiəsinin təmin edilməsi, tədiyyə balansının vəziyyəti, rəsmi valyuta ehtiyatlarının pul kütləsinə nisbətinin



tənzimlənməsi və s. vacib məsələlərin həllinə diqqət artırılmalıdır.

İnflyasiya tempini valyuta müdaxiləsinin, qarşılıqlı borcların, ödəməmələrin və s. artımı hesabına aşağı salmaq, fikrimizcə, qarşıya qoyulmuş vəzifələri reallaşdırmağa xidmət edə bilməz.

Bir tərəfdən iqtisadi inkişafa söykənən manatın alıcılıq qabiliyyətinin stabilliyi təmin edilməli, digər tərəfdən inflyasiya tempini aşağı salmağın iqtisadi inkişafla müşayiət olunmasına şərait yaradan pul-kredit siyasəti yeridilməlidir.

Dünyanın inkişaf etmiş ölkələrində iqtisadiyyata dinamiz gətirilməsində banklar olduqca mühüm rol oynayırlar. Dünya təcrübəsi etibarlı bank sistemi və əlverişli faizlərlə kreditlər olmadan iqtisadiyyata dinamizm gətirməyin qeyri-mümkün olduğuna sübutdur. Ona görə də dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrində real iqtisadiyyatla bank sektoru arasında ən əlverişli nisbətlər yaradılmasına üstünlük verilir. Orada bank kreditlərindən ölkənin sosial-iqtisadi inkişafı üçün səmərəli istifadə olunur. Bu ölkələrin bankları iqtisadiyyatının kreditləşdirilməsində çox böyük rol oynayırlar.

**Bank kreditlərinin iqtisadi inkişafda rolunu artırmaq üçün daha səmərəli pul-kredit siyasəti yeridilməsi vacibdir. Hazırda kredit faizləri ilə inflyasiya tempi və müəssisələrin rentabellik səviyyəsi arasında ən əlverişli nisbət təmin edilməlidir. Onsuz maliyyə sektorunun real iqtisadiyyatın inkişafına fəal təsirini təmin etmək, iqtisadiyyata dinamizm gətirmək mümkün deyildir.**

Struktur islahatlarının aparılmasında ləngimələr aradan qaldırılmalıdır. Onsuz stabilləşmədən dinamik iqtisadi artıma keçidi təmin etməyin qeyri-mümkün olduğunu hamımız dərk etməliyik.

**Azərbaycan iqtisadiyyatının profilini bazar münasibətləri prinsiplərinə uyğunlaşdırmaq sahəsində işlərin olduqca ləng aparılması iqtisadiyyata dinamizm gətirməyə ciddi maneələr yaradır. Hazırda respublikamızda elə istehsal sahələri, müəssisələr vardır ki, onların yenidən qurulması və modernləşdirilməsinə vəsait sərf etməyə dəyməz.**

**Belə müəssisələrə aid elektrotexnika, kimya, metallurgiya kompleksindən və s. kifayət qədər misallar gətirmək olar.**

**Hazırda bir sıra müəssisələrin profilinin dəyişdirilməsi, respublikamız üçün iqtisadi səmərəlilik nöqteyi nəzərindən prioritet xarakter daşıyan sahələrin müəyyən edilməsi olduqca vacibdir.**

Hazırda yerli xammal əsasında işləyən və respublikamızda geniş bazarı olan, rəqabətqabiliyyətli məişət, tikinti materialları, avadanlıqları, yeyinti məhsulları istehsal edən kiçik və orta müəssisələrin yaradılmasına üstünlük verilməsi məqsədəuyğun olardı. Belə müəssisələrə sərf olunan vəsaitin qısa müddətdə səmərə verəcəyi realdır.

Ölkədə yaşayış binaları, mədəni-məişət obyektləri tikintisinin geniş vüsət aldığı göz qabağındadır. Onların tikilib istifadəyə verilməsi üçün zəruri olan əksər material və avadanlıqların yerli istehsal sahələrində hazırlanması mümkündür.

Bazar münasibətləri şəraitində dövlət Azərbaycan iqtisadiyyatının prioritet sahələrini müəyyən etməli, mövcud və gələcəkdə yaradılacaq müəssisələrin profilini ölkənin maraqlarına uyğun formalaşmasını təmin etməlidir. Fikrimizcə, bu Azərbaycan iqtisadiyyatına dinamizm gətirməyin qlobal istiqamətlərinin müəyyən edilməsinin mühüm şərtlərindən biridir. Bu məqsədlə:

- birincisi, hazırda daxili bazarda mövqeyi möhkəm, güclü dinamik inkişaf imkanına malik, lakin dövriyyə kapitalı çatışmadığından, qarşılıqlı borclar və digər səbəblər üzündən potensialını reallaşdıra bilməyən müəssisələr;
- ikincisi, yerli xammal ehtiyatlarına əsaslanan, başlıca olaraq daxili bazar üçün işləyən, rəqabətqabiliyyətli və yüksək sürətli dövriyyə kapitalına malik müəssisələr;
- üçüncüsü, iqtisadi artım potensialı yüksək, hazır məhsullarını daxili və xarici bazarda reallaşdırmaq imkanı olan müəssisələr müəyyən edilməlidir.

Dövlət iqtisadi, hüquqi, siyasi və s. alətlərlə, ilk növbədə maliyyə-bank sferasının bazar iqtisadiyyatına adekvat prinsiplərlə inkişafına şərait yaratmalıdır. İndi bank sisteminin yüksək inflyasiya dövründən tamamilə fərqli modellə, ən əvvəl holdinqlər və maliyyə-sənaye qrupları formasında inkişafı təmin edilməlidir.



Dövlət milli və xarici biznesin inkişafına maksimum şərait yaradılmasına xidmət etməli, yerli istehsalın inkişafına himayədarlıq, ölkəyə xarici investisiyaların cəlb edilməsi arasında balans yaradan iqtisadi siyasət yeritməlidir. Unudulmamalıdır ki, xarici investorları cəlb etmək hazırki dövrdə dünya rəqabət mübarizəsinin mühüm sahəsinə çevrilmişdir.

**Ölkə Prezidentinin aktiv fəaliyyəti, operativ xarici siyasət yeritməsi ölkəmsizə xarici investorları cəlb etməklə yanaşı, daxili investisiya imkanlarından maksimum səmərəli istifadə etməyə diqqəti artırmalıdır.**

**Əhalinin manat ekvivalentində əmanətləri 2004-cü ildə bir trilyon manatdan artıq olmuşdur.** 2005-ci ildə bu temp davam etməkdədir. Bu əmanətlərdən də investisiya qoyuluşu üçün səmərəli istifadə etmək imkanları nəzərə alınmalıdır. Əhalinin banklara inamını bərpa etməklə onların banklarda saxladıqları əmanətlərini artırmaq və həmin vəsaitləri investisiyaya yönəltmək üçün intensiv iş aparılmalıdır.

Mütəxəsislərin fikrincə əhalidə olan pul ÜDM-in 17-18 faizini təşkil edir, yəni dövlət büdcəsinin mədaxilinə bərabərdir. Rusiyada bu 30 faiz təşkil edir, yəni dövlət büdcəsi mədaxilindən 2 dəfəyə yaxın çoxdur. Təbii olaraq sual meydana çıxır, nə üçün əhalinin xeyli hissəsi öz sərbəst pul vəsaitini investisiyaya yönəltməklə qazanmaq əvəzinə, evdə saxlamağa və çox riskli «çelnok» əməliyyatlarından istifadə etməyə cəhd göstərirlər? Burada əhalinin gəlirlərinin, ilkin kapital yığımının qanunvericiliklə leqallaşdırılması vacibdir. Onsuz əhalidəki sərbəst pulların təsərrüfatçılıq dövriyyəsinə cəlb olunması mümkün deyil.

**İqtisadiyyatın maliyyə problemlərinin həllində sığorta şirkətlərinin rolu əhəmiyyətli dərəcədə artırıla bilər. Azərbaycanın sığorta təşkilatlarına sığorta olunanlardan yığılanla (sığorta haqqı) sığorta ödənişləri arasında fərq 1997-ci ildə 45.292 min manat, 1998-ci ildə 45.543 min manat, 1999-cu ildə 47.452 min manat olmuşdur. Bu fərq, yəni sığorta olunanlardan yığılanla (sığorta haqqı) sığorta ödənişləri arasındakı fərq**

**2004-ü ildə 11,6 milyard manat olmuşdur. 1999-cu ildən 2004-cü ilə kimi bu fərqin artımı 100 dəfədən çox artmışdır.** Doğrudur, həmin vəsaitin bir hissəsi sığorta təşkilatlarının ehtiyacları üçün istifadə olunur. Sığorta təşkilatlarının xalis mənfəətindən investisiya qoyuluşu üçün səmərəli istifadə edilməsi imkanlarının reallaşması təmin edilməlidir.

Sığorta təşkilatlarının Azərbaycandan yığdıqları pulların yerli istehsalın maliyyələşdirilməsinə yönəldilməsini təmin etmək üçün radikal tədbirlər görülməlidir.

**Azərbaycanda Lizinq kampaniyalarının işinin canlandırılması, onların fəaliyyətinə zəruri şəraitin yaradılması respublikamızda kiçik və orta sahibkarlığın inkişafına əlavə şərait yarada bilər. Bu, xüsusilə maliyyə imkanları kifayət qədər olmayan, kiçik və orta müəssisələrin nisbətən az vəsait sərfi ilə daha çox və səmərə əldə etmələrinə xidmət edə bilər.**

Tədiyyə qabiliyyətli tələbatın genişləndirilməsi, iqtisadiyyatın vergi yükünü iqtisadi imkanlar yarandıqca azaldılmalıdır. Misal üçün, fiziki şəxslərin gəlir vergisinin yuxarı həddinin 35 faiz olması bir sıra neqativ nəticələr verir. Biz onun dəyişdirilməsi barədə düşünürük.

Fikrimizcə, yeni işə salınan istehsal müəssisələrinin məhsul buraxılışına başladığı andan sərhəd rayonlarında 5 il, digər rayonlarda isə 2 il müddətinə mənfəət vergisindən azad olunması məqsədəuyğun olardı. Hesab edirik ki, təbii inhisar subyektləri qiymətlərinin dövlət tənzimlənməsinə diqqətin artırılmasını, qarşılıqlı borclar probleminin həllinin sürətlənməsi vacibdir.

İqtisadiyyatın pula tələbatının ödənilməsi bank kreditlərinə faizin dərəcəsinin inflyasiya tempi və müəssisələrin rentabellik səviyyəsi ilə əlaqələndirməsi və s. iqtisadi artıma dinamizm gətirməyə xidmət edər. Burada ayrı-ayrı pərakəndə addımlar deyil, elmi cəhətdən əsaslandırılmış tədbirlərin sistemlə həyata keçirilməsi, iqtisadiyyata dinamizm gətirmək üçün yaranmış şansın reallaşması təmin edilməlidir.

Bu gün kapital qoyuluşunun 90 faizə qədəri Bakı-Abşeron iqtisadi zonasında cəmləşmişdir. İnvestorların respublikanın rayonlarına axınını təmin etmək üçün bu regionlarda investisiya qoyuluşunu stimullaşdıran əlavə tədbirlər görülməsini tələb edir.



Hesab edirik ki, respublikamızın regionlarında xüsusilə emal sənayesinin inkişafını təmin etmək və qısa müddətdə səmərə əldə etmək üçün geniş imkanlar vardır. Onların yaranması və fəaliyyət göstərməsi üçün əlavə şərait yaradılmalıdır.

Dövlət bir neçə iri müəssisənin bərpası və inkişafı proqramlarını hazırlamaqdadır. Əgər biz 40-a yaxın iri müəssisənin işə salınmasını təmin edə bilsək, onların zəncirvarı reaksiya verməsinə və bütövlükdə iqtisadiyyatın inkişafına nail olmaq olar. Bu neft sektorunun güclü ixrac alternativini yaratmağa imkan verər, iqtisadiyyatının neft sektorundan asılılığını aradan qaldırmağa şərait yaradar.

Ölkə Prezidentinin fərmanları, sərəncamları və Dövlət Proqramları ölkənin sosial-iqtisadi inkişafını sürətləndirməyin təkcə başlıca istiqamətləri və məqsədlərini deyil, həm də ona çatmağın yollarını müəyyən edir. Bu sənədlərdə icra strukturlarına konkret tapşırıqlar verilir. Hazırda ayrı-ayrı nazirliklər, Dövlət Komitələri, idarə və təşkilatlar bu sənədlərdə irəli sürülən vəzifələrin icrasına başlamışlır.

Son dövrdə verilmiş fərman və sərəncamların leytmotivini koordinasiya olunmuş təsirin iqtisadi inkişafa dinamizm gətirməsi üçün tədbirlər görmək tövsiyə olunur. Bir-biri ilə uzlaşmayan, biri digərini tamamlamayan, pərakəndə həyata keçirilən tədbirlərlə iqtisadiyyata dinamizm gətirməyin mümkün olmadığı bu sənədlərdə ciddi olaraq bildirilir.

Təcrübə göstərir ki, yerli istehsalın inkişafına vergi dərəcələrinin, gömrük tariflərinin təsirinin gücləndirilməsi pul-kredit siyasəti ilə kifayət qədər dəstəklənmədikdə iqtisadi artıma dinamizm gətirə bilməz. Həmçinin pul-kredit siyasəti iqtisadiyyatda aparılan struktur dəyişikliklərindən dəstək aldığı halda iqtisadi artıma səmərəli təsir edə bilər. Deyilənlərdən iqtisadiyyata dinamizm gətirməli olan alətlərin sahə maraqları prinsipi ilə pərakəndə halda öz orbitində fəaliyyəti ilə deyil, sistem halında, qarşılıqlı əlaqə şəraitində fəaliyyəti ilə iqtisadiyyata dinamizm gətirməyin mümkün olduğu aydın olur.

## MÜNDƏRİCAT

Ön söz ........................................................................ 3

I Fəsil. Heydər Əliyev, iqtisadi strategiyanın əsasları
1.1. Heydər Əliyev strategiyası, Azərbaycanın siyasi və iqtisadi xilası ........................................................................ 14
1.2. Heydər Əliyev strategiyası - zəngin və qüdrətli dövlət yaratmağın hüquqi və iqtisadi əsasları ........................................ 36
1.3. Heydər Əliyevin strategiyasına - stabillikdən davamlı və dinamik inkişafa keçid ................................................ 53

II Fəsil. Heydər Əliyev strategiyasına varislik və inkişafın yeni keyfiyyət halı
2.1. İlham Əliyev Azərbaycanı güclü, demokratik ölkəyə çevirmək strategiyasının davamçısıdır .................................... 71
2.2. Azərbaycan: müstəqil, hüquqi, demokratik dövlət quruculuğu ........................................................................ 79
2.3. Prioritetlərin dürüst müəyyən edilməsi ................................ 91
2.4. İqtisadiyyat, siyasət, peşəkarlıq və yeni düşüncə ............... 101
2.5. Siyasi mübarizəni siyasi oyuna çevirmələr ........................ 108

III Fəsil. Çoxsahəli iqtisadi inkişaf və koordinasiya
3.1. Neft məqsəd yox, çoxsahəli güclü iqtisadiyyat yaratmaq .. 115
3.2. Regionların sosial-iqtisadi inkişafını sürətləndirmək ......... 125
3.3. İqtisadiyyata dinamizm gətirməyin vacib şərtləri – sistemlilik və koordinasiya ............................................ 143
3.4. İqtisadi idarəçiliyin təkmilləşdirilməsində şəffaflıq və koordinasiya ........................................................................ 149

IV Fəsil. İlham Əliyev, iqtisadi inkişafın maliyyə əsasları
4.1. Dövlətin iqtisadi siyasəti büdcə vasitəsi ilə reallaşdırılır ... 162
4.2. Büdcə-vergi siyasətinin əsası – iqtisadi artımı stimullaşdırmaq və büdcə gəlirlərini artırmaq .................. 170
4.3. Reallığa əsaslanan 2002-ci ilin dövlət büdcəsi və onun icrası ........................................................................ 187
4.4. 2003-cü il dövlət büdcəsinin fərqləndirici xüsusiyyətləri . 209
4.5. Qanunvericiliyin tələblərinə riayət etmək büdcə prosesinin səmərəliliyini yüksəltməyin zəruri şərtidir ...... 224

V Fəsil. İqtisadi inkişafa dinamizm gətirməyin maliyyə vasitələri
5.1. İlham Əliyev, büdcə vəsaitlərindən istifadənin səmərəliliyinin yüksəldilməsi yolları ................................ 262
5.2. Dövlət büdcəsi 2004-cü il - makroiqtisadi göstəricilər ..... 270
5.3. 2004-cü ildə dövlət büdcəsi xərclərinin reallaşma istiqamətləri ........................................................................ 277
5.4. Büdcə 2005-ci il: xüsusiyyətlər və dinamika ...................... 309
5.5. Dövlət Sosial Müdafiə Fondunun 2004 və 2005-ci il büdcəsi aztəminatlılara dövlət qayğısının artımı ............. 343
5.6. İlham Əliyev Azərbaycanı dünyanın ən dinamik inkişaf edən ölkəsinə çevirir ................................................. 359

VI Fəsil. İqtisadi və sosial inkişafın yeni keyfiyyət halı
6.1. Büdcə gəlirlərini artırmaq imkanları ................................ 374
6.2. Yerli istehsalın stimullaşdırılması: problemlər və perspektivlər ........................................................................ 390
6.3. Vergi siyasətinin təkmilləşdirilməsinin əsas istiqamətləri ........................................................................ 396
6.4. Qanunun aliliyi, stabil sosial-iqtisadi inkişafın əsası ........ 425
6.5. Fəaliyyətimizə qiymətin meyarı: biznesmen və yaxud yüksək vəzifəli dövlət məmuru ........................................ 441
6.6. Beynəlxalq iqtisadi inteqrasiyanın daha da dərinləşməsi iqtisadiyyata dinamizm gətirməyin vacib şərtidir ............ 462
Son söz əvəzi ........................................................................ 481

**Səttar Səfərov**

**Heydər Əliyev kursu yeni keyfiyyət halında: «İqtisadiyyat, siyasət, dinamizm, problemlər, perspektivlər»**

Yığılmağa verilib 01.07.2005. Çapa imzalanıb 15.08.2005.
Kağız formatı 60x84 1/16. Uçot- nəşr vərəqi 31,5.
Ofset çap üsulu. Sifariş № 651. Tiraj 300 ədəd.
Qiyməti müqavilə yolu ilə.

«Zaman-3» EİKM-in mətbəəsində çap olunmuşdur.
Ünvan: Babək prospekti, 2360-cı məhəllə, tel.: 470 55 65

Ф3(2А)
S42

